FƏRRUX RÜSTƏMOV

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN PROFESSORLARI

Bakı - 2021

Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar ocağına çevrilmişdir.

Heydər Əliyev
Azərbaycan xalqının ümummilli lideri

Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Dövlət Pedaqoji Universitetinin
100 illik yubileyinə həsr olunur

Layihənin rəhbəri və
ön sözün müəllifi: **Cəfər Cəfərov**
ADPU-nun rektoru,
tarix elmləri doktoru, professor

Elmi redaktor: **Asəf Zamanov**
ADPU-nun elm və innovasiyalar
üzrə prorektoru, fizika-riyaziyyat
elmləri doktoru, professor

Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları.
Bakı, ADPU, 2021, 544 s.

Kitabda Azərbaycan Dövlət Pedaqoji Universitetinin bir əsrlik tarixi onu yaradan, inkişaf etdirən və sabaha aparan alimlərin – SSRİ EA-nın, SSRİ PEA-nın, AMEA-nın həqiqi və müxbir üzvlərinin, elmlər doktoru və professorların simasında təqdim edilir.

Kitab tələbələr, müəllimlər və tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-8427-3-9

©F.A.Rüstəmov 2021

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ildə respublikamızın ilk ali pedaqoji təhsil ocağının – Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir. Azərbaycanın tanınmış ictimai, elm və mədəniyyət xadimləri arasında Universitetin çox sayda məzunları vardır.

İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksək ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr yetişdirilməsi sahəsində mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 aprel 2021 -ci il

AZERBAYCAN DÖVLƏT PEDAQOJİ
UNİVERSİTETİ
AZERBAIJAN
STATE PEDAGOGICAL
UNIVERSITY

Cəfər Cəfərov
ADPU-nun rektoru,
tarix elmləri doktoru, professor

ADPU-nun elmi - pedaqoji elitası
(Ön söz)

Hər bir ölkənin sosial-iqtisadi inkişafı, hərbi qüdrəti, dünya birliyindəki yeri və rolu onun elmi potensialı ilə bilavasitə bağlıdır. Məhz buna görə Azərbaycan Respublikası elm və təhsili dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirərək, həmin sahələrin inkişafına xüsusi diqqət yetirir.

Əsrlər boyu Azərbaycan alimləri elmin müxtəlif sahələrində əldə etdikləri nailiyyətləri ilə bəşəriyyətin yüksəlişinə dəyərli töhfə vermişlər. Ölkəmizdə təhsil-tərbiyə mədəniyyəti qədim dövrlərdən formalaşmış, böyüyən nəsillərə zəruri həyati bacarıqların aşılanması mühüm fəaliyyət növlərindən biri hesab olunmuşdur.

Tarixən Azərbaycanda təhsilə praktik fəaliyyət üçün gərəkli olan biliklərin, müvafiq bacarıq və səriştələrin məcmusu kimi baxılıb. Uşaqlar, hər şeydən əvvəl, valideynlərin nümunəsində tərbiyə edilirdi. Sonrakı dövrlərdə təbəqələşmə və sosial ziddiyyətlərin artması təhsil-tərbiyənin xarakterini də dəyişdi, bu sahədə kollektiv ənənələrin, yəni məktəblərin yaranmasına səbəb oldu.

Cəmiyyətin inkişafının müəyyən mərhələsində meydana gələn məktəb sonrakı dövrlərdə nisbi müstəqillik kəsb etməklə yanaşı, həm də tərəqqinin

və mədəni yüksəlişin başlıca amilinə çevrildi. Azərbaycanın cənubunda zərdüşt, şimalında – Albaniyada isə xristian məktəbləri yarandı.

Orta əsrlərdə islam mədəniyyəti Avropa mədəniyyətini xeyli qabaqladı, islamın yayıldığı ərazilərdə, o cümlədən Azərbaycanda zəngin təhsil ənənələri formalaşdı. Evlərdə, məscidlərdə ilk müsəlman məktəbləri təşkil olundu. Az sonra orta və yüksək təhsil verən mədrəsələr açıldı. Azərbaycan xalqı özünün yüksək maddi və mənəvi mədəniyyətini yaratmaqla Şərq, habelə dünya mədəniyyətini xeyli zənginləşdirdi.

IX əsrdə Bağdadda Beytülhikmət və Darülhikmət kimi elmi müəssisələrin təsiri ilə Azərbaycanda da yüksək səviyyəli elm və təhsil ocaqları formalaşdı ki, onlardan biri Şirvan Elmlər Akademiyası[1] idi. XI əsrdə yaradılmış həmin akademiya haqqında 1953-cü ildə Parisdə nəşr edilmiş elm tarixi ensiklopediyasında, Şərqdə elmin inkişafına dair məqalədə bəhs edilir. Verilən məlumatdan aydın olur ki, akademiyada bir sıra elmlər, xüsusilə farmokologiya, tibb, astronomiya, riyaziyyat, musiqi, sərf-nəhv, məntiq və fəlsəfə inkişaf etdirilirdi.

Alp Arslanın hakimiyyəti illərində onun vəziri Nizamülmülkün təşəbbüsü ilə bütün iri şəhərlərdə açılan və orta əsrlərin ilk universiteti sayılan "Nizamiyyə" mədrəsələrinin (ilk mədrəsə 1067-ci ildə açılıb) təsiri ilə XIII əsrin əvvəllərində Təbriz, Marağa, Xoy, Səlmas, Urmiya, Mərənd, Ərdəbil, Bərdə, Gəncə, Beyləqan, Naxçıvan, Bakı və Şəki şəhərlərində mədrəsələr yarandı[2]. Struktur etibarı ilə Qərb universitetləri ilə eyni olan mədrəsələr mütərəqqi elm, təhsil və mədəniyyət ocağı idi. Buna misal olaraq "Şənb-e Qazan", "Rəb-e Rəşidi" və "Sultaniyyə" mədrəsələrinin adını çəkmək olar[3]. "Şənb-e Qazan" təhsil kompleksi - məscid, xanəgah, iki mədrəsə, dar-üş-şəfa, rəsədxana, kitabxana, kitabları və rəsədxana cihazlarını təmir etmək üçün emalatxana, məktəbxana, körpələr evi, mədəni-məişət ocaqları və müdiriyyətin evindən ibarət idi[4]. "Rəb-e Rəşidi" təhsil kompleksi universitet şəhərciyi tipində idi. 7 min tələbənin təhsil aldığı kompleksdə din, fəlsəfə, təbiət, nücum və tibb şöbələri var idi.

Orta əsr mədrəsələrinin zəngin maarifçilik mühitində Nizami, Xaqani, Nəsimi və Füzuli kimi mütəfəkkir şairlər, Bəhmənyar, Seyid Yəhya Bakuvi, Əbdülrəşid Bakuvi, Nəsirəddin Tusi, Sührəverdi, Urməvi, Şəbüstəri, Xətib

---

[1] ***Mehrəliyev E.*** *Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər).Bakı: Çaşıoğlu, 2000,s.5.*

[2] ***Əhmədov H.****Azərbaycan məktəb və pedaqoji fikir tarixi .Bakı:"Elm və təhsil", 2014, s.32*

[3] ***Yəqubi Ə.*** *Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi. Bakı: Nurlan, 2005,s.76*

[4] ***Muradov S. Azərbaycanda 700 illik təhsil ocağı.*** *Bakı: Çaşıoğlu, 2008*

Təbrizi kimi filosof və elm nəhəngləri, Əcəmi (memar), Behzad (rəssam) kimi mədəniyyət dahiləri yetişdi. XVI əsrdə Azərbaycanda Səfəvilər dövlətinin yaranması elmin, mədəniyyətin, təhsilin inkişafına güclü təkan verdi[5]. Həmin dövrdə tanınmış Azərbaycan alimi Həsən bəy Rumlunun 12 cildlik "Əhsən üt-təvarix" ("Tarixlərin ən yaxşısı") əsəri meydana gəldi. XVII-XVIII əsrlərdə Səfəvilər imperiyasının zəifləməsi və süqutu, mərkəzləşmiş dövlətin xanlıqlara parçalanması nəticəsində elm və təhsilin inkişafında müəyyən geriləmələr baş verdi.

Azərbaycan xalqı sonrakı dövrlərdə də öz elmi-maarifçilik ənənələrinə sadiq qalaraq bəşər mədəniyyətinə dəyərli töhfələr verən onlarla işıqlı zəka sahibi yetişdirdi. Mirzə Kazım bəy, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh kimi ziyalılar millətin xilasını maariflənmədə görür, bu yolda əzmlə çalışırdılar. Onlar çoxəsrlik Şərq elminin ənənələrini inkişaf etdirməklə yanaşı, Avropanın elm, təhsil və texnolologiya sahəsindəki yeniliklərindən də bəhrələnməyə başladılar.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli məktəbin, mətbuatın, teatrın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı.

XX əsrin əvvəllərində xalqın ruhunda, təfəkküründə yaşayan azadlıq yanğısı gerçək həqiqətə çevrildi. Milli məktəb, milli dərslik, milli tərbiyə problemlərini həll etməyə qadir ziyalılar (N.Nərimanov, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ə.Hüseynzadə, C.Məmmədquluzadə, Ə.Ağayev, F.Köçərli, S.M.Qənizadə, F.Ağazadə, H.Mahmudbəyov, M.Mahmudbəyov və b.) dəstəsi yetişdi. Bu ziyalılar yeni tipli məktəbləri maarifçiliyin, milli şüur təliminin müqəddəs idealı hesab edirdilər. Onlar başa düşürdülər ki, "*orta əsrlərdə Azərbaycanda elmin, təhsilin, maarifin inkişafında çox böyük tarixi rol oynayan ənənəvi məktəb və mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi, hərəkət və fəaliyyət orqanı ola bilməz. Odur ki, üsuli-cədid hərəkatının qarşısında onu dəyişmək, yeni dövr məktəbinə çevirmək dururdu.*"[6]

Milli ziyalılar bu vəzifənin öhdəsindən ləyaqətlə gəldilər, xalqa milli-mənəvi dirilik, azadlıq, istiqlal, istiqbal və mücadilə dərsi keçdilər, müstəqillik ideologiyasını hazırlayaraq onun praktik tətbiqinə nail oldular. Maarifçilər tərəfindən formalaşdırılan istiqlal konsepsiyası milli dövlətin yaradılması ilə nəticələndi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildi.

---

[5] Антология педагогической мысли Азербайджанской ССР. Москва:Педагогика.1989, с.20

[6] ***Rüstəmov F.*** *Pedaqogika tarixi. Bakı: "Elm və təhsil", 2010, s.593*

Cümhuriyyət hökumətinin fəaliyyəti mədəniyyətin bütün sahələrini əhatə etsə də, əsas etibarı ilə xalq maarifinin milli ruhda, yeni tərzdə təşkili, məktəblərin milliləşdirilməsi, ana dilində məktəblərin yaradılması, ali və orta ixtisaslı kadr hazırlığı ətrafında mərkəzləşmişdi ki, bunu da təsadüfi hesab etmək olmaz. Çünki məktəb mədəniyyətin əsas həlqəsini, təməlini təşkil edir. Cəmiyyət necə oxuyursa, eləcə də yaşayıb inkişaf edir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli elmi-pedaqoji potensialın formalaşdırılması istiqamətində mühüm işlər görüldü. "Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq" (M.Ə.Rəsulzadə) və "təbii lisanda, tariximizin, ədəbiyyatımızın inkişafına kömək edə biləcək kəslərin yetişməsi" (S.Ağamalıoglu) məqsədilə 1 sentyabr 1919-cu ildə Azərbaycan Parlamentində Bakı Dövlət Universitetinin təsisi ilə bağlı qanun qəbul edildi. Parlamentin iclaslarında 4 aya qədər ciddi müzakirələrdən sonra 10 maddəlik "Bakı Dövlət Darülfünunu haqqında Qanun", 5 fəsil 72 maddədən ibarət Nizamnamə təsdiq olundu. Universitetin ilk rektoru V.İ.Razumovski parlamentdəki çıxışında göstərirdi ki, *Azərbaycan öz ali maarif ocağını açdı. Türk xalqları tarixinə yeni parlaq səhifə yazıldı. Avropa və Asiyanın hüdudlarında yeni bir məşəl şölələndi*[7].

Milli hökumət Bakıda Ali Pedaqoji İnstitutun açılmasını planlaşdırsa da, vaxtın azlığından bunu reallaşdıra bilmədi.

Azərbaycan məcburən sovetləşdirilməndən az sonra Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun 1921-ci il 26 avqust tarixli 66 №-li dekreti əsasında *Ali Pedaqoji Kişi İnstitutu* təşkil olundu. Bununla da Azərbaycanda ali pedaqoji təhsilin əsası qoyuldu.

Yüzillik yubileyini qeyd etməyə hazırlaşdığımız bu təhsil ocağı çətin, mürəkkəb və şərəfli bir yol keçmiş, pedaqoji və elmi-pedaqoji kadr hazırlığı sahəsində zəngin ənənələrə malik elm və təhsil məbədinə çevrilmiş, Pedaqoji Universitet statusu qazanmaqla ali pedaqoji kadr hazırlığında liderliyini qoruyub saxlamış, pedaqoji təmayüllü universitetlər üçün "*alma mater*" olmuşdur.

Ulu öndər Heydər Əliyev professor-müəllim və tələbə kollektivi ilə görüşlərinin birində bu müqəddəs elm və təhsil məbədinin keçdiyi tarixi yolu səciyyələndirərək demişdi: *"Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksək ixtisaslı kadrlar ocağına çevrilmişdir".*

---

[7] ***Разумовский В.И.*** *Основание университета в Баку // Известия Бакинского Государственного Университета, № 2, с. 16.*

Pedaqoji Universitetin 5 illik yubileyi xalq maarif komissarı Mustafa Quliyevin, 50 və 60 illik yubileyləri Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin iştirakı ilə, 85 və 90 illik yubileyləri isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları əsasında keçirilmişdir.

Prezident İlham Əliyevin ADPU-nun 100 illik yubileyinin keçirilməsi haqqında 17 aprel 2021-ci il tarixli Sərəncamını da pedaqoji kollektivimiz dövlətin pedaqoji və elmi-pedaqoji kadr hazırlığına diqqət və qayğısının təzahürü kimi dəyərləndirir. Sərəncamda əksini tapmış "*Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir"* – fikri çoxminli professor-müəllim və tələbə kollektivində böyük ruh yüksəkliyi yaratmışdır.

Ulu öndər Heydər Əliyevin ayrı-ayrı vaxtlarda 5 dəfə (1971, 1973, 1977, 1981, 1982) instituta gəlişi bu ali məktəbin professor-müəllim heyətinin daha səmərəli və məhsuldar çalışmasına, tələbələrin daha yaxşı təhsil almasına stimul verib. Heydər Əliyev ilk dəfə 1971-ci ildə Pedaqoji İnstitutun partiya təşkilatının hesabat-seçki konfransında iştirak etmiş, müəllim kadrları hazırlığının perspektivləri ilə bağlı geniş nitq söyləmişdir. 1973 -cü ildə Pedaqoji İnstitutun 50 illik, 1981-ci ildə 60 illik yubileylərində, 1977 və 1982-ci illərdə isə qəbul imtahanlarında iştirak etmişdir. Pedaqoji İnstitutun inkişafına daim diqqət və qayğı göstərən Heydər Əliyev 14 avqust 1978-ci ildə Bolqarıstan Xalq Respublikasında əmək semestrində (tələbə inşaat dəstəsi) iştirak edən institut tələbələləri ilə Sofiya şəhərində görüşmüş, gənclərə əmək və təhsildə müvəffəqiyyətlər arzulamışdır.

100 il bundan əvvəl 6 tələbə və 8 müəllimlə milli dildə fəaliyyətə başlayan ali pedaqoji təhsil ocağı[8] sonrakı illərdə sürətlə inkişaf etmiş, elmi-pedaqoji kadr hazırlığında lider universitetə çevrilmişdir.

Hazırda Pedaqoji Universitetin ***Filologiya*** (dekan prof.Mahirə Hüseynova), ***Tarix və coğrafiya*** (dekan dos.Asif Axundov), ***Riyaziyyat*** (dekan dos.Araz Fərəcov), ***Kimya və biologiya*** (dekan dos.Elnarə Mehbalıyeva), ***Məktəbəqədər təhsil*** (dekan prof.Şəhla Əliyeva), ***İncəsənət və fiziki tərbiyə*** (dekan dos.Laçın Həsənova), ***Fizika*** (dekan dos.Arzu Daşdəmirov), ***İbtidai təhsil*** (dekan

[8] *Bax:Ali Pedaqoji İnstitutun salnaməsi (Tərtibçi:prof.F.A.Rüstəmov).Bakı: Elm və təhsil, 2020;Azərbaycan Ali Pedaqoji İnstitutu (Tərtibçi:prof.F.A.Rüstəmov).Bakı:Elm və təhsil,2020; F.A.Rüstəmov.Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi.Bakı:Elm və təhsil,2021.*

prof.Fərrux Rüstəmov) fakültələrində, ***Sabah mərkəzində*** ***(***dos.Lalə Mürsəlbəyova***)***, ***Ağcabədi*** (direktor dos.Mobil Məcidov), ***Cəlilabad*** (direktor dos.Xudayar Sultanlı), ***Quba*** (direktor dos.Yusif Alıyev), ***Şamaxı*** (direktor dos.Tünzalə Yusifova), ***Şəki*** ***(***direktor dos.Rafiq Rasulov) filiallarında və nəzdindəki ***Azərbaycan Dövlət Pedaqoji Kollecində*** (direktor dos. İsrayıl İsgəndərov) 18218 nəfər tələbənin təhsil-tərbiyəsi ilə 1553 nəfər professor-müəllim və 652 nəfər tədris-köməkçi heyət məşğul olur.

Prof.***Fərrux Rüstəmovun*** "***Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları***" adlı kitabı bu təhsil ocağının bir əsrlik tarixinə, onun elmi-pedaqoji potensialının inkişafına işıq tutan dəyərli mənbədir.

Kitabda zəngin arxiv materiallarından istifadə edilməklə ali təhsilli müəllim kadrları hazırlığında mühüm xidmətləri olan, lakin bu və ya digər səbəbdən unudulan xeyli elmlər doktoru, professorun arxivlərdə üstünü toz basmış şəxsi işləri araşdırılmış, elmi və tədris fəaliyyətləri üzə çıxarılaraq adları Pedaqoji Universitetin şərəf və şöhrət kitabına yazılmışdır.

Ömrünün ən mənalı illərini bu ali təhsil ocağının inkişafına, pedaqoji və elmi-pedaqoji kadr hazırlığına həsr edən tanınmış elm və təhsil fədailəri haqqında bioqrafik oçerklər hazırlanarkən Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin, Azərbaycan Dövlət Arxivinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin arxivinin materiallarından, kitabxanalardakı, muzeylərdəki şəxsi fondlardan, ensiklopediyalardan, sorğu kitablarından, bioqrafik nəşrlərdən, dövri mətbuatdan və digər mənbələrdən istifadə olunmuşdur.

Pedaqoji Universiteti yaradan və yaşadan işıqlı zəka sahiblərinin, elmi məktəb və elmi istiqamətlərin əsasını qoyaraq inkişaf etdirən alimlərin Azərbaycanda elmi-pedaqoji elitanın formalaşdırılmasındakı tarixi rolunu və missiyasını üzə çıxarmaq xələflərin öz sələflərinə olan hörmət və ehtiramının ifadəsi kimi dəyərləndirilməlidir. Bu yanaşma kitabın əsas ideya xəttini təşkil edir.

Kitabda sələflərimizin və müasirlərimizin pedaqoji və elmi-pedaqoji kadr hazırlığındakı xidmətləri, fakültə, kafedra, laboratoriya, ən əsası isə, elmi məktəb yaratmaları, milli dildə dərslik və dərs vəsaitləri hazırlamaları, elmin müxtəlif sahələrində fundamental araşdırmalar aparmaları, terminoloji lüğətlər tərtib etmələri minnətdarlıq hissi ilə yad edilir. Məhz onların fədakarlıqları nəticəsində ali pedaqoji təhsil ocağı respublikada elmin ayrı-ayrı sahələrinin (riyaziyyat, fizika, kimya, biologiya, tarix, dil-ədəbiyyat) inkişafına güclü təsir göstərməklə yanaşı, pedaqogika, psixologiya və fənlərin tədrisi metodikası ilə bağlı elmi mərkəzə çevrilmişdir. Tədrisin milli dildə aparıl-

ması nəticəsində formalaşmaqda olan milli intellektual elita Pedaqoji İnstituta toplanmışdır.

Böyük zəka sahiblərindən dərs alan Pedaqoji İnstitutun yetirmələrinin əksəriyyəti istedadlı alim, mədəniyyət xadimi və yazıçı kimi məşhurlaşdı, partiya və dövlət xadimi kimi tanındı, qabaqcıl müəllim kimi ad-san qazandı. Universitetin məzunları – ***akademiklər*** *Yusif Məmmədəliyev, Heydər Hüseynov, İbrahim İbrahimov, Zahid Xəlilov, Həsən Abdullayev, Məcid Rəsulov, Əşrəf Hüseynov, İsmayıl Hüseynov, Abdulla Qarayev, Əlisöhbət Sumbatzadə, Məmməd Arif Dadaşzadə, Məmmədcəfər Cəfərov, Məmmədağa Şirəliyev, Həmid Araslı, Feyzulla Qasımzadə, Mehdi Mehdizadə, Budaq Budaqov, Qərib Məmmədov, Vaqif Abbasov, İsmayıl Hacıyev****, görkəmli şair və yazıçılar*** *Səməd Vurğun, İlyas Əfəndiyev, Süleyman Rəhimov, Şıxəli Qurbanov, İsmayıl Şıxlı, Mikayıl Müşfiq, Mehdi Hüseyn, Eyyub Abbasov, Zeynal Xəlil, Gəray Fəzli, Məmməd Araz, Qılman İlkin* xalqımızın şöhrət simvollarına çevrildilər.

Fəxrlə qeyd olunmalıdır ki, Azərbaycan Milli Elmlər Akademiyasını təsis edən 15 nəfərdən 3-ü ***(Yusif Məmmədəliyev, Heydər Hüseynov, Səməd Vurğun)*** Pedaqoji Universitetin məzunu, 5-i isə (***Yusif Məmmədəliyev, Heydər Hüseynov, Aleksandr Qrossheym, Üzeyir Hacıbəyov, Mir Əsədulla Mirqasımov***) universitetin müəllimi olmuşdur. Müxtəlif illərdə AMEA-nın prezidenti seçilmiş alimlərdən 3-ü də (***Yusif Məmmədəliyev, Zahid Xəlilov, Həsən Abdullayev***) ADPU-nun yetirmələridir. Akademik Yusif Məmmədəliyev iki dəfə (1947-1951 və 1958-1961) Azərbaycan Milli Elmlər Akademiyasına rəhbərlik edib.

SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvləri ***Abasqulu Abaszadə, Hüseyn Əhmədov və Sədi İmanovun***, Azərbaycan EA-nın müxbir üzvləri ***Əbdüləzəl Dəmirçizadə, Maqsud Cavadov***, ***Mais Cavadov, Afad Qurbanov***, ***Zərifə Budaqova və Cümşüd Zülfüqarlının,*** SSRİ xalq müəllimləri ***Zahid Şöyübov, Cəbrayıl Zəkiyev və İsrafil Şükürovun,*** Sosialist Əməyi Qəhrəmanları ***Məsmə Səfa İmanov, Məhər Quliyev, Zərbəli Səmədov və Rüstəm Səfərəliyevin,*** Sovet İttifaqı Qəhrəmanları ***Mehdi Hüseynzadə, Xıdır Mustafayev, Fariz Səfərov və Səlahəddin Kazımovun***, Azərbaycanın Milli Qəhrəmanları ***Mirələkbər İbrahimov*** və ***Mətləb Quliyevin*** Pedaqoji Universitetin məzunları və ya təmsilçiləri olmaları bizi qürurlandırmaya bilməz.

Fəxarətlə adını çəkdiyimiz və çəkə bilmədiyimiz məzunlarımızın fədakarlığı nəticəsində Azərbaycanda güclü elm və təhsil mühiti formalaşıb, ümumtəhsil və ali məktəblərin geniş şəbəkəsi yaranıb.

20-30-cu illərdə təhsilin və elmin təşkilinə kömək etmək məqsədilə Azərbaycana dəvət olunan görkəmli rus və türk alimlərinin xidmətlərini necə unutmaq olar?

Pedaqoji İnstitutda prof.Bəkir Çobanzadə, prof.İsmayıl Hikmət, prof.Nikolay Aşmarin, akademik N.Y.Marr, akademik V.V.Bartold, akademik A.N.Samoyloviç, akademik İ.İ.Meşşaninov ***dilçi və ədəbiyyatşünasların***, prof.Əziz Ubaydullin, prof.Pyotr Fridolin, prof.Juze Panteleymon ***tarixçilərin,*** prof.Xəlil Fikrət, prof.Aleksandr Makovelski və prof.Boris Komarovski ***pedaqoq-psixoloqların,*** prof.Aleksey Ammosov, prof.A.S.Kovanko, prof.A.A.Bukspan ***riyaziyyatçıların,*** prof.Konstantin Krasusski, prof.-A.A.Qrossheym, prof.P.İ.Kuznetsov, prof.V.İ.Tixomirov, prof. L.Q.Qurviç, prof.İ.D.Quttu, prof.A.M.Çernikov, prof.N.A.Popov, prof.P.Y.Rostovsev, prof.P.İ.Kuznetsov, prof.S.Y.Beysik ***bioloq və kimyaçıların*** ilk nəslinin formalaşmasında xüsusi xidmətlər göstərmişlər. Bu elm və təhsil fədailərinin köməyi ilə yetişən milli elmi-pedaqoji kadrlar sonrakı illərdə bütün çətinlikləri dəf edərək elmi məktəb və elmi istiqamətlər yaratmağa nail oldular. Məmmədağa Şirəliyev, Muxtar Hüseynzadə, Əbdüləzəl Dəmirçizadə, Hadi Mirzəzadə, Əkrəm Cəfərov, Səlim Cəfərov, Afad Qurbanov, Həsən Mirzəyev, Nizami Xudiyev ***dilçiliyin,*** Əkbər Ağayev, Şıxəli Qurbanov, Məmməd Arif Dadaşzadə, Məmmədcəfər Cəfərov, Həmid Araslı, Əli Sultanlı, Feyzulla Qasımzadə, Mikayıl Rəfili, Cəfər Xəndan Hacıyev ***ədəbiyyatşünaslığın,*** Vəli Xuluflu, İsmayıl Hüseynov, Əlisöhbət Sumbatzadə, Zülfəli İbrahimov, Mehdiquluxan Erivanski, Cəfər İbrahimov, İsmayıl Həsənov, Yaqub Mahmudov, Nəzər Paşayev, Yusif Yusifov, Süleyman Məmmədov, Vəli Əliyev ***tarixşünaslığın,*** Nurəddin Kərəmov, Şahəli Həsənov, Həsən Sadıxlı, Nizaməddin Allahverdiyev ***coğrafiyanın,*** Heydər Hüseynov, Midhəd Ağamirov, Səlahəddin Xəlilov, Nurqələm Mikayılov ***fəlsəfənin,*** Zülqədər Cahangirov, Əhməd Mahmudov, Teymur Vəliyev ***iqtisadiyyat elminin,*** Əhməd Seyidov, Mehdi Mehdizadə, Mərdan Muradxanov, Hüseyn Əhmədov, Yusif Talıbov ***pedaqogikanın,*** Məmməd Əfəndiyev, İbrahim İbrahimov, Məcid Rəsulov, Əli Cəfərov, Maqsud Cavadov, Mais Cavadov, Bəylər Ağayev, Sadıx Sadıxov, Məlikməmməd Cəbrayılov ***riyaziyyatın,*** Məhəmməd Mövsümzadə, Həbibulla Şahtaxtinski, Allahverdi Verdizadə, Zülfüqar Zülfüqarov, Şamxal Məmmədov, Sadıq Hüseynov, Şixbala Əliyev, Əsədulla Əbdürrəhimov, Reyhan Əbdürrəhimova, Xudaverdi Kələntərli ***kimyanın,*** Azad Əmirov, Fətulla bəy Rzabəyli, Abdulla Qarayev, Həmid Qədirov, Zəhra Şahtaxtinskaya, Tələt Qayıbov, Savalan Ocaqverdizadə, Rza Səfərov ***biologiyanın,*** Rəhim Məlikov, Abasqulu Abaszadə, Kərim Məmmədov, Ələkbər Kərimov ***fizikanın,*** Əhməd Kərədi Zəkuzadə, Fuad İbrahimbəyov, Şövqi Ağayev, Əkbər Bayramov, Əbdül Əlizadə ***psixologiyanın*** inkişafına dəyərli töhfə verdilər.

Bu görkəmli elm xadimlərinin bilavasitə diqqət və qayğısı nəticəsində universitetimizdə yetişən yeni nəsil professorlar onların yaratdıqları ənənəni uğurla davam etdirirlər. Son illərdə Mahirə Hüseynova, Buludxan Xəlilov, İbrahim Bayramov, Mirvari İsmayılova, Sərdar Zeynalov, Nəbi Əsgərov, Həcər Hüseynova ***dilçilik,*** Elman Quliyev, Təyyar Cavadov, Mahmud Allahmanlı, Yaqub Babayev, Nailə Sadıqova, Ramil Əliyev, Leyla Vəzirova ***ədəbiyyatşünaslıq,*** Oqtay Sultanov, Xəqani Məmmədov, Mais Əmrahov, Mübariz Əmirov, Sevinc Əliyeva ***tarix,*** Asəf Zamanov, Rəhim Rzayev, Bəhram Əliyev, Vəli Qurbanov ***riyaziyyat,*** Əbülfət Pələngov ***informatika,*** Əli Zalov ***kimya,*** Bəhlul Ağayev, Rauf Sultanov ***biologiya,*** Edil Eyvazov, Vaqif Nəsirov, Cahangir Hüseynov, Namiq Niftiyev, Həmzə Seyidli, Aydın Ələkbərov ***fizika,*** Məhəmməd Abduyev ***coğrafiya,*** Fərrux Rüstəmov, İramin İsayev, Müseyib İlyasov, Rüfət Hüseynzadə, Şəhla Əliyeva ***pedaqogika,*** Ramiz Əliyev, Ərəstun Baxşəliyev, Qızxanım Qəhrəmanova ***psixologiya,*** İsa İsmayılov, Natiq Əliyev, Şükür Əlizadə ***fizikanın tədrisi metodikası,*** Kamil Bəşirov, Məhərrəm Hüseynov, Minaxanım Nuriyeva, Fikrət Xalıqov, Vaqif Qurbanov, Nabat Cəfərova ***Azərbaycan dilinin tədrisi metodikası,*** Jalə Qədimova, Minarə Dadaşova, Tamilla Bağırova, Zemfira Abdullayeva ***musiqi*** ixtisası ilə bağlı dəyərli elmi araşdırmalar aparmış, onlarla monoqrafiya, dərslik və dərs vəsaiti nəşr etdirmişlər. Kitabda onlar haqqında da oçerklər verilmişdir.

Prof.Fərrux Rüstəmov Pedaqoji Universitetin rektorları (direktorları) haqqında ayrıca əsər[9] yazsa da, bu kitabda da universitetə rəhbərlik edən professorlar haqqında məlumat verməsi universitetin tarixinin bütün səhifələrinin eyni peşəkarlıqla işıqlandırılmasına xidmət edir. Digər tərəfdən isə, istənilən bir müəssisənin inkişafı onun rəhbərlərinin şəxsiyyətindən, idarəetmə qabiliyyətindən və mədəniyyətindən asılıdır. K.Veberin fikrincə, ən çətin sənət idarəetmə sənətidir. Çünki idarəetmə məharəti namuslu olmaq məharətindən ibarətdir (T.Cefferson).

Yüz il müddətində ADPU-ya rəhbərlik etmiş bu insanlar müxtəlif dövrlərdə, fərqli ideologiya və idarəetmə sistemlərində yaşayaraq fəaliyyət göstərmişlər. İnstitutun təşkili və formalaşmasının ilkin mərhələsi Odessa Universitetinin məzunu ***Fətulla bəy Rzabəylinin,*** Peterburq Universitetinin məzunu ***Məmməd Əfəndiyevin,*** Tiflis Müəllimlər İnstitutunun məzunu ***Həbib bəy Mahmudbəyovun,*** Peterburq Psixonevroloji İnstitutunun Pedaqoji fakültəsinin məzunu, Başqırd Hökumətinin sədri olmuş ***Şarif Manatovun*** və

[9] ***Rüstəmov F.*** *Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.Bakı, Elm və təhsil, 2019, 304* s.

Kiyev Politexnik Universitetinin məzunu ***Cəlil Məmmədzadənin*** adı və yorulmaz fəaliyyəti ilə bağlıdır.

30-cu illər institutun həyatında çox çətin və mürəkkəb dövr kimi yadda qalıb. O dövrdə rəhbərlik tez-tez dəyişdirilsə də, ADPİ-də təşkilati məsələlərin həllində, tədris və elmi-tədqiqat işlərinin düzgün qurulmasında direktor vəzifəsində çalışan Tiflis Müəllimlər İnstitutunun məzunu ***Pənah Qasımovun,*** Azərbaycan Dövlət Universitetinin məzunu ***Bəşir Bünyatovun,*** Azərbaycan Dövlət Universitetinin məzunu ***Məmməd Bayramovun***, Şərq Zəhmətkeşləri Kommunist Universitetinin məzunu ***Mirzə Məmmədovun,*** Tiflis Politexnik İnstitutunun məzunu ***Mirzə Davud Rəsulzadənin,*** Azərbaycan Dövlət Universitetinin məzunu ***Hüseyn Musayevin,*** Azərbaycan Pedaqoji İnstitutunun məzunu ***Aqil Salayevin***, Zaqafqaziya Kommunist Universitetinin məzunu ***Camal Əliyevin*** və Marksizm-leninizm İnstitutunun məzunu ***Ələsgər Həşimovun*** mühüm xidmətləri oldu.

30-cu illərdə başlanan repressiya dalğası Pedaqoji İnstitutun ən yaxşı müəllimlərinin böyük bir hissəsinin cismən məhv edilməsi və ya Sibirə sürgün olunması ilə nəticələndi. İnstitutun direktorları olmuş Pənah Qasımov, Məmməd Bayramov, Mirzə Davud Rəsulzadə, Hüseyn Musayev repressiya maşınının təzyiqindən yan keçə bilmədilər. Məmməd Bayramov, Mirzə Məmmədov həbs ediləndən bir il sonra – 1938-ci ildə Bakıda güllələndilər.

Müharibədən sonrakı illərdə yeni pedaqoji ali məktəblərin yaradılmasına baxmayaraq, ADPİ müəllim kadrları hazırlığı sahəsində öz liderliyini qoruyub saxlaya bildi.

Pedaqoji İnstituta 40-60-cı illərdə ***Məmməd Ələkbərov, akademik Mehdi Mehdizadə, prof.Ağamməd Abdullayev, prof.Əhməd Seyidov, prof.Cəfər Xəndan (Hacıyev), prof.Həmid Qədirov, dos.Cəbrayıl Ələsgərov, prof.Mehdixan Vəkilov, prof.Mehdi Əliyev, prof.Şövqi Ağayev,*** 70-80-ci illərdə ***prof.Haşım Ağayev*** *və* ***prof.Afad Qurbanov*** rəhbərlik etdilər.

90-cı illərin əvvəllərində Azərbaycan yenidən öz müstəqilliyinə qovuşandan sonra sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni sahədə ciddi dəyişikliklər baş verdi. Buna müvafiq olaraq, ali təhsil müəssisələrinin statusunda, strukturunda və idarə edilməsində yeniliklər meydana gəldi. 1991-ci ildə Pedaqoji İnstituta Universitet statusu verildi. Bu, ADPU-ya müstəqil fəaliyyət göstərmək, kadr siyasətini sərbəst həyata keçirmək, təhsil müəssisəsinin büdcəsinə daxil olan vəsaitdən səmərəli istifadə etmək, xarici ölkələrin ali təhsil müəssisələri və elm mərkəzləri ilə bilavasitə əlaqə saxlamaq, qarşılıqlı müəllim və tələbə mübadiləsi aparmaq imkanı verdi. Bu illərdə Pedaqoji Universitetə *AMEA-nın müxbir üzvü,* ***prof.Səlvər Aslanov, prof.Nizami Xu-***

diyev, prof.Bəhlul Ağayev *və AMEA-nın müxbir üzvü,* ***prof.Yusif Məmmədov*** rəhbərlik etdilər.

Fəxr hissi ilə qeyd etmək istərdim ki, ADPU-nun kollektivi ilə birgə fəaliyyət göstərərək şərəfli missiyanı davam etdirmək mənə də nəsib oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 iyun 2016-cı il tarixli Sərəncamı ilə bu qocaman elm və təhsil ocağına rektor təyin olundum. Bir əsrlik yubileyini qeyd etdiyimiz Universitetin zəngin irsini və tarixi ənənələrini yaşadıb inkişaf etdirmək, gələcək nəsillərə ötürmək üçün bundan sonra da böyük məsuliyyətlə çalışmalıyıq.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi bu universitetlə bağlı olan insanların tarixidir. Kitabda haqqında oçerk verilmiş elm və təhsil adamlarının əksəriyyəti adlarını nəinki Pedaqoji Universitetin, eyni zamanda Azərbaycan xalqının elm və təhsil tarixinə yazan alimlərdir.

Pedaqoji Universitetin təşəkkülü və inkişafında müstəsna xidmətləri olan işıqlı zəka sahiblərinin – AMEA-nın həqiqi və müxbir üzvlərinin, əməkdar elm xadimlərinin, professorların həyat və fəaliyyətinin ən mühüm məqamlarına həsr edilmiş bu kitabın əsas məqsədi bir əsrlik tarix yazan elm və təhsil fədailərini xalqa yaxından tanıtmaq, yubiley ərəfəsində onları hörmət və ehtiramla xatırlamaqdır.

Azərbaycan Respublikasının Prezidenti ***İlham Əliyev*** demişdir: ***"Professorlar hər bir cəmiyyətin elitasıdır, bu insanlar ölkənin inkişafını, onun gələcəyini müəyyən edirlər".*** Həqiqətən də, elmi dərəcə və elmi ad alanlar, xüsusilə də elmlər doktoru, professorlar, AMEA-nın və xarici ölkələrin akademiyalarının üzvü olanlar cəmiyyətin intellektual potensialı hesab olunurlar. Onlar elmi-pedaqoji elitanın qızıl fondunu təşkil edirlər. Əqli imkanlarına görə seçilən bu insanlar xalqın milli sərvətidir. Onların irsinin öyrənilməsi, tədqiq, tədris və təbliğ edilməsi, xalqa dərindən tanıdılması hər bir ziyalının, xüsusən də onların xələflərinin, yəni bizim vətəndaşlıq borcumuzdur. Məhz onların fədakarlığının nəticəsində Pedaqoji Universitet elm və təhsil məbədinə, pedaqoji fikir mərkəzinə çevrilib, ölkənin intellektual potensialının formalaşmasına mühüm töhfə verib.

Kitabda Pedaqoji Universitetin fəxri doktorları (***Cavad Heyət, Abdullah Cəfərəli Caspi, Tunçalp Özgən, Andrey Marqa, Alev Çakmakoğlu Kuru***), ayrı-ayrı illərdə bu təhsil ocağında işləmiş 350 nəfər elmlər doktoru və professor haqqında oçerklər verilmişdir. Parlaq zəka sahibləri olan məhz bu alimlərin seçilməsi onların elmi-pedaqoji uğurları, elmi dərəcə və elmi adları (SSRİ EA-nın və AMEA-nın həqiqi və müxbir üzvləri, əməkdar elm xadimləri, elmlər doktorları və professorlar) ilə bağlıdır. Biz, universitetin hazırda

fəaliyyət göstərən kollektivi, bir əsr ərzində Pedaqoji Universitetin inkişafında az-çox xidmətləri olan hər bir əməkdaşı (o cümlədən, fəlsəfə doktorları, dosentlər, baş müəllim və müəllimləri, tədris-köməkçi heyəti) hörmət və ehtiramla xatırlayır, minnətdarlıqla anırıq.

ADPU-nun 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 17 aprel 2021 -ci il tarixli Sərəncamında göstərilir ki, yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir.

Yüksəkixtisaslı müəllim kadrları hazırlığı ilə bağlı sələflərimiz tərəfindən əsası qoyulan ənənə indi də uğurla davam etdirilir. *Pedaqoji Universitet olaraq əsas missiyamız yeni düşüncəyə, əxlaqi-mənəvi saflığa, yüksək peşə və ixtisas hazırlığına malik olan müəllim kadrları hazırlamaqdır.*

Prof.***Fərrux Rüstəmovun "Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları"*** kitabında Pedaqoji Universitetin bir əsrlik tarixi onu yaradan, inkişaf etdirən və sabaha aparan alimlərin simasında təqdim edilir.

Geniş ictimaiyyətə ünvanlanan bu kitab taleyini Pedaqoji Universitetlə bağlamış işıqlı zəka sahiblərinə ucaldılan mənəvi bir abidədir. Hesab edirəm ki, böyük əməyin bəhrəsi olan bu əsərlə tanışlıq tələbə və gənc tədqiqatçılarda, habelə digər oxucularda bir tərəfdən sələflərimizin və müasirlərimizin yaratdığı elmi-pedaqoji irsə ehtiram hissi aşılayacaq, digər tərəfdən isə onlarda milli təəssübkeşliyi gücləndirəcək, müəllim peşəsinə daha böyük maraq oyadacaqdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları



Fətulla Əziz oğlu Rzabəyli
professor, Əməkdar elm xadimi
(1885 -1968)

28 fevral 1885-ci ildə Bakı şəhərində anadan olub. İbtidai təhsilini rus-tatar məktəbində, orta təhsilini I kişi gimnaziyasında alıb. Gimnaziyanı qızıl medalla, 1906-1911-ci illərdə təhsil aldığı Novorossiysk Universitetinin (Odessa) Fizika-riyaziyyat fakültəsinin təbiyyat şöbəsini I dərəcəli diplomla başa vurub. 1910-1913-cü illərdə həmin Universitetdə işləyib.1912-ci ildə Odessa Tədris Dairəsində birillik pedaqoji kurs qurtararaq orta məktəblərdə təbiyyat müəllimi olmaq hüququ qazanıb. 1913-1915-ci illərdə Krasnodarda Mixaylovski realni məktəbində müəllim işləyib. 1915-1916-cı illərdə IV kişi gimnaziyasında pedaqoji fəaliyyətlə məşğul olub. 1916-1917-ci illərdə Salyanda realni məktəbin direktoru işləyib. 1918-1919 -cu illərdə Azərbaycan SSR Xalq Maarif Nazirliyində ali və orta ixtisas məktəbləri şöbəsinin müdiri olub. 2 yanvar 1920-ci ildə Xalq Maarif Nazirliyində dəftərxana müdiri, 9 fevral 1920-ci ildə isə orta məktəblər şöbəsinin müdiri təyin olunub. 1920-1921-ci illərdə Azərbaycan SSR Xalq Maarif Komissarlığının məktəblər şöbəsinə başçılıq edib. Xalq Maarif Komissarlığının 17 noyabr 1920-ci il tarixli qərarı ilə Bakıda yaradılan birillik ali pedaqoji kurslara rəhbər təyin olunub. 1921-1924-cü illərdə Ali Pedaqoji İnstituta rəhbərlik edib.

1925-1928-ci illərdə Azərbaycan Xalq Maarif Komissarlığının Baş ictimai tərbiyə idarəsinin müdiri olub. Nəriman Nərimanov adına Sənaye Texnikumu, S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı Texnikumu, Diş Həkimliyi Texnikumu və sonralar onun əsasında yaranan Diş Həkimliyi İnstitutunun təşkilində, həmin müəssisələr üçün proqram və metodiki göstərişlərin hazırlanmasında xüsusi xidmətləri olub. 1926-1928-ci illərdə ADU-nun Tibb fakültəsində təhsil alıb. 1938-1942-ci illərdə həkim kimi fəaliyyət göstərib.

1928-ci ildə Azərbaycan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə ona professor elmi adı verilib. Azərbaycan SSR Xalq Maarif Komissarlığının

Dövlət Elm Şurasının 3 mart 1930-cu il tarixli, SSRİ AAK -nın 7 aprel 1950-ci il tarixli qərarları ilə onun Zoologiya kafedrası üzrə aldığı professor elmi adı təsdiq olunub.

1930-cu ildə BDU-nun Tibb fakültəsinin əsasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılanda F.Rzabəyli orada Biologiya kafedrası təşkil edərək uzun müddət ona (1930-1933 və 1946-1964-cü illərdə) rəhbərlik edib. 1942-1949-cu illərdə Qiyabi Pedaqoji İnstitutda kafedra müdiri olub. 1933-cü ildə ADPİ-nin prorektoru, Biologiya fakültəsinin dekanı və fakültə elmi-metodik komissiyasının sədri olub. Azərbaycan Kənd Təsərrüfatı İnstitutu Bakıda fəaliyyət göstərəndə orada Zoologiya kafedrasının müdiri vəzifəsində çalışıb.

"Ümumi biologiya" (1931), "Biologiya terminləri lüğəti" (1934), "Biologiya" (1955) kitabları və 30-dan artıq elmi məqaləsi nəşr olunub.

24 may 1960-cı ildə Azərbaycan SSR Ali Soveti tərəfindən ona Əməkdar elm xadimi fəxri adı verilib, "Qafqazın müdafiəsinə görə" (1944) və "Şərəfli əməyə görə" (1946) medalları ilə təltif olunub.

10 oktyabr 1968-ci ildə Bakı şəhərində vəfat edib və Fəxri Xiyabanda dəfn olunub.

Məmməd Rəşid oğlu Əfəndiyev

professor, Əməkdar elm xadimi

(1887-1977)

5 oktyabr 1887-ci ildə Nuxada (Şəkidə) Azərbaycanın görkəmli maarifçisi Rəşid bəy Əfəndiyevin ailəsində anadan olub. 1908-1913-cü illərdə Peterburq Universitetinin Fizika-riyaziyyat fakültəsində təhsil alıb. Ali təhsilini başa vurduqdan sonra qısa bir müddətdə Tiflisdə müəllimlik edib, sonra Azərbaycana qayıdaraq Nuxa gimnaziyasında pedaqoji fəaliyyətə başlayıb. ADR dövründə və sovet hakimiyyətinin ilk illərində o, həmin gimnaziyanın millileşdirilməsində iştirak edib, gimnaziyanın aşağı siniflərində bütün fənlərin, yuxarı siniflərdə isə riyaziyyat fənninin ana dilində tədrisinə nail olub. Nuxa qəza xalq maarif şöbəsinin məktəblər bölməsinin müdiri vəzifəsində çalışıb. Təşkil etdiyi klubda böyük ictimai-mədəni iş aparıb, məktəbyaşlı uşaqların təhsilə, yaşlı əhalinin savad kurslarına cəlb edilməsində fədakarlıq göstərib. Nuxa maarif işçiləri həmkarlar

ittifaqının sədri olub. Azərbaycan Həmkarlar İttifaqı qurultayına nümayəndə seçilib. Nuxada üç aylıq pedaqoji kursunun açılmasının təşəbbüskarı olub. Ali Pedaqoji İnstitutda pedaqoji fəaliyyətə dəvət olunan ilk 7 müəllimdən biri olub. Ali Pedaqoji İnstitutda riyaziyyat fənnindən Azərbaycan dilində mühazirə söyləyən ilk müəllim olmaqla yanaşı, həm də institutun təşkilində mühüm rol oynayıb. Fətulla bəy Rzabəyli Xalq Maarif Komissarlığına idarə müdiri vəzifəsinə irəli çəkiləndə, onun yerinə Məmməd Əfəndiyev direktor təyin olunub. O, həm də fizika-riyaziyyat şöbəsinin ilk müdiri (dekanı) olub.

1931-ci il sentyabrın 29-da ADPİ-nin Ali riyaziyyat kafedrasına müdir təyin olunub. 1934-1936-cı illərdə Riyaziyyat və təbiiyyat elmləri fakültəsinin dekanı olub. 1935-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən riyaziyyat elmləri sahəsindəki böyük xidmətlərinə və səmərəli pedaqoji fəaliyyətinə görə ona dosent elmi adı verilib.

1938-ci ildə Azərbaycan Dövlət Universitetinin Riyazi analiz kafedrasına dəvət olunub.1941-1965-ci illərdə həmin kafedraya rəhbərlik edib. 1943-cü ildə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə Əməkdar elm xadimi fəxri adına, 1944-cü ildə professor elmi adına layiq görülüb.

1948-1949-cu illərdə əvəzçiliklə Azərbaycan Dövlət Universitetinin nəzdindəki Fizika-Riyaziyyat Elmi Tədqiqat İnstitutunun direktoru vəzifəsində işləyib. ADU-da çalışsa da, ömrünün sonuna kimi Azərbaycan Pedaqoji İnstitutu ilə əlaqəsini kəsməmiş, burada Riyaziyyat fakültəsinin tələbələrinə diferensial tənliklərdən mühazirələr oxumuş, dövlət komissiyasının sədri olmuş, tələbələrinin riyaziyyatçı alim kimi yetişmələrinin xeyirxahlarından biri olmuşdur. Hesab, cəbr, həndəsə, triqonometriya fənləri üzrə formalaşdırdığı terminləri toplayaraq 1925-ci ildə kitab şəklində nəşr etdirib. Məhz onun və həmkarlarının elmi və metodiki yaradıcılığı nəticəsində Azərbaycanda riyazi terminologiya formalaşmağa başlayıb. M.Əfəndiyev, Ə.İ.Hüseynov, M.Cavadov, T.Abdullayev, C.Qasımov, B.Ağayev və başqalarının iştirakı ilə 1931-ci ildə "Riyaziyyat terminləri", 1939-cu ildə "Matematika terminləri", 1958-ci ildə isə yenidən "Riyaziyyat terminləri" nəşr olunub. 1941-1946-cı illərdə Azərbaycan Riyaziyyatçılar Cəmiyyətinin sədri olub."Adi diferensial tənliklər" (1950), "Matematik analizdən material və tapşırıqlar" (Ə.Hüseynovla birlikdə) (1939), "Diferensial tənliklər kursu" dərsliklərinin müəllifidir.

"Lenin" ordeni (1958) və 2 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunub, Bakı Sovetinə deputat seçilib.

1 iyun 1977-ci ildə Bakı şəhərində vəfat edib.

Həbib bəy İbrahimxəlil oğlu Mahmudbəyov

(1864-1928)

1864-cü ildə iyun ayının 16-da Şamaxı şəhərində anadan olub. Atası İbrahimxəlil xeyirxah və maarifpərvər adam idi. O, oğlu Həbibi səkkiz yaşı olanda məhəllə məktəbinə oxumağa göndərir. Mirzə Hüseyn adlı molladan ərəb əlifbasını və Quran oxumağı öyrənən Həbib bəy Mahmudbəyovu mollaxanada verilən dini-sxolastik təlim qane etmədiyindən o, Şamaxı şəhər məktəbinə daxil olur. Şamaxı zəlzələsi zamanı məktəb tamamilə dağılır. Həbib bəy təhsilini davam etdirmək üçün Bakıya gəlir və burada realni məktəbə daxil olur. 1873-1881-ci illərdə Bakı realni məktəbində təhsil alır. Ali təhsil almaq arzusu ilə Tiflisə gedir və burada 1882-1887-ci illərdə Aleksandrovski Müəllimlər İnstitutunda təhsil alır. Haqqında danışdığımız ali məktəbə qəbul olunmaqdan ötrü dörd imtahan verilirdi: riyaziyyat, coğrafiya, rus dili (şifahi), rus dili (yazılı). Həbib bəy Mahmudbəyov imtahandan yüksək bal topladığına görə "xəzinə hesabına" instituta qəbul edilir. 1887-ci ildə H.Mahmudbəyov "Şəhər məktəbi müəllimi" adı alsa da, islam dininə mənsub olması səbəbindən tələbə yoldaşları S.M.Qənizadə və S.Əbdürrəhmanbəyov kimi təyinatdan kənarda qalır. S.M.Qənizadə ilə birlikdə Bakıya gəlir və burada ilk "rus-müsəlman" məktəbini açırlar.

Məktəbdə Həbib bəy hesab və rus dilini, S.M.Qənizadə ana dili və fars dilini tədris edirdi. Şəxsi məktəbin uğurları o qədər böyük olur ki, Bakı Dumaası dövlətin vəsaiti hesabına 1891-ci ildə Çəmbərəkənddə və Zərgərbazarda "rus-müsəlman" məktəbləri açır. Həbib bəy Mahmudbəyov 1-ci "rus-müsəlman" məktəbinə müdir təyin olunur. O, həm də 1889-1891-ci illərdə Mixaylovski Bakı şəhər məktəbində müəllim işləyir. 1896-cı ildə rus-müsəlman kitabxanası təşkil edir. Qafqaz Təlim Dairəsinin 1905-ci il 17 sentyabr 1386 №-li əmrinə əsasən 2 sinifli şəhər məktəbinə müdir vəzifəsinə təyin olunur, 1916-cı ilə qədər həmin vəzifədə çalışır.

1878-ci ildə Bakıda Dumaya seçkilər zamanı Həbib bəy Mahmudbəyov Dumaya qlasnı seçilmişdi. Duma üzvünə o zaman "qlasnı" deyilirdi. Dumaya yaşı 25-dən yuxarı olan, daşınmaz əmlak sahibləri və ya 1500 manatlıq məbləğdə ticarət və sənaye müəssisələrinə malik şəxslər seçilə bilərdilər. 1906-cı ildə Bakı şəhər dumasında məktəb komissiyasının üzvü kimi Azər-

baycan müəllimlərinin I qurultayına hazırlıq işlərində və onun keçirilməsində yaxından iştirak edib. Pedaqoji kursların, yaşlılar üçün axşam kurslarının təşkilinin təşəbbüskarı olub. Ali Pedaqoji Kişi İnstitutunun təşkilat komissiyasının üzvü kimi pedaqoji institutun təşkilində fəal iştirak edib. 1921-ci ildə Ali Pedaqoji İnstitut yaradılarkən əvvəl həmin ali məktəbdə direktor müavini, 1924-cü ildə qısa bir müddətdə direktor vəzifəsində çalışıb. 1927-ci ildən sonra fəaliyyəti 1887-ci ildə yaratdığı məktəblə (indiki 2 №-li Texniki-Humanitar Elmlər liseyi) bağlı olub. Burada rus dili və ədəbiyyatından dərs deyib.

1928-ci ildə Bakı şəhərində vəfat edib.

Şarif Əhmədzyanoviç Manatov
(1887-1936)

20 oktyabr 1887-ci ildə Orenburq quberniyasının Çelyabinisk qəzasının Katay nahiyəsinin Manatovo kəndində (indi Kurqan vilayətinin Almenev rayonu ərazisində yerləşir) molla ailəsində anadan olub. İlk təhsilini Ufa şəhərindəki "Haliyə" mədrəsəsində alıb, burada ərəb və fars dillərini, şəriət qayda-qanunlarını və Quran oxumağı öyrənib. Sonra təhsilini üç əsas və bir hazırlıq sinfindən ibarət olan Semipalatiniski Müəllimlər Seminariyasında davam etdirib. 1910-cu ildə seminariyanı bitirib. Peterburq Psixonevroloji İnstitutunun Pedaqoji fakültəsinin Ümumi tarix ixtisasına daxil olub. Təhsil illərində tələbə dərnəklərinin fəal üzvü olub, bolşeviklərin "Ulduz"("Звезда") qəzeti ilə əməkdaşlıq edib. 1914-cü ildə üçüncü kursda oxuyarkən təhsilini yarımçıq qoyaraq Ufada nəşr olunan "Həyat" ("Tormoş") qəzetində jurnalistlik fəaliyyətinə başlayıb. Ali təhsil almaq məqsədilə həmin il İstanbul Universitetinə qəbul olunub. Başqırdıstanın muxtariyyəti ilə bağlı mübarizə aparıb. Bu məqsədlə V.İ.Lenin və İ.V.Stalinlə görüşüb. 1917-ci ildə Başqırd hökumətinin sədri seçilib. V.İ.Leninin təklifi ilə RSFSR Xalq Komissarları Sovetinin nəzdində Rusiya müsəlmanlarının işləri üzrə komissarın sədr müavinlərindən biri olub. 1919-cu ilin yanvarında Kommunist Partiyasının yaradılmasına köməklik göstərmək məqsədilə İ.V.Stalin tərəfindən Türkiyəyə göndərilib. Ankara Kommunist Partiyasının rəyasət heyətinə seçilib, burada "Yeni dünya" qəzeti təsis edib və ona rəhbərlik edib. 1920-ci ilin payızında kommunizm

ideyalarını təbliğ etdiyinə görə Ankarada həbs edilsə də, qaçmağa müvəffəq olub. Türkiyədən qayıdan Şarif Manatov Xalq Komissarları Sovetinin 21 dekabr 1920-ci il dekreti ilə Başqırdıstan MSSR-ə Millətlərin işi üzrə Xalq Komissarlığının səlahiyyətli nümayəndəsi təyin edilib.

1923-cü ilin mart ayında Türküstan Xalq Maarif Komissarlığının Dövlət Elm Şurasına rəhbər təyin olunub. 1923-cü ilin dekabrından 1925-ci ilin may ayınadək Başqırdıstan MSSR Xalq Maarif Komissarlığı yanında Akademik Mərkəzə rəhbərlik edib.

1924-cü ilin sentyabrında sovet müəssisələrinin "arzuolunmaz elementlərdən" təmizlənməsi kompaniyasında o da "millətçi" kimi işdən azad edilib. V.İ.Lenin və İ.V.Stalinlə şəxsi münasibəti nəticəsində ölüm təhlükəsindən xilas olub. Bir müddət Yaroslavl Pedaqoji İnstitutunda işləyib. Azərbaycan KP MK-nın dəvəti ilə Bakıya -Xalq Maarif Komissarlığına işə dəvət olunub. 1925-ci ildə Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutuna direktor (rektor) təyin edilib. Bir müddət Azərbaycan KP MK-nın mətbuat şöbəsinin müdiri vəzifəsində çalışıb. Redaktorluğu ilə Bakıda "Məktəb məcmuəsi" jurnalı nəşr olunub. Dövri mətbuatda "Şuralar İttifaqının sənaye dövriyyəsi" ("Kommunist yolu",1925, №9-10),"Qızıl Şərq ölkələrində"("Dan ulduzu", 1926, №4, s.9-10),"Kəndin iki qüvvəsi" ("İqtisadi xəbərlər", 1927, №9-10, s.33-41),"Şuraların kütləvi işlərdəki təcrübəsi" ("İqtisadi xəbərlər",1927, №11-12, s.64-71) adlı məqalələrlə çıxış edib.

1925-1931-ci illərdə Zaqafqaziya Kommunist İnstitutunda "Bolşevizmin və leninizmin tarixi" fənnindən mühazirələr oxuyub, Zaqafqaziya Partiya Vilayət Komitəsinin təbliğat-təşviqat şöbəsinə rəhbərlik edib. 1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən Birinci Türkoloji Qurultayın iştirakçısı olub.

1931-ci ildə səhhətinin pisləşməsi səbəbindən Krıma köçmək məcburiyyətində qalır. Burada o, həm müalicə olunur, həm də Simferopol Ali Kommunist Məktəbində professor işləyir, həmçinin Tarix kafedrasına rəhbərlik edir. 1 oktyabr 1932 -ci ildə ÜİK(b)P MK-nın göndərişi və məşhur rus şərqşünası, akademik S.F.Oldenburqun təqdimatı ilə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aspiranturasının "Türkiyə tarixi" ixtisasına qəbul olunur və akademik İ.Y.Kraçkovski ona elmi rəhbər təyin edilir. 9 oktyabr 1933-cü ildə Siyasi kitabxananın elmi ədəbiyyat şöbəsinə yarım ştat baş kitabxanaçı təyin edilir. Həmin ilin noyabrından aspiranturaya qəbul olunduğu üçün Siyasi kitabxanadan-işdən azad edilir. 1933-cü ildə SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun arxivində araşdırdığı mövzu üzərində işləyir. Səhhətində yaranmış problemlər Ş.Manatova aspiranturada təhsilini davam etdirməyə imkan vermədiyinə görə, o, 1 may 1934 -cü ildə aspiranturadan azad olundu.

Qırğızıstan Pedaqoji İnstitutuna professor vəzifəsinə işə dəvət olunan Ş,Manatov Frunze şəhərinə köçür və institutda "Ümumi tarix" fənnindən mühazirələr oxuyur. Frunzedə olarkən xəstəliyi şiddətləndiyindən 1935-ci ildə Başqırdıstana müalicə olunmağa qayıdır və bir ildən sonra vəfat edir.

Cəlil Məmməd oğlu Məmmədzadə
(1888- 1934)

1888-ci ildə Şuşada tacir ailəsində anadan olub. 7 yaşında məhəllə məktəbinə gedən Cəlil Məmmədzadə (ilk soyadı Sadıqov olub) iki il müddətində burada oxumağı, yazmağı və hesabı öyrənib, sonra təhsilini Şuşa realni məktəbində davam etdirib. Sonralar tərcümeyi - halında yazırdı:"Realni məktəbin 5-ci sinfində oxuyana qədər çox az dini bilgim, bir az da təsərrüfatla bağlı bacarığım var idi. 5-ci sinifdə oxuyanda özünətəhsillə məşğul olmağa başladım. Məqsədim Gəncə gimnaziyasında oxumaq idi. İki il Gəncə gimnaziyasında oxuduqdan sonra Kiyev gimnaziyasına köçürüldüm. Həmin illərdə ailəmizin maddi vəziyyəti kəskin şəkildə pisləşmişdi. Gimnaziyada oxuduğum 3 il müddətində onlar mənə maddi kömək edə bilmədilər. Müstəqil yaşamağa və işləməyə başladım". O dövrdə ailənin bütün çətinlikləri onun üzərinə düşmüşdü. Həyat yoldaşının, kiçik qardaşının və atasının Kiyevə -onun yanına göndərdiyi qohumlarının qayğısına qalmaq da ona həvalə olunmuşdu.

Kiyev gimnaziyasını bitirən C.Məmmədzadə Kiyev Politexnik İnstitutuna daxil olur. Burada o, mühəndis-texnoloq ixtisasına yiyələnməklə yanaşı, həm də fərdi dərslər verməklə pul qazanır. Onun 9 illik gimnaziya, 5 illik ali təhsili vardı.1920-ci ildə Bakıya gəlir, Azərbaycan SSR Siyasi İdarənin nəzdindəki mədəniyyət şöbəsinin müdiri vəzifəsində (iyun 1920 -dekabr 1920) çalışır. Eyni zamanda partiya kurslarının mühazirəçisi kimi 120 nəfərin siyasi hazırlıq keçməsində mühüm rol oynayır. Rus və ukrayna dillərini mükəmməl bildiyindən partiya siyasi kurslarında inqilab hərəkatının tarixindən, siyasi iqtisadın əsaslarından mühazirələr oxuyur. 17 iyul 1920-ci ildə bolşevik partiyası sıralarına qəbul edilir. 5 dekabr 1920-ci ildən 5 noyabr 1921-ci ilə kimi xalq ictimai təminat komissarının şəxsi katibi olur. 1921-ci ilin fevralında Rusiya ilə ictimai təminatla bağlı əlaqələri genişləndirmək məqsədilə Moskvaya,

oradan isə ailəsini Bakıya gətirmək üçün Kiyevə ezam olunur. 1923-cü ildə Azərbaycan K(b)P MK-nın Bakı şöbəsinin katibinin müavini təyin edilir. Bir müddət Xalq Komissarları Sovetində işlər idarəsində çalışır. 1923-1928-ci illərdə Azərbaycan Xalq maarif komissarının müavini vəzifəsində çalışır. Həmin dövrdə onunla birlikdə Kiyevdə təhsil alan Mustafa Quliyev (o, Kiyev Müqəddəs Vladimir Universitetində oxumuşdu) Xalq maarif komissarı idi.

Azərbaycan Dövlət Universitetinə V.İ.Leninin adının verilməsi haqqında Xalq Maarif Komissarlığı kollegiyasının 23 yanvar 1924-cü ildə keçirilən növbədənkənar iclasının protokolunu Xalq maarif komissarının müavini kimi C.Məmmədzadə və kollegiyanın katibi O.Cəlalbəyov imzalamışdır. 1925-ci ildə Bakıda keçirilən Azərbaycan müəllimlərinin IV qurultayında I-II dərəcəli məktəblərdə latın əlifbasının tətbiqi ilə bağlı xalq maarif komissarının müavini kimi geniş məruzə etmişdir. 1924-1926-cı illərdə o,"Maarif və mədəniyyət" jurnalının məsul katibi (redaktoru),"Azərnəşr"in direktoru, teatr idarəsinin sədri olub. 1926-1927-ci illərdə Ali Pedaqoji İnstitutun direktoru olub. İnstitut ADU-nun Pedaqoji fakültəsinə birləşdiriləndən sonra həmin fakültənin dekanı olub.

1929-1932-ci illərdə Gəncə dairə Partiya Komitəsində təşkilat şöbə müdiri kimi şəhərdə gedən tikinti və yenidənqurma işlərinə rəhbərlik edib. 1932-1934-cü illərdə ASŞC MQQ -İKM ictimai-mədəni qrupun rəhbəri vəzifəsində və Şura Kontrolu Komissiyasının müvəkkili aparatında çalışıb.

1922-1924-cü illərdə Azərb.K(b)P Şəhər Komitəsinin üzvü, 1923-1928-ci illərdə Bakı Şurasının üzvü, 1932-ci ildən Azərb.K(b)P MK Plenumu və Prezidiumu, Azərbaycan Sovet Şuralar Cəmiyyəti Xalq Komissarları Şurasının, Xalq Maarif Komissarlığı Kollegiyasının üzvü olub.

Uzun sürən xəstəlikdən sonra 7 iyun 1934-cü ildə 46 yaşında Bakı şəhərində vəfat edib.

Pənah Ələkbər oğlu Qasımov
(1881-1939)

1881-ci il iyul ayının 22-də Cəbrayıl qəzasının Qarğabazar kəndində anadan olub.İlk təhsilini Qarğabazarda molla məktəbində alıb, sonra kənddəki üçsinifli məktəbi bitirib.1901-1905-ci illərdə dövlət vəsaiti hesabına Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində, 1905-1907-ci illərdə isə Bakı müəllimlərinin xeyriyyə cəmiyyətinin vəsaiti hesabına Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunda təhsil alıb. Qori və Tiflisdə aldığı təhsil onun dünyagörüşünün formalaşmasında mühüm rol oynayıb. Ali təhsilini

başa vurduqdan sonra Lənkəran şəhər məktəbinə müəllim təyin edilib. 1907-1909-cu illərdə Lənkəran şəhər məktəbində, 1909-1920-ci illərdə Bakıdakı 6 sinifli şəhər məktəbində (bəzi mənbələrə görə, 6-cı rus-tatar məktəbində) və 3-cü ali ibtidai məktəbdə tarix müəllimi işləyib. 1917-ci ildə "Əkinçi" partiyasına, 1918-ci ildə "Hümmət" təşkilatına, 1920-ci ildə Kommunist (bolşevikər) Partiyasına üzv qəbul edilib.1920-ci ildə Bakı Kişi Müəllimləri Seminariyasına direktor təyin olunub. Məktəbə rəhbərlik etməklə yanaşı, o həm də ictimaiyyat fənnindən dərs deyib. 1926-cı ildə Bakıdakı kişi və qadın seminariyaları birləşdirilərək Bakı Müttəhid (Birləşmiş) Pedaqoji Texnikuma çevrildi. P.Qasımov məktəbin direktoru, C.Cəbrayılbəyli tədris işləri üzrə direktor müavini təyin olundu. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayda iştirak edən 19 nəfər azərbaycanlıdan biri olub. 1928-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarının müavini vəzifəsinə irəli çəkilib. 1929-1930-cu illərdə yenidən təşkil edilən Ali Pedaqoji İnstitutun direktoru olub. 10 dekabr 1930-cu ildə vəzifəsindən azad edilərək Azərbaycan K(b)P MK-nın xüsusi tapşırığı ilə Zaqatala və Nuxa qəzalarında, Qarabağ dairəsində partiyanın kollektivləşdirmə ilə bağlı göstərişlərinin həyata keçirilməsinə cəlb edilib. 1920-1929 -cu illərdə Azərbaycan SSR Maarif İşçiləri Həmkarlar İttifaqının sədri olub. Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun 12 oktyabr 1929-cu il tarixində seçilmiş ilk 52 nəfər həqiqi üzvündən biri olub.1932-ci ildə həmin institutun bazası əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi təşkil edilib. 1935-ci ilin oktyabrında şöbə SSRİ EA Azərbaycan filialına çevrilib. SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 23 yanvar tarixli qərarı ilə SSRİ EA Azərbaycan filialı Azərbaycan Elmlər Akademiyasına çevrilib.

Azərbaycan və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitələrinin, Azərbaycan K(b)P MK-nın və Bakı Komitəsinin üzvü, Bakı sovetinin deputatı olub. Partiya işindəki fəallığına görə 1935-ci ildə Azərbaycan K(b)P MK-nın Fəxri fərmanı ilə təltif edilib.

1926-1929 -cu illərdə "Maarif işçisi"nin, 1935-1936 -cı illərdə "Müəllimə kömək"jurnalının redaktoru olub. Repressiya illərində həbs olunub. Həbsdən azad edilsə də, çox yaşamayıb, 1939-cu ildə vəfat edib və Füzuli rayonunun Qarğabazar kəndində dəfn edilib.



Məmməd Abbas oğlu Bayramov
(1898-1938)

1898-ci ildə Gəncə şəhərində (bəzi sənədlərdə Nərimanov rayonunun (indiki Göygöl rayonunun) Zurnabad kəndi göstərilir) muzdur ailəsində anadan olub. 1913-1917-ci illərdə Gəncə Müəllimlər Seminariyasında oxuyub. Bir müddət Gəncədə müəllimlik edib. 1918-1920-ci illərdə Milli Ordunun əsgəri olub. 1920-ci ilin iyun- dekabr aylarında Qızıl Orduda pulemyot dəstəsinə rəhbərlik edib.

1921-1922-ci illərdə Gəncədə Xalq Maarif Şöbəsinin inspektoru olub. 7 ay Gəncədəki hərbi hissədə məktəb işlərinə rəhbərlik edib. 1923-1928-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin tarix şöbəsində ali təhsil alıb. Təhsil illərində ictimai-siyasi və pedaqoji fəaliyyətini davam etdirib. 1924-1928-ci illərdə Azərbaycan diviziyasında məktəb işləri şöbəsinin rəisi vəzifəsində çalışıb. Ordudan tərxis olunduqdan sonra 1929-1930-cu illərdə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun Rusiyada sinfi mübarizə tarixi kafedrasının dosenti olub, sinfi mübarizə tarixi ilə bağlı araşdırmalar aparıb.

Azərbaycan K(b)P MK-nın qərarı ilə 1 yanvar 1931-ci ildə Ali Pedaqoji İnstituta direktor təyin edilib. O, 1933-cü ilin mart ayına kimi həmin vəzifədə çalışıb. Bir müddət Tovuz rayon Xalq Maarif Şöbəsinə rəhbərlik edib. Xalq Maarif Komissarlığında pedaqoji kadr hazırlığı idarəsinin əməkdaşı olub. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət heyəti tərəfindən 26 sentyabr 1935-ci ildə Azərbaycan Mərkəzi Arxiv idarəsinin müdiri təyin edilib. 11 fevral 1937-ci ildə işdən azad edilib və xalq düşməni kimi həbs olunub.

3 iyul 1938-ci ildə Bakı şəhərində güllələnib.

Bəşir Nurəli oğlu Bünyatov
(1895- 1967)

1895-ci ildə Gəncə quberniyasının Zəngəzur qəzasının Yuxarı Kiratağ kəndində (Qafan rayonu) yoxsul kəndli ailəsində anadan olub. 9-10 yaşında kənd uşaqları ilə birlikdə iş dalınca Bakıya gəlib. Mantaşev qardaşlarının Ramanadakı mədənlərində əmək fəaliyyətinə başlayıb. 1913-1915-ci illərdə Sabunçudakı ibtidai məktəbdə oxuyub. 1915-1917-ci illərdə pedaqoji kurslarda təhsil alıb. 1917-ci ilin aprelində Ramanı fəhlələri tərəfindən Bakı Sovetinə üzv seçilib. Həmin ilin iyun ayında Ramanı rayonu üzrə ərzaq komissarı təyin olunub. 1917-ci ilin iyul ayında bolşeviklər partiyasına daxil olub. Həmin ildə Ramanı rayon partiya komitəsinin katibi, 1918-ci ilin mart ayında isə Bakı qəzası kəndli Deputatları Şurası İcraiyyə Komitəsinə üzv seçilib. Suraxanı neft sənayesi işçiləri ittifaqının və Suraxanı "Hümmət" təşkilatının yaradıcılarından biri olub. 1919-1920-ci illərdə Suraxanı rayon "Hümmət" təşkilatının məsul katibi, Suraxanı fəhlə klubunun sədri olub. 1920-ci ilin fevralında gizli şəkildə keçirilən Azərbaycan Kommunist Partiyasının I qurultayının iştirakçısı olub. 1921-1923-cü illərdə Bakı Sovetində inzibati şöbənin rəisi, 1923-1925-ci illərdə Şuşa qəza İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışıb. AK(b)P MK Azərbaycan SSR Xalq Komissarları Soveti yanında "Savadsızlığı ləğvetmə komitəsi"nin üzvü olub. 1924-1925-ci illərdə Azərbaycan SSR XMK Baş siyasi maarif idarəsinin müdiri vəzifəsində çalışıb. 8 mart 1924-cü ildə Azərbaycan SSR XMK Baş siyasi maarif idarəsinin savadsızlığı ləğv etmək sahəsində gördüyü işlər haqqında məruzə edib. 1926-cı ildə Azərbaycan KP MK-nın birinci katibi L.Mirzoyan tərəfindən Şuşa qəza İcraiyyə Komitəsinin sədri vəzifəsindən azad olunub. 1926-1927-ci illərdə Zaqatala qəza partiya komitəsinin katibi vəzifəsində işləyib. Azərbaycan SSR Xalq Maarif Komissarlığında təşkilat şöbəsinin müdiri olub. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Sovet hüququ şöbəsini bitirib. Azərbaycan Dövlət Pedaqoji İnstitutun direktoru, Azərbaycan Həmkarlar İttifaqları Şurasında mədəniyyət şöbəsinin müdiri (1934), Azərbaycan KP MK -da təlimatçı (1935), Baş Ət Birliyi idarəsində rəis (1936-1939) vəzifələrində işləyib.1939-1941-ci illərdə Partiya Arxivində baş elmi işçi kimi fəaliyyət göstərir.

"Lenin" və "Qırmızı Əmək Bayrağı" ordenləri, 8 medalla təltif olunub, Əməkdar müəllim fəxri adına layiq görülüb. Ümumittifaq dərəcəli fərdi təqaüdçü olub.

1967-ci il aprelin 13-də Bakı şəhərində vəfat edib və Fəxri Xiyabanda dəfn olunub.

Mirzə Sultan oğlu Məmmədov
(1901- 1938)

1901-ci ildə Bakıda anadan olub. 1914-1918-ci illərdə Bakıda ali ibtidai məktəbdə oxuyub. 1917-ci ildə fevral inqilabı ərəfəsində inqilabi hərəkata qoşulub. 1918-ci ildə Bakı Politexnik Məktəbinə daxil olub. 1920-ci ildə "Ədalət", "Hümmət" və RK(b)P ilə sıx əməkdaşlıq edib. Azərbaycan sovetləşdirildikdən sonra AK(b)P-nin Zığ rayon komitəsinin katibi və Bakı komitəsinin hərbi şöbəsində təlimatçı işləyib. Ali təhsil almaq məqsədilə 1920-ci ildə Moskvaya, Sverdlov adına Universitetə göndərilib. Burada cəmi 6 ay oxuyub. 1921-ci ildə Moskvada Şərq Zəhmətkeşləri Kommunist Universiteti təşkil edildiyinə görə digər şərq xalqlarının nümayəndələri ilə birlikdə həmin instituta köçürülüb. Universitetdə partiya işlərinin təşkili ona həvalə edilib. 1923-cü ildə partiya özəyinin katibi seçilib. 1924-cü ildə Bakıya qayıdıb və Azərbaycan K(b)P Qala-Maştağa rayon komitəsinin katibi təyin olunub. 1926-cı ildə Azərbaycan K(b)P Bakı komitəsinin üzvü seçilib. 1926-1931-ci illərdə Moskva şəhərində yaşayıb, 1926-1927-ci illərdə Şərq Zəhmətkeşləri Kommunist Universiteti partiya komitəsinin katibi olub. 1927-1931-ci illərdə həmin universitetin aspiranturasında təhsil alıb. 1931-1932-ci illərdə Azərbaycan K(b)P MK-da mədəniyyətin təbliği şöbəsinin müdir müavini və nəşriyyat şöbəsinin müdiri olub. 1932-1933-cü illərdə AK(b)P-nin Nuxa rayon komitəsinə rəhbərlik edib. 1933-cü ilin dekabr ayında Azərbaycan K(b)P MK-nın büro iclasında Azərbaycan Pedaqoji İnstitutuna direktor təyin edilib. 14 may 1936-cı ilə kimi Azərbaycan Pedaqoji İnstitutunun direktoru vəzifəsində çalışıb. 14 may 1936-cı ildə Azərbaycan KP(b)P MK-nın qərarı ilə Azərbaycan Pedaqoji İnstitutunun partiya komitəsinin katibi seçildiyinə görə direktor vəzifəsindən azad edilib. Onun yerinə ADPİ-nin direktoru

vəzifəsinə Azərbaycan Partiya Nəşriyyatının direktoru Mirzə Davud Rəsulzadə təyin olunub.

Mirzə Məmmədov 1937-ci ildə əks-inqilabi fəaliyyətdə, casusluqda, anti-sovet təbliğatı aparmaqda şübhəli bilinərək həbs olunub. 3 iyul 1938-ci ildə trotskiçi, millətçi, ziyankar, casus və terrorçu kimi günahkar bilinərək Bakıda güllələnib.

Mirzə Davud Məsim oğlu Rəsulzadə
(1899-1943)



1899-cu ilin aprel ayında Gəncədə ruhani ailəsində anadan olub. 1908-1914-cü illərdə Gəncə 6 sinifli şəhər məktəbində, 1914-1918-ci illərdə isə Tiflisdəki orta ixtisas texniki məktəbində təhsil alıb. 1918-ci ildə Tiflis Politexnik İnstitutunun hidromexanika fakültəsinə daxil olub. 1921-ci ilə kimi Tiflisdə həm ali təhsil alıb, həm də su təsərrüfatı idarəsində (1917-1919), Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyində (1920-1921) işləyib. Azərbaycan SSR-in Ankarada səlahiyyətli nümayəndəsinin katibi (1921-1922) təyin olunduğundan diplom işini təqdim edə bilməyib. Tiflisdə Azərbaycan dilində nəşr olunan "Yeni fikir" (1924), "İşıq yolu" (1927-1928) və "Yeni kənd" (1930) qəzetlərinin redaktoru olub. 1932-1933-cü illərdə Zaqafqaziya Kommunist Universitetinin tədris işləri üzrə prorektoru və Partiya quruculuğu və leninizm kafedrasının müdiri olub. Zaqafqaziya Elmi Tədqiqat İnstitutunda direktor müavini vəzifəsində çalışıb.1927-ci ildə Gürcüstan Xalq Maarif Komissarlığının ixtisas komissiyası tərəfindən ona dosent adı verilib. 1931-ci ildə Zaqafqaziya Kommunist Universitetində çalışarkən professor vəzifəsinə seçilib.

1920-ci ildən ömrünün sonuna kimi partiya işində çalışıb. Ayrı-ayrı vaxtlarda Zaqafqaziya Diyar Partiya Komitəsinin kəndlərlə iş şöbəsinin müdiri, təbliğat-təşviqat şöbəsinin müdir müavini və Gürcüstan K(b)P MK-nın üzvü olub (1928). Axalkalakidə qəza İcraiyyə Komitəsinin sədr müavini (1924-1925), Borçalıda İcraiyyə Komitəsinin sədri (1925-1926), Azərbaycan SSR Naxçıvan Vilayət Partiya Komitəsinin məsul katibi (1931-1932) olub. 9 fevral 1933-cü ildə Zaqafqaziya Diyar Komitəsi tərəfindən Azərbaycan K(b)P

MK-nın sərəncamına göndərilib. Azərbaycan hökuməti onu ev və maşınla təmin edib. Elə həmin ildə Azərbaycan K(b)P Salyan rayon komitəsinin katibi seçilib. 1934-cü ildə Azərbaycan Partiya Nəşriyyatına direktor təyin edildi. 14 may 1936-cı ildən 31 fevral 1937-ci ilə kimi Azərbaycan Pedaqoji İnstitutunun direktoru olub. Azərbaycan Xalq Maarif Komissarlığının 23 avqust 1936-ci il tarixli 765 №-li əmri ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu Azərbaycan Pedaqoji İnstitutunun nəzdinə verildiyindən Mirzə Davud Rəsulzadə həm də Azərbaycan ETPEİ-nin (indiki Təhsil İnstitutu) əvəzçiliklə direktoru olub. Azərbaycan SSR Xalq Komissarları Sovetinin incəsənət işləri komitəsinin sədri vəzifəsində çalışan Mirzə Davud Rəsulzadə 22 dekabr 1937-ci ildə əmlakı müsadirə olunmaqla həbs edilərək sürgünə göndərilmişdir.

1943-cü ildə Xabarovsk diyarının Olski rayonunun Omçak qəsəbəsindəki həbs düşərgəsində ürək tutmasından vəfat edib.

Hüseyn Məmməd oğlu Musayev
(1889-1956)

19 oktyabr 1889-cu ildə Şamaxı şəhərində anadan olub. Şamaxı şəhər məktəbini bitirib. Quba qəzasının ayrı-ayrı kəndlərində müəllimlik edib. 1905-1910 -cu illərdə Şamaxıda fəaliyyət göstərən maarif cəmiyyətinin üzvlərindən biri kimi xeyriyyə tədbirlərində fəal iştirak edib. 1911-1918-ci illərdə Quba qəzasının (indiki Qusar rayonu) Uqur, Xəzri məktəblərində müdir və müəllim, 1918-1921-ci illərdə Qusar rayonunun ibtidai məktəblərində müəllimlik edib. 1921-1924-cü illərdə Quba qəza xalq maarif şöbəsinə rəhbərlik edib.1921-ci ildə Quba qəzasının nümayəndə heyətinin tərkibində Moskvada -Xalq Komissarları Sovetinin sədri V.İ.Leninlə görüşüb.

1924-1926-cı illərdə Azərbaycan Xalq Maarif Komissarlığının sosial tərbiyə idarəsinin müdiri olub. AK(b)P-nin Naxçıvan Partiya Komitəsinin 28 oktyabr 1926-cı ildə keçirilən Plenumunda (protokol 4) Həmid Sultanovun yerinə Naxçıvan Xalq Komissarları Sovetinin sədri təyin olunub. Həmin vəzifədə 10 mart 1928-ci ilə kimi işləyib. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsinin üzvü kimi Naxçıvan Respublikasının maddi

mədəniyyət abidələrinin, etnoqrafiyasının, tarix və ədəbiyyatının, iqtisadiyyat və təbiətinin öyrənilməsində iştirak edib. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayın işində Naxçıvan MİK-in təmsilçisi kimi iştirak edib. Azərbaycan Xalq Maarif Komissarlığında Siyasi Maarif Baş İdarəsinin (1928-1930) və Maarif işçiləri Mərkəzi İdarəsinin sədri (1930-1931) olub. 1931-1932-ci illərdə Azərbaycan Respublikasının Dövlət Plan Komitəsinin sədri olub. 1932-1934-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun direktoru vəzifəsində çalışıb. 1934-1936-cı illərdə Kənd Təsərrüfatı Komissarlığında kadr hazırlığı şöbəsinə rəhbərlik edib.

Azərbaycanda ictimai-siyasi vəziyyətin kəskinləşdiyi, repressiyanın tüğyan etdiyi ildə 1937-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna direktor təyin edilib. 10 aya yaxın bir müddətdə instituta rəhbərlik edib. 1937-ci ildə həbs edilib. 16 sentyabr 1937-ci ildən 16 sentyabr 1942-ci ilə kimi sürgündə olub.

1943-1947-ci illərdə Xalq Maarif Komissarlığının evlər idarəsinin rəisi, 1947-1954-cü illərdə Zağulba uşaq sümük-vərəm sanatoriyasının direktoru vəzifəsində çalışıb.

15 iyun 1956-cı ildə ağır sürən xəstəlikdən sonra vəfat edib.

Aqil Qasım oğlu Salayev
(1900-1973)

1900-cü ilin mart ayının 10-da Lənkəran qəzasının Olxovka kəndində anadan olub. Valideynləri kənd təsərrüfatı və balıqçılıqla məşğul olub. İlk təhsilini mollaxanada alıb. 1922-ci ilə qədər kənddə təsərrüfat işləri ilə məşğul olub. 1922-1928-ci illərdə hərbi xidmətdə olub, sıravi əsgərdən rotanın siyasi rəhbəri vəzifəsinədək yüksəlib. 1928-ci ildə işçi fakültəsində oxuyub. Bakı işçi fakültəsinin 1929-cu ildə ona verdiyi göndəriş əsasında Universitetə qəbul olunub. 1932-ci ildə institutun Fizika-riyaziyyat fakültəsini, 1935-ci ildə isə aspiranturasını bitirib.

1935-1937-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinin dekan müavini, 1937-1939-cu illərdə direktoru, 1939-1942-ci illərdə dekanı vəzifələrində işləyib. ADPİ-nin direktoru olarkən Azərbaycan

Xalq Maarif Komissarının müavini Allahverdiyevin 2443/73 №-li 15 oktyabr 1937-ci il tarixli əmri ilə həm də Azərbaycan Dövlət Pedaqoji İnstitutunun nəzdində fəaliyyət göstərən Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutuna rəhbərlik edib. 1942-1944- cü illərdə Bakının Oktyabr (indiki Yasamal) rayon xalq maarif şöbəsinə, 1944-1947-ci illərdə Bakı şəhər xalq maarif şöbəsinə rəhbərlik edir. 1947-1965-ci illərdə ADPİ-nin Cəbr, həndəsə və astronomiya kafedrasında baş müəllim işləyib.

1973-cü ilin aprel ayının 10-da vəfat edib.

Camal Əhməd oğlu Əliyev

(1902- 1982)

1902-ci ildə Gəncə qəzasının Mollavələdli (indiki Goranboy rayonunun Şəfəq kəndi) kəndində anadan olub. Atası beş yaşında vəfat etdiyindən 2 il (1905-1907) əmisinin, 3 il (1907-1910) digər qohumunun himayəsində yaşayıb. 1911-ci ildə böyük qardaşı onu öz yanına, Zabrata gətirib. 3 illik şəhər rus məktəbində və Sabunçuda 4-cü şəhər ikiillik məktəbin 3-cü sinfində təhsil (1914-1916) təhsil alıb. Maddi çətinlik ucbatından təhsilini yarımçıq qoymalı olub. 1916-1917-ci illərdə Zabratdakı qazanxanada telefonçu köməkçisi işləyib.

İctimai-siyasi vəziyyətin dəyişməsi, fəhlələrin ara verməyən tətilləri onu və qardaşını kəndə qayıtmağa məcbur edir. 1917-1924-cü illərdə doğma kəndlərində təsərrüfatla məşğul olub. 1921-ci ildə komsomol sıralarına daxil olub. 1923-1924-cü illərdə kənddəki komsomol özəyinə rəhbərlik edib. 1924-cü ildə Qırmızı Ordu sıralarına hərbi xidmətə çağırılır. Azərbaycan diviziyasının I polkunda xidmətə başlayır. 1924-1926-cı illərdə Azərbaycan diviziyasının I polkunda ştatdankənar müəllim işləməklə yanaşı, əsgərlərə siyasi dərs verib, polkun partiya kollektivinin texniki katibi olub. 1926-1927-ci illərdə polkda ştatlı müəllim kimi fəaliyyət göstərib, siyasi maarif kabinetinə rəhbərlik edib, 1-ci rotanın siyasi rəhbəri (ştatdankənar) olub. 1925-1927-ci illərdə hərbi xidmətdə ola-ola Bakı Xalq Maarif Şöbəsinin nəzdindəki ikiillik Fəhlə fakültəsinin pedaqoji bölməsinin axşam şöbəsində təhsil alıb. 1927-ci ildə Zaqafqaziya Qırmızı Ordu Siyasi İdarəsinin göndərişi ilə oxumağa göndərilib.

1927-1931-ci illərdə Zaqafqaziya Kommunist Universitetində təhsil alıb. 1931-1933-cü illərdə Zaqafqaziya Kommunist Universitetinin Fəlsəfə şöbəsinin aspiranturasında oxuyub. 1928-1931-ci illərdə Tbilisi şəhərindəki Azərbaycan Pedaqoji Texnikumunda leninizm kursundan dərs deyib. Gürcüstan azərbaycanlıların mədəni həyatında mühüm rol oynayan Nəriman Nərimanovun adını daşıyan həmin texnikum 1925-ci ildə təşkil edilmişdi.

1931-1932-ci illərdə Gürcüstan Kommunist Universitetinin Azərbaycan şöbəsində, Zaqafqaziya partiya fəallarının və kolxozçuların kurslarında dərs deyib. 1933-cü ildə ÜİP(b)P-nin Zaqafqaziya Komitəsi tərəfindən Kirovabad (Gəncə) Kənd Təsərrüfatı İnstitutuna müəllim göndərilib. 1933-1934-cü illərdə həmin institutda o, leninizmdən, dialektik materializmdən dərs deyib, İqtisadiyyat fakültəsinə rəhbərlik edib.

1934-cü ildə Tiflisə -Zaqafqaziya Ali Kommunist Kənd Təsərrüfatı Məktəbinə müəllim dəvət olunub. Həmin illərdə Zaqafqaziya Rabitə Mühəndisliyi İnstitutunda dialektik materializm fənnini tədris edib. 1935-ci ildə "Marks və Leninin materialist nəzəriyyəsi" mövzusunda dissertasiya işi üzərində işləmək məqsədilə 3 aylıq Moskvaya -ÜİK(b)P MK yanında Təkmilləşdirmə İstitutuna elmi ezamiyyətə göndərilib.

1936-cı ildə ÜİK(b)P MK tərəfindən Azərbaycan K(b)P MK-nın sərəncamına göndərilir. Partiya fəalları respublika kursunun (1936-1937), təbliğatçılar kursunun (1937) müdiri, Marksizm-Leninizm İnstitunun direktoru və ÜİK(b)P tarixi və leninizm kafedrasının müdiri (1937), Bakıda yerləşən Azərbaycan Ali Kommunist Kənd Təsərrüfatı İnstitutunda müəllim və tədris hissə müdiri (1936-1938) işləyib.

ÜİK(b)P MK 14 noyabr 1938-ci ildə "ÜİK(b)P tarixinin qısa kursu"nun nəşri ilə əlaqədar olaraq daimi partiya təbliğatı qrupunun yaradılması haqqında qərar qəbul etdi. Həmin qərara uyğun olaraq Azərbaycanda da təbliğat qrupu yaradıldı. Azərbaycan KP MK-nın 28 dekabr 1938-ci il tarixli qərarı ilə Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinə mühaziraçi təyin olunmuşdur. Bir il sonra -Azərbaycan KP MK-nın 25 noyabr 1939-cu il tarixli iclasında Azərbaycan Pedaqoji İnstitutunda beynəlmiləl tərbiyənin vəziyyəti müzakirə olundu. İnstitutda azərbaycanlı tələbənin münaqişə nəticəsində erməni tələbəni döyməsi beynəlmiləlçiliyə əməl edilməməsi kimi dəyərləndirildi və bunun da nəticəsində institutun rəhbərliyi dəyişdirildi. Camal Əliyev Azərbaycan Pedaqoji İnstitutuna direktor təyin olundu. O, bu vəzifədə 14 mart 1940-cı ilə kimi işləyib. Pedaqoji işdən ayrıldıqdan sonra təqaüdə çıxana kimi Bakı şəhər Partiya Komitəsində ideoloji şöbədə çalışıb. Bakı şəhər sovetinin deputatı olub.

12 sentyabr 1982-ci ildə Bakıda vəfat edib.

Ələsgər Mahmud oğlu Həşimov
(1904-1976)

1904-cü ildə Bakı quberniyasının Göyçay qəzasının Alpoud kəndində anadan olmuşdur. Atası xırda ticarətlə məşğul olub. Uşaq olarkən ailəsi ilə birlikdə Şamaxı şəhərinə köçüb. 1911-1914-cü illərdə Şamaxı şəhər rus-tatar məktəbində, 1914-1916-cı illərdə "Üxüvvət" məktəbində, 1916-1917-ci illərdə ali ibtidai məktəbdə təhsil alıb. 1917-ci ildə ailə yenidən Alpoud kəndinə qayıtdığına görə ali ibtidai məktəbi bitirə bilməyib. Atası 1918-ci ildə, evdar qadın olan anası 1920-ci ildə vəfat etmişdir. 1919-1923-cü illərdə Zaqafqaziya Dəmir Yolunun Müsüsli stansiyasında yerləşən un dəyirmanında yağdəyişdirici işləyib. Bakıya gələrək Qala-Maştağa rayonunun Maştağa kəndində icraiyyə nümayəndəliyində iş icraçısı işləyib. Burada partiya sıralarına daxil olub. İşlədiyi vəzifə ləğv edildiyindən 1926-1927-ci illərdə kənd klubunun müdiri vəzifəsində işləyib. 1923-1924-cü illərdə Maştağa kəndində su nasos stansiyasında çilingər, 1924-1925-ci illərdə elektrik stansiyasında çilingər, 1925-1926-cı illərdə iş icraçısı, 1927-1928-ci illərdə kənd təsərrüfatı anbarının müdiri işləyib. 1928-1929-cu illərdə un dəyirmanında yağ dəyişdirici işləyib. 1929-cu ilin mart ayında Azərbaycan K(b)P MK-da işlər müdiri təyin olunub. Sonra partiyanın göstərişi ilə rayon icraiyyə komitəsinə işə göndərilib. 1931-ci ilin yanvar ayından noyabr ayına kimi Azərbaycan K(b)P Qala-Maştağa rayonunda şöbə müdiri vəzifəsində işləyib. 1931-ci ildə Azərbaycan K(b)P MK-nın göndərişi ilə Azərbaycan Kommunist Universitetinin tədris şöbəsinin katibi təyin edilib. 1932-ci ildə Zaqafqaziya Xalq Komissarları Sovetinin İqtisadi-Tədqiqatlar İnstitutuna təhsil almaq üçün göndərilib. 2 sentyabr 1932-ci ildə Marksizm-leninizm İnstitutuna dəyişdirilib. Həmin institutu 1937-ci ildə bitirib. 5 sentyabr 1948-ci ildə ÜİK(b) MK-nın Marksizm-leninizm İnstitutunun Azərbaycan filialında ona verilən arayışda bildirilir ki, institutu bitirdikdən sonra o, Partiya Tarixi İnstitutuna elmi işçi göndərilib. 1938-1940-cı illərdə partiya kurslarının direktoru olub.

1935-1937-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda siyasi-iqtisad fənnini tədris edib.1 sentyabr 1937-ci ildən 23 fevral 1938-ci ilədək A.Zeynallı adına Azərbaycan Dövlət Konservatoriyasında Sosial-iqtisadi fənlər kafedrasının müdiri olub. 1 sentyabr 1937-ci

ildən 1 sentyabr 1939-cu illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda Siyasi-iqtisad kafedrasında dosent vəzifəsində çalışıb. 15 mart 1940-cı ildən 16 dekabr 1941-ci ilə qədər Pedaqoji İnstitutun rektoru olub. 29 oktyabr 1941-ci ildən 8 aprel 1943-cü ilə qədər Xalq Maarif Komissarlığının müavini olub.1943-1944-cü illərdə Pedaqoji İnstitutda direktor müavini və müəllim olub.1944-1947-ci illərdə Azərbaycan SSRİ Xalq Komissarları Sovetinin nəzdindəki Dövlət Plan Komitəsində Mədəniyyət və səhiyyə şöbəsinin müdiri olub. 1 sentyabr 1946-cı ildən 25 avqust 1947-ci ilə kimi Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda siyasi-iqtisad müəllimi işləyib. 1948-1951-ci illərdə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda və Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda müəllim işləyib. 16 fevral 1949-cu ildə Marksizm-leninizm kafedrasının müdir vəzifəsinin icrası ona həvalə olunub. 11 aprel 1949-cu ildə Azərbaycan SSR Maarif Nazirliyinin əmri ilə institutun Elmi Şurasının tərkibinə daxil edilib. 23 sentyabr 1949-cu ildə kafedra müdiri vəzifəsindən azad olunub, həmin kafedrada siyasi-iqtisad müəllimi saxlanılıb. 12-18 may 1950-ci ildə Şamxor, Gədəbəy, Tovuz, Ağstafa, Qazax rayonlarında şagirdlər arasında ali məktəbə hazırlıqla bağlı söhbət aparmaq üçün məzuniyyətdə olub. 7 fevral 1950-ci ildə Qiyabi Pedaqoji İnstitutda işləməsi ilə əlaqədar olaraq 0,5 ştata keçirilib. 18 may 1951-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda Marksizm-leninizm kafedrasına baş müəllim vəzifəsinə təyin olunub və ömrünün sonuna kimi həmin kafedrada işləyib. "Azərbaycanın pambıqçılıq kolxozlarında saxlaqçılıq hərəkatının inkişafı" mövzusunda dissertasiya üzərində çalışıb. İnstitutda marksizm-leninizm klassiklərinin əsərlərinin öyrənilməsi ilə bağlı seminar təşkil edib, siyasi dərnəyin rəhbəri olub. Azərbaycan SSR Ali Sovetinin deputatı olub.

1976-cı ildə Bakı şəhərində vəfat edib.

Ağamməd Səməd oğlu Abdullayev

pedaqoji elmlər doktoru, professor

(1909-1979)

15 mart 1909-cu ildə Bakı şəhərində dəmirçi ailəsində anadan olmuşdur. Bakı şəhərindəki 44 №-li orta məktəbi (1921), Bakı Pedaqoji Texnikumunu (1926), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsini (1930) bitirmişdir. 1926-1929-cu illərdə Bakı şəhərindəki 29№-li məktəbdə, 1929-1932-ci illərdə Bakı Pedaqoji Texnikumunda Azərbaycan dili və ədəbiyyatı müəllimi, 1932-1939-cu illərdə Azərbaycan KP MK-nın nəzdindəki

Azərbaycan Kommunist Universitetində baş müəllim və kafedra müdiri işləmişdir. 1935-1936-cı illərdə Bakı Partiya Komitəsinin birillik kursunda oxumuş, Bakı şəhər Xalq Maarif şöbəsində metodist (1935-1939), Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim, Dil və ədəbiyyat fakültəsinin dekanı (1939-1941), Azərbaycan Dövlət Universitetində baş müəllim (1941-1942), M.F.Axundov adına Azərbaycan Müəllimlər İnstitutunun direktoru (1942-1943) işləmişdir. Ağamməd Abdullayevin həyatının mühüm bir hissəsi Azərbaycan Dövlət Pedaqoji İnstitutu ilə bağlıdır. O, burada direktor (1943-1944), kafedra müdiri (1944-1945; 1949-1953; 1970-1979), elmi işlər üzrə prorektor (1966-1969) vəzifələrində çalışıb.

1944-1949-cu illərdə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda əvəzçiliklə müəllim, 1946-1949-cu illərdə isə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda baş elmi işçi və elmi katib, 1966-1970-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun direktoru vəzifəsində çalışıb. 1942-ci ildə "Orta məktəbdə Azərbaycan dili tədrisi metodikası" mövzusunda namizədlik, 1958-ci ildə "Azərbaycan dilinin tədrisi tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Respublikamızda fənlərin tədrisi metodikası üzrə ilk elmlər doktorudur. 1958/59-cu tədris ilində ADPİ-də Azərbaycan dili və onun tədrisi metodikası kafedrasını yaratmış, ömrünün sonuna kimi həmin kafedraya rəhbərlik etmişdir. 27 nəfərin namizədlik dissertasiyasının elmi rəhbəri, 10 nəfərin namizədlik və doktorluq dissertasiyasının rəsmi opponenti olmuşdur.1960-1975-ci illərdə "Azərbaycan dili və ədəbiyyat tədrisi" məcmuəsinin redaktoru olmuşdur.

Bədii yaradıcılığa "Dəfinələr adası" əsəri ilə başlayıb. Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı 150-dən artıq dərslik, dərs vəsaiti, kitab, kitabça və elmi məqalə nəşr etdirmişdir. "Ədəbiyyat müntəxəbatı" (1936), "Azərbaycan dili" (1938), "Oxu kitabı" (1938), "Qiraət kitabı" (1944), "Ana dili" (1950), "Əlifba" (1963) kitabları ölkəmizdə dərslik yaradıcılığının inkişafında mühüm rol oynamışdır. "Rus məktəblərində Azərbaycan dili tədrisinin metodikası" (1960;1971), "Üslubiyyat məşğələlərinin metodikası" (1961), "İbtidai məktəbdə Azərbaycan dilinin tədrisi metodikası" (1962), "Orta məktəbdə Azərbaycan dili tədrisi metodikası" (1964), "Azərbaycan dilinin tədrisi tarixindən" (1966), "İbtidai siniflərdə ana dili tədrisinin metodikası" (1968),

"Nitq mədəniyyəti və natiqlik məharəti haqqında" (1968), "Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası" (1968;1978) adlı dərslik və dərs vəsaitlərinin müəllifidir.

Azərbaycan KP Bakı Komitəsi rayon plenumunun üzvü, rayon məhkəməsində xalq iclasçısı, ADPİ-nin partiya komitəsinin katibi olub. 1948, 1967 və 1969 -cu illərdə Bakı şəhər Zəhmətkeş Deputatlar Sovetinə seçilib, "Qafqazın müdafiəsi uğrunda" (1946), "1941- 1945-ci illərdə Böyük Vətən müharibəsində şərəfli əməyə görə" (1945) medalları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və "SSRİ maarif əlaçısı" (1977) döş nişanı ilə təltif edilib.

1979 -cu ildə Bakı şəhərində vəfat etmişdir.

1999-cu ildə onun haqqında "Ağamməd Abdullayev-90" kitabı nəşr olunub, 2010-cu ildə 100 illik yubileyi ADPU-da təntənəli şəkildə qeyd olunub.

Məmməd Həmid oğlu Ələkbərov

filologiya elmləri namizədi,
Əməkdar müəllim
(1899- 1959)



1899-cu ildə İranın Lisar kəndində anadan olub. 1905-ci ildə, 6 yaşı olanda ailəsi ilə birlikdə Lənkəran şəhərinə köçüb. Bibisinin himayəsində yaşayıb, əvvəlcə kənd məktəbində (molla yanında), sonra Lənkərandakı "Behcət" rus-tatar (Azərbaycan) məktəbində təhsil alıb. 1920-ci ildə pedaqoji kurs bitirərək Astraxanbazardakı (indiki Cəlilabad) I dərəcəli məktəbə müəllim göndərilib. 1921-1923-cü illərdə Lənkəran şəhər 5 nömrəli məktəbdə işləyib. 1923- 1926-cı illərdə Ali Pedaqoji İnstitutda oxuyub. 1926-1928-ci illərdə Quba qəza xalq maarifi şöbəsinin müdiri olub. 1928-ci ildən Azərbaycan Xalq Maarif Komissarlığında metodist, məsul icraçı, ibtidai və orta məktəb idarəsi rəisinin müavini vəzifələrində çalışmaqla yanaşı, Azərbaycan Dövlət Elmi Tədqiqat Məktəblər İnstitutunda, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda əvəzçiliklə dərs deyib. 1939-1942-ci illərdə Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktor müavini olub. Xalq Maarif Komissarlığında kadrlar idarəsinin rəisi, Azərbaycan Xalq maarif komissarının müavini və Xalq maarif komissarı

(1946-1952) olub. 1955-1956 -cı illərdə Nazirlər Soveti sədrinin müavini, Azərbaycanın ilk Mədəniyyət naziri olub.

"Natamam orta və orta məktəblərdə yazı işləri" (1940), "Nizami Gəncəvi haqqında. İbtidai məktəblərin III və IV sinifləri üçün oxu kitabı" (1940), "Orta məktəbdə ədəbi oxu haqqında" (1940), "İbtidai məktəbdə oxu metodikası" (1940), "İbtidai məktəbdə nağıl yazdırmaq üçün materiallar" (1940) kitabları nəşr edilib. Elmi redaktorluğu ilə 30-dan çox dərslik və tədris vəsaiti işıq üzü görüb. Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası ilə bağlı xeyli məqalələr yazıb.

5 iyun 1947-ci ildə "Nizami Gəncəvi və Azərbaycan folkloru" mövzusunda filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 21 avqust 1942-ci ildə Əməkdar məktəb müəllimi fəxri adına layiq görülüb.

Azərbaycan K(b)P MK-nın üzvü, Bakı şəhər sovetinin IV çağırış deputatı, Sov.İKP MK-nın XIX qurultayının nümayəndəsi olub. SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunub.

1959-cu ildə Bakı şəhərində vəfat edib.

Əhməd Yusif oğlu Seyidov

pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi
(1892-1977)

1892-ci ildə mart ayının 31-də Gəncə quberniyasının Qazax qəzasının Aslanbəyli kəndində anadan olub. Yazıb-oxumağı Hacı Mahmud Əfəndinin kənddə açdığı hücrədə öyrənib. Əhməd Ağa Mustafayevin məktəbində oxuyub. Müəlliminin təşəbbüsü ilə 1911-1917-ci illərdə Qori Müəllimlər Seminariyasında təhsil alıb. Pedaqoji fəaliyyətə Aslanbəylidə öz evində məktəb açmaqla başlayıb. 1920-ci ildə Qazax kənd məktəblərinin inspektoru təyin olunub. 1921-1925-ci illərdə Aslanbəyli, Qaymaqlı, Musaköy və Kəmərlidə müəllim və məktəb direktoru işləyib. 1925-ci ilin sentyabrında Azərbaycan Respublikası Xalq Maarif Komissarlığı kollegiyasının qərarı ilə Lənkəran Qəza Xalq Maarif şöbəsinə müdir təyin olunub. 1926-1930-cu illərdə dəmir yolu məktəbləri üzrə inspektor vəzifəsində işləyib. Həmin dövrdə o Azərbaycan Dövlət Universitetində qiyabi ali təhsil alıb.

1930-cu ildə Azərbaycan Dövlət Universitetini bitirib. Pedaqoji fəaliyyətə Azərbaycan Pedaqoji İnstitutunda başlayıb. 1931-ci ildə Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasına qəbul olunub, 1932-ci ildə Pedaqoji İnstitutun aspiranturasına köçürülüb. 1931-1932-ci illərdə Pedaqogika kafedrasında assistent kimi fəaliyyət göstərib. 1932-ci ildə dosent vəzifəsinə seçilib. 1934-1936-cı illərdə ADPİ-də Pedologiya-pedaqoji fakültənin dekanı vəzifəsində çalışıb. 1940-cı ildə V.İ.Lenin adına APİ-nin Pedaqogika və psixologiya kafedrasının müdiri seçilmiş, 30 ildən artıq bir müddətdə o kafedraya rəhbərlik etmişdir. 1939-1943-cü illərdə əvəzçiliklə həm də S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində pedaqogika tarixi və nəzəriyyəsindən mühazirələr oxumuşdur.

1939-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində "Abbasqulu Ağa Bakıxanovun pedaqoji görüşləri" mövzusunda namizədlik, 1947-ci ilin 11 dekabrında RSFSR PEA-nın Pedaqogikanın Nəzəriyyəsi və Tarixi Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasında "XIX əsrdə Azərbaycanda pedaqoji fikrin əsas nümayəndələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1947-ci ilin iyul ayında Ali Attestasiya Komissiyası Əhməd Seyidovun yazdığı doktorluq dissertasiyasını təsdiq etmiş və ona professor elmi adı vermişdir.

17 yanvar 1944-cü ildə Azərbaycan SSR Maarif Komissarlığının əmri ilə V.İ.Lenin adına ADPİ-nin elmi işlər üzrə direktor müavini (prorektor), həmin ilin iyun ayında isə direktoru (rektoru) vəzifəsinə təyin edilib. 1950-ci ilə qədər V.İ.Lenin adına APİ-nin direktoru (rektoru) vəzifəsində çalışıb. 1950-1973-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Pedaqogika kafedrasına rəhbərlik edib. Kafedranın inkişafı, pedaqoji və elmi-pedaqoji kadr hazırlığı mərkəzinə çevrilməsi onun adı ilə bağlıdır. 1973-cü ilin 1 sentyabrında öz ərizəsi ilə kafedra müdiri və professor vəzifəsindən azad edilərək professor-məsləhətçi vəzifəsinə keçirilib.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi sahəsində elmi məktəb yaradan prof.Ə.Seyidov həm də təlim və tərbiyə nəzəriyyəsinin mühüm problemləri ilə bağlı araşdırmalar aparmış, 200-ə yaxın kitab, kitabça, monoqrafiya və elmi məqalə nəşr etdirmişdir. "Türk əlifbası" (H.Sanılı ilə birlikdə) (1927), "Kitab üzərində necə işləməli" (1946), "Pedaqogika tarixi" (1959-1960; 1968), "Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən" (1958), "Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən" (1987), "Pedaqogika və psixologiya terminləri lüğəti"nin (1956,1958), Moskvada nəşr olunan 4 cildlik "Pedaqoji ensiklopediya"nın, 2 cildlik "Pedaqoji lüğət"in, "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi oçerkləri" adlı çoxcildlik əsərlərin əsas

müəlliflərindən biri olmuş, “Sovetskaya pedaqogika” jurnalında müntəzəm çıxış etmiş, xalqımızın pedaqoji fikir korifeylərinin pedaqoji irsinin təbliğində böyük əmək sərf etmişdir.

Elmi rəhbərliyi və rəsmi opponentliyi ilə 70-ə qədər pedaqoji elmlər namizədi yetişmişdir. O, həm də Şimali Qafqaz, Orta Asiya respublikaları üçün elmi - pedaqoji kadr hazırlığında yaxından iştirak etmişdir.

“Qafqazı müdafiəyə görə” (1944), “1941-1945-ci illərdə əmək igidliyinə görə” (1945) medalı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları (1960, 1964, 1972), “Qırmızı Əmək Bayrağı ordeni” (1960), “Əmək igidliyinə görə”(1970) medalı, “Əmək veteranı” medalı (1976), “SSRİ maarif əlaçısı” (1977) döş nişanı ilə təltif olunmuşdur. 1969-cu ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Onun adı məktəb və pedaqoji fikir tarixinə ilk azərbaycanlı pedaqoq-alim, Zaqafqaziyada pedaqoji fikir tarixinin tədqiqi sahəsinin pioneri kimi daxil olmuşdur.

1 oktyabr 1977-ci ildə vəfat etmiş, öz vəsiyyətinə görə doğma kənd qəbiristanlığında dəfn edilmişdir.

Cəfər Xəndan Zeynal oğlu Hacıyev

filologiya elmləri doktoru, professor

(1910-1961)

8 may 1910-cu ildə İrəvan şəhərində anadan olub. 1918-ci ildə İrəvan şəhərində ermənilərin fitnə-fəsadından qorunmaq məqsədilə ailəsi ilə birlikdə Gəncəyə köçüb. Gəncədə valideynləri vəfat edib. O, kiçik qardaşı Rəşid və azyaşlı bacısı Leyla ilə 1922-ci ilədək Gəncə uşaq evində yaşayıb. 1922-1925-ci illərdə Gəncə Pedaqoji Texnikumunda oxuyub. Ali təhsil almaq məqsədi ilə Bakıya gəlib və Ali Pedaqoji İnstitutun dil-ədəbiyyat şöbəsinə daxil olub. 1925-1929-cu illərdə Fəhlə fakültəsində müəllimlik edib. Ali Pedaqoji İnstitut ADU-ya birləşdirildiyindən 1930-cu ildə universiteti bitirib. ADU ləğv edildiyindən aspirantura təhsilini Ali Pedaqoji İnstitutda alıb. 17 fevral 1932-ci ildə institutun aspiranturasına qəbul olunan 29 nəfərdən biri olub. 1932-1941-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda assistent, müəllim, dosent, kafedra müdiri vəzifələrində işləməklə yanaşı ədəbi prosesdə fəal iştirak edib, “Ədəbiyyat qəzeti”nin məsul katibi,

"Gənc işçi" qəzetinin ədəbiyyat şöbəsinin müdiri vəzifələrində çalışıb. 1938-ci ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib.

M.F.Axundov adına Müəllimlər İnstitutunda Dil və ədəbiyyat fakültəsində dekan, Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, Azərbaycan Yazıçılar İttifaqının təşkilatı işlər üzrə katibi vəzifələrində çalışıb. 1939 -cu ildə namizədlik dissertasiyası müdafiə edib. Həmin illərdə "Azərbaycan ədəbiyyatı (sovet dövrü)" (1939) dərsliyi, "Sabir (həyat və yaradıcılığı)" (1940) monoqrafiyası nəşr olunub.

1944-1946-cı illərdə Cənub - Qərb, Şimali Qafqaz, Zaqafqaziya cəbhələrində siyasi şöbənin baş təlimatçısı, cəbhə qəzetlərində məsul redaktorun müavini olub. 1944-1946-cı illərdə Təbrizdə "Vətən yolunda" qəzetində çalışıb, Təbriz şairlər məclisinin fəal iştirakçılarından biri olub. "Vətən yolunda", "Şəfəq", "Qızıl siniflər" qəzet və jurnallarda Azərbaycan ədəbiyyatı ilə bağlı maraqlı elmi yazıları dərc olunub.

XX əsr Cənubi Azərbaycan ədəbiyyatının ən məşhur tədqiqatçılarından biri hesab olunur. 1947-ci ildə "1906-1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun ədəbiyyatda inikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1949-cu ildə ona professor elmi adı verilib.

1948-1950-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun direktoru, 1950-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin rektoru, 1952-1961-ci illərdə isə həmin universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifələrində işləyib. Elmi rəhbərliyi ilə 30 nəfər filologiya üzrə elmlər namizədi və doktoru yetişib.

"XX əsr Azərbaycan ədəbiyyatı" (1951), 2 hissəlik "Sovet ədəbiyyatı" (1952), "Cəfər Cabbarlının həyat və yaradıcılığı" (1954), "XX əsr Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" (1955), "Mikayıl Müşfiq" (1956), "Molla Nəsrəddin" (1956), "Mir Cəlal" (1958), "M.Ə.Sabir haqqında" (1958), "Şairin həyatı" (1961), "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" (1962) adlı kitabları çapdan çıxıb. 3 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957) üçüncü cildinin müəlliflərindən biri olub. Şair, tənqidçi, tərcüməçi kimi də maraqlı bir yaradıcılıq yolu keçib. "Bəyaz gecələr" (1936), "Cəbhə şeirləri" (1942), "Qafqaz" (1942), "İlk ayrılıq" (1944), "Mübarizə yollarında" (1946) kitabları nəşr olunub. Nizami Gəncəvinin "Lirika" (1940), M.F.Axundovun "A.S.Puşkinin ölümünə Şərq poeması" (1962), Heyran Xanımın "Qəzəllər" (1975) kitabını fars dilindən tərcümə edib. "Qırmızı ulduz" (1942), "Qırmızı Əmək Bayrağı" (1946) ordenləri, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunub.

10 avqust 1961-ci ildə Bakıda şəhərində vəfat etmişdir. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır.

Mehdi Məmməd oğlu Mehdizadə
SSRİ PEA-nın həqiqi üzvü,
pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi
(1903-1984)

5 yanvar 1903-cü ildə Cəbrayıl qəzasının Daşkəsən kəndində anadan olub. 1919-cu ildə kəndlərindəki rus-tatar (Azərbaycan) məktəbini bitirib. Əmək fəaliyyətinə kənddə qiraət komasının müdiri kimi başlayıb. Cəbrayıl qəza mərkəzindəki altıaylıq pedaqoji kursu bitirdikdən sonra kəndlərindəki I dərəcəli məktəbdə (ibtidai məktəbdə) müəllim işləyib. 1923-cü ildə qəza məktəblərindən yaxşı işinə görə mükafatlandırılan 6 nəfər gənc müəllimdən, 1923-cü ilin mayında Cəbrayıl qəzasından Bakıya üç aylıq pedaqoji kursa göndərilən yeddi nəfərdən biri olub. Pedaqoji kursu bitirdikdən sonra Qəza Xalq Maarif Şöbəsinin göndərişi ilə Azərbaycan Ali Pedaqoji Kişi İnstitutunun hazırlıq kursuna göndərilib. 1924-cü ildə hazırlıq kursunu bitirib və institutun Fizika-riyaziyyat fakültəsinə qəbul olunub. Ali təhsilini uğurla başa vuran Mehdi Mehdizadə Qaryagin (indiki Füzuli) şəhərindəki II dərəcəli məktəbə fizika-riyaziyyat müəllimi təyin olunub. Müəllimlik fəaliyyəti ilə yanaşı, qəza metodiki mərkəzə sədrlik etmək də rəsmi olaraq ona tapşırılıb. 1930-cu ilin martında Azərbaycan Xalq Maarif Komissarlığının İctimai Tərbiyə Baş İdarəsinin elmi katibi və Xalq maarif komissarının birinci müavini Ayna Sultanovanın köməkçisi təyin olunub. 1931-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı nəzdində təşkil edilmiş aspiranturaya (pedaqogika ixtisası üzrə) qəbul olunub, az sonra Azərbaycan ETPEİ-nin, sonra isə Pedaqoji İnstitutun aspiranturasına köçürülüb. 1934-cü ildə Pedaqoji İnstitutda yeni təşkil edilən Pedaqoji fakültənin dekanı vəzifəsinə təyin olunub. Bir illik səmərəli elmi-pedaqoji fəaliyyət və idarəetmə qabiliyyəti onun daha məsul vəzifəyə irəli çəkilməsinə səbəb olub.1934-1942-ci illərdə ADPİ-də və ADU-da direktor müavini vəzifəsində çalışıb. 1941-ci ildə "Azərbaycan məktəblərində savad təlimi tarixi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1942-ci ilin sentyabr ayından 1946-cı ilin iyun ayına kimi sovet-alman müharibəsində iştirak edib. 1946-1951-ci illərdə ADPİ-də elmi-pedaqoji fəaliyyətini davam etdirib. 1950-1951-ci illərdə Pedaqoji İnstitutda direktor vəzifəsində çalışıb.

1951-ci ilin noyabrında Bakı Şəhər Soveti İcraiyyə Komitəsi sədrinin müavini, 1952-ci ilin mart ayında isə Azərbaycan SSR Maarif naziri vəzifəsinə təyin edilib. O, bu vəzifədə cəmi üç il işləyib və 1954-cü ildə yenidən ADPİ-yə qayıdıb. 1956-cı ildə "Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək pedaqoji elmlər doktoru alimlik dərəcəsi alıb. Bir il sonra pedaqogika kafedrasına professor vəzifəsinə seçilib. 1959-cu ilin sentyabrında o, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Komitəsi sədrinin birinci müavini vəzifəsinə təyin olunub. 1960-cı ildə Azərbaycan Kommunist Partiyasının XXIV qurultayında Azərbaycan KP Mərkəzi Komitəsinin üzvlüyünə namizəd seçilib, həmin ilin mart ayında yenidən Azərbaycan SSR Maarif naziri vəzifəsinə təyin olunub. Bir il sonra Azərbaycan KP Mərkəzi Komitəsinin üzvü seçilib.

1961-1965-ci illərdə YUNESKO-nun Yaşlıların Təhsili üzrə Məsləhət Komitəsinin daimi üzvü olmuş, Polşa, Hollandiya, Fransa və Afrika ölkələrdə rəsmi səfərlərdə olub.

Pedaqogikanın tarixi və nəzəriyyəsi ilə bağlı fundamental və sistemli tədqiqatların müəllifidir. 1941, 1958-1959-cu illərdə onun iştirakı və həmmüəllifliyi ilə iki hissədən ibarət "Pedaqogika" dərs vəsaiti nəşr olunub. "Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr" (1958), "Orta məktəb şagirdlərinin əmək tərbiyəsi haqqında" (1960), "Azərbaycan məktəbləri yenidənqurma yollarında" (1960), "Məktəbdə təlim-tərbiyə işlərinin yenidən qurulması" (1961) "Azərbaycan xalq maarifi yeni yüksəlişdə" (1967), "Müasir dərsə verilən tələblər" (1971), "Dərsin təkmilləşdirilməsi yolları" (1979), "Azərbaycan xalq maarifinin sürətli inkişafı" (1980) "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin yolları" (1982) kitabları, Azərbaycanda və xaricdə nəşr edilən onlarla məqalənin müəllifidir. Onun 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"nda, Moskvada nəşr olunan 4 cildlik "Pedaqoji Ensiklopediya"da, 2 cildlik "Pedaqoji lüğət"də, "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi" çoxcildliyində milli təhsil və pedaqoji fikir tarixi, təhsil-tərbiyənin nəzəri və praktik məsələləri ilə bağlı xeyli məqaləsi nəşr olunub.

9 avqust 1967-ci ildə SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü (akademiki) seçilən ilk və son azərbaycanlı alimdir. Yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında böyük xidmətləri olub. Rəhbərliyi və rəsmi opponentliyi ilə Moskva, Tbilisi, Bakıda onlarla namizədlik və doktorluq dissertasiyaları müdafiə olunub. SSRİ Pedaqoji Elmlər Akademiyasının müxtəlif komissiyalarına rəhbərlik edib. Maarif naziri kimi Azərbaycan müəllimlərinin 3 qurultayının (VII, VIII və IX) təşkilatçısı olub.

24 fevral 1980-ci ildə öz ərizəsinə əsasən Azərbaycan SSR Maarif naziri vəzifəsindən azad edilərək, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnsti-

tutuna (indiki Təhsil İnstitutunun) elmi məsləhətçi təyin edilib. Burada o, "Mühüm pedaqoji problemlər" mövzusunda elmi-nəzəri seminara rəhbərlik edib.

"Lenin" ordeni, üç dəfə "Qırmızı Əmək Bayrağı" ordeni (1966, 1972, 1976), dörd dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilib, beş dəfə (III, V, VI, VII, VIII çağırışlar) Azərbaycan SSR Ali Sovetinə deputat seçilib, Azərbaycan Respublikasının Əməkdar elm xadimi (1981) fəxri adına, SSRİ PEA-nın təsis etdiyi "N.K.Krupskaya" medalına və "Əmək veteranı" medalına layiq görülüb.

1 may 1984-cü ildə Bakı şəhərində vəfat etmiş, İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Bakı şəhərindəki küçələrdən birinə, Gəncə şəhərindəki məktəblərdən birinə, Cəbrayıl rayonundakı 1 nömrəli orta məktəbə, Beyləqan rayonundakı 3 nömrəli şəhər orta məktəbinə akademik Mehdi Mehdizadənin adı verilib və məktəbin qarşısında büstü qoyulub. Azərbaycan Müəllimlərinin Yaradıcı İttifaqı 1995-ci ildə akademik Mehdi Mehdizadə adına mükafat təsis edib.

Həmid Musa oğlu Qədirov

biologiya elmləri namizədi, professor
Əməkdar elm xadimi
(1909-1990)

1909-cu ildə Şamaxı şəhərində anadan olub. 1923-1927-ci illərdə pedaqoji təmayüllü 18 №-li məktəbdə təhsil alıb. 1927-ci ildə Azərbaycan Politexnik İnstitutunun[10] kənd təsərrüfatı fakültəsinə qəbul olunub, sonra Daşkənd şəhərindəki Orta Asiya Pambıqçılıq İnstitutunun III kursuna köçürülüb. 1931-ci ildə həmin institutu sahə aqronomu ixtisası üzrə bitirib. Orta Asiya Pambıqçılıq İnstitutunu bitirdikdən sonra 29 mart 1932 –ci ildən 1 iyul 1932-ci ilə kimi Türkmənistanda Seraxs MTS -də sahə aqronomu işləyib. Səhhəti ilə əlaqədar olaraq öz ərizəsi ilə işdən ayrılaraq Azərbaycana qayıdıb. 20 iyul 1932-ci ildən 4 aprel 1933-cü ilə kimi Azsovxoztrestdə əmək

[10] *Əslində o, qəbul olunarkən Bakı Politexnik İnstitutu adlanırdı. 1928-ci ildə Azərbaycan Politexnik İnstitutu adlandırıldı. Sonralar Azərbaycan Neft və Kimya İnstitutu kimi məşhurlaşdı. İndiki Azərbaycan Politexnik Universiteti həmin institutun üç fakültəsi əsasında 1950-ci ildə yaradılmışdır.*

iqtisadiyyatı sektorunun rəhbəri və əmək məsələləri üzrə iqtisadçı vəzifələrində çalışıb. 4 aprel 1933-cü ildən 4 oktyabr 1933-cü ilə kimi Salyan rayonuna ezam olunub. Salyan MTS- də aqronom işləyib. Sonra Bakıya qayıdıb və SSRİ EA Azərbaycan filialının Botanika İnstitutunda əmək fəaliyyətinə başlayıb. 1935-ci ildə həmin institutun aspiranturasına qəbul olunub. 1940-cı ildə "Kür- Araz ovalığının şimal-qərb hissəsinin yaşıllaşdırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Ali məktəblər üzrə Ümumittifaq Komitəsinin nəzdində fəaliyyət göstərən AAK tərəfindən ona 1941-ci ildə bitki coğrafiyası ixtisası üzrə dosent elmi adı verilib. Botanika İnstitutunda böyük elmi işçi, şöbə müdiri və Nəbatət bağının direktoru (1943-1949-cu illər) vəzifələrində çalışıb.

Aspiranturada təhsil aldığı illərdə Bakının Əmircan kəndində, sonralar isə şəhərin Oktyabr (indiki Yasamal) rayonundakı yaşlılar üçün axşam məktəbində coğrafiya müəllimi, tədris hissəsi müdiri və məktəb direktoru vəzifələrində işləyib. 1937-1940-cı illərdə əvəzçiliklə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutda baş müəllim kimi fəaliyyət göstərib.

Botanika İnstitutunda işləyərkən həmkarlar təşkilatının sədri, ilk partiya təşkilatının katibi və elmi işçilərin siyasi seminarının rəhbəri olub. 1946-1948-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Botanika kafedrasında dosent vəzifəsində çalışıb. 1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Botanika kafedrasına müdir təyin olunur və həmin vəzifədə 34 il çalışır. 1951-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tədris və elmi işlər üzrə direktor müavini işləyir. 3 aprel 1952-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna rektor təyin olunur. O, bu vəzifədə 29 iyun 1954-cü ilə kimi çalışır. Həmid Qədirov rektor vəzifəsindən azad olunduqdan sonra yenidən tədris və elmi işlər üzrə direktor müavini təyin olunur və o, həmin vəzifədə 1964-cü ilə kimi uğurla çalışır, Mehdixan Vəkilov ADPİ-nin rektoru vəzifəsindən azad olunanda (14 sentyabr 1962-ci il) o, bir müddət rektor vəzifəsini icra edir. 1967-ci ildə Botanika kafedrasına professor vəzifəsinə seçilir. 19 iyun 1968-ci ildə SSRİ Ali Attestasiya Komissiyası onun elmi adını təsdiq edir. 1988-ci ilə kimi həmin kafedrada professor və professor-məsləhətçi kimi fəaliyyət göstərir.

Onun 16 dərslik və dərs vəsaiti, 100-ə yaxın elmi məqaləsi nəşr olunmuşdur. 2 mart 1973-cü ildə ona Əməkdar elm xadimi fəxri adı verilib. "Şərəf nişanı" və "Qırmızı Əmək Bayrağı" ordenləri və 4 müxtəlif medalla, "Qabaqcıl maarif işçisi" döş nişanı ilə təltif edilib.

1990-cı ilin dekabrın 25- də Bakı şəhərində vəfat edib.

Cəbrayıl Ağaəli oğlu Ələsgərov
pedaqoji elmlər namizədi, dosent
(1907-1969)

1907-ci ildə Şamaxıda anadan olub. Bakıdakı I dərəcəli 76 nömrəli məktəbi bitirib. 1928-ci ildə Sənaye texnikumunu əla qiymətlərlə bitirib.1928-1932-ci illərdə Məşədi Əzizbəyov adına Politexnik İnstitutunun (indiki Azərbaycan Neft və Sənaye Universitetinə) dağ mühəndisi ixtisasında oxuyub. 1932-1935-ci illərdə V.V.Kuybışev adına Azərbaycan Elmi Tədqiqat Neft İnstitutunda (AETNİ) elmi işçi vəzifəsində çalışıb. 1924-cü ildə komsomol, 1931-ci ildə partiya sıralarına daxil olub. 1936-cı ildə Neft Texnikumunda müəllim və direktor müavini işləyib. 1937-ci ildə həmin texnikuma direktor vəzifəsinə təyin olunub. 1937-ci ilin noyabr ayından 21 iyun 1941-ci ilə kimi S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində çalışıb. 1941-ci il iyun ayının 22-də rektor vəzifəsini təhvil verərək tələbələri ilə birlikdə cəbhəyə yola düşüb. 1943-cü ilin fevralında mayor Cəbrayıl Ələsgərov Şimali Qafqaz cəbhəsində döyüşlərdə iştirak edən qardaşları Ağabala və Mikayılın döyüşlərdə ölməsi xəbərini alıb. M.C.Bağırovun təklifi ilə 1943-cü il avqustun 23-də Azərbaycan K(b)P MK-nın partiya kadrları şöbəsinin bölmə müdiri - ikinci müavin vəzifəsinə təyin olunub. Bir müddət Azərbaycan KP MK-da məktəb və elm şöbəsində çalışıb. 1944-cü ilin yanvarında Azərbaycan Maarif komissarının müavini vəzifəsinə təyin olunub.

Azərbaycan K(b)P MK Bürosunun qərarı ilə 1944-cü ilin aprelində İran Respublikasının Təbriz şəhərinə ezam olunub, burada baş konsulluqda çalışıb. Cənubi Azərbaycanda təhsil quruculuğunda mühüm xidmətlər göstərib, orta məktəb direktoru kimi fəaliyyət göstərib. Bakıya qayıtdıqdan sonra Azərbaycan KP MK-da kadrlar üzrə iş şöbəsinin müdir müavini təyin olunub. 1944-cü ilin yanvar ayında Azərbaycan Xalq maarif komissarının kadrlarla iş üzrə müavini Məmməd Arif Dadaşzadə Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsinə təyin edildiyindən, onun yerinə Cəbrayıl Ələsgərov Xalq maarif komissarının müavini təyin olunub.1 may 1947-ci ildən 16 iyun 1951-ci ilə kimi həmin vəzifədə çalışıb. Təhsil təşkilatçılığı sahəsindəki uğurlu fəaliyyətini nəzərə alaraq yenidən Azərbaycan KP MK-ya işə dəvət olunub. 1951-1952-ci illərdə Azərbaycan KP MK-nın məktəblər şöbəsinə rəhbərlik edib. 23 fevral

1952-ci ildə Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "Cənubi Azərbaycanda xalq maarifinin inkişafı" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. 14 mart 1953-cü ildə onun elmi dərəcəsi SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən təsdiq olunub.

16 mart 1952-ci ildən 16 mart 1954-cü ilə kimi Bolqarıstan Xalq Respublikasında Maarif nazirinin müşaviri vəzifəsində çalışıb. Bakıya qayıtdıqdan sonra V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna direktor təyin olunub.

Azərbaycan K(b)P MK -nın 1954-cü il 4 may tarixli 14 nömrəli qərarında deyilir: "V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun direktoru haqqında. Ələsgərov Cəbrayıl Ağəli oğlu, 1931-ci il noyabr ayından Sov.İKP üzvü, partiya bileti №1470389, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun direktoru təsdiq edilməklə, H.M.Qədirov yoldaş həmin vəzifədən azad olunaraq institutun elmi işlər üzrə direktor müavini işinə keçirilsin. Sov.İKP MK-dan xahiş olunsun ki, bu qərarı təsdiq etsin.

Azərbaycan KP MK katibi Mustafayev İ."

Azərbaycan K(b)P MK -nın qərarına müvafiq olaraq 23 iyun 1954-cü ildə Azərbaycan SSR maarif naziri M.Məmmədovun əmri ilə V.İ.Lenin adına APİ-nin direktoru vəzifəsinə təyin olunub və bu vəzifədə 1 yanvar 1957-ci ilə kimi işləyib. 1957-1958-ci illərdə Azərbaycan SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin İdarə Heyətinin məsul katibi vəzifəsində çalışıb.

1958-1969-cu illərdə ADU-nun Pedaqogika və psixologiya kafedrasında dosent vəzifəsində çalışıb. Onun təhsil, partiya və sovet orqanlarında səmərəli fəaliyyəti dövlət və hökumət tərəfindən yüksək qiymətləndirilib. "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı" ordenləri, "Qafqazın müdafiəsinə görə", "Böyük Vətən müharibəsində şərəfli əməyinə görə", "Almaniya üzərindəki qələbəyə görə" medalları ilə təltif olunub, Bakı Şəhər sovetinin deputatı seçilib.

1969-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Mehdixan Yusif oğlu Vəkilov
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1902-1975)

1902-ci il iyun ayının 15-də Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olub. 1910-1914-cü illərdə dörd sinifli kənd məktəbində, 1914-1917-ci illərdə Cənubi Qafqaz müftisi Hüseyn əfəndi Qayıbzadənin Tiflisdə yoxsullar üçün təsis etdiyi pansion tipli məktəbdə oxuyub. 1924-cü ildə Qazax Müəllimlər Seminariyasını bitirib. Gəncə qəza məktəblərində müfəttiş (1924-1925), Quba qəza maarif şöbəsində müdir (1925-1926) və Şuşa şəhərində təşkil olunmuş müəllimlər kursunda müdir (1926) vəzifələrində çalışıb. 1931-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Tarix şöbəsini bitirib. 1927-1929-cu illərdə Balaxanı, Suraxanı fabrik-zavod məktəblərində, 1929-1930-cu illərdə Kooperativ Texnikumunda ictimaiyyat fənnindən dərs deyib, Qəbələdə (1931) tarix müəllimi işləyib. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda, pedaqoji məktəbdə, partiya məktəbində (1931-1933), Bakı kolxoz məktəbində (1933-1934) ictimai fənlərdən dərs deyib, 1934-1938-ci illərdə Xalq Maarif Komissarlığında müfəttiş, 1938-1941-ci illərdə Respublika Xalq Komissarları Soveti yanında İncəsənət işləri idarəsində teatr şöbəsinin müdiri və SSRİ EA-nın Azərbaycan filialının Tarix İnstitutunun şöbə müdiri (1940-1942) vəzifələrində çalışıb.

Azərbaycan KP MK tərəfindən 40-cı illərin əvvəllərində Təbriz şəhərinə ezam olunmuşdur. 1941-ci ilin sentyabr ayından 1942-ci ilin may ayına kimi Təbrizdə nəşr edilən "Vətən yolunda" qəzetində (redaktoru Mirzə İbrahimov) və "Azərbaycan" (redaktoru İsmayıl Şəms) qəzetlərində çalışıb. 1942-ci ildə Təbrizdən Qazaxa qayıdaraq az bir müddətdə Qazax rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri işləyib. 1942-ci ilin noyabr ayından 1945-ci ilin may ayına qədər Ağstafa rayon Partiya Komitəsinə rəhbərlik edib. Sonrakı illərdə Azərbaycan SSR Xalq Komissarları Sovetinin Poliqrafiya və nəşriyyat işləri idarəsinə rəhbərlik edib (1945-1949), S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında ictimai fənlərdən dərs deyib (1946-1956). 30 iyun 1954-cü ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında "Kommunist Partiyasının Azərbaycanda mədəni quruculuq tədbirləri (1921-1925-ci illər)"

mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 14 aprel 1956 -cı ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona Marksizm-leninizm kafedrası üzrə dosent elmi adı verilib. 1956-cı ilin dekabr ayından 1962-ci ilin oktyabr ayına kimi Azərbaycan Dövlət Pedaqoji İnstitutunda rektor vəzifəsində çalışıb.

12 dekabr 1969-cu ildə ADU-nun Elmi Şurasında "Kommunist Partiyası Azərbaycanda mədəni inqilabın təşkilatçısıdır" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 7 aprel 1971-ci ildə ona SSRİ tarixi kafedrası üzrə professor elmi adı verilib. Uzun müddət SSRİ tarixi kafedrasının müdiri olub.

Azərbaycan Kommunist Partiyasının XXII qurultayında Təftiş Komissiyasının üzvü seçilib, uzun müddət Azərbaycan KP MK-nın ştatdankənar mühaziraçisi kimi fəaliyyət göstərib. Bakı şəhər sovetinin (1959-1960) üzvü olub. V çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı, 1959-1963-cü illərdə Azərbaycan SSR Ali Sovetinin sədr müavini olub. 2 dəfə "Şərəf nişanı" ordeni (1943, 1964), "Birinci dərəcəli Böyük Vətən müharibəsi ordeni" (1944), müxtəlif medallarla və Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanları ilə təltif olunub. Azərbaycan SSR Ali Sovetinin qərarı ilə ona Əməkdar elm xadimi (1973) fəxri adı verilib. "Qabaqcıl maarif xadimi" (1973) döş nişanı ilə təltif olunub. "Minin və Pojarski" (1941), "Cavanşir" (1941,1943,1992), "Azərbaycanda mədəniyyətin çiçəklənməsi" (1955), "Ömür dedikləri bir karvan yolu"(1986),"Anadillər" (1991), "Cavanşir" (Təbriz, 2004), "Anadillər" (Təbriz, 2004), "Azərbaycanda mədəni inqilab: 1920-1940-cı illər" (2005) adlı elmi və bədii kitabları, 40-dan artıq elmi məqaləsi nəşr olunub.

18 oktyabr 1975-ci ildə Bakı şəhərində vəfat etmişdir. II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Mehdi Sadıq oğlu Əliyev

fizika-riyaziyyat elmləri namizədi, professor, Əməkdar elm xadimi (1907- 1972)

21 dekabr 1907-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1920-1924-cü illərdə Gəncə Müəllimlər Seminariyasında oxumuşdur. Bir ilə yaxın Gəncədə müəllimlik etmişdir. 1925-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsində təhsil

almışdır. 1931-1935-ci illərdə ADPİ-də Fizika-riyaziyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1933-cü ildə elmi uğurlarına görə ona dosent elmi adı verilmişdir. ADU yenidən təşkil ediləndə (1934) elmi-pedaqoji fəaliyyətini orada davam etdirmiş, Fizika-riyaziyyat fakültəsinin dekanı vəzifəsinə seçilmişdir. 1941-ci ilin iyun ayında tələbələrlə birlikdə könüllü olaraq ön cəbhəyə getmişdir. 1942-ci ilin may ayında hərbiyə uyğun gəlmədiyinə görə ordudan tərxis olunmuşdur. 1944-cü ildə yenidən ADU-nun Fizika-riyaziyyat fakültəsinin dekanı vəzifəsinə seçilmişdir. 1952-ci ildə ADU-nun tədris işləri üzrə prorektoru vəzifəsinə təyin olunmuşdur. 1962-1965-ci illərdə ADU-da dosent vəzifəsində çalışmışdır.

1949-cu ildə "Bərk cisimlərin bərkliyinin rəqs üsulu ilə təyini" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. Fizikanın müxtəlif problemləri ilə bağlı məqalələri həm xarici ölkələrin nüfuzlu elmi jurnallarda nəşr olunmuş, beynəlxalq konfranslarda Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir. Azərbaycan dilində yazılmış ilk "Optika" dərsliyinin (prof.Niftalı Quliyevlə birlikdə) müəllifi olmuşdur. A.F.İoffenin "Molekulyar fizika kursu"nun Azərbaycan dilinə tərcüməsi də onun adı ilə bağlıdır.

Əməkdar elm xadimi, Əməkdar müəllim fəxri adlarına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

4 may 1972-ci ildə vəfat etmişdir.

Şövqi Süleyman oğlu Ağayev

psixologiya elmləri doktoru, professor

(1926-1975)

23 mart 1926 -cı ildə Şamaxı qəzasının İsmayıllı nahiyəsinin Diyallı kəndində müəllim ailəsində anadan olmuşdur. Orta təhsilini 1933-1942-ci illərdə Bakı şəhərindəki 173 №-li məktəbdə almışdır. 1941-1942-ci illərdə fizika-riyaziyyat müəllimi hazırlayan birillik kursda oxumuşdur. Kursu bitirdikdən sonra Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun III kursuna qəbul olunsa da, təhsilini davam etdirməmişdir. 1942-1947-ci illərdə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsində oxumuşdur. Azərbaycan EA-nın Təbabət İnstitutunun aspiranturasına

qəbul olunsa da, institut ləğv edildiyindən təhsilini davam etdirə bilməmişdir. 1948 -ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun psixologiya ixtisası üzrə aspiranturasına qəbul olunmuşdur. 1954-cü ildə "Fikri məqsədin xarakterindən asılı olaraq təlim prosesində görmə qavrayışının dinamikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

28 sentyabr 1960-cı ildə ADPİ-nin İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsinin qiyabi şöbəsinə dekan vəzifəsinə təyin olunmuşdur. 14 noyabr 1962-ci ildə ADPİ-nin tədris işləri üzrə prorektoru vəzifəsinə irəli çəkilmişdir. 6 fevral 1964-cü ildə o, həm də Psixologiya kafedrasına müdir vəzifəsinə təyin olunmuşdur. 11 fevral 1965-ci ildə Ali və Orta İxtisas Təhsili Komitəsinin əmri ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna rektor təyin olunmuşdur. 1967 -ci ildə "Əmək, tərbiyə və inkişaf" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 24 oktyabr 1969-cu ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin yanında fəaliyyət göstərən AAK tərəfindən ona psixologiya elmləri doktoru elmi dərəcəsi verilmişdir. 14 iyul 1970-ci ildə "tərcümeyi halının şərhində qeyri səmimilik təzahürünə" görə vəzifəsindən azad edilmişdir. 12 noyabr 1970-ci ildə ona professor elmi adı verilmişdir.

Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi Kollegiyasının 13 noyabr 1974-cü il tarixli qərarına müvafiq olaraq Psixologiya kafedrasının bazası əsasında iki kafedra - Ümumi psixologiya və Yaş və pedaqoji psixologiya kafedraları yaradıldı. Yaş və pedaqoji psixologiya kafedrasına müdir vəzifəsinə təyin olunan prof.Şövqi Ağayev ömrünün sonuna kimi həmin vəzifədə çalışıb.

"Uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi" (1961), "Ruh varmı?" (1962), "Ailədə uşağın nitqinin inkişaf etdirilməsi" (1962),"Uşaq psixologiyası məsələlərinə dair" (qiyabiçilər üçün tədris vəsaiti) (1966), "Əmək, tərbiyə və inkişaf" (1967), "Yaş və pedaqoji psixologiya" (Z. Mehdizadə və İ.Fərəcovla birlikdə) (1977) kitabları və onlarla elmi məqaləsi nəşr edilmişdir.

1960-1961-ci illərdə nəşr edilən 2 hissəlik "Psixologiya", "Yaş və pedaqoji psixologiya məsələləri" (1974), "Yaş və pedaqoji psixologiya" (1977) dərslik və dərs vəsaitlərinin hazırlanmasında mühüm xidmətləri var. Bakı, Tbilisi, və İrəvanda keçirilən Zaqafqaziya psixoloqlarının I-VI konfranslarının iştirakçısı, Bakı şəhər sovetinin X və XI çağırış deputatı, Azərbaycan Kommunist Partiyasının XXVII qurultayının, Azərbaycan müəllimlərinin V qurultayının, "Bilik" cəmiyyətinin V qurultayının nümayəndəsi və Azərbaycan Psixoloqlar Cəmiyyətinin Rəyasət heyətinin üzvü olub.

23 oktyabr 1975-ci ildə Bakı şəhərində vəfat edib. 1996-cı ildə ADPU-da anadan olmasının 70 illiyi təntənə ilə qeyd edilib.

Həşim Nizam oğlu Ağayev
fizika-riyaziyyat elmləri doktoru,professor
(1916-1988)

1916-cı il sentyabr ayının 12-də Lənkəran şəhərində anadan olub. Orta təhsilini Lənkəran şəhərindəki 3 №-li orta məktəbdə alıb. 1936-1941-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsində oxuyub. Maştağa rayonundakı 129 №-li tam orta məktəbdə direktor işləyib. 1943-cü ilin mart ayında SSRİ EA-nın Azərbaycan filialının fizika bölməsinin riyaziyyat şöbəsinə kiçik elmi işçi təyin olunub. 1944-1947-ci illərdə həmin şöbənin aspiranturasında oxuyub. 1947-ci ildə namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb. 1948-1953-cü illərdə Azərbaycan SSR EA-nın Fizika və Riyaziyyat İnstitutunun riyaziyyat şöbəsində baş elmi işçi vəzifəsində çalışıb. 1948-1950-ci illərdə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun Cəbr kafedrasına rəhbərlik edib. Bolqarıstana ezam olunan Həşim Ağayev 1953-1954-cü illərdə Sofiya Universitetinin Riyazi analiz kafedrasına rəhbərlik edib. Həmin dövrdə onun tərəfindən Sofiya Universitetinin türk şöbəsi üçün riyazi terminlər lüğəti tərtib edilib. Ezamiyyətdən qayıdandan sonra Həşim Ağayev 1954 -1957-ci illərdə Fizika və Riyaziyyat İnstitutunun riyaziyyat şöbəsinin müdiri, 1957-1959-cu illərdə elmi hissə üzrə direktor müavini vəzifələrində çalışıb. Azərbaycan SSR Nazirlər Sovetinin 1959-cu il 27 aprel tarixli 319 №-li qərarı ilə Azərbaycan SSR EA Fizika və Riyaziyyat İnstitutunun riyaziyyat şöbəsinin əsasında müstəqil Riyaziyyat və Mexanika İnstitutu yaradıldıqdan sonra Həşim Ağayev 1959-1963-cü illərdə həmin İnstitutun elmi hissə üzrə direktor müavini vəzifəsində çalışıb. 1964-1967-ci illərdə Riyaziyyat və Mexanika İnstitutunun direktoru vəzifəsini icra etməklə yanaşı, həm də Diferensial tənliklər şöbəsinə rəhbərlik edib.

14 iyul 1970-ci ildən 5 avqust 1981-ci ilədək V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) rektoru olub.

SSRİ Nazirlər Şurası yanında AAK tərəfindən ona 1972-ci il may ayının 19-da professor elmi adı verilib. 1975-ci ildə ADU-nun Müdafiə Şurasında "О разрешимости некоторых стационарных и нестационарных нелинейных операторных уравнений в абстрактных пространствых" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Həşim Ağayevin qeyri-xətti operator tən-

liklərinin tədqiqinə həsr olunmuş silsilə işləri onun doktorluq dissertasiyasının əsasını təşkil edir. Funksional analiz, xüsusi törəməli diferensial tənliklər nəzəriyyəsi, funksiyalar nəzəriyyəsi və topologiyanın bir çox sahələrinə H.Ağayevin böyük elmi marağı olmuş və bu sahələrdə apardığı tədqiqatlar mühüm nəticələr vermişdir. H.Ağayevin elmi işləri, əsasən kvazixətti tənliklər və müxtəlif tipli xüsusi törəməli tənliklər sistemi, qeyri-xətti operator və diferensial-operatorlu tənliklər, ortoqonal funksiyalar sistemi nəzəriyyəsi kimi riyaziyyatın aktual məsələlərinə həsr olunmuşdur. Bir çox görkəmli mütəxəssislərin rəylərinə görə, Həşim Ağayevin işləri riyaziyyatın bir sıra həssas və çətin məsələlərinin həllində əhəmiyyətli irəliləyişlərə səbəb olub. Həşim Ağayevin əsərlərində kəsilən əmsallı yüksək tərtibli kvazixətti, elliptik və parabolik tipli tənliklər üçün sərhəd məsələlərin həllinin təyin edilməsində (qurulmasında) Zere-Şauder prinsipinin tətbiq edilməsinə dair bir sıra mühüm nəticələr vardır. Həşim Ağayev riyaziyyat elminin fəlsəfi, tarixi və metodoloji məsələlərinə və onun təbliğinə böyük əhəmiyyət verirdi. Onun "Həqiqi ədədlər və limitlər" adlı kitabı və "Riyazi təkliflər (hökmlər) və isbatlar" adlı kitabları bu məsələlərə həsr olunub. O, uzun müddət Riyaziyyat və Mexanika İnstitutunda təbiətşünaslığın (təbiət elmlərinin) fəlsəfi məsələlərinə həsr olunmuş elmi seminara rəhbərlik edib. 1944-cü ildən ömrünün sonuna qədər Həşim Ağayev respublikanın ali məktəblərində - Bakı Dövlət Universitetində, Azərbaycan Pedaqoji İnstitutunda, texniki institutlarda mühazirələr oxuyub, ixtisas seminarları aparıb, diplom işlərinə və aspirantlara rəhbərlik edib. "Riyaziyyatın mahiyyəti haqqında", "Riyaziyyata yeni baxış" məqalələri bu elmin inkişaf tarixinə və fəlsəfi problemlərinə həsr olunmuşdur. 1981-ci ildən ömrünün sonuna kimi Riyaziyyat və mexanika institutunun "Qeyri-xətti operator tənliklər" şöbəsinə rəhbərlik edib.

Riyazi terminlərin elmi əsaslarının yaradılmasında da onun mühüm xidmətləri olmuşdur. Azərbaycan SSR Elmlər Akademiyası, Fizika və Riyaziyyat İnstitutu tərəfindən akademik Z.Xəlilovun redaktorluğu ilə çap edilən "Riyaziyyat terminləri lüğəti"nin (1954) ərsəyə gəlməsində Həşim müəllimin böyük əməyi olub. Respublikada riyaziyyat elminin və riyazi təhsilin inkişafında mühüm xidmətləri olan Həşim Ağayev V çağırış Bakı Şəhər Sovetinin deputatı, Bakı Şəhər Partiya Komitəsinin, Respublika Dövlət Mükafatı Komissiyasının, ali təhsil müəssisələri və elmi idarələrin Həmkarlar İttifaqının Rəyasət Heyətinin üzvü kimi geniş ictimai-siyasi fəaliyyət göstərib. Prof.H.Ağayevin müasir riyaziyyatın müxtəlif problemləri ilə bağlı 3 kitabı, Azərbaycanda və xarici ölkələrdə 70-dən çox elmi məqaləsi nəşr edilib. Onun elmi rəhbərliyi ilə 15 nəfər namizədlik dissertasiyası müdafiə edib.

2 avqust 1988-ci ildə Bakı şəhərində vəfat edib.

Afad Məhəmməd oğlu Qurbanov

AMEA-nın müxbir üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor (1929-2009)

1929-cu il yanvarın 10-da Qərbi Azərbaycanın Kalinino rayonunun əvvəllər Cuci, sonralar isə Qızıl Şəfəq adlanan kəndində yüksək rütbəli hərbçi ailəsində anadan olmuşdur. Orta təhsilini Qərbi Azərbaycanın Qızıl Şəfəq və İlməzli kənd məktəblərində almışdır. 1945-ci ildə Qızıl Şəfəq yeddiillik məktəbinin direktoru və Azərbaycan dili müəllimi təyin edilmişdir. 1946-1948 -ci illərdə Gürcüstan Müəllimlər İnstitutunda oxumuşdur. Başkeçid rayonundakı Oruzman yeddiillik kənd məktəbində direktor və Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. 1951-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsini bitirmişdir. Gürcüstan Respublikasının Başkeçid rayonundakı Hamamlı kənd orta məktəbinin direktoru vəzifəsində çalışmış, A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunda müəllim işləmişdir. 1956-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dilçiliyi kafedrasında aspiranturaya daxil olmuşdur. ADPİ-də, Bakı Ali Partiya Məktəbində və ADDİ-də müəllim işləmişdir. Prof.Ə.Dəmirçizadənin elmi rəhbərliyi altında Səməd Vurğunun dramaturgiyasının dili üzərində tədqiqat aparmışdır. 1962-ci ildə A.M.Qorki adına Türkmənistan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə ona "S.Vurğunun "Vaqif" pyesinin dili və üslubu" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasına görə filologiya elmləri namizədi alimlik dərəcəsi verilib. 1968-ci ildə Azərbaycan EA-nın İctimai elmlər bölməsində "Müasir Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1965-ci ildə ona dosent elmi adı verilib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi nəzdində fəaliyyət göstərən AAK tərəfindən ona 1969-cu ildə elmlər doktoru elmi dərəcəsi, 1970 -ci ildə professor elmi adı verilib.

1959-1965-ci illərdə ADPİ-nin Azərbaycan dilçiliyi kafedrasında assistent, müəllim, 1965-1970-ci illərdə dosent, 1970-2009-cu illərdə professor, 1967-1968-ci illərdə Filologiya fakültəsində dekan müavini, 1968-1981-ci illərdə dekan, 4 avqust 1981-ci ildən 7 aprel 1989-cu ilə kimi ADPİ-nin rektoru vəzifəsində işləmişdir.

1979-2009 -cu illərdə Azərbaycan dilçiliyi kafedrasının və 1992-2009-cu illərdə "Azərbaycan dilinin onomalogiyası problemləri" elmi-tədqiqat laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. 1969-cu ildən Ali və Orta İxtisas Təhsili Nazirliyinin və Maarif Nazirliyinin Azərbaycan dili üzrə Tədris-Metodiki Şuralarının sədr müavini, sonralar Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının və Təhsil Problemləri üzrə Elmi-Metodik Mərkəzinin və bir çox komissiyalarının üzvü olmuşdur. 1979-cu ildən "Azərbaycan toponimlər lüğəti" ensiklopedik nəşrinin, "Dil və ədəbiyyat" məcmuəsinin, "Elm və həyat" jurnalının, "Təhsil" və "Türkologiya" jurnallarının redaksiya heyətinin üzvü, "Dilçilik" elmi-linqvistik və "Onomastika" elmi-onomastik jurnallarının təsisçisi, baş redaktoru olmuşdur. O, 1980-ci ildən Azərbaycan Əlifba Komissiyasının sədri, Azərbaycan EA-nın Terminologiya Komitəsinin, Adlar və Soyadlar üzrə Xüsusi Komissiyanın, Dövlət dili haqqında qanun layihəsinin hazırlanması üzrə Komissiyanın, Əlaqələndirmə Şurasının, Nəsimi adına Dilçilik İnstitutunda Elmi və Müdafiə Şuralarının, Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Azərbaycan elminin inkişafında və yüksəkixtisaslı elmi və pedaqoji kadrların hazırlanmasındakı xidmətlərinə görə dəfələrlə Ali Sovetin Rəyasət Heyəti, AMEA Rəyasət Heyəti və Təhsil Nazirliyi tərəfindən fəxri fərmanlara, təltiflərə layiq görülmüşdür. 30 iyun 1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. 1983-1989-cu illərdə Azərbaycan Respublikası "Bilik" cəmiyyətinin natiqlik və mühaziraçilik məharəti komissiyasının sədri və Azərbaycan Ali Məktəbləri Rektorlar Şurasının Rəyasət Heyətinin üzvü olmuşdur. 1984-1989-cu illərdə SSRİ EA-nın Sovet Türkoloqları Komitəsinin üzvü, Tədris-metodiki bölməsinin sədri, Türk onomastikası bölməsi bürosunun üzvü, sonralar həmin komitənin sədr müavini vəzifələrində çalışmışdır. Azərbaycan Milli Yaradıcılıq Akademiyasının, Beynəlxalq PEA-nın, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının, Nyu-York Akademiyasının akademiki, Türk Dil Qurumunun şərəfli üzvü, Sürəkli Türk Dili Məclisinin həqiqi üzvü, Belçika Onomastika cəmiyyətinin, Finlandiyanın Fin-Uqor cəmiyyətinin və digər təşkilatların həqiqi və ya fəxri üzvü seçilmişdir.

1981 və 1987-ci illərdə Bakı şəhər Sovetinin deputatı, 1990-1995-ci illərdə isə Azərbaycan Ali Sovetinin deputatı (millət vəkili) olmuşdur.

Ümumi dilçilik, türkoloji dilçilik, Azərbaycan dilçiliyi elminin tədqiqinə dair 70-dən çox kitabın və 500-dən artıq elmi-metodiki məqalənin müəllifidir. O, Azərbaycan dilçilik tarixində elmi məktəb yaratmış alimlərimizdən biridir. "Azərbaycan dilinin onomologiyası" kitabına görə ona Dövlət mükafatı verilmişdir.

26 sentyabr 2009-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Səlvər Rza oğlu Aslanov
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
(1930- 2000)

11 noyabr 1930-cu ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olub. Orta təhsilini Şamxor (Şəmkir) şəhər orta məktəbində alıb. 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub. 1950-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Tarix fakültəsinin ikinci kursuna köçürülüb. 1954-cü ildə həmin universiteti bitirib. 1954-cü ildə V.İ.Lenin adına Muzeyin Bakı filialında kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlayıb. 1955-1960-cı illərdə respublika komsomol təşkilatında və ÜİLKGİ MK -da təlimatçı vəzifəsində işləyib. 1960-1961-ci illərdə Azərbaycan LKGİ MK-nın katibi, 1961-1963-cü illərdə Azərbaycan KP MK -nın Təbliğat-təşviqat şöbəsi müdirinin müavini və müdiri işləyib. 1963-1964-cü illərdə Sov.İKP MK-nın Zaqafqaziya bürosunun inspektoru olub, az sonra Bakı şəhər partiya komitəsinin katibi seçilib.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Sov.İKP tarixi kafedrasının aspirantı olan S.Aslanov 1961-ci ildə namizədlik dissertasiyası,1965-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Doktorluq dissertasiyasında 1928-1941-ci illərdə respublikada sənayenin inkişafında Azərbaycan Kommunist Partiyasının oynadığı rol araşdırılmışdır. 1966-cı ildə ona SSRİ Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adı verilmişdir. 1971-ci ildə Moskvanın "Ekonomika" nəşriyyatı tərəfindən "Azərbaycan SSRİ xalq təsərrüfatı sistemində" adlı monoqrafiyası nəşr olunmuşdur.

Səlvər Aslanov 1966-1973-cü illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna, 1974-1979-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Sov.İKP tarixi kafedrasına rəhbərlik etmişdir.1979-1989-cu illərdə həmin kafedranın professoru, 7 aprel 1989-cu ildən 9 mart 1994-cü ilə kimi Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru olmuşdur.

VII çağırış Azərbaycan SSR Ali Sovetinin, VII-VIII çağırış Bakı şəhər Sovetinin deputatı seçilmişdir. Azərbaycan KP-nin XXVI qurultayında Azərbaycan KP MK-nın üzvlüyünə namizəd seçilmişdir. Bakı şəhər partiya komitəsinin büro üzvü, Azərbaycan KP-nin XXXII qurultayının nümayəndəsi olmuşdur.

10 monoqrafiyası, dərslik və dərs vəsaiti, 90-dan çox elmi məqaləsi nəşr olunmuşdur. ABŞ-da, İraqda, Kubada, Qvineyada, Moskvada, Leninqradda

(indiki Sankt-Peterburqda) keçirilən bir sıra beynəlxalq konfrans və simpoziumlarda iştirak etmişdir. 1989-cu ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. SSRİ Sosioloqlor Assosiasiyasının, SSRİ Jurnalistlər İttifaqının, SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyinin elmi-metodik şurasının, S.M.Kirov adına ADU-nun Müdafiə Şurasının üzvü olmuşdur.

Elmi rəhbərliyi ilə 8 nəfər dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Bakı, Moskva, Tbilisi, Mahaçqala və İrəvanda keçirilən Müdafiə Şuralarında 4 nəfərin doktorluq, 12 nəfərin namizədlik dissertasiyasının rəsmi opponenti kimi çıxış etmişdir.

SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin iştirakçısı olmuş, sərginin 2 qızıl medalı, "Leninin 100 illik yubileyi", "Əməkdə fərqlənməyə görə", "Əmək veteranı" medalı, "Şərəf Nişanı" ordeni və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin, SSRİ Xalq Təhsil Nazirliyinin, SSRİ və Azərbaycan SSR "Bilik" cəmiyyətinin Fəxri Fərmanları ilə təltif olunmuşdur.

3 avqust 2000-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Nizami Mənaf oğlu Xudiyev

filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1949-2021)

1949-cu il aprelin 1-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olub. 1955-1966-cı illərdə Naxçıvan şəhər 1 və 2 №-li və Şahbuz qəsəbə orta məktəbində, 1966-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində təhsil alıb. Təhsil illərində "Nizami Gəncəvi" adına təqaüdlə oxuyub, fakültə komsomol komitəsinin katibi olub. İnstitutu fərqlənmə diplomu ilə bitirən Nizami Xudiyev fakültə elmi şurasının qərarı ilə Azərbaycan dilçiliyi kafedrasında müəllim saxlanılıb. Hərbi xidmətdən (1972-1973) sonra həmin kafedrada pedaqoji fəaliyyətini davam etdirib (1973-1975), baş müəllim (1975-1981) və fakültə həmkarlar təşkilatının sədri (1974-1979) vəzifələrində çalışıb. 1978-ci ildə "Abdulla Şaiqin nəsr dili (leksika və frazeologiya)" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 1981-ci ildə ona

SSRİ Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı verilib. 1981-1990-cı illərdə Azərbaycan dilçiliyi kafedrasında dosent vəzifəsində çalışan Nizami Xudiyev 1979-1991-ci illərdə ADPU-nun Həmkarlar İttifaqı Komitəsinə rəhbərlik edib. 1990-cı ildə "Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf qanunauyğunluqları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya üzrə elmlər doktoru elmi dərəcəsi alıb. Elə həmin ildə də Azərbaycan dilçiliyi kafedrasına professor vəzifəsinə seçilib.

1991-1994-cü illərdə ADPU-nun I prorektoru vəzifəsində çalışıb. Həmin illərdə Universitetdə bir neçə prorektorluq (tədris işləri üzrə, elmi işlər üzrə, iqtisadi məsələlər üzrə, inzibati-təsərrüfat işləri üzrə) var idi. Qısa müddətdə ADPU-nun rektoru (1994-1995) vəzifəsində çalışan Nizami Xudiyev 1996-2005-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin, 2005-2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri olub. 2000-ci ildə 2 saylı Şərur-Babək seçki dairəsindən, 2005-ci ildə 56 saylı Xaçmaz kənd seçki dairəsindən Milli Məclisə deputat seçilib, Elm və təhsil məsələləri daimi komissiyasının üzvü olub. Müxtəlif dövlət və media mükafatlarına layiq görülüb. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunda, ADPU-da, BDU-da, Naxçıvan Dövlət Universitetində namizədlik və doktorluq dissertasiyaları üzrə Müdafiə Şuralarının üzvü olub, elmi və elmi-pedaqoji kadr hazırlığında səmərəli fəaliyyət göstərib. Lütfizadə adına Amerika Beynəlxalq Müasir Elmlər Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilib. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Ziyalılar Cəmiyyətinin İdarə Heyətinin üzvüdür. Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Belarus, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Hindistan, Azərbaycan-Pakistan, Azərbaycan - Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü olub.

2001-ci ildə İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən "İlin beynəlxalq ziyalısı" adına və "Qızıl medala" layiq görülüb. 2002-ci ildə ABŞ Bioqrafiya İnstitutunun üzvü seçilən Nizami Xudiyevin adı "XXI əsrin böyük ziyalıları" kitabına daxil edilib. Eyni zamanda Kembric Beynəlxalq Bioqrafiya İnstitutu prof. Nizami Xudiyevi 2002-ci ildə "XXI əsrin intellektualı" seçərək onu xüsusi medal və diplomla təltif etmişdir. Elmi uğurlarına və bu sahədəki səmərəli fəaliyyətinə görə Kembric Beynəlxalq Bioqrafiya İnstitutunun baş direktorunun müavini vəzifəsinə seçilmişdir.

2002-ci ildə Amerika Birləşmiş Ştatları Bioqrafiya İnstitutunun üzvü seçilib və adı "XXI əsrin böyük ziyalıları" (ali nəşr) kitabına daxil edilib.

2004-cü ildə Ankara şəhərində keçirilən Türk dili Qurultayında "Türk dilinə xidmət" ödülü ilə mükafatlandırılıb. Amerikanın Dünya Ədəbiyyatı Akademiyasının "Humanitar və fəlsəfə elmləri üzrə Sokrat sədri" (2004) seçilmiş və Kembric Beynəlxalq Bioqrafiya İnstitutunun "Beynəlxalq Şərəf Ordeni" (2004) ilə təltif olunmuşdur. Amerika Birləşmiş Ştatları Bioqrafiya İnstitutu tərəfindən "2005-ci İlin Adamı" seçilmiş və xatirə medalı ilə təltif edilmişdir.

2001-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb. Dilçilik elminin və türkologiyanın müxtəlif sahələrinə aid 600 əsərin (monoqrafiya, dərslik və dərs vəsaiti, kitab, ssenari, 400 elmi və publisistik məqalə) müəllifidir. Onun bir sıra kitab və məqalələri xarici ölkələrdə (İran, Türkiyə, Rusiya, Almaniya, İraq, İsveçrə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və s.) nəşr olunub.

Professor N.Xudiyev onun həyatında mühüm rol oynamış görkəmli dilçi-alim Əbdüləzəl Dəmirçizadənin 110 illiyinə həsr olunmuş "Professor Ə.Dəmirçizadə dünyası" (2019) adlı monoqrafiya hazırlayıb. Monoqrafiyada Ə.Dəmirçizadənin həyatı, yaradıcılığı və elmi-pedaqoji fəaliyyəti haqqında xatirə, düşüncə və mülahizələr öz əksini tapıb.

Bakı, Moskva, Nalçik, Bişkek. Ufa, Aşqabad, Daşkənd, Alma-Ata, Ankara, İstanbul, Əskişəhər, İzmir, Adana və Konyada keçirilən türkoloji tədbirlərin – qurultay, beynəlxalq simpozium və elmi konfransların nümayəndəsi olub.

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirakına görə 2009-cu ildə "Şöhrət" ordeni, 2012-ci ildə "Azərbaycan Respublikası Qabaqcıl təhsil işçisi" döş nişanı, 2013-cü ildə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim "Qızıl medalı ilə təltif edilib. 4 aprel 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

10 aprel 2019-cu ildə ADPU-nun Böyük zalında professor Nizami Xudiyevin 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

25 may 2021-ci ildə Bakı şəhərində vəfat edib.

Bəhlul İsfəndiyar oğlu Ağayev

biologiya elmləri doktoru, professor

(1937)

1937-ci ilin oktyabr ayının 28-də Qərbi Azərbaycanın Qafan rayonunun Pəyəhan kəndində anadan olmuşdur. 1956-cı ildə Qafan rayon Gığı kənd orta məktəbini, 1963-cü ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1963-1970-ci illərdə Sabirabad və Saatlı rayonlarında müəllim işləmişdir. 1966-cı

ildə Azərbaycan EA-nın Zoologiya İnstitutunun aspiranturasına qəbul olunmuş, 1971-ci ildə namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 1990-cı ildə Kiyev şəhərində Ukrayna EA Zoologiya institutunda "Şərqi Zaqafqaziyanın şıqqıltılı böcəkləri (Elateridae, Coleoptera)" mövzusunda dissertasiya müdafiə edərək biologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Zoologiya kafedrasında laborant, assistent, baş müəllim, dosent (1977-1991), professor (1991-2017) vəzifələrində işləmişdir.

2017-ci ildən ADPU-nun Biologiya və onun tədrisi metodikası kafedrasının professorudur.

1973-1977-ci illərdə Kimya-biologiya fakültəsinin dekan müavini, 1977-2017-ci illərdə Zoologiya kafedrasının müdiri olmuşdur. 1994-1996-cı illərdə ADPU-nun tədris işləri üzrə prorektoru, 1996-2006-cı illərdə ADPU-nun rektoru vəzifəsində çalışmışdır.

2000-2006-cı illərdə ADPU-nun nəzdində fəaliyyət göstərən "Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi" və "Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası" ixtisasları üzrə Müdafiə Şurasının sədri olmuşdur. 2001-ci ildə Beynəlxalq Elmlər Akademiyasının, 2002-ci ildə Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü seçilmişdir.

"Ümumi entomologiya. I hissə. (1979), "Ümumi entomologiya. II hissə. (1981), "Onurğasızlar zoologiyasından laboratoriya məşğələləri" (1997), "Biologiyadan suallar və cavablar: (sınaq testləri ilə)" (1999), "Onurğasızlar zoologiyasından praktikum" (1993), "Biologiya (Sorğu materialları) (1998), "Zoocoğrafiya (Zoologiyanın əsasları ilə) (1999), "Onurğasızlar zoologiyası" (1985) "Ümumi entomologiya" (2004), "Onurğasızlar zoologiyasından laboratoriya məşğələləri" (2004), "Onurğasızlar zoologiyası" (2008) dərslik və dərs vəsaitləri, 100-ə yaxın elmi, metodiki və publisistik məqaləsi nəşr olunub.

Yusif Əbülfət oğlu Məmmədov

AMEA-nın həqiqi üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor, Əməkdar elm xadimi,
(1950)

1950-ci ilin yanvar ayının 24-də Qərbi Azərbaycanın Sisiyan rayonunun Dəstəgird qəsəbəsində anadan olub. 1966-cı ildə Dəstəgird qəsəbə orta məktəbini qızıl medalla bitirib. 1971-ci ildə ADU-nun Mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. Akademik Məcid Rəsulovun rəhbərliyi ilə 1974-cü ildə ADU-nun Mexanika-riyaziyyat fakültəsinin nəzdindəki Dissertasiya Şurasında "Korrekt birölçülü məsələlər və onların həllinin analitik göstərilişi" mövzusunda namizədlik, 1990-cı ildə Tbilisi Riyaziyyat İnstitutunun İxtisaslaşdırılmış Dissertasiya Şurasında "Ümumi şəkilli adi diferensial tənliklər sistemi üçün spektral məsələlərin tədqiqi və uyğun qarışıq məsələlərin həlli üçün çıxıqlar üsulunun əsaslandırılması" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1971-1992-ci illərdə həmin kafedrada assistent, baş müəllim, dosent vəzifələrində çalışıb.

1991-ci ildə ona professor elmi adı verilib. 1992-1993-cü illərdə İstanbul Texniki Universitetində professor vəzifəsində çalışıb. 1993-cü ildə BDU-nun riyazi fizika kafedrasının müdiri vəzifəsinə seçilib. 2000-2004-cü illərdə BDU-nun tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı, 2004-2006-cı illərdə BDU-nun I prorektoru - elmi işlər üzrə prorektoru, 2006-2016-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru vəzifələrində çalışıb.

Elmi rəhbərliyi ilə 20 fəlsəfə və 3 elmlər doktorluğu dissertasiyası müdafiə olunmuşdur. Çoxsaylı fəlsəfə və elmlər doktorluğu dissertasiyalarının rəsmi opponenti olmuşdur.

BDU və AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri verən Müdafiə Şurasının üzvü kimi səmərəli fəaliyyət göstərmiş, ayrı-ayrı vaxtlarda ADPU-nun nəzdindəki Dissertasiya Şurasının (2009-2016) və Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Riyaziyyat və mexanika elmləri üzrə Ekspert Şurasının sədri olmuşdur.

Təhsil Nazirliyi Kollegiyasının, YUNESKO-nun "Elmi biliklərin və texnologiyaların etikası" Azərbaycan Komitəsinin üzvü, Təhsil Nazirliyi

nəzdində fəaliyyət göstərən fasiləsiz pedaqoji təhsil üzrə Koordinasiya Şurasının sədri olmuşdur. "ADPU-nun Xəbərləri" elmi məcmuəsinin baş redaktoru, "AMEAnın Xəbərləri", "BDU-nun Xəbərləri", "Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri", "Sumqayıt Dövlət Universitetinin Xəbərləri", "Kurikulum" jurnallarının redaksiya heyətinin üzvü kimi səmərəli fəaliyyət göstərmişdir. Azərbaycanın və xarici ölkələrin nüfuzlu nəşrlərində 130-dən artıq elmi əsəri nəşr olunmuşdur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 85 və 90 illik yubiley tədbirlərinin təntənəli şəkildə dövlət səviyyəsində keçirilməsində prof.Yusif Məmmədovun xüsusi xidmətləri olmuşdur.

2000-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilib. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü (akademiki) seçilib. 2010-cu ildə "Şöhrət" ordeninə, 2019-cu ildə isə 2-ci dərəcəli "Əmək" ordeninə layiq görülüb. 2016-2017-ci illərdə Azərbaycan Respublikası Təhsil nazirinin müşaviri vəzifəsində çalışıb. Hazırda BDU-nun riyazi fizika tənlikləri kafedrasının müdiridir.

Cəfər Məmməd oğlu Cəfərov

tarix üzrə elmlər doktoru, professor

(1960)

21 aprel 1960-cı ildə Naxçıvan şəhərində mühəndis ailəsində anadan olmuşdur. 1977-ci ildə Bakı şəhəri 158 №-li orta məktəbi bitirmiş və Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuşdur. 1980-1983-cü illərdə universitetin göndərişi əsasında təhsilini Moskva Dövlət Universitetinin (MDU) Tarix fakültəsində davam etdirmişdir. 1983-cü ildə Moskva Dövlət Universitetinin Tarix fakültəsinin aspiranturasına daxil olmuş, 1987-ci ildə dissertasiya işini müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. Moskvada təhsil aldığı dövrdə Azərbaycanlı Tələbə və Aspirantlar Şurasının sədr müavini olmuşdur. 1987-1994-cü illərdə Azərbaycan Dövlət Universitetinin (1989-cu ildən BDU) Tarix fakültəsində böyük laborant, Azərbaycan tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1990-1994-cü illərdə BDU-da Tarix üzrə İxtisaslaşmış

Dissertasiya Şurasının elmi katibi, 1992-1994-cü illərdə Tarix fakültəsinin dekan müavini, 1994-1998-ci illərdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə İş üzrə Baş İdarəsinin rəisi vəzifələrində işləmişdir.

1998-2003-cü illərdə BMT İnkişaf Proqramı və Azərbaycan hökumətinin "Azərbaycanda QHT/İƏT-lərin institusional potensialının artırılması ilə vətəndaş cəmiyyətinin gücləndirilməsi" birgə layihəsinin milli koordinatoru olmuşdur. 2000-2001-ci illərdə Fulbrayt proqramının qalibi kimi ABŞ Dövlət Departamentinin təqaüdü ilə Nyu-York Universitetinin Dövlət İdarəçiliyi Məktəbində tədqiqatçı alim vəzifəsində çalışmış, dərslərdə iştirak etmiş, mühazirələrlə çıxış etmişdir. Həmin dövrdə həm də BMT-nin mərkəzi qərargahında "Elektron Hökumət" layihəsinin icraçılarından biri olmuşdur. 2000-ci ildə ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşən Müasir Məsələlər üzrə Təqaüdlər Proqramının qalibi olmuşdur.

2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsinə təqdim olunan 3 namizəddən biri olmuşdur. 2001-ci ilin noyabr ayında keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının İdarə Heyətinin üzvü seçilmiş, 2003-2004-cü illərdə Beynəlxalq Mətbuat Mərkəzinin (BMM) direktoru vəzifəsində işləmişdir.

2004-2006-cı illərdə BMT İnkişaf Proqramı və Azərbaycan hökumətinin "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması məqsədilə daxili turizmin səmərəli inkişafının təmin olunması üzrə Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə institusional yardım" birgə layihəsinin milli koordinatoru olmuşdur.

17 fevral 2010-cu ildə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda tarix üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün doktorluq dissertasiyası müdafiə etmişdir. 2013-cü ildən professordur.

Azərbaycan tarixinin müasir problemləri, XX əsrin 20-ci illərinin sonu-30-cu illərində Azərbaycan kəndi, vətəndaş cəmiyyətinin inkişafı, dövlət idarəçiliyi və cəmiyyətin demokratikləşməsi, turizmin və ali pedaqoji təhsilin inkişaf perspektivləri ilə bağlı respublikada və xaricdə nəşr olunan 90-dan çox kitabın, tədris-metodiki vəsaitin, elmi məqalənin müəllifidir. 36 xarici ölkədə keçirilən 100-dən çox beynəlxalq seminar, konfrans və simpoziumun iştirakçısı olmuşdur.

2006-2014-cü illərdə Azərbaycan Turizm İnstitutunun, 2014-2016-cı illərdə onun bazasında yaradılan Azərbaycan Turizm və Menecment Universitetinin

rektoru olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 23 iyun 2016-cı il tarixli Sərəncamı ilə prof. Cəfər Cəfərov Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru vəzifəsinə təyin olunmuşdur.

2013-2016-cı illərdə "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalının baş redaktoru olub. 2016-2019-cu illərdə ADPU-nun nəzdində fəaliyyət göstərən "Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi", "Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası" ixtisasları üzrə Dissertasiya Şurasının sədri olub. 2019-cu ildən isə ADPU-nun nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının sədridir.

Hazırda "ADPU-nun xəbərləri", "Təhsildə İKT", "Tarix, insan və cəmiyyət" jurnallarının baş redaktoru, "Azərbaycan məktəbi", "Kurikulum" və Moskvada nəşr edilən "İnsan kapitalı" ("Человеческий капитал" Журнал Московского университета) elmi-praktik jurnallarının, "Kommunikologiya" ("Коммуникология") beynəlxalq elmi jurnalının, Rusiya Dövlət Humanitar Universitetinin "Avrasiya tədqiqatları. Tarix. Politologiya. Beynəlxalq münasibətlər" elmi jurnalının (Вестник РГГУ. Серия «Евразийские исследования. История. Политология. Международные отношения». Научный журнал) redaksiya heyətinin üzvüdür.

Avrasiya İpək Yolu Universitetləri Konsorsiumu (ESRUC) İcraedici Şurasının üzvüdür. 2020-ci ildə Türkiyənin Ali Təhsil Keyfiyyət Şurasının xarici qiymətləndiricisi (ekspert) seçilib. 12 dekabr 2017-ci ildə Avstriyanın IMC/FH KREMS Universitetinin fəxri doktoru adına layiq görülüb.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" və "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" yubiley medalları ilə təltif olunub.

ABŞ-da təhsil alan Azərbaycanlı Məzunlar Assosiasiyasının "Təhsil sahəsində ən yaxşı nəticəyə görə" diplomu (2008), "Fəxri turizm işçisi" döş nişanı (2014), Humanist Pedaqogikanın Beynəlxalq Mərkəzi tərəfindən "Humanist pedaqogikanın cəngavəri" adı və "Ürək və qu quşu" döş nişanı (2017), Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının "General Həzi Aslanov" (2019) və Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin "Milli Ordunun 100 illik yubileyi" (2019) medalları və müxtəlif media mükafatları ilə təltif edilib.

ADPU-nun Fəxri doktor və professorları[11]

Cavad Heyət
(1925-2014)

24 may 1925-ci ildə İranın Təbriz şəhərində anadan olmuşdur. İlk və orta təhsilini Təbriz, Həmədan və Tehran şəhərlərində almışdır. Orta hərbi məktəbi bitirdikdən sonra o, Tehran Universitetinə daxil olmuşdur. Burada təhsil alarkən Avropa universitetlərindən birinə qəbul olmaq istəsə də, atası Mirzə Əli Heyət buna mane olmuş, onu Türkiyəyə göndərmişdir. Cavad Heyət 1943-1946 -cı illərdə İstanbul Universitetinin Tibb fakültəsində oxuyub. Atası Əli Heyət 30 il İran ədliyyəsində işləyib, İranın Baş prokuroru və Ədliyyə naziri olub.

Əmək fəaliyyətinə İstanbul Universitetində oxuyarkən başlamış, 1946 - 1949 -cu illərdə burada Cərrahlıq klinikasında çalışmış, daha sonra ixtisasını təkmilləşdirmək üçün Fransaya getmiş, Paris Universitetinin Cərrahlıq kafedrasında işləmişdir. O, 1952-ci ildə yüksək dərəcəli cərrah ixtisasına yiyələnərək İrana qayıtmış, Tehranda Hidayət və Ədliyyə xəstəxanalarında cərrahlıq klinikaları quraraq onlara rəhbərlik etmiş, İranda eksperimental cərrahiyyənin təməlini qoymuşdur. 1954-cü ildən etibarən ürək üzərində apardığı əməliyyatlar onu istedadlı cərrah kimi tanıtmışdır. 1954-cü ildə qapalı ürək əməliyyatı, 1962-ci ildə isə İranda ilk dəfə açıq ürək cərrahiyyəsini müvəffəqiyyətlə həyata keçirmişdir. İranda ilk dəfə ürək qapaqlarını dəyişdirmə, heyvanlarda ürək dəyişdirmə, insanda böyrək dəyişdirmə əməliyyatını uğurla həyata keçirdiyinə görə "Birinci dərəcəli Əmək Ordeni" ilə təltif olunub. 1983-cü ildə Paris Beynəlxalq Cərrahlıq Akademiyasının üzvü seçilmiş, Tehranda Azad İslam Universitetinin Cərrahiyyə kafedrasına rəhbərlik etmişdir. Fars dilində cərrahlıqla bağlı üç cildlik dərsliyin müəllifidir. Prof. Dr. H.Nitqi ilə birlikdə İranda elmi türkologiyanın əsasını qoymuşdur. 7 cildlik "Türkologiya" kitabının müəllifidir. Türkologiya ilə bağlı "Azərbaycan ədəbiyyat tarixinə bir baxış" (1993), "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1990), "Türk

[11] *17 mart 1995-ci ildə ADPU-nun Fəxri doktoru seçilmiş Otto Ernst Kelm haqqında məlumat tapa bilmədik.*

dili və ləhcələrinin tarixi” (1987), “İki dilin müqayisəsi” (1989) kitablarının, ədəbiyyata, mədəniyyətə və tibbə aid 400-dən artıq elmi məqalənin müəllifi, “Varlıq” jurnalının yaradıcısıdır. 12 il “Tibbi bilik” jurnalı nəşr edib.

Bakı Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Xəzər Universitetinin fəxri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Cərrahları Elmi Cəmiyyətinin fəxri üzvü olub. 30 mart 1993-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəxri professoru seçilib. Azərbaycan Yazıçılar Birliyinin “M.F.Axundov mükafatı”na və “Dədə Qorqud” Assosiasiyasının təsis etdiyi “Məmməd Araz” mükafatına layiq görülüb. Türk Dil Qurumunun fəxri sədri, eləcə də İstanbul Universitetinin fəxri doktoru olub.

12 avqust 2014-cü ildə Bakı şəhərində vəfat edib, II Fəxri Xiyabanda dəfn edilib.

Abdullah Cəfərəli Caspi
(1944)

25 noyabr 1944-cü ildə İranın Tehran şəhərində anadan olub. 7 yaşında İmamzadə Yəhya yaxınlığındakı Sarkenbakdakı Etemad məktəbinə daxil olub. Orta təhsilini Tehranda alıb.

1966-ci ildə Elm və Texnologiya Universitetini bitirib.1972-ci ildə təhsilini davam etdirmək üçün İngiltərənin Aston Universitetinə daxil olub. Sənaye menecmenti üzrə magistr dərəcəsi və istehsal və texnoloji menecment sahəsində doktorluq dərəcəsi alıb.

İranda müxtəlif vəzifələrdə çalışıb. Daxili İşlər nazirinin müşaviri, Şahid Rajaee’nin Baş Nazirlik Ofisində Layihələr və Planlar üzrə Baş Nazir müavini, və ölkənin İnzibati və Məşğulluq İşləri Bürosunun Baş katibi (1980-1983), Mədəni İnqilab Qərargahının İdarəetmə Komissiyasının Başçısı, Mədəni İnqilabın Ali Şurasının üzvü, İslam Azad Universitetinin təsisçisi və rektoru, İslam Azad Universitetinin Himayəçilik Şurasının üzvü, “İqtisadiyyat və idarəetmə” jurnalının təsisçisi və redaktoru, Mədəniyyət və Ali Təhsil Nazirliyinin İnkişaf Şurasının üzvü, Elm və Texnologiya Universitetinin professoru, Planlaşdırma Şurasının, Ali Gənclər Şurasının, Baş Mədəniyyət Şurasının, İran Elm və Texnologiya Universitetinin Direktorlar Şurasının üzvü olub. İdarəetmə və siyasi təhsil məsələlərinə dair çoxsaylı tədqiqatların

müəllifidir. Bir neçə xarici ölkə universitetlərinin fəxri doktoru və professoru olub. 1996-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetin fəxri doktoru seçilib. Moskva Universitetinin elmi mükafatını alıb. İranda İkinci Beynəlxalq İctimaiyyətlə Əlaqələr Simpoziumunda qızıl heykələ və xüsusi mükafata layiq görülüb. Beynəlxalq Universitetlər Birliyinin İdarəetmə Şurasına və dəfələrlə Dünya Universitetləri Birliyinin İcraiyyə Şurasına seçilib. İki dəfə ardıcıl olaraq İslam Dünyası Universitetləri Birliyinin İcraiyyə Şurasının sədri olub.

Tunçalp Özgən
(1946-2019)

30 may 1946-cı ildə Türkiyə Cümhuriyyətinin Kütahya şəhərində anadan olmuşdur. Ankara Kollecini bitirmiş, 1963-1967-ci illərdə Hacəttəpə Universitetinin Tibb fakültəsinin neyrocərrahiyyə ixtisasında oxumuşdur. 1988-ci ildə professor elmi dərəcəsi almışdır.

1984-cü ildə Avropa Neyrocərrahiyyə Assosiasiyaları Birliyinin (EANS) təlim komissiyasının üzvü və 1993-cü ildə vitse-prezidenti seçilmişdir. 1992-ci ildə Academia Eurosiana Neurochirurgica (Avro Asiya Neyrocərrahiyyə Akademiyası) və 1994-cü ildə Nevroloji Cərrahlar Konqresinə (ABŞ) üzv seçilmişdir. 1999-cu ildə Alman Neyrocərrahiyyə Akademiyasına (GANS) üzv qəbul edilmişdir. 2001-ci ildə Yapon Neyrocərrahiyyə Cəmiyyətinin üzvü və Beynəlxalq Universitet Rəhbərləri Beynəlxalq Assosiasiyasının üzvü seçilmişdir. 2014-cü ildə Academia Eurosiana Neurochirurgica-nın fəxri üzvü seçilmişdi.

1999-cu ildə və 2003-cü illərdə Hacəttəpə Universitetinin rektoru vəzifəsinə təyin olunmuşdur. 2005-ci ilin iyul ayında Türkiyə Cümhuriyyəti Yüksək Öyrətim Kuruluna üzv seçilmişdir. 2007-ci ildə yeni qurulan Kırşehir Ahi Evren Universitetinin rektoru vəzifəsini icra etmişdir. 2007-ci ildə rektor, 2009-cu ildə YÖK üzvü vəzifəsindən ayrılmış, Hacəttəpə Universitetinin Tibb fakültəsində fəaliyyətini davam etdirmişdir. 11 may 2007-ci ildə ADPU-nun Fəxri doktoru seçilmişdir. 2011-ci ildə Hacəttəpə Universitetindən təqaüdə çıxmışdır. Xarici ölkələrin nüfuzlu jurnallarında 74 məqaləsi nəşr olunub.

9 mart 2019-cu ildə Türkiyə Cümhuriyyətinin Ankara şəhərində vəfat etmişdir.

Andrey Marqa
(1946)

22 may 1946-cı ildə Rumıniyanın Buxarest şəhərində anadan olub. Görkəmli filosof, politoloq və siyasətçidir. "Stefan Ludwig Roth" liseyində, Cluj Universitetinin Fəlsəfə fakültəsində və V.Höte adına Frankfurt Universitetində təhsil alıb. 1971-ci ildə Universiteti fəlsəfə və sosiologiya dərəcəsi ilə başa vurub. Universitetdə fəlsəfə müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. Fəlsəfə tarixi və məntiq fənlərindən dərs deyib. Siyasi tələbə dərnəklərinin fəal üzvlərindən olub. Həmin dövrdə Kommunist Tələbələr Birliyinin yerli şöbəsinə rəhbərlik edib. İlk dəfə ölkədən ABŞ-a səyahət etmək imkanı qazanan 75 gəncdən biri olub. 1983-cü ildə doktorluq dissertasiyası (fəlsəfə doktoru) müdafiə edib. 1989-cu il inqilabından sonra müasir fəlsəfə və məntiq professoru vəzifəsinə seçilib. Tarix və fəlsəfə fakültəsinin dekanı, prorektoru, sonrakı illərdə Babeş-Bolyai Universitetinin rektoru (1994-2004 və 2008-2012) olub. Onun rəhbərlik etdiyi illərdə universitetdə xeyli struktur dəyişikliyi olub, 11 yeni fakültə yaradılıb, Universitetin demokratik məzmunlu yeni Nizamnaməsi qəbul edilib. Siyasətşünaslıq, siyasi fəlsəfə, fəlsəfə tarixinə dair bir neçə kitabın müəllifidir. Əsəri Herbert Marcuse və Jürgen Habermas'ın fəlsəfi nəzəriyyələri, pozitivizmin mahiyyəti və müasir fəlsəfədəki meyillər də daxil olmaqla müxtəlif mövzuları əhatə edir. Kommunizmdən bazar iqtisadiyyatına keçidin fəlsəfi əsasları və Avropaya inteqrasiyada liderlik prinsiplərinin təkamülü kimi konkret mövzularda mühazirə oxumuşdur. Son illərdə yazdığı əsərlərində din fəlsəfəsi və qloballaşma dövründə dinin rolu məsələləri mühüm yer tutur. 2005-ci ildə elm sahəsindəki uğurlarına görə Herder mükafatına layiq görülmüşdür.

Andrey Marqa Rumıniyada tanınmış ictimai-siyasət xadimi olub. Xristian-Demokratik Xalq Kəndlilər Partiyasının üzvü və bir müddət onun sədri olub. 2001-ci ilin iyulunda ölkədəki qeyri-sabitlik və partiya daxili gərginlik səbəbindən istefa verib. 1997-2000-ci illərdə Təhsil naziri olub. Ölkə təhsilində aparılan ciddi məzmun, infrastruktur, qiymətləndirmə, akademik və maliyyə idarəetmə sahəsindəki islahatlar onun adı ilə bağlıdır. Rumıniyanın Avropa təhsil sisteminə inteqrasiyasını təmin edən beynəlxalq əməkdaşlıq formalarının təbliğatçılarından biri olub.

2002-ci ildə Rumıniya Milli Liberal Partiyasına qoşulub. 2012-ci ilin may-avqust aylarında Marqa Viktor Ponta hökumətində Xarici işlər naziri vəzifəsini icra edib. 2012-ci ildə Rumıniya Mədəniyyət İnstitutunun prezidenti seçilib. İsrailin (2002, 2008), Almaniyanın (2003, 2005) dövlət mükafatlarına layiq görülmüşdür. ABŞ (2006), Fransa (2008), Moldova (2010), Macarıstan (2010), Kanada (2019) universitetlərinin Fəxri doktoru olub. Xarici ölkələrin müxtəlif orden və Fəxri diplomları ilə təltif edilib. 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəxri doktoru seçilib.

Alev Çakmakoğlu Kuru
(1959)

9 iyul 1959-cu ildə Türkiyə Cümhuriyyətində anadan olub. 1978-1982-ci illərdə İstanbul Universitetinin Ədəbiyyat fakültəsinin sənət tarixi bölümündə təhsil alıb.

1983-1986-cı illərdə Memar Sinan adına Gözəl Sənətlər Universitetinin Sosial Elmlər İnstitutunun incəsənət tarixi bölumündə magistratura təhsili alıb. Sonra Memar Sinan Universitetinin Sosial Elmlər İnstitutunun memarlıq bölümünün doktorantı olub. 1985-1988-ci illərdə Mersin Peşə Liseyinin turizm bölümündə müəllim, 1988-1995-ci illərdə Qazi Universitetinin Təhsil Fakültəsinin Gözəl Sənətlər Bölümündə təhsil təlimatçısı, 1995 – 2002-ci illərdə dosent yardımçısı, 2002-2008-ci illərdə dosent, 2008-ci ildən professor vəzifəsində çalışıb.

1993-cü ildə "Fəthdən Osmanlı dövrünə qədər Kayseridəki türk abidələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Qazi Universiteti Gözəl sənətlər fakültəsinin dekanı (2008-2015) və Qazi Universitetinin Təhsil fakültəsinin gözəl sənətlər təhsili bölümünün müdiri (2015-2019) vəzifələrində çalışmışdır.

Qazi Universitetində Gözəl Sənətlər İnstitutunun yaradılması onun adı ilə bağlıdır. O, bu institutun qurucusu və ilk direktoru olub. İncəsənət və Dizayn Tədqiqat və Tətbiqetmə Mərkəzinin yaradılmasında iştirak edib. Əlillər üçün Tədqiqat və Tətbiq Mərkəzinin yaradıcısıdır (2010).

Qazi Universitetinin Təhsil fakültəsində Türk Sənət Dərnəyini yaratmış, 2016-cı ilə qədər bu tələbə cəmiyyətində akademik məsləhətçisi kimi fəaliyyət göstərmişdir.

Qazi Universitetinin Təhsil fakültəsində gözəl sənətlər tarixindən mühazirə oxuyur, magistr və doktorantlara məsləhətlər verir. Türk xalqlarının, o cümlədən Azərbaycan xalqının zəngin mədəniyyətinin tədqiqində, Türkiyədə və xarici ölkələrdə təbliğində böyük xidmətləri vardır. Milli və beynəlxalq konfranslarda türk xalqlarının mədəniyyətinin fədakar təbliğatçısıdır.

Azərbaycanın mədəniyyətinin və tarixinin təbliği, xüsusilə Qarabağ və Xocalı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması onun yaradıcılığında xüsusi yer tutur. Hər il Xocalı faciəsi ilə bağlı Türkiyə televiziyalarında çıxışlar edir, erməni vəhşiliyinin iç üzünü açmaq üçün debatlar, dəyirmi masalar və sərgilər təşkil edir. Azərbaycanın 44 günlük haqq savaşında Alev Çakmakoğlu Kuru millətimizin yanında olmuş, Türk İncəsənət Assosiasiyası ilə birlikdə "Kederi kederim, sevinci sevincim Azerbaycan fotoğraflarla Şiir Sergisi" təşkil etmişdir.

16 aprel 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəxri doktoru, 2018-ci ildə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Fəxri professoru seçilmişdir.

50-dən artıq monoqrafiya, dərslik və dərs vəsaitinin, 15 layihənin müəllifidir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları

Filologiya fakültəsi

Nikolay İvanoviç Aşmarin
SSRİ EA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor
(1870-1933)



4 oktyabr 1870-ci ildə Kazan quberniyasının Yadrin qəzasında (indiki Çuvaş Respublikasının Yadrin şəhəri) anadan olub. Kurmış şəhər məktəbində ibtidai təhsil alıb. Şəhər məktəbini bitirdikdən sonra Nijni Novqorod klassik gimnaziyasına daxil olub. 1891-ci ildə orta təhsilini bitirdikdən sonra Moskva Lazarevski Şərq Dilləri İnstitutuna daxil olub. 1894-cü ildə institutu 1-ci dərəcəli diplomla başa vurub. Kazanda tatar məktəbində (1895-1899) tatar dilindən, Müəllimlər Seminariyasında (1919-cu ilə qədər) coğrafiyadan dərs deyib. 1917-ci ildən Şimal-Şərq Arxeoloji və Etnoqrafiya İnstitutunda (indiki Şərq Pedaqoji İnstitutu) çuvaş və tatar dilləri üzrə professor vəzifəsində çalışıb. 1901-1917-ci illərdə müsəlman və çuvaş nəşrlərinə senzorluq edib. 1920-1923-cü illərdə Çuvaş Xalq Təhsili İnstitutunda (Simbirsk) çuvaş dilinin nəzəri kursunu tədris edib. 1923-1926-cı illərdə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin Türkologiya kafedrasının müdiri olub. Eyni zamanda Ali Pedaqoji İnstitutun dil-ədəbiyyat şöbəsinin müəllimi olub. 1925-ci ildə dissertasiya müdafiə edərək türkologiya üzrə doktorluq elmi dərəcəsi alıb. 1926-1931-ci illərdə Şərq Pedaqoji İnstitutunun (Kazan) Çuvaş şöbəsində professor işləyib, çuvaş dilindən dərs deyib, türk dilinin müqayisəli qrammatikası ilə bağlı əsərlər yazıb. "Çuvaş dilinin təqlidlərinin morfoloji kateqoriyaları haqqında" (1928) kitabını və 40 min sözü əhatə edən 17 cildlik "Çuvaş dilinin lüğəti"ni nəşr etdirib. Son kitabın üzərində o, 30 il işləyib. Həmin kitab 1994-2000-ci illərdə yenidən nəşr olunub. 1928-ci ildə SSRİ EA-nın müxbir üzvü seçilib.

26 avqust 1933-cü ildə Kazan şəhərində vəfat edib.

Bəkir Vahab oğlu Çobanzadə

SSRİ EA Azərbaycan filialının həqiqi üzvü, filologiya elmləri doktoru, professor (1893-1937)

1893-cü il mayın 15-də Krımda, Tavrida vilayəti Simferopol qəzasının Qarasubazar şəhərində anadan olmuşdur. 1904-1908-ci illərdə doğma kəndlərində təlimin yeni üsulla təşkil edildiyi rüşdiyyə məktəbində təhsil alıb. 14 yaşında olarkən Dini Xeyirxahlar Cəmiyyəti onu Türkiyəyə təhsilini davam etdirməyə göndərmişdir. O, 1909-1914 -cü illərdə Qalatasaray liseyi – "Sultaniyyə"də oxumuşdur. Sonra İstanbul Universiteti nəzdindəki üçillik ali kursda ərəb və fars dillərini mükəmməl öyrənərək həmin fənləri orta məktəblərdə və liseylərdə tədris etmək hüququ qazanıb. Türkiyədə "Müstəqil tatar Krımı" ideyaları ilə yaşayan gənclərdən ibarət "Krım-tatar tələbə cəmiyyəti"nin yaradıcılarından və rəhbərlərindən biri olub. Birinci Dünya müharibəsində iştirak edən B.Çobanzadə 1914-cü ildə macarlara əsir düşüb. Macar professoru Messaroşla tanışlığı onun dilçiliklə bağlı görüşlərinin formalaşmasında mühüm rol oynayıb. 1916-1920-ci illərdə Budapeşt Universitetinin Tarix-filologiya fakültəsində oxuyub. 1920-ci ildə "Кажущиеся сингармонические несоответствия в Кодексе Куманикусе" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Budapeştdə Şərq Akademiyasında və İsveçrənin Lozon Universitetində türk dilindən dərs deyib. 26 yaşında o, hər iki təhsil müəssisəsinin professoru seçilib. "Şərq" qəzetinin redaktoru olub (1919). "Krım", "Göy kitab" (İstanbul) məcmuələrində və "Şərq" qəzetində xeyli şeirləri dərc edilib (1918-1919).

1921-ci ildə o, Krım MSSR-ə dəvət olunur və Krım Muxtar Respublikasının Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilir. Krım Maarif Komissarlığında tatar lisaniyyatı və ədəbiyyatı şöbəsinə rəhbərlik edir (1920-1922). 1922-ci ildə Krım Universitetində Şərq fakültəsinin professoru seçilir və krım-tatar dili və ədəbiyyatından mühazirələr oxuyur. Həmin il Krım Universitetinə rektor təyin edilir. S.Ağamalıoğlunun dəvəti ilə Azərbaycana gəlir və yeni əlifba komitəsinin sədri, Yeni türk əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri təyin edilir.

Orta Asiya, Tatarıstan, Başqırdıstan və Krımda latın əlifbasına keçidlə əlaqədar iş aparır, Tavrid, Bakı, Daşkənd, Fərqanə və Buxara ali məktəblərin-

də türkologiyanın ayrı-ayrı problemlərinə dair mühazirələr oxuyur (1920-1936). Həmin illərdə o həm də Britaniya və Ərdəbil nüsxələri əsasında Xətai divanının müqayisəli mətnini hazırlamışdır. Bakıda keçirilmiş I Türkoloji qurultayının təşkilində fəal iştirak etmişdir (1926). Türk xalqlarının yeni əlifbaya keçməsi üçün fəal mübarizə aparmış, Moskvada müxtəlif kurslarda mühazirələr oxumuşdur (1928). Azərbaycan Baş Elmi İdarəsində Terminologiya Komitəsinə rəhbərlik etmiş, eyni zamanda Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində kafedra müdiri, dekan vəzifəsində çalışmışdır (1924-1929). Moskvada Şərq xalqları İnstitutunun həqiqi üzvü seçilmişdir (1928). Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspirantura şöbəsinin müdiri işləmişdir (1929). SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin (1932), Azərbaycan Yazıçılar İttifaqının (1934-1937) üzvü, SSRİ EA Azərbaycan filialının həqiqi üzvü seçilmişdir (1935). Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdur.

Azərbaycan Pedaqoji İnstitutunun Tarix-ədəbiyyat şöbəsinin ilk professorlarından biri olub. 1933-1937-ci ildə Pedaqoji İnstitutda Linqvistika kafedrasına rəhbərlik edib. Türk xalqlarının bədii ədəbiyyatının, müasir ədəbi prosesin nəzəri problemlərinin araşdırılmasında və dil tarixinin yaradılmasında xidmətləri olmuşdur. O, bir sıra monoqrafik əsərlərlə yanaşı, "Türk dilinin metodikası" (1932), "Elmi qramerin əsasları" (1932) kitablarını tərtib (şərikli) etmişdir.

Millətçi və pantürkist təşkilatın üzvü kimi həbs edilərək 13 oktyabr 1937-ci ildə Bakıda güllələnmişdir.

Feyzulla Səməd oğlu Qasımzadə

AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi, Əməkdar müəllim
(1898-1976)

22 fevral 1898-ci ildə Bakının Mərdəkan kəndində anadan olub. İlk təhsilini mollaxanada və Mərdəkan kənd ibtidai məktəbində (1903-1912) alıb. 1912-1916 -cı illərdə Bakıdakı ali ibtidai məktəbdə oxuyub. Məktəbi bitirdikdən sonra "Kazyonnaya palata" müəssisəsində əmək fəaliyyətinə başlayıb. Təhsilini davam etdirmək

məqsədilə gimnaziyaya (axşam şöbəsinə) daxil olub. Uşaqlıqdan gözlərinin zəif olmasına, hətta bir gözünün görmə qabiliyyətini tam itirməsinə baxmayaraq, kiçik yaşlarından mütaliəyə böyük həvəs göstərib.

1917-ci ildə Göyçay qəzasının Qaziyan kənd ibtidai məktəbində müəllim və müdir işləyib. Burada 8 ay işlədikdən sonra onu səhhətinə görə doğma kənd məktəbinə müdir və dil-ədəbiyyat müəllimi vəzifəsinə təyin ediblər. 1920-ci ildə Qala-Maştağa rayon xalq maarif idarəsində təhsil-tərbiyə şöbəsinin müdiri, 1922-1929-cu illərdə Bakı şəhər məktəbində və N.Nərimanov adına Texnikumda dil və ədəbiyyat müəllimi, 1928-ci ildə həm də II dərəcəli Bakı şəhər məktəbində dil-ədəbiyyat müəllimi işləyib. 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinə daxil olur, sonra təhsilini ADPİ-də davam etdirir. Şərqşünas alim P.Juzenin rəhbərliyi ilə rus dilində yazdığı "Quranın estetikası" diplom işini uğurla müdafiə edir. Ali təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil alıb. Həmin dövrdə Azərbaycan Xalq Maarif Komissarlığında metodist-təlimatçı, Mamaçalıq Texnikumunda dil-ədəbiyyat müəllimi işləyir. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışır. 1939-cu ildə "Mirzə Fətəli Axundzadənin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Elə həmin il Azərbaycan Yazıçılar İttifaqına üzv seçilib. Onun sonrakı fəaliyyəti Azərbaycan Dövlət Pedaqoji İnstitutu ilə bağlı olub. 20 ilə yaxın bir müddətdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasına rəhbərlik edib. 1955-ci ilin dekabrında "XX əsr Azərbaycan ədəbiyyatında realist-demokratik ədəbi cərəyanın inkişafı tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Elmi-pedaqoji uğurlarına görə ona 1943-cü ildə Əməkdar müəllim, 1958-ci ildə Əməkdar elm xadimi fəxri adları, 1957-ci ildə isə professor elmi adı verilib. 1952-ci ildə Azərbaycan EA-nın müxbir, 1966-cı ildə həqiqi üzvü (akademiki) seçilib.

Onun "Mirzə Fətəli Axundzadə. Həyatı və yaradıcılığı" (1938), "Mirzə Fətəli Axundzadənin poeziyası" (1938); "XIX əsr Azərbaycan ədəbiyyatı xrestomatiyası" (1938), "M.F.Axundzadənin həyatı və yaradıcılığı" (1939), "XIX əsr Azərbaycan ədəbiyyatından dərs vəsaiti" (1939), "Ədəbiyyatdan terminlər lüğəti" (1949), "Xalq aşıq poeziyası" (1950), "Tənqidi realizm" (1952), "Vaqifin ədəbi məktəbi" (1954), "N.B.Vəzirov" (1954), "XIX əsr Azərbaycan ədəbiyyatında realist demokratik cərəyanlar" (1955), "Abbasqulu ağa Bakıxanov Qüdsi" (1956), "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" (1956), "M.F.Axundovun həyatı və yaradıcılığı" (1962), "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" (1962), "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi"

(1974) kitabları kütləvi tirajla nəşr olunmuşdur.2 cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (1944) və 3 cildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1960) kitablarının müəlliflərindən biri olub. Dövri mətbuatda 600-dək elmi məqaləsi nəşr edilib. 35 elmlər doktorunun elmi məsləhətçisi, 125 elmlər namizədinin elmi rəhbəri olmuş, 100-dən çox dissertasiya işinə opponentlik etmişdir.

Üç dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, "Qafqazın müdafiəsinə görə" (1944) və "Böyük Vətən müharibəsində əmək igidliyinə görə" medalları ilə, Maarif Nazirliyinin, Azərbaycan EA-nın, ADU-nun, ADPİ-nin və digər təşkilatların Fəxri fərmanları ilə təltif edilmişdir.

29 mart 1976-cı ildə Bakı şəhərində vəfat etmiş, vəsiyyətinə görə Mərdəkan qəbiristanlığında dəfn edimişdir.

Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə

AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi,
Dövlət mükafatı laureatı
(1904 - 1975)

1904-cü il iyun ayının 10-da Bakı şəhərində anadan olmuşdur. Bakıdakı rus-tatar (Azərbaycan) məktəbini bitirdikdən sonra 1920-1930 -cu illərdə I dərəcəli 5-ci sovet məktəbində (direktor S.S.Axundov) müəllim işləmişdir. 1925-ci ildə Xalq Maarif İnstitutunu bitirmişdir.

1925-1930 -cu illərdə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsində, 1930-1931-ci illərdə Moskvada Sovet Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. 1932-1941-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim və dosent vəzifələrində çalışmışdır. 1941-1950-ci illərdə Azərbaycan Dövlət Universitetində Rus ədəbiyyatı kafedrasının müdiri olmuşdur.

1930-1940-cı illərdə Xalq maarif komissarının müavini, 1941-1947-ci illərdə "Vətən uğrunda" ("İnqilab və mədəniyyət") jurnalının baş redaktoru olmuşdur. 1944-cü ildə "Azərbaycan sovet ədəbiyyatının inkişafı yolları" mövzusunda namizədlik, 1954-cü ildə isə "Cəfər Cabbarlının yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1955-ci ildə ona professor elmi adı verilmişdir. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun təşkilində, strukturunun, fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində Məmməd Arifin xüsusi xidmətləri vardır. O, Ədəbiyyat və Dil İnstitutunda şöbə müdiri (1938), direktor müavini (yanvar-sentyabr 1939) və direktor (sentyabr 1939- 27 iyul 1950) vəzifələrində çalışmışdır. 1950-ci ilin iyul ayında filosof Heydər Hüseynova qarşı çıxış etməkdən boyun qaçıran Məmməd Arif Azərbaycan K(b)P MK-nın I katibi M.Bağırovun göstərişi ilə tutduğu bütün vəzifələrdən azad edilmiş, Sov.İKP sıralarından və Azərbaycan Yazıçılar İttifaqından xaric edilmişdir.

1957-1959-cu illərdə yenidən Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsində işləmişdir. 1955-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1958-ci ildə həqiqi üzvü, 1959-cu ildə İctimai Elmlər Bölməsinin akademik-katibi, 1960-cı ildə isə vitse-prezidenti seçilmişdir.

1957-ci ildən Akademiyanın Rəyasət Heyəti yanında Terminologiya Komitəsinin sədri vəzifəsində çalışmışdır. Azərbaycan EA-nın "Xəbərləri"nin baş redaktoru, həmçinin Zaqafqaziya xalqlarının Mədəni Əlaqələri üzrə Koordinasiya Şurasının rəhbəri olmuşdur.

Azərbaycan Yazıçılar İttifaqının İdarə heyətinin üzvü olmuş, "Tənqid" bölməsinə rəhbərlik etmişdir. O, 2 cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (1943-1944), 3 cildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1957-1960), 2 cildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi" (1967) kitablarının müəlliflərindən və baş redaktorlarından biri olub.

30-dan artıq monoqrafiya, dərslik və dərs vəsaitinin, 20 tərcümə əsərinin, onlarla elmi məqalənin müəllifi olub, iki dəfə Bakı Sovetinə deputat seçilib. 1963-1967-ci illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı və sədri olmuşdur. İki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni (1939, 1964), "Lenin" ordeni (1971), "Oktyabr İnqilabı" ordeni (1974), "Qabaqcıl maarif xadimi" nişanı (1964) və medallarla təltif edilmişdir. 1960-cı ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1974-cü ildə Dövlət Mükafatına layiq görülmüşdür.

27 dekabr 1975-ci ildə Bakı şəhərində vəfat etmiş, Fəxri xiyabanda dəfn edilmişdir.

Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərov

AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı
(1909-1992)

9 may 1909-cu ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan xeyriyyə məktəbində, şəhərdəki rus-tatar məktəbində, savad kurslarında, 1928-1931-ci illərdə Naxçıvan Pedaqoji, 1931-1935-ci illərdə Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsində,1935-1938-ci illərdə həmin institutun aspiranturasında təhsil alıb. "Maarif işçisi" qəzetində şöbə müdiri (1932-1935), ADPİ-də kafedra müdiri (1935-1938) və Dil-ədəbiyyat fakültəsinin dekanı (1938-1939), Bakı ikiillik Müəllimlər İnstitutunda baş müəllim (1939-1941), ADU-nun Rus ədəbiyyatı kafedrasında dosent, həmçinin "Ədəbiyyat qəzeti"ndə şöbə müdiri (1941-1943), Quba Müəllimlər İnstitutunda elmi işlər üzrə direktor müavini (1943-1945), "Ədəbiyyat qəzeti"nin redaktoru (1945-1949) olub. ADU-nun Filologiya fakültəsinin dekanı və Rus dili kafedrasının müdiri (1951-1953) vəzifələrində çalışıb.

1947-ci ildə "Mirzə Fətəli Axundzadənin ədəbi-tənqidi görüşləri" mövzusunda namizədlik, 1961-ci ildə "Hüseyn Cavid və Azərbaycan ədəbiyyatında romantizm" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1963-cü ildə ona professor elmi adı verilib. 1967-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1976-cı ildə həqiqi üzvü seçilib.

Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi (1945-1949), şöbə müdiri (1959-1979), direktor (1979-1981) vəzifələrində çalışıb, Azərbaycan EA Ədəbiyyat, Dil və İncəsənət Bölməsinin akademik katibi (1981-1987) olub. 1987-1992-ci illərdə Azərbaycan EA Əlyazmalar İnstitutunda baş elmi işçi kimi fəaliyyət göstərib.

Azərbaycan və dünya ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi və estetika, fəlsəfə və kulturologiya məsələlərinə həsr edilmiş 30-dan artıq kitabın, 750-yə yaxın məqalənin müəllifidir. Onun "M.F.Axundovun ədəbi-tənqidi görüşləri" (1950),"Füzuli düşünür" (1959), "Hüseyn Cavid" (1960), "Azərbaycan ədəbiyyatında romantizm" (1963), "Mütəfəkkirin şəxsiyyəti" (1967), "Nizaminin fikir dünyası" (1982) əsərləri Azərbaycan filologiya elminin dəyərli örnəklə-

rindəndir. M.Cəfərov Azərbaycanda ədəbiyyat nəzəriyyəsi məktəbinin əsas yaradıcılarından biridir. 3 cildlik "XIX əsr rus ədəbiyyatı tarixi" (1970-1974) dərsliyinin müəllifidir. Onun "C.Məmmədquluzadə" və "M.Ə.Sabir" kitabları ingilis, fransız, ərəb, fars, ispan, türk dillərində nəşr olunub. Məmməd Cəfər Cəfərov həm də estetikaya dair "Estetik zövq haqqında" (1964), "Estetik tərbiyə, ailə və məktəb" (1967) əsərlərinin müəllifidir.

"Lenin" və "Şərəf Nişanı" (2 dəfə) ordenləri, müxtəlif medallarla təltif edilib, 1976-cı ildə Dövlət Mükafatına layiq görülüb. 1982-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

11 may 1992-ci ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunub.

Həmid Məmmədtağı oğlu Araslı

AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1909-1983)

23 fevral 1909-cu ildə Gəncə şəhərində ruhani ailəsində anadan olmuşdur. 1915-1920-ci illərdə Şah Abbas məscidi nəzdindəki mədrəsədə təhsil almışdır. 1926-cı ildə Gəncə Müəllimlər Seminariyasını bitirmişdir. Nəbiağalı kənd (indiki Göygöl rayonun Sabir kəndi) yeddiillik məktəbində müəllim və direktor işləmiş, Gəncə qəzasının ictimai-siyasi və mədəni həyatında fəal iştirak etmişdir.

1924-1925-ci illərdə orta məktəb şagirdləri üçün ədəbiyyat dərnəyi açmış, 1927-1928-ci illərdə Nəbiağalı kənd və dairə sovetinə deputat seçilmişdir. 1928-ci ildə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin ədəbiyyat şöbəsində oxumaq üçün Bakıya göndərilmişdir. 1931 -ci ildə Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat şöbəsini bitirmişdir. Bir müddət Bakıda Həmkarlar Məktəbində müəllim işləmişdir. 1932 -ci ildə Gəncə şəhər maarif şöbəsinə müdir müavini təyin edilmişdir.

1932-1935-ci illərdə Gəncədə savadsızlığın ləğv edilməsində xüsusi fəallıq nümayiş etdirdiyinə görə Fəxri tərifnamə ilə təltif edilmiş və oxumaq üçün ADPİ-nin aspiranturasına göndərilmişdir. Pedaqoji İnstitutda aspiranturada oxuduğu müddətdə Ədəbiyyat kafedrasında assistent və dosent əvəzi işləmişdir. Həmin illərdə o həm də SSRİ EA-nın Azərbaycan filialının kitab-

xanasında şərq şöbəsinin müdiri olmuşdur. Şərq Əlyazmaları Fondunun yaradılması onun adı ilə bağlıdır. 1938-1939-cu illərdə Azərbaycan Dövlət Nəşriyyatında ədəbi-bədii şöbənin redaktoru, həm də Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, 1938-ci ildə şöbə müdiri olmuşdur. Nizami adına Ədəbiyyat Muzeyini təşkil etmək, dahi şairin yubileyi münasibətilə hazırlıq işlərinə rəhbərlik etmək üçün o, muzeyə elmi katib təyin olunmuşdur.

1943-cü ildə namizədlik, 1954-cü ildə doktorluq dissertasiyası müdafiə etmiş, bir il sonra professor elmi adı almışdır. 1958-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1968-ci ildə həqiqi üzvü seçilmişdir.

1944-1962-ci illərdə ADU-da Yaxın Şərq Ədəbiyyatı kafedrasının müdiri vəzifəsində işləmişdir. 1954-1955-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun mətnşünaslıq şöbəsinin müdiri olmuşdur. 1960-1968-ci illərdə Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, 1968-1970-ci illərdə Azərbaycan EA Yaxın və Orta Şərq Xalqları İnstitutunun Ədəbiyyat şöbəsinin müdiri, 1970-ci ildən isə həmin institutun direktoru vəzifəsində işləmişdir.

1966-cı ildən Türkiyə Dilçilik Cəmiyyətinin Fəxri üzvü, 1971-ci ildən İraq Respublika Akademiyasının Fəxri akademiki seçilmişdir. 1968-ci ildə Özbəkistanın, 1979-cu ildə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görümüşdür. H.Araslı təkcə Azərbaycanda deyil, Özbəkistanda, Türkmənistanda və Tatarıstanda aspirant, dissertant və doktorantlara rəhbərlik etmiş, onlarca elmlər doktoru, 50-yə qədər elmlər namizədi yetişdirmişdir.

Qətran Təbrizi, Məhsəti, Xaqani, Fələki Şirvani, Nizami, Əvhədi, Nəsimi, Kişvəri, Əssar, Şah İsmayıl Xətai və b. şairlər haqqında ilk tədqiqat əsərlərinin müəlliflərindən olmuş, xüsusilə Nizami və Füzuli irsinin öyrənilməsində mühüm işlər görmüşdür. 2 cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin (1943-1944), 3 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957-1960) əsas müəlliflərindəndir. Azərbaycan folkloru, xüsusilə də "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları və aşıq yaradıcılığı haqqında sanballı elmi əsərlər yazmışdır. "Kitabi-Dədə Qorqud"un Azərbaycanda ilk naşiri olmuşdur. O, Məhəmməd Füzulinin əsərlərinin beş cilddə elmi-tənqidi mətnini hazırlamış, Xaqani, Məhsəti, Nizaminin lirik şeirləri, Nəsimi, Xətai, Saib Təbrizi, Qövsi Təbrizi, Vidadi, Vaqif və başqa şairlərin əsərlərini ilkin mənbələr və əlyazmalar əsasında nəşr etdirmişdir.

1951-ci ildə "Şərəf nişanı", 1979-cu ildə "Qırmızı Əmək Bayrağı" ordenləri və bir neçə medallarla təltif olunmuşdur.

20 noyabr 1983-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Məmmədağa Şirəli oğlu Şirəliyev
AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1909-1991)

19 sentyabr 1909-cu ildə Şamaxı şəhərində anadan olmuşdur.1927-ci ildə Bakıda orta məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin dilçilik şöbəsinə qəbul olunub. ADU-nun ləğvi ilə əlaqədar olaraq 1931-ci ildə Pedaqoji İnstitutu bitirib. İki il Ağdam rayonunda dil-ədəbiyyat müəllimi işlədikdən sonra 1933-cü ildə Azərbaycan dilçiliyi ixtisası üzrə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına daxil olmuşdur.

1933-1941-ci illərdə Pedaqoji İnstitutda müəllim, dekan müavini və dekan, 1941-1945 və 1949-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müdiri, Filologiya fakültəsinin dekanı, elmi hissə müdiri (prorektor) vəzifələrində çalışmışdır. Onun 1950-ci illərdən sonrakı fəaliyyəti Azərbaycan dilçilik elminin inkişaf və zənginləşməsinə həsr olunmuşdur.

1952-1960-cı illərdə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun dialektologiya şöbəsinin müdiri, 1960-1968-ci illərdə isə həmin institutun direktoru, 1968-ci ilin fevral ayından 1969-cu ilin oktyabrına kimi Azərbaycan EA İctimai Elmlər Bölməsinin akademik katibi vəzifələrində çalışmışdır. 1969-cu ildə Azərbaycan EA -da müstəqil Dilçilik İnstitutu təşkil olunduqdan sonra 1988-ci ilə qədər həmin instituta rəhbərlik etmişdir.

1941-ci ildə "Bakı dialekti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş M.Şirəliyev 1943-cü ildə birbaşa filologiya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

O, 1949-cu ildə Azərbaycan EA-nın müxbir, 1962-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1960-cı ildə Əməkdar elm xadimi fəxri adına, "Azərbaycan dialektologiyasının əsasları" monoqrafiyasına görə Dövlət mükafatına (1972) layiq görülmüşdür. Bu əsərində o, ilk dəfə təsviri, müqayisəli və tarixi- müqayisəli üsullardan geniş istifadə etmiş, Azərbaycan dili dialekt və şivələrinin təsnifini vermiş, özünün şəxsən iştirak etdiyi dialektoloji ekspedisiyalar zamanı toplanan faktiki materiallar əsasında ümumiləşmələr aparmış, Azərbay-

can dili dialekt və şivələrinin 4 qrupda –şərq, qərb, şimal, cənub qruplarına bölündüyünü faktlarla isbat etmişdir.

Azərbaycanda elmi rəhbərliyi ilə 10 elmlər doktoru, 50-dən artıq elmlər namizədi yetişmişdir. Bundan başqa, onun elmi rəhbərliyi altında 1 nəfər Balkan, 1 nəfər qaqauz, 1 nəfər qaraqalpaq namizədlik dissertasiyası müdafiə edib. Eləcə də 9 özbək, 2 başqırd, 2 tatar, 1 qaraçay və 1 qazax tədqiqatçısının filologiya elmləri doktoru alimlik dərəcəsi almasında M.Şirəliyevin mühüm xidmətləri olmuşdur. M.Şirəliyev "Советская тюркология" (indi "Türkologiya" adı ilə çıxır) jurnalının 20 ildən artıq baş redaktoru olmuşdur.

1953-1954-cü tədris ilində M.Şirəliyev Bolqarıstan hökumətinin dəvəti ilə Sofiya Universitetinin Türk filologiyası kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1957-ci ildə Türk Dil Qurumunun VIII qurultayında nümayəndə kimi iştirak etmiş və bu qurumun müxbir üzvü seçilmişdir. 1963-cü ildə Polşanın Varşava və Krakov universitetlərində türk dilindən dərs demişdir. Bolqarıstanda türk kəndlərini gəzərək zəngin material toplamış və həmin materiallar əsasında "Türk dialektologiyası" əsərini, eyni zamanda "Dilçiliyə giriş" dərsliyini yazmışdır. Onun fəaliyyəti istər bolqar, istərsə də sovet alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bolqar alimi Emil Boyev 1966-cı ildə Ankarada XI Türk Dili qurultayında "Bolqarıstanda türk dialektlərinin araşdırılması" mövzusunda məruzə edərkən xüsusi vurğulamışdır ki, Bolqarıstanda türk dialektlərinin araşdırılmasının əsasını professor M.Şirəliyev qoymuşdur.

100-dən çox elmi əsərin, o cümlədən "Azərbaycan dialektologiyasının əsasları" (1962, 1968, 2006), "Bakı dialekti" (1949, 1957), "Диалекты и говоры азербайджанского языка" (1983) monoqrafiyalarının, M.Hüseynzadə ilə birlikdə orta məktəblər üçün yazdığı "Azərbaycan dilinin qrammatikası" dərsliyinin müəllifidir.

1944-cü ildə "Qafqazın müdafiəsinə görə" və "Əmək igidliyinə görə" (1941-1945) medalları, 1946-cı ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1954-cü ildə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

19 aprel 1991-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə

Azərbaycan EA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor,
Dövlət mükafatı laureatı,
Əməkdar elm xadimi
(1909 -1979)

7 iyul 1909-cu ildə Nuxada (Şəkidə) anadan olub. Əvvəlcə "Həqiqətül-maarif" adlanan yeni tipli məktəbdə, sonra isə "Şəki nümunə zəhmət" məktəbində oxuyub. 1927-ci ildə Nuxa Pedaqoji Məktəbini bitirib. 1927-1929-cu illərdə Şəki şəhər 2№-li məktəbdə müəllim işləyib. 1929 -cu ildə ADU-nun Pedaqoji fakültəsinin dil-ədəbiyyat şöbəsinə daxil olub. 1932-ci ildə Pedaqoji İnstitutun Dil-ədəbiyyat fakültəsini bitirib. B.Çobanzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, A.Şaiq kimi görkəmli alim və yazıçılardan dərs alıb. 1933-1936 -cı illərdə Pedaqoji İnstitutun Dillər kafedrasının aspirantı olub. Leninqrad Universitetində altı ay elmi ezamiyyətdə olub. İlk kitabı "Türk dili" adlanır. 1938-ci ildə "Azərbaycan ədəbi dili tarixinin xülasələri" adlı ikinci kitabı nəşr olunub. Y.E.Bertels, S.E.Malov və İ.K.Dmitriyevin təşəbbüsü ilə həmin kitaba görə 1940-cı ildə ona filologiya elmləri namizədi elmi dərəcəsi verilib. 1944 -cü ildə "Azərbaycan dilinin tarixi (qədim dövr)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1945-ci ildə ona professor elmi adı verilib. 1940-1943-cü illərdə ADU-nun, 1943-1979-cu illərdə isə ADPİ -nin Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik edib. 1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilib. Azərbaycan dilçiliyi üzrə yüksəkixtisaslı elmi kadrların hazırlanmasında onun böyük rolu olub, elmi rəhbərliyi və köməyi ilə 50-dən çox elmlər namizədi və doktoru yetişib.

Azərbaycan dilçiliyinin işlənilməmiş sahələri (fonetika, orfoepiya, etimologiya, üslubiyyat, dil tarixi və s.) ilə bağlı sistemli tədqiqatlar aparıb, nəzəri dilçilik məsələləri ilə yanaşı, tətbiqi dilçilik problemlərini də həll etməyə çalışıb, ədəbi tələffüz, onun mənbələri, pozulma səbəbləri, fonetik, qrafik və qrammatik şəraitdə tələffüz məsələlərini öyrənib. "Azərbaycan dili tarixi xülasələri" (1938), "M.F.Axundov dil haqqında və Axundovun dili" (1941), "Azərbaycan dilinin tarixi" (1948), "Azərbaycan ədəbi dilinin inkişaf yolları" (1959), "Kitabi-Dədə Qorqud dastanının dili" (1959), "50 söz" (1962), "Azəri ədəbi dilinin tarixi" (1967), "Azərbaycan dilinin tarixi qrammatikası"

(1967), “Azərbaycan dili orfoepiyasının əsasları” (1969), “Azərbaycan ədəbi dili tarixi” (1979) adlı dərslik və dərs vəsaitlərinin, 200-dən artıq elmi və elmi- metodik məqalənin müəllifi olub. “Müasir Azərbaycan dili” dərsliyi 1972 - ci ildə Dövlət mükafatına layiq görülüb.

8 aprel 1979-cu ildə Bakı şəhərində vəfat edib. Paytaxt küçələrindən biri onun adını daşıyır. Haqqında prof.N.Xudiyevin “Professor Ə.Dəmirçizadə dünyası” (2019), F.Şahbazlının “Azərbaycan dilçiliyi və prof.Ə.Dəmirçizadə” (2000) monoqrafiyaları nəşr olunub.

Abbas Fəttah oğlu Zamanov

AMEA-nın müxbir üzvü
filologiya elmləri doktoru, professor
(1911-1993)

10 oktyabr 1911-ci ildə Naxçıvan MR Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. Naxçıvan və Bakı şəhərlərində uşaq evlərində yaşamışdır (1921-1927). Bakı Pedaqoji Texnikumunu bitirdikdən (1929) sonra komsomol işində (1929-1937) və “Gənc işçi” qəzetinin məsul redaktorunun müavini vəzifəsində işləmişdir (1933-1934). Sonra “Ədəbiyyat” qəzetində məsul katib və “Azərnəşr”in bədii ədəbiyyat şöbəsində müdir (1937-1939) olmuşdur. 1939-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsini qiyabi bitirmiş və orada müəllim kimi pedaqoji fəaliyyətə başlamışdır. Opera teatrının və filarmoniyanın direktoru (1940-1941) olmuşdur. M.F.Axundov adına Opera və Balet Teatrının Təbrizə qastrol səfərinə rəhbərlik etmişdir (1941). İkinci dünya müharibəsi illərində Ordu sıralarında xidmət etmişdir. Tərxis olunandan sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində baş müəllim (1948-1960), Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşı (1960-1968), Azərbaycan EA Nizami adına Ədəbiyyat muzeyinin direktoru (1968-1971), ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri (1971-1979) vəzifələrində çalışmışdır. Filologiya elmləri doktoru (1968), professor (1971), Azərbaycanın Əməkdar elm xadimi (1980), Azərbaycan EA müxbir üzvü (1983) olub.

Ədəbi fəaliyyətə 1937-ci ildə çap etdirdiyi publisist və elmi-kütləvi məqalələrlə başlamışdır. Bolqarıstan, İran, Türkiyə, İraq, Avstriya və digər xari-

ci ölkələrdə məqalələri çıxmışdır. "Sabir və müasirləri" monoqrafiyası Əsəd Behrənginin tərcüməsində Təbrizdə, "Cəlil Məmmədquluzadə" oçerki Ələkbər Qəhrəmaninin tərcüməsində Tehranda fars dilində nəşr olunmuşdur. Türk Dil Qurumunun (Türkiyə) müxbir üzvü (1971), Konya və Səlcuq Universitetlərinin (Türkiyə) fəxri doktoru seçilmişdir. Mətnşünaslıq sahəsində ciddi fəaliyyət göstərmiş, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, S.Hüseyn, H.Nəzərli, S.Ə.Şirvani, S.M.Qənizadə və Q.Zakirin əsərlərini rus və Azərbaycan dillərində tərtib və nəşr etdirmişdir. O, M.Ə.Sabir, Cavid haqqında xatirə və məqalələri toplayaraq "Ön söz" yazaraq "Sabir xatirələrdə" (1982) və "Cavidi xatırlarkən" (1982) adı ilə nəşr etdirmişdir. I dərəcəli "Vətən müharibəsi" ordeni, döyüş xidmətlərinə görə medalı və bir sıra digər medallarla təltif edilmişdir.

1 aprel 1993-cü ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Cəfər Haşım oğlu Cəfərov

AMEA-nın müxbir üzvü,
sənətşünaslıq elmləri doktoru, professor,
Əməkdar incəsənət xadimi
(1914- 1973)

7 sentyabr 1914-cü ildə Bakıda anadan olmuşdur. İlk təhsilini burada alıb. 1930-cu ildə Bakı Pedaqoji Texnikumunu bitirib. 2 il Bakı şəhərində müəllim işləyib. 1932-1937-ci illərdə Moskvadakı A.Bubnov adına Pedaqoji İnstitutun Ədəbiyyat fakültəsində təhsil alıb. Bakıya qayıdaraq Akademik Milli Dram Teatrında ədəbi hissə müdiri (1937-1938), Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin müdiri (1938-1939), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1939), AK(b)P MK mədəni-maarif müəssisələri bölməsinin müdiri (1947-49), "Pravda" qəzetinin Azərbaycan üzrə müxbiri (1951), AK(b)P MK bədii ədəbiyyat və incəsənət şöbəsi müdirinin müavini (1951–53), Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini (1953-54), AK(b)P MK -nın ideoloji iş üzrə katibi (1967-1971) vəzifələrində çalışmışdır. 1959-73 -cü illərdə Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutunun teatr və kino şöbəsinin müdiri işləmişdir. 1934-cü ildən ali məktəblərdə pedaqoji fəaliyyət göstərmişdir. 1955-ci ildə namizədlik, 1961-

ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş, həmin ildə professor elmi adını almışdır. 1963-cü ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, 1972-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. 1959-cu ildən ömrünün sonunadək Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutu Teatr və Kino şöbəsinin müdiri olub. Azərbaycan Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, Azərbaycan Dövlət İncəsənət İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olub. Onun "Azərbaycan Dram Teatrı", "Rejissor sənəti", "Seçilmiş əsərləri", "Azərbaycan teatrı" kimi elmi əsərləri bu gün də milli teatrşünaslıq elmimizin dəyərli örnəklərindəndir.

19 sentyabr 1973-cü ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Rafael Baba oğlu Hüseynov

AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor,
Əməkdar incəsənət xadimi
(1954)

12 avqust 1954-cü ildə Kürdəmir şəhərində anadan olmuşdur. 1971-ci ildə Kürdəmir şəhərindəki 2 №-li şəhər orta məktəbi, 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars filologiyası ixtisasını bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun fəlsəfə tarixi şöbəsində başlamışdır. 1976-1978-ci illərdə burada baş laborant, kiçik elmi işçi, baş elmi işçi, 1978-1982-ci illərdə Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsində kiçik elmi işçi, 1982-1988-ci illərdə həmin institutun Orta əsrlər şərq yazılı mənbələrinin tədqiqi və nəşri şöbəsində baş elmi işçi, 1988-2003-cü illərdə Nizami adına Ədəbiyyat Muzeyində şöbə müdiri vəzifələrində çalışmışdır.

2003-cü ildən AMEA-nın Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktorudur. O, 1980-ci ildə namizədlik, 1992-ci ildə "Baba Tahir Üryan və onun poetik irsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilmişdir.

Bakı Dövlət Universitetində İran ədəbiyyatı fənnindən, Ü.Hacıbəyli adına Dövlət Musiqi Akademiyasında Mədəniyyət tarixi, Xəzər Universitetində

Azərbaycan ədəbiyyatı və Azərbaycan mədəniyyəti fənlərindən dərs demişdir. Xəzər Universitetində "Azərbaycan filologiyası və şərqşünaslıq" kafedrasının müdiri vəzifəsində (1995-1998) çalışmışdır. Uzun müddət Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qədim ədəbiyyat və folklor kafedrasının professoru olmuşdur.

Ədəbi fəaliyyətə 1975-ci ildə Kürdəmir rayonunda çıxan "İrəli" qəzeti səhifələrində dərc olunan şeirləri ilə başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Azərbaycan xalq musiqisi və onun görkəmli ifaçıları haqqında hazırladığı "Nəğməli ömürlər" və "Axşam görüşləri" adlı həftəlik verilişlər silsiləsi efirdə səslənmişdir. "Qobustan" incəsənət toplusunda "Görməyən gözlərin aydınlığı", "Əsas odur ki, xalq sizi sevir", "Həsrət qatarı" və s. publisistik yazıları çap olunmuşdur. 400-ə yaxın elmi əsərin, o cümlədən 8 monoqrafiyanın müəllifidir. Əsərlərinin bir çoxu xaricdə çap olunmuşdur. Ədəbiyyatşünaslıq elmi üzrə yüksəkixtisaslı kadrların yetişdirilməsi sahəsində onun böyük xidmətləri vardır. Elmi rəhbərliyi ilə 8 fəlsəfə doktoru yetişmişdir.

AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin nəzdindəki Ədəbiyyatşünaslıq üzrə Problem Şurasının sədri, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin, Azərbaycan Teatr Xadimləri İttifaqının, II, lll, IV və V çağırış Azərbaycan Respublikası Milli Məclisinin, eləcə də 2001-ci ildən bu günədək Avropa Şurası Parlament Assambleyasının Mədəniyyət, Elm və Təhsil Komitəsinin üzvüdür.

2005-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

İsmayıl Hikmət

filologiya elmləri doktoru, professor
(1889-1967)

1889-cu ildə İstanbulda Bəylərbəyi məhəlləsində anadan olub. Orta təhsilini Qalatasaray liseyində alıb. İstanbulda Mülkiyyə məktəbini bitirib (1911). Qalatasaray liseyində, Robert kollecində, Xarici İşlər Nazirliyində çalışıb. Azərbaycan Xalq Komissarları Sovetinin dəvəti ilə 1923-cü ildə Bakıya gəlib. BDU-da, ADPİ-də, Bakı Teatr Məktəbində müəllim kimi fəaliyyət göstərib. 1924-1926-cı illərdə Ali Pedaqoji İnstitutunun Tarix-ədəbiyyat şöbəsinin (fakültəsinin) dekanı olub.-

1927-ci ildə ADU-nun Elmi Şurasında "Azərbaycan ədəbiyyatı tarixi" mövzusunda dissertasiya müdafiə edib və professor elmi adına layiq görülüb.

1927-ci ilin dekabrında Ankaraya qayıdıb. Türkiyəyə qayıtdıqdan sonra Qazi Təhsil İnstitutunda ədəbiyyat müəllimi, Milli Təhsil Nazirliyində müfəttiş, Kipr Türk Liseyinin, Ankara Cümhurbaşqanlığı Orkestrinin, İstanbul Gözəl Sənətlər Akademiyasının direktoru vəzifələrində çalışıb (1933-1935). 1939-cu ildə Əfqanıstan hökumətinin dəvəti ilə həmin ölkəyə göndərilib. Şəxsi təşəbbüsü ilə Kabildə "Gecə Universiteti" təşkil edib. Əfqanıstanın təhsil sisteminin bütün pillələri üçün tədris proqramlarının hazırlanmasına rəhbərlik edib. 1942-nin noyabrında öz istəyi ilə Türkiyəyə qayıdıb. 1943- cü ilin yanvarında o, İstanbul Universitetinin Ədəbiyyat fakültəsində Türk dili və ədəbiyyatı tarixi kafedrasına ordinar professor təyin edilib və 1960-cı ilədək orada çalışıb. "Türk ədəbiyyatı tarixi". I cild. (1925), "Türk ədəbiyyatı tarixi". II cild (1925), "Türk ədəbiyyatı tarixi". III cild (1925),"Türk ədəbiyyatı tarixi (Osmanlı qismi 1908-1918)" (1926), "Azərbaycan ədəbiyyatı tarixi. Mənşəyindən 1905-ə qədər" (1928),

"Zəfər divanı. İstanbul (1964) kitablarının müəllifidir. "Maarif və mədəniyyət" və "Şərq qadını" jurnallarında çoxlu şeirləri və elmi məqalələri dərc olunub.

18 dekabr 1967-ci ildə İstanbulda vəfat edib.

Aleksandr Vasilyeviç Baqri

filologiya elmləri doktoru, professor
(1891-1949)

11 aprel (23 aprel) 1891-ci ildə Xmelnitski vilayətinin Letiçev qəsəbəsində anadan olub. 1912-ci ildə Müqəddəs Vladimir adına Kiyev Universitetinin tarix-filologiya fakültəsini bitirib. Kiyev məktəblərində müəllimlik edib. Samara Universitetində dərs deyib. 1920-ci ildə Azərbaycana gəlib, Azərbaycan Dövlət Universitetinin Rus ədəbiyyatı, Ali Pedaqoji İnstitutun Ədəbiyyat kafedrasının professoru, ADU-nun əsaslı kitabxanasının direktoru olub. XIX əsrdə və XX əsrin birinci yarısında rus ədəbiyyatı mövzusunda mühazirələr oxuyub. Həmin mühazirə

mətnlərini 1926-cı ildə Bakıda nəşr etdirib. 1939/40 -cı tədris ilində filologiya elmləri doktoru, professor A.B.Baqri ADU-da Filologiya fakültəsinin dekanı vəzifəsinə təyin edilib. M.Y.Lermontov, S.Yesenin, B. Pilnyak, N. Klyuev, P.Oreşin və başqalarının əsərlərini tədqiq edib. Ukrayna ədəbiyyatının klassiki T.Q.Şevçenko haqqında silsilə əsərlərin və onun 2 cildlik "Seçilmiş əsərləri"nin tərtibçisidir. Qafqaz xalqlarının nağıl və əfsanələrindən ibarət 3 cildlik məcmuə tərtib etmişdir. Azərbaycan folkloruna dair məqalələr yazmış, Qafqazın, o cümlədən Azərbaycan tarixi, etnoqrafiyası və ədəbiyyatına dair biblioqrafik göstəricilər, Azərbaycan məktəbləri üçün dərsliklər ("Türklər üçün rus dili", Q.Qiyasbəyli ilə birlikdə), tələbələr üçün vəsait ("Ədəbiyyat biliyinin başlanğıcı", "Ədəbiyyatşünaslıq üçün vəsait") hazırlamışdır.

22 iyun 1949-cu ildə Bakı şəhərində vəfat etmişdir

İdris Məşədi Zaman oğlu Həsənov

filologiya elmləri namizədi, professor
(1897-1950)

1897-ci ildə Gəncədə sənətkar ailəsində anadan olub. 1908-1913-cü illərdə Gəncədə ali ibtidai məktəbdə oxuyub. Qarşılıqlı Kredit Cəmiyyətində hesabdar işləyib. 2-3 il özünütəhsillə məşğul olub. 1918-ci ildə Gəncədən hərbi xidmətə çağırılıb və qərargah korpusunda tərcüməçi kimi fəaliyyət göstərib. 1919-cu ildə Bakı Dövlət Universitetinin dinləyicisi, 1920-ci ildə tələbəsi olub. 1920-ci ildə Gəncədə Quberniya Hərbi Komissarlığında katib-tərcüməçi işləyib.

1921-ci ildə yenidən Bakıya qayıdan İdris Həsənov universitet təhsilini davam etdirib. 1922-1930-cu illərdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvü və Lüğət-dil komissiyasının sədri olub. 1927-ci ildə Yeni türk əlifbasının Ümumittifaq Mərkəzi Komitəsinin 1-ci plenumunda iştirak edib. 1924-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsini bitirib.

1927-1931-ci illərdə Moskvada Şərq Zəhmətkeşlərinin Kommunist Universitetində Azərbaycan dilini tədris edib. Həmin illərdə o, həm də Şərq xalqlarının milli mədəniyyəti Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil alıb. Bakıya qayıtdıqdan sonra Azərbaycan Pedaqoji İnstitutunda dosent vəzifəsində işləyib. 1932-ci ildə latın qrafikası əsasında korlar üçün nöqtəli

hərflərin layihəsini hazırlayıb. 22 noyabr 1935-ci ildə dissertasiya müdafiə etmədən ona filologiya elmləri namizədi elmi dərəcəsi və professor elmi adı verilib. SSRİ EA-nın Azərbaycan filialının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunda şöbə müdiri, direktor müavini vəzifələrində işləyib.1937-ci il iyulun 19-da SSRİ EA-nın Azərbaycan filialının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru təyin olunub. Moskvada və Bakıda nəşr edilən 18 kitabın müəllifidir.

1938-ci ilin fevralın 17-də vəzifəsindən azad olunaraq həbs edilib. Repressiya qurbanı olan İdris Həsənov haqqında 1938-ci ilin aprelində yazılan İttiham aktında deyilir*:"İdris Həsənov Azərbaycan dilçiliyi sahəsində uzun müddət pantürkist təbliğat və ziyankarlıq işi aparmışdır. O, 1926-cı ildə çapdan çıxmış "Gəncə əhalisinin dialektində mənsubiyyət şəkilçisiz isimlərin hallanması" adlı ilk əsərinin elə birinci sətrindən özünün pantürkist təbliğatını yaymağa başlayır. Onun bütün fikir və mülahizələri "vahid qədim türk dilləri"nin varisi olan türk dili haqqında pantürkist-müsavatçı ideyaların davamıdır. Pantürkist ideyaya sadiq olan İ.Həsənov Azərbaycan dilinin qrammatikasına Osmanlı formalarını tətbiq etmək fikrində olduğunu söyləmişdir (məsələn, "almamış", "gəlməmiş", "almadan", "gəlmədən" və s.). Bundan əlavə, Azərbaycan dilində o, rus və beynəlmiləl sözləri varvarizm və "yad" sözlər adlandırmışdır. "Azərbaycan zəhmətkeşlərinin İ.V.Stalinə məktubu"nun mətnindən sitat gətirən İ.Həsənov qeyd edir ki, "Azərbaycan dili Azərbaycan məktəblərindən az qala, qovulmuşdur". Bu, əksinqilabi fitnəkarlıq və böhtandır! Azərbaycan dilinin orfoqrafiyası işlənib hazırlanarkən İ.Həsənov digər vətən xainləri ilə birlikdə dilimizi ərəb, fars və Osmanlı sözləri ilə doldurmağa çalışmış, bununla da, Qərbin, kapitalist ölkələrinin mədəniyyətini təbliğ etmişdir. APİ üçün müəllim kadrlarının hazırlanması işində də ziyankarlıq mövqeyindən fəaliyyət göstərmişdir".*

1939-cu il iyunun 2-də qəti qərar verilir: "İdris Məşədi Zaman oğlu Həsənov antisovet təşkilatında iştirakına görə 8 il müddətinə islah-əmək düşərgəsinə göndərilsin." Maqadanda dustaq həyatı yaşayanda kəskin infarkt keçirir. 1946-cı ilin aprelin 3-də həbsdən azad olunaraq Gəncəyə qayıdır və 6 №-li məktəbdə müəllim işləyir. 1949-cu ilin dekabrın 21-də o, "təhlükəli element" kimi yenidən həbs edilir.

3 noyabr 1950-ci ildə ittiham və təzyiqlərə dözə bilməyərək özünü dənizə atmışdır.

Muxtar Hüseyn oğlu Hüseynzadə
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi,
Dövlət mükafatı laureatı
(1900-1985)

1900-cu il martın 21-də Cənubi Azərbaycanın Mərənd vilayətinin Zunuz kəndində anadan olub. 1910-1913-cü illərdə molla yanında təhsil alıb, 1913-cü ildə ailəsi ilə birlikdə Şimali Azərbaycana gəlib. Bir müddət Bakıda atası ilə birlikdə mis mədənində fəhlə işləyib. 1917-ci ildə o, Tiflis şəhərinə gedib və orada müxtəlif yerlərdə fəhlə işləyib. Tiflisdən Gəncəyə qayıdaraq burada fəhlə fakültəsində təhsil alıb. 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinə daxil olub. Universitetin ləğvi ilə əlaqədar olaraq 1931-ci ildə ADPİ-nin Dil-ədəbiyyat fakültəsini bitirib. Pedaqoji fəaliyyətə Bakı Kooperativ İnstitutunda Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlayıb. 1935-ci ildə elmi rəhbəri B.Çobanzadə tərəfindən ADU-nun Ümumi dilçilik kafedrasına müəllim dəvət olunub. Ömrünün 50 ili həmin kafedra ilə bağlı olmuşdur. Pedaqoji İnstitutun Dil-ədəbiyyat kafedrasının müdiri (1936-1941), Azərbaycan EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri (1952-1955), ADU-nun Ümumi dilçilik kafedrasının müdiri (1951-1981) vəzifələrində çalışmışdır.

1946 -cı ildə namizədlik, 1968 -cı ildə doktorluq dissertasiyası müdafiə edib, professor vəzifəsinə seçilib. 1953-1958-ci illərdə ADU-nun Filologiya fakültəsinin dekanı vəzifəsində çalışıb.

O, Azərbaycan dilinin tarixi, nitq mədəniyyəti, əlifba, orfoqrafiya, terminologiya, durğu işarələri, morfologiya və sintaksisə dair 40-dan çox elmi əsərin müəllifidir. Ali məktəblər üçün yazdığı "Müasir Azərbaycan dili" dərsliyi 4 dəfə (1954, 1963, 1973 və 1983-cü illərdə) nəşr olunub.

1974-cü ildə Dövlət mükafatına və 1980-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb. "Qafqazın müdafiəsinə görə" (1945), "Rəşadətli əməyə görə" (1945) medalları, "Şərəf nişanı" (1953) və "Qırmızı Əmək Bayrağı" (1953) ordenləri ilə təltif olunub.

1985-ci ildə Bakı şəhərində vəfat edib.

Əliyar Məmməd oğlu Qarabağlı

pedaqoji elmlər namizədi,professor
(1901-1969)

1901-ci ildə Borçalının Ləcbəddin kəndində anadan olmuşdur. İbtidai və orta məktəbi Qazaxda bitirmişdir. Ləcbəddin kəndində ilk dünyəvi məktəbin açılması onun adı ilə bağlıdır. 1926-1928-ci illərdə Bakıda Pedaqoji Texnikumunda oxumuş, ADU-ya daxil olsa da, 1931-ci ildə Pedaqoji İnstitutu bitirmişdir. 1934-1954-cü illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda şöbə müdiri vəzifəsində çalışmışdır. Uzun müddət Bakıdakı 1 №-li məktəbdə ədəbiyyat müəllimi işləmişdir. Azərbaycan Pedaqoji İnstitutunun Ədəbiyyat kafedrasında Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikasından mühazirə oxumuş, tələbələrin pedaqoji təcrübəsinə rəhbərlik etmişdir. 1967-ci ildə ona professor elmi adı verilmişdir.

1943-1947-ci illərdə "Azərbaycan məktəbi" jurnalının redaktor müavini olmuşdur. "Orta məktəbdə rus ədəbiyyatı" (1941), "Ana dili" (1946), "Ədəbiyyat dərslərində vətənə məhəbbət və düşmənə nifrət hissinin tərbiyə edilməsi" (1947) "Ədəbiyyat metodikası" (1952), "Azərbaycan məktəblərində rus ədəbiyyatının tədrisinə dair" (1958), "Azərbaycan ədəbiyyatının tədrisi metodikası" (1968) adlı dərslik və dərs vəsaitləri, ədəbiyyatın tədrisi metodikası ilə bağlı 70-dən çox məqaləsi nəşr olunub.

1 may 1969-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Mikayıl Həsən oğlu Rəfili

filologiya elmləri doktoru, professor
(1905-1958)

25 aprel 1905-ci il aprelin 25-də Yelizavetpol qəzasının (indiki Tərtər rayonu) Borsunlu kəndində anadan olub. İbtidai təhsilini doğma kəndlərində, orta təhsilini Yelizavetpol klassik gimnaziyasında almışdır. Bu dövrdə bədii yaradıcılığa başlamışdır. Onun "Mikayıl Rəfizadə" imzası ilə ilk qələm təcrübələri "Mücadileyi-həyat" hekayəsi, "Elmə doğru" şeiri və "Qərb mədəniyyəti" məqaləsi "Əfkari-mütəəllimin" jurnalında (1919-cu ilin 2-ci və 3-cü nömrə-

lərində) dərc olunub. 1920-ci ildə Borsunlu kəndində müəllim və məktəb müdiri olmuşdur. Komsomolçu kimi kəndin mədəni həyatında, savadsızlığın ləğvində fəal iştirak etmişdir.

Bakıda Azərbaycan Politexnik İnstitutunda oxumuş, paralel olaraq Azərbaycan Dövlət Universitetinin Şərq dilləri fakültəsinin dinləyicisi olmuşdur. 1926-1927-ci illərdə ədəbi fəaliyyətlə məşğul olmuş, "Maarif və mədəniyyət" jurnalı redaksiyasında işləmişdir. 1927-1930-cu illərdə Moskva Dövlət Universitetinin Ədəbiyyat və incəsənət fakültəsində oxumuşdur. Tələbəlik illərində Kremldə müttəfiq respublikalarla bağlı hazırlanan qanunların Azərbaycan mətnlərinin redaktoru işləmişdir.

1929-cu ildə Moskvada keçirilən I Ümumittifaq proletar yazıçılarının qurultayında iştirak etmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Rus ədəbiyyatı kafedrasında müəllim, dosent (1930-1935) vəzifələrində işləmiş, eyni zamanda "Bakinski raboçi" qəzeti redaksiyasında mədəniyyət şöbəsinin müdir müavini olmuşdur. Bu dövrdə SSRİ yazıçılarının təşkilat komitəsinin üzvü seçilmişdir. Həm də "Hücum" və "Qabaqcıl" ("Udarnik") jurnalları redaksiya heyətinin üzvü olmuşdur. 1934-cü ildə Moskvada keçirilən sovet yazıçılarının I qurultayında məruzə ilə çıxış etmişdir.

1934-1935-ci illərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında elmi işçi işləmişdir. 1935-ci ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilmişdir. 1935-1936 -cı illərdə SSRİ EA-nın (Leninqrad) aspiranturasında təhsil almış, orada "Azərbaycan ədəbiyyatının rus mədəniyyəti ilə əlaqələri haqqında" mövzusunda dissertasiya müdafiə etmişdir. 1935-1937 -ci illərdə "Puşkinin həyat və yaradıcılığı", "Puşkin və Azərbaycan", "M.F.Axundov" əsərlərini yazmışdır. 1937-ci ildə əksinqilabçı və pantürkist kimi həbs edilsə də, 1939-cu ildə həbsdən azad olmuşdur. 1939-cu ildən Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində professor olmuş, Azərbaycan ədəbiyyatı tarixi kursunu tədris etmişdir. 1943-cü ildə Pedaqoji İnstitutun Dil-ədəbiyyat fakültəsinin dekanı olmuşdur.

1941-1945-ci illərdə radioda, Qızıl Ordu hissələrində, hərbi xəstəxanalarda çıxışlar etmiş, "Səbuhi" ssenarisini, "Şirvanşah İbrahim" pyesini yazmışdır. SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur. 1944-cü ildə Tbilisi Dövlət Universitetində "Qədim dövrdən XIX əsrin əvvəlinədək Azərbaycan ədəbiyyatının əsas problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1946-cı ildə ona filologiya elmləri doktoru elmi dərəcəsi, bir il sonra professor elmi adı verilmişdir. 1946-cı ildən ADPİ-nin professoru kimi fəaliyyət göstərmişdir.

27 elmi, bədii və tərcümə kitabının, 5 dərsliyin, 300-dən artıq məqalənin müəllifidir. "Şərəf Nişanı" ordeni və medallarla təltif olunmuşdur.

25 aprel 1958-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Əkrəm Səftər oğlu Cəfərov

filologiya elmləri doktoru, professor
(1905-1991)

1905-ci ilin may ayında İsmayıllı rayonunun Lahıc kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, sonra yeni üsullu məktəbdə oxumuşdur. O, 1920-1925-ci illərdə Bakı Müəllimlər Seminariyasında oxumuşdur. Seminariyanı bitirdikdən sonra Lənkəran şəhərində və Qazax Pedaqoji Texnikumunda müəllim işləmiş, "Maarif və mədəniyyət", "Şərq qadını" jurnallarında şeirlərlə çıxış etmişdir. 1929-1932-ci illərdə Moskva Dövlət Universitetinin Rus dili və ədəbiyyatı şöbəsində təhsil almışdır. Yaxşı oxuduğuna görə həmin institutda müəllim saxlanılmış və aspiranturaya qəbul edilmişdir. 1929-1931-ci illərdə Moskva Proletar Yazıçılar Cəmiyyəti Azərbaycan bölməsinin katibi olmuş, M.Qorki adına Ədəbiyyat İnstitutunda, Moskva vilayəti axşam və qiyabi pedaqoji institutlarında "Ümumi dilçilik" fənnindən dərs demişdir. 1934-cü ildə aspiranturanı bitirmiş və 2 il Moskvada elmi işçi vəzifəsində çalışmışdır. Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (1937-1939), sonra isə Azərbaycan Dövlət Universitetində kafedra müdiri vəzifələrində çalışmışdır. O, 1941-ci ildə akademik A.N.Samoyloviçin rəhbərliyi ilə "XX əsr Azərbaycan ədəbi dilinin inkişaf mərhələləri (1905-1936)" mövzusunda namizədlik, 1969-cu ildə "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 5 sentyabr 1942-ci il tarixli qərarı ilə islah-əmək düşərgəsində saxlanılmaqla, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir.

1954-cü ildən Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda,

sonra isə Şərqşünaslıq İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. "Azərbaycan Sovet Ensiklopediyası"nda dilçiliklə bağlı məqalələrin əsas müəlliflərindən biri olub. 1982-ci ildə H.Cavidin anadan olmasının 100 illiyi münasibətilə onun əsərlərini nəşrə hazırlamışdır. Ə.Cəfər Azərbaycan ədəbi dilinin araşdırılması istiqamətində də tədqiqatlar aparmışdır. "Azərbaycan dilinin izahlı lüğəti"nin çapa hazırlanmasında onun böyük əməyi vardır. O, bir şərqşünas alim kimi bir sıra beynəlxalq simpozium və konfransların iştirakçısı olmuşdur. "Dilşünaslıq elementləri", "Müasir Azərbaycan dili oçerkləri" kitablarının və 250-dən çox elmi məqalənin müəllifidir. 8 xarici dili mükəmməl bildiyindən bir çox dünya şöhrətli sənət incilərini Azərbaycan dilinə tərcümə etmişdir.

18 avqust 1991-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Zeynal Xuduş oğlu Tağızadə
filologiya elmləri doktoru, professor
(1905-1975)

1905-ci ildə Yelizavetpol (Gəncə) quberniyasının Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini "Nəşri-maarif" məktəbində almış, bir müddət Şuşa realni məktəbində oxumuş, Şuşa Müəllimlər Seminariyasını (1925) bitirmişdir. 1925-1928-ci illərdə Şuşa şəhərindəki II dərəcəli məktəbdə müəllim işləmişdir. 1928-1929-cu illərdə müəllimlərin ixtisasartırması kursunun dinləyicisi olub. Bir il ADU-nun Pedaqoji fakültəsinin dil-ədəbiyyat şöbəsində oxuyub.1929-1931-ci illərdə Bakı şəhərindəki 5 №-li məktəbdə, ali həmkarlar məktəbində, fəhlə fakültəsində müəllim işləyib. 1931-1933-cü illərdə Pedaqoji İnstitutun Dil-ədəbiyyat fakültəsində təhsil alıb. 1932-1936-cı illərdə neftçilərin peşə məktəbində və Bakı şəhərinin 22 (1936-1940), 16 (1940-1941), 161 (1941-1942),173 (1942-1943), 25 (1943-1944), 150 (1944-1945) №-li məktəblərində dil-ədəbiyyat müəllimi işləyib. 1 noyabr 1941-ci ildən 1 sentyabr 1944-cü ilə kimi Azərbaycan SSR Maarif Komissarlığının müəllimlər hazırlayan kursunda (həmin kurslar Müəllimlər İnstitutunun I kursuna bərabər tutulurdu) Azərbaycan dili müəllimi işləyib. 1945-1949-cu illərdə ADPİ-nin Azərbaycan dilçiliyi kafedrasının aspirantı, Dil-ədəbiyyat fakültəsinin dekan müavini, aspirantura

şöbəsinin müdiri vəzifələrində çalışıb. 25 fevral 1946-cı ildə Azərbaycan dilçiliyi kafedrasına müəllim, 25 oktyabr 1947-ci ildə baş müəllim, 1949-cu ildə dosent vəzifəsinə təyin olunub. 1949/50-ci tədris ilindən 26 noyabr 1955-ci ilə kimi Azərbaycan dilçiliyi kafedrasının müdiri olub. 7 aprel 1949-cu ildə ADU-nun Elmi Şurasında "XIX-XX əsrlərdə Azərbaycan nəsrində tabeli mürəkkəb cümlənin inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 21 iyun 1950-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona filologiya elmləri namizədi elmi dərəcəsi, 30 dekabr 1950-ci ildə dosent elmi adı verilib. 1956-1966-cı illərdə Azərbaycan dilçiliyi kafedrasında dosent vəzifəsində çalışıb.

1966-cı ildə "Müasir Azərbaycan ədəbi dilində mürəkkəb cümlə" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 19 noyabr 1966-cı ildə Azərbaycan dilçiliyi kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 18 iyun 1966-cı ildə filologiya elmləri doktoru elmi dərəcəsi, 28 iyun 1967 -ci ildə isə professor elmi adı verilib. 1 sentyabr 1968-ci ildən ömrünün sonuna kimi M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda eksperimental fonolaboratoriyanın elmi rəhbəri vəzifəsində çalışıb. Moskva, Leninqrad, Kiyev, Daşkənd, Alma-Ata, Aşqabad, Kazan, Frunze, Tiflis, İrəvan şəhərlərində keçirilən dilçilik problemlərinə həsr olunmuş SSRİ miqyaslı simpozium və konfranslarda dilçiliyin müxtəlif problemləri ilə bağlı çıxışlar edib. "Müasir Azərbaycan dilinin sintaksisi" (1960), "Müasir Azərbaycan dilində mürəkkəb cümlə (1961), "Müasir Azərbaycan dilində feilin quruluşu" (1962) adlı dərs vəsaitləri və 50-dən artıq elmi məqaləsi nəşr olunmuşdur.

1975-ci ildə Bakı şəhərində vəfat edib.

Əli Abdulla oğlu Sultanlı

filologiya elmləri doktoru, professor

(1906-1960)

25 dekabr 1906-cı ildə Naxçıvan şəhərində anadan olub. İlk təhsilini doğma Naxçıvanda alıb. 1923-1928-ci illərdə Naxçıvan Müəllimlər Seminariyasında oxuyub. "Şərq qapısı" qəzetində ədəbi işçi vəzifəsində çalışıb. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib. 1929-cu ildə o, ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrasında müəllim kimi ilk əmək fəaliyyətinə başlayıb, bir müddət sonra filologiya fakültəsinin dekanı vəzifəsinə təyin edilib. 1930-1934-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat kafed-

rasında çalışıb. 1934-39-cu illərdə Azərbaycan Dövlət Universitetinin Xarici ölkələr ədəbiyyatı tarixi kafedrasına rəhbərlik edib. 1939-1941-ci illərdə Azərbaycan Dövlət Universitetinin prorektoru, 1951-1953 və 1957-1959-cu illərdə isə Filologiya fakültəsinin dekanı olub.

1940-cı ildə "Axundov və Molyer" mövzusunda namizədlik, 1946-cı ildə "Azərbaycan dramaturgiyasının tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1947-ci ildə ona professor elmi adı verilib. V.Hötenin yaradıcılıq yolu" (1932), "M.F.Axundovun dramaturgiyası" (1938),"Mopassanın hərbi novellaları" (1942), "Azərbaycanda xalq draması" (1945), "Roma və Yunanıstanda ədəbiyyatşünaslıq və estetika məsələləri" (1945), "Şekspir və onun on ikinci gecəsi" (1946), "Antik dövrdə ədəbiyyat və ədəbiyyatşünaslıq məsələləri" (1946), "Rəşid bəy Əfəndiyevin dramaturgiyası" (1946), "Dədə Qorqud və yunan eposları" (1946), "Nizami və Qərbi Avropa ədəbiyyatı" (1947), "Ostrovski və Azərbaycan dramaturgiyası" (1948), "Antik ədəbiyyat tarixi" (1958), "Azərbaycan dramaturgiyasının inkişaf tarixindən" (1964), "Məqalələr" (1971) adlı kitabların müəllifidir. 1940-cı ildə SSRİ Ali Sovetinin fərmanı ilə "Əmək igidliyinə görə" medalı ilə təltif etmişdir.

18 iyul 1960-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Sara Balabəy qızı Aşurbəyli
tarix elmləri doktoru,
Əməkdar elm xadimi,
Azərbaycan SSR Dövlət mükafatı laureatı
(1906-2001)

27 yanvar 1906-cı ildə Bakı şəhərində anadan olub. 1925-ci ildə İstanbulda Müqəddəs Janna d-Ark adına fransız kollecini, 1930-cu ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq, 1941-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xarici dillər fakültələrini, həmçinin

Azərbaycan Rəssamlıq Məktəbini (1941) bitirib. Ali təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetində baş müəllim, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Xarici dillər fakültəsində dekan vəzifəsində çalışıb. Ali məktəblərdə Azərbaycan tarixi, Qərb və Şərq mədəniyyətləri haqqında mühazirələr oxuyub. O, həm də rəssam və musiqiçi olub. Dram teatrında rəssam və dekorator, məktəbdə müəllim işləmiş, Üzeyir Hacıbəyovun dəvəti ilə 15 il Konservatoriyada xarici dildən dərs demişdir. 1946-cı ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilib.

Azərbaycan SSR EA Tarix Muzeyində orta əsrlər şöbəsinin müdiri (1954-58), Azərbaycan SSR EA-nın Şərqşünaslıq İnstitutunda elmi katib və baş elmi işçi (1958-61), Azərbaycan SSR EA Tarix İnstitutunda baş elmi işçi (1961-93), AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda aparıcı elmi işçi (1993-2001) vəzifələrində çalışmışdır.

"Bakı şəhərinin tarixi: orta əsrlər dövrü (1998), "Şirvanşahlar dövləti (VI –XVI əsrlər)" (1997), "Azərbaycanın orta əsrlərdə Hindistanla iqtisadi və mədəni əlaqələri" (1990) adlı monoqrafiyaların və 120 elmi məqalənin müəllifidir.

1966-cı ildə dissertasiya müdafiə edərək tarix elmləri doktoru (1966) elmi dərəcəsinə, 1982-ci ildə Əməkdar elm xadimi (1982) fəxri adına, 1986-cı ildə Azərbaycan SSR Dövlət laureatına layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif edilmişdir. Ona Xəzər Universitetinin Fəxri Doktoru adı verilmişdir.

17 iyul 2001-ci ildə Bakıda vəfat etmişdir.

Səlim Əbdüllətif oğlu Cəfərov

filologiya elmləri doktoru, professor
Dövlət mükafatı laureatı
(1907-1984)

1 iyun 1907-ci ildə Dağıstan MSSR Rütul rayonu Saxur kəndində anadan olmuşdur. 1923-1926-cı illərdə Şəki Müəllimlər Seminariyasında oxumuşdur. 1926 -1930-cu illərdə Dağıstanda müəllimlik etmişdir. 1932-ci ildə Orconikidze şəhərində Dövlət Pedaqoji İnstitutuna daxil olmuşdur. 1933-1936-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. 1933-cü ildə Saxur əlifbasını yarat-

mış və Saxur ədəbi dilinin bünövrəsini qoymuşdur. 1936-1953-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda işləmişdir.1946-cı ildə "Adlar və onları düzəldən şəkilçilər" mövzusunda namizədlik, 1959-cu ildə "Azərbaycan dilinin leksikası" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. 1947-ci ildə dosent, 1961-ci ildə professor elmi adına layiq görülmüşdür. 1953-1978-ci illər ərzində BDU-nun Azərbaycan dilçiliyi kafedrasının dosenti, sonra professoru olmuşdur. 1960-1970 -ci illərdə AMEA-nın İber-Qafqaz dilləri şöbəsinə rəhbərlik etmişdir. Onun elmi fəaliyyətinin əsasını Azərbaycan dilinin leksikologiyası təşkil edir. 6 monoqrafiya, 23 dərslik, 10 dərs vəsaiti, 85 -dən çox elmi məqalənin müəllifi olmuşdur. 27 namizədlik, 8 doktorluq dissertasiyasına elmi rəhbərlik etmişdir. 1974-cü ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.

30 aprel 1984-cü ildə Bakıda vəfat etmişdir.

Məmmədhüseyn Abbasqulu oğlu Təhmasib

filologiya elmləri doktoru, professor

(1907-1982)

1907-ci ilin 12 aprelində Naxçıvan şəhərində anadan olmuşdur. İbtidai təhsilini Naxçıvanda almışdır. 1923-1927-ci illərdə Bakı Pedaqoji Texnikumunda, 1930-1933-cü illərdə ADPİ-nin Dil-ədəbiyyat fakültəsində ali təhsil almışdır. Əlibayramlı, Kürdəmir, Göyçay rayon maarif şöbələrində metodist (1933-1936), Bakı Neft Texnikumunda müəllim (1936-1939), Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində baş müəllim (1939-1951), dosent (1951-1959), Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunda xalq yaradıcılığı şöbəsinin elmi əməkdaşı, şöbə müdiri (1944-1982) işləmişdir. 60-70-ci illərdə ADPİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru olmuş, "Şifahi xalq ədəbiyyatı" fənnindən mühazirələr oxumuşdur. 1945-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunda "Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri" mövzusunda namizədlik, 1965-ci ildə "Azərbaycan xalq dastanları (orta əsrlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1970-ci ildə ona professor elmi adı verilib. 1939-cu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilib.

Ədəbi yaradıcılığa 1934-cü ildən başlamışdır. "Qaçaq Nəbi" adlı ssenarisini 1938-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap etdirmişdir. "Bir qalanın sirri" (1960), "Onu bağışlamaq olarmı?" (1960) ssenariləri əsasında eyni adlı filmlər çəkilmişdir. "Bahar" (1938), "Aslan yatağı" (1941), "Çiçəklənən arzular" (1951), "Hind nağılı" (1956), "Rübailər aləmində" (1968) və b. pyes-nağılları respublikanın teatr səhnələrində tamaşaya qoyulmuşdur. 1946-1977-ci illərdə "Koroğlu", "Molla Nəsrəddinin lətifələri", "Aşıq Ələsgər", "Kitabi-Dədə Qorqud", "Azərbaycan dastanları" və digər xalq incilərinin toplanması, tərtib edilməsi və nəşr olunmasında mühüm xidmətləri olmuşdur. "Azərbaycan folkloru kursu" (1940), "Azərbaycan xalqının qəhrəmanlıq eposu" (1941), "Azərbaycan xalqının qəhrəman oğulları" (1942), "Çiçəkli dağ" (1965), "Azərbaycan xalqının dastanları" (1972) kitablarının müəllifidir. M.Təhmasib Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1967) və "Əmək veteranı" (1977) medalı ilə təltif olunmuşdur.

5 oktyabr 1982-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Mirzəağa Yüzbaşı oğlu Quluzadə

filologiya elmləri doktoru, professor
(1907-1979)

24 oktyabr 1907-ci ildə Salyan şəhərində musiqiçi ailəsində anadan olmuşdur. 1923-1927-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Texnikumunda, 1932-1936-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində təhsil almışdır. Salyan şəhər orta məktəbində (1927-1932), Qazax Pedaqoji Məktəbində (1936-1937), Azərbaycan SSR Xalq Maarif Komissarlığında metodkabinetin müdiri (1937-1939) və ADPİ-də müəllim (1937-1941) işləmişdir. SSRİ EA Azərbaycan filialının aspirantı (1939-1941) olmuş, II Dünya müharibəsi illərində Zaqafqaziya cəbhəsi hərbi ştabının siyasi idarəsində xidmət etmişdir (1941-1947-ci illər).

1948-ci ildə "Nəsiminin yaradıcılığı" mövzusunda namizədlik, 1965-ci ildə "Füzuli lirikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda direktor müavini (1948-1952-ci illər), direktor (1952-1957), 1948-1956-cı illərdə

Azərbaycan Dövlət Universitetində müəllim, 1958-1969-cu illərdə Nizami adına Ədəbiyyat İnstitutunda Orta əsrlər şöbəsinin müdiri, 1969-1979 -cu illərdə həmin institutun direktoru vəzifəsində işləmişdir. Məhz onun rəhbərliyi zamanı Nizami adına Ədəbiyyat və Dil İnstitutu iki müstəqil elm mərkəzinə - Nizami adına Ədəbiyyat İnstitutuna və Nəsimi adına Dilçilik İnstitutuna çevrilmişdir.

Klassik ədəbiyyatımızın Zülfüqar Şirvani, Arif Ərdəbili, Əssar Təbrizi, Fəzlullah Nəimi, Qazı Bürhanəddin və b. görkəmli nümayəndələrinin yaradıcılığının öyrənilməsində müstəsna xidmətləri olmuşdur. Onun "Nizami Gəncəvi" (1953), "Füzulinin lirikası" (1965), "Böyük ideallar şairi" (1973) kimi genişhəcmli monoqrafiyaları və çoxsaylı məqalələri nəşr olunmuşdur. "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

12 dekabr 1979-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Hadi İsmayıl oğlu Mirzəzadə

filologiya elmləri doktoru, professor
(1908-1965)

29 fevral 1908-ci ildə Bakı şəhərində anadan olmuşdur. İbtidai və orta təhsilini Bakı şəhərində alan Hadi Mirzəzadə 1925-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinə daxil olmuş, 1929-cu ildə həmin fakültənin dilçilik şöbəsini bitirmişdir. Şamaxı və Naxçıvan pedaqoji məktəblərində Azərbaycan dilindən dərs demişdir. Azərbaycan Pedaqoji İnstitutunda, Qazax Pedaqoji İnstitutunda, Azərbaycan KP MK yanında Ali Partiya Məktəbində baş müəllim, kafedra müdiri, dekan vəzifələrində çalışmışdır.

1947-ci ildə "XIX əsr Azərbaycan nəsr dili" mövzusunda namizədlik, 1960-cı ildə "Azərbaycan dilinin tarixi morfologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1961-ci ildə professor elmi adı almışdır.

1950-1953-cü illərdə Hadi Mirzəzadə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Ümumi dilçilik kafedrasının dosenti vəzifəsində çalışmışdır. 1953-1955-ci illərdə Bolqarıstan hökumətinin dəvəti ilə Sofiya Universitetinə ezam olunmuş, burada müasir türk dilindən mühazirələr oxumuşdur. Azərbaycan dili tarixinin yaradıcılarından olan H.Mirzəzadə

sonralar Azərbaycan Dövlət Universitetinin Filologiya və Şərqşünaslıq fakültələrində "Azərbaycan dilinin tarixi" kursundan mühazirələr oxumuşdur. 1961-ci ildə ADU-nun Ümumi dilçilik kafedrasının professoru seçilmişdir. "Azərbaycan dili tarixi" tədris kursunun yaradıcılarından biri hesab olunur. "Azərbaycan dilinin tarixi qrammatikasına aid materiallar (fonetika-morfologiya)" (1953), "Azərbaycan dilinin tarixi qrammatikası (köməkçi nitq hissələri)" (1958), "Azərbaycan dilinin tarixi fonetikasına dair qeydlər" (1958), "Azərbaycan ədəbi dilində işlənən ərəb və fars sözləri lüğəti (S.Ə.Cəfərov, İ.Hacıyev və Ç.F.Bağırovla birlikdə) (1960), "Azərbaycan dilinin tarixi morfologiyası" (1962), "M.Füzulinin dili" (1965), "Azərbaycan dilinin tarixi sintaksisi" (1968), "Azərbaycan dilinin tarixi qrammatikası" (1990) dərslik və dərs vəsaitlərinin, 60-dan çox elmi məqalənin müəllifi olmuşdur.

1965-ci ildə Bakı şəhərində vəfat etmişdir. Görkəmli Azərbaycan bəstəkarı Xəyyam Mirzəzadənin və prof.Çimnaz Mirzəzadənin atasıdır.

Mir Cəlal Əli oğlu Paşayev

filologiya elmləri doktoru, professor
Əməkdar elm xadimi,
(1908-1978)

26 aprel 1908-ci ildə Cənubi Azərbaycanın Ərdəbil ostanının Əndəbil kəndində doğulmuşdur. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçmişdir. 1918-ci ildə atası vəfat etmiş, böyük qardaşının himayəsində yaşamışdır. 1918-1919-cu illərdə xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai təhsil almışdır. Gəncə Müəllimlər Seminariyasında (1924-1928) oxumuş, əvvəlcə tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri (1926–1927) seçilmişdir. Gəncə Müəllimlər Seminariyasını bitirdikdən sonra Gədəbəy yeddiillik məktəbində, Söyüdlü və Miskinli kənd məktəbində müəllimlik etmişdir. 1929-1930 -cu illərdə 1 №-li Gəncə şəhər məktəbində direktor vəzifəsində işləmişdir. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində (1930–1932) təhsil almışdır. 7 mart 1933-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasına qəbul olunan 10 nəfərdən biri olub. 1933-cü ildə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsində kiçik elmi işçi vəzifəsində

çalışıb. "Füzulinin poetikası" mövzusunda namizədlik (1940), "Azərbaycanda ədəbi məktəblər" mövzusunda doktorluq dissertasiyası (1947) müdafiə edib. 1934-1978-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin üzvü olub.

1941-ci ilin dekabrında bir qrup Azərbaycan şair və yazıçıları ilə birlikdə Novorossiyskdə, 1942-ci ildə Uzaq Şərqdə Azərbaycan döyüşçüləri ilə görüşlərdə iştirak etmişdir.

1928-ci ildən ədəbi fəaliyyətə başlamışdır. "Kommunist" qəzetində şöbə müdiri, "Gənc işçi" qəzetində məsul katib, Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi olmuşdur (1932–1935). V.İ.Lenin adına ADPİ-də aspirantura şöbəsinin müdiri və baş müəllim vəzifəsində işləmişdir. Azərbaycan Dövlət Universitetində dosent (1944-1948), professor (1948-1978) kimi fəaliyyət göstərmiş, Azərbaycan ədəbiyyatı kafedrasının müdiri (1961- 1978) olmuşdur.

Mir Cəlal Paşayev Azərbaycan klassik ədəbiyyatının görkəmli tədqiqatçısı olmuşdur. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Əbülqasım Nəbati, Mirzə Fətəli Axundov, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir yaradıcılığını araşdırmış, Azərbaycan ədəbiyyatı tarixinin yazılmasına öz sanballı töhfəsini vermişdir.

Sovet yazıçılarının tərkibində yaradıcılıq ezamiyyətində (1935) olmuş, Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə (1940, 1950, 1960), SSRİ yazıçılarının II, III, IV qurultaylarında (1954, 1959, 1967) iştirak etmişdir.

1941-ci ilin dekabrında bir qrup Azərbaycan şair və yazıçıları ilə birlikdə Novorossiyskdə, 1942-ci ildə Uzaq Şərqdə Azərbaycan döyüşçüləri ilə görüşlərdə iştirak etmişdir.

Azərbaycan ədəbiyyatında yeni hadisə kimi dəyərləndirən "Bir gəncin manifesti" romanına görə 1968-ci ildə Azərbaycan LKGİ MK-nın qərarı ilə Respublika Lenin Komsomolu mükafatına layiq görülmüşdür.

"Qafqazın müdafiəsinə görə", "Əmək igidliyinə görə" (1944) medalları, "1941–45-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə" (1948), "Qırmızı Əmək Bayrağı" (1967), "Oktyabr inqilabı" (1978) və iki dəfə "Şərəf nişanı" (1950, 1958) ordenləri, iki dəfə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif olunmuşdur. 1969-cu ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. Sağlığında 59, vəfatından sonra 22 kitabı (təkrar) nəşr olunub. 80-dən artıq hekayəsi və əsərlərindən parçalar ümumtəhsil məktəb dərsliklərinə salınıb.

28 sentyabr 1978-ci ildə vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev

Fondunun prezidenti Mehriban xanım Əliyevanın babasıdır. Oğlu Arif Paşayev AMEA-nın həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, Milli Aviasiya Akademiyasının rektorudur. Azərbaycanda elmin, təhsilin inkişafında yüksək xidmətlərinə görə "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülmüşdür. Oğlu Hafiz Paşayev fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Respublikası Xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektorudur. Səmərəli ictimai-siyasi fəaliyyətinə, elm və təhsilin inkişafındakı xidmətlərinə görə "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmişdir. Qızı Ədibə Paşayeva Bakı Dövlət Universitetinin Humanitar fakültələr üzrə rus dili kafedrasının müdiri, dosentdir. Təhsilin inkişafındakı xidmətlərinə görə Əməkdar müəllim fəxri adına layiq görülmüşdür. Qızı Elmira Paşayeva Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kollecinin müəllimidir. Musiqi təhsili sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmiş, Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

Mir Cəlal Paşayevin 90 və 100 illik yubileyləri Azərbaycan Respublikasının Prezidentinin sərəncamları əsasında dövlət səviyyəsində təntənəli surətdə qeyd edilmiş, yığıncaqlar və elmi sessiyalar keçirilmişdir.

16 oktyabr 2007-ci ildə YUNESKO Baş Konfransının 34-cü sessiyasında Mir Cəlal Paşayevin 100 illik yubileyinin rəsmi qeyd olunması ilə bağlı qərar qəbul edilmişdir. Bakıda "Ədibin evi" muzeyi, Gəncə və Gədəbəy şəhərlərində xatirə muzeyləri açılmışdır. Bakının 9-cu mikrorayonundakı küçələrdən biri onun adını daşıyır.

Hidayət Əli oğlu Əfəndiyev

filologiya elmləri doktoru, professor
(1908-1979)

1 avqust 1908-ci ildə Şamaxı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Atası Ağa Əli Naseh öz dövrünün tanınmış şairlərindən olub. 6 yaşında ikən atasını itirdiyindən anasının himayəsi altında boya-başa çatmışdır. İbtidai təhsilini Şamaxıda rus-tatar məktəbində, sonra realni məktəbin hazırlıq sinfində almışdır. Şamaxıda mart soyqırımı (1918) zamanı ailəliklə Gəncəyə köçmüş, orada gimnaziyanın hazırlıq kursunda oxumuşdur. Bakı Müəllimlər Seminariyasında təhsil alan

(1922-1925 -ci illər) Hidayət Əfəndiyev 1925-1927-ci illərdə Şamaxıda I və II dərəcəli məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1931-ci ildə Ali Pedaqoji İnstitutu bitirmişdir. Ağdaş rayon maarif şöbəsində təlimatçı-metodist (1931), Azərbaycan Baş Mətbuat İdarəsində siyasi redaktor (1932-1935), Azərbaycan Pedaqoji İnstitutunda müəllim (1935-1941) işləmişdir. 1941-1946 -cı illərdə Sovet Ordusunda kapitan rütbəsində siyasi işçi kimi xidmət etmişdir. Ordudan tərxis edildikdən sonda ADU-nun Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı kafedrasında baş müəllim və dosent vəzifəsində işləmişdir. 1953 -cü ildə "XX əsr Azərbaycan bədii nəsri tarixindən" mövzusunda namizədlik, 1973 -cü ildə "Azərbaycan klassik bədii nəsri tarixi (qədim dövrdən 1905-ci ilədək)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Yazıçılar Birliyinin üzvü olmuşdur.

"Ədəbi oxu kitabı" (7-ci sinif üçün) (1939), "Ədəbiyyat xrestomatiyası (7-ci sinif üçün) (1938), "Ədəbi qiraət" (1958, 1960), "Ədəbiyyat" (müntəxabat) (1961-1967), "Azərbaycan bədii nəsrinin tarixindən" (1963), "M.F.Axundov realist satirik nəsrinin davamçıları" (1974) monoqrafiya və dərsliklərin müəllifi olub. "Qafqazın müdafiəsinə görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilib.

29 aprel 1979-cu ildə Bakı şəhərində vəfat etmişdir

Abdulla Hüseyn oğlu Vəliyev
filologiya elmləri doktoru, professor
(1910-1986)

13 fevral 1910-cu ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakıda alıb, A.Şaiq adına Pedaqoji Məktəbi bitirib. 1927-ci ildə ADU-nun Şərq fakültəsinə qəbul olub, 1931-ci ildə ADPİ-ni bitirib. 1932-39-cu illərdə müxtəlif texnikum və mədəni-maarif müəssisələrində müəllim işləyib. 1939-1941-ci illərdə Pedaqoji İnstitutun Xarici dillər fakültəsinin dekan müavini olub. Bu fakültə Azərbaycan Xalq Komissarlar Sovetinin 1937-ci il 9 oktyabr tarixli "Azərbaycan Pedaqoji İnstitutunda Xarici dillər fakültəsinin təşkil edilməsi haqqında" qərarı ilə yaradılmışdır.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1940-cı ilin oktyabrında "Azərbaycan SSR-in ali və orta məktəblərində alman, fransız və ingilis dillə-

rinin tədrisi haqqında" qəbul etdiyi qərar əsasında V.İ.Lenin adına ADPİ-nin Xarici dillər fakültəsi 1941/42-ci tədris ilindən Pedaqoji Xarici Dillər İnstitutuna çevrildi.

Abdulla Vəliyev 1941-ci ildə Xarici Dillər İnstitutunda Azərbaycan və rus dili kafedrasının müdiri təyin edildi. Sovet-alman müharibəsinin başlanması ilə əlaqədar olaraq institut yalnız təşkilatlanma prosesini həyata keçirə bildi. Xalq Maarif Komissarlığının əmri ilə sentyabr ayının 1-dən Pedaqoji Xarici Dillər İnstitutu Pedaqoji İnstitutun fakültəsi kimi öz fəaliyyətini davam etdirdi. Abdulla Vəliyev müharibəyə səfərbər olundu. 1943-cü ildə Novorossiysk döyüşlərində ağır yaralandı və müharibə əlili kimi ordudan tərxis edildi. Pedaqoji İnstitut ADU-ya birləşdiriləndə Abdulla Vəliyev öz fəaliyyətini 1943-cü ildən BDU -da davam etdirdi.

1952-ci ildə "Говоры западных районов Апшеронского полуострова" mövzusunda namizədlik, 1975-ci ildə "Переходные говоры азербайджанского языка" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1979-cu ildə ona professor elmi adı verilib. 1954-1960-cı illərdə ADU-nun Azərbaycan dili kafedrasına rəhbərlik edib. 1969-cu ildən Türkologiya kafedrasında dosent, 1979-cu ildən professor vəzifəsində işləyib.

Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi, "Türk dilləri dialektologiyası məsələləri" adlı Ümumittifaq jurnalının məsul katibi, Azərbaycan EA Dil üzrə Əlaqələndirmə Şurasının katibi, ADU-nun filologiya fakültəsinin Müdafiə Elmi Şurasının elmi katibi olmuşdur.

Elmi fəaliyyəti Azərbaycan dili dialektlərinin tədqiqi ilə əlaqədardır. "Azərbaycan dilinin Muğan qrupu şivələri" (1955), "Naxçıvan MSSR-in dialekt və şivələri" (1962), "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" (1967) monoqrafiyaları nəşr edilmişdir.

"Azərbaycan dilinin dialektoloji lüğətin"nin (1964) müəlliflərindən biri olmuşdur. Vətən müharibəsindəki xidmətlərinə və səmərəli elmi-pedaqoji fəaliyyətinə görə o, bir neçə orden və medallarla, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

8 iyun 1986 -cı ildə Bakı şəhərində vəfat etmişdir.

Məmməd Mübariz Əlizadə
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1911-1994)

1911-ci il dekabrın 23-də İranın Xamnə qəsəbəsində dəmirçi ailəsində anadan olmuşdur. İlk təhsilini doğma şəhərindəki "Mərifət" mədrəsəsində almışdır. 8 yaşında Şeyx Məhəmməd Xiyabaninin ən yaxşı şagird üçün təsis etdiyi mükafata layiq görülmüşdür. 1928-ci ildə Naxçıvana gəlmiş, burada pedaqoji məktəbdə və partiya məktəbində oxumuşdur. 1929-1933-cü illərdə Tiflis Zaqafqaziya Kommunist Universitetinin Siyasi fakültəsində təhsil almışdır. Gürcüstan Proletar Yazıçılar İttifaqı Azərbaycan bölməsinin katibi olmuşdur. 1933-1935-ci illərdə Ermənistan partiya mətbuatında məsul katib və redaktor vəzifələrində çalışmışdır. 1935-1938-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Azərbaycan ədəbiyyatı kafedrasının aspirantı olmuşdur. Burada institut komsomol komitəsinin birinci katibi vəzifəsinə seçilmiş, institutda və orta məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Sovet-alman müharibəsində Radio Verilişləri Komitəsində xarici verilişlər şöbəsini təşkil etmiş və həmin şöbənin ilk baş redaktoru olmuşdur. 1947-ci ildə "Böyük humanist şair Nizami Gəncəvi" mövzusunda namizədlik, 1969-cu ildə "XIX-XX əsrlər fars ədəbiyyatında demokratik ideyaların inkişaf yolları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1944-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Universitetində çalışmışdır. O, 1945-ci ildə yaradılmış Şərqşünaslıq fakültəsinin ilk dekanı olmuşdur. Sonralar uzun müddət həmin fakültənin Yaxın və Orta Şərq xalqları ədəbiyyatı kafedrasına rəhbərlik etmişdir.

Azərbaycanda farsdilli ədəbiyyatın görkəmli tədqiqatçısı olmaqla yanaşı, həm də onun mahir tərcüməçisi kimi tanınır. Klassik və müasir farsdilli şairlərdən Rudəki, Firdovsi, Nizami, Xaqani, Nəsimi, Cami, Füzuli, Eşqi, Lahuti, Şəhriyar və s. kimi müəlliflərin əsərləri M.Əlizadənin tərcümələri vasitəsilə Azərbaycan oxucusuna çatdırılmışdır. Bu tərcümələr içərisində Əbülqasim Firdovsinin "Şahnamə" əsərini ayrıca qeyd etmək lazımdır. M.Əlizadə ömrünün təqribən 30 ilini bu işə sərf etmiş və 60 min beytlik "Şahnamə"ni Azərbaycan dilinə çevirmişdir. Eyni zamanda o, Azərbaycan şairlərindən S.Vurğun, M.Rahim, S. Rüstəm, H.Arif və başqalarının şeirlərini fars dilinə

tərcümə etmişdir. 4 monoqrafiyanın, 150-dən artıq elmi məqalənin müəllifidir. SSRİ EA Şərq ədəbiyyatşünaslığı üzrə Koordinasiya Komitəsinin, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyində elmi-metodik şuranın üzvü olub.

Əməkdar elm xadimi fəxri adına (1981), SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən "Ali təhsil əlaçısı" döş nişanına layiq görülüb.

9 aprel 1994-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Əkbər Məmməd oğlu Ağayev

filologiya elmləri doktoru, professor,
Əməkdar ali məktəb işçisi
(1915-1989)

21 mart 1915-ci ildə Şuşa şəhərində anadan olub. Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat şöbəsini bitirib. Təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra Moskvada Ali Diplomatiya Məktəbinə daxil olur və bir müddət Moskvada yaşayır. "İzvestiya" qəzetinin və Sovet İttifaqı Teleqraf Agentliyi redaksiyalarında işləyir. Daha sonra Bakıda bir sıra mətbuat orqanlarında ədəbi işçi, məsul katib, şöbə müdiri və redaktor vəzifələrində çalışmışdır. SSRİ EA-nın Azərbaycan filialının aspiranturasında oxuyub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda və Xarici Dillər İnstitutunda müəllim və dosent kimi fəaliyyət göstərmişdir. ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri (1964-1981), Filologiya fakültəsinin dekanı (1974-1976), Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda inkişaf etmiş sosializm dövrü ədəbiyyatı şöbəsinin müdiri (1981-1986) və aparıcı elmi işçi (1987- 1989) vəzifələrində işləmişdir.

1963-cü ildə namizədlik, 1972-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1973-cü ildə SSRİ AAK-ı tərəfindən ona filologiya elmləri doktoru elmi dərəcəsi, 1975-ci ildə professor elmi adı verilmişdir. 1981-ci ildə Əməkdar ali məktəb işçisi fəxri adına layiq görülüb.

"M.Y.Lermontov və Azərbaycan" (1941), "A.İ.Gertsen"(1962), "Sənətkarlıq məsələləri" (ədəbi-tənqidi məqalələr) (1962), "Nizami və dünya ədəbiyyatı" (1964), "Sənətkara töhfə" (1978) kitabları nəşr olunub. A.S.Puşkin, M.Y.Lermontov, A.A.Çexov, L.N.Tolstoy, Belinski, Dobrolyubov, Qorki, Dikkens, Bualo və b. rus ədiblərinin əsərlərini Azərbaycan dilinə tərcümə edib.

1 mart 1989-cu ildə Bakı şəhərində vəfat edib.

Fərhad Qulam oğlu Fərhadov
filologiya elmləri doktoru, professor
(1919- 2000)

1919-cu ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Rəncbər kəndində anadan olmuşdur. 1926-1931 -ci illərdə İrəvan şəhərindəki M.Əzizbəyov adına orta məktəbdə, 1931-1936 -cı illərdə İrəvan Azərbaycan Pedaqoji Texnikumunda təhsil almışdır. 1936/1937-ci tədris ilində Basarkeçər rayonunun Nərimanlı kəndində pedaqoji fəaliyyətə başlamışdır. 1937-1941-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Dil və ədəbiyyat fakültəsində oxumuşdur. 1941-ci ilin sentyabr ayından İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. 1942-ci ildə müharibəyə səfərbər edilmişdir. Telavi Piyada Məktəbində oxumuş, Şimali Qafqaz cəbhəsində vuruşmuşdur. 1943-cü ildə ordudan tərxis olunmuş, İrəvan Azərbaycan Pedaqoji Texnikumunda fəaliyyətini davam etdirmişdir. 1944-cü ilin mart ayında İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin və eyni zamanda Azərbaycan ədəbiyyatı kafedrasının müdiri təyin edilmişdir. 1948-ci ilə kimi həmin vəzifədə çalışan F.Fərhadov azərbaycanlıların İrəvandan deportasiyası ilə əlaqədar olaraq Bakıya gəlmişdir. İrəvanda qiyabi təhsil alan tələbələr Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutuna köçürüldüyündən o da fəaliyyətini burada davam etdirməli olmuşdur. Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda Dil və ədəbiyyat fakültəsinin dekan müavini (1950-1951) və dekanı (1951-1953) vəzifələrində çalışmışdır. 1954-cü ildə aspiranturada təhsil almaq üçün 1 illik Moskva Dövlət Universitetinə ezam edilmişdir. 11 yanvar 1955-ci ildə Moskva Dövlət Universitetində "Koroğlu eposunun öyrənilməsi tarixindən" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1959-cu ilə kimi onun elmi-pedaqoji fəaliyyəti Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutu ilə bağlı olmuşdur. 1959-cu ildə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun V.İ.Lenin adına APİ-yə birləşdirilməsi ilə əlaqədar olaraq, o, pedaqoji fəaliyyətini ADPİ-də davam etdirmişdir. Burada 1959-1963-cü illərdə qiyabi şöbə üzrə dekan müavini və dosent vəzifəsində çalışmışdır. 1963-1970-ci illərdə Azərbaycan ədəbiyyatı kafedrasında dosent, 1973-cü ildən ömrünün sonuna qədər professor vəzifəsində çalışmışdır. 1968-

ci ildə S.M.Kirov adına ADU-da "Koroğlu eposunun Qafqaz variantı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 13 mart 1970-ci ildə ona filologiya elmləri doktoru elmi dərəcəsi, 11 iyun 1971-ci ildə isə Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrası üzrə professor elmi adı verilmişdir. 1973-cü ildə Ədəbiyyat və onun tədrisi metodikası kafedrasını təşkil etmiş, 1988-ci ilə kimi həmin kafedraya rəhbərlik etmişdir. 1988-2000-ci illərdə Ədəbiyyatın tədrisi metodikası kafedrasında professor və professor-məsləhətçi vəzifəsində çalışıb.

"Qədim və orta əsrlər ədəbiyyatına dair oçerklər" (1945), "Klassik ədəbiyyatda tarixilik prinsipləri" (1953), "Klassik Azərbaycan ədəbiyyatının tədrisində tarixilik" (1983) kitablarının və 100-ə yaxın elmi məqalənin müəllifi olub. 1958-ci ildə erməni dilində nəşr olunan "Azərbaycan klassik ədəbiyyatına dair müntəxəbat" kitabının əsas tərtibçilərindən biridir.

2000-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Nəzakət Həsən qızı Ağazadə

filologiya elmləri doktoru, professor
(1910-1979)

13 fevral 1910-cu ildə Gəncə şəhərində Azərbaycan Parlamentinin sədr müavini Həsən bəy və Xədicə xanım Ağayevlərin ailəsində dünyaya gəlib. Ailənin 3-cü qız övladı olan Nəzakət Ağazadə orta təhsilini Bakıda almış, 1931-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qəbul olunmuşdur. 1932-də "Müsavat Parlamanı başçısının qızı" olduğu üçün 2-ci kursdan xaric edilmişdir. Sonrakı illərdə təhsilini Moskvada davam etdirmiş, 1939-cu ildə Moskva Xarici Dillər İnstitutunun Alman dili fakültəsini bitirmişdir. Pedaqoji fəaliyyətə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xarici dillər şöbəsində başlamışdır. 20 ilə yaxın bir müddətdə Xarici Dillər İnstitutunda Alman dili kafedrasına rəhbərlik edib. 1948-də Moskvada namizədlik, 1966-da Bakıda doktorluq dissertasiyası müdafiə edib. 1946-cı ildə institutun 25 illiyi münasibəti ilə mükafatlandırılmalı olanların siyahısında onun da adı var. O, "Əməkdə fərqləndiyinə görə" medalı ilə təltif edilməli idi.

Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun prorektoru (1966-1968) olmuşdur. Tədqiqatları əsasən Azərbaycan və alman dillərinin müqayisəli öyrənilməsinə aiddir. Onun Azərbaycan məktəbləri üçün alman dili dərsllikləri yaradılmasında da böyük xidmətləri olub. AMEA-nın müxbir üzvü, prof. Əliheydər Orucovla ailəli olub.

10 aprel 1979-cu ildə maşın qəzasında dünyasını dəyişmişdir.

Əsəd Rza oğlu Yəqubi

pedaqoji elmlər namizədi, professor

(1922- 2016)

19 sentyabr 1922-ci ildə İranın Astara şəhərində anadan olub. Astarada Həkim Nizami adına natamam orta məktəbi, 1944-cü ildə isə 12 illik "Əlborz" məktəbini bitirib. 1944-1945-ci illərdə Tehran Universitetinin Baytarlıq fakültəsində oxuyub, Tehranda İran fəhlələri mərkəzi şurasının orqanı olan "Zəfər" qəzeti redaksiyasında çalışıb. "Xəzər" imzası ilə yazıları və tərcümə əsərləri nəşr olunub. Gizli siyasi təşkilatda fəaliyyət göstərdiyinə görə polis tərəfindən təqib edildiyindən SSRİ-yə mühacirət etməyə məcbur olub. 1949-1953-cü illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici dillər İnstitutunun fransız dili ixtisasında, 1954-1957-ci illərdə V.İ.Lenin adına ADPİ-nin aspiranturasında təhsil alıb. 1953-1956-cı illərdə Bakı şəhərindəki 9 №-li məktəbdə fransız dili müəllimi işləyib. 13 aprel 1961-ci ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Şurasında "Doktor Tağı Erani təlim və tərbiyə haqqında" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1956-cı ildən ADPİ-nin Xarici dillər kafedrasında pedaqoji fəaliyyətə başlayıb. 1965-1970-ci illərdə də həmin kafedraya rəhbərlik edib. 1980-ci ildə Xarici dillər kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Xalq Təhsili Dövlət Komitəsinin nəzdindəki AAK tərəfindən 4 iyul 1991-ci ildə ona professor elmi adı verilib. Xarici dillər kafedrasında 1980-2004-cü illərdə professor, 2004-2009-cu illərdə professor-məsləhətçi vəzifəsində çalışıb. 1988-ci ildə "Poliqlot Elmi-Texniki Cəmiyyət" adlı ilk özəl tərcümə və tədris müəssisəsi təsis edib. Ali məktəblərin humanitar fakültələri üçün fars dili, fransız dili, əski Azərbaycan əlifbası üzrə ilk tədris proqramlarının, dərslik və tədris vəsaitlərinin müəllifi olub. Azərbaycanda ən

qədim dövrdən XX əsrin əvvəllərinə kimi məktəb və pedaqoji fikir tarixinin tədqiqi ilə bağlı "Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi" (2005) kitabının və 150-dən artıq məqalənin müəllifidir. Əsərlərində Azərbaycanda müsəlman məktəblərinin inkişafı və islam mədəniyyəti tarixində azərbaycanlı alimlərin rolu araşdırılır. Qədim dövrdən XIX əsrə qədər Azərbaycan məktəb tarixinin sistemli araşdırılmasında onun mühüm xidmətləri olmuşdur.

28 dekabr 2016 -cı ildə Bakı şəhərində vəfat etmişdir.

Nazim Fərrux oğlu Axundov

filologiya elmləri doktoru, professor
(1924-1994)

1924-cü il iyunun 20-də Şuşa şəhərində ziyalı ailəsində anadan olub. Orta təhsilini Mirbəşir (indiki Tərtər) rayonunun Qaynaq kəndində alıb. 1937- 1940-cı illərdə Bakı Pedaqoji Məktəbində təhsil alıb. 1940-1944-cü illərdə Tərtər rayonunun Azad Qaraqoyunlu və Qaynaq kənd orta məktəblərində müəllim, dərs hissə müdiri və direktor vəzifələrində işləyib. Ali təhsilini Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda, aspirantura təhsilini Azərbaycan Pedaqoji İnstitutunda Azərbaycan ədəbiyyatı tarixi ixtisası üzrə alıb (1944 - 1947). 1948-ci ilin oktyabrında Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "Molla Nəsrəddin" jurnalının nəşri tarixinə aid tədqiqlər" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi alıb. 1948-1950-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda çalışıb. Quba Müəllimlər İnstitutunun direktoru, Azərbaycan ədəbiyyatı kafedrasının müdiri (1950-1952) olub. H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda tədris-elmi işlər üzrə prorektor, rektor, kafedra müdiri (1952-1957), Azərbaycan EA Əsaslı kitabxanasının müdiri (1958-1965) vəzifələrində işləyib.1966-cı ildə "Azərbaycan satira jurnalları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1970-ci ildə ona professor elmi adı verilib. AMEA Nizami adına Ədəbiyyat İnstitutunda dövri mətbuat və biblioqrafiya şöbəsinin müdiri (1961-1971), baş elmi işçi (1971-1974), Xankəndi Dövlət Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri

vəzifələrində çalışıb, Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun professoru (1988-1994) olub.

Onun "Cəfər Cabbarlı" (1947), "Mirzə Fətəli Axundov" (1948), "Səməd Vurğun" (1949), "Mirzə Ələkbər Sabir" (1958), "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" (1959), "Qarabağnamələr" (1991) kitabları, 100-dən artıq məqaləsi nəşr edilib. "Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1965)" biblioqrafiyasını tərtib etmişdir.

10 mart 1994-cü ildə Bakıda vəfat etmişdir.

Şıxəli Qurban oğlu Qurbanov

filologiya elmləri doktoru,
Dövlət Mükafatı laureatı
(1925-1967)

16 avqust 1925-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1932 -ci ildə Bakının 9 №-li məktəbinin 1-ci sinfinə daxil olmuşdur. İbtidai məktəbi əla qiymətlərlə və tərifnamə ilə bitirən Şıxəli Qurbanov Oktyabr rayonu 13 №-li məktəbin 5-ci sinfində təhsilini davam etdirmişdir. 6-cı sinfi Çaparidze rayonu 150 №-li məktəbdə oxumuşdur. 9-cu sinfi bitirdikdən sonra sənədlərini M.F.Axundov adına ikiillik Müəllimlər İnstitutunun Dil-ədəbiyyat fakültəsinə təqdim etmişdir. Şıxəli Qurbanov institut direktorunun adına aşağıdakı məzmunda ərizə yazmışdır: "*Mən hələ gənc yaşlarımdan ədəbiyyatla maraqlanmağa başlamışam. Mənim gənc qəlbim bir ədəbiyyatçı olmaq eşqilə, daha doğrusu bir müəllim olmaq eşqilə çırpınır. Mən özümü gələcəkdə proqressiv bəşəriyyətin qabaqcıl nümayəndəsi olan bir müəllim görmək istədiyim üçün ən şərəfli bir vəzifə olan gənc nəsli tərbiyə etmək kimi bir vəzifəni ifa etmək istədiyim üçün məni ədəbiyyat fakültəsinə qəbul etməyinizi bütün varlığımla xahiş edirəm".* Ərizə 1941-ci ilin iyun ayında yazılıb və APİ-nin arxivində saxlanılır. 9-cu sinfi bitirdiyinə görə onun sənədlərini ikiillik Müəllimlər İnstitutuna qəbul etmirlər. 1942-ci ildə ekstern yolu ilə imtahan verərək qiyabi orta məktəbin 10 -cu sinfini bitirir. 1942-ci ilin iyununda cəbhəyə səfərbər olunub, Leninqraddan Almaniyaya qədər döyüş yolu keçib. 1946-cı ildə ordudan kapitan rütbəsi ilə tərxis olunub. 1946-cı ildə Bakı istehsalat kombinatında kadrlar şöbəsinin müdiri, 1947-ci ildə Azərbaycan LKGİ Bakı Şəhər komitəsində

təlimatçı işləyir. 1947-1951-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsində, 1951-1954-cü illərdə aspiranturasında təhsil alıb. Həmin illərdə həm də rus ədəbiyyatından dərs deyib.1954-55-ci illərdə Azərbaycan Kommunist Partiyası Bakı Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri,1955-57-ci illərdə Bakı Voroşilov (indiki Səbail) Rayon Partiya komitəsinin I katibi, 1955-59-cu illər Bakı Zəhmətkeşlər Deputatları Sovetinin deputatı, 1957-ci ildə SSRİ Jurnalistlər İttifaqının üzvü, 1957-1961-ci illərdə Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin müdiri, elə həmin illərdə Azərbaycan KP MK-nın üzvü, 1958 və 1963-cü illərdə Azərbaycan SSRİ Ali Sovetinin deputatı seçilir.1966-cı ilin fevral ayında Azərbaycan Kommunist Partiyasının XXVII qurultayında Azərbaycan KP MK üzvü, birinci plenumda isə Azərbaycan KP MK bürosunun üzvü və katibi seçilir.

30 iyun 1956-cı ildə "A.S.Puşkin və Azərbaycan poeziyası" mövzusunda namizədlik, 20 may 1965-ci ildə "XIX əsrdə rus-Azərbaycan ədəbi əlaqələrinin inkişaf mərhələləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1967-ci ildə Ü.Hacıbəyov adına Dövlət Mükafatına layiq görülüb. ADPİ-nin Ədəbiyyat kafedrasında baş müəllim və dosent vəzifələrində işləyib. Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutuna rəhbərlik edib.

"Lenin" (1967) ordeni, "İgidliyə görə" (1945), "Könnigsbergin alınmasına görə" (1945), "1941-1945-ci illər Böyük Vətən Müharibəsində Almaniya üzərindəki qələbəyə görə" (1946) medalları ilə təltif edilmişdir.

24 may 1967-ci ildə Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

Nəmidə Kabı qızı Abbasova

filologiya elmləri doktoru, professor,
Əməkdar ali məktəb işçisi
(1925-1994)

12 oktyabr 1925-ci ildə Qazax şəhərində anadan olmuşdur. 1932-1943-cü illərdə Qazax şəhərindəki orta məktəbdə, 1943-1945-ci illərdə Qazax Müəllimlər İnstitutunda, 1945-1948-ci illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır. 1950-1953-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspirantı olmuş, prof. Ə.Dəmirçizadənin elmi rəhbərliyi ilə "Cəfər Cabbarlının dramaturgiya dili" mövzusunda namizədlik dissertasiyası müdafiə

etmişdir. 1954-1964-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dilçiliyi kafedrasında baş müəllim, 1970- 1976-cı illərdə dosent, 1970–1976-cı illərdə ADPİ-nin İbtidai təhsil pedaqogikası və metodikası fakültəsinin dekanı, Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının professoru, 1976-1981-ci illərdə ADPİ-nin Dilçilik kafedrasının, 1981-1996-cı illərdə illərdə BDU-nun Azərbaycan dilçiliyi kafedrasının professoru olmuşdur. Cəfər Cabbarlının yaradıcılığı ilə bağlı doktorluq dissertasiyası müdafiə etmişdir. 120-dən çox elmi məqalənin, "Cəfər Cabbarlı dramaturgiyasında söz" (1983) adlı monoqrafiyanın müəllifidir. 1981-ci ildə Əməkdar ali məktəb işçisi fəxri adına layiq görülmüşdür

1994-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Nabat Cumay qızı Abdullayeva

filologiya elmləri doktoru, professor

(1925-2006)

20 may 1925-ci ildə Şəki şəhərində anadan olub. 1931-38-ci illərdə Şəkidə yeddiillik məktəbdə, 1938-1941-ci illərdə İ.V.Stalin adına Nuxa Pedaqoji Texnikumunda, 1946-1950-ci illərdə ADPİ-nin Dil və ədəbiyyat fakültəsində təhsil alıb. 1941-1946-cı illərdə Şəkidə 6 №-li məktəbdə ibtidai sinif müəllimi işləyib. Təhsil illərində Nizami təqaüdçüsü olub. 1950-1953-cü illərdə ADPİ-nin Azərbaycan dilçiliyi kafedrasının aspirantı olub, 1954-cü ildə həmin kafedrada assistent kimi əmək fəaliyyətinə başlayıb. 1 oktyabr 1966-cı ildə həmin kafedraya baş müəllim vəzifəsinə seçilib. 31 mart 1955-ci ildə ADPİ-nin Elmi Şurasında "Azərbaycan dilində cüttərkibli sadə cümlələr" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. O dövrdə dissertasiyaları SSRİ AAK-ı təsdiq edirdi. Respublikadan göndərilən imzalı-imzasız məktublar əsasında dissertasiya 23 sentyabr 1960-cı ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK-da müzakirə edilərək N.Abdullayevaya elmlər namizədi alimlik dərəcəsi verilməkdən imtina olunub. N.Abdullayeva həmin dissertasiya üzərində yenidən işləyərək 23 dekabr 1965-ci ildə yenidən müdafiə etmişdir. 29 oktyabr 1965-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK

ona filologiya elmləri namizədi elmi dərəcəsi, 12 noyabr 1970-cı ildə dosent elmi adı vermişdir.

21 noyabr 1970-ci ildə Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına dosent vəzifəsinə seçilib. 1972-ci ildə Azərbaycan EA -nın Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasında "Müasir Azərbaycan dilində sintaksis sinonimlik (budaq cümlələrlə feili tərkiblərin sinonimliyi" müdafiə edib. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona 24 aprel 1981-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsi verilib. 1981-ci ildə Azərbaycan dili və onun tədrisi metodikasına professor vəzifəsinə seçilib və ömrünün sonuna kimi həmin vəzifədə çalışıb. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona 6 yanvar 1984-cü ildə professor elmi adı verilib. Müasir Azərbaycan dilinin sintaksisi, morfologiyası və sadə cümlələrlə bağlı 100-ə yaxın elmi əsəri nəşr olunub.

27 dekabr 2006-cı ildə Bakı şəhərində vəfat edib.

Mustafa Qasım oğlu Mustafayev

filologiya elmləri namizədi, professor

(1926- 2011)

18 noyabr 1926-cı ildə Şamaxı şəhərində anadan olub. 1934-1944 -cü illərdə S.Ə.Şirvani adına Şamaxı şəhər orta məktəbində oxuyub. 1944-1948-ci illərdə Bakı şəhərində Kirovneft mədənlərində fəhlə işləyib. Ali təhsil almaq məqsədilə ADPİ-nin hazırlıq şöbəsində oxuyub. 1949-1953-cü illərdə ADPİ-nin Dil-ədəbiyyat fakültəsində təhsil alıb. 1953-1954-cü illərdə Lənkəran rayonu Mamusta kənd orta məktəbində müəllim, axşam kəndli-gənclər məktəbində direktor, 1955-1958-ci illərdə Kərgəlan kənd orta məktəbində, 1959-1962-ci illərdə Xəzər Gəmiçiliyi İdarəsinin təhsil kombinatında dərs hissə müdiri vəzifəsində işləyib.1962-1965-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının aspirantı olub.

16 aprel 1965-ci ildə V.İ.Lenin adına ADPİ-nin Elmi şurasında "Qasım bəy Zakirin sənətkarlıq xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1965-1966 -cı illərdə ADPİ-nin tədris hissəsində dispetçer işləyib. 12 sentyabr 1966 -cı ildə Azərbaycan ədəbiyyatı və onun tədrisi me-

todikası kafedrasında müəllim kimi pedaqoji fəaliyyətə başlayıb. 13 aprel 1968-ci ildə həmin kafedraya baş müəllim, 21 sentyabr 1971-ci ildə isə dosent vəzifəsinə seçilib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi 29 iyun 1970-ci ildə ona Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrası üzrə dosent elmi adı verib.

13 dekabr 1988-ci ildə Azərbaycan ədəbiyyatı tarixi kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Xalq Təhsili üzrə Dövlət Komitəsinin 13 dekabr 1990-cı il qərarı ilə ona professor elmi adı verilib. "Qasım bəy Zakirin sənətkarlıq xüsusiyyətləri", "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" dərs vəsaitlərinin, 100-dən artıq elmi məqalənin müəllifi olub. "Azərbaycan SSR qabaqcıl maarif xadimi" döş nişanı, "Əmək veteranı" medalı ilə təltif olunub.

5 aprel 2011-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Həsən İbrahim oğlu Mirzəyev
filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi, "Şöhrət" ordenli,
Prezident təqaüdçüsü
(1927-2015)

26 noyabr 1927-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Qovuşuq kəndində anadan olmuşdur. 1938-1948-ci illərdə Qovuşuq kənd orta məktəbində, 1948-1950-ci illərdə Naxçıvan Müəllimlər İnstitutunda, 1951-1955-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil almışdır. 1955-1957-ci illərdə Qovuşuq kənd orta məktəbində müəllim və rayon xalq maarif şöbəsinin inspektoru, 1957-1959-cu illərdə isə məktəb direktoru işləyib. 1959-1962-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Azərbaycan dilçiliyi ixtisası üzrə aspiranturada oxuyub. 1965-ci ildə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1968-ci ildə dosent, 1990-cı ildə isə professor elmi adı alıb. 1977-ci ildə Marksizm-Leninizm Universitetini fərqlənmə diplomu ilə bitirib. Azərbaycan Dövlət Pedaqoji Universitetində Müasir Azərbaycan dili kafedrasını yaradıb və ömrünün sonuna kimi həmin kafedranın müdiri olub.

21 noyabr 1992-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü olmuş, YAP-ın 3 qurultayında YAP siyasi şurasına üzv seçilmişdir. "91-lər"in ağsaqqallarından biri olmuşdur. Azərbaycanda filologiya elminin inkişafında prof.H.Mirzəyevin

özünəməxsus yeri var. Onun Qərbi Azərbaycanın yer adları ilə bağlı araşdırmaları milli tarixin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. O, Azərbaycan dilçiliyində feil bəhsi üzrə elmi məktəb yaratmış, uzun müddət türkologiyada mübahisə doğuran bir çox mövzuları (feili sifət, feilin təsir kateqoriyası) tədqiq edərək elmi həqiqətin üzə çıxmasına çalışmışdır. Onun sistemli yaradıcılığı dilçiliyimiz, folklorumuz, tariximiz və coğrafiyamız üçün tükənməz bir xəzinədir. Əsərlərinin mühüm bir hissəsi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ithaf olunmuşdur. Onun 25 kitabı, 8 tədris proqramı, yüzlərlə publisistik məqaləsi və şeiri çap olunmuşdur. Müxtəlif səpkidə yazılmış 65 əsərin elmi redaktoru, 15-nin rəyçisi, 5-nin məsləhətçisi olmuşdur. 15 fəlsəfə doktoru və elmlər doktorunun rəsmi opponenti olmuşdur. Rəhbərlik etdiyi Müasir Azərbaycan dili kafedrasında 21 il ərzində 8 nəfər filologiya üzrə elmlər doktoru yetişmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetində, AMEA -nın Dilçilik İnstitutunda, Bakı Dövlət Universitetində dilçilik üzrə ixtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olmuşdur. Dövlət nümayəndə heyətinin tərkibində İran, Türkiyə, Səudiyyə Ərəbistanında səfərdə olmuşdur. Şəxsiyyətinə, yaradıcılığına, ictimai-siyasi fəaliyyətinə 180-dən artıq şeir və 4 poema həsr edilmişdir. Əmək fəaliyyəti dövründə müxtəlif təşkilatlar tərəfindən 50-dən artıq rəğbətləndirməyə layiq görülmüşdür. Haqqında "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" adlı dissertasiya müdafiə edilmişdir.

Respublika ali məktəb əlaçısı, əmək veteranı, YAP Siyasi Şurasının, Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" və "Şərəf" media mükafatlarının sahibi olmuşdur. 2002-ci il noyabrın 26-da "Şöhrət" ordeninə, 3 oktyabr 2007-ci ildə Əməkdar elm xadimi fəxri adına, 13 aprel 2009-cu ildə isə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür. 2009-cu ildə Borçalı Cəmiyyəti tərəfindən Borçalı elinin fəxri vətəndaşı seçilmişdir. 16 aprel 2010-cu il tarixdə Almaniyanın Hanover şəhərindəki Avropa Akademiyasının həqiqi üzvü seçilmişdir. Respublika Ağsaqqallar Şurasının sədr müavini olmuşdur.

1959-cu ildə kənd sovetinə, 1990-cı ildə Bakı Şəhər Sovetinə, 1998-ci ildə birinci çağırış, 2000-ci ildə ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş, Milli Məclisdə təhsil, etika və toponimika komissiyalarının üzvü olmuşdur. 1998-ci ildə Məşhəd, 2002-ci ildə Həcc ziyarətində olmuşdur.

25 fevral 2015-ci ildə Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.



Əli Abbas oğlu Fərəcov
filologiya elmləri doktoru, professor
(1927-1977)

7 iyun 1927-ci ildə İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində ziyalı ailəsində anadan olub. 1935-ci ildə İrəvandakı S.M.Kirov adına Azərbaycan ümumtəhsil məktəbinə daxil olub. Burada yeddiillik təhsil alıb. Təhsilini İrəvan Pedaqoji Texnikumunda (qiyabi) davam etdirib. Texnikumu bitirdikdən sonra 1944-1946-cı illərdə Qəmərli rayonunun Ciləxanlı kənd 7 illik məktəbində müəllim işləyib.

1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə bitirdiyinə görə Ümumi dilçilik kafedrasında laborant saxlanılıb. 1952-ci ildə "Toxucular" pioner düşərgəsinin rəisi təyin edilib. 1952-1960-cı illərdə Azərbaycan Dövlət Nəşriyyatında kiçik redaktor, böyük redaktor vəzifələrində çalışıb.1960-cı ildə "Azərnəşr"in böyük redaktoru təyin olunub.

1961-1964-cü illərdə V.İ.Lenin adına ADPİ-nin aspiranturasında oxuyub. 1 dekabr 1964-cü ildə ADPİ-nin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına müəllim, 31 dekabr 1965-ci ildə baş müəllim, 21 mart 1967-ci ildə dosent vəzifəsinə seçilib. 29 oktyabr 1966-cı ildə İbtidai təhsil pedaqogikası və metodikası fakültəsinin qiyabi şöbəsinə, 29 aprel 1966-cı ildə Dil-ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə ictimai əsaslarla dekan müavini təyin edilib.

14 may 1965-ci ildə "Şagirdlərdə morfoloji anlayışların formalaşdırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 24 yanvar 1968-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə dosent elmi adı verilib. 4 dekabr 1970-ci ildə qiyabi şöbə üzrə Dil-ədəbiyyat fakültəsinin dekan vəzifəsi ona həvalə olunur. 25 yanvar 1971-ci ildə həmin vəzifəyə seçilib. 1972-ci ildə "Şagirdlərdə morfoloji məfhumların mənimsənilməsinin metodik əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1 iyun 1973-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona filologiya elmləri doktoru elmi dərəcəsi, 28 may 1976-cı ildə Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə professor elmi adı verilib.

V.İ.Lenin adına ADPİ-nin "Elmi Xəbərləri"nin məsul katibi olub. Elmi-

pedaqoji və metodik əsərləri və tərcüməçilik fəaliyyəti ilə tanınıb. Şərikli yazdığı Azərbaycan və rus məktəblərinin III-V və VI sinifləri üçün "Azərbaycan dili" dərslikləri dəfələrlə nəşr edilmişdir. "Müxtəsər dilçilik lüğəti" (1960), "İzahlı dilçilik lüğəti" (1969), "Qrammatik məfhumların mənimsənilməsinin bəzi məsələləri" (1970) və "Azərbaycan dili" (III, VI siniflər üçün) dərslikləri kütləvi tirajla nəşr olunub. SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki, pedaqoji elmlər doktoru, professor A.V.Tekucev görkəmli alim Əli Fərəcovun vəfatı münasibətilə göndərdiyi teleqramda yazırdı: *"Mən Əlidəki təmkinliyi, zəkanı, istedadı, səmimiliyi yüksək qiymətləndirirdim. Bu keyfiyyətlər hər kəsə nəsib olmur. Təəssüf ki, Azərbaycan yüksək səviyyəli bir alimi ömrünün çiçəkləndiyi bir vaxtda itirdi"*.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri fərmanı, müxtəlif medallar və "SSRİ maarif əlaçısı" döş nişanı ilə təltif edilmişdir.

11 may 1977-ci ildə Bakı şəhərində vəfat edib.

Alməmməd Məmməd oğlu Alməmmədov

filologiya elmləri doktoru, professor
(1927-1984)

1927-ci ildə Tovuz rayonunun Şamlıq kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra Tovuz rayonunda 3 aylıq pedaqoji kurs qurtarıb. Bir müddət Tovuz rayonunda ibtidai məktəbdə dərs deyib. 1947-ci ildə V.İ.Lenin adına ADPİ-nin Dil-ədəbiyyat fakültəsinə qəbul olunub.1951-ci ildə institutu fərqlənmə diplomu ilə başa vuran A.Məmmədov rus ədəbiyyatı ixtisası üzrə aspiranturada saxlanılıb. 1960-cı ildə namizədlik dissertasiyası müdafiə edib, 1976-cı ildə "Azərbaycan - rus ədəbi əlaqələri (1900-1920 -ci illər) mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Xeyli müddət institutun elmi katibi vəzifəsində çalışıb. Alməmməd Alməmmədov 1952-ci ildən ömrünün sonuna kimi müxtəlif mətbuat orqanlarında xarici ölkə ədəbiyyatı ilə bağlı məqalələrlə çıxış etmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Rus və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri olmuşdur. Pedaqoji institutlar üçün ilk "Rus ədəbiyyatı tarixi" proqramının müəllifi olub. İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində xarici ölkələr ədəbiyyatı tarixin-

dən mühazirələr oxuyub. "Maksim Qorki və Azərbaycan ədəbiyyatı" (1959), "İnqilabın fırtına quşu" (1968), "Nekrasov və Azərbaycan" (1971), "L.Tolstoy və Azərbaycan ədəbiyyatı" (1972), "Ürəklərin birliyi" (1975), "Mixail Aleksandroviç Şoloxov" (1975), "Azərbaycan - rus ədəbi əlaqələri (1900-1920 -ci illər) (1982), "XX əsr rus ədəbiyyatı tarixi" (1992) monoqrafiya, dərslik və dərs vəsaitlərinin, "Rus ədəbiyyatı tarixi " proqramının (1969, 1978) müəllifi olub. "XX əsr rus ədəbiyyatı tarixi" (şərikli) (1992) dərsliyi ölümündən 8 il sonra BDU-nun professoru Əmirxan Xəlilov tərəfindən nəşr edilmişdir.

3 iyun 1984-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Yəhya Şəfi oğlu Kərimov
pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim,
(1927-2021)

1927-ci ildə Qax rayonunun İlisu kəndində anadan olub. Muğal kənd yeddiillik məktəbində (1934-1941), Zaqatala Pedaqoji Texnikumunda (1942-1944), ADPİ-nin Dil-ədəbiyyat fakültəsində (1946-1950), Azərb.ETPEİ-nin əyani aspiranturasında (1955-1958) təhsil alıb. Muğal orta məktəbində (1942; 1945-1946), 1 №-li uşaq evində (1944-1945) pioner baş dəstə rəhbəri, Qax rayon komsomol komitəsində (1943-1944) uçot-statistika şöbəsinin müdiri, Quba Müəllimlər İnstitutunda (1950-1951), Qazax Müəllimlər İnstitutunda (1951-1953), H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Şəki filialında (1953-1955) baş müəllim işləyib.

"İbtidai sinif şagirdlərinin nitqindəki yerli şivə xüsusiyyətləri və onların aradan qaldırılması yolları" (1962) mövzusunda namizədlik, "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin təşkili" (1975) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Azərb.ETPEİ-də kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, şöbə müdiri, direktor müavini vəzifələrində çalışıb. 1967-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda əvəzçiliklə müəllim işləyib.1986-1993-cü illərdə institutun nəzdindəki Dissertasiya Şurasının üzvü olub. 1986-cı ildən professordur. 1970-ci ildən "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinin redaktorudur. SSRİ PEA-da ibtidai təlim üzrə problem

şuranın üzvü, Təhsil Nazirliyinin nəzdində məktəbəqədər tərbiyə və ibtidai təlim elmi-metodik şurasının sədri (1973-2012) olmuşdur. 1963- 2007-ci illərdə ümumtəhsil məktəbləri üçün "Əlifba" və "Ana dili" dərsliklərinin müəllifi olub. Elmi rəhbərliyi ilə 40 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə edib. 144 kitab və kitabçanın, 300-ə yaxın elmi məqalənin müəllifidir. 10 cildlik "Seçilmiş əsərləri" nəşr edilib.

"Qabaqcıl maarif xadimi" (1967), "SSRİ maarif əlaçısı" (1974), "Əmək veteranı" (1974), "Fədakar əməyə görə xatirə medalı" (1970), Qırmızı Əmək Bayrağı ordeni (1971), Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı (1981), "Şöhrət" ordeni (2000) ilə təltif olunub. Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvüdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü (2009), Əməkdar müəllimdir(2006). Azərbaycanda ibtidai təlimin elmi əsaslar üzərində qurulması və inkişafı onun adı ilə bağlıdır.

Paşa Şərif oğlu Əfəndiyev

filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1928)

20 avqust 1928-ci ildə Qax rayonunun İlisu kəndində anadan olub. 1946 -cı ildə Qax şəhərindəki orta məktəbi medalla bitirib. 1946-1950 -ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil alıb. Təhsilini fərqlənmə diplomu ilə başa vurduğuna görə ADPİ-nin Azərbaycan ədəbiyyatı tarixi və onun metodikası kafedrasına aspirant qəbul edilib. 1953-cü ildə Ədəbiyyat və onun tədrisi metodikası kafedrasına müəllim təyin edilib. 1955-ci ildə "Koroğlu" -Azərbaycan xalqının qəhrəmanlıq eposu kimi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1955-ci ildə Ədəbiyyat və onun tədrisi metodikası kafedrasında dosent vəzifəsinə seçilib. 1961-1966-cı illərdə Azərbaycan dili və ədəbiyyatı fakültəsinin qiyabi şöbəsinin dekanı olub. 1974-cü ildə "Azərbaycan folklorşünaslığının tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Azərbaycan ədəbiyyatı tarixi kafedrasında professor vəzifəsinə seçilib. 1981-1983-cü illərdə Filologiya fakültəsinin dekanı, 1983-1998-ci illərdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifələrində çalışıb. 1998-2013-cü illərdə Azərbaycan və dünya ədəbiyyatı,

Folklor və qədim ədəbiyyat kafedralarında professor, Dədə Qorqud ETL-də baş elmi işçi vəzifəsində çalışıb. 2002-2014-cü illərdə AMEA-nın Folklor İnstitutunun Azərbaycan folklorşünaslığı şöbəsində əvəzçiliklə aparıcı elmi işçi kimi fəaliyyət göstərib. Onun elmi rəhbərliyi ilə 10 nəfər elmlər namizədi, elmi məsləhətçiliyi ilə 4 nəfər elmlər doktoru yetişib.

30 monoqrafiya, dərslik, dərs vəsaiti, 200-dən çox elmi-metodiki məqaləsi nəşr olunub. "Molla Cümə. Şeirlər" (1966), "Molla Cümə. Seçilmiş əsərləri" (1983), "C.Cabbarlı və xalq ədəbiyyatı" (1985), "Xalqın söz xəzinəsi" (1985), "Səməd Vurğun və xalq yaradıcılığı" (1992), "Azərbaycan folklorşünaslığının problemləri" (4 cilddə) "Azərbaycan folklorşünaslığı. 1920-ci ilə qədər" (1994), "Molla Cümə. Əsərləri" (1995), "Azərbaycan folklorşünaslığı (1920-30-cu illər)" (1997), "Azərbaycan folklorşünaslığı (1940-1960-cı illər)" (1998), "Dastan yaradıcılığı" (1999), "Azərbaycan folklorşünaslığı" (2000), "Azərbaycan folklorşünaslığı (müntəxabat)" (2000), "Azərbaycan folklorşünaslığının problemləri". I, II, III, IV, V kitab. (2003, 2004, 2005, 2010, 2011), "Azərbaycan folklorşünaslığının tarixi" (2006), "Molla Cümə" (2006) "Molla Cümə (həyat və yaradıcılığı)" (2017), "Folklorşünaslıq məsələləri" (2018) və s. kitabları çap olunmuşdur. P.Əfəndiyevin 1970, 1981, 1992, 2007, 2012, 2013-cü illərdə əlavə və dəyişikliklərlə çap olunan "Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliyi 45 ildir ki, tələbələrin stolüstü kitabıdır. Avtobioqrafik xarakter daşıyan "63 il institut divarları arasında" (2009) kitabının müəllifidir.

2007-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Tamuris Nağı qızı Əliyeva

pedaqoji elmlər doktoru, professor
(1928-2008)

19 fevral 1928-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1946-cı ildə Bakı şəhərində orta məktəbi bitirmişdir. 1946-1951-ci illərdə ADU-nun Şərqşünaslıq fakültəsində, 1949-1953-cü illərdə Xarici Dillər İnstitutunda təhsil almışdır. 1949-1950-ci illərdə Bakı şəhərindəki 67 №-li orta məktəbdə, 1950-1951-ci illərdə 57 №-li orta məktəbdə, 1951-1952-ci illərdə 30 №-li orta məktəbdə, 1952-1956-cı il-

lərdə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunda müəllim işləmişdir. 1956-1960-cı illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda milli məktəblərdə rus dilinin tədrisi metodikası ixtisası üzrə aspiranturada təhsil alıb. 2 iyun 1961-ci ildə RSFSR PEA-nın Ümumi və Politexnik Təhsil Elmi-Tədqiqat İnstitutunun Müdafiə Şurasında dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alıb.

SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 13 noyabr 1961-ci ildə pedaqoji elmlər namizədi elmi dərəcəsi, 21 fevral 1968-ci ildə isə Rus dili kafedrası üzrə dosent elmi adı verilmişdir. 1960-1965-ci illərdə Azərbaycan ETPEİ-də əvvəlcə kiçik elmi işçi, sonra baş elmi işçi vəzifələrində işləyib. 1965-ci ildə M.Ə.Əzizbəyov adına Neft və Kimya İnstitutunda rus dili kafedrasında baş müəllim işləyib. 1966-cı ildə müsabiqə yolu ilə V.İ.Lenin adına ADPİ-nin Rus dili kafedrasının müdiri vəzifəsinə seçilmişdir. Kafedrada baş müəllim (1966-1972), dosent (1972-1987), professor (1987-2008) vəzifələrində işləmişdir.

12 aprel 1985-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona pedaqoji elmlər doktoru elmi dərəcəsi, 16 may 1986-cı ildə isə Rus dili kafedrası üzrə professor elmi adı verilmişdir. 1966-cı ildən 2006-cı ilə qədər ADPU-nun Rus dili kafedrasının müdiri olmuşdur. 2007-ci ildən həmin kafedrada professor-məsləhətçi vəzifəsinə keçirilmişdir.

"Azərbaycan SSR xalq maarif əlaçısı", "SSRİ xalq maarif əlaçısı" döş nişanları, "Şərəfli əmək" medalı, Azərbaycan və SSRİ Maarif Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir.

Rus dilinin tədrisi məsələləri ilə bağlı Rusiya, Almaniya, Hollandiya, Fransa, Lüksemburq, Polşa, Bolqarıstan, Gürcüstan və Özbəkistanda keçirilən konfransların iştirakçısı olmuşdur. Rus dilinin tədrisi metodikası ilə bağlı 8 kitabın, dərslik, dərs vəsaitinin, 100-dən artıq elmi məqalənin müəllifidir. O, uzun müddət ümumtəhsil məktəbləri üçün "Rus dili" dərsliyinin müəllifi olub. Elmi rəhbərliyi ilə 5 nəfər namizədlik dissertasiyası müdafiə edib.

2008-ci ilin fevral ayında Bakı şəhərində vəfat edib.

Türkan Əşrəf qızı Əfəndiyeva
filologiya elmləri doktoru, professor
(1929)

7 mart 1929-cu il Bakı şəhərində anadan olmuşdur. 1936-1941-ci illərdə Bakıda, 1941-1946-cı illərdə Şəkidəki 8 №-li məktəbdə, 1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Universitetinin Rus dili kafedrasında baş laborant kimi başlamışdır. Moskva Dövlət Universitetinin nəzdində açılmış ali məktəblər üçün dilçiliyin müxtəlif sahələri üzrə müəllim hazırlayan birillik kursun məzunu olmuşdur. 1953-1956 -cı illərdə MDU-nun Türk dilləri kafedrasının aspirantı olmuş, 1959-cu ildə MDU-nun nəzdindəki Şərq Dilləri İnstitutunun Böyük Elmi Şurasında "Müasir Azərbaycan ədəbi dilində feilin keçmiş zaman formalarının sistemi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunda kiçik elmi işçi, baş elmi işçi vəzifələrində işləyib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona 18 noyabr 1965-ci ildə Müasir Azərbaycan dili ixtisası üzrə baş elmi işçi adı verilib.

1973-cü ildə Azərbaycan EA-nın İctimai elmlər bölməsinin Elmi Şurasında "Azərbaycan dilinin leksik üslubiyyatı (bədii üslub)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 12 dekabr 1975-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona filologiya elmləri doktoru elmi dərəcəsi verilib. 1976-1980-ci illərdə ADU-nun təbiət fakültələrinin Rus dili kafedrasına, 1981- 1987-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Səhnə danışığı və nitq mədəniyyəti kafedrasına rəhbərlik edib. 12 avqust 1983-cü ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona Səhnə danışığı və nitq mədəniyyəti kafedrası üzrə professor elmi adı verilib. 1987-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin razılığı ilə ADPİ-nin İbtidai siniflərdə rus dili kafedrasına professor vəzifəsinə təyin olunub.

1992-1993-cü illərdə İstanbulun Mərmərə Universitetinin dəvəti ilə orada çalışmış, Azərbaycan dili və ədəbiyyatından mühazirələr oxumuş, rus dilindən dərs demişdir. 1993-1997-ci illərdə ADPİ-nin İbtidai siniflərdə rus dili

kafedrasında tam ştat, 1997-2006-cı illərdə isə əvəzçiliklə professor vəzifəsində çalışmışdır. 1997-ci ildən Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb. Azərbaycan Yazıçılar Birliyinin üzvü olub. 2005-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub.

O, 1989-1996-cı illərdə İstanbul, Kayseri, Ankara, Bodrum şəhərlərində Uluslararası Türk dil konqresində, XI Türk tarix konqresində məruzələrlə çıxış edib.

Onun 100-ə yaxın monoqrafiya, dərslik, dərs vəsaiti və elmi məqalələri ana dilimizin leksikologiyası, morfologiyası, üslubiyyatı, bədii üslub, məcazlar sistemi, poetika məsələlərini və nitq mədəniyyətini əhatə edir. Prof.Türkan Əfəndiyeva AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, Azərbaycan Səfəvişünaslıq məktəbinin banisi Oqtay Əfəndiyevin həyat yoldaşıdır. Hazırda Şimali Kipr Türk Cümhuriyyətində yaşayır.

Mürsəl İsmayıl oğlu Həkimov

filologiya elmləri doktoru, professor

(1929-2006)

20 may 1929-cu ildə Qazax rayonunun Kəmərli kəndində anadan olmuşdur. 1937-1947-ci illərdə Kəmərli kənd orta məktəbində təhsil almışdır. 1947-1949-cu illərdə Qazax ikiillik Müəllimlər İnstitutunun Dil-ədəbiyyat fakültəsində oxumuşdur. 1949-1950-ci illərdə Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Babacan kənd yeddiillik məktəbində dil-ədəbiyyat müəllimi, dərs hissə müdiri işləmişdir. 1950-ci ilin yanvar-may aylarında Gürcüstan Respublikasının Marneuli (Borçalı) rayonunun Aşağı Saral kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir. Üç illik hərbi xidmətdən sonra yenə də həmin kəndə qayıdaraq pedaqoji fəaliyyətini davam etdirmişdir. 1955-1960-cı illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsində təhsil almışdır. 1960-1964-cü ildə Pedaqoji İnstitutda tədris hissə müdiri, 1964-1965-ci illərdə Azərbaycan ədəbiyyatı tarixi və onun metodikası kafedrasında laborant, 1966-1980-ci illərdə Filologiya fakültəsində dekan müavini, dekan əvəzi vəzifələrində çalışmışdır Azərbaycan KP MK nəzdində 1977-1979-cu illərdə Marksizm-Leninizm Universitetində təhsil almış və oranı

fərqlənmə diplomu ilə bitirmişdir. ADPU-da laboratoriya müdiri vəzifəsində işləmişdir (1990-2002). 2003-cü ildə ADPU-da müəllimlik fəaliyyətinə xitam verilsə də, "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyasında baş elmi işçi kimi ömrünün axırına qədər fəaliyyətini davam etdirmişdir.

2002-2006-cı illərdə AMEA-nın Folklor İnstitutunun Aşıq yaradıcılığı şöbəsinin aparıcı elmi işçisi olmuşdur. "Hüseyn Cavanın həyat və yaradıcılığı" mövzusunda namizədlik (1965), "Orta əsrlər aşıq yaradıcılığı" mövzusunda doktorluq (1986) dissertasiyası müdafiə etmişdir. Folklorşünaslar cəmiyyətinin (1977-1992), Türkiyədə Atatürk kültür dil və tarix yüksək dil qurumunun (1988) üzvü olmuşdur. 27 iyul 1987-ci ildə SSRİ Xalq Təhsili üzrə Dövlət Komitəsi tərəfindən ona professor elmi adı verilib. ADPU-da Azərbaycan şifahi xalq ədəbiyyatı, Qədim ədəbiyyat, Orta əsrlər aşıq yaradıcılığı, Aşıq yaradıcılığının inkişaf mərhələləri fənlərindən mühazirələr oxumuşdur.

1967-2004-cü illərdə ADPU-nun Filologiya fakültəsinin Elmi şurasının, 1997-2000-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda ixtisaslaşmış Müdafiə Şurasının üzvü olmuşdur. Xalq ədəbiyyatının, aşıq yaradıcılığı nümunələrinin toplanması, nəşri və tədqiqi sahəsində əvəzsiz xidmətləri olmuşdur.

"Azərbaycan şifahi xalq ədəbiyyatından xüsusi kurs" (1975), "Azərbaycan klassik aşıq yaradıcılığı" (1982), "Azərbaycan aşıq ədəbiyyatı" (1983), "Aşıq şeirinin növləri" (1987), "Bayatılar" (1991), "Elat bayatıları" (1996), "Azərbaycan aşıq şeir şəkilləri və onun qaynaqları" (1999), "Aşıq şeirinin poetikası" (2004) kitabları nəşr olunmuşdur. Xalq ədəbiyyatının toplayıcısı kimi də böyük işlərə imza atmışdır. "Mirzə Bayramov" (1968), "Aşıq Alı. Şeirlər" (1982), "Ustad aşıqlar" (1983), "Aşıq şeirindən seçmələr" (1984), "Xalqımızın deyimləri və duyumları" (1986), "Novruz mərasimi və meydan tamaşaları" (1991), "Azərbaycan xalq dastanları, əfsanə-əsatir və nağıl deyimləri" (1999), "Yuxu yozumları, türkəçarələr, inam və etiqadlar" (2002) və s. toplama kitabları vardır. 16 monoqrafiya, dərslik və dərs vəsaiti, 200-dən çox elmi-publisistik məqaləsi nəşr olunmuşdur.

15 aprel 2006 -cı ildə Bakıda vəfat etmişdir.

Həsən Balı oğlu Balıyev
pedaqoj elmlər namizədi, professor
Əməkdar müəllim
(1929 - 2009)

13 sentyabr 1929-cu ildə Zəngəzur mahalının, Mehri rayonunun, Toğud kəndində anadan olub. Əlidərə kənd orta məktəbini (1946), Kirovabad Dövlət Pedaqoji İnstitutunun (Gəncə Dövlət Universitetinin) Dil-ədəbiyyat fakültəsini bitirib (1946-1950). Zəngilan rayonunun Zəngilan kənd orta məktəbində müəllim (1950-1954), Bartaz kənd orta məktəbində direktor (1954), Zəngilan rayonundakı "26-lar" kolxozunun sədri (1954-1957), Ordubad rayonunun Aza kənd orta məktəbində müəllim, dərs hissə müdiri (1957-1959) vəzifələrində işləyib. 1959-1962-ci illərdə ADPİ-nin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının aspirantı olub. 28 fevral 1963-cü ildə ADPİ-nin Elmi Şurasında "Səkkizillik məktəb şagirdlərinin nitqinin üslubca zənginləşdirilməsi yolları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 20 iyul 1963-cü ildə ona pedaqoji elmlər namizədi elmi dərəcəsi, 20 iyul 1966-cı ildə Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə dosent, 8 iyun 1984-cü ildə həmin kafedra üzrə professor elmi adı verilmişdir. Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında müəllim, baş müəllim, dosent (1966-1984), professor (1984-2009), müdir (1979-1997, 2005-2009), Filologiya fakültəsinin dekanı (1997-2005) vəzifələrində çalışmışdır. 1966-1970-ci illərdə Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda işləmişdir. 2005-ci ildə ADPU-da keçirilən "İlin müəllimi" müsabiqəsinin (I yer) qalibi olub. 2006-cı ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

Həsən Balı oğlu Balıyev 50 monoqrafiya, dərslik və dərs vəsaitinin, kitab və kitabçanın, 10 proqramın, 200-dən artıq elmi-metodiki məqalənin müəllifi olub. Haqqında dos.Pəri Paşayevanın "Həsən Balıyev" (2009) kitabı nəşr olunub.

30 mart 2009-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Məmməd Mahmud oğlu Məmmədov
filologiya elmləri doktoru, professor
(1930-2006)

20 mart 1930-cu ildə Qazax rayonunu I Şıxlı kəndində anadan olub. 1937-1947-ci illərdə I Şıxlı kənd orta məktəbində, 1947-1952-ci illərdə S.M.Kirov adına ADU-nun Filologiya fakültəsində təhsil alıb. 1952-1956-cı illərdə V.İ.Lenin adına ADPİ-nin Azərbaycan ədəbiyyatı ixtisası üzrə aspirantı olub. Aspiranturanı bitirdikdən sonra Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi (1956-1960), baş elmi işçi (1960-1970) vəzifələrində çalışıb. 1958-ci ildə "Cəlil Məmmədquluzadənin bədii nəsri" mövzusunda namizədlik, 1969-cu ildə "Mirzə Ələkbər Sabir və Azərbaycan demokratik mətbuatı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona 20 dekabr 1958-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsi, 21 avqust 1960-cı ildə SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi yanında AAK tərəfindən baş elmi işçi elmi adı verilib. 1970-ci ildən ömrünün sonuna kimi Pedaqoji İnstitutda çalışıb. 1970-ci ildə Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasına dosent, 1971-ci ildə professor vəzifəsinə seçilib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 10 oktyabr 1975-ci ildə professor elmi adı verilib. 1976-1982-ci illərdə ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasına, 1983-1997-ci illərdə Məktəbəqədər tərbiyə fakültəsinə rəhbərlik edib. 1982-1991-ci illərdə ADPU-nun nəzdində fəaliyyət göstərən filologiya ixtisası üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olub.Elmi rəhbərliyi ilə 6 nəfər namizədlik dissertasiyası müdafiə edib ki, indi onlardan 3 nəfəri elmlər doktorudur.

"Şair-vətəndaş" (1962), "Cəlil Məmmədquluzadənin bədii nəsri" (1962), "İdeal qardaşları" (1967), "Sabir və məktəb" (1968), "Sabir və mətbuat" (1974), "Sabir:mübahisələr, həqiqətlər" (1990), "Pedaqoji mühit və uşaq ədəbiyyatı"(şərikli) (1992) monoqrafiyalarının, 100-dən artıq elmi və publisistik məqalənin müəllifi olub.

9 aprel 2006-cı ildə Bakı şəhərində vəfat edib.

Kamal Oğlan oğlu Dadaşov
filologiya elmləri namizədi, professor
(1931)

10 yanvar 1931-ci ildə Lənkəran rayonunun Aşağı Nüvədi kəndində anadan olmuşdur.1939-1946-cı illərdə kənddəki 7 illik məktəbdə, 1946-1950-ci illərdə Gərmətük kəndində orta təhsil almışdır. 1950-1954-cü illərdə Azərbaycan Xarici Dillər İnstitutunun Fransız dili və ədəbiyyatı fakültəsində təhsil alıb. 1954-1956-cı illərdə institutda laborant,1956-1961-ci illərdə Lənkəran rayonunun Nərimanabad qəsəbə məktəbində müəllim, 1961-1963-cü illərdə Kənarmeşə 8 illik məktəbində tədris hissə müdiri və direktor vəzifələrində işləmişdir. 1963-1966-cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun aspiranturasında (fransız dili) oxumuşdur. 1966-1967-ci illərdə Fransız dili kafedrasında müəllim, 1967-1968-ci illərdə baş müəllim və Avropa dilləri fakültəsində dekan mavini, 1968-1973-cü illərdə həmin kafedranın dosenti olmuşdur. 1969-cu ildə "Fransız dilinin fonetikası (Azərbaycan dili ilə müqayisədə)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1973-1986-cı illərdə SSRİ-nin 50 illiyi adına Xarici Dillər İnstitutunun Fransız dili kafedrasının müdiri olmuşdur. Fransız dilinin leksikologiyası və üslubiyyatı kafedrasının professoru olmuşdur. 18 mart 1970-ci ildə ona SSRİ AAK-ı tərəfindən ona filologiya elmləri namizədi elmi dərəcəsi, 7 avqust 1973-cü ildə dosent elmi adı, 1992-ci ildə professor elmi adı verilmişdir.

Pedaqoji Universitetdə fransız dili müəllimlərinin hazırlığı ilə əlaqədar olaraq Xarici dillər və onun tədrisi metodikası kafedrasına işə dəvət olunmuşdur. Fransız dilinin fonetikası ilə bağlı 3 dərslik və dərs vəsaitinin, proqramların və 50-dən artıq elmi məqalənin müəllifidir.

9 sentyabr 2016-cı ildə öz ərizəsi ilə Xarici dillər və onun tədrisi metodikası kafedrasının professoru vəzifəsindən azad olunmuşdur.



Xəlil Rza oğlu Xəlilov (Ulutürk)
filologiya elmləri doktoru, Xalq şairi,
Əməkdar incəsənət xadimi
(1932-1994)

1932-ci ildə (bəzi mənbələrdə 1933) oktyabr ayının 21-də Salyan qəzasının Pirəbbə kəndində anadan olmuşdur. 2 №-li şəhər orta məktəbində təhsil almışdır. Salyan şəhər kitabxanasının ədəbiyyat dərnəyinin üzvü olmuşdur. 1949-1954 -cü illərdə ADU-nun Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. 1957-1959-cu illərdə Moskvanın Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda oxumuşdur. 1963 -cü ildə "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1954-cü ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilib. 1950-1960 -cı illərdə Azərbaycan Pedaqoji İnstitutunda baş müəllim,1963-1964-cü illərdə dosent vəzifəsində çalışmışdır.1964-1994 -cü illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda işləmişdir. 1985 -ci ildə "Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan - Özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Azərbaycanda milli-azadlıq hərəkatında fəal iştirakına görə 26 yanvar 1990-cı ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən həbs edilmiş, Bakı, Moskva, Rostov, Voronej zindanlarında 8 ay 13 gün həbsdə olmuşdur. 1991 -ci ildə Azərbaycan Ali Sovetinə seçkilərdə iştirak etmiş, millət vəkili seçilsə də, deputatlıqdan məhrum edilmişdir. Həmin ildə "Türk milləti" milli mükafatına layiq görülmüşdür. Xəlil Rza Ulutürk "Davam edir 37" şeirinə görə M.F.Axundov mükafatı laureatı adına layiq görülmüşdür. O, 36 bədii, 15 tərcümə, 13 elmi, 7 memuar kitabın müəllifidir. Haqqında 9 elmi kitab çap olunub. 1986 -cı ildə Əməkdar incəsənət xadimi, 1992 -ci ildə Xalq şairi fəxri adlarına layiq görülmüşdür. 1994 -cü ilin iyun ayının 22-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir. 1995 –ci ildə ölümündən sonra, aprel ayının 15-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "İstiqlal" ordeni ilə təltif edilmiş, "Türkiyə Respublikasının Milli şairi" adına layiq görülmüşdür.1995-ci ildə anadan olmasının 60, 2004-cü ildə 70, 2012-ci ildə isə 80 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur.

Əlisa Cəbrayıl oğlu Şükürov
filologiya elmləri doktoru, professor
(1932- 2007)

29 aprel 1932-ci ildə Sabirabad rayonunun Ulacalı kəndində anadan olub. 1940-1950-ci illərdə Ulacalı kənd orta məktəbində təhsil alıb. 1951-1954-cü illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. 1955-1960-cı illərdə S.M.Kirov adına ADU-nun Filologiya fakültəsində təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə bitirən Ə.Şükürov 1961-ci ilin mart ayının 1-də Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlayıb. 1962-ci ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun aspiranturasına daxil olub. SSRİ EA Asiya Xalqları İnstitutunun Leninqrad şöbəsinə ezam olunub. 1966-cı iyun ayına kimi A.N.Kononovun elmi rəhbərliyi ilə aspirantura hazırlığı keçib.

26 noyabr 1966-cı ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda "Azərbaycan dilində zərf" (tarixi aspektdə) mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən 19 aprel 1967-ci ildə ona filologiya elmləri namizədi elmi dərəcəsi verilmişdir. 1968-ci ildən Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda əvvəlcə kiçik elmi işçi, sonra baş elmi işçi vəzifəsində çalışmışdır. 27 dekabr 1968-ci ildə V.İ.Lenin adına ADPİ-nin Azərbaycan dilçiliyi kafedrasına baş müəllim,1970-ci ilin oktyabrın 9-da dosent vəzifəsinə seçilmişdir. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən 1 iyun 1972-ci ildə ona "Azərbaycan dilçiliyi" ixtisası üzrə dosent elmi adı verilmişdir. 1969-cu ildə "Qədim türk yazılı abidələrinin dili" adlı xüsusi kurs yaratmış 20 ilə yaxın həmin kursu ADPİ-nin Filologiya fakültəsində tədris etmişdir. 1987-ci ildə "Azərbaycan dilində köməkçi nitq hissələrinin fonomorfoloji inkişafı tarixi" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. 11 mart 1988-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona filologiya elmləri doktoru elmi dərəcəsi, 31 may 1990-cı ildə professor elmi adı verilmişdir. 1996-cı ilin mart ayına kimi ADPU-nun Azərbaycan dilçiliyi kafedrasında professor vəzifəsində çalışmışdır. 1995-1996-cı illərdə əvəzçiliklə

Lənkəran Dövlət Universitetinin Türkologiya kafedrasına rəhbərlik etmişdir. 1996-1997-ci illərdə Türkiyənin Qars şəhərində, Qafqaz Universitetinin Fən-Ədəbiyyat fakültəsinin Türk dili və ədəbiyyatı bölümündə professor vəzifəsində çalışmışdır. Bakıda Naxçıvan Universitetinin Ədəbiyyat fakültəsində, Türkiyənin Bakıdakı Qafqaz Universitetinin Fən-Ədəbiyyat fakültəsində professor vəzifəsində çalışmışdır. Türk Dil Qurumunun fəxri üzvü olmuşdur.

"Qədim türk yazılı abidələrinin dili" (1976), "Qədim türk yazılı abidələrinin dili" (1993), "Müasir Azərbaycan dili" (həmmüəllif) (1980), "Azərbaycan dilində köməkçi nitq hissələri (Zərf)" (1984), "Gəncəli Nizamidə türkçülük" (2002) adlı kitabların və 300-ə yaxın elmi və publisistik məqalənin müəllifidir.

2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Cəfər Əsəd oğlu Cəfərov

filologiya elmləri doktoru, professor,
Əməkdar müəllim
(1932)

1932-ci ilin iyulun 1-də Qərbi Azərbaycanın Əştərək rayonunun Hamamlı kəndində anadan olmuşdur.1945-ci ildə Hamamlı kənd 7 illik məktəbini, 1948-ci ildə İrəvan Azərbaycan Pedaqoji Texnikumunu bitirmişdir. 1948-ci ildə Hamamlı kənd 7 illik məktəbində pedaqoji fəaliyyətə başlamışdır. 1948-ci ildə Cəfər müəllimin ailəsi, əksər azərbaycanlı ailələr kimi, deportasiyaya məruz qalaraq Azərbaycan Respublikasının Salyan rayonuna köçürülmüşdür.1950-1952-ci illərdə Qazax Müəllimlər İnstitutunda oxumuşdur. 1953-cü ildə Salyan şəhər 4 №-li məktəbdə dil və ədəbiyyat müəllimi işləmiş, 1953-1958-ci illərdə ADPİ-nin Filologiya fakültəsində ali təhsil almışdır. 1958-1960-cı illərdə Mirbəşir (Tərtər) rayonunun Qaradağlı kənd orta məktəbinə dil və ədəbiyyat müəllimi işləmişdir. 1960-1963-cü illərdə ADPİ-nin Dilçilik kafedrasının aspirantı olmuşdur. Aspiranturanı bitirdikdən sonra institutda dispetçer (1963-1964), Azərbaycan dilçiliyi kafedrasında müəllim və baş müəllim (1964-1969), dosent (1969-1973) vəzifəsində işləmişdir.

1965-ci ildə namizədlik, 1992- doktorluq dissertasiyası müdafiə etmişdir.

1994-cü ildə Müasir Azərbaycan dili kafedrasına professor vəzifəsinə se-

çilmişdir. O, Müasir Azərbaycan dilinin nəzəri və praktik problemlərinə, xüsusilə leksikologiya və morfologiyaya aid 6 monoqrafiya, dərslik və dərs vəsaitinin, 100-ə qədər elmi məqalənin müəllifidir.

Uzun müddət BDU-nun nəzdində filologiya və jurnalistika üzrə elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təşkil edilən Dissertasiya Şurasının üzvü olub, "Qabaqcıl təhsil işçisi" döş nişanına (2006) və Əməkdar müəllim (2012) fəxri adına layiq görülüb.

Quşdan Əmikişi oğlu Bağırov

filologiya elmləri doktoru, professor

(1933-1994)

1933-cü ildə Naxçıvan MSSR Şahbuz rayonunun Kükü kəndində anadan olub. 1940-1949 -cu illərdə doğma kəndlərindəki məktəbdə doqquzillik təhsil alıb. 1950-ci ildə Şahbuz rayonunun Şahbuz kəndində X sinifdə oxuyub. 1950-1952-ci illərdə C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunun Dil-ədəbiyyat fakültəsində təhsil alıb. 1952-1955-ci illərdə Şahbuz rayonu Kükü kənd orta məktəbinin V-VIII siniflərində dil-ədəbiyyat fənlərini tədris edib. 1955-1960-cı illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix-filologiya fakültəsində ali təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə bitirib. Təhsil illərində (1958-1960) institut tələbə həmkarlar təşkilatının sədri olub. 1960-cı ildə Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən dil-ədəbiyyat və tarix müəllimi vəzifəsində işləmək üçün ADPİ-nin sərəncamına göndərilib və Tarix-filologiya fakültəsi üzrə məsləhət məntəqə müdiri vəzifəsinə təyin olunub.1962-1966-cı illərdə ADPİ-nin Azərbaycan dilçiliyi kafedrasının Azərbaycan dialektologiyası ixtisası üzrə qiyabi aspirantı olub.5 mart 1967-ci ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Şurasında "Ermənistan SSR Sisyan rayonu Azərbaycan şivələri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 7 iyun 1967-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona filologiya elmləri namizədi elmi dərəcəsi verilib. 1967-ci ildə Azərbaycan dilçiliyi kafedrasında müəllim vəzifəsinə seçilib. 1970-1979 -cu illərdə Filologiya fakültəsinin dekan müavini vəzifəsində işləyib. 17 oktyabr 1970-ci ildə Azərbaycan dilçiliyi kafedrasına dosent vəzifəsinə seçilib. 28 aprel 1972-ci ildə SSRİ Ali və Orta İxtisas

Təhsili Nazirliyi yanında AAK tərəfindən ona dosent elmi adı verilib. 13 mart 1992-ci ildə doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi alıb. 23 oktyabr 1992-ci ildə Azərbaycan dilçiliyi kafedrasında professor vəzifəsinə seçilib. 15 iyul 1993-cü ildə Rusiya Federasiyası Təhsil Nazirliyinin qərarı ilə ona Müasir Azərbaycan dili kafedrası üzrə professor elmi adı verilib.

"Bədii əsərlərdə danışıq dilinin qrammatik xüsusiyyətləri" (1978), "Ədəbiyyat dərsliklərində təsadüf olunan çətin sözlərin izahlı lüğəti" (1983), "Azərbaycan nəsrində danışıq xüsusiyyətləri" (1987), "Azərbaycan bədii nəsrində danışıq dilinin leksik və qrammatik xüsusiyyətləri" (1991), "Müasir Azərbaycan ədəbi dilinə dair praktikum" (1996) adlı dərslik və dərs vəsaitlərinin, 70-dən artıq elmi-metodiki məqalənin müəllifi olub.

19 oktyabr 1994 -cü ildə Bakı şəhərində vəfat edib.

Firidun Cəlal oğlu Hüseynov

filologiya üzrə elmlər doktoru, professor
(1933-1986)

1933-cü ildə Naxçıvan MSSR Şahbuz rayonunun Nurs kəndində anadan olmuşdur. Nurs kəndində ibtidai məktəbi, Şahbuz rayon mərkəzində orta məktəbi bitirmişdir.1952-1954-cü illərdə C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunun Dil-ədəbiyyat fakültəsini, 1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1959-1961-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda çalışmışdır. ADU-nun aspiranturasını bitirmiş, 1964-cü ildə "Əli Nəzminin yaradıcılığı" mövzusunda namizədlik, 1978-ci ildə "C.Məmmədquluzadə nəsrində əsas problemlər" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1979-cu ildə ADU-da Azərbaycan Ədəbiyyatı tarixi kafedrasına professor seçilmiş, Filologiya fakültəsinin dekanı vəzifəsində işləmişdir.

"Molla Nəsrəddin" satirik ədəbi məktəbi F.Hüseynovun araşdırmalarının əsas obyekti olmuşdur. "Əli Nəzmi" (1970), "Adi əhvalatlarda böyük həqiqətlər" (1977), "Satirik gülüşün qüdrəti" (1982), "Molla Nəsrəddin" və mollanəsrəddinçilər" (1986) monoqrafiyalarının və 150-yə yaxın elmi məqalənin müəllifi olmuşdur. O, mollanəsrəddinçi şair Əli Nəzminin "Seçilmiş əsər-

ləri”ni (1979) nəşr etdirmişdir. Görkəmli alim mollanəsrəddinçilərin əsas yer tutduğu “XX əsr Azərbaycan ədəbiyyatı” dərsliyinin müəlliflərindən biridir.

1986-cı il avqustun 31-də Bakı şəhərində vəfat etmişdir.

Tağı Teymur oğlu Xalisbəyli

filologiya elmləri doktoru, professor
(1933-1994)

1933-cü ildə Naxçıvan MSSR Ordubad rayonunun Nüsnüs kəndində anadan olub. 1940-1947-ci illərdə Nüsnüs kənd 7 illik məktəbində, 1947-1952-ci ildə S.M.Kirov adına Ordubad Pedaqoji Texnikumunda, 1952-1956-cı illərdə V.İ.Lenin adına ADPİ-nin Dil-ədəbiyyat fakültəsində təhsil alıb. 1956-1957-ci illərdə Buet kənd beynəlmiləl orta məktəbində müəllim, 1957-1958-ci illərdə tədris hissə müdiri vəzifəsində işləyib. 1959-1961-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Arxiv İdarəsində baş inspektor-baş elmi işçi vəzifəsində çalışıb. 1961-1962-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Təbiyyat fakültəsində, 1962-1963-cü illərdə Dil-ədəbiyyat fakültəsində məsləhət məntəqə müdiri olub. 15 sentyabr 1963-cü ildə V.İ.Lenin adına ADPİ-nin tədris hissə müdiri vəzifəsinə təyin olunub. Bir müddət Dil-ədəbiyyat fakültəsi üzrə Naxçıvan məsləhət məntəqə müdiri olub.

1 sentyabr 1971-ci ildə ADPİ-nin Azərbaycan ədəbiyyat tarixi və ədəbiyyatın tədrisi metodikası kafedrasına müsabiqə yolu ilə müəllim seçilib. 5 mart 1973-cü ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Şurasında dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi alıb. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 8 iyun 1973-cü ildə ona filologiya elmləri namizədi elmi dərəcəsi, 2 noyabr 1997-ci ildə dosent elmi adı verilib. 1979-1981-ci illərdə V.İ.Lenin adına ADPİ-nin nəzdində fəaliyyət göstərən müəllimləri təkmilləşdirmə kursunun dekanı olub. 1991-ci ildə M.Ə.Rəsulzadə adına BDU-da “Nizami Gəncəvi və Azərbaycan şifahi xalq yaradıcılığı” mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 31 yanvar 1992-ci ildə SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona filologiya elmləri doktoru elmi dərəcəsi verilib. 22 may 1992-ci ildə Azərbaycan ədəbiyyatı kafedrasına professor vəzifəsinə seçilib. 19 noyabr 1992-ci ildə Rusiya Federasiya Ali Məktəb Elmi və Texniki

Siyasət Nazirliyi tərəfindən ona professor elmi adı verilib.“Məhəbbət və xalq abidəsi” (1989), “Nizami Gəncəvi və Azərbaycan şifahi xalq ədəbiyyatı” (1988), “Nizami Gəncəvi və Azərbaycan folkloru” (1990), “Nizami Gəncəvi və Azərbaycan qaynaqları” (1991) adlı kitabları və 50-dən çox elmi məqaləsi nəşr olunub. 9 dekabr 1981-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi Kollegiyasının qərarı ilə “Fəxri Fərman”la təltif olunub.

28 dekabr 1994-cü ildə Bakı şəhərində vəfat edib.

Abbas Məhəmməd oğlu Hacıyev
filologiya elmləri doktoru, professor
(1933-2011)

1933-cü il yanvarın 1-də Gürcüstanın Marneuli rayonunun Sarvan kəndində anadan olmuşdur. Sarvan kənd 1№-li orta məktəbini bitirdikdən sonra, 1948-1952 -ci illərdə Borçalı Pedaqoji Texnikumunda təhsil almışdır. 1952-1957 -ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində oxumuşdur. Tələbəlik dövründə Nizami Gəncəvi adına təqaüd almış, fakültə partiya bürosunun üzvü olmuşdur.

Pedaqoji fəaliyyətə 1957-ci ildə Marneulidə başlamışdır. 1957-1958-ci illərdə Gürcüstan KP Marneuli rayon komitəsində təlimatçı, 1959-1961-ci illərdə Marneuli rayon komsomol komitəsinin birinci katibi olmuşdur. 1961-ci ildə Gürcüstan SSR Marneuli rayon Sovetinə deputat seçilmiş, Gürcüstan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

1961-ci ildə Gürcüstanda tutduğu vəzifələrdən imtina edib Bakıya köçmüş, Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda tanınmış dövlət xadimi, yazıçı-alim Şıxəli Qurbanovun başçılıq etdiyi ədəbi əlaqələr şöbəsinin aspirantı (1961-1964) olmuşdur. Aspiranturada təhsil aldığı dövrdə Tiflis, Moskva, Sankt-Peterburqda uzunmüddətli elmi ezamiyyətlərdə olmuşdur. Prof.Mir Cəlal Paşayevin elmi rəhbərliyi ilə 1965-ci ildə “Tiflis ədəbi mühiti (1905-17-ci illər)” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1970-ci ildə akademik Kamal Talıbzadənin elmi məsləhətçiliyi ilə “Mirzə İbrahimovun yaradıcılıq yolu” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1973-cü ildə ona professor elmi adı verilmişdir.

1964-1974-cü illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda müəllim, baş müəllim, dosent, professor olmuş, 1974-1979-cu illərdə əvvəlcə Ədəbiyyat, sonra isə Azərbaycan dili və ədəbiyyatı kafedrasına rəhbərlik etmişdir. 1979-cu ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Pedaqoji Universitetində işləmiş, uzun müddət Azərbaycan ədəbiyyatı kafedrasının professoru və müdiri olmuşdur. Azərbaycan ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbiyyatşünaslığın əsasları, ədəbi tənqid və digər fənlərdən mühazirələr oxumuşdur. Müəllim və kafedra müdiri kimi yeni ədəbiyyatşünaslar nəslinin formalaşmasında böyük rol oynamışdır. Bir çox dissertasiya işlərinin elmi rəhbəri, məsləhətçisi, opponenti, rəyçisi olmuşdur.

Ayrı-ayrı vaxtlarda Azərbaycan Dövlət Universitetinin, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun, Nizami adına Dil və Ədəbiyyat İnstitutunun, Təhsil Problemləri İnstitutunun (Təhsil İnstitutu) nəzdindəki Müdafiə Şuralarının, Təhsil Nazirliyi Elmi-metodik Şurasının və digər qurumların üzvü olmuşdur.

Onun "Tiflis ədəbi mühiti" (1980), "Mirzə İbrahimov" (1982), "Tiflis Azərbaycan teatrı" (1984), "Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq" (1986), "Ədəbiyyatşünaslığın əsasları" (1988; 2005; 2009; 2010), "Sənətkarın yaradıcılıq fərdiliyi" (1990), "Bədii əsərin strukturu" (1992), "Ədəbi növlər və janrlar" (1994), "Ədəbiyyat nəzəriyyəsi" (1996), "Ədəbiyyatşünaslığın əsasları" (1999), "Tiflis Azərbaycan və Adıgün türk teatrı" (2006), "Həyat və ədəbi tale (ədəbi-tənqidi məqalələr)" (2008), "Ədəbi meyillər və cərəyanlar (2010), "Sənətin işığında" (2010) adlı monoqrafiya və dərslikləri nəşr olunmuşdur. 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

2011-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Nazim Hüseyn oğlu Əhmədov

pedaqoji elmlər namizədi, professor
(1933-1999)

4 noyabr 1933-cü ildə Qasım İsmayılov (Goranboy) rayonunun Borsunlu sovetliyinin Qazaxlar kəndində anadan olmuşdur. Qutqaşen (indiki Qəbələ) rayon mərkəzindəki məktəbi (1950), Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini (1955) bitirib. 1955-1957-ci illərdə Bakı şəhərindəki 129 №-li Bil-

gəh orta məktəbində dərs hissə müdiri, 1957-1958-ci illərdə Mingəçevir şəhərindəki 1 №-li orta məktəbdə dərs hissə müdiri, 1958-1965-ci illərdə Mingəçevir ŞXMŞ-nin inspektoru, 1965-1967 -ci illərdə Mingəçevir ŞXMŞ-nin müdiri, 1967- 1971-ci illərdə Sumqayıt ŞXMŞ-nin müdiri vəzifələrində çalışıb. Mingəçevir və Sumqayıt şəhər Xalq Deputatları sovetinin deputatı olub. Sonrakı illərdə Azərbaycan ETPEİ-də baş elmi işçi (1971-1977), ADPİ -nin Pedaqogika kafedrasında dosent (1977-1981), Xalq maarifini idarəetmənin təşkili kafedrasının müdiri (1981-1992), Azərbaycan Sənaye Universitetinin Mingəçevir filialında kafedra müdiri (1991-1996), San Marino Beynəlxalq Elmlər Akademiyası Akademik Mərkəzinin Azərbaycan filialında baş elmi məsləhətçi (prorektor) vəzifəsində işləyib.

24 fevral 1966-cı ildə ADPİ-nin Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 5 noyabr 1975-ci ildə baş elmi işçi adı verilib. 1988-ci ildə ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına professor vəzifəsinə seçilib. 22 fevral 1990-cı ildə SSRİ Xalq Təhsili Komitəsi yanında AAK tərəfindən ona professor elmi adı verilib. Azərbaycan dilinin tədrisi metodikası və məktəbşünaslıqla bağlı 40 dərslik, dərs vəsaiti, kitab və kitabçası, proqramı, 150-dən artıq elmi-metodiki və publisistik məqaləsi nəşr olunub.

30 yanvar 1999-cu ildə Bakı şəhərində vəfat edib.

İlyas Oruc oğlu Bayramov

pedaqoji elmlər namizədi, professor

(1934-1997)

1 yanvar 1934-cü ildə Gürcüstanın Marneuli rayonunun Təzəkənd kəndində anadan olub. İbtidai və yeddiillik təhsilini doğma kəndlərindəki məktəbdə alıb. 1947-1951-ci illərdə Marneuli Pedaqoji Texnikumunda, 1951-1955-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə bitirən İlyas Bayramov təyinatla Gürcüstan SSR Maarif Nazirliyinin sərəncamına göndərilib. 1955-1958-ci illərdə Gürcüstan SSR Marneuli rayonunun Geurax kəndində Azərbaycan dili və ədəbiyyatı müəllimi, 1958-1959-cu illərdə Təzəkənd 8 illik məktəbində direktor müavini işləyib.- 1960-1962-ci illərdə Azərbaycan ETPEİ-nin aspiranturasında təhsil alıb.

1962-1964-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında müəllim, 1964-1967-ci illərdə baş müəllim, 1967-1990-cı illərdə dosent vəzifəsində çalışıb. 18 noyabr 1963-cü ildə Pedaqoji İnstitutun Elmi Şurasında "Rus məktəblərinin III-IV siniflərində şagirdlərin azərbaycanca lüğət ehtiyatlarını zənginləşdirmək və şifahi nitqini inkişaf etdirmək yolları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 16 may 1964-cü ildə ona pedaqoji elmlər namizədi elmi dərəcəsi, 22 iyul 1970-ci ildə Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə dosent elmi adı verilmişdir. 16 mart 1990-cı ildə həmin kafedraya professor vəzifəsinə seçilib. SSRİ Xalq Təhsili Dövlət Komitəsi yanında AAK tərəfindən 26 dekabr 1991-ci ildə ona professor elmi adı verilmişdir.

Uzun müddət ADPİ-nin Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini olub. "Morfologiyanın tədrisinə dair metodik göstərişlər" (1974), "Qrammatik çalışmaların tipləri və onların aparılması metodikası" (1977), "Azərbaycan dilinin tədrisi metodikasından kurs işlərinə rəhbərlik və metodik göstərişlər" (1979), "Müasir Azərbaycan dilindən metodik göstərişlər" (1981), "Morfologiya tədrisinin elmi-metodik əsasları" (1982), "Azərbaycan dili morfologiyası tədrisinin elmi-metodik əsasları" (1983), "Müasir Azərbaycan dilindən praktikum" (1987), "Rus məktəblərində Azərbaycan dili üzrə nitq inkişafı metodikası" (1988) kitablarının və 70-dən artıq elmi məqalənin müəllifidir.

17 may 1997-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Arif Tahir oğlu Tahirov

pedaqoji elmlər namizədi, professor
(1934-1995)

6 mart 1934-cü ildə Xaldan rayonunun Havarlı kəndində (indiki Yevlax rayonu) anadan olub. İlk təhsilini Havarlı kənd yeddiillik məktəbində, orta təhsilini Mingəçevir şəhərində alıb. 1952-1955-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun İngilis dili fakültəsində təhsil alıb. İnstitutu bitirdikdən sonra təyinatla Mingəçevir şəhər orta məktəbinə ingilis dili müəllimi göndərilib. 1955-1962-ci illərdə Mingəçevir şəhər orta məktəbində ingilis dili müəllimi işləyib.

1962-ci ildə Azərbaycan SSR Maarif Nazirliyinin mərkəzi aparatına ingilis dili üzrə inspektor- metodist vəzifəsinə irəli çəkilib. 1964-cü ildə SSRİ-nin 50 illiyi adına Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun aspiranturasına (qiyabi) daxil olub. 22 dekabr 1971-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alıb. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin yanında AAK tərəfindən ona 25 fevral 1972-ci ildə elmlər namizədi elmi dərəcəsi, 30 noyabr 1977-ci ildə Xarici dillər kafedrası üzrə dosent elmi adı verilib.

1972-ci ildə V.İ.Lenin adına APİ-nin Xarici dillər kafedrasının müdiri vəzifəsinə seçilib. Elmi-pedaqoji fəaliyyətinə və elmi-metodiki yaradıcılığına görə ona 31 avqust 1984-cü ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən Xarici dillər kafedrası üzrə professor elmi adı verilib. ADPİ-də Xarici dillər kafedrasının elmi potensialının formalaşdırılmasında, elmi dərəcəlilərin tədrisə cəlb edilməsində onun mühüm xidmətləri olub. Elmi rəhbərliyi ilə 5 nəfər pedaqoji elmlər namizədi yetişmişdir.

15 il V.İ.Lenin adına APİ-nin Xarici dillər kafedrasına rəhbərlik edib. Səhhəti ilə əlaqədar olaraq 6 iyul 1987-ci ildə müdir vəzifəsindən azad olunub. 1987-1995-ci illərdə həmin kafedrada professor vəzifəsində çalışıb.

Respublikada peşəkar ingilis dili metodist alimi kimi tanınıb. Onun müəllifliyi, elmi redaktorluğu və rəyi əsasında ingilis dilinin tədrisi keyfiyyətinin yüksəlməsinə xidmət edən onlarla dərslik və dərs vəsaiti nəşr olunub. O, "İngilis dilində imla və ifadələr məcmuəsi" (1966), "Şifahi nitqin inkişafında təkrarın rolu" (1969), "İngilis danışıq dilində çalışmalar" (1969), "Təlimdə müasir texniki vasitələr və onların xarici dil dərslərinə tətbiqi" (1972), "Şagirdlərin şifahi nitqini inkişaf etdirmək yolları haqqında" (1975), "İngilis dilinin tədrisi metodikası" (1978), "İngilis dili" (ixtisası xarici dil olmayan ali məktəb tələbələri üçün fakültativ kurs) (1983), "English (ixtisası xarici dil olmayan pedaqoji institutların I-II kurs tələbələri üçün) (1983) dərslik və dərs vəsaitlərinin və ümumtəhsil məktəblərinin IV, V, IX, X sinifləri üçün "İngilis dili" dərsliklərinin müəlliflərindən biri olub. "Azərbaycan SSR maarif əlaçısı" döş nişanı və Fəxri Fərmanlarla təltif olunub.

1995-ci ildə Bakı şəhərində vəfat edib.

Nadir Əziz oğlu Abdullayev
pedaqogika üzrə fəlsəfə doktoru,
professor,
Əməkdar müəllim
(1935)

1935-ci il avqust ayının 15-də Göyçay rayonunun Qaraman kəndində anadan olub. 1942-1949-cu illərdə Qaraman kəndindəki yeddiillik məktəbdə oxuyub. 1950-1954-cü illərdə Göyçay Pedaqoji Texnikumunda, 1954-1959-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix və filologiya fakültəsində təhsil alıb, orta məktəbdə tarix, Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnib. 1959-1962-ci illərdə Sumqayıt şəhər 1 və 2 №-li internat məktəblərində tərbiyəçi-müəllim işləyib. 1962-1965-ci illərdə ADPİ-də Azərbaycan dili və onun tədrisi metodikası ixtisası üzrə əyani aspirantura təhsili alıb. 1965-ci ildə prof.A.Abdullayevin elmi rəhbərliyi ilə "Şagirdlərin orfoepik vərdişlərinin formalaşdırılması yolları" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. Kafedrada ayrı-ayrı vaxtlarda müəllim, baş müəllim və dosent vəzifələrində çalışıb. 1993-cü ildə professor vəzifəsinə seçilib.

Orfoepiya təliminin metodikasına, ədəbi tələffüz və intonasiyanın mənimsədilməsinə, ifadəli nitq üzrə aparılan işlərə, nitq mədəniyyəti məsələlərinə, düzgün yazı təliminə dair 25 monoqrafiya, dərslik və dərs vəsaitinin, xaricdə və Azərbaycanda nəşr olunmuş xeyli elmi-metodiki məqalənin müəllifidir.

Filologiya fakültəsində dekan müavini, fakültə partiya təşkilatının katibi vəzifələrində çalışıb. "İbtidai sinif müəllimliyi" ixtisası üçün Çərçivə Kurikulumunu hazırlayan işçi qrupunun üzvü olub. Milli məsləhətçilərdən biri kimi Azərbaycan dili və onun tədrisi metodikası fənni üzrə kurikulumunun hazırlanmasında iştirak edib. 2009-2016-cı illərdə ADPU-nun nəzdində fəaliyyət göstərən Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə Dissertasiya Şurasının üzvü olub. Onun elmi rəhbərliyi ilə 6 nəfər dissertasiya müdafiə edərək fəlsəfə doktoru alimlik dərəcəsi alıb. Rəsmi opponent, rəyçi və Dissertasiya Şurasının üzvü kimi xeyli gəncin elmə gəlməsinin xeyirxahlarından biri olub.

Azərbaycanda "Miqrant və Məcburi Köçkünlərin Hüquqlarının Müdafiəsi" ictimai birliyinin sədridir. 2004-cü ildən sistemli olaraq nəşr edilən, Qara-

bağ həqiqətlərini rus və ingilis dillərində dünyanın 64 ölkəsinə yayan "Голос Карабаха" ("Qarabağın səsi") qəzetinin təsisçisidir. 2005-ci ildə "Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası"nın Xocalı soyqırımına həsr etdiyi "Xocalı soyqırımı", "Xocalı soyqırımı: milyon imza- bir tələb" və "Şuşa – qədim Azərbaycan diyarı" adlı nəfis şəkildə nəşr edilən kitabların həmmüəllifidir. Bu kitablar ABŞ və Avropa dövlətlərinin parlamentlərinə, dünyanın aparıcı kitabxanalarına göndərilmişdir.

ADPU-nun rektorluğu və ayrı-ayrı ictimai təşkilatlar tərəfindən Fəxri Fərman və diplomlarla, "Maarif xadimi", "Qabaqcıl maarif işçisi" döş nişanları ilə təltif olunub. Elmi-pedaqoji fəaliyyətinə görə 2009 və 2010-cu illərdə ADPU-da keçirilən "İlin müəllimi" müsabiqəsinin qaliblərindən biri olub. 18 aprel 2012-ci ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

Xeyrulla Qulam oğlu Məmmədov

filologiya elmləri doktoru, professor

(1935-2005)

1 avqust 1935-ci ildə Lerik rayonunun Hoveri kəndində anadan olmuşdur. 1952-ci ildə Lerik qəsəbə orta məktəbini bitirmişdir. 1952-1957-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. 1957-1960-cı illərdə təyinatla Lerik rayonunda Azərbaycan dili, məntiq, psixologiya müəllimi və internat məktəbində baş tərbiyəçi işləyib. Lerik rayonunda çıxan "Kolxoz yolu" qəzetinin məsul katibi olub. 1960-cı ildən taleyini ADPİ (indiki ADPU) ilə bağlamış, ömrünün sonuna kimi burada işləmişdir. 1960-1963-cü illərdə ADPİ -nin Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasının aspirantı olmuşdur. 24 noyabr 1964-cü ildə ADPİ-nin Elmi Şurasında "Sultan Məcid Qənizadə (həyatı və yaradıcılığı)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim (1963-1965), baş müəllim (1965-1967), dosent (1967-1982), kafedra müdirinin müavini (1968-1970) vəzifələrində çalışıb.

23 iyul 1982-ci ildə "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda maarifçi realist ədəbi hərəkat" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda maarifçi rea-

list ədəbiyyatın inkişaf təmayülləri, uşaq ədəbiyyatının inkişaf xüsusiyyətləri və rus-Azərbaycan ədəbi əlaqələrinin öyrənilməsi onun adı ilə bağlıdır. ADPU-da çalışarkən filologiya üzrə Dissertasiya Şurasının elmi katibi, institutun Elmi Şurasının və elmi-metodiki Şurasının üzvü, fakültə partiya və həmkarlar təşkilatının üzvü olmuş, ictimai-siyasi və tədris fəaliyyəti ilə seçilmişdir.

5 may 1990-cı ildə ADPİ üzrə verilmiş əmrlə Tarix və Filologiya fakültəsinin qiyabi şöbələrinin bazası əsasında Tarix-filologiya (qiyabi) fakültəsi (şöbəsi) yaradıldı. Dekan vəzifəsinin icrası prof.X.Məmmədova həvalə edildi. 27 mart 1991-ci ildə prof.X.Məmmədov həmin fakültəyə dekan vəzifəsinə seçildi. 1996-cı ildə Filologiya fakültəsinin qiyabi və axşam şöbələri əsasında yeni bir fakültə yaradıldı və prof.X.Məmmədov ADPU üzrə 12 mart 1996-cı il tarixli qərarla həmin fakültənin dekanı vəzifəsinə təyin olundu. ADPU üzrə 16 sentyabr 1997-ci il tarixli əmrlə Filologiya (qiyabi-axşam) və Filologiya (əyani) fakültələrinin bazasında Filologiya fakültəsi yaradıldığından prof.X.Məmmədov həmin vəzifədən azad olundu.

1982-ci ilin fevralında X.Məmmədov Azərbaycan ədəbiyyatı tarixi kafedrasına professor vəzifəsinə seçilmiş, 8 sentyabr 2005-ci ilə kimi həmin vəzifədə çalışmışdır. Onun Bakı, Tiflis, Leninqrad (Sankt-Peterburq), Moskva şəhərlərindəki arxivlərdən Azərbaycan maarifçiliyi ilə bağlı topladığı materiallar əsasında yazdığı "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda maarifçi realist ədəbiyyat" (1978), "Sultan Məcid Qənizadə (1983), "Əkinçi"dən "Molla Nəsrəddin"ə (1986), "XIX əsr Azərbaycan uşaq ədəbiyyatı" (1992), "Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudunda" (1999), "XIX əsr Azərbaycan ədəbiyyatı" (2006) monoqrafiya, dərslik və dərs vəsaitləri nəşr olunmuşdur. Müxtəlif ensiklopediyalarda onun 130-dan, dövri mətbuatda isə 500-dən çox məqaləsi çap edilmişdir. Onun təşəbbüsü ilə Filologiya fakültəsinin tədris planına "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı" adlı fənn daxil edilmiş, fənnin proqramı və dərsliyi hazırlanmışdır. Hazırladığı "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycan ədəbiyyatının yaradıcılıq metodu", "Filologiya elminin tarixi və metodologiyası" tədris proqramları müstəqillik dövrü filoloji elm sahələrinin metodoloji, nəzəri konsepsiya və metodikasının müəyyənləşdirilməsində mühüm rol oynamışdır. O, həm də səriştəli və peşəkar mətnşünas alim kimi S.Ə.Şirvaninin, N.B.Vəzirovun, S.S.Axundovun, Ə.Haqverdiyevin "Seçilmiş əsərləri"ni, S.M.Qənizadənin "Gəlinlər həmayili", "XX əsr Azərbaycan nəsri", 3 cildlik "Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər)" kitablarını tərtib etmişdir.

"V.İ.Leninin anadan olmasının 100 illiyi yubiley medalı", "Beşilliyin qəhrəmanı" döş nişanı, rektorluğun və müxtəlif təşkilatların Fəxri fərman və diplomları ilə təltif olunmuşdur. Yetirməsi prof.Elman Quliyevin təşəbbüsü ilə Lerik rayonunda yubileyi keçirilmiş, rayonun mərkəzi küçələrindən birinə onun adı verilmişdir.

2005-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Bayram Baxşəli oğlu Əhmədov
filologiya elmləri doktoru, professor
(1935-2012)

28 aprel 1935-ci ildə Ağdaş rayonunun Pirkəkə kəndində anadan olmuşdur. 1943-1949-cu illərdə kənddəki yeddiillik məktəbdə oxumuş, 1949-1953-cü illərdə Ağdaş Pedaqoji Texnikumunda təhsil almışdır. Texnikumu fərqlənmə diplomu ilə bitirərək Qazax rayonunun Dağkəsəmən kənd orta məktəbində bir il sinif müəllimi işləmiş, 1954-1959-cu illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix-filologiya fakültəsində təhsil almışdır. 1959-cu ildə təyinatla Mingəçevir şəhərində əvvəl fəhlə-gənclər axşam məktəbində müəllim işləmiş, bir il sonra həmin orta məktəbdə direktor müavini vəzifəsinə irəli çəkilmişdir. 1962-1970-ci illərdə Mingəçevir şəhərindəki 4 nömrəli beynəlmiləl səkkizillik məktəbin direktoru olmuşdur.

1967-ci ildə "Azərbaycan dilinin Mingəçevir ətrafı şivələri" mövzusunda namizədlik, 1992-ci ildə "Azərbaycan dili dialekt və şivələrində söz yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1970-ci ildən ADPU-nun Azərbaycan dilçiliyi kafedrasında baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1992-1997-ci illərdə Azərbaycan Tibb Universitetinin Azərbaycan dili kafedrasında işləmişdir. 1994-cü ildə professor elmi adı almışdır. 1997-ci ildən BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasında çalışmışdır. 1999-2012-ci illərdə BDU-nun Azərbaycan dilçiliyi kafedrasının professoru olmuşdur. Bayram Əhmədov 14 kitab, 63 məqalənin müəllifidir.

2012-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Aydın Cəfər oğlu Hacıyev
filologiya elmləri doktoru, professor
(1936-2006)

1936-cı ilin yanvarında Şuşa rayonunun Malıbəyli kəndində anadan olub. İlk təhsilini Malıbəylidə alıb.

1947-1951-ci illərdə M.Əzizbəyov adına Şuşa Pedaqoji Texnikumunda, 1953-1957-ci illərdə ADPİ-nin Filologiya fakültəsində təhsil alıb. 1951-1953 -cü illərdə Mir Bəşir (indiki Tərtər) rayonunun Sarov kəndində ibtidai sinif müəllimi,1957-1962-ci illərdə Mingəçevir şəhərindəki 10 №-li məktəbdə bir il Azərbaycan dili və ədəbiyyat müəllimi, sonra isə direktor vəzifəsində çalışıb. 1962-1965-ci illərdə ADPİ -nin aspiranturasında təhsil alıb. 14 aprel 1966-cı ildə ADPİ-nin Elmi Şurasında "V-VIII siniflərdə lirik şeirlərin tədrisi metodikası" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. 1965-1968-ci illərdə ADPİ-nin "Gənc müəllim" qəzetində işləyib. 1968-ci ildə Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasına müəllim vəzifəsinə təyin olunub. 24 yanvar 1969-cu ildə həmin kafedrada baş müəllim, 28 dekabr 1970-ci ildə dosent vəzifəsinə seçilib. 1970-1977-cı illərdə ADPİ-nin Dil və ədəbiyyat fakültəsinin (qiyabi) dekan müavini olub. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 19 iyul 1972-ci ildə dosent elmi adı verilib. 1976-1989 -cu illərdə Ədəbiyyatın tədrisi metodikası kafedrasının dosenti olub. 1989 -cu ildə Azərbaycan Dövlət Universitetinin Müdafiə Şurasında "Azərbaycan uşaq ədəbiyyatının inkişaf yolu" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 11 mart 1990-cı ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona filologiya elmləri doktoru elmi dərəcəsi, SSRİ Xalq Təhsili üzrə Dövlət Komitəsinin 23 oktyabr 1991-ci il qərarı ilə professor elmi adı verilib. 1989-2005-ci illərdə ADPİ-nin Ədəbiyyatın tədrisi metodikası kafedrasının müdiri, 1991-2006-cı illərdə həmin kafedranın professoru olub.

"V-VIII siniflərdə lirik şeirlərin tədrisi" (1966), "Ana dili və ədəbiyyat dərslərində vətənpərvərlik tərbiyəsinə dair" (1974), "Uşaq nəsri tədrisinin bəzi məsələləri" (1977), "Orta məktəbdə lirik şeirlərin tədrisi" (1982), "Məktəb ədəbiyyat kursunun məzmunu və tədrisinin təşkili məsələləri" (1985), "Ədəbiyyat dərslərində şifahi və yazılı nitqin inkişaf etdirilməsi" (1990), "Ədəbi əsərlərin təhlili yolları" (1992), "Ədəbiyyat dərslərində əyanilikdən istifadə"

(1993),"Uşaq nəsri tədrisinin bəzi məsələləri" (1977), "Azərbaycan sovet uşaq ədəbiyyatı" (1984), "Azərbaycan uşaq ədəbiyyatı tarixi" (1986), "Azərbaycan uşaq nəsri" (1993), "Azərbaycan ədəbiyyatının tədrisi metodikası" (2003), "Azərbaycan uşaq ədəbiyyatı tarixi" (2004) adlı dərslik və dərs vəsaitlərinin, Təbriz, Tehran və Bakıda nəşr olunan 100-dən artıq elmi məqalənin müəllifidir.

17 avqust 2006-cı ildə Bakı şəhərində vəfat edib.

Qəzənfər Şirin oğlu Kazımov

filologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1937)

15 noyabr 1937-ci ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. 1955-ci ildə Soltanlı kənd orta məktəbini, 1960-cı ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsini bitirmişdir. 1960-1962-ci illərdə Soltanlı kənd orta məktəbində müəllim işləmiş, 1962-1965-ci illərdə ADPİ-də Azərbaycan dilçiliyi ixtisası üzrə aspirantura təhsili almışdır. 29 mart 1967-ci ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Şurasında "Ə.Haqverdiyevin dramaturgiya dili" mövzusunda namizədlik, 1988-ci ildə "Azərbaycan sovet satirik nəsrinin dili (1920-1940-cı illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 29 mart 1967-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona filologiya elmləri namizədi elmi dərəcəsi, 22 yanvar 1972-ci ildə dosent elmi adı, 29 iyul 1988-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən filologiya elmləri doktoru elmi dərəcəsi, 27 sentyabr 1990-cı ildə SSRİ Xalq Təhsili Komitəsinin yanında AAK tərəfindən professor elmi adı verilib.

ADPU-da müəllim (1965-1971), dosent (1972-1988), professor (1989-1998) vəzifələrində işləmişdir. Pedaqoji Universitetin Filologiya fakültəsinin dekanı (1989-1997), Dissertasiya Şurasının sədr müavini (1990-1994), Ali Attestasiya Komissiyasında ekspert şurasının üzvü (1996-1999), Təhsil Nazirliyi nəzdində filologiya üzrə elmi-metodiki şuranın üzvü (1979-1998) olmuşdur. 1999-cu ildən Nəsimi adına Dilçilik İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. 2001-ci ildən həmin institutun Azərbaycan dialektologiyası şöbəsinin müdiridir.

"Azərbaycan dilindən təcrübi məşğələlər" (1973), "Yazıçı və dil" (1975), "Komik-bədii vasitələr" (1983), "Bədii ədəbiyyatda komizm üsulları" (1987), "Qurbani" (1990), "Qurbani və poetikası", (1996), "Sənət düşüncələri" (1997), "Dilimiz-tariximiz" (1998), "Müasir Azərbaycan dili. Sintaksis" (2000), "Azərbaycan dilinin tarixi (Ən qədim dövrlərdən XIII əsrə qədər)" əsərləri nəşr olunub. O, ali və orta məktəblərin "Azərbaycan dili" dərsliklərinin ("Azərbaycan dili" (7-8-ci siniflər üçün dərslik, 1983-cü ildən); "Azərbaycan dili" (rus məktəblərinin 2-3-cü sinifləri üçün dərslik, 1977-ci ildən); "Azərbaycan dili" (8-9-cu siniflər üçün, 2003-cü ildən); "Müasir Azərbaycan dili. Sintaksis"(ali məktəblər üçün dərslik, 2000) müəllifidir. 10 cilddən ibarət "Seçilmiş əsərləri" nəşr olunub.

Azərbaycan dili tarixi, müasir Azərbaycan dilinin quruluşu, bədii əsərlərin dili, komizm (satira və yumor) nəzəriyyəsi, üslub və üslubiyyat məsələləri, ədəbiyyatşünaslıq məsələləri, etimologiya, dilin tədrisi metodikası onun yaradıcılığının əsasını təşkil edir. Böyük Britaniya və Şimali İrlandiya Asiya Kral Cəmiyyətinin üzvüdür. Böyük Britaniya, Kembric Bioqrafiya İnstitutunda və ABŞ Bioqrafiya İnstitutunda qeydə alınmışdır. Ədəbi tənqidlə məşğuldur. Respublika Yazıçıları Birliyinin və Respublika Jurnalistlər Birliyinin üzvüdür. 300 -ə qədər elmi və elmi-publisistik məqalənin, ali və orta məktəblər üçün 8 proqram müəllifidir. 40-dan artıq kitabın elmi redaktoru, onlarca elmlər doktoru və namizədlik dissertasiyasının rəsmi opponenti olmuşdur. Elmi rəhbərliyi ilə 6 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə edib.

2015-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Vilayət Hüseyn oğlu Əliyev

filologiya elmləri doktoru, professor,
Əməkdar müəllim
(1938)

1938-ci il avqust ayının 23-də Şəki rayonunun Daşbulaq kəndində anadan olub. Ailələri Qərbi Azərbaycanın Zəngəzur mahalının Sisyan rayonundan 3 dəfə deportasiya olunub. 1950-ci ildə Şəki rayonunun Daşbulaq kənd yeddiillik məktəbini, 1955-ci ildə isə Şəki Pedaqoji Texnikumunu bitirib. 1955-1958 -ci illərdə Salyan rayonunun Noxudlu kənd səkkizillik məktəbində müəllim işləyib. 1958-1962-ci illərdə ADU-nun Filologiya

fakültəsində təhsil alıb. Ali təhsil aldığı illərdə Bakının 99, 69, 189 №-li məktəblərində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib.

1962-ci ildə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun aspiranturasına daxil olub. "Müasir Azərbaycan və özbək dillərində feili sifətlər" mövzusunda tədqiqat aparmağa başlayıb. Mövzusu Azərbaycan və özbək dillərində feili sifətlərin müqayisəsi ilə bağlı olduğuna görə Özbəkistan Respublikasının Daşkənd şəhərinə ezam olunub, Nəvai adına Ədəbiyyat və Dilçilik İnstitutunun türkologiya ixtisası üzrə məqsədli aspirantı olub (1962-1965). Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunda kiçik elmi işçi (1965-1967), M.F.Axundov adına Dillər İnstitutunda müəllim və dosent (1967-1970), İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsində dosent (1971), Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji Universitetində dosent (1972-1977), ADPU-nun Müasir Azərbaycan dili kafedrasında dosent (1977-1991) vəzifəsində çalışıb.

1990-cı ildə "Azərbaycan dilində feilin təsriflənməyən formaları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi alıb. 1991-ci ildə Müasir Azərbaycan dili kafedrasına professor vəzifəsinə seçilib. Elmi rəhbərliyi ilə 8 nəfər dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

Elmi tədqiqatları Azərbaycan dilçiliyi və türkologiya ilə bağlıdır. 200-dən çox elmi məqalənin, "Azərbaycan dilində feilin təsriflənməyən formaları" (1986), "Azərbaycan dilində feili bağlama" (1989), "Azərbaycan dilində feilin perifrastik formaları" (1989), "Toponimika" (1994), "Azərbaycan toponimiyası" (1999), "Heydər Əliyev və dil siyasəti" (2003), "Zəngəzurda qalan izimiz" (2004) kitablarının müəllifidir.

Azərbaycan EA-nın nəşr etdirdiyi 3 cildlik "Müasir Azərbaycan dili" əsərinin həmmüəlliflərindəndir. "Deportasiya", "Kitabi-Dədə Qorqud" – 1300", "Qədim Naxçıvan – 75", "Urud", "I Beynəlxalq Türkoloji qurultay – 75" və s. elmi-publisistik əsərlərin elmi redaktoru olub. 1997-ci ildən ADPU-da nəşr olunan "Pedaqoji Universitet Xəbərləri"nin redaktor müavinidir. 1999-cu ilin iyun ayında Türkiyədə keçirilən Türk dövlətləri və toplumlarının VII qurultayının nümayəndəsi olub. Azərbaycan Dövlət Dil Komissiyasının üzvü olub.

1997-2016-cı illərdə ADPU-nun elmi işlər üzrə prorektoru, AMEA-nın Dilçilik İnstitutunda fəaliyyət göstərən 10.02.01 ixtisas üzrə Dissertasiya Şurasının üzvü və həmsədri olub. 2016-cı ildən ADPU rektorunun müşaviridir. 1992-ci ildən YAP-ın üzvü, 91 vətənpərvər ziyalıdan biridir. YAP Siyasi Şurasının, YAP Səbail rayon təşkilatı İdarə Heyətinin üzvüdür.

26 dekabr 2006-cı ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

Balaxan Qaraxan oğlu Hüseynov
filologiya elmləri doktoru, professor,
Əməkdar müəllim
(1938 - 2014)

20 fevral 1938-ci ildə Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. 1945-1955-ci illərdə Şahsevən kənd orta məktəbində, 1955-1960-cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun İngilis dili fakültəsində təhsil alıb.1960-1964-cü illərdə Beyləqan rayonunun Təzəkənd orta məktəbində ingilis dili müəllimi işləyib. 1963-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun aspiranturasına (qiyabi) qəbul olunub. 1964 -cü ildən həmin institutun qiyabi şöbəsində metodist kimi pedaqoji fəaliyyətə başlayıb. 1967-ci ildə S.M.Kirov adına ADU-nun Elmi şurasında "İngilis dilindən Azərbaycan dilinə tərcümənin leksik-frazeoloji məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 15 may 1974-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona İngilis dilinin leksikası kafedrası üzrə dosent adı verilib. 1967-1987-ci illərdə M.F.Axundov adına APXDİ-də baş müəllim, dosent, kurs müdiri, dekan müavini, dekan vəzifələrində işləyib.

1987-ci ildən ömrünün sonuna kimi ADPU-da çalışıb. 1987-2008-ci illərdə Xarici dillər kafedrasının, 2008-2014-cü illərdə İngilis dili və onun tədrisi metodikası kafedrasının müdiri olub. 1997-ci ildə "Müasir ingilis dilində variativlik (amerikanizmlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona 8 iyul 1997-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsi, 24 dekabr 1999-cu ildə professor elmi adı verilib.

Kanada, Fransa, Türkiyə, İran və İraqda elmi ezamiyyətdə olub. 1979-1980 və 1981-1983-cü illərdə İraqda tərcüməçi kimi fəaliyyət göstərib. İngilis dili və onun tədrisi problemləri ilə bağlı 9 kitabı, 70-dən çox elmi məqaləsi nəşr olunub. Pedaqoji və elmi-pedaqoji sahədəki xidmətlərinə görə "Tərəqqi" medalı (2006) ilə təltif olunub, Əməkdar müəllim (2012) fəxri adı verilib.

12 yanvar 2014-cü ildə Bakı şəhərində vəfat edib.

Himalay Ənvər oğlu Qasımov
filologiya elmləri doktoru, professor
(1939)

21 fevral 1939-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. Orta təhsilini Naxçıvan şəhərində almış, 1961-1966-cı illərdə ADPİ-nin Tarix-filologiya fakültəsində oxumuşdur. Təyinatla Naxçıvan şəhər 2 №-li şəhər orta məktəbində 3 il (1966-1969) dil-ədəbiyyat və tarix müəllimi işləmişdir. Eyni zamanda 1967-ci ilin sentyabr ayından ADPU-nun Naxçıvan Muxtar Respublikası üzrə "Qiyabi məsləhət məntəqəsi"nin müdiri vəzifəsində çalışmışdır. 1967-ci ildə ADPİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının qiyabi aspirantı olmuşdur. 1970-ci ildə Azərbaycan ədəbiyyatı tarixi kafedrasına baş laborant təyin olunmuşdur. 1974-cü ilin mart ayında "Azərbaycan şeirində süjetli lirika" mövzusunda namizədlik, 1995-ci ildə "Müasir Azərbaycan romanı: janrın poetika və tipologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1971-ci ildən Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifəsində çalışmışdır. 1996-2002-ci illərdə həmin kafedranın professoru olub. 2002-ci ilin dekabr ayından 2019-cu ilin mart ayına qədər "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasına rəhbərlik edib. 2019-cu ildən Ədəbiyyat kafedrasının professorudur.

"Ədəbiyyat nəzəriyyəsindən mühazirələr" (1981), "Bədiiliyin meyarı" (1990), "Müasir Azərbaycan romanı: janrın poetika və tipologiyası (1994), "Müasir Azərbaycan romanının qaynaqları" (1994), "Azərbaycan şeirinin poetikası" (1996), "Müasir Azərbaycan ədəbiyyatında yaradıcılıq meyilləri" (1998), Şəhriyarın lirikası və etiqadı" (1999), "Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri" (2004), prof.E.Quliyevlə birlikdə "Şəhriyar poetikası" (2006), "Səməd Vurğunun poetik dünyası" (2006), dos.N.Nəcəfovla birlikdə "XX əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri" (2007), "H.Cavidin lirikası və dramaturgiyası" (2007), "Azərbaycan romanının inkişaf problemləri" (2008), "Azərbaycan şeirinin poetikası" (2008), "Sənət və sənətkarlıq məsələləri yeni düşüncə müstəvisində" (2011), "Ədəbiyyatşünaslıq problemləri ədəbi-nəzəri düşüncə müstəvisində" (2014), "Araşdırmalar: şəxsiyyətlər və talelər (2019) adlı monoqrafiya, dərslik və dərs vəsaitlərinin, 150-dən artıq elmi məqalənin müəllifidir.

60-dan çox namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti və filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının elmi rəhbəri olmuşdur. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun və Bakı Dövlət Universitetinin nəzdindəki Dissertasiya şuralarının üzvü, AAK-ın Filologiya üzrə ekspert şurasınn sədri olmuşdur.

2006-cı ildə "Tərəqqi medalı" ilə təltif edilmişdir.

Eldar Cəfər oğlu Abbaszadə

pedaqoji elmlər namizədi, professor
(1941)

9 avqust 1941-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakı şəhəri 123 №-li orta məktəbdə alıb. 1960-1965-ci illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda rus dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnib. 1965-1968-ci illərdə Lerik rayonunun Veri kənd orta məktəbində rus dili müəllimi işləyib. O, 1968-1969-cu illərdə ADPİ-də pedaqoji təcrübə rəhbəri, 1969-1971-ci illərdə elmi katib olub. 1971-1974-cü illərdə ADPİ-nin əyani aspiranturasında rus dilinin tədrisi metodikası ixtisası üzrə təhsil alıb. 1974-1976-cı illərdə elmi işlər üzrə prorektorun köməkçisi vəzifəsində çalışıb.1976-1977-ci illərdə Rus dili kafedrasında baş müəllim, 1977-1982-ci illərdə İbtidai təhsilin pedaqogika və metodikası fakültəsinin dekan müavini, 1982-1985-ci illərdə Məktəbəqədər fakültənin dekanı, 1985-1988-ci illərdə institut partiya komitəsinin katibi, 1988-1991-ci illərdə tədris işləri üzrə prorektor,1991-1992-ci illərdə beynəlxalq əlaqələr üzrə prorektor,1992-1999 -cu illərdə İbtidai siniflərdə rus dili kafedrasının müdiri, 1999-2014-cü illərdə həmin kafedranın professoru vəzifəsində çalışıb.

O, 1974-cü ildə «Выработка навыков употребления словосочений «прилагательное+существительное» учащимися начальных классов Азербайджанской школы» mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 31 may 1978-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona Rus dili kafedrası üzrə dosent, 31 yanvar 1991-ci ildə SSRİ Xalq Təhsili üzrə Dövlət Komitəsi yanında AAK tərəfindən İbtidai siniflərdə rus dili kafedrası üzrə professor elmi adı verilib.

2004-cü ildə Pedaqoji və Sosial Elmlər Akademiyasının müxbir üzvü, "Pedaqoqlar sülh və qarşılıqlı anlaşma uğrunda" beynəlxalq hərəkatın vitse-prezidenti, Azərbaycan təşkilatının sədri vəzifəsinə seçilmişdir. 2006-cı ildə sülh mədəniyyəti və universal əxlaqi dəyərlərin təbliğində göstərdiyi xidmətlərinə görə Ümumdünya Sülh Federasiyası prof.E.Abaszadəni "Sülhün səfiri" beynəlxalq diplomuna layiq görmüşdür.

1995-2005 -ci illərdə onun rəhbərliyi altında özəl ali təhsil müəssisələri üçün 30-a yaxın ixtisas üzrə yeni tipli tədris planları tərtib edilmişdir. Bu sənədlər Azərbaycan Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş və beynəlxalq ekspertlər tərəfindən bəyənilmişdir.

2001-ci ildən Beynəlxalq Jurnalistlər İttifaqının üzvüdür. 2005-ci ildə "XXI əsrin tanınmış ziyalısı" Beynəlxalq diplomuna layiq görülmüşdür.

80-ə yaxın əsərin, o cümlədən, 10 kitab və dərsliyin, 20-yə yaxın tədris vəsaitinin müəllifidir.

2008-ci ildə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.

Zahid Abdulla oğlu Xəlilov

filologiya elmləri doktoru, professor,
Əməkdar müəllim
(1942)

20 mart 1942-ci ildə Yevlax şəhərində anadan olub. 1948-1958-ci illərdə Sabir adına 2 №-li şəhər orta məktəbində oxuyub. 1959-1965-ci illərdə ADU-nun Filologiya fakültəsinin jurnalistika şöbəsində qiyabi təhsil alıb. Əmək fəaliyyətinə 1959-cu ildə Yevlax Tütün Fermentləmə zavodunda texnik - fermentator kimi başlayıb. 1962-ci ildə Yevlax Mədəniyyət evinin müdiri, 1962-1963 -cü illərdə Yevlax rayonlararası "Qələbə" qəzetində ədəbi işçi, 1964-1965-ci illərdə "Mübariz" adlı Goranboy rayon qəzetində ədəbi işçi, məsul katib olub. 1965-1966-cı illərdə Yevlaxda "Təşəbbüs" qəzetinin məsul katibi vəzifəsində işləyib.

1966-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda nəşr olunan "Gənc müəllim" qəzetinin redaktoru təyin olunub. 1969-1970-ci illərdə institut partiya komitəsinin katibi seçilib. 1970-1975-ci illərdə Ədəbiyyat və onun tədri-

si metodikası kafedrasında baş müəllim, 1975-1990-cı illərdə dosent vəzifəsində çalışıb. 1996-2005-ci illərdə Pedaqoji fakültənin dekanı olub. 2005-2018-ci illərdə Ədəbiyyat və onun tədrisi metodikası kafedrasına rəhbərlik edib.

1975-ci ildə "Azərbaycan uşaq poeziyası və folklor" mövzusunda namizədlik, 1990-cı ildə "Azərbaycan uşaq ədəbiyyatının mənşəyi, təşəkkülünün əsas amilləri və inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1959-cu ildən bədii yaradıcılıqla məşğuldur. 1977-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

1986-cı ildə Azərbaycan Dövlət Nəşriyyat Komitəsinin keçirdiyi "İlin ən yaxşı uşaq kitabı" müsabiqəsində "Cırtdanla Azmanın yeni sərgüzəştləri" əsəri I yerə layiq görülmüşdür. Moskvanın "Detskaya literatura" nəşriyyatı tərəfindən "Günəbaxanlar böyüyəcək" (1983), "Salam, Cırtdan!" (1986) "Mavi dəniz üzərində köhnə qalalar", "Üçbucaq ölkənin adamları" (1987) şeir və nəsr kitabları rus dilində nəşr olunmuşdur.

1983-cü ildə Azərbaycan Yazıçılar Birliyinin VI qurultayında "Uşaq ədəbiyyatının problemləri" mövzusunda məruzə etmişdir. 1987-ci ildə "Salam, Cırtdan" kitabı keçmiş SSRİ üzrə "İlin ən yaxşı uşaq kitabı" müsabiqəsinin qalibi olmuş və Moskvada keçirilən ümumdünya kitab sərgi-yarmarkasında nümayiş etdirilmişdir. Həmin ildə Moskvanın "Детская литература" nəşriyyatı onun "Azərbaycan uşaq ədəbiyyatı" ("Детская литература Азербайджана") monoqrafiyasını nəşr etmişdir. Elə həmin ildə "Литературная газета" yazıçıya "Kölgələr", "Yanğınsöndürən maşın", "Limonad içməyin" və digər yumoristik hekayələrə görə "Золотой телёнок" mükafatı vermişdir.

1975-2006-cı illərdə Azərbaycan Dövlət Televiziyasında "Sizin sevimli yazıçılarınız", "Məktəblinin kitabxanası", "Çıraq", "Sərbəst düşüncə studiyası" verilişlərinin aparıcısı olmuşdur.

Moskvada uşaq ədəbiyyatının tədqiqi və təbliği ilə bağlı simpoziumda (1981), Praqada məktəbəqədər yaşlı uşaqlar üçün ədəbiyyat mövzusunda keçirilən konfransda iştirak edib. Keçmiş SSRİ Dövlətnəşrkomun və SSRİ Yazıçılar İttifaqının Uşaq Ədəbiyyatı Şurasının üzvü olub.

2009-cu ildə II sinif, 2010-cu ildə III sinif şagirdləri üçün "Azərbaycan dili" dərslik komplektinin (dərslik, iş dəftəri və müəllimlər üçün vəsait) həmmüəlliflərindən biri olub. 2008-2019-cu illərdə yeddi cildlik "Seçilmiş əsərləri" nəşr olunub.

2010-cu ildə Ankaranın Hacəttəpə Universitetində keçirilən beynəlxalq konqresdə "Uşaqlar nə üçün oxumaq istəmir" mövzusunda, 2012-ci ildə YUNESKO-nun Moskva Şəhər Pedaqoji Universitetində keçirdiyi beynəlxalq konqresdə "Azərbaycanda məktəbəqədər təhsilin problemləri" mövzu-

sunda məruzə etmişdir. “Qızıl qələm” (2001) və “Qızıl kəlmə” (2016) müka-fatları laureatıdır.

“Tərəqqi” medalı (2006) ilə təltif edilmiş, Əməkdar müəllim (2012) fəxri adına layiq görülmüşdür.

Vaqif Tapdıq oğlu Qurbanov
pedaqoji elmlər doktoru, dosent
(1943)

18 may 1943-cü ildə Əli Bayramlı rayonunun (indiki Şirvan) Qarabağlı kəndində anadan olmuşdur. Qarabağlı kənd yeddiillik (1951-1957), Kərimbəyli kənd orta məktəbində (1958-1961) təhsil almışdır. 1961-ci ildə V.İ.Lenin adına ADPİ-yə daxil olmuş, 1963-1966-cı illərdə ordu sıralarında xidmət etmiş, 1966-1969-cu illərdə təhsilini davam etdirərək institutu bitir-mişdir. 1969-1975-ci illərdə Bakı şəhəri 179 №-li məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş, 1975-1987 -ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (indiki Təhsil İnstitutu) elmi işçi, baş elmi işçi vəzifələrində çalışmışdır. 1986-cı ildə “Azər-baycan dilinin sistematik kursunda söz birləşmələri tədrisinin linqvodidaktik əsasları” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1987-1999 -cu illərdə “Azərbaycan məktəbi” jurnalında elmi redaktor, 1990-1992 -ci illərdə “Ana sözü” jurnalında baş redaktor müavini, 1992-1996 -cı illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında Humanitar və ictimai elmlər şöbəsinin rəis müavini, 1997-1999-cu illərdə “Azərbaycan məktəbi” jurnalı redaksiyasında baş redaktor müavini vəzifələrində işləmişdir. 1999-2016 -cı illərdə Azərbaycan Müəllimlər İnstitutunda dosent vəzifəsində çalışıb.

2015 -ci ildə “Azərbaycan dili təlimində fəndaxili əlaqələrdən istifadə üzrə işin sistemi” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 150-dən çox elmi-metodik məqalənin, dərslik və dərs vəsaitinin müəllifidir.

Məhərrəm Abbasəli oğlu Hüseynov
filologiya üzrə elmlər doktoru, professor
(1945-2020)

18 fevral 1945-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalında - Çəmbərək bölgəsinin (Qərbi Azərbaycanın Krasnoselo rayonu) Şorca kəndində anadan olmuşdur. 1953-1960-cı illərdə Şorca kənd yeddiillik, 1960-1964-cü illərdə isə Ardanış kənd istehsalat təlimi verən 11 illik orta məktəbində təhsil almışdır. 1964-1969-cu illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb. 1969-1971-ci illərdə baş leytenant hərbi rütbəsi ilə sovet ordusunda motoatıcı rota komandiri kimi qulluq edib. 1971-1972-ci illərdə Göyçə mahalının Ardanış, 1972-1975-ci illərdə isə Ağbulaq kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyət göstərmişdir. 1975-1989-cu illərdə X.Abovyan adına İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasında baş müəllim və dosent vəzifələrində çalışmış, fakültə elmi şurasının üzvü olmuşdur. Azərbaycanlıların deportasiyası ilə bağlı olaraq 1989-cu ildən pedaqoji fəaliyyətini Azərbaycan Texniki Universitetində (1989-200 1) davam etdirmişdir. Burada işlədiyi illərdə Bakı Özəl Türk Liseyində, Anadolu Türk Liseyində, "Araz" hazırlıq kurslarında, Müəllimləri təkmilləşdirmə və ixtisasdəyişmə kurslarında dərs demişdir. 2001-2015-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi və 2015-ci ildən isə Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında çalışır. 2001-2019-cu illərdə Filologiya fakültəsinin dekan müavini olmuşdur. 2005-2006 -cı illərdə əvəzçiliklə dekan vəzifəsini yerinə yetirmişdir. 2019-cu ildən Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının professorudur. "Mirzə İbrahimov romanlarının dili və üslubu" mövzusunda namizədlik (1982), "Azərbaycan poeziyasının dil və üslub problemləri (1960-1980-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Onun "Yazıçının dili və üslubu" (1981), "Romanın üslub zənginliyi" (1990) "Şeirşünaslıqda dil sənətkarlığı", "Dil və poeziya" (2008), "Poeziya dilinin milli qaynaqları" (2009), "Sözün poetikası" (2010), "Səsin poetikası" (2010) , "Poetik frazeologiya" (Almatı, 2013) "Janr, zaman, ədəbi qəhrəman" (2012), "Aşıq Ələsgərin söz ümmanı" (2017), "Linqvistik təhlilin elmi-metodik əsasları" (2017) adlı monoqrafiyaları, Bakıda, İrəvanda, Moskvada, As-

tanada nüfuzlu jurnallarda nəşr olunan 200-dən artıq elmi məqaləsi və xeyli publisistik yazısı nəşr olub.

"Göyçə gölü" (2015), "Göyçə həsrətinə həsrət qalaydım" (2017), "Göyçə gölünə vida" (2019), "Əzizxan" (2018) adlı bədii əsərləri nəşr olunub. Onun haqqında A.Bədəlzadənin "Məhərrəm Hüseynov: elmi və poetik təfəkkürün parlaq işığı" (2018) kitabı nəşr olunub.

22 dekabr 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ramin Muxtar oğlu Əhmədov

filologiya üzrə elmlər doktoru, dosent

(1945)

16 yanvar 1945-ci ildə Oğuz rayonunun Xaçmaz kəndində müəllim ailəsində anadan olmuşdur. 1953-1964-cü illərdə orta məktəbdə oxumuş, dərs əlaçısı və fəal ictimaiyyətçi şagird kimi Bakıda keçirilən III Respublika Olimpiadasının iştirakçısı olmuş, Gənc Texniklər Stansiyası üzrə model-konstruksiyaçı diplomu almışdır. 1964-cü ildə indiki Mədəniyyət və İncəsənət Universitetinə qəbul olunmuş, xalq artistləri prof. R.Təhmasib, A.İsgəndərov, M.Məmmədov kimi məşhur rejissorlardan sənət dərsi almış, Ceyhun Mirzəyev və Səməndər Rzayevlə tələbə yoldaşı olmuşdur. O, burada axıra kimi oxuya bilmir, təhsilini yarımçıq qoymalı olur. Oğuz rayon Hərbi Komissarlığından orduya çağırış vərəqəsi gəlir. Məlum olur ki, ona verilən pasportda qeyd yeri Vartaşen rayonu (indiki Oğuz) yazıldığı halda, hərbi biletdə Şəki şəhəri yazılmışdır. İnstitutun aid olduğu 2 №-li Poliklinikanın həkiminin onda boğaz xəstəliyi («Farinqo-lorinqit stonzilitom) aşkarlaması taleyini dəyişdirir.

1965-ci ildə sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutuna verir və Filologiya fakültəsinin tələbəsi olur. Dərs əlaçısı və fəal tələbə kimi tanınır, dram dərnəyinin üzvü kimi "Ölülər"də İsgəndər, "Aydın"da Aydın, "Vaqif"də Vaqif, "Xanlar"da Xaspolad rollarını oynayır. İkinci kursda Nizami adına tələbə təqaüdünə layiq görülür.

1969-cu ildə institutu fərqlənmə diplomu ilə bitirən Ramin Əhmədov Respublika "Bilik" cəmiyyətində və "Ateizm" muzeyində müvəqqəti referent və elmi işçi işləyir. İndiki Oğuz rayonunun Xaçmaz kəndində Azərbaycan dili

və ədəbiyyat müəllimi işləməklə yanaşı, rayon Mədəniyyət evində və musiqi məktəbində çalışır.1972-ci ildə ADPİ-nin Rus və Azərbaycan ədəbiyyatı kafedrasında laborant kimi əmək fəaliyyətinə başlayır. Bir il sonra Azərbaycan ədəbiyyatı tarixi kafedrasına dəyişdirilir, orada laborant və baş laborant kimi çalışır. 1983-cü ildə "Azərbaycan sovet dramaturgiyasının aktual problemləri (Məmməd Arifin tədqiqatı əsasında)" mövzusunda namizədlik dissertasiyası müdafiə edir. 1990-cı ildə həmin kafedraya dosent vəzifəsinə seçilir. 2011-ci ildə "Azərbaycan dramaturgiyasının janr poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 2013-cü ildə ona elmlər doktoru elmi dərəcəsi verilir.

"İsmayıl Şıxlı" (biblioqrafiya) (1983), "Məmməd Arif.Tənqid və dramaturgiya" (1986), "Azərbaycan dramaturgiyası yeni mərhələdə" (1992), "Cəfər Cabbarlının dramaturgiyası" (1994), "Səməd Vurğunun dramaturgiyası: tarixilik və müasirlik" (1996), Sənət və həyat" (2005), "Azərbaycan dramaturgiyası: ideallıqla reallığın vəhdəti" (2015), "Azərbaycan ədəbiyyatı: klassiklər və müasirlər" (2015), "Azərbaycan ədəbiyyatı: XIX-XX əsr Azərbaycan ədəbiyyatında multikulturalizm meyilləri" (2017) kitabları və 150-yə yaxın elmi-nəzəri, metodik-publisist məqaləsi nəşr olunmuşdur.

Uzun müddət ali məktəb auditoriyalarında "Ədəbiyyatşünaslığın əsasları", "Müəllimin nitq mədəniyyəti", "XIX əsr Azərbaycan ədəbiyyatı" fənlərindən mühazirələr oxumuş, ədəbiyyatşünaslığın müxtəlif problemləri ilə bağlı respublika və beynəlxalq konfranslarda, radio və televiziya verilişlərində çıxışlar etmişdir. Almaniya, Rusiya, İran, Türkiyə, Ukrayna, Qazaxıstanda elmi məqalələri və məruzə tezisləri nəşr edilmişdir.

Tərlan Cabbar oğlu Novruzov

filologiya elmləri doktoru, professor,
Əməkdar müəllim
(1947)

20 yanvar 1947-ci ildə Yardımlı rayonunun Bürzümbül kəndində anadan olub. 1963-cü ildə Yardımlı rayonunda M.F.Axundov adına orta məktəbi bitirib. 1964-1969-cu illərdə ADPU-nun Filologiya fakültəsində təhsil alıb. Tələbəlik illərində əvvəl M.F.Axundov (1965), sonra Lenin (1967) təqaüdünə layiq görülüb. Təhsilini fərqlənmə diplomu ilə bitirdiyinə görə institutda müəllim saxlanılıb.

Azərbaycan dilçiliyi kafedrasında müəllim (1969-1973), Azərbaycan ədəbiyyatı kafedrasında baş müəllim (1973-1990), dosent (1990-1995) vəzifələrində işləyib. 1982-ci ildə "Sabir irsinin tədqiqi tarixi" mövzusunda namizədlik, 1993-cü ildə "Sabir ədəbi məktəbi" mövzusunda doktorluq dissertasiyaları müdafiə edib. 27 fevral 1995-ci ildə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən ona professor elmi adı verilib.

Müxtəlif illərdə Lənkəran Dövlət Universitetində, "Təfəkkür" Universitetində və İctimai-Siyasi Universitetdə əvəzçiliklə professor vəzifələrində çalışıb. ADPU-nun Dünya ədəbiyyatı kafedrasının müdiri (2003-2017) olmuşdur. 2017- 2019-cu illərdə ADPU-nun Azərbaycan və dünya ədəbiyyatı kafedrasının professoru olmuşdur. Hazırda Ədəbiyyat kafedrasının professorudur.

1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatıdır. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Tərəqqi medalı"na (2006) və Əməkdar müəllim (2012) fəxri adına layiq görülüb. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri fərman"ı ilə təltif edilib (2015). ADPU-da müxtəlif illərdə keçirilən "İlin alimi" müsabiqəsinin (I, II, III yerləri tutub) qaliblərindən biri olub. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü olub.

30-dan artıq monoqrafiya, dərslik və dərs vəsaitinin, 10 tədris proqramının, 200-ə yaxın elmi-publisistik məqalənin müəllifidir.

Aslan Əhmədxan oğlu Bayramov

filologiya elmləri doktoru, professor

(1947)

30 mart 1947-ci il Qərbi Azərbaycanın Ağbaba bölgəsinin Təpəköy kəndində (Amasiya rayonu) anadan olmuşdur. 1966-cı ildə Təpəköy kənd orta məktəbini bitirmişdir. 1972-1978-ci illərdə ADU-nun Filologiya fakültəsində qiyabi təhsil almışdır. 1972-1989-cu illərdə Təpəköy kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. 1987-1991-ci illərdə ADU-nun Müasir Azərbaycan dili kafedrasının dissertantı olmuşdur. 1989-2000-ci illərdə Sumqayıt şəhər 18 №-li orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi və həmkarlar təşkilatının sədri işləmişdir. 21 iyun 1995-ci ildə Nəsimi adına Dilçilik

İnstitutunun İxtisaslaşdırılmış Şurasında "Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin türk mənşəli toponimləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1996-2006-cı illərdə ADPU-nun Müasir Azərbaycan dili kafedrasında müəllim, baş müəllim və dosent kimi çalışmışdır. 2001-ci ildə ona dosent elmi adı verilmişdir. 2001-ci ildə ADPU-nun Müasir Azərbaycan dili kafedrasının elmlər doktoru proqramı üzrə doktorantı olmuşdur. 2002-2009-cu illər SDU-nun Dilçilik kafedrasının müdiri olmuşdur. 2003-2014-cü illər SDU-nun Filologiya fakültəsinin dekanı və fakültə Elmi Şurasının sədri olmuşdur. 12 dekabr 2010-cu ildə Nəsimi adına Dilçilik İnstitutunun İxtisaslaşdırılmış Şurasında "Kitabi-Dədə Qorqud"da adlar və Qafqaz ərazisində onların toponimləşməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2011-ci ildə SDU-nun Azərbaycan dili və türkologiya kafedrasına professor seçilmişdir. 2014-cü ildə Folklorşünaslıq Elmi-tədqiqat laboratoriyasının müdiri təyin olunmuşdur. 24 noyabr 2011-ci ildə ona professor elmi adı verilib. "Əsgəri rəşadətinə görə" (1970) və "Tərəqqi" (2012) medalları, "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı (2007) ilə təltif edilmişdir. Ermənistan SSR Maarif Nazirliyinin, Amasiya Rayon İcraiyyə Komitəsinin, Sumqayıt Şəhər Təhsil Şöbəsinin fəxri fərmanları, Azərbaycan Respublikası Beynəlxalq Diaspor Mərkəzinin Fəxri Diplomu ilə təltif edilib.

Azərbaycan Jurnalistlər Birliyinin (1998), Azərbaycan Yazıçılar Birliyinin (1999) üzvüdür. ADPU-da nəşr edilən "Filologiya məsələləri" və "Onomastika" topluları redaksiya heyətinin üzvü (1999-2007) olmuşdur. 2 cildlik "Kitabi Dədə Qorqud" Ensiklopediyasının müəlliflərindəndir. 16 monoqrafiya, dərslik və dərs vəsaitinin, 200-dən artıq elmi-publisistik və metodik məqalələrin müəllifidir. 10 kitabın elmi redaktoru olub. Elmi rəhbərliyi ilə 3 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə edib, 4 nəfərin dissertasiya işinin rəsmi opponenti olub.

Nailə Məmmədhüseyn qızı Sadıqova

filologiya elmləri doktoru, professor

(1948)

18 dekabr 1948-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Bakı şəhərindəki 6 №-li məktəbdə alıb. 1967-1971-ci illərdə Kiyevdə M.Qorki adına Ukrayna Dövlət Pedaqoji İnstitutunda oxuyub. İnstitutun son kursundan M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutuna köçürülüb. Ali təhsilini burada başa vurub. İnstitut Elmi Şurasının qəra-

rı ilə Tərcümə kafedrasında müəllim saxlanılıb. 1973-cü ildən Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun Tərcümə kafedrasında müəllim kimi fəaliyyətini davam etdirib. 1987-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində "Müasir Amerika elmi fantastikası. Metod və janr problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1988-1992-ci illərdə Tərcümə kafedrasında baş müəllim, 1992- 2012-ci illərdə dosent vəzifələrində işləyib. 2011-ci ildə Azərbaycan Dillər Universitetinin Dissertasiya Şurasında "Utopiya və antiutopiya ədəbi prosesdə" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona 2012-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsi, 2018-ci ildə professor elmi adı verilmişdir.

2000-2014-cü illərdə ADU -nun Qərbşünaslıq kafedrasına, 2014-2019-cu illərdə ADPU-nun İngilis dili və onun tədrisi metodikası kafedrasına rəhbərlik etmişdir. Norveç, İsveçrə, İtaliya və Fransada ədəbiyyatşünaslıq və dilçiliklə bağlı təşkil olunmuş konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Nailə Sadıxova 2 monoqrafiya, 4 dərs vəsaiti, 27 proqramın və 80-dən çox elmi məqalənin müəllifidir.

Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın ekspert komissiyasının, ADU-nun və ADPU-nun Elmi Şurasının, ADU-nun Dissertasiya Şurasının, Böyük Britaniyanın Beynəlxalq Müəllimlər İttifaqının (İATEFL), Beynəlxalq Qadınlar Cəmiyyətinin, AZETA-nın, ADU-nun Regionşünaslıq və beynəlxalq münasibətlər fakültələrinin Elmi Şurasının (2000-2007), Təhsil Nazirliyinin Attestasiya və Akkreditasiya komissiyasının (2006), ADPU-nun Filologiya fakültəsinin Elmi Şurasının (2014-2019) və ADU-nun Tərcümə fakültəsinin Elmi Şurasının (1988, 2000-2007) üzvü olub. Ayrı-ayrı vaxtlarda ADU-da fəaliyyət göstərən Dissertasiya Şurasının nəzdindəki elmi seminarın (2003-2005, 2012-2015), Dövlət İmtahan Mərkəzində Avropaşünaslıq üzrə (magistratura) komissiyanın (2005-2006), Ədəbiyyat üzrə magistraturaya qəbul komissiyasının (2018-2019), sədri olmuşdur. O, 2010-cu ildə Kembriç Universitetinin sertifikatına layiq görülmüşdür.

2019-cu ildən ADPU-nun Xarici Dillər Mərkəzinin professoru vəzifəsində çalışır.

Fikrət Ramazan oğlu Xalıqov
filologiya elmləri doktoru, professor
(1949)

1949-cu ilin mart ayının 28-də Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuşdur. 1966-cı ildə Baş Layısqı kəndindəki orta məktəbi bitirmiş və həmin il M.F.Axundov adına APDİ-nin (indiki Azərbaycan Dillər Universiteti) Avropa dilləri fakültəsinin alman - Azərbaycan dilləri şöbəsinə qəbul olunmuşdur. 1971 -ci ildə ali məktəbi bitirib təyinatla Qutqaşen (indiki Qəbələ) rayonuna göndərilmiş və 1973-cü ilin sonuna qədər Mirzəbəyli kənd məktəbində alman və Azərbaycan dilini tədris etmişdir. 1974-cü ilin sonunda ailə vəziyyəti ilə əlaqədar Ağdam şəhərinə köçmüş və orada Maarif işçiləri evinin direktor müavini vəzifəsində işləmişdir. 1975-ci ildə Bakı şəhərinə gəlmiş və Azərbaycan EA-nın "Xəzər" Elmi Mərkəzində tərcüməçi kimi fəaliyyətini davam etdirmişdir.

1979-1983-cü illərdə Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunun dissertantı olub. "Mil-Qarabağ düzü rayonlarının toponimiyası (Ağdam, Ağcabədi və Bərdə rayonlarının materialları əsasında)" mövzusunda filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 1976-1992-ci illərdə Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi, elmi işçi, şöbə müdiri vəzifələrində çalışıb. 1988-1990-cı illərdə Nəsimi adına Dilçilik İnstitutunun Həmkarlar Komitəsinə rəhbərlik edib. 1989-2004-cü illərdə Azərbaycan dilinin folklor onomastikası ilə bağlı sistemli araşdırmalar aparmış, "Azərbaycan dilinin folklor onomastikası" (2004) mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

1989-cu ildə Azərbaycan Texniki İnstitutunun Azərbaycan dili və pedaqogika kafedrasına müəllim vəzifəsinə seçilmişdir. 1993-2003-cü illərdə həmin kafedranın dosenti olmuşdur.

2003-2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan dili, ədəbiyyat və onun tədrisi metodikası kafedrasının dosenti olmuş, 2007-2016-cı illərdə həmin kafedraya rəhbərlik etmişdir. 2011-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona professor elmi adı vermişdir. 15 sentyabr 2016-cı ildən ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının professorudur.

2008-2010-cu illərdə AMEA-nın Folklor İnstitutunda, 2010-2013-cü illərdə Nəsimi adına Dilçilik İnstitutunda Dissertasiya Şuralarının, 2013-2016-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Filologiya elmləri üzrə Ekspert Şurasının, 2016-2019-cu illərdə ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olub. ADPU-nun "Elmi Xəbərlər" jurnalının redaksiya heyətinin üzvüdür. Onun elmi rəhbərliyi ilə 5 nəfər filologiya, 7 nəfər pedaqoji elmlər üzrə dissertasiya müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi alıb. 40-dan artıq dissertasiya işinin rəsmi opponenti olub.

10 monoqrafiya, dərslik və dərs vəsaitlərinin, 120 -dən artıq elmi-metodiki məqalənin və tezisin müəllifidir. Moskva, Ufa, Daşkənd, Gülüstan, Mahaçqala və başqa şəhərlərdə keçirilmiş simpozium və konfranslarda iştirak edib.

Rafiq Yusif oğlu Əliyev
filologiya elmləri doktoru, professor,
Əməkdar mədəniyyət işçisi
(1950)

2 yanvar 1950-ci ildə Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Burada səkkizillik məktəbi (1964), Qubadlı şəhərində onillik məktəbi bitirmişdir (1966). 1966-1970-ci ADPİ-nin Filologiya fakültəsində oxumuşdur. Sumqayıt şəhərinin 10, 13, 23 №li orta məktəblərdə müəllim işləmişdir (1970-1985). O, 1978-1982-ci illərdə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında qiyabi təhsil almışdır. 1984-cü ildə "Azərbaycan sovet poemasının inkişaf problemləri (1956-1965)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı, 1985-ci ildə Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun müdavimi olmuşdur.

1985-ci ildə "Göyərçin" jurnalının redaksiyasına şöbə müdiri vəzifəsinə təyin olunmuşdur. 1986-cı ildə o, SSRİ Yazıçılar İttifaqına üzv qəbul olunmuşdur. 1992-1996-cı illərdə "Göyərçin" jurnalının redaksiyasında məsul katib, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Televiziyasının Xəbərlər Baş

redaksiyasında "Elm, Mədəniyyət, İncəsənət" şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1997-ci ilin may ayından "Göyərçin" jurnalının baş redaktorudur.

2005-ci ildə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

2006-cı ildə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Azərbaycan Prezidenti yanında AAK-ın 30 mart 2007-ci il tarixli qərarı ilə ona filologiya elmləri doktoru elmi dərəcəsi, 4 iyul 2006-cı il tarixli qərarı ilə dosent, 9 dekabr 2011-ci il tarixli qərarı ilə professor elmi adı verilmişdir.

2008-2016-cı illərdə ADPU-nun Dünya ədəbiyyatı kafedrasında dosent və professor vəzifəsində işləmişdir.

83 monoqrafiya, dərslik və dərs vəsaitləri nəşr olunmuşdur. O, "Qızıl kəlmə", "Qızıl qələm", "İlin ən yaxşı kitabı", "Vətən", "Araz" və sair ədəbi və media mükafatlarının laureatıdır. 2016-cı ildə Təhsil Nazirliyinin uşaq ədəbiyyatı üzrə elan etdiyi müsabiqədə poeziya üzrə birinci mükafata layiq görülmüşdür. Orta məktəb dərsliklərinə daxil edilən əsərlərinin biblioqrafik göstəricisi dörd yüzə yaxındır. Dünya ədəbiyyatının bir neçə görkəmli nümayəndəsinin əsərlərini dilimizə tərcümə etmişdir. Şeirləri ingilis, alman, rus, özbək, qazax, belorus və sair dillərə tərcümə edilmişdir.

Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki Dissertasiya Şurasının üzvüdür.

Minaxanım Allahşükür qızı Nuriyeva

filologiya elmləri doktoru, professor

(1950)



1950-ci il dekabrın 15-də Cəlilabad rayonu Pokrovka kəndində anadan olub. 1957-1967-ci ildə Pokrovka kənd orta məktəbində, 1967-1971-ci illərdə ADPİ-nin Filologiya fakültəsində oxuyub. 1971-1974-cü illərdə ADPİ-nin Azərbaycan dilçiliyi kafedrasında Türk xalqlarının dilləri ixtisası üzrə aspirantura təhsili alıb. 1983-cü ildə prof.A.Qurbanovun elmi rəhbərliyi ilə "Mehdi Hüseynin romanlarının leksikası" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi alıb. Azərbaycan dilçiliyi kafedrasında müəllim (1989), baş müəllim (1991), dosent (1995-2006) vəzifələrində çalışıb. 2004-cü ildə

"Rus dilində türk sözləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2006-cı ildə Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına professor vəzifəsinə seçilib.

"Türk əsilli ruslar" (2007, 2010), "Türk kitabı. Unudulan tarix. Dəyişdirilən yer adları" (2009), "Rus dilində türk sözləri" (1999;2006;2010),"Türk imzası" (2006), "Vüqarımı o dağlardan almışam" (2006), "Qərbdən Şərqə" (1999), "İstilalar, müharibələr, türk şəhərlərinin taleyi" (2005), "Qafqaz İslam ordusunun fəaliyyət xronologiyası" (2008), "Sarı gəlin" (2007, 2014), "Sirrimi bilmədin" (2009), "Azərbaycanın tarixi toyları" (2017), "Mərkəzi Rusiyanın türk coğrafiyası" (2018), "Sənət kəşfləri. Yaradıcılıq səadəti" (2019), "Yaddaş Kitabı: Azad və tənha adamlar" (2019) kitablarının, çoxsaylı elmi və publisistik məqalələrin müəllifidir. Ümumtürk mədəni irsinin müqayisəli şəkildə araşdırılması, ortaq tariximizin təhrif edilmiş səhifələrinin bərpa edilməsi, türk dillərinin tarixi, bu günü ilə bağlı problemlərin araşdırılması, qədim türklərin dünya sivilizasiyasındakı mövqeyinin araşdırılması onun tədqiqatlarının əsasını təşkil edir. Elmi axtarışlarla bərabər bədii yaradıcılıqla da məşğul olur; Türk dünyası əfsanələrini yazıya alır, böyük şəxsiyyətlərin həyatından portret oçerklər yazır. Ana dilinin və vətən tarixinin keçmişi və müasir məsələlərinə dair radio və televiziyada çıxışlar edir. Özbəkistanda, Rusiyada, İranda, Türkiyədə, Almaniyada keçirilən Türkoloji və Şərqşünaslıq məsələlərinə dair simpoziumlarda və konfranslarda iştirak etmişdir. Son illərdə "Mahmud Kaşğari adına Türk Ocağının San Yarlığı", "Qafqaz-Media" təşkilatının "Cəsarətli qələm", Yazıçılar Birliyi Həmkarlar İttifaqının "Vətən", "Rəsul Rza" beynəlxalq mükafatlarına layiq görülmüşdür. 2014-cü ildə TÜRKSAV tərəfindən "Türk Dünyasına Xidmət" ödülü ilə təltif edilmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ramazan Oruc oğlu Qafarlı

filologiya elmləri doktoru, professor

(1951)

1951-ci ilin iyun ayının 17-də Şəki şəhərində anadan olmuşdur. İbtidai təhsilini (I-IV siniflər) Şəki şəhəri 7 №-li orta məktəbdə, orta təhsilini (V-X siniflər) Bakı şəhərindəki 39 №-li orta məktəbdə almışdır. 1970-1974-cü illərdə ADPİ-nin Filologiya fakültəsində oxumuşdur. 1974-1977-ci illərdə ADPİ-də komsomol komitəsinin katibi və həmkarlar ittifaqı təşkilatının sədri vəzifələrində çalışmışdır. 1977-1981-ci illərdə Rusiyada yaşamışdır. 1981-1984-cü illərdə Xətai ra-

yonundakı 204 №-li orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir. 1984-1987-ci illərdə ADPİ-nin əyani aspiranturasında təhsil almış, 1988-ci ildə "Azərbaycan uşaq folkloru" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1989-1991-ci illərdə filologiya elmləri üzrə ADPİ-nin nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının elmi katibi, 2011-2016-cı illərdə "Dədə Qorqud Elmi-Tədqiqat Mərkəzi"nin müdiri vəzifəsində işləmişdir. 2010-cu ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Müdafiə Şurasında "Azərbaycan türklərinin mifologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 2011-2016-cı illərdə Dünya ədəbiyyatı tarixi kafedrasının professoru olmuşdur. "Mif və nağıl" (1999), "Azərbaycan mifologiyası" (2001), "Azərbaycan atalar sözləri, xalq mahnıları və dramlarının poetikası" (2001), "Folklor poetikası" (2001), "Azərbaycan uşaq folkloru və poetikası" (2002), "Mifologiya və folklorşünaslıq məsələləri" (2002), "Azərbaycan türklərinin mifologiyası" (2005), "Mif, nağıl və əfsanə" (2004) monoqrafiyalarının, "Şəki folkloru" (2002) toplusunun və 300-dən artıq elmi-publisistik məqalənin müəllifidir. Xalq şairi Bəxtiyar Vahabzadənin əsərlərinin külliyyatının 12 cildliyini tərtib edib nəşrə hazırlamış, "Bəxtiyar Vahabzadə əbədiyyat yolunda" (2010) kitabını nəşr etdirmişdir.

AMEA Ədəbiyyat İnstitutunun hazırladığı 6 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin 1-ci cildinin (2004) müəlliflərindən biridir. Sankt-Peterburqda "Философия любви на деревнем Востоке и Низами" ("Qədim Şərqdə məhəbbət fəlsəfəsi və Nizami") monoqrafiyası, Moskvada "Детская литература" jurnalında elmi məqalələri çap olunub. R.Qafarlı folklor poetikası, mifologiya, "Kitabi-Dədə Qorqud"un poetik strukturu, uşaq folkloru, xalq dramları, atalar sözü, aşıq sənəti və sufizm, Nizami və "Avesta", struktur poetikası və s. problemlər üzərində tədqiqat işləri aparır. R.Qafarlı 1990-cı ildə Soçidə keçirilən gənc tənqidçilərin Ümumittifaq müşavirəsində, 2000-ci ildə "Dədə Qorqud-1300" Beynəlxalq elmi simpoziumunda, 2003 və 2004-cü illərdə Sankt-Peterburq şəhərində IV və V "Реальность этноса" Beynəlxalq elmi konfransında, Türkiyənin Ankara, İstanbul, Antalya, Fətiyyə, İzmir və b. şəhərlərində keçirilən Uluslararası elmi simpoziumlarda məruzələrlə çıxış etmişdir.2003-cü ilin noyabr ayında R.Qafarlı respublikamızda ilk dəfə olaraq

Azərbaycan folkloru və mifologiyasının müxtəlif problemlerini özündə əks etdirən www.azmif. net (“Азербайджанская тюркская мифология и фольклор” // “Azərbaycan türk mifologiyası və folkloru”) saytını yaratmışdır. Mədəniyyətimizi beynəlxalq səviyyədə yaydığına görə www.azmif.net saytı 2005-ci ildə “Netty” Beynəlxalq İnternet Akademiyasının elan etdiyi müsabiqənin qaliblərindən biri olmuşdur.

2016-cı ildən AMEA-nın Folklor İnstitutunun Dədə Qorqud şöbəsinin müdiri vəzifəsində çalışır.

Fikrət Çingiz oğlu Rzayev
filologiya elmləri doktoru, professor
(1953)

16 mart 1953-cü ildə Gəncə şəhərində ziyalı ailəsində anadan olub. 1960-1970-ci illərdə Gəncə şəhərindəki 4 №-li ümumtəhsil məktəbində, 1970-1974-cü illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin rus dili və ədəbiyyatı şöbəsində təhsil alıb. Kiçik yaşlarından elmə, sənətə, ədəbiyyata maraq göstərən F.Rzayev Azərbaycan ETPEİ-nin aspiranturasında rus dilinin tədrisi metodikası ixtisası üzrə təhsil alıb. 1984-cü ildə A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda ”Педагогические основы стимулирования изучения русского языка учащимися 4-8 классов азербайджанских школ в процессе внеклассной работы” mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Azərbaycan Dövlət Universitetinin Rus dili kafedrasında müəllim kimi başlayan Fikrət Rzayev 2013-cü ilə kimi həmin kafedrada müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. 2011-ci ildə Bakı Slavyan Universitetinin nəzdindəki filologiya elmləri üzrə Dissertasiya Şurasında “Проблемы перевода прозы Л.Н.Толстого на азербайджанский язык” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2012-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona filologiya üzrə elmlər doktoru elmi dərəcəsi verilmişdir.

2013-2015-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının Filologiya fakültəsinin dekanı vəzifəsində çalışıb. 2015-

ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin sosial və humanitar məsələlər üzrə prorektoru, Ədəbiyyat kafedrasının professorudur.

Rusiyada və Azərbaycanda ədəbiyyatşünas və mətnşünas alim kimi yaxşı tanınan Fikrət Rzayev çoxşaxəli yaradıcılıq kredosuna malikdir. Elmi fəaliyyətinin əsasını görkəmli rus yazıçısı Tolstoyun yaradıcılığı təşkil edir. Elə buna görə də o, Rusiyada Tolstoyşünaslıq elmi məktəbinin nüfuzlu nümayəndələrindən biri kimi qəbul edilir. Tolstoyun yaradıcılığı ilə bağlı orijinal elmi məqalələri, sistemli araşdırmaları ona Rusiyada və Avropada böyük şöhrət gətirmişdir. Dünya Tolstoyşünaslığının ən qüdrətli nümayəndəsi professor M.İ.Şerbakova onun haqqında yazır: "Rusist alim kimi Fikrət Rzayev XIX əsr rus ədəbiyyatı və mədəniyyəti məsələlərində istiqamətləri çox məharətlə müəyyənləşdirir, çünki bu dövrün araşdırılması üçün vacib olan həssaslığa və dərin biliklərə malikdir." Elmi nüfuzunun nəticəsidir ki, 2009-cu ildə Fikrət Rzayevin "Проза Л.Н.Толстого в азербайджанских переводах" monoqrafiyasının təqdimatı Beynəlxalq konfrans çərçivəsində Tolstoyun vətənində - Yasnaya Polyana muzeyində keçirilib. Məşhur Tolstoyşünas alim K.Sultanov onun bu sahədəki tədqiqatlarını təqdir edərək yazır:"Tolstoyun tədqiqata cəlb edilmiş əsərlərinin diapazonu kifayət qədər geniş olduğundan, araşdırmanın ümumiləşdirici xarakteri haqqında danışmaq mümkündür. Bununla əlaqədar olaraq Fikrət Rzayevin İstanbulda keçirilən "Tolstoyun ədəbi irsi" konfransının iştirakçısı kimi "L.N.Tolstoyun Azərbaycan dilinə tərcümələrindəki bəzi kulturoloji problemlər" mövzusunda məruzəsinə Tolstoyşünasların marağını yada salmaya bilmərəm."

Tanınmış mətnşünas Fikrət Rzayev Cəfər Cabbarlının naməlum əlyazmasını tapıb üzə çıxarıb və 2008-ci ildə "Ön söz" və şərhlərlə nəşr etdirib. Bu, C.Cabbarlının əlyazma şəklində Teatr muzeyinin arxivində saxlanılan L.Tolstoyun "Hacı Murad" povestinin tərcüməsi və səhnə variantı idi. Cabbarlışünasların ədəbi hadisə kimi dəyərləndirdikləri bu elmi fakta görə o, "Cəfər Cabbarlı mükafatı"na layiq görüb.

"Вопросы обучения русскому языку в азербайджанской школе" (1977), "Русский язык. (Учебник для 3 класса азербайджанской школы) (1993), "Проза Л.Н.Толстого в азербайджанских переводах" (2009), "L.N.Tolstoyun əsərləri Azərbaycan dilində (tərcümə məsələləri) (2009), "Восток в русской литературе (2011), "Литература" (2012-2019), "Актуальные вопросы теории и практики художественного перевода (на материале переводов произведений Л.Н.Толстого)" (2016), "Вопросы литературных связей и художественного перевода" (2018) monoqrafiya, dərslik və dərs vəsaitlərinin, Azərbaycan, Rusiya, Türkiyə, İngiltərə, Gürcüstan,

Qazaxıstan və Yunanıstanın nüfuzlu elmi jurnallarında nəşr olunmuş 130 elmi və elmi-metodik məqalənin müəllifidir.

Onlarla kitabların elmi redaktoru və rəyçisi olub. Respublikada və xarici ölkələrdə keçirilən Beynəlxalq elmi konfransların iştirakçısı, məruzəçisi, təşkilat komitəsinin üzvü olub. 1990-cı ildə Rus dili və ədəbiyyatı müəllimlərinin Beynəlxalq Assosiasiyasının 7-ci Konqresində, 2009 və 2010-cu illərdə Rus Dünyası Forumlarında iştirak edərək Azərbaycan elmini ləyaqətlə təmsil edib.

Pedaqoji və elmi-pedaqoji kadr hazırlığında xidmətləri var. Onun elmi rəhbərliyi ilə 3 nəfər fəlsəfə doktoru, elmi məsləhətçiliyi ilə 1 nəfər elmlər doktoru dissertasiyası müdafiə edib. 10 nəfərin fəlsəfə və elmlər doktorluğu dissertasiyasının rəsmi opponenti olub. Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, Təhsil Nazirliyinin Dərsliklərin qiymətləndirməsi Şurasının, ali təhsil pilləsinin hər səviyyəsi üçün dövlət standartı və təhsil proqramlarının hazırlanması ilə bağlı yaradılan İşçi qrupunun üzvü, Humanitar və sosial ixtisaslar üzrə komissiyanın sədridir.

ADPU-nun "Elmi xəbərləri"nin, Sumqayıt Dövlət Universitetinin "Elmi Xəbərləri"nin, "Azərbaycanda rus dili və ədəbiyyatı", Gürcüstanın A.Tsereteli adına Kutaisi Dövlət Universitetinin "Славистика в инонациональной среде", Rusiyanın "Дидактическая филология" (Дагестан), "Современный ученый" (Белгород), «Modern humanities success», Türkiyənin "International Journal of Euroasian" jurnallarının redaksiya heyətinin üzvüdür.

Ramil Manaf oğlu Əliyev

filologiya üzrə elmlər doktoru, professor

(1953)

28 sentyabr 1953-cü ildə Şəki şəhərində anadan olmuşdur. 1960 - 1970-ci illərdə Şəki şəhər 10 №-li orta məktəbdə təhsil almışdır. 1970 - 1971-ci illərdə Şəki mətbəəsində çalışmışdır. 1972-1977-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində oxumuşdur. 1983-cü ildə Nizami adına Azərbaycan ədəbiyyatı tarixi muzeyində, 1983 - 1995-ci illərdə "Elm" nəşriyyatında işləmişdir. 1992-ci il də "Mifoloji görüşlər və onların Azərbaycan nağıllarında izləri" mövzusunda namizədlik, 2008-ci ildə "Türk mifoloji düşüncəsi və onun epik trans-

formasiyaları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2009-cu ildən filologiya üzrə elmlər doktorudur.

1995-2002-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunda (sonralar Beynəlxalq Münasibətlər İnstitutu adlanmışdır) mifologiyanın və milli münasibətlərin sosial və fəlsəfi problemləri ilə məşğul olmuş, 2002-ci ildə isə AMEA Folklor İnstitutunda böyük elmi işçi, aparıcı elmi işçi işləmişdir. 2009-cu ildə əvvəlcə Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan dilinin tədrisi metodikası kafedrasında yarım ştat müəllim, sonra Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasında tam ştat dosent vəzifəsini tutmuşdur. 2011 - 2015-ci illərdə AMİ-nin Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasında müdir, 2015-ci ildə elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir. 2014-cü il noyabrın 21-də AAK-ın müvafiq qərarı ilə professor elmi adını almışdır. 2016- 2019-cu illərdə ADPU-nun Azərbaycan və dünya ədəbiyyatı kafedrasının professoru olmuşdur. Hazırda Ədəbiyyat kafedrasının professorudur. 100-dən artıq kitab, monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalənin müəllifidir.

Onun əsas tədqiqat sahəsi şifahi xalq yaradıcılığının nəzəri məsələləri və mifologiyadır. Mifologiya ilə bağlı tədqiqatları "Azərbaycan nağıllarında mifik görüşlər" (1992), "Mifoloji şüurun bədii spesifikası" (2001), "Mif və folklor: genezisi və poetikası" (2005), "Riyazi mifologiya" (2008), "Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları" (2014), "Mifologiya" (2018) monoqrafiyalarında öz əksini tapmışdır. Bu əsərlərdə mifologiyanın etnomifologiya, sosial mifologiya, psixomifologiya, riyazi mifologiya ilə bağlı maraqlı elmi nəticələr əldə edilmiş, mif, əfsanə, rəvayət, lətifə, qaravəlli, nağıl, epos və dastan mətnlərindəki düsturların, tənliklərin, bəzi alqoritmlərin riyazi həllinə nail olunmuşdur. Onun "Riyazi mifologiya" kitabı (Mathematical Mythology. The experience of mathematical-functional modeling of mythological information. Lambert Academic Publishing) Almaniyada çap olunmuşdur (2018). "Orta əsrlər Şərq ədəbiyyatı" (2012), "Orta əsrlər Şərq intibah ədəbiyyatı tarixi" (2014) "Azərbaycan şifahi xalq ədəbiyyatı" (2014) dərs vəsaitləri nəşr olunub. "Sabaha məktublar" (2009) əsərindəki 22 elmi-publisistik məktubda görkəmli Azərbaycan folklorşünası professor Mürsəl Həkimovun elmi yaradıcılığının təhlili verilir. "Azad Nəbiyev və folklor ədəbi irsi" monoqrafiyasında AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyevin elmi yaradıcılığı təhlil olunur. Onun nəşrə hazırladığı 4 hissəlik "Azərbaycan əfsanə və rəvayətlərinin motiv göstəricisi" adlı fundamental əsərində 1900-dən artıq əfsanə və rəvayətin mətni verilmişdir.

Qazaxıstandakı (Çimkənd) Əhməd Yəsəvi Universitetinin "Türkologiya" jurnalının redaksiya heyətinin üzvüdür



Nabat Beydulla qızı Cəfərova
pedaqogika üzrə elmlər doktoru
(1953)

15 dekabr 1953-cü ildə Quba rayonunun Puçuq kəndində anadan olub. 1961-1971-ci illərdə Quba rayonu Qonaqkənd qəsəbə orta məktəbində, 1980-1985-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Pedaqoji fakültəsində təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə başa vurub.

1988-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun əyani aspiranturasına (ibtidai təlim üzrə) daxil olub. "İkidillilik şəraitində uşaqların Azərbaycan dilində təlimə hazırlanmaları üzrə işin sistemi" mövzusunda namizədlik (1992), "İbtidai siniflərin Azərbaycan dili dərslərində morfoloji qaydaların öyrənilməsi üzrə işin sistemi" mövzusunda doktorluq (2016) dissertasiyası müdafiə edib.

Quba rayonu Qonaqkənd qəsəbə "Qumaş xalçaçı" fabrikində toxucu (1972-1980), Qonaqkənd qəsəbə orta məktəbində ibtidai sinif müəllimi (1985-1988), Azərbaycan ETPEİ-nin Azsaylı xalqların dillərinin tədrisi metodikası bölməsində kiçik elmi işçi (1990-1992), aparıcı elmi işçi (1993-2000), Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda Sosiologiya, nəzəri və tətbiqi psixologiya şöbəsində elmi işçi (2001), Məktəbəqədər və ibtidai təlim şöbəsində elmi işçi (2001-2002), Azərbaycan Müəllimlər İnstitutunun İbtidai təhsilin və məktəbəqədər təhsilin metodikası kafedrasında dosent (2002-2016) vəzifələrində işləmişdir. Əvəzçiliklə Azərbaycan Müəllimlər İnstitutunun Salyan filialında (2009-2015), Sumqayıt Dövlət Universitetində (2015-2019) mühazirələr oxumuşdur. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında dosent vəzifəsində çalışır.

"İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (I hissə)", "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (II hissə), "Nitq inkişafı üzrə işin metodikası", "Oxu", həmçinin "Əlifba" (Tat dilində, II sinif), "Zuhun tati" (III sinif), "Zuhun tati" (IV sinif) adlı dərsliklərin və "Orfoqrafiya və orfoepiya tədrisinin metodik əsasları", "Kurikulumun məzmunu və həyata keçirilməsi yolları" adlı dərs vəsaitlərinin müəllifidir. Ümumiyyətlə, onun 2 monoqrafiya, 7 dərslik, 2 dərs vəsaiti, 5 tədris proqramı, 6 metodik vəsaiti, 115-dən çox elmi məqalə və tezisi işıq üzü görüb. İbtidai siniflərdə Azərbay-

can dilinin tədrisi metodikası, ikidillilik şəraitində Azərbaycan dilinin tədrisi, nitq inkişafı üzrə işin metodikası, orfoqrafiya və orfoepiya təliminin metodik əsasları, təlimdə inteqrasiya məsələləri, Azərbaycan dilinin tədrisində didaktik oyunlardan istifadə üzrə işin təşkili onun tədqiqatlarının əsas istiqamətlərini təşkil edir.

Əsərləri Moskva, Kursk, Voronej, Səmərqənd, Astana, Tolyatti, Ankara şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində rus, ingilis, türk, özbək dillərində çap edilib.

İbrahim Məhəmməd oğlu Bayramov
filologiya elmləri doktoru, professor
(1954)

25 yanvar 1954-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının Toxluca kəndində anadan olmuşdur. 1961-ci ildə Toxluca kənd orta məktəbinin I sinfinə qəbul olunmuş, 1971-ci ildə həmin məktəbin X sinfini bitirmişdir. 1971-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda yerləşən X.Abovyan adına Ermənistan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinin Azərbaycan şöbəsinin I kursuna qəbul olunmuş, 1975-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. Tələbə olarkən Filologiya fakültəsinin Azərbaycan bölməsinin Tələbə Elmi Cəmiyyətinin sədri olmuşdur. Əmək fəaliyyətinə 1975-ci ildə Krasnoselo rayonunun Toxluca kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamışdır. İki ildən sonra, 1977-ci ildə Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunun qiyabi aspiranturasına qəbul olmuşdur. 1977-1981-ci illərdə aspiranturada oxumuşdur. 1986-cı ildə "Müasir Azərbaycan ədəbi dilinin xalq danışıq dili hesabına zənginləşməsi yolları" (leksika və frazeologiya) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1987-1988-ci illərdə Krasnoselo rayonunun Toxluca kənd orta məktəbində direktor işləmişdir. 1988-ci ilin dekabrında Ermənistandan -doğulub boya-başa çatdığı doğma yurdundan deportasiya olunmuşdur.

1989-1993-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) Azərbaycan və rus dili kafedrasında baş laborant işləmişdir. 1995-ci ildə Azərbay-

can Dövlət Pedaqoji Universitetinin "Azərbaycan dilinin onomalogiyası" elmi-tədqiqat laboratoriyasına müsabiqə yolu ilə kiçik elmi işçi vəzifəsini tutmuş, az sonra Müasir Azərbaycan dili kafedrasına müəllim təyin edilmişdir. 12 dekabr 1995-ci ildə həmin kafedranın dosenti vəzifəsinə seçilmişdir. 2001-2003-cü illərdə ADPU TEC-nin sədri, 2002-ci ilin mart ayının 9-dan 2003-cü ilin sentyabrın 23-nə kimi ADPU-nun İxtisasartırma və yenidənhazırlanma fakültəsinin dekanı işləmişdir. 4 iyun 2003-cü ildən ADPU-nun Magistratura və doktorantura şöbəsinin müdiri vəzifəsində işləyir. 2007-2012, 2014-2018-ci illərdə ADPU-da tələbə qəbulu üzrə məsul katib vəzifəsini yerinə yetirmişdir. 2005-2007-ci illərdə ADPU-nun tədris-metodika şöbəsinin müdiri, 2003-2007-ci illərdə universitetin Elmi şurasının elmi katibi vəzifələrini də icra etmişdir. 2007-ci ilin oktyabrın 9-da AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Dissertasiya Şurasında "Ermənistanın türk mənşəli toponimlərinin tarixi-linqvistik analizi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

2009-cu ildə ADPU-nun Müasir Azərbaycan dili kafedrasına professor vəzifəsinə seçilmişdir. O, 2002 - 2016 -cı illərdə ADPU-nun Elmi Şurasının, 2006-2009 -cu, 2017-2018- ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya üzrə ekspert şurasının, 2009-2016 -cı illərdə ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olmuşdur.

O, "Azərbaycan dili" ixtisasının magistr səviyyəsi üzrə 1 proqramın, "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" (1995), "Историческая география Западного Азербайджана" (kollektiv,1998), "Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsi yolları" (1999), "Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti" (2000), "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" (2002), "Qərbi Azərbaycanın toponimlər sistemi" (2005), "Qərbi Azərbaycan şivələrinin leksikası"(2010), "Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti", "Həqiqətin onomastikası" (2021) monoqrafiyalarının və 150-dən çox elmi məqalənin müəllifidir.

Sərdar Səyyad oğlu Zeynalov
filologiya elmləri doktoru
(1954)

3 avqust 1954-cü ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Tivi kəndində anadan olub. 1970-ci ildə Tivi kənd orta məktəbini bitirib və V.İ.Lenin adına ADPİ-nin Filologiya fakültəsinə daxil olub. 1974-cü ildə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunu bitirib. Əvvəlcə Ordubad rayonundakı Xurs kənd səkkizillik məktəbində müəllim və tədris işləri üzrə direktor müavini, Naxçıvan MR Mədəniyyət Nazirliyində şöbə müdiri, 1980-cı ildən Tivi kənd orta məktəbində müəllim işləmişdir. 1988-ci ildən Sabunçu rayonundakı 142 №-li orta məktəbdə dil-ədəbiyyat müəllimi işləyir. 1992-ci ildən Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 1999-cu ildə "Orta məktəbin Azərbaycan dili dərsliklərində dilçilik məsələləri (sintaksis) (1945-1995)" mövzusunda namizədlik, 2015 - ci ildə "XX əsrin Azərbaycan dili dərsliklərində dilçilik məsələləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmisdir.

Hələ orta məktəbin VIII sinfində oxuyarkən "Azərbaycan gəncləri" qəzetində təşkil edilmiş "Anam doğma Azərbaycan" adlı inşa müsabiqəsində fəal iştirak etmiş, mövzunu nəsrlə deyil nəzmlə qələmə almışdır. 1984-cü ildə Naxçıvan Vilayət Komsomol Komitəsinin Naxçıvan Yazıçılar Birliyi ilə birlikdə keçirdikləri müsabiqədə Böyük Vətən müharibəsi zamanı Polşa Respublikasında fəaliyyət göstərən "Avanqard" partizan dəstəsinin rəhbərlərindən biri olan qəhrəman eloğlusu Məmmədhüseyn Kərimova həsr etdiyi "Şöhrət yolu" poeması müsabiqənin ən yüksək mükafatına layiq görülmüş və Fəxri fərmanla təltif olunmuşdur. Televiziyada şair və dilçi alim kimi çıxışlar etmişdir.

1974 -cü ildən elmi və bədii yaradıcılıqla məşğuldur. 2004-cü ildə 50 illik yubileyi AYB-nin "Natəvan" klubunda təntənəli şəkildə qeyd edilmiş, pedaqoji sahədəki fəaliyyəti Bakı Şəhər Baş Təhsil İdarəsi tərəfindən Fəxri fərmanla qiymətləndirilmişdir. 60 illik yubileyi ilə bağlı "Sərdar Zeynalın poeziya və dilçilik salnaməsi" (2016) kitabı nəşr olunub. 2000-2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunda işləyib. 2017-ci ildən ADPU-nun Müasir Azərbaycan dili kafedrasının dosentidir.

"Orta məktəblərin "Azərbaycan dili" dərsliklərində dilçilik məsələləri" (1999), "Orta məktəbin Azərbaycan dili dərsliklərində cümlə və cümlə üzvləri" (2001), "Orta məktəbin Azərbaycan dili dərslikləri" (2003), "Azərbaycan dili morfologiyasının tədqiqi tarixi (XX əsr)" (2011), "Azərbaycan dili qrammatikasının bəzi problemləri" (2014), "XX əsrin Azərbaycan dili dərslikləri" (2015), "Актуальные проблемы в морфологии Азербайджанского языка. Ламберт Akademik publishing LAP Qermaniya saarbriysken (2014), "Müasir Azərbaycan dili: morfologiya -isim (2017), "Tivi şivəsinin izahlı lügəti" (şərikli) (2019) adlı monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifidir.

Bədii yaradıcılıqla məşğul olan Sərdar Zeynalın "Sənin lə bəxtəvər olacağam mən" (1989, "Üyüt ömür dəyirmanı" (1993), "İnandım ki, həqiqətdi bu sevgi" (1994), "Bir ürək sevgiyəm" (2004), "Mən nələr çəkirəm" (2005), "Dəniz ağladır məni" (2012), "Məni düşünəcəksən" (2013), "Elə dərd var ürəyimə yazmışam" (2015), "Qədrimi bilmədin" (2017) şeir kitablarının müəllifidir.

Kamil Kamal oğlu Bəşirov

filologiya elmləri doktoru, professor

(1955)

1955-ci il iyun ayının 5-də Yevlax rayonunun Qoyunbinəsi kəndində anadan olub. 1961-1971-ci illərdə Qoyunbinəsi kənd orta məktəbində oxuyub. 1971-1975-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Filologiya fakültəsində ali təhsil alıb. Respublikanın tanınmış alimlərindən - akademiklər Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə, Afad Qurbanov, Xalq yazıçısı İsmayıl Şıxlı, professorlar Məhəmmədhüseyn Təhmasib, Paşa Əfəndiyev, Mirdavud Hüseynov, Fərhad Fərhadov, Məmməd Məmmədov, Xeyrulla Məmmədov, Əlisa Şükürlü, Qəzənfər Kazımov, Zakir Şıxlinski, dövrün görkəmli ədəbiyyatşünas və tənqidçiləri olan Kamal Qəhrəmanov, Əhəd Hüseynov, İsrail Mustafayev, Əlifağa Bağırov, Məmmədbağır Həyatzadədən dərs alıb. Yevlax rayonunun Bucaq, Salamabad, Yuxari Bucaq, Quşçu və Əkşəm kəndlərində və Yevlax şəhərindəki qiyabi və axşam məktəbində Azərbaycan dili və ədəbiyyatı fənnindən dərs deyib.

1980-ci ildə ADPİ-nin qiyabi təhsil üzrə aspiranturasına "SSRİ xalqları dilləri" ixtisası üzrə qəbul olunmuş, 1986-cı ildə akademik Afad Qurbanovun elmi rəhbərliyi ilə "Azərbaycanın mürəkkəb quruluşlu toponimləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1982-1990-cı illərdə Pedaqoji İnstitutun 2-ci tədris korpusunda (Bakıxanov tədris korpusu) tədris hissəsi üzrə tənzimatçı işləmişdir. 1990-cı ildə Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında müəllim kimi pedaqoji fəaliyyətə başlamışdır. 2007-2012-ci illərdə Filologiya fakültəsində dekan müavini vəzifəsində çalışmışdır. 2013-cü ildə "Oğuz qrupu türk dillərində sözdəyişdirici şəkilçilərin tarixi linqvistik tədqiqi" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi alıb.

2018-2019-cu illərdə "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasına rəhbərlik etmişdir. Hazırda həmin kafedranın professorudur. O, bir çox Beynəlxalq elmi konfrans və simpoziumların iştirakçısı olmuşdur. 2009-2018-ci illərdə ADPU-nun nəzdindəki Dissertasiya Şurasının üzvü olub. "Sözün tərkibi üzrə təhlilə dair" (1996), "III sinifdə Azərbaycan dili dərsləri" (2000), "Orta məktəbdə Azərbaycan dili morfologiyasının tədrisi məsələləri" (2008), "Oğuz qrupu türk dillərində qrammatik morfemlər" (2009), "Azərbaycan dilində sinonim qoşa sözlərin izahlı lüğəti" (2012), "M.Füzulinin "Leyli və Məcnun" əsərində arxaizmlər" (2015), "Türk dillərinin müqayisəsi: Oğuz qrupu türk dillərində morfoloji kateqoriyalar" (2018), "İ.Nəsiminin dili və üslubu" (2019) kitablarının və 100-ə yaxın elmi məqalənin müəllifidir. Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı bədii yaradıcılıqla da məşğul olur, şeir və hekayələr kitabının müəllifidir.

Nəbi Ələsgər oğlu Əsgərov

filologiya elmlər doktoru, professor

(1956-2020)

1956-cı il yanvar ayının 24-də Gürcüstanın Marneuli rayonunun Təzəkənd kəndində anadan olub. 1963-1973-cü illərdə Təzəkənd orta məktəbində təhsil alıb. 1973-1974-cü illərdə istehsalatda çalışıb. 1975-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinə daxil olub, 1979-cu ildə həmin fakültəni fərqlənmə diplomu ilə

bitirib. 1979-1981-ci illərdə təyinatla Ağdaş rayonunun Kotavan kənd orta məktəbində müəllim və direktor müavini işləyib.

1982-ci ildə Azərbaycan dili ixtisası üzrə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına daxil olmuş, 1986-cı ildə "Azərbaycan dilində hidronimlər" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

1984-1991-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda pedaqoji və istehsalat təcrübə rəhbəri vəzifəsində çalışmışdır. 1991-ci ildə ADPU-nun Azərbaycan dilçiliyi kafedrasına müəllim təyin olunmuşdur. 1991-2010-cu illərdə həmin kafedrada müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır.

1989-cu ildən Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin iştirakçılarından biri olmuş, 1991-ci ildə Ümummilli lider Heydər Əliyevə istiqamətlənmiş yaş senzinin ləğvində və "Heydər Əliyevi müdafiə komitəsi"nin yaranmasında fəal iştirak etmiş, 1992-ci il noyabr ayının 21-də Naxçıvanda ilk iclası keçirilən Yeni Azərbaycan Partiyasının təşəbbüskarları olan 91 vətənpərvər ziyalılardan biri olmuşdur.

1999-cu ildə Respublikamızda ilk dəfə keçirilən bələdiyyə seçkilərində iştirak etmiş, Xətai rayon bələdiyyəsinin sədri seçilmişdir.

2008-ci ildə "Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. 2010- 2020-ci illərdə Azərbaycan dilçiliyi kafedrasının professoru olmuşdur. 2016-cı ildə "Dədə Qorqud" elmi tədqiqat laboratoriyasına rəhbərlik etmişdir.

Onun "Azərbaycan dilində hidronimlər" (2002), "Xətai rayonu: mənəvi dünyası, keçmişi, bu günü" (2003), "Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri" (2005), "Azərbaycanın makrotoponimləri" (2009), "Adın tarixi, tarixin adi – Paleotoponimlər" (2010), "Azərbaycan hidronimlərinin semantik xüsusiyyətləri" (2011), "Azərbaycan çay adlarının tarixi-linqvistik təhlili" (2013), "Azərbaycanın göl adları" (2017) kitabları, 2 metodik vəsaiti, 150-dən artıq elmi məqaləsi nəşr olunub. 7 fənn proqramının tərtibçi-müəllifidir. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri ilə bağlı bir neçə məqaləsi xarici ölkələrin nüfuzlu jurnallarında çap edilib. Azərbaycan dilçiliyi ilə bağlı 50-dən çox əsərin elmi redaktoru və ya rəyçisi olub.

2013-cü ildə ADPU-da keçirilən "İlin müəllimi" nominasiyasının qaliblərindən biri olub, Təhsil Nazirliyinin Fəxri fərmanına və "Qızıl Qələm" mükafatına layiq görülüb. 2017-ci il noyabr ayının 18-də "Tərəqqi" medalı ilə təltif olunub.

21 mart 2020-ci ildə Bakı şəhərində vəfat edib.

Elman Hilal oğlu Quliyev
filologiya elmləri doktoru, professor
(1958)

1958-ci il 23 iyul tarixində Lerik rayonu Kələxan kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1969-cu ildə Kələxan kənd ibtidai məktəbini, 1975-ci ildə Kəlvəz kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. O, 1975-1976-cı illərdə Lerik rayon Kommunal Təsərrüfat Birliyində fəhlə, 1976-1977-ci illərdə isə Lerik rayon Rabitə Qovşağında teleqrafçı işləmişdir. 1977-1981-ci illərdə ADPU-nun Filologiya fakültəsində təhsil almışdır. İnstitutda oxuduğu illərdə ictimai fəallığı, intizamı, elmə marağı, çalışqanlığı ilə fərqlənmiş, "Nizami" təqaüdünə layiq görülmüşdür. Tələbə Elmi Cəmiyyətinin fəal üzvü olmuş, dəfələrlə TEC xətti ilə keçirilən elmi konfransların və müsabiqələrin qalibi olmuşdur. O, 1980-ci ildə ÜİLKGİ-nin Moskva şəhərində tələbə gənclər arasında keçirdiyi Ümumittifaq elmi konfransına təqdim etdiyi "L.Tolstoy və Azərbaycan ədəbiyyatı" adlı məqaləsinə görə birinci yerə layiq görülmüşdür. 1981-ci ildə ADPU-nu fərqlənmə diplomu ilə bitirərək təyinatla Lerik rayonunun Kəlvəz kənd orta məktəbinə göndərilmişdir. O, həmin məktəbdə əvvəlcə müəllim, daha sonra tədris işləri üzrə direktor müavini işləmişdir. Orta məktəbdə çalışdığı illərdə (1981-1991) həm məktəbin, həm də Lerik rayonunun mədəni-ictimai həyatında səmərəli fəaliyyət göstərmişdir. O, 1981-1991-ci illərdə paralel olaraq Kələxan kənd 8 illik məktəbində ixtisası üzrə müəllim işləmişdir. Həmin illərdə o, kənd və rayon sovetlərinə deputat seçilmişdir.

1985-ci ildə ADPU-da Azərbaycan ədəbiyyatı ixtisası üzrə dissertanturaya qəbul olunmuş, 1988-ci ildə "Azərbaycan ədəbiyyatında sosialist realizminin inkişafında Mirzə İbrahimovun rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1991-ci ildə Bakı şəhərinə köçmüş, ADPU-nun Folklorşünaslıq ETL-də laborant vəzifəsinə işə götürülmüşdür. O, 1992-ci ildə kiçik elmi işçi, 1993-cü ildə isə elmi işçi vəzifələrinə seçilmişdir. 1996-cı ildə Müasir Azərbaycan və dünya ədəbiyyatı kafedrasında müəllim, 1998-ci ildə dosent vəzifəsini tutmuşdur. 2004-cü ildə "M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.2007- 2019 -cu illərdə Müasir Azərbaycan və dünya

ədəbiyyatı kafedrasında professor vəzifəsində çalışmışdır. 2019-cu ildən Ədəbiyyat kafedrasının professorudur.

Azərbaycan ali məktəblərinin tədris planlarına ilk dəfə salınmış "Türk xalqları ədəbiyyatı" fənninin proqram və dərsliyinin yazılmasının ilk təşəbbüskarı və müəllifi Elman Quliyev olmuşdur. Onun "Türk xalqları ədəbiyyatı", "Şərq xalqları ədəbiyyatı" tədris proqramları, Türk xalqları ədəbiyyatı, "Türkiyə türk ədəbiyyatı" və "Müasir özbək ədəbiyyatı tarixi" kitabları bu sahədə yazılmış ilk proqram və dərsliklər hesab edilir. 2004-cü ildən "Türk odası"nın rəhbəridir. 2007-2019-cu illərdə "Türk araşdırmaları" Elmi-Tədqiqat Mərkəzinin müdiri olub. 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın qərarı ilə ona professor elmi adı verilmişdir. 1999-cu ildə "Mirzə Uluğbəy" (Özbəkistan) mükafatına layiq görülmüşdür. O, 2007-ci ildə YUNESKO xətti ilə keçirilən C.Ruminin 800 illik yubiley müsabiqəsinin laureatı, ADPU-da "İlin alimi" (2007, 2010) və "İlin müəllimi" (2011) müsabiqələrinin qalibi olmuşdur. 2012-ci ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir. Onun 20 kitabı, Azərbaycan və xarici dövlətlərdə 300-ə yaxın məqaləsi dərc edilmişdir. Məqalələrin xeyli hissəsi Türkiyə, İran, İraq, Türkmənistan, Qırğızıstan, Şimali Kipr və digər xarici ölkələrin jurnallarında çap edilmişdir. 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Azərbaycan-Türkiyə elmi-ədəbi əlaqələrinin genişlənməsində xidmətlərinə və türk xalqları ədəbiyyatı problemlərinin araşdırılması, türkçülüyün təbliği və s. sahələrdə göstərdiyi səmərəli fəaliyyətinə görə "Ən yaxşı tədqiqatçı vətənpərvər alim" qızıl medalına (2011), Almaniyada fəaliyyət göstərən "Muğam" Mədəniyyət Mərkəzinin diplomuna (2011), Şimali Kipr Türk Cümhuriyyətinin təltifinə (2011), Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə (2012), "Qızıl qələm" mükafatına (2013), Prezident təqaüdünə (2014), "Cəfər Cabbarlı mükafatı"na (2015), TÜRKSOY-un "Yusif Xas Hacib" (17 fevral 2017) və "Molla Pənah Vaqif" (7 dekabr 2017) medallarına, Türkiyə Cümhuriyyəti Başbakanlıq TİKA təşkilatının xüsusi təltifinə (23 aprel 2018), "Azərbaycan ziyalısı" media mükafatına (2018) və s. layiq görülmüşdür.

Hazırda ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, "Türk odası" və Elmi Tədqiqat Mərkəzinin Türk araşdırmaları bölməsinin rəhbəridir. Azərbaycan Milli Elmlər Akademiyasının akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür.

Yaqub Məhərrəm oğlu Babayev
filologiya üzrə elmlər doktoru, professor
(1958)

12 oktyabr 1958-ci ildə Gədəbəy rayonunun Dəyəqarabulaq kəndində anadan olmuşdur. Dəyəqarabulaq kənd səkkizillik məktəbində (1965-1973) və Rüstəm Əliyevkənd orta məktəbində təhsil (1973-1975) almışdır. 1976-1980-ci illərdə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunda (indiki Gəncə Dövlət Universiteti) ali təhsil almış, həmin institutun Azərbaycan dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1978 və 1979-cu illərdə TEC xətti ilə keçirilən respublika müsabiqəsində I dərəcəli diploma layiq görülmüşdür. Ali məktəbi bitirdikdən sonra təyinatla İsmayıllı rayonuna göndərilmiş, həmin rayonun Qalacıq kənd orta məktəbində (1980-1981) və 1 №-li Qələyə kənd qiyabi məktəbində (1983-1985) ixtisası üzrə müəllim işləmişdir. 1981-1983-cü illərdə ordu sıralarında xidmət etmişdir. V.İ.Lenin adına ADPİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının SSRİ xalqları ədəbiyyatı (Azərbaycan ədəbiyyatı) ixtisası üzrə əyani aspirantı (1985-1988) olmuşdur.

14 aprel 1989-cu ildə prof.Məmməd Məmmədovun elmi rəhbərliyi ilə "Azərbaycan uşaq nəsrinin inkişafı tarixindən (1905-1920)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

ADPU-nun "Folklorşünaslıq" laboratoriyasında kiçik elmi işçi (1990-1992) və baş elmi işçi (1992-1994) vəzifələrində çalışmış, Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim (1994-1998) işləmişdir. Daha sonra həmin kafedrada dosent (1998-2003) vəzifəsini tutan Yaqub Babayev 2003-cü ildən universitetdə yeni yaradılmış Folklor və qədim ədəbiyyat kafedrasında dosent vəzifəsini tutmuşdur (2003-2011). İki kafedra birləşdiyi üçün yenidən Azərbaycan ədəbiyyatı tarixi kafedrasında (2011-2015) çalışmışdır.

2015-ci ildən Ədəbiyyat və onun tədrisi metodikası kafedrasında işləyir. 2017-ci ildən həmin kafedranın professorudur.

2012-ci ildə "Anadilli Azərbaycan şeirinin poetikası (XIII-XIV əsrlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Elmi tədqiqatı və axtarışları qismən Azərbaycan uşaq ədəbiyyatı və folklorla, daha çox isə ədəbiyyatımızın orta əsrlər dövrü ilə bağlıdır. Onun uşaq

ədəbiyyatı ilə əlaqəli tədqiqatları, əsasən, XIX əsrin II yarısı və XX əsrin əvvəllərini əhatə edir. Həmmüəllifi olduğu (M.Məmmədov və T.Cavadovla birlikdə) "Pedaqoji mühit və uşaq ədəbiyyatı" (1992) adlı dərs vəsaiti də həmin dövrün uşaq ədəbiyyatının araşdırılmasına həsr edilmişdir. Eyni həmmüəlliflərlə birlikdə tərtib etdiyi "Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası" (1998) da eyni dövrün mətbu uşaq ədəbiyyatı nümunələrini əhatə edir. Həmin nümunələrin əksəriyyəti yalnız XIX-XX əsrlərin hüdudlarında nəşr edilmişdi və sonrakı elmi-kütləvi ictimaiyyətə bəlli deyildi.

Azərbaycan folkloru ilə bağlı "İki ustad: Miskin Vəli, Növrəs İman" (1996), "Üç el şairi" (1999), "Miskin Vəli. Şeirlər, dastanlar" (2016) kitablarının müəllifidir. Daha çox orta əsrlər klassik ədəbiyyatımızın tədqiqi ilə məşğul olmuşdur. Bu həm də onunla əlaqədardır ki, o, uzun illər (1994-cü ildən) ali pedaqoji məktəblərdə "XIII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı" fənnini tədris etmişdir. Həmin fənnin "Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər)" (2014, 2018) dərsliyi də onun tərəfindən yazılmışdır.

"Anadilli Azərbaycan ədəbiyyatının təşəkkülü və epik şeirin inkişafı (XII-XIV əsrlər)" (2008), "XIII-XIV əsrlər anadilli lirik şeirimizin inkişaf yolu" (2009) adlı monoqrafiyaları da klassik ədəbiyyatımızın araşdırılması ilə bağlıdır. Alim uzun illər ərzində islam şərqində və Azərbaycan ədəbiyyatında təriqət ideyalarının elmi cəhətdən öyrənilməsi istiqamətində də faydalı işlər görmüş, sovet dönəmində araşdırılıb xalqa çatdırılması yasaq edilən bu ideyalarla geniş oxucu kütləsini, elmi ictimaiyyəti və tələbələri tanış etmək mənasında uğurlu təşəbbüslər göstərmişdir.

O, respublikada bu sahəni yaxşı bilən mütəxəssislərdən biri kimi tanınır. Müəllifin "Təriqət ədəbiyyatı: sufizm, hürufizm" (2007, 2011) adlı dərs vəsaiti, nüfuzlu mətbuat orqanlarında dərc olunan bir sıra məqalələri də bu istiqamətdə apardığı araşdırmaların nəticəsində meydana gəlmişdir.

1 dərsliyi, 2 dərs vəsaiti, 4 fənn proqramı, 2 monoqrafiyası, 4 toplama və tərtib kitabı, 100-dən çox elmi, 40-a yaxın publisistik məqaləsi işıq üzü görmüşdür. Rusiya, İran, Türkiyə, Qazaxıstan, Türkmənistan, Ukrayna kimi ölkələrdə onun klassik ədəbiyyatımızın müxtəlif problemlərinə və şəxsiyyətlərinə həsr olunmuş 15-ə qədər elmi məqaləsi dərc olunmuşdur.

Uzun illərdir ki, Mədəniyyət TV-də efirə çıxan "Məclisi-üns" verilişində bir mütəxəssis kimi çıxış edir. Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvüdür. Ədəbiyyatşünaslıq sahəsindəki səmərəli fəaliyyətinə görə 2015-2016-cı illərdə AYB xətti ilə Prezident təqaüdünə layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona 2019-cu ildə professor elmi adı verilmişdir. Mədəniyyət Nazirliyinin "Qızıl Kəlmə" ədəbi mükafatının

laureatıdır.

Əzizxan Vəli oğlu Tanrıverdiyev

filologiya elmləri doktoru, professor
(1959-2018)

1959-cu il yanvarın 1-də Gürcüstanın Başkeçid rayonunun Aşağı Qarabulaq kəndində anadan olub. 1973-cü ildə Aşağı Qarabulaq natamam orta məktəbi, 1975-ci ildə isə Kirovisi kənd orta məktəbini fərqlənmə ilə bitirib.- 1977-1981-ci illərdə ADPU-nun filologiya fakültəsində təhsil alıb.

Təhsil illərində Cəfər Cabbarlı adına təqaüdlə oxuyub. 1981-1983-cü illərdə Şabran (Dəvəçi) rayonu Quşçu kənd 8 illik məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib.

1985-1987-ci illərdə Azərbaycan dili ixtisası üzrə əyani aspirant olmuşdur. 1987-ci ildə "XVII-XIX əsr Azərbaycan antroponimləri" mövzusunda namizədlik, 1998-ci ildə "Türk mənşəli Azərbaycan antroponimlərinin tarixi-linqvistik tədqiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

ADPU-nun Azərbaycan dilçiliyi kafedrasında laborant (1987), baş laborant (1988), müəllim (1990), baş müəllim (1992-1994), dosent (1994-1999), professor (1999-2018) vəzifələrində çalışıb.

2011- 2018-ci illərdə Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri olub. 2007-2016-cı illərdə əvəzçiliklə AMEA-nın Folklor İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır.

O, türk mənşəli Azərbaycan şəxs adlarını tarixi-linqvistik müstəvidə tədqiq etmiş, "Kitabi-Dədə Qorqud"da şəxs adları, dağ kultu, at kultu, obrazlar sistemi, assonans və alliterasiya kimi məsələləri kompleks və sistemli şəkildə araşdırmışdır.

Dil tarixi, onomastika, ədəbi tənqidlə bağlı maraqlı araşdırmaların müəllifidir. "Dəli Kür" romanının poetik dilini tarixiliklə müasirliyin sintezində təhlil etmişdir. "Türk mənşəli Azərbaycan antroponimləri" (1996), "Kitabi-Dədə Qorqud"da şəxs adları" (1999), "XVI əsr qıpçaq (poloves) dilinin qrammatikası" (2000), "Kitabi-Dədə Qorqud və qərb ləhcəsi" (2002), "Kita-

bi-Dədə Qorqud”un obrazlı dili” (2006), “Kitabi-Dədə Qorqud”un söz dünyası” (2008), “Dilimiz, mənəviyyatımız” (2008), “Poeziyanın dili, dilin poeziyası” (2008),“Qədim türk mənbələrində yaşayan şəxs adları” (2009), Azərbaycan dilinin tarixi qrammatikası” (2010), “Dədə Qorqud kitabı”nda at kultu” (2012), “Dəli Kür” romanının poetik dili” (2012), “Dədə-Qorqud kitabı”nda dağ kultu” (2013), “Dədə Qorqud kitabı”nın obrazlar aləmi” (2013), “Dədə sözü işığında” (2014), “Çal qılıncını, xan Qazan!” (2015), ”Dədə Qorqud”un möcüzələr dünyası” (2015),”Dədə Qorqud”un zamanı” (2015),”Koroğlu”nun şeir dili” (2015), “Dilimiz, düşüncəmiz” (2017), “Türkologiyamızın Afat Qurbanovu” (2018), ”Ədəbiyyat və ədəbiyyatşünaslığın problemləri” (2018) adlı kitabların, 8 proqramın, 250-dən artıq elmi məqalə və tezisin müəllifidir. 4 doktorluq, 19 namizədlik dissertasiyasının rəsmi opponenti olub. Fəlsəfə doktoru üzrə 2 dissertasiyanın elmi rəhbəri olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Filologiya elmləri üzrə ekspert Şurasının (2003-2005), pedaqoji elmlər üzrə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının (2007-2009), Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi, təlim və tərbiyənin nəzəriyyəsi və metodikası ixtisasları üzrə ADPU-da fəaliyyət göstərən Dissertasiya Şurasının (2011-2016) üzvü olub. 2015-2018-ci illərdə Azərbaycan yazıçılar Birliyinin üzvü olub.

Haqqında M.Hüseynovun “Dədə Əzizxan” (2018) poeması və “Əzizxan Tanrıverdi - 60” (2018) kitabları nəşr oluub.

19 iyul 2018-ci ildə Bakı şəhərində vəfat edib.

Mahirə Nağı qızı Hüseynova

filologiya üzrə elmlər doktoru, professor

(1960)

4 noyabr 1960-cı ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonu (indiki Babək rayonu) Sust kəndində anadan olmuşdur. 1968-1976 -cı illərdə Xalxal kənd səkkizillik məktəbində, 1977-1978-ci illərdə Abşeron rayonu Mehdi Hüseynzadə adına Novxanı qəsəbə 1 №-li orta məktəbində oxumuşdur. 1980-1984-cü illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Filologiya fakültəsində təhsil almışdır. İnstitutu fərqlənmə diplomu ilə bitirən M.Hüseynova təyinatla əvvəlcə Abşeron rayonu Mehdiabad qəsəbə 1 №-li orta məktəbdə, sonra isə Bakı şəhəri N.Nərimanov rayonu G.Əsgərova adına



43 №-li MLK-da ixtisası üzrə müəllim işləmişdir. Təhsil sahəsindəki uğurlarına görə Təhsil Nazirliyi tərəfindən "Respublikanın qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur. 2003-cü ildə isə "İlin nümunəvi müəllimi" Respublika müsabiqəsinin qalibi olmuş, I dərəcəli diplom almışdır. 2018-ci ildə "İlin alimi" Media Mükafatı Laureatı olmuşdur.

ADPU-nun Müasir Azərbaycan dili kafedrasında müəllim (2009-2010), baş müəllim (2010-2014), dosent (2015-2016) vəzifələrində işləmişdir. 2012-ci ilin yanvarında "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2015-2018-ci illərdə Müasir Azərbaycan dili kafedrasına rəhbərlik etmişdir.

2017-ci ilin may ayının 2-də AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda "XIX-XX əsr Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almışdır. 2018-ci ilin may ayından Müasir Azərbaycan dili kafedrasının professorudur. 2018-ci ilin dekabr ayında ADPU-nun Filologiya fakültəsinin dekanı vəzifəsinə seçilmişdir. Fakültə Elmi Şurasının sədri, Universitet Elmi Şurasının üzvüdür. 2020-ci ildə ADPU-da beynəlxalq əlaqələr üzrə prorektor vəzifəsinə təyin olunmuşdur.

Azərbaycan dilçiliyinin bir sıra problemləri ilə bağlı 35 monoqrafiya, dərslik və dərs vəsaitinin, 5 fənn proqramının, 200-dən artıq elmi məqalənin müəllifidir. Dilimizin fonetik, leksik, qrammatik xüsusiyyətlərinin aktual problemlərindən bəhs edən məqalələrinin böyük əksəriyyəti (50-dən artıq) xarici ölkələrin nüfuzlu elmi jurnallarında nəşr olunmuşdur. Beynəlxalq və respublika səviyyəli elmi konfransların iştirakçısı olmuş, təşəkkürnamə və sertifikatlarla rəğbətləndirilmişdir.

2018-ci ilin aprel ayının 26-da Tatarıstan Respublikası, Kazan Federal Universiteti Beynəlxalq Türkoloji Elmi Konfransında "Türk dillerinin ağızlarında mutfak söz varlığının karşılaştırmalı öğrenilmesinin önemi (yiyecek ve içecek isimleri üzerine)" adlı məruzə ilə çıxış etmiş, Azərbaycan milli mədəniyyətini, mətbəx leksikasını tanıdaraq xüsusi təşəkkürnamə almışdır. Azər-

baycanın Türkiyə Cümhuriyyəti Qars şəhərindəki Baş Konsulluğu və Qars Qafqaz Universitetinin birgə təşkilatçılığı ilə təşkil olunmuş "Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi və Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyi" ilə əlaqədar "Geçmişten Günümüze Azerbaycan Cumhuriyeti" adlı paneldə "Ulu öndər Heydər Əliyev- 95" adlı məruzəsi ilə iştirak etmiş və bu çıxışına görə "Teşekkür Belgesi" ilə mükafatlandırılmışdır.

2018-ci il iyun ayında Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin "Türk dilləri dialektlərinin qarşılıqlı inteqrasiyası" adlı layihənin qalibi olmuşdur.Tarixi-etimoloji aspektdə tərtib etdiyi "Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti" (2018) kitabı Bakıda və ingilis dilinə tərcümə olunaraq ABŞ-da çap edilmişdir.

Şair təbiətli tədqiqatçı-alim Mahirə Hüseynova "Nağıqızı" təxəllüsü ilə şeirlər yazır. O, 2008-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 2013-cü ildə Mahirə Hüseynova Azərbaycan Yazıçı Qadınlar Birliyi tərəfindən "Tuti Bikə" mükafatı ilə təltif edilmişdir. "Linqvistika problemləri" beynəlxalq jurnalının və "Filoloq" qəzetinin təsisçisi və baş redaktorudur. Dilçilik sahəsindəki səmərəli fəaliyyətinə görə 2020-2021-ci illərdə AYB xətti ilə Prezident təqaüdünə layiq görülmüşdür.

Mirvari Abbas qızı İsmayılova

filologiya elmləri doktoru, professor

(1960)

5 mart 1960-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə Bakı şəhəri 115 №- li orta məktəbdə, 1977-1981-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Filologiya fakültəsində oxumuşdur.

1981-1986-cı illərdə Abşeron rayonu Məmmədli kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. 1985-ci ildə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun əyani aspiranturasına daxil olmuş, 1990-cı ildə "Azərbaycan dilində sözlərin məna dəyişmələri və onların "Azərbaycan dilinin izahlı lüğəti"ndə əksi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun lüğət və terminologiya şöbəsində kiçik elmi işçi (1991-1994), böyük elmi işçi (1994-1995), ADPU-nun Müasir Azərbaycan dili kafedrasında baş müəllim (1998 2003) və dosent (2003-2004) vəzifələrində çalışmışdır.

2004-cü ildən Azərbaycan dili kafedrasının professorudur. Müasir Azərbaycan dilinin fonetika, leksikologiya, morfologiya və sintaksisindən, türk dillərinin müqayisəsi və Azərbaycan dili və nitq mədəniyyəti fənlərindən mühazirələr oxuyur, seminar məşğələləri aparır. ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının elmi seminarının, universitet üzrə Test komissiyasının üzvü olub. Filologiya fakültəsi Elmi Şurasının və Metodbirləşməsinin üzvüdür.

5 yanvar 2002-ci ildə "Azərbaycan dili terminologiyasının linqvistik təhlili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2001-2002-ci illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qanunvericilik və hüquqi təbliğat idarəsində mütəxəssis- filoloq kimi işləmişdir. Azərbaycan dilinin tarixinə və müasir problemləri ilə bağlı Ədliyyə Nazirliyinin təlim-tədris mərkəzində mühazirələr oxumuşdur.

2000-2015-ci illərdə Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Akademiyasında "Nitq mədəniyyəti" fənnini tədris etmiş, həmin fənnə aid proqram və dərslik (2012-ci il) hazırlamışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun ("Elm-Təhsil inteqrasiyası" məqsədli qrant müsabiqəsinin (2018/2019-cu il) qalibi kimi Türkiyənin Qars, İqdır şəhərlərində beynəlxalq konfranslarda (6-8 noyabr 2018), (10 sentyabr 2018) iştirak etmişdir

2 monoqrafiyanın, 5 dərs vəsaitinin, 6 proqramın, 1 metodik vəsaitin, xaricdə (Türkiyədə, Rusiyada, Ukraynada) və Azərbaycanda dərc olunmuş 100-ə qədər elmi məqalənin müəllifidir. AMEA-nın nəşr etdirdiyi 3 cildlik "Azərbaycan dilinin izahlı lüğəti"nin III cildinin tərtibçisi (2000), "S.Vurğunun bədii dilinin izahlı lüğəti"nin (2011), "Azərbaycan dilinin frazeoloji lüğəti"nin, "Azərbaycan dilinin məcazlar lüğəti"nin tərtibçilərindən biridir.

1 fəlsəfə doktorunun elmi rəhbəri olmuş, 2 namizədlik dissertasiyasına opponentlik etmiş, 20-dən çox namizədlik və doktorluq dissertasiyalarının avtoreferatına rəy vermişdir. Onun rəhbərliyi ilə 20-yə yaxın magistrant dissertasiya müdafiə etmişdir.

Təyyar Salam oğlu Cavadov
filologiya üzrə elmlər doktoru, professor
(1960)

27 aprel 1960-cı ildə Sabirabad rayonunun Mürsəlli kəndində anadan olmuşdur. 1967-1977-ci illərdə Sabirabad rayonu Ulacalı kənd orta məktəbində, 1977-1981-ci illərdə V.İ.Lenin adına APİ-nin Filologiya fakültəsində təhsil almışdır.

Sabirabad rayonu Qalaqayın kənd orta məktəbində sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə direktor müavini (1981-1982), tədris işləri üzrə direktor müavini (1983-1985) vəzifələrində çalışmışdır. 1984-1988-ci illərdə V.İ.Lenin adına ADPİ-nin aspiranturasında Azərbaycan ədəbiyyatı ixtisası üzrə təhsil almışdır. 1988-ci ildə "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan uşaq poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1985-1991-ci illərdə Sabirabad rayonunun Mürsəlli kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin folklorşünaslıq elmi laboratoriyasında baş laborant (1991), kiçik elmi işçi (1992-1996), Müasir Azərbaycan və dünya ədəbiyyatı kafedrasında müəllim (1996-1998), dosent (1998-2003), Azərbaycan və dünya ədəbiyyatı kafedrasında dosent (2003-2013) vəzifəsində çalışmışdır. 2007-ci ildə "80-ci illər Azərbaycan romanı: janr təkamülü" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.Yazıçılar Birliyinin üzvü olan Təyyar Salamoğlu 2013-2019-cu illərdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru olmuşdur. 2019-cu ildən Ədəbiyyat kafedrasının professorudur.

2013-cü ildə Azərbaycan Yazıçılar Birliyi xətti ilə Prezident təqaüdçüsü olmuşdur. 2014-2015-ci illərdə Bakı Qızlar Universitetində elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir. Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Filologiya üzrə Ekspert Şurasının sədri və üzvü kimi çalışmışdır.

Keçən əsrin 80-ci illərində yaradıcılığa gələn ədəbi nəslin nümayəndəsidir. İlk tədqiqatları Azərbaycan uşaq poeziyasının problemlərinə həsr olunmuş, araşdırmalarının nəticələri "Pedaqoji mühit və uşaq ədəbiyyatı" (M.Məmmədov və Y.Babayevlə birlikdə) (1992) və "Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası" kitablarında (M.Məmmədov və Y.Babayevlə birlikdə (1998) yer almışdır.

16 monoqrafiya, dərslik və dərs vəsaiti, 250-dən artıq elmi məqaləsi nəşr olunmuşdur. Əsərləri Rusiya, Türkiyə və b. xarici ölkələrdə çap olunmuşdur. Bir neçə beynəlxalq və respublika səviyyəli elmi konfransların iştirakçısı olub.

Onun haqqında Əli Rza Xələflinin "Tənqidçinin azərbaycançılıq idealı" (2016) monoqrafiyası nəşr olunub.

Mahmud Qara oğlu Allahmanlı
filologiya elmləri doktoru, professor
(1960)

1 sentyabr 1960-cı ildə Qazax rayonunun Kəmərli kəndində anadan olmuşdur. 1967-1977-ci ildə Kəmərli kənd orta məktəbində təhsil almışdır. 1977-1978-ci illərdə kolxozda fəhlə işləmişdir. 1978-1982-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində oxumuşdur. Ali təhsilini başa vurduqdan sonra təyinatla Qəbələ rayonunun Abrıq kənd səkkizillik məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir.1985-ci ildə ADPİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dissertantı olmuşdur.

Folklor elmi-tədqiqat laboratoriyasında baş laborant (1990-1992), kiçik elmi işçi (1992-1998), Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent (1998-2008), professor (2008-2019) vəzifələrində çalışmışdır.

Dnepropetrovsk Universitetinin Bakı filialında, Slavyan Universitetində, AMİ-nin Quba və Cəlilabad filiallarında, Bakı Avrasiya Universitetində əvəzçiliklə dosent və professor kimi fəaliyyət göstərmişdir.

2014-cü ilə qədər AMEA-nın Folklor İnstitutunun Aşıq yaradıcılığı şöbəsində aparıcı elmi işçi vəzifəsində işləmiş, Müdafiə Şurasının üzvü, elmi seminarın sədri, Əlaqələndirmə Şurasının sədr müavini vəzifələrində çalışmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Humanitar fənlər üzrə Ekspert Komissiyasının üzvü olmuşdur.

1992-1993-cü ildə "Sərbəst düşüncə"qəzetinin şöbə müdiri, 1996-2014-cü ildə redaktoru, 1993-1996-cı illərdə isə "Milli qurtuluş" qəzetinin redaktoru olmuşdur. Folklorşünaslığın müxtəlif problemləri ilə bağlı ciddi araşdırmalar müəllifidir. O, "Aşıq Valehin həyat və yaradıcılığı" (1991) mövzusunda na-

mizədlik, "Aşıq yaradıcılığının inkişaf mərhələləri" mövzusunda doktorluq dissertasiyası (2008) müdafiə etmişdir.

25 monoqrafiya, dərslik və dərs vəsaitinin, onlarla elmi və publisistik məqalənin müəllifidir. Krım-tatar ədəbiyyatı ilə bağlı araşdırmalarına ("Aşıq Ömərin yaradıcılığı" kitabına) görə Ukrayna Respublikasında Bəkir Çobanzadə mükafatına (qızıl medal) layiq görülmüşdür (2009). "Təxəllüsü Vaqif, nəzmi dürəfşan" monoqrafiyasına görə TÜRKSOY-un mükafatını almışdır (2017).

"Aşıq ədəbiyyatı antologiyası" (1917, üç cilddə) və "Miskin Abdal- Səfəvilərin böyük ideoloqu, sufi şeyxi)" (1918) kitablarının tərtibçi-müəllifidir.

Hal-hazırda Ədəbiyyat kafedrasının professorudur.

Həcər Emin qızı Hüseynova

filologiya üzrə elmlər doktoru, professor

(1962)

1962-ci ildə fevral ayının 20-də Gəncə şəhərində anadan olub. 1969-1979-cu illərdə Gəncə şəhər 18 №-li orta məktəbdə, 1980-1984-cü illərdə ADPİ-nin Filologiya fakültəsində təhsil alıb.

1984-1999-cu illərdə Bakı şəhərindəki 249 №-li, 1999-2002-ci illərdə 146 №-li məktəbdə müəllim işləyib. ADPU-nun Azərbaycan dilçiliyi kafedrasının dissertantı olub. 2002-ci ildə "Səməd Vurğunun bədii əsərlərində onomastik vahidlərin linqvistik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Elə həmin ildən də ADPİ-nin Azərbaycan dilçiliyi kafedrasında pedaqoji fəaliyyətə başlayıb. 2009-cu ildə dosent elmi adı alıb.

2012-ci ildə "Mir Cəlal Paşayevin bədii əsərlərinin dil və üslub xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2014-cü ildə filologiya üzrə elmlər doktoru elmi dərəcəsi alıb.

15 monoqrafiya, dərslik və dərs vəsaitlərinin, 12 fənn proqramının, 100-ə yaxın elmi məqalə və tezisin, 2 şeir kitabının müəllifidir. 5 kitabın və bir neçə proqramın elmi redaktorudur. Elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsində rəsmi opponent kimi çıxış edib. Üç fəlsəfə doktoru proqramı üzrə dissertantın elmi rəhbəridir.

“XXI əsrin ziyalısı” - Beynəlxalq diplomuna (2009), “Qızıl qələm” (2012) və “Xalqın nüfuzlu ziyalısı” (2012) media mükafatlarına layiq görülüb, ADPU üzrə keçirilən “İlin müəllimi” müsabiqəsinin qaliblərindən biri olub (2014). Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Həmkarlar Təşkilatının işində fəal iştirakına görə “Fəxri fərman”la (2012), 2017-ci ildə KİV HT-nın “İlin müəllimi” medalı və diplomuna layiq görülüb.

ADPU Həmkarlar Təşkilatı sədrinin müavini, fakültə Elmi Şurasının elmi katibidir. “Müəllim sözü” qəzetinin baş redaktorunun müavini, 2001-ci ildən YAP-ın üzvü, 2011-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

2015-2016 -cı illərdə türk dövlətləri Avrasiya Senet Kültür Edebiyat Federasiyası (ASKEF) İdarə heyətinin üzvü olub. 2015-ci ilin may ayında ASKEF-in təşkilatçılığı ilə keçirilən Çanaqqala zəfərinin 100 illiyinə həsr edilmiş tədbirdə (Çanaqqalada) iştirak edib.

Türkiyədə çap olunan “100 yılda 100 kalemlə” Atatürk və Çanakkale şeir antolojisi kitabında şeirləri çap edilib. “100 yılda 100 yürek” ödülü ilə, 2018-ci ildə Azərbaycan və Polşa arasında əlaqələrin inkişafında xidmətlərinə görə Azərbaycanın Polşadakı səfirliyi tərəfindən “Xatirə” medalı ilə təltif olunub.

Azərbaycan Yazıçılarının XII qurultayının (2014) nümayəndəsi olmuşdur. “Musiqi elmi, mədəniyyəti və təhsilin aktual problemləri” adlı jurnalın idarə heyətinin üzvüdür.

2016-cı ildə ASKEF Bilim kurumunun Azərbaycan üzrə təmsilçisi, 2017-Türkiyədə (İstanbul) nəşr edilən beynəlxalq “İBAD” elmi jurnalında Azərbaycan üzrə təmsilçi və hakim; 2018-2019-cu illər ABŞ- da nəşr edilən “International Journal Language and linguistics”jurnalının İdarə heyətində Azərbaycan üzrə təmsilçi, 2019-cu ildən Türkiyədə (İstanbul) nəşr olunan “İZLEK” dərgisində Azərbaycan üzrə təmsilçi və 2019-cu ildə (1-4 avqust) Bakıda Əl-Fərabi V Beynəlxalq Sosial Elmlər konfransının təşkilat komitəsinin üzvü olub.

2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Təqaüdünə layiq görülüb. 2019-cu ildə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Xüsusi Diplom”la təltif edilib.

Buludxan Əziz oğlu Xəlilov
filologiya elmləri doktoru, professor
(1966-2021)

25 iyul 1966-cı ildə Qərbi Azərbaycanın Amasiya rayonunun Ellərkənd kəndində anadan olmuşdur. 1990-cı ildə V.İ.Lenin adına ADPİ-nin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Tələbəlik illərində C.Cabbarlı adına təqaüdlə oxumuşdur. Gənc mütəxəssis kimi Filologiya fakültəsinin Müasir Azərbaycan dili kafedrasında laborant saxlanılmışdır.

1985-1987-ci illərdə Uzaq Şərqdə hərbi xidmətdə olmuşdur. Müasir Azərbaycan dili kafedrasında müəllim (1994-1996), dosent (1996-2001) vəzifələrində çalışıb. 2001-ci ilin iyul ayında həmin kafedranın professoru vəzifəsinə seçilib.

1992-ci ildə "Azərbaycan dilində təkhecalı feillərin əsasında duran ilkin köklərin fonosemantik inkişafı" mövzusunda namizədlik, 1999-cu il iyunun 9-da "Azərbaycan dilində feillərin fono-semantik inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

2001-2011-ci illərdə "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyasına, 2006-2018 -ci illərdə Filologiya fakültəsinə rəhbərlik etmişdir. 2019-cu ildən Müasir Azərbaycan dili kafedrasının müdiridir.1992-ci ildə Bişkekdə, 1994-cü ildə Ufada, 2006, 2007, 2008-ci illərdə Ankarada, 2010-cu ildə Aşğabadda, 2018-ci ildə Karakandada keçirilən konfranslarda iştirak etmişdir. O, ADPU-da Türkoloji Qurultayın 75 və 80 illiyi ilə bağlı keçirilən konfransların təşkilatçısı olmuşdur.

Elmi rəhbərliyi ilə 5 nəfər dissertasiya müdafiə etmiş, 3-ü isə müdafiə ərəfəsindədir. Onlarla fəlsəfə və elmlər doktoru dissertasiyalarının rəsmi opponenti olmuşdur. "Filologiya məsələlərinə dair tematik toplu"nun, "Dədə Qorqud" elmi məcmuəsinin redaktoru, "Pedaqoji Universitet Xəbərləri"nin (humanitar elmlər seriyası) elmi jurnalının məsul katibidir.

Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Yazıçılar Birliyindəki "İrs" komissiyasının üzvüdür. 400-dən çox elmi, elmi-publisistik əsəri çap edilmişdir. Bunlardan 28-i monoqrafiya, dərslik və dərs vəsaitidir. Azərbaycan dilçiliyinin, türkoloji dilçiliyin ən müasir məsələləri

onun elmi yaradıcılığının əsasını təşkil edir. 2003-2004-cü illərdə AAK-ın Filologiya ixtisası üzrə Ekspert Şurasının üzvü olmuşdur.

2006-2013-cü illərdə BDU-da filologiya elmləri doktoru və filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının üzvü olmuşdur.

1999-cu və 2004-cü illərdə Nəsimi bələdiyyəsinə üzv seçilmiş, Sosial məsələlər daimi komissiyasına sədrlik etmişdir. "İlin alimi" nominasiyasının (2001), "Azərbaycanın gənc alimləri" Beynəlxalq layihəsinin (2003) qalibi olmuş, "Qızıl qələm" fəxri mükafatı laureatı (2004) seçilmişdir. 2006-cı və 2009-cu illərdə "XXI əsrin ziyalısı" adına layiq görülmüş, 2009 və 2010-cu illərdə "XX -XXI əsrin yaradıcı və ziyalı insanları" sırasında yer almışdır.

2009-cu ildə türk ədəbiyyatına xidmətləri ilə bağlı olaraq Türkiyə Cümhuriyyətinin KIBATEK Akademik ÜYESİ diplomunu almış, KIBATEK Akademik Üyesi seçilmişdir. 2007 və 2008-ci illərdə ADPU-da "İlin müəllimi", 2011 və 2013-cü illərdə "İlin alimi" müsabiqəsinin qaliblərindən biri olub. 2011-ci ildə Yazıçılar Birliyinin üzvü kimi Prezident təqaüdçüsü olub. 2011-ci ildən Dilçilik ixtisası üzrə Koordinasiya Şurasının üzvüdür. 2014-cü ildə Dilçilik ixtisası üzrə Koordinasiya Şurasının sədrinin müavini kimi fəaliyyət göstərib. Azərbaycan Yazıçılar Birliyinin VII Qurultayının (2014) nümayəndəsi olub.

2015-ci ilin aprel ayında Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki seçilib. Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının (2015), AMEA-nın "Türkologiya" jurnalının redaksiya heyətinin (2016) və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının üzvüdür (2017). "Tərəqqi" (2006) medalı, "Beynəlxalq Rəsul Rza" (2015) mükafatı, TÜRKSOY-un "Molla Pənah Vaqif" (2017) və Çaka Bey medalı (2017), Türk dünyası və Azərbaycanın elm, təhsil, mədəniyyət qurumlarının, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının, Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqının təsis etdiyi müxtəlif diplom və Fəxri Fərmanlarla təltif olunub.

2021-ci ildə Bakı şəhərində vəfat edib.

Leyla Orxan qızı Vəzirova
filologiya elmləri doktoru, professor
(1967)

1 yanvar 1967-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1974-1984-cü illərdə Bakı şəhərindəki 189 №-li ümumtəhsil məktəbində, 1984-1989-cu illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. ADU-nu filoloq, rus dili və ədəbiyyatı müəllimi ixtisası üzrə bitirən Leyla Vəzirova əmək fəaliyyətinə Azərbaycan Politexnik İnstitutunda (indiki Azərbaycan Texniki Universiteti) saathesabı müəllim kimi (rus dili müəllimi) başlamışdır. Bir il (1990) orada işlədikdən sonra müəllimlik fəaliyyətini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişdir. ADPİ-nin Rus dili kafedrasında müəllim (1990-2001), baş müəllim (2002-2006), Xarici dillər və onların tədrisi metodikası kafedrasının dosenti (2007) və həmin kafedranın müdiri (2007-2019) vəzifəsində çalışıb.

1997-2002-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı olub. 2002-ci ildə həmin institutda "Yusif Vəzir Çəmənzəminlinin publisistikası" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 2007-ci ildə dosent elmi adını alıb. 2013-cü ildə BSU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasında «Сопоставительный анализ русской и азербайджанской синонимики. Распределение коннотации» mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2019-cu ildə professor elmi adına layiq görülüb.

Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın humanitar elmlər üzrə Ekspert Şurasının (2014-2015) üzvü olmuşdur. 2019-cu ildən Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın humanitar elmlər üzrə Ekspert Şurasının və Azərbaycan Dillər Universitetində dilçilik üzrə Koordinasiya Şurasının üzvüdür. Çoxsaylı dissertasiyalara rəy verib, dissertantlara opponentlik edib, bir neçə magistr və doktorantın elmi rəhbəridir. Bir çox kitab və dərs vəsaitlərinin redaktoru və rəyçisidir. Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan və Belorusda keçirilən Beynəlxalq konfransların iştirakçısı olub. 2 monoqrafiyanın, 2 dərsliyin, 2 dərs vəsaitinin, 1 metodik vəsaitin, 7 proqramın və 59 elmi məqalənin müəllifidir.

2019-cu ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xarici Dillər Mərkəzinin professorudur.

Tarix və coğrafiya fakültəsi



Nikolay Yakovleviç Marr
SSRİ EA-nın həqiqi üzvü,professor
(1864-1934)

25 dekabr 1864-cü ildə (yaxud 6 yanvar 1865-ci ildə), bəzi mənbələrdə 25 may (6 iyun) 1864-cü ildə Gürcüstanın Kutaisi şəhərində anadan olmuşdur. Onun atası şotland Ceyms Marr Gürcüstana gəlmişdir. Knyaz Qurieli Ceyms Marra Kutaisinin botanika bağında torpaq hədiyyə etmişdir. Ceyms Marr burada yaşamışdır. O, yaşının səksəni keçdiyi bir dövrdə cavan bir gürcü qızı ilə evlənmişdir. Bu kəbindən sonra Nikolay Yakovleviç Marr dünyaya gəlmişdir. N.Marrın uşaqlığı gürcülərin arasında keçmişdir. O, Kutaisidəki gimnaziyaya daxil olana qədər yalnız gürcü dilində danışmışdır. Kutaisi gimnaziyasında oxuduğu zamanlarda isə rus, alman, fransız, ingilis, latın, qədim yunan və türk dilləri ilə maraqlanmışdır. 1884-cü ildə N.Marr gimnaziyanı bitirmişdir. N.Marr gimnaziyanı qurtardıqdan sonra Peterburq Universitetinin Şərq dilləri fakültəsinə daxil olmuşdur. O, tələbəlik illərində eyni vaxtda dörd istiqamətdə dillərin öyrənilməsini qarşısına məqsəd qoymuşdur: erməni-gürcü, erməni-fars-türk-tatar, sanskrit-fars-erməni və ərəb-yəhudi.

1888-ci ildə Peterburq Universitetini bitirmişdir. 1891-ci ildə Peterburq Universitetinin Şərq dilləri fakültəsində dərs deməyə başlamışdır. Şərq dilləri fakültəsində 1918-ci ilə qədər çalışmışdır. O, 1899-cu ildən gürcü ədəbiyyatını tədris etmişdir. N.Marrın gürcü dili və ədəbiyyatı ilə bağlı xeyli araşdırmaları var. 1918-ci ildə gürcü dilçisi A.A.Tsaqareli ilə münaqişəsi olduğu üçün N.Marr gürcü filologiyasından erməni filologiyasına keçmişdir. 1891-ci ildə Peterburq Universitetində dosent, 1902-ci ildə professor, 1911-ci ildə Şərq dilləri fakültəsinin dekanı seçilmişdir. 1912-ci ildə Peterburq Akademiyasının akademiki olmuşdur. O, ömrünün sonuna qədər Peterburqda yaşamışdır. Dilçilik elmində Yafəs dilləri nəzəriyyəsini yaratmışdır. O, Sami və Hami dil ailələrinə üçüncünü də əlavə edərək yafəs adlandırmışdır. 1926-

1930-cu illərdə Leninqrad kütləvi kitabxanasının direktoru, 1929-1934-cü illərdə Rusiya Fələstin Cəmiyyətinin sədri olmuş, 3 mart 1930-cu ildə SSRİ EA-nın vitse-prezidenti seçilmişdir. Azərbaycan Dövlət Universitetində və Azərbaycan Pedaqoji İnstitutunda dilçiliklə bağlı mühazirələr oxumuşdur. 1933-cü ildə "Lenin" ordeni ilə təltif olunmuşdur.

20 dekabr 1934-cü ildə vəfat etmişdir.

Vasili Vladimiroviç Bartold
SSRİ EA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
(1869-1930)

3 noyabr 1869-cu ildə Sankt-Peterburq şəhərində anadan olub. 1887-ci ildə 8-ci Peterburq gimnaziyasını, 1891-ci ildə Peterburq Universitetinin Şərq dilləri fakültəsini bitirib.- 1891-1902-ci illərdə həmin universitetdə işləmişdir. 1899-cu ildə tərcümə etdiyi Stenli Len Pulyanın "Müsəlman sülalələri" kitabı nəşr olunub. 1900-cü ildə "Türküstan monqol istilası dövründə" mövzusunda dissertasiya müdafiə edərək Şərq tarixi üzrə tarix doktoru elmi dərəcəsi alıb. 1901-ci ildə Peterburq Universitetinə ordinator, 1906-cı ildə professor təyin olunub. Orta və Şərqi Asiyanı öyrənən Rusiya Komitəsinin katibi olub. 1904-cü ildə Səmərqənd yaxınlığında arxeoloji qazıntılar aparıb.

1910-cu ildə Peterburq EA-nın müxbir üzvü, 1913-cü ildə "Asiya xalqlarının ədəbiyyatı və tarixi" ixtisası üzrə akademik seçilib. 1912-ci ildə "Xəlifə və Sultan" əsəri nəşr olunub. 1913-cü ilin may ayında Bartold Cənubi Ural, Sibir və Orta Asiyaya elmi səfər edib, Ufa quberniyasında olub. 1917-ci ilin fevralında Bartold akademik Sergey Oldenburqun rəhbərlik etdiyi Rusiya və qonşu ölkələrin əhalisinin qəbilə tərkibinin öyrənilməsi üzrə Elmi Komissiyaya üzv seçilib, "Müsəlman dünyası" jurnalını nəşr etdirib. 1921-ci ildə Asiya Muzeyində yaradılan Şərqşünaslar Kollegiyasına rəhbər təyin olunub. 1924-1926-cı illərdə Bakıya dəvət olunub və Azərbaycan Universitetində Şərq fakültəsinin təşkilində mühüm rol oynayıb. ADU-da və Ali Pedaqoji İnstitutda "Azərbaycan tarixi", "Türk-tatar xalqları tarixi" və "Xəzəryanı bölgələrin müsəlman dünyasındakı tarixi yeri" ilə bağlı mühazirələr oxuyub. Bakıda ke-

çirilən Birinci Ümumittifaq Türkoloji Qurultayın iştirakçılarından və təşkilatçılarından (1926) biri olub.

"Türküstan monqol istilası dövründə" (2 cilddə, 1898-1900), "Avropa və Rusiyada Şərqin öyrənilməsi tarixi" (1911, 2-ci nəşr 1925), "Uluqbəy və onun dövrü" (1918), "İslam" (1918), "Türküstan tarixi" (1922), "Müsəlman aləmi" (1922), "İran. Tarixi icmal" (1926) və s. əsərlərinin müəllifidir. 1950-ci ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutu Bartoldun rus dilinə tərcümə etdiyi "Dədə Qorqud" dastanını çap etdirmişdir. "Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri" əsəri 1999-cu ildə "Elm" nəşriyyatı tərəfindən çap edilmişdir.

1930-cu il avqust ayının 19-da Sankt-Peterburq şəhərində vəfat etmişdir.

Aleksandr Nikolayeviç Samoyloviç

SSRİ EA-nın həqiqi üzvü,
professor
(1880 - 1938)

29 dekabr 1880-ci ildə Nijni-Novqorodda anadan olub. Zadəgan İnstitutunda, Sankt-Peterburq Universitetinin Şərq fakültəsinin ərəb-fars-türk-tatar şöbəsini bitirib. Peterburq Universitetində Smirnov, Bartold, Rozen kimi müəllimlərdən şərq dillərini öyrənmişdir. 1908-ci ildə Rusiya Arxeologiya Cəmiyyətinə və Rus Coğrafiya Cəmiyyətinə üzv seçildi. 1915-ci ildə "Абдус -Саттар казы. Книга рассказов о битвах текинцев. Туркменская историческая поэма XIX века" mövzusunda magistr dissertasiyası müdafiə edib.1907-1917-ci illərdə Peterburq Universitetində privat-dosent, 1917-ci ildə dosent, 1917-1937-ci illərdə professor vəzifəsində işləyib. İnqilabdan əvvəl Avstriya-Macarıstan, Türkiyə, Fransa, Almaniya, eləcə də Türkmənistanda elmi ezamiyyətdə olub. 1920-ci ildə Qırmızı Ordu Baş Qərargah Akademiyasının şərq şöbəsinin müəllimi olub. 1921-1922-ci illərdə Türkmənistanda elmi ezamiyyətdə olub, Türkoloji seminariyaya rəhbərlik edir. 1922-1925-ci illərdə Leninqrad Şərq İnstitutunun rektoru olub. 1917 və 1922-1929-cu illərdə Rus Dövlət Muzeyinin etnoqrafiya şöbəsinin müdiri olub. 1925-ci ildə SSRİ EA-nın müxbir üzvü, 1929-cu ildə akademik seçilib. SSRİ EA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi (1930-1933) olmuş-

dur. 1934-1937-ci illərdə SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru olub. SSRİ EA-nın Qazaxıstan filialının yaranmasında və ümumiyyətlə, Qazaxıstanda akademik qurumların formalaşmasında onun mühüm xidmətləri olmuşdur. 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji qurultayın işində fəal iştirak edib. ADU-da və Pedaqoji İnstitutda mühazirə oxuyub. Türkologiya ilə bağlı 300-dən artıq əsərin müəllifidir. 1917-ci ildə Peterburqda Z.Baburun "Baburnamə" əsərini nəşr etdirib.

27 oktyabr 1937-ci ildə Yaponiyaya casusluq etməkdə və "terror təşkilatı" yaratmaqda ittiham edilərək həbs olunub. 13 fevral 1938-ci ildə güllələnib.

Aleksandr Osipoviç Makovelski
SSRİ EA-nın müxbir üzvü,
AMEA-nın həqiqi üzvü,
fəlsəfə elmləri doktoru, professor
(1884 – 1969)

22 iyul 1884 -cü ildə Belorus Respublikasının Qrodno şəhərində anadan olub. Qrodno şəhər klassik gimnaziyasını qızıl medalla bitirib. 1907-ci ildə Kazan Universitetinin Tarix-filologiya fakültəsinin məzunu olub.

1904-cü ildə III kursda oxuyarkən Kazan Universitetinin 100 illik yubileyində Sofoklun "Antiqona faciəsində dramatik konfliktə yeni baxışların dəyərləndirilməsi" adlı əsərinə görə medalla mükafatlandırılıb. Universiteti bitirdikdən sonra Fəlsəfə kafedrasında müəllim saxlanılıb, ali qadın kurslarında dərs deməyə cəlb olunub. 1913-cü ildə Sokrataqədərki qədim yunan fəlsəfəsi üzrə ilkin mənbələri öyrənmək üçün Almaniyaya 2 illik elmi ezamiyyətə göndərilib. Birinci dünya müharibəsinin başlaması səbəbindən elmi işini yarımçıq qoyaraq Rusiyaya qayıdan A.O.Makovelski Sankt-Peterburq və Moskva şəhərlərinin elmi kitabxanalarında elmi araşdırmalarını davam etdirib. 1914-cü ildə "Sokrataqədərki fəlsəfə" əsərinin I cildi işıq üzü görmüşdür.

1920-ci ildə Azərbaycan XMK tərəfindən Bakıya dəvət edilib və ömrünün sonuna kimi burada yaşayıb. ADU və ADPİ-də fəlsəfə və psixologiyadan mühazirə oxumuş, elmi kadr hazırlığına rəhbərlik etmişdir. 1930-cu ildə ADPİ-nin professoru, Azərbaycan Qiyabi Pedaqoji İnstitutun direktoru (1930-

1931) vəzifəsində çalışmış, Azərb.ETPEİ-də (1931-1940) psixologiya şöbəsinə rəhbərlik etmişdir.

1921-ci ildə BDU-da "Sokrataqədərki fəlsəfə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Azərbaycan Xalq Maarif Komissarlığı nəzdində Dövlət Elm Şurası təşkil olunan zaman A.O.Makovelski onun elmi katibi, sonra isə pedaqoji bölmənin sədri olmuşdur.1929-cu ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Dövlət Elm Şurasının həqiqi üzvü və Rəyasət heyətinin üzvü təyin edilmişdir. 1938-1960-cı illərdə ADU-nun professoru və Məntiq-psixologiya kafedrasının müdiri (1948-1960) olub. 1945-1950-ci illərdə Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutuna rəhbərlik etmişdir. Ə.K.Zəkuzadənin doktorluq dissertasiyasının rəsmi opponenti, M.Məhərrəmov, M.Abbasov, M.Hacıyev, İ.Seyidov və başqalarının elmi rəhbəri olmuşdur. Azərbaycan psixologiya elminin nailiyyətlərini xarici ölkələrdə uğurla təmsil etmişdir.

1946-cı ildə SSRİ Elmlər Akademiyasının tarix və fəlsəfə bölməsinin müxbir üzvü (tarix-fəlsəfə üzrə), 1949-cu ildən Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Ayrı-ayrı vaxtlarda Azərbaycan Pedaqoji İnstitutunun Dialektik materializm kafedrasında, Müəllimlərin Təkmilləşdirilməsi İnstitutunda, Xalq Təhsili İnstitutunda işləmiş, fəlsəfə tarixi, sosial-siyasi nəzəriyyə tarixi, məntiq, psixologiya, məntiq tarixi, estetika, etika, pedaqogika fənlərindən mühazirələr oxumuşdur."Azərbaycan fəlsəfə tarixi" fənninin yaradılması onun adı ilə bağlıdır.

145 elmi əsərin, o cümlədən "Fəlsəfəyə giriş. I-II hissə" (1912,1916), "Sokrataqədərki fəlsəfə. I-III hissə" (1914-1919), "Nizami filosof kimi", "Pedoloji" (1929), "Körpə uşaqların tərbiyəsi" (1940), "Təlim-tərbiyədə stimul problemi" (1936), "Valideynlərə pedaqoji savad nə üçün lazımdır" (1940), "Təlim-tərbiyənin psixoloji əsasları" (1940), "İradə tərbiyəsi haqqında valideynlər nəyi bilməlidirlər?" (1940), "Sofistlər. I-II" (1940-1941), "Qədim Yunan atomistləri" (1946), "Avesta" (1960), "Məntiq tarixi" (1967) və s. kitablarının müəllifidir. 1964-cü ildə akademik A.O.Makovelskinin əsərlərinin biblioqrafiyası nəşr olunmuşdur.

1930-cu ildə Azərbaycan SSR Xalq Komissarları sovetinin qərarı ilə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.

16 dekabr 1969-cu ildə Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

Əlisöhbət Sumbat oğlu Sumbatzadə

AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1907-1992)

1907-ci il yanvarın 21-də Bakının Əmircan kəndində anadan olmuşdur. 1926-cı ildə Bakı Müəllimlər Seminariyasını bitirmiş, elə həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərq fakültəsinin tarix-etnologiya şöbəsinə daxil olmuş, 1930-cu ildə təhsilini başa vurmuşdur. 1930-cu ildə namizədlik, 1948-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmiş, 1939-1941-ci illərdə və 1945-1953-cü illərdə Pedaqoji İnstitutun Qədim və orta əsrlər tarixi kafedrasının müdiri olmuşdur. 1954-cü ildə ona professor elmi adı verilmişdir. 1954-cü ildə Azərbaycan EA-nın müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1957-59-cu illərdə Azərbaycan EA-nın vitse-prezidenti, 1959-1963-cü illərdə İqtisadiyyat İnstitutunda şöbə müdiri, 1963–1969-cu illərdə Yaxın və Orta Şərq Xalqları İnstitutunun, 1970–1972-ci illərdə Tarix İnstitutunun direktoru, 1970-1981-ci illərdə Azərbaycan EA İctimai Elmlər Bölməsinin akademik-katibi olmuşdur.1982–1992-ci illərdə İctimai elmlər üzrə Elmi Məlumat Mərkəzində şöbə müdiri vəzifəsində çalışmışdır.

3 cildlik "Azərbaycan tarixi" (1958-1965), "Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri" (1955, rus dilində), "SSRİ tarixi" (VI cild; M., 1967), "Zaqafqaziyada Sovet hakimiyyətinin qələbəsi" (Tbilisi, 1971), "Böyük Oktyabrın tarixi təcrübəsi" (M., 1975), "Qeyri-kapitalist inkişaf yolu və müasirlik" (Ulan-Bator, 1977), "Böyük Oktyabr və Sovet Azərbaycanının iqtisadiyyatının və mədəniyyətinin çiçəklənməsi" (1977), "Müasir dövrdə Sovet Azərbaycanının iqtisadiyyatının inkişafı" (B., 1980), "Sovet tarix elmi 1975–1979-cu illərdə" (M., 1980), "Azərbaycan xalqının etnogenezi" (1988) əsərlərinin müəllifi və ya müəlliflərindən biri olmuşdur.

Beynəlxalq və respublika səviyyəli simpozium, konfrans və konqreslərdə (Daşkənd-1957, Moskva-1960, Tehran-1966, Düşənbə-1968, Moskva-Leninqrad-1970, Aşqabad-1972, Berlin-1973, Ulan-Bator-1974, San-Fransisko-1975, Edinburq-1978, Buxarest-1980 və s.) məruzələrlə çıxış etmişdir.

Azərbaycan SSR Ali Sovetinin (5-ci çağırış) deputatı və Rəyasət heyətinin üzvü (1959-1963) olmuş, "Qırmızı Əmək Bayrağı" ordeni və müxtəlif medallarla təltif edilmiş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

1992-ci il yanvarın 28-də Bakı şəhərində vəfat etmişdir.

Heydər Nəcəf oğlu Hüseynov

AMEA-nın həqiqi üzvü,
Dövlət mükafatı laureatı,
fəlsəfə elmləri doktoru, professor
(1908- 1950)

3 aprel 1908-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Ailədəki altı uşağın ən balacası olmuşdur. O, uşaq olarkən atası vəfat etmiş, böyük qardaşı Yusif 1918-ci ildə ermənilər tərəfindən öldürülmüşdür. İrəvanı tərk etmək məcburiyyətində qalan ailə əvvəl Batumi şəhərinə, sonra Stavropola, axırda Bakıya köçmək məcburiyyətində qalmışdır. Bakı şəhərindəki 18 №-li məktəbdə və Bakı Pedaqoji Texnikumunda (1924-1927) təhsil almışdır. Ali təhsil almaq məqsədi ilə 1927-ci ildə V.İ.Lenin adına ADU-nun İctimai elmlər fakültəsinə (qiyabi) daxil olmuşdur. ADU-nun ləğv edilməsi ilə əlaqədar olaraq 1931-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir. Həmin illərdə (1928-1931) Bakı şəhərindəki 59 №-li məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1931-1932-ci illərdə Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasında oxumuş, 1932-1936-cı illərdə Sovet Ticarəti İnstitutunda assistent vəzifəsində işləmişdir. 1936-1940-cı illərdə SSRİ EA Azərbaycan filialının Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur.

1936-cı ildə Azərbaycan Sovet Ensiklopediyasının hazırlanmasında iştirak etmiş, 1940-cı ildə isə Baş redaksiyaya rəhbərlik etmişdir. 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan filialının sədr müavini, 1945-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti, ictimai elmlər bölməsinin sədri olmuşdur.

30-cu illərin əvvəllərində ADPİ-nin Dialektik materializm kafedrasında işləmiş, 1939 - 1940-cı illərdə həmin kafedraya rəhbərlik etmişdir. 1943-1945-ci illərdə ADU-nun Marksizm - leninizmin əsasları və Fəlsəfə kafedralarının müdiri, 1945-1950-ci illərdə isə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru olmuşdur.

15 iyun 1939-cu ildə "M.F.Axundovun fəlsəfi görüşləri" mövzusunda namizədlik, 1944-cü ildə "XIX əsrdə Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir tarixindən" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1944-cü ildə professor elmi adı almışdır. "Dialektik materializm" (1935), "Dialektika və metafizika" (1939), "Dialektika və tarixi materializm" adlı ilk dərsliklərin müəllifidir.

Heydər Hüseynov ictimai və humanitar elmlər sahəsində Azərbaycan elminin təşkilatçılarından biri, Azərbaycanda fəlsəfə tarixi məktəbinin yaradıcısı hesab olunur. Tarix və fəlsəfə elminin inkişafına böyük töhfə verib, Azərbaycan tərcümə məktəbinin əsasını qoyub, ilk Azərbaycan-rus və rus-Azərbaycan lüğətinin redaktorlarından biri olub. Fəlsəfə tarixi ilə bağlı 100-dən çox elmi məqaləsi nəşr olunub. Azərbaycanda filosof kadrların yetişməsində mühüm xidmətləri olmuşdur.

Heydər Hüseynov "Qırmızı Əmək Bayrağı" ordeni (1945) ilə təltif edilmiş, SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

15 avqust 1950-ci ildə özünə qəsd etmişdir.

Şəfayət Fərhad oğlu Mehdiyev

AMEA-nın həqiqi üzvü,
geologiya–minerologiya elmləri
doktoru,professor,
Əməkdar elm xadimi
(1910-1993)

15 dekabr 1910-cu ildə İranın Sərab vilayətinin Şalqun kəndində anadan olub. 1914-cü ildə ailəsi ilə birlikdə Bakıya gəlmişdir. İbtidai və orta təhsilini Bakıda alan Ş.Mehdiyev 1930-1934-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsində oxumuşdur. Tələbəlik illərində professor P.P.Suşinskinin rus dilindən Azərbaycan dilinə tərcümə etdiyi "Kristalloqrafiya kursu" (1932) kitabı nəşr olunur. 1933-1941-ci illərdə müxtəlif geoloji təşkilatlarda işləmişdir. Ş.Mehdiyev hələ tələbəlik illərində elmi-tədqiqat işləri və pedaqoji fəaliyyətlə məşğul olurdu. O, bir müddət Azərbaycan Pedaqoji İnstitutunda kristalloqrafiya fənnindən Azərbaycan bölmələrində dərs demişdir. 1938-ci ildə Pirsaat və Neftçala neft mədənlərində baş geoloq və Azərbaycan Neft Elmi-Tədqiqat

İnstitutunun direktor müavini, 1939-1941-ci illərdə Azərbaycan geoloji fondunun və Abşeron geoloji partiyasının rəisi vəzifələrində çalışmışdır. 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşdur. Hərbi xidmətdən sonra Azərbaycan Elmlər Akademiyası Geologiya İnstitutunda (indiki Geologiya və Geofizika İnstitutu) elmi fəaliyyətə başlamışdır. 1945-ci ildə "Abşeron yarımadası neft yataqlarının geotermikası" mövzusunda namizədlik, 1950-ci ildə "Lənkəran rayonunun geoloji quruluşu və neftlilik perspektivliyi" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 1954-1958-ci illərdə Geologiya İnstitutunun direktoru işləmişdir. 1955 -ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzv seçilmişdir. 1958-1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin rektoru,1965-ci ildən ömrünün axırına kimi isə Geologiya İnstitutunda "Neft və qaz geologiyası" şöbəsinə rəhbərlik etmişdir. O, eyni zamanda, 1967-1970-ci illərdə Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı kafedrasının müdiri olmuşdur.Elmi rəhbərliyi ilə 10 nəfər doktorluq, 60 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. 20-dən artıq monoqrafiyanın, Azərbaycanda və xaricdə nəşr edilən 400-dən çox elmi məqalənin müəllifidir. Elmi uğurlarına görə ona Dövlət Mükafatı verilmişdir. Rusiya, ABŞ, Kanada, Meksika, Almaniya və Fransada keçirilən beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış etmişdir.

15 dekabr 1993-cü ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

İsmayıl Abbas oğlu Hüseynov

AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru,professor,
Əməkdar elm xadimi
(1910-1969)

15 dekabr 1910-cu ildə Tiflis şəhərində anadan olmuşdur. Orta təhsilini Tiflis şəhərindəki Əncüman məktəbində alıb (1917-1927).

1928-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin hüquq şöbəsinə daxil olmuş və 1933-cü ildə təhsilini başa vurmuşdur. Həmin ildə Moskva şəhərində SSRİ MİK yanında Millətlər İnstitutunun tarix ixtisası üzrə aspiranturasına daxil olmuş-

dur. 1941-ci ildə namizədlik, 1946-cı ildə isə M.Lomonosov adına Moskva Dövlət Universitetində doktorluq dissertasiyaları müdafiə etmişdir. 1947-ci ildə ona professor elmi adı verilib. O, tarix elmləri doktoru adını alan ilk azərbaycanlı olmuşdur. İsmayıl Hüseynov iki dəfə (1941-1942; 1958-1960) Azərbaycan EA Tarix İnstitutunun direktoru olmuş, 1960–1966-cı illərdə isə Azərbaycan EA İctimai Elmlər Bölməsinin akademik-katibi vəzifəsində çalışmışdır.

1942-1944-cü illərdə sovet-alman müharibəsində iştirak etmiş, hərbi qəzet redaktorunun müavini olmuşdur. İsmayıl Hüseynov 1938-1941-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Azərbaycan tarixi kafedrasına, 1944-1948-ci illərdə Azərbaycan Dövlət Universitetinin SSRİ tarixi kafedrasına rəhbərlik etmişdir.

Akademik İsmayıl Hüseynov 100 -ə yaxın elmi əsərin müəllifidir. Onun 1941-1945-ci illər müharibəsi dövründə çap etdirdiyi "Görkəmli dövlət xadimi Şirvanşah İbrahim" və "Şah İsmayıl Səfəvi" əsərləri həmin dövlət xadimlərinə Azərbaycan tarixşünaslığında obyektiv qiymət verilməsi baxımından mühüm hadisə idi.

Akademik Ə.S.Sumbatzadənin qeyd etdiyi kimi, Səfəvi dövlətinin erkən dövründə Azərbaycan dövləti olması haqqında tarixşünaslıqda ilk dəfə İ.Hüseynov fikir söyləmişdir. 3 cildlik "Azərbaycan tarixi"nin ərsəyə gəlməsində onun mühüm xidmətləri olmuşdur. O, kitabın əsas müəlliflərindən, redaktorlarından biri olmaqla yanaşı, həm də nəşrinə rəhbərlik etmişdir. İsveçdə (1960), Hindistanda (1964), Avstriyada (1965) tarixçilərin və şərqşünasların beynəlxalq konqreslərində məruzələrlə çıxış etmişdir. 40-dan artıq namizədlik və doktorluq dissertasiyalarının elmi rəhbəri və məsləhətçisi olmuşdur.

1949-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik İ.Hüseynov elm sahəsindəki xidmətlərinə görə Azərbaycan SSR Ali Sovetinin "Fəxri fərman"ı ilə təltif olunmuş, ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.

8 noyabr 1969-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Zülfəli İmaməli oğlu İbrahimov
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor,
Dövlət mükafatı laureatı
(1910-1972)

25 dekabr 1910-cu ildə İranın Sərab şəhərində anadan olmuşdur. 1924-cü ildə ailəsi ilə birgə Bakıya köçmüş və burada təhsil almışdır. 1932-1935-ci illərdə Moskvada Ümumittifaq Jurnalistlər İnstitutunda oxumuşdur. 1935-ci ildə təhsilini başa vurub Bakıya qayıdan Zülfəli İbrahimov "Kommunist", "Nuxa fəhləsi", "Yeni yol", "Gənc işçi" qəzetlərində məsul vəzifələrdə çalışmışdır. 1936-1937-ci dərs ilindən ADPİ-də və ADU-da pedaqoji fəaliyyətlə məşğul olmağa başlamışdır. BDU-nun Azərbaycan tarixi kafedrasının təşkili də onun adı ilə bağlıdır. O, həmin kafedranın ilk müdiri olmuşdur.

1941-ci ildə "Ərəb işğalçılarına qarşı Azərbaycan xalqının mübarizəsi" mövzusunda namizədlik, 1948-ci ildə "1917-1918-ci illərdə Azərbaycanda Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyasının 25 fevral 1950-ci il tarixli qərarı ilə ona tarix elmləri doktoru elmi dərəcəsi və 17 iyun 1950-ci il qərarı ilə professor elmi adı verilmişdir.

1941-1942-ci illərdə Urmiya şəhərində Zaqafqaziya cəbhəsi 15-ci Qafqaz korpusunun 23-cü diviziyasında "Qızıl Əsgər" qəzetinin məsul redaktoru işləmişdir. 1948-ci ildə ADU-nun Tarix fakültəsinin dekanı seçilmişdir. 1948-1960-cı illərdə Azərbaycan tarixi və SSRİ tarixi kafedralarının professoru vəzifələrində çalışmışdır. 1960-1967-ci illərdə Azərbaycan EA-nın Tarix İnstitutunun direktoru, 1967-1972-ci illərdə ADU-nun Azərbaycan tarixi kafedrasının müdiri vəzifələrində işləmişdir.

Azərbaycan EA-nın nəzdində Elmi Əlaqələndirmə Şurasının sədri, İctimai elmlər üzrə birləşmiş redaksiya-nəşriyyat Şurasının, İctimai elmlər üzrə birləşmiş Müdafiə Şurasının, tarix ixtisası üzrə Müdafiə Şurasının, ADU-nun Elmi Şurasının üzvü olmuşdur.

O, "Azərbaycan xalqı döyüşkən xalqdır" (1942), "İngilis-amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi:1918-1920-ci illər" (1950), "V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi" (1970), "Революция 1905-1907 гг. в Азербайджане" (1955), "Sosialist inqilabı uğ-

runda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi“ (1957), monoqrafiyalarının və 300-ə qədər elmi məqalənin müəllifidir. 2013-cü ildə “Seçilmiş əsərlər”i nəşr edilmişdir.

3 cildlik “Azərbaycan tarixi”, “Zaqafqaziyada sovet hakimiyyətinin qələbəsi”, “Azərbaycan Kommunist Partiyası tarixinin” 1 cildi, “Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri”, həmçinin “Zaqafqaziya kommunist təşkilatları tarixinin oçerkləri” kimi kollektiv əsərlərin əsas müəlliflərindən biri olub.

SSRİ jurnalistlər İttifaqının üzvü olan Zülfəli İbrahimov “Oktyabr inqilabı” və “Şərəf nişanı” ordenləri, müxtəlif medallar və Fəxri fərmanlarla təltif olunmuş, 1959-cu ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. 1972-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. Onun elmi rəhbərliyi və məsləhətçiliyi ilə 80-ə qədər namizədlik və doktorluq dissertasiyası müdafiə olunmuşdur.

1972-ci il sentyabrın 21-də vəfat etmiş və Fəxri xiyabanda dəfn edilmişdir.

Yaqub Mikayıl oğlu Mahmudov
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı
(1939)

1939-cu ilin fevralın 10-da Şəki rayonun Baş Göynük kəndində anadan olmuşdur. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və aspiranturada (əyani) saxlanılmışdır. 1966-cı ildə “Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə qarşılıqlı əlaqələri (XV əsrin 60-70-ci illəri)” mövzusunda namizədlik, 1989-cu ildə Moskva Dövlət Universitetində “Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı - XVII əsrin əvvəlləri)” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə professor elmi adı almışdır.

1966-1975-ci illərdə Azərbaycan Ensiklopediyasında elmi redaktor, böyük elmi redaktor, redaksiya müdiri, elmi işlər üzrə baş redaktor müavini, 1968-1981-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim, dosent

vəzifələrində çalışmışdır.1981-ci ildə ADU-nun Qədim dünya və orta əsrlər tarixi kafedrasında dosent vəzifəsinə dəvət olunmuşdur. 1983-cü ildə Universitetin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri vəzifəsini icra etmişdir. 1985-1986-cı illərdə ADU-nun Tarix fakültəsinin dekan müavini, 1986-1990-cı illərdə dekanı işləmişdir. 1991-ci ildən BDU-nun Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiridir. Kafedranın formalaşması onun adı ilə bağlıdır. 1991-1992-ci illərdə "Azərbaycan Respublikasının təhsil qanunu"nu hazırlayan ekspert-işçi qrupuna rəhbərlik edib. Müstəqillik dövrünün ilk "Azərbaycan tarixi" və "Orta əsrlər tarixi" dərsləri onun qələminin məhsuludur. 1992-1993-cü illərdə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası sədrinin müavini və "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru vəzifələrində çalışıb. 2004-2021-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru olmuşdur. O, 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilib. Azərbaycanın orta əsrlər tarixi, diplomatiya tarixi və ümumdünya tarixinə dair 1000-dən çox elmi əsərin müəllifidir. Diplomatiya tarixi, itirilmiş torpaqlar, soyqırımları tarixi elmi istiqamətləri sahəsində yaratdığı elmi məktəblərə və "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsinə rəhbərlik edir. Əsərləri bir çox xarici ölkələrdə (Moskva, London, Vaşinqton, Nyu-York, Ankara, İstanbul, Roma, Qahirə, Seul, Mexiko, İslamabad, Los Anceles və b.) nəşr olunub. O, ikicildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın (2004) baş redaktoru və "Naxçıvan Ensiklopediyası" (2005) redaksiya heyətinin üzvüdür. Həmin ensiklopediyalarda, həmçinin "Azərbaycan Sovet Ensiklopediyası"nda çoxsaylı məqalələri dərc olunmuşdur. Azərbaycan tarixinin mühüm problemləri üzrə bir çox monoqrafiya və kitabların müəllifidir.

BDU-da və Tarix İnstitutunda "Vətən tarixi" və "Ümumi tarix" ixtisasları üzrə Müdafiə Şuralarına rəhbərlik etmişdir. Tarix elmləri üzrə Əlaqələndirmə Şurasının sədridir. Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvüdür. "Yusif Məmmədəliyev", "Rəsul Rza", "Qızıl qələm", "Qızıl qılınc", "Samir Əsgərxanov" mükafatları laureatıdır. "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunmuşdur. Əməkdar elm xadimidir. Azərbaycan Respublikası Prezidenti yanında Heraldika Şurasının, "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla iş üzrə Dövlət Komissiyası"nın, Qafqaz Müsəlmanları İdarəsi elmi-dini şurasının, Azərbaycan Milli Ensiklopediyası Baş Redaksiya şurasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının və Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyəti İdarə Heyətinin üzvüdür.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, II-V çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı və Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü olub.

Nailə Məmmədəli qızı Vəlixanlı
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1940)

1940-cı il dekabrın 25-də Bakı şəhərində anadan olub. 1948-1958-ci illərdə Bakı şəhəri 132 №-li orta məktəbdə oxuyub.

1958-1963 -cü illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır.

"IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında" (1967) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1970-2005-ci illərdə pedaqoji fəaliyyətlə məşğul olmuş, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, Xəzər, Ziya, Azərbaycan universitetlərində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 2006-cı il 7 noyabr tarixində Azərbaycan Respublikası Prezidenti yanında Heraldika şurasının üzvü seçilmişdir.

2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə həqiqi üzvü (2007) və vitse prezident seçilmişdir. 2010-cu ildə Azərbaycan Respublikasının elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları komissiyasının və Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının üzvü seçilmişdir. 1998-ci ilin iyul ayından AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktorudur. 2018- ci ilin noyabr ayının 25-də İpəkyolu Beynəlxalq Muzeylər Alyansının (İBMA) vitse-prezidenti seçilmişdir.

2019-cu ilin oktyabr ayının 17-də ICOM Azərbaycan Milli Komitəsinin Rəyasət Heyətinə üzv seçilib. "Şöhrət" (2010), "Şərəf" (2020) ordenləri ilə təltif edilib, Əməkdar elmi xadimi (2015) fəxri adına layiq görülüb. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" (2019), "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" (2019) yubiley medalları ilə təltif edilib.

Hüseyn Mustafa oğlu Əhmədov

SSPİ PEA-nın müxbir üzvü,
Rusiya Təhsil Akademiyasının xarici üzvü,
pedaqoji elmlər doktoru, professor,
Əməkdar ali məktəb işçisi, Prezident
təqaüdçüsü
(1926-2020)

17 iyul 1926-cı ildə Qərbi Azərbaycanın Krasnoselo rayonunun Toxluca kəndində anadan olmuşdur. Ailəsi ilə birlikdə 1936-1940-cı illərdə İrəvan yaxınlığındakı Kənəkir rayonunun Göykilsə kəndinə köçmüş, 1939-cu ildə orada 7-ci sinfi, Kənkan kəndində 8-ci sinfi bitirmişdir. 1943-cü ildə IX sinfi bitirdikdən sonra Toxluca kənd məktəbinin ibtidai siniflərində dərs demişdir. 1946-cı ildə Kirovabad (Gəncə) şəhərindəki K.Setkin adına Pedaqoji Texnikumun III kursuna daxil olmuş, 1947-ci ildə bitirmişdir. 1947-1951-ci illərdə H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunda təhsil almışdır. Təhsil illərində Lenin komsomolu təqaüdçüsü olmuşdur. 1951-1952-ci illərdə Kirovabad Pedaqoji İnstitutunda baş laborant və Gəncə Toxuculuq Texnikumunda tarix müəllimi işləmişdir. 1952-1955-ci illərdə V.İ.Lenin adına ADPİ-nin (indiki ADPU) aspiranturasında oxumuşdur. 1956-cı ildə ADPİ-nin komsomol komitəsinin I katibi seçilmişdir. 1957-1958-ci illərdə Azərb. ETPEİ-də kiçik elmi işçi vəzifəsində işləmişdir. 1958-ci ildə prof.Ə.Seyidovun rəhbərliyi ilə "İbtidai məktəb şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları" mövzusunda namizədlik, 1972-ci ildə akademik Mehdi Mehdizadənin elmi məsləhətçiliyi ilə "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1958-1959-cu illərdə V.İ.Lenin adına ADPİ-nin Pedaqogika kafedrasında assistent, 1964-1977-ci illərdə dosent, 1977-2014-cü illərdə professor vəzifələrində çalışmışdır. 1974-1977-ci illərdə V.İ.Lenin adına ADPİ-də Orta məktəb müəllimlərinin ixtisasartırma fakültəsinin dekanı olmuşdur. 1974-2014-cü illərdə ADPU-nun Elmi Şurasının, Riyaziyyat və Tarix fakültələrinin Elmi Şuralarının üzvü olmuşdur. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən 1977-ci ildə ona Pedaqogika kafedrası üzrə professor elmi adı verilmişdir. 1977-ci ildə müsabiqə yolu ilə V.İ.Lenin adına ADPİ-nin Ümumi pedaqogika kafedrasına müdir vəzifəsinə seçilmiş, 2014-cü ilə kimi həmin vəzifədə çalışmışdır. H.Əhmədov müxtəlif vaxtlarda - İrəvanda, Tiflisdə və Moskvada rəsmi opponent, Müdafiə Şuralarının üzvü, sədr müavini

və sədri kimi fəaliyyət göstərmişdir. Pedaqoji və elmi pedaqoji kadr hazırlığında müstəsna xidmətləri var. Elmi rəhbərliyi ilə 60-a yaxın tədqiqatçı namizədlik, 3 nəfər doktorluq dissertasiyası müdafiə etmişdir. 1997-2010-cu illərdə ABU-nun birinci prorektoru vəzifəsində çalışmışdır. "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" adlı xüsusi kursun Azərbaycan və rus dillərində proqramının və dərsliyinin hazırlanması və nəşri onun adı ilə bağlıdır. Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin mahir tədqiqatçısı olan H.Əhmədov Moskva, Leninqrad, Kiyev, Riqa, Daşkənd, Səmərqənd, Tbilisi, Poltava, Penza, Ulyanovsk və başqa şəhərlərdə keçirilmiş simpozium və konfranslarda Azərbaycan pedaqoji elmini ləyaqətlə təmsil etmişdir. O, Moskvada çap olunmuş "Azərbaycan pedaqoji fikir antologiyası"nın (1990), "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər"in I və IV cildlərinin, iki cildlik Rusiya Pedaqoji Ensiklopediyasının, Azərbaycan Sovet Ensiklopediyasının IV və X cildlərinin müəlliflərindən biri olub. 15 monoqrafiya, dərslik və dərs vəsaiti, 600-dən artıq elmi və publisistik məqaləsi nəşr olunub. "Seçilmiş əsərləri"nin 29 cildliyi nəşr olunub.

1973-cü ildə "Azərbaycan SSR qabaqcıl maarif xadimi", 1977-ci ildə "SSRİ maarif əlaçısı" döş nişanları ilə təltif edilmişdir. 1985-ci ildə Ümumittifaq "Bilik" cəmiyyəti idarə heyəti tərəfindən "Fəal işinə görə" döş nişanı ilə təltif edilmişdir. 1981-ci ildə ona "Azərbaycan SSR əməkdar ali məktəb işçisi" fəxri adı verilmiş, 1985-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir. O,1990-cı ildə SSRİ PEA-nın müxbir üzvü, 1993-cü ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının, həm də Beynəlxalq PEA-nın həqiqi üzvü seçilmişdir. 1998-ci ildə Beynəlxalq Pedaqoji Akademiyanın "Y.A.Komenski adına Böyük Qızıl Medalı" ilə, 2005-ci ildə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının "Türk dünyasına hizmet" qızıl medalı ilə təltif edilmişdir. 2006-cı ildə "El gücü" Beynəlxalq Humanitar Assosiasiyasının qərarı ilə Heydər Əliyev adına "Əsrin Akademiyası"na həqiqi üzv qəbul olunmuşdur. H.Əhmədov 2006-cı ildə Amerika Beynəlxalq Ekspert və Bioqrafiya Araşdırmalar İnstitutu tərəfindən "Pedaqogika elminin məharətli bilicisi" elan edilmişdir. 2007-ci ildə Rusiya Elm və Təhsil Nazirliyi tərəfindən "K.D.Uşinski", 2011-ci ildə Rusiya Təhsil Akademiyası tərəfindən elm sahəsindəki nailiyyətlərinə görə Qızıl medal ilə mükafatlandırılmışdır. 2007-2020-ci illərdə Prezidentin fərdi təqaüdçüsü olub. "Böyük Vətən müharibəsində (1941-1945-ci illər) rəşadətli əməyə görə" (1946), "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 60 illiyi" medalları və "Böyük Vətən müharibəsində qələbənin 50 illiyi" döş nişanı ilə təltif edilmişdir. 1999 və 2004-cü illərdə Binəqədi rayon Bələdiyyəsinə üzv seçilmişdir.

4 aprel 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Teymur Süleyman oğlu Vəliyev
AMEA-nın müxbir üzvü,
iqtisad elmləri doktoru, professor
(1926-2002)

15 yanvar 1926-cı ildə Ağdam şəhərində anadan olub. Ağdam şəhər məktəbində və Ağdam ikiillik Müəllimlər İnstitutunda (1944-1946) oxuyub. 1947-1951-ci illərdə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda ali təhsil alıb. 1951-1954-cü illərdə həmin institutun aspiranturasında oxuyub. 1955-ci ildə namizədlik, 1966-cı ildə doktorluq dissertasiyası müdafiə edib. Uzun müddət Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Siyasi iqtisad kafedrasında baş müəllim və dosent vəzifələrində işləyib. 1966-1971 -ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun tədris işləri üzrə prorektoru, 1971-1992-ci illərdə ADU-nun Siyasi iqtisad kafedrasının müdiri, 1977-1989-cu illərdə həmin universitetin tədris işləri üzrə prorektoru, 1992-2000-ci illərdə yenidən Azərbaycan İqtisad Universitetinin elmi işlər üzrə prorektoru vəzifələrində çalışmış, 2000-2002-ci illərdə BDU-nun İqtisadiyyat kafedrasının professoru kimi fəaliyyət göstərmişdir.

20 nəfərdən çox elmlər doktoru və namizədin elmi rəhbəri və elmi məsləhətçisi olmuşdur. Onun "Sovet respublikasının iqtisadi inkişaf səviyyələrinin tarazlaşması qanunauyğunluqları" (1969), "Sosialist ictimai ərazi əmək bölgüsü" (1976), "Yetkin sosializm iqtisadiyyatının dinamik inkişafı" (1983), "Azərbaycan iqtisadi fikir tarixi" (1996), "İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü" (1999), "İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti" (2000) monoqrafiyaları və 200-ə qədər elmi məqaləsi nəşr olunmuşdur. Azərbaycanda ilk "İqtisadi nəzəriyyə" (1995) dərsliyinin müəlliflərindən biri və redaktoru olmuşdur. Uzun müddət bir sıra iqtisadi jurnalların, o cümlədən mötəbər "Экономические науки" jurnalının redaksiya heyətinin (1972-1987) üzvü olmuşdur. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmiş, 1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalına, SSRİ-nin və Azərbaycan Respublikasının Ali və Orta İxtisas Təhsili Nazirliyinin, Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan EA-nın, müxtəlif ictimai təşkilatların Fəxri fərmanlarına, "Fərqli müvəffəqiyyətinə görə" nişanına layiq görülmüşdür.

2002-ci il aprelin 3-də Bakı şəhərində vəfat etmişdir.

Vəli Hüseyn oğlu Əliyev
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
(1936-2020)

20 iyul 1936-cı ildə Şəki rayonunun Daşbulaq kəndində anadan olmuşdur. Valideynləri ilə birlikdə Qərbi Azərbaycanın Zəngəzur mahalının Sisyan rayonunun Şıxlar kəndində yaşamış, burada 6-cı sinfi bitirmişdir. 1948-1949-cu illərdə azərbaycanlıların Ermənistandan deportasiyası zamanı ailəsi ilə birlikdə Azərbaycanın Şəki rayonuna köçmüşdür. Şəki Pedaqoji Texnikumunda oxumuşdur. 1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır.

1959-cu ildə AMEA-nın Tarix İnstitutunda elmi işçi kimi əmək fəaliyyətinə başlamışdır. 1966-cı ildə "Azərbaycanda tunc dövrü boyalı qablar mədəniyyəti" mövzusunda namizədlik, 1984-cü ildə Tbilisi şəhərində Gürcüstan EA-nın İ.A.Cavaxişvili adına Tarix Arxeologiya və Etnoqrafiya İnstitutunda "Azərbaycanın orta tunc dövrü tayfalarının mədəniyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1990-2020-ci illərdə Azərbaycan EA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda Tunc və ilk dəmir dövrü şöbəsinin, 1997-2020-ci illərdə ADPU-nun Ümumi tarix kafedrasının müdiri vəzifəsində işləmişdir. 2003-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. "Tarixin izləri ilə" (1975), "Azərbaycanın tunc dövrü boyalı qablar mədəniyyəti" (1977), "Qədim Naxçıvan" (1979), Ağsunun tarixi səhifələri (2001), "Naxçıvan Azərbaycanın tarixi diyarıdır" (2002), "Gəmiqaya" (2005), "Naxçıvanın Qədim qala şəhərləri" (2012), "Qədim Qarabağ" (2013) adlı monoqrafiyaların, ümumtəhsil məktəbləri üçün tarix dərsliklərinin, 300-ə qədər elmi və publisistik məqalənin müəllifidir.

Onun rəhbərliyi ilə 2 nəfər elmlər doktoru və 15 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir. Bakı, Naxçıvan, Salyan, Ağsu (Azərbaycan), Lahor (Pakistan), Tbilisi (Gürcüstan), Milan (İtaliya), Malmö (İsveç krallığı), Ankara, İstanbul, Bayburt (Türkiyə) şəhərlərində keçirilən Beynəlxalq və respublika səviyyəli konfransların iştirakçısı olmuş, Azərbaycan etnoqrafiyasının müxtəlif problemləri ilə bağlı məruzələr etmişdir. 2001-ci ildən Pakistan və Mərkəzi Asiya Elmi Assosiasiyasının, Beynəlxalq Azərbaycan Diaspora cəmiyyətinin, Azərbaycan Ağsaqqallar Şurasının üzvü olub.

8 yanvar 2020-ci ildə Bakı şəhərində vəfat edib.

Səlahəddin Sədrəddin oğlu Xəlilov
AMEA-nın müxbir üzvü
fəlsəfə elmləri doktoru, professor
(1952)

22 fevral 1952-ci ildə Gürcüstan Respublikasının Marneuli şəhərində anadan olub. 1968-ci ildə Marneuli şəhər 1 №-li orta məktəbi qızıl medalla bitirərək, Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinə daxil olub. 1973-cü ildə BDU-nun Fizika fakültəsini fərqlənmə diplomu ilə bitirdiyinə görə təyinatla universitetin Molekulyar fizika kafedrasında saxlanılıb. Elə həmin il ADU-nun Fəlsəfə kafedrasına aspirant qəbul olunub. 28 may 1976-cı ildə S.M.Kirov adına ADU-nun ixtisaslaşmış Müdafiə Şurasında "Elmi-texniki tərəqqinin sistem-struktur təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona 1 fevral 1978-ci ildə fəlsəfə elmləri namizədi elmi dərəcəsi, 26 mart 1986-cı ildə Fəlsəfə kafedrası üzrə dosent elmi adı verilib. 10 yanvar 1977-ci ildə ADPİ-nin Fəlsəfə kafedrasında laborant kimi fəaliyyətə başlayıb. 11 iyun 1979-cu ildə həmin kafedrada müəllim, 25 oktyabr 1983-cü ildə baş müəllim, 8 dekabr 1986-cı ildə dosent vəzifəsinə seçilib.

Səlahəddin Xəlilov 14 dekabr 1990-cı ildə "Elmi-texniki tərəqqinin məntiqi-qnoseoloji tədqiqi" mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsi alıb. 13 fevral 1991-ci ildən 15 may 1993-cü ilə kimi ADPU-nun Fəlsəfə kafedrasına rəhbərlik edib. 21 yanvar 1993-cü ildə Fəlsəfə kafedrası üzrə ona professor elmi adı verilib. Ali Humanitar Kollecin rektoru seçildiyinə görə öz ərizəsi ilə vəzifəsindən azad olunub.

1991-ci ildə Azərbaycanda ilk ingilisdilli özəl gimnaziyanı, humanitar liseyi və ilk özəl Azərbaycan Universitetini təsis etmişdir. Universitetin təsisçiliyindən çıxana qədər onun rektoru olmuşdur. 1994-cü ildə Şərq-Qərb Tədqiqat Mərkəzinin əsasını qoymuşdur. 1997-ci ildən Rusiya Ekologiya Akademiyasının üzvü seçilmişdir. 1997-ci ildə "İpək Yolu" beynəlxalq elmi və ictimai-siyasi jurnalını təsis etmiş və 2005-ci ilə qədər onun baş redaktoru olmuşdur. 1999-cu ildə Beynəlxalq "Who is who?" ensiklopediyasına daxil edilmişdir.

2002-ci ildə Azərbaycan Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyasının (AFSEA) İdarə Heyətinin sədri seçilmişdir. 2003-cü ildən "Fəlsəfə və Sosial-siyasi elmlər" jurnalının baş redaktorudur. 2006-2018 -ci illərdə Azər-

baycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü olub. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. 2009-cu ildən AMEA-nın Fəlsəfə, Politologiya və Sosiologiya elmləri üzrə Problem Şurasının sədridir.

BDU-nun nəzdində respublika Gənc fiziklər məktəbi yaratmış və ona rəhbərlik (1972-1974) etmiş, 1981-ci ildə ADPİ-də "Fəlsəfə, elm və həyat" klubunu yaratmış, 1988-ci ildə Azərbaycan Gənc Cəmiyyətşünas Alimlər Birliyinin sədri seçilmişdir. 1997-ci ildən Bəhmənyar adına mükafat Komissiyasının sədri və Beynəlxalq Rektorlar Şurasının üzvü olub. 1998-ci ildən Hüseyn Cavid adına mükafat Komissiyasının həmsədri olan S.Xəlilov "İstedadlar Klubu"nu təsis etmişdir. 2000-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Tədqiqatının əsas istiqamətini elmşünaslıq, idrak nəzəriyyəsi, Şərq və Qərb sivilizasiyaları, fəlsəfi komparativistika, Əbu Turxan fəlsəfəsi və fenomenologiya məsələləri təşkil edir. Elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətinə görə milli və beynəlxalq mükafatlara layiq görülmüşdür. Yusif Məmmədəliyev adına mükafatın laureatıdır.

2000-ci ildən Avropa Ali Təhsil Cəmiyyətinin, Amerika Fəlsəfə Assosiasiyasının, 2004 -cü ildən Beynəlxalq Hüsserl və Fenomenoloji Tədqiqatlar Cəmiyyətinin, 2009-cu ildən Amerika Siyasi Elmlər Assosiasiyasının, Mühiyəddin İbn Ərəbi Cəmiyyətinin, Avropa Elm fəlsəfəsi Assosiasiyasının üzvüdür. 2010-cu ildən Elm, Mühəndislik və Texnologiya Beynəlxalq Akademiyasının Humanitar və sosial elmlər üzrə ekspertidir.

Azərbaycanda və xarici ölkələrdə 40-dan çox kitabı və 400-dən çox elmi məqaləsi nəşr olunmuşdur. Dəfələrlə Beynəlxalq konqres və forumlarda Azərbaycanı təmsil etmişdir.

22 fevral 2012-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir

Juze Krestoviç Panteleymon

(Bəndəli ibn Səlib əl Cəuzi)

filologiya elmləri doktoru, professor

(1870-1942)

20 iyul 1870-ci ildə Qüdsdə anadan olmuşdur. Mənşəcə Suriya ərəblərindəndir. Kiçik yaşlarından yetim böyüyüb. Juze ilk təhsilini Fələstin və Livanda pravoslav rahiblərdən alıb, məşhur Nazaret seminariyasını bitirib. Bu seminariyanın ən yaxşı məzunlarından biri kimi Fələstin Cəmiyyətinin təqaüdü

ilə 1889-cu ildə Rusiyaya göndərilib. Vifan seminariyasında, 1892-95-ci illərdə isə Moskva Ruhani Akademiyasında oxuyub, 1895-ci ilin sentyabrında öz xahişi ilə Kazan Ruhani Akademiyasına dəyişdirilib. Kazanda islamşünas və şərqşünas kimi formalaşıb, Kazan şərqşünaslıq məktəbinin görkəmli nümayəndələrindən biri olub. 20 ildən çox bu şəhərdə yaşayaraq Orta Şərqdə xristianlığın problemlərinə həsr olunmuş dəyərli əsərlər yazmış, tədqiqat işlərini Kazan İlahiyyat Akademiyasının tədris və tədqiqat işləri ilə əlaqələndirmişdir. 1896-cı ildə Juze akademiyanı ilahiyyat elmləri namizədi dərəcəsi ilə bitirib. Elmi ad üçün təqdim etdiyi araşdırma IX-XII əsrlər müsəlman dini-fəlsəfi cərəyanlarından birinin təmsilçilərinə – mütəzəlitlərə həsr olunmuşdu. O, akademiyada ərəb dilindən praktik dərslər, fransız dilindən mühazirə və seminar məşğələləri aparmışdır. 1889-cu ildə Kazan İlahiyyat Akademiyasında ikiillik missioner kursları təşkil edildi. P.K.Juze həmin kurslarda ərəb dilini tədris edirdi. 1897 və 1909-1910-cu illərdə Kazan İlahiyyat Akademiyası Juzeni hələ elmi dövriyyəyə daxil edilməmiş islam tarixi ilə bağlı mənbələr tapmaq ümidi ilə Yaxın Şərqə göndərdi. 1897-ci ildə Juze Qahirə kitabxanasında bəzi ərəb əlyazmalarını öyrəndi, xeyli material topladı. Juzenin Şərqə ikinci səyahəti təxminən on il sonra reallaşdı. O, Kazan İlahiyyat Akademiyasının Şurasından Məhəmməd Peyğəmbərdən əvvəl və sonra ərəblər arasındakı xristianlığın və xristian ədəbiyyatının yayılmasını öyrənmək məqsədi ilə ezamiyyətə göndərilməsini xahiş etdi. Bunun üçün Sinay, Qüds, Beyrut kitabxanalarda olan ərəb, yunan və Suriya əlyazmalarına baxmaq lazım idi. Akademiya Şurası Juzeni 1909/10-cu tədris ilində Şərqə göndərdi. Elmi ezamiyyət zamanı o, Qüds, Şam, Qahirə, Hayfa, Nazaret kitabxanalarında elmi axtarışlar apardı. Qüds kitabxanasında ərəb, ərəb-yunan və ərəb-suriya dillərində olan 32 əlyazma toplusunu araşdırdı. Juze üç ay Qüdsdə yaşadı, burada Qüds kilsəsinin nadir sinodikası olan yunan əlyazmalarını araşdırdı, 1099-cu ilə qədər olan dövrdə Qüds patriarxlarının siyahısını bərpa etməyə müvəffəq oldu. Elmi səfərlər çox real təhsil nəticələrinə səbəb oldu. Onun "Mutazilitlər. İslamda doqmatik-tarixi araşdırmalar" mövzusunda yazdığı magistr dissertasiyası xüsusi mükafata (300 rubl) layiq görüldü. Mutazilitlər - dini ehkamların mütləqliyini qəbul etməyib, əksinə, zəkanın, ağlın qüdrətini etiraf etdiklərindən, yalnız zəkanın önəmliliyini tanıdıqların-

dan ilk müsəlman rasionalistləri hesab olunurlar. 1912-1914-cü illərdə Yuze fransız dilindən Yaxın Şərqdə xristianlığın tarixinə aid əsər tərcümə etdi. 1913-cü ilin noyabr ayından etibarən Juze Kazan İlahiyyat Seminariyasına fransız dili müəllimi təyin edildi. 1915-ci ildə Juze müsəlman hüququndan mühazirə oxumaq üçün Kazan Universitetinin Hüquq fakültəsinə dəvət edildi. 20 aprel 1916-cı ildə ona privat-dosent adı verildi. 1920-ci ilin əvvəlində P.K.Juze Bakı Dövlət Universitetinə dəvət olundu. O, ailəsi ilə birlikdə Bakıya gəldi, Tarix-filologiya fakültəsinin Şərq şöbəsində pedaqoji fəaliyyətə başladı. 1921-ci ildə o, ərəb dili və ədəbiyyatı üzrə doktorluq dərəcəsinə layiq görüldü. 1922-1926-cı illərdə Şərq fakültəsinin dekanı, Yaxın Şərq xalqları tarixi və etnoqrafiyası kafedrasının müdiri olub. 1921-ci ildə o, Yeni əlifba komitəsinin üzvü seçilmişdi. Yarandığı vaxtdan (1923) Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin tarix-etnoqrafiya bölməsində fəal iştirak edirdi. Politexnik İnstitutun təşkilində müəyyən xidmətləri olmuşdu. ADU ilə bərabər Azərbaycan Pedaqoji İnstitutunda da çalışırdı. O, ADPİ-nin Şərq tarixi, etnoqrafiyası və müsəlman hüququ kafedrasına rəhbərlik edir, mühazirələr oxuyurdu. İlk cildinin 1934-cü ildə çapdan çıxması nəzərdə tutulan Azərbaycan Sovet Ensiklopediyasının müəlliflərindən biri idi. Sözlüyün hazırlanmasında fəal iştirak etmiş, 50-dən çox məqalə yazmışdı. Ərəblər üçün "Rus dili" dərsliyinin və 2 cilddə "Rusca-ərəbcə lüğət"in müəllifidir. 1941-ci ildə nəşr olunan "Azərbaycan tarixi. Qısa oçerk (Ən qədim dövrlərdən XIX əsrə qədər)" kitabının müəlliflərindən biri də Juze olub. ADU bağlandıqda elmi-pedaqoji fəaliyyətini ADPİ-də davam etdirib. SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsi təşkil ediləndən (1932) ömrünün sonuna kimi buradakı Tarix, Dil və Ədəbiyyat İnstitutunun birinci dərəcəli elmi işçisi vəzifəsində çalışıb.Həm də ADU-nun Ərəb dili və ədəbiyyatı kafedrasının professoru olub. Bakıda olarkən Azərbaycan tarixinin orta əsrlər dövrü ilə bağlı araşdırmalar aparıb. Azərbaycan tarixinə dair ərəb dilli mənbələrin tərcüməsi və şərhi onun yaradıcılığında mühüm yer tutur. Doğma ərəb dili ilə yanaşı latın, yunan, qədim yəhudi, Assuriya dillərini bilməsi onun tərcümələrinin mənbəşünaslıq, tarixilik və filoloji baxımdan dəqiqliyinə, mükəmməlliyinə zəmanət verirdi. 1940-cı ildə həbs edilib, iki aylıq işgəncədən sonra azad olunub.

Professor P.Juze həm də alimlər sülaləsinin başçısı olub. Oğlu, fizika-riyaziyyat elmləri doktoru, professor Vladimir Juze (1904-1993), qızları – tanınmış sovet okeonoloqu, biologiya elmləri doktoru, professor Anastasiya Juze (1905-1981), kimya elmləri doktoru, professor, Stalin mükafatı laureatı, SSRİ-nin fəxri neftçisi Tamara Juze (1908-2002), biologiya elmləri doktoru, professor Olqa Nizkovskaya-Juze (1915-2002) onun elmə bağlılıq ənənələri-

ni həyatlarının sonuna qədər davam etdirmişlər. Onlar hamısı ADU-nun məzunları olmuşdur. Onun haqqında Kazanda M.A.Kostryukov "Yuze Panteleymon Krestoviç (1870-1942): ictimai və elmi-pedaqoji fəaliyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

19 yanvar 1942-ci ildə Bakı şəhərində vəfat edib.

Fridolin Pyotur Pyoturoviç
tarix elmləri doktoru, professor
(1876-1949)



2 sentyabr 1876-cı ildə anadan olmuşdur. 1898-ci ildə Sankt-Peterburq Universitetinin Tarix-filologiya fakültəsini bitirib. 1901-1910-cu illərdə İmperator Aleksandr Liseyində tərbiyəçi müəllim işləməklə yanaşı, həm də Marinski Qadın Gimnaziyasında (1906-1908) və E.P. Şaffe Qadın Gimnaziyasında (1907-1908), Smolnı İnstitutunda (1908-1910) və Qadın Pedaqoji İnstitutunda (1910) çalışıb. 1910-cu ildə Sankt-Peterburqda onun "Avropa incəsənətinin qısa tarixi" kitabı nəşr edilib. Onun araşdırmaları Qərbi Avropa tarixinə, xüsusən də, erkən orta əsrlər və İntibah dövründə İtaliya tarixinə həsr edilmişdir. 1911-1919-cu illərdə Peterburq Universitetinin Tarix-filologiya fakültəsinin Ümumi tarix kafedrasında işləyib. 1912-1918-ci illərdə Qadın Pedaqoji İnstitutunda işləyib, İtaliyada Vatikan arxivində araşdırmalar aparıb. 1918-1923-cü illərdə Samara Universitetində rektorun köməkçisi və Tarix-filologiya fakültəsinin dekanı vəzifəsində çalışıb. 1921-ci ildə həmin universitetə rektor vəzifəsinə seçilib və 1923-cü ilə kimi həmin vəzifədə çalışıb. Eyni zamanda universitetin Arxeologiya, Tarix, Etnoqrafiya və Təbiət Elmləri Cəmiyyətinin sədri, Pedaqoji fakültənin tarix komissiyasının sədri və tarix seminarının rəhbəri olub.

1919-cu ildə Saratov Universitetinin, 1923-cü ildə ADU-nun professoru seçilib. Samara Universitetindən Bakıya dəvət olunan P.P.Fridolin 1923-cü ildən ömrünün sonuna kimi ADU-da və ADPİ-də çalışıb, pedaqoji və elmi pedaqoji kadr hazırlığında səmərəli fəaliyyət göstərib. ADU-da fakültə dekanı, ADPİ-də Qərb tarixi kafedrasının müdiri olub. "Compi üsyanı: XIV əsrdə İtaliyada işçi hərəkatının tarixindən" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Doktorluq dissertasiyanın tezisləri 1942-ci ildə nəşr olunub.

Onun araşdırmaları Qərbi Avropa tarixinə, xüsusən də, erkən orta əsrlər və İntibah dövründə İtaliya tarixinə həsr edilmişdir. Pedaqogika tarixinə (xüsusilə, İntibah dövründə Avropada pedaqoji fikrin inkişafına), pedaqogikanın metodoloji problemlərinə aid maraqlı araşdırmaların müəllifidir.

19 dekabr 1949-cu ildə Bakıda vəfat edib.

Həmid bəy Xəlil ağa oğlu Şahtaxtinski

Zaqafqaziya Xalq təhsil naziri,
AXC-nin Maarif və Dini Etiqad naziri,
professor
(1880-1944)

1880-cı il martın 12-də Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olub. İlk təhsilini mollaxanada alıb, III dərəcəli şəhər məktəbində oxuyub.1899-cu il iyunun 5-də İrəvan Müəllimlər Seminariyasının tam kursunu bitirərək 379 nömrəli attestat alıb. 1899-cu il sentyabrın 1-də İrəvan rus-tatar məktəbinə müəllim təyin edilib. 1901-ci ildə ona İrəvan Müəllimlər Seminariyasında türk dili dərslərini tədris etməyə icazə verilmiş, 9 aprel 1902-ci ildə tutduğu vəzifəyə təsdiq olunmuşdur. 1907-ci il oktyabrın 23-də öz xahişi ilə vəzifəsindən azad edilmişdir. 1907-ci ildə Odessa Universitetinin Hüquq fakültəsinə daxil olub. İkinci kursda oxuyarkən xəstələndiyindən Bakıya qayıdıb, bir il Bakı Alekseyevsk ali hazırlıq məktəbində müəllim işləyib. Sonra yenidən Odessaya qayıdaraq təhsilini davam etdirib, 1912-ci ildə II dərəcəli diplomla universiteti bitirib. 1913-cü ildə Bakı quberniyası xalq məktəbləri direktorunun icazəsi ilə müəllimlər hazırlamaq üçün şəxsi kurs açıb, Ramanadakı Alekseyevsk peşə məktəbində, Gəncə Müəllimlər Seminariyasında riyaziyyat müəllimi işləyib. Qazax və Nuxa qəzaları üzrə xalq məktəblərinin təlimatçısı olub. 1918-ci ildə Zaqafqaziya Seymi formalaşdıqdan sonra Zaqafqaziya Hökumətində Xalq təhsil naziri vəzifəsində çalışıb. 1918-ci ilin iyunun 6-da F.X.Xoyskinin Gəncədə formalaşdırdığı ikinci və üçüncü Hökumət kabinetində H.Şahtaxtinski Xalq Maarifi və Dini etiqad nazirinin müavini olub. 1919-cu ilin dekabrın 24-də N.Yusifbəylinin formalaşdırdığı ikinci (sayca 5-ci) Hökumət kabinetində H.Şahtaxtinski Maarif və Dini Etiqad naziri təyin olunub. BDU-nun təşkilində önəmli rol oynayıb, orada müəllim, prorektor (1919-1925) olub.

Ali Pedaqoji İnstitutun yaradılması layihəsinin müəlliflərindən biri olub. Ali Pedaqoji İnstitutda, Bakı Xalq Maarifi şöbəsi nəzdindəki ikiillik Müəllimlər İnstitutunda, Tibb İnstitutunda (1930-1940) işləyib. Pedaqoji İnstitutda pedaqogika və psixologiyadan dərs deyib. Tiflisdəki Zaqafqaziya Universitetinin Tibb fakültəsini bitirib (1928). 1930-cu ildə ADU-nun 10 illik yubileyində ona professor elmi adı verilib. Azərbaycan Tibb İnstitutunun professoru olub. Azərbaycanın ümumtəhsil məktəbləri üçün dərsliklərin, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyaların sədri olmuş, yeni Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir. Repressiyaya məruz qalan H.Şahtaxtinski 1941-ci ildə həbs edilərək sürgünə göndərilmişdir.

1944-cü il fevralın 3-də Arxangelsk vilayətində sürgündə həlak olmuşdur.

Məmməd Hüseyn oğlu Əliyev

Əməkdar elm xadimi,
professor
(1882-1967)

10 fevral 1882-ci ildə Yelizavetpol (Gəncə) şəhərində anadan olmuşdur. 1890-1898-ci illərdə Gəncə şəhər məktəbində, 1899- 1902-ci illərdə Tiflis Yerölçmə Məktəbində oxumuşdur. Məktəbi I dərəcəli (fərqlənmə) yerölçən ixtisası ilə bitirmişdir. 1902-1905-ci illərdə Peterburq Ali Hərbi Topoqrafiya məktəbində oxumuş, oranı I dərəcəli diplomla bitirmişdir. Peterburq quberniyasının topoqrafik layihələşdirmə idarəsində - hərbi topoqraflar korpusunda işə başlamış, Pribaltika, Finlandiya, Kiyev və başqa quberniyalarda topoqrafik planlaşdırma işləri görərək xəritələr tərtib etmişdir. 1908-ci ildə M.Əliyev Tiflisdə Qafqaz hərbi topoqrafiya şöbəsinə göndərilmiş və burada topoqrafiya- geodeziya işləri aparmışdır. 1913-1914 -cü illərdə I-II sinif trianqulyasiya aparmaq üçün Beynəlxalq sərhəd komissiyasına ezam edilmişdir. Zaqafqaziya Hərbi topoqrafiya şöbəsi ləğv edildikdən sonra podpolkovnik M.Əliyev Azərbaycan Respublikası Hərbi Nazirliyi yanında yeni təşkil olunmuş Azərbaycan topoqrafiya şöbəsinin rəisi təyin edilmişdir.

Hərbi Nazirliyin 26 mart 1919-cu il tarixli əmri ilə podpolkovnik M.Əliyev Azərbaycan Respublikasının Gürcüstan Respublikasındakı Diplomatik Nümayəndəliyi yanında Baş Qərargah rəisinə tabe olmaqla Hərbi Attaşe tə-

yin edilmişdir. 17 aprel 1921-ci il tarixindən 25 oktyabr 1924-cü il tarixinədək Qızıl Ordu Qərargahında xidmət keçmiş, Hərbi-Topoqrafiya İdarəsinin rəis müavini və Ali Komanda kurslarında topoqrafların hazırlanması üzrə baş rəhbər təyin edilmişdir. 1922-ci ildə ilk Hərbi- Topoqrafiya Məktəbinin rəisi və müəllimi təyin edilmişdir. 1924-cü ildə onun rəhbərliyi ilə adı çəkilən məktəbin bazasında Topoqrafiya-geodeziya Texnikumu (Ağamalıoğlu adına Yer Quruluşu və Meliorasiya Texnikumu) yaradılmışdır. M.Əliyev 1928 -ci ilədək bu texnikumun direktoru olmuşdur. 1922-ci ildən başlayaraq M.Əliyev bir sıra Azərbaycan təhsil müəssisələrinin təşkilində iştirak etmiş, Azərbaycan Dövlət Universitetində geodeziya və topoqrafiya üzrə mühazirələr oxumuşdur. Azərbaycan Politexnik İnstitutunda (Azərbaycan Sənaye İnstitutu) kafedra müdiri (1925-1928) və direktor müavini (1928-1931) işləmişdir. 1935-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda təşkil edilən ilk müstəqil Coğrafiya kafedrasına müdir təyin olunub. 1948-ci ildə Azərbaycan EA Coğrafiya İnstitutunda kartoqrafiya şöbəsinə rəhbərlik edib. Azərbaycan Neft və Sənaye İnstitutunda Geodeziya kafedrasının müdiri olub. 1 mart 1928-ci ildə ona dosent, 1 yanvar 1931-ci ildə professor elmi adı verilib. 1945-ci ildə Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

9 dərsliyin, 60-a yaxın elmi məqalənin müəllifidir. 2-ci dərəcəli Müqəddəs Anna ordeni, "Lenin ordeni" və müxtəlif medallarla ("Rəşadətli əməyə görə"), Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilib, dəfələrlə Bakı və rayon sovetlərinə deputat seçilmişdir. Azərbaycan geodeziya və kartoqrafiya elminin banisi hesab edilir.

1967-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Davud bəy Mikayıl bəy oğlu Şərifov

coğrafiya elmləri namizədi, professor
(1885-1952)

1885-ci il iyul ayının 8-də Tiflis şəhərində hərbçi ailəsində anadan olub. I Tiflis kişi gimnaziyasını bitirib. 1902-ci ildə Kiyev Universitetinin Hüquq fakültəsinə daxil olub. Lakin tələbə nümayişlərində iştirak etdiyinə görə Universitetdən xaric olunub. 1903-1907 -ci illərdə Novorossiysk İmperator Universitetinin Tarix-filologiya fakültəsində təhsil alıb. Bakı gimna-

ziyasında (1902-1909), Qars realni məktəbində (1909-1913), Tiflisdə birinci oğlan gimnaziyasında (1913-1919), Gürcüstandakı milli məktəbdə (1919-1920) müəllim, Qazax rayonunda torpaq komitəsinin sədri (1920-1922-ci illərdə) işləmişdir. I Ümumittifaq Türkoloji qurultayın iştirakçısı olub. Sonrakı illərdə Xalq Maarif Komissarlığında inspektor (1922-1924), Ali Pedaqoji İnstitutda antropologiya və rus dili müəllimi (1922-1927), Azərbaycan Dövlət Muzeyinin direktoru (1923-1928), ADU-nun Pedaqoji fakültəsində (1928), Azərbaycan Pedaqoji İnstitutunda (1929-1932), Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda (1937-1943; 1944-1951) baş müəllim, Bakı Xalq Təhsil şöbəsində müfəttiş- metodist (1937-1943), Statistika Texnikumunda müəllim (1944-1951) vəzifələrində çalışmışdır. 1944-46-cı illərdə Davud bəy Şərifov Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində etnoqrafiyaya, coğrafiya fakültəsində isə coğrafiyaya aid silsilə mühazirələr oxumuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fiziki coğrafiya kafedrasının müdiri olub. Latın dili onun tədris etdiyi əsas fənlərdən biri olub. "Avatar vadisinin morfologiyası" (1951) mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Ona professor elmi adı verilib. "Bizim mədəni irsimiz" (1923), "Azərbaycan coğrafiyası" (1924) adlı kitabların, etnoqrafiya ilə bağlı elmi məqalələrin müəllifidir.

1952-ci il avqustun 8-də Bakı şəhərində vəfat edib.

Əziz Salih oğlu Ubaydullin

professor

(1887-1937)

1887-ci ilin iyununda Kazanda tacir ailəsində anadan olub. Əvvəlcə məhəllə məktəbində, 1895-1904-cü illərdə isə Kazanda "Həmidiyyə" mədrəsəsində oxuyub. Burada ərəb, türk və tatar dillərini və islam dininin əsaslarını dərindən öyrənib. Mədrəsənin tədris proqramı Yaxın Şərqin mədrəsələrinin ənənəvi tədris proqramından xeyli fərqlənirdi. Burada tələbələrin Şərq mədəniyyəti ilə bərabər, Qərb mədəniyyəti ilə tanış olmaq imkanları var idi. Mədrəsədə təhsilin məzmunu müasirliyi və daha çox praktikliyi ilə fərqlənirdi. O, mədrəsədə oxumaqla yanaşı, həm də rus-tatar məktəbinə də gedib. Burada rus dilini və ədəbiyyatını

öyrənib. Lev Tolstoyun əsərləri onun dünyagörüşünün formalaşmasına mühüm təsir göstərib.

1906-1908-ci illərdə ailədə özünütəhsil yolu ilə rus və Avropa dillərini öyrənib, dünya ədəbiyyatı, tarixi və fəlsəfəsi ilə yaxından tanış olub. 1909-cu ildə Kazan Universitetinin Hüquq fakültəsinə qəbul olunub. Burada o, azərbaycanlı Soltan Məcid Əfəndiyevlə tanış olur. Bu tanışlıq sonralar sıx dostluğa, əqidə birliyinə çevrilərək ömürlərinin sonunadək davam edib. Onun Hüquq fakültəsində oxuması o qədər də uzun sürməyib.

Prof.A.A.İvanovun rəhbərliyi ilə dövlətin və millətin əmələ gəlməsi mövzusunda araşdırmalar aparıb. 1909-cu ildə "Türk xalqlarının qəhrəmanlıq eposu "Seyid Battal"ın yaranması" əsərini yazıb. Bu əsər professorlar M.M.Xvostovun və N.N.Firsovun diqqətini cəlb etdiyindən ona ixtisasını dəyişməyi - tarix şöbəsinə keçməyi məsləhət görürlər. N.F.Katanovun məsləhətilə o, "Marko Polo monqol tarixinin araşdırıcısı kimi" mövzusunda diplom işi üzərində işləyir və 1914-cü ildə onu başa çatdırır. Həmin il gənc alim "Türk-tatar xalqlarında qadınların vəziyyəti – qədim dövrdən Teymura qədər", "Mərcani və bədii incəsənət" əsərlərini yazıb. Universitetin rəhbərliyi təhsildə qazandığı uğurları və yazdığı böyük həcmli diplom işini nəzərə alaraq onu 1916-cı ildə birinci dərəcəli diplomla təltif edir. Əziz Ubaydullin 1919-cu ildə Kazan Universitetinin tarix-fəlsəfə şöbəsini bitirir. O dövrdə I dərəcəli diplomla universiteti bitirənlərə ali məktəbdə işləmək təklif olunurdu. Lakin ona hökumət yanında siyasi etibarsızlığına, tatar olduğuna görə dövlət qulluğuna keçməyə, universitetdə işləməyə icazə verilməyib. Hətta 1914-cü ildən işlədiyi yeni tipli Məhəmmədiyə tatar mədrəsəsindən də uzaqlaşdırılıb.

1917-1919-cu illərdə pedaqoji fəaliyyətlə məşğul olub. Həmin dövrdə qədim dünya tarixi, Rusiya və din tarixi ilə bağlı ilk əsərlərini nəşr etdirib. 1919-1925-ci illərdə Kazan ali məktəblərində müəllimlik etməklə yanaşı, tatar xalqının tarixi və ədəbiyyatı ilə bağlı ciddi araşdırmalar aparıb. "Din tarixi kursu" (1918), "Rusiya tarixi kursu" (1919) və "Qədim dünya tarixi kursu" (1919) kitablarını yazıb. "Tatarların tarixi" (1925) fundamental əsərini nəşr etdirib. Həmin əsər bu gün də tatar xalqının təşəkkülü və inkişafına həsr olunmuş ən yaxşı tədqiqatlardan biri hesab olunur. 1921-ci ildə bolşeviklər təhsil sistemində magistratura pilləsini ləğv edib. Əziz Ubaydullin magistraturanı bitirsə də, son imtahanlarını verə bilmədiyinə görə magistr dərəcəsi ala bilməyib. Şərq Akademiyası və Şərq Pedaqoji İnstitutunda müəllim işləyib. O, həmişə bolşeviklərin təzyiqi ilə üzləşib. Onun xalqını azadlıq mübarizəsinə, müstəmləkəçilik əleyhinə səsləyən məqalə və çıxışları bolşevik görüntülü velikorusları narahat edib.

Səmərqənd şəhərində Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan, Tatarıstan, Başqırdıstan, Dağıstan və Azərbaycanı sovet işğalından azad etmək məqsədilə gizli bir təşkilat qurulur. Az sonra həmin təşkilat Bakıda öz fəaliyyətini davam etdirməyə başlayır. Təşkilatın əsas üzvlərindən biri olan Əziz Ubaydullin Bakıya gəlməli olur. Ali Pedaqoji İnstitutun Tarix-ictimaiyyat şöbəsinə dekan təyin olunur və dosent vəzifəsinə seçilir. Həmin dövrdə institutun Tarix-ədəbiyyat şöbəsinə İsmayıl Hikmət rəhbərlik edirdi. 1926-cı ildə Ali Pedaqoji İnstitutun 5 illik yubileyi ilə bağlı nəşr edilən məcmuədə Tarix-ictimaiyyat şöbəsinin inkişaf yolu ilə bağlı Ə.Ubaydullinin məqaləsi və şəkli verilmişdir.

O, Azərbaycan Xalq Komissarları Sovetinin 17 sentyabr 1925-ci il tarixli əmri ilə Azərbaycan Mərkəzi Dövlət Arxivinə tədqiqatçı-arxivşünas vəzifəsinə təyin olunub. Bakıda keçirilən I Türkoloji qurultayın işində fəal iştirak edib, "Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı" mövzusunda məruzə ilə çıxış edib. 1928-ci ildə Səmərqənd və Daşkənd Universitetlərinin Müsəlman Şərqi kaferdrasına, ADU-nun Şərq tarixi kafedrasına professor vəzifəsinə seçilib. 1930 -cu ildə Moskva Dövlət Unversitetinə Şərq tarixi ilə bağlı mühazirələr oxumağa dəvət edilən Ə.Ubaydullin həmin universitetin professoru seçilib.

ADU ləğv ediləndən sonra pedaqoji fəaliyyətini Pedaqoji İnstitutda davam etdirib. 1931-ci ildə ADPİ-nin Yaxın Şərq tarixi kafedrasına müdir vəzifəsinə seçilib. Həmin illərdə o, SSRİ Xalqları Tədqiqat İnstitutunun, Marksistlər Tarixi Cəmiyyətinin, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun, Tarix və Arxeologiya Cəmiyyətinin, Tatarşünaslıq Cəmiyyətinin üzvü seçilib. 1930-cu ildə "10 ildə Azərbaycanda tarix elminin inkişafı" adlı monoqrafiyası nəşr olunub. 1931-ci ildə Azərb.DETİ-də tarix bölməsinə rəhbərlik edib. 1933-cü ildə Kabardi-Balkar Pedaqoji İnstitutunda müəllim işləyib. 1934-1935-ci illərdə Kazanda elmi-tədqiqat institutunda və Tatarıstan Pedaqoji İnstitutunda çalışıb. 1936-cı ildə yenidən Bakıya qayıdıb və SSRİ EA-nın Azərbaycan filialında işləyib.

17 mart 1937-ci ildə Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığı tərəfindən həbs edilib, tutduğu bütün vəzifələrdən azad edilərək əksinqilabçı kimi güllələnib. 16 mart 1957-ci ildə bəraət alıb.

Boris Borisoviç Komarovski
pedaqoji elmlər doktoru, professor
(1888-1965)

29 aprel 1888-ci ildə Bessarabiyanın Bayramça kəndində yəhudi ailəsində anadan olub. 13 yaşı tamam olan kimi emalatxanada usta şagirdi kimi işə düzəlib, az sonra usta köməkçisi olub. 1908-ci ildə ekstern yolu ilə imtahan verərək gimnaziyanı bitirməsi haqqında attestat alıb. 1909-1912-ci illərdə Akkermanda yəhudilərin ictimai məktəbində müəllimlik edib. 1912-1918-ci illərdə Odessada yaşayan B.B.Komarovski müəllimlik fəaliyyətini davam etdirir. Burada "Əmək" cəmiyyətinin yəhudilərə aid sənət məktəbində və ticarət məktəbində dərs deyir. Yəhudi olduğuna görə Odessa Universitetinə daxil ola bilmir. Ali təhsil almağa böyük həvəsi olan B.B.Komarovski Odessa Beynəlxalq Hüquq İnstitutuna daxil olur. I Dünya müharibəsindən sonra Odessada ictimai-siyasi vəziyyət xeyli dəyişdi. 1918-ci ildə yaranmış vəziyyətdən istifadə edən B.B.Komarovski Ali Pedaqoji İnstituta çevrilən Yekaterinoslavski Universitetinə daxil olur və 1921-ci ildə oranı bitirir və Odessada yəhudilər arasında maarifi yayan cəmiyyətdə pedaqoji fəaliyyət göstərir. Yekaterinoslavda orta məktəbdə və xalq maarif şöbəsində instruktor işləmiş, ixtisasartırma kurslarına rəhbərlik etmişdir.1921-ci ildə Bakıya gəlir və həyatını ömürlük bu şəhərlə bağlayır, ilk vaxtlar "Məktəbəqədər ev" təşkil edir, Frebel kurslarına rəhbərlik edir. 1922 –ci ildə "Maarif evi" təşkil edir, Bakı Xalq Maarif İnstitutuna iki il rəhbərlik edir. Bu illər ərzində min nəfərdən artıq müəllim hazırlanır. 1921-1924-cü illərdə Azərbaycan Dövlət Universitetinin aspiranturasında təhsil alır. 1926-cı ildə ADU tərəfindən ona dosent adı verilir. 1927-ci ildə "Dyui pedaqogikasının fəlsəfi əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 1927-ci ilin 8 sentyabrında dosent B.B.Komarovski V.İ.Lenin adına ADU-nun Pedaqoji və Şərq fakültələri üzrə pedaqogika professoru seçilir. V.İ.Lenin adına ADU-nun qaldırdığı vəsatət əsasında Azərbaycan Xalq Maarif Komissarlığının Dövlət Elm Şurasının Rəyasət Heyətinin 3 oktyabr 1927-ci il tarixli iclasında B.B.Komarovskinin doktorluq elmi dərəcəsi və professor elmi adı təsdiq olunur. Ali Məktəb İşləri üzrə Ümumittifaq Komitəsinin nəzdində fəaliyyət göstərən Ali Attestasiya Komissiyası 4 mart 1946-cı ildə B.B.Komarovskinin professor elmi adını təsdiq edir. B.B.Komarovski 1925-1930-cu illər-

də Azərbaycan Dövlət Universitetində pedaqogika kafedrasının müdiri vəzifəsində çalışır. 1929-1932-ci illərdə Pedaqoji İnstitutda direktor müavini, Pedaqogika kafedrasının ilk müdiri və professoru vəzifəsində çalışıb. 1932-ci ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda çalışmağa başlayır. Onun elmi-pedaqoji fəaliyyətində həmin institutun mühüm yeri vardır. O,1932-1938 və 1946-1950-ci illərdə Azərb.ETPEİ-də (indiki Təhsil İnstitutu) pedologiya şöbəsində məsləhətçi (1932- 1933), pedaqoji şöbədə elmi işçi (1933-1935), təcrübə məktəblərində kütləvi tədbirləri keçirən qrupun üzvü (1935 - 1935), pedaqogikadan aspiranturaya hazırlıq üzrə seminarın rəhbəri (1935-1936), elmi işlər üzrə direktor müavini (1936-1937), pedaqogika kabinetinin müdiri (1938-1938), pedaqogika bölməsinin müdiri (1938-1950) işləmişdir.

1950-1965-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun və M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun Pedaqogika kafedrasının professoru olmuşdur.

B.B.Komarovski elmi-pedaqoji, ictimai-siyasi fəaliyyətinə görə müxtəlif təşkilatlar tərəfindən Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılmış, orden və medallarla təltif edilmiş, Bakı Sovetinin deputatı olmuşdur. O, elmi-pedaqoji əhəmiyyəti və nəzəri-praktik əhəmiyyəti ilə seçilən dəyərli pedaqoji irsə malikdir. 15 kitabın, 200-ə yaxın elmi-metodiki məqalənin müəllifidir.

1965-ci ildə Bakıda vəfat etmişdir.

Xəlil Fikrət Kanat

təhsil elmləri doktoru, professor
(1892-1974)

5 yanvar 1892-ci ildə Yunanıstanda, o zaman türklərin sıx yaşadığı Manastrın Serficə qəsəbəsində Osman bəyin ailəsində anadan olmuşdur. 10 yaşında Manastrda yeni açılan sənaye məktəbinə (sənət məktəbinə) daxil olmuşdur. 4 il həmin məktəbdə oxumuşdur. Məktəbin fəxri müdiri Ziya Təpədələnin köməyi ilə Manastr liseyinin son siniflərində oxumağa müvəffəq olub. 1910-cu ildə oxumaq üçün Avropaya göndərilib. Almaniyadakı təhsil mühiti Xəlil Fikrətin görkəmli təhsil

işçisi və bir alim kimi formalaşmağında mühüm rol oynamışdır. O, 1910-1912-ci illərdə Almaniya liseylərinin birində almanca mükəmməl öyrənmiş, əvvəlcə Berlin Universitetinin fəlsəfə, sonra Leypsiq Universitetinin Pedaqoji fakültəsində təhsil almışdır. 1917-ci ildə prof.Eduard Spranqerin doktorantı olmuş, "Pestalossinin dövlət məktəbi ilə bağlı düşüncələri" (1809-cu ilə qədər) mövzusunda dissertasiya müdafiə etmişdir. X.Fikrət Almaniyada pedaqogika və psixologiyadan mühazirələr oxumuşdur. Xəlil Fikrət təhsilini başa vurduqdan sonra Vətənə dönmüş, Maarif Nazirliyində müşavir kimi əmək fəaliyyətinə başlamışdır. 1918-1919-cu illərdə hərbi xidmətdə olmuş, burada həm də hərbi təhsil almışdır. 1919-cu ildə İstanbuldakı Erenköy və Səlçuk Xatun liseylərində (qız məktəblərində) "Fenn-i Terbiye ve Malumat-ı Ahlakiye" (Tərbiyə və əxlaqi bilgi) müəllimi kimi çalışmışdır. Həmin dövrdə o həm də Çamlıca qız liseyində dərs demişdir. 1923-cü ildə Azərbaycan Xalq Maarif Komissarlığının dəvəti ilə Bakıya gəlmiş, Nazirliyin məktəbəqədər təhsil şöbəsinin müdiri təyin edilmişdir. X.Fikrət 1923-1926-cı illərdə Ali Pedaqoji İnstitutda və ADU-da pedaqogika və psixologiya fənlərini tədris etmişdir. 1926-cı ildə Xəlil Fikrət Odenvald məktəbinin təcrübəsini öyrənmək üçün Almaniyaya gedir, 14 mart 1927-ci ildə on gün həmin məktəbdə olur. 1927-ci ildə Almaniyadan Türkiyəyə dönmək məcburiyyətində qalır. Konyada açılan Qazi Orta Müəllim Məktəbində pedaqogika müəllimi kimi pedaqoji fəaliyyətə başlayır. Az sonra həmin məktəbin Ankaraya köçməsi ilə əlaqədar olaraq o da tələbələri ilə birlikdə Ankaraya gəlməyə məcbur olur, 1956-cı ilə - təqaüdə çıxana kimi bu məktəbdə (29 il) işləyir. 1936-1939-cu illərdə Təlim – Tərbiyə Kurumunda çalışarkən pedaqoji fəaliyyətdən ayrılmır, həmin təşkilatın "Tərbiyə" adlı jurnalında təhsil – tərbiyənin vacib problemləri ilə bağlı məqalələrlə çıxış edir. Həmin məktəb Qazi Egitim İnstitutuna (indiki Qazi Universiteti) çevriləndə Xəlil Fikrət orada pedaqoji şöbə yaradır və ona rəhbərlik edir. O, 1945-1946-cı illərdə Türkiyə Kooperativçilik Kurumuna rəhbərlik etmişdir. "Okul Kooperatifi" Qanununun qəbuluna nail olur. Xəlil Fikrət Türkiyədə elmi-pedaqoji və siyasi mühitdə yaxşı tanınan alim olmuşdur. O, on beşə qədər kitab və kitabçanın, dərslik və dərs vəsaitinin, Bakıda ("Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Məktəb", "Maarif işçisi", "Yeni məktəb") və Türkiyədə ("Tərbiyə", "Karınca", "Hayat") nəşr olunan jurnallarda çap edilmiş onlarla elmi məqalənin müəllifidir. Əsərlərinin ümumi həcmi üç min səhifədən artıqdır. Onun pedaqoji yaradıcılığı çoxşaxəlidir. Tərbiyənin psixoloji, sosioloji əsasları, nəzəri və praktik problemləri, ailə tərbiyəsi, çətin uşaqların tərbiyəsi, təhsil tarixi ilə bağlı maraqlı elmi araşdırmaları vardır. O, yaradıcılığa çox erkən başlamış, hələ tələbə olarkən müəllimi prof. Hans

Stumme ilə əməkdaşlıq etmiş, 1916-cı ildə Leypsiqdə "Türkisch Lesestoffe" (Türk antologiya) kitabının nəşrinə nail olmuşdur. "Höte və Faust" (1922,1940), "Tərbiyə və tədris tarixi" (1926, 1930, 1946, 1963), "Coğrafiyanın tədris üsulu" (1927), "Müasir tərbiyə idealları və təhsildə yeniliklər" (1934), "Pedaqoji" (1937, 1938), "Ailədə uşaq tərbiyəsi"(1941), "Milliyyət idealı və hərtərəfli milli tərbiyə". "Xarakter anlayışı və xarakter tərbiyəsi", "İş pedaqojisi" (1944), "Şahmat bələdçisi" (1936), "Təhsil sosiologiyası" ("Egitim sosiolojisi") (1958), "Pestalossi" (1931) kitablarının müəllifidir.

Dövrün tanınmış yazarları, siyasətçiləri, alimləri ilə birlikdə Anadolu Klubunu yaratmışdır.

1974-cü ildə Ankarada vəfat etmişdir.

Vəli Məmmədhüseyn oğlu Xuluflu

professor

(1894-1937)

1894-cü il may ayının 26-da Şəmkir rayonunun Xuluflu kəndində doğulmuşdur. İbtidai təhsilini 1905-1907-ci illərdə mollaxanada alan V.Xuluflu sonralar təhsilini "Mədrəseyi-ruhaniyyə"də davam etdirmiş və bir müddət həmin məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1917-ci ildə Gəncədəki müəllimlər kursunu bitirmiş və bu dövrdə inqilabi hərəkatda da fəal iştirak etmişdir. Həmin vaxtdan gizli inqilabi işə qoşulmuş, sonra RSDFP sıralarına daxil olmuşdur (1919). Gəncə quberniyasında qəza partiya komitəsinin katibi işləmişdir (1921-1922). 1920-ci ildə Azərbaycan K(b)P-nın I Qurultayına nümayəndə göndərilən V.Xuluflu tezliklə bolşeviklərin həyata keçirdiyi partiya sıralarındakı təmizləmə işi ilə əlaqədar partiya üzvlüyündən çıxarılmışdır. Əməllərində heç bir cinayət tərkibi olmadığından 1927-ci ildən partiya sıralarına bərpa edilmişdir. O, 1922-1927-ci illərdə ADU-nun Şərq fakültəsində oxumaqla yanaşı, həm də Azərbaycan Ali Pedaqoji İnstitutunun Tarix-ictimaiyyat şöbəsində çalışmışdır. 1931-ci ildə o, ADPİ-nin Azərbaycan tarixi kafedrasına müdir vəzifəsinə təyin olunmuşdur. Bu illərdə Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin təlimatçısı, "Bakinski raboçi" nəşriyyatının və "Azərnəşr"in redaktoru olmuşdur. Folklorşünas alim 1928-ci ildə Bakıda keçirilən Azərbaycan Aşıqlarının

I Qurultayında iştirak etmişdir. 1929-1933-cü illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun elmi katibi, Dil, Ədəbiyyat və İncəsənət bölməsinin direktoru, sonrakı illərdə SSRİ EA Azərbaycan filialı Tarix İnstitutunun direktor müavini vəzifələrində işləmişdir. İnstitut ləğv ediləndən sonra bir müddət Mərkəzi Arxiv İdarəsində müdir vəzifəsində çalışmışdır (1933). Sonra Azərbaycan SSR Xalq Maarif Komissarlığında universitet və elmi-tədqiqat müəssisələri idarəsinin rəisi və Dövlət Elmi Şurasının sədr müavini, eyni zamanda SSRİ EA Azərbaycan filialının baş mütəxəssisi olmuşdur. Yeni türk əlifbası komitəsinin üzvü və yeni əlifbanın digər ölkə xalqları arasında yayılması üzrə təlimatçı kimi Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan respublikalarında, Krımda, Kazan və digər şəhərlərdə olmuşdur. Azərbaycanı Tədqiq və Təbliğ Cəmiyyətinin işlərində fəal çalışmışdır (1924-cü ildən). 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. Zaqafqaziya Federasiyasının 10 illiyində ictimai-elmi və ədəbi xidmətlərinə görə Fəxri tərifnamə və qızıl saatla təltif olunmuşdur.

Azərbaycan folklor örnəklərinin toplanması, nəşri və tədqiqi sahəsində müstəsna xidmətləri olub. 1927-ci ildə Aşıq Hüseyn Bozalqanlının dilindən yazdığı "Koroğlu" dastanının iki qolunu, 1929-cu ildə 4 qolunu və 6 nağıl-hekayəti kitab halında nəşr etdirmişdir. O, həmçinin 1927-ci ildə "El aşıqları", 1928-ci ildə "Tapmacalar" kitablarını tərtib etmişdir. "Yeni türk əlifbası ilə yazı qaydaları" (1925), "Koroğlu" (1927), "İmla lüğəti" (1929)", "Din və qadın" (1930), "Din və mədəni inqilab" (1930) kitabları nəşr olunub. 1931-ci ildə Xalq Maarif Komissarlığının Dövlət Elm Şurası tərəfindən ona professor elmi adı verilmişdir.

1937-ci il yanvarın 28-də əksinqilabçı və pantürkist kimi həbs edilmiş, 1937-ci ildə oktyabrın 13-dən 14-nə keçən gecə güllələnmişdir.

Mehdiquluxan Məhəmməd oğlu Erivanski

tarix elmləri doktoru, professor
(1898-1960)

1898-ci ildə İrəvanda anadan olub. 1918-ci ildə İrəvan klassik gimnaziyasını bitirib. 1918-ci ildə erməni-daşnak rejiminin yerli Azərbaycan türklərinə qarşı soyqırımı siyasəti ilə əlaqədar ailəsi ilə birlikdə Naxçıvana köçüb. 1922-ci ildə Moskva Şərqşünaslıq İnstitutunun Yaxın Şərq fakültəsinin türk bölməsinə qəbul olunub. O, universitetdə türk, ərəb, fars və fransız dillərini öyrənib. 1925-ci ildə iqtisadiyyat və diplomatiya ixtisasları üzrə təhsilini

yüksək göstəricilərlə başa vurduğuna və elmi-tədqiqat işinə maraq göstərdiyinə görə Diplomatik münasibətlər kafedrasında saxlanılıb. Bakıya qayıtdıqdan sonra Arxiv İdarəsində şöbə müdiri vəzifəsində çalışıb. Bir müddət Azərbaycan Pedaqoji İnstitutunda, sonra isə ADU - da pedaqoji fəaliyyətlə məşğul olub.

Prof. E.İ.Baybakovun rəhbərlik etdiyi Ümumi tarix kafedrasında aspirantura hazırlığı keçib. 1938-ci ildə "Pelopones müharibəsi dövründə Afinada siyasi partiyalar" mövzusunda namizədlik, 1958-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1959-cu ildə ona professor elmi adı verilib. 1938-1955-ci illərdə ADU-nun Tarix fakültəsinin Qədim dünya tarixi kafedrasının müdiri vəzifəsində çalışıb. "Qədim Misir" (1957), "Qədim Yunan tarixi" (1943, 1949), "Qədim Roma" (1949), "Qədim Kelt tarixi" (1963), "Qədim Hindistan" (1956), "Qədim İran" (1958), "Qədim Assuriya" (1957) kitablarının və 50-dək elmi məqalənin müəllifidir. Qədim tarixlə bağlı lüğətlərin yaradılması onun adı ilə bağlıdır. Herodotun əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. ADU-da çalışsa da, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, İrəvan, Mahaçqala və Pyatiqorski pedaqoji institutlarında mühazirələr oxumuşdur.

19 sentyabr 1960-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Aslan Zeynalabdin oğlu Vəzirzadə

Əməkdar elm xadimi,professor
(1898-1984)

6 dekabr 1898-ci ildə Bakı şəhərində anadan olub. 1907-1914-cü illərdə Bakı realni məktəbində oxuyub. Ali məktəbə daxil olmaq üçün əlavə (8-ci sinfi) sinfi də bitirib. Bakı realni məktəbini qızıl medalla bitirərək Sankt-Peterburq Dağ-Mədən Mühəndisləri İnstitutuna daxil olub. 2 il orada oxuyub. Təhsil illərində tələbə inqilabi dərnəklərində fəal iştirak edib. 1917-ci ildə Rusiyada baş verən hadisə-

lərlə bağlı təhsilini yarımçıq qoyub Bakıya qayıdıb. Burada siyasi fəaliyyətini davam etdirib, "Hümmət" partiyasının üzvü olub. Azərbaycan Demokratik Respublikasının göndərişi ilə 1919-1925-ci illərdə Fransanın Paris Universitetinin Fizika-kimya və Nansi Geologiya İnstitutunun Geologiya fakültələrində təhsil alıb.

Bakıya qayıtdıqdan sonra "Azərneft" Geoloji-kəşfiyyat idarəsinin laboratoriyasında elmi işçi olub. Pedaqoji fəaliyyətə Azərbaycan Politexnik İnstitutunda başlayıb. İnstitut iki yerə bölünəndə Neft və Sənaye İnstitutunda qalıb, Kristalloqrafiya, mineralogiya və petroqrafiya kafedrasına rəhbərlik edib. Ömrünün 50 ildən çoxu bu institutla bağlı olmuşdur. 1930-cu ildə ona professor elmi adı verilib. Ayrı-ayrı vaxtlarda Azərbaycan Politexnik İnstitutunun Kristalloqrafiya, mineralogiya və petroqrafiya kafedrasına və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Geologiya kafedrasına rəhbərlik edib. Azərbaycan Dövlət Universitetinin Geologiya kafedrasının professoru olub. 1946-cı ildə ona Əməkdar elm xadimi fəxri adı verilib. Kristalloqrafiya, mineralogiya və petroqrafiya sahəsində məktəb yaratmış, elmi uğurlarına görə "Lenin" ordeni, 2 "Qırmızı Əmək Bayrağı" ordeni, və 6 müxtəlif medalla təltif olunmuşdur.

1984-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Bala bəy Cabbar bəy oğlu Həsənbəyov
iqtisad elmləri doktoru, professor
(1899-1937)

1899-cu ildə Gəncə şəhərində anadan olub. İlk təhsilini Gəncə şəhərində alıb. Moskva Dövlət Universitetinin İqtisadiyyat fakültəsində təhsil alıb. Qırmızı Professorlar İnstitutunun dinləyicisi olub. 1920-ci illərdə partiya, dövlət orqanlarında çalışıb. "Qızıl Gəncə" qəzetinin redaktoru işləyib. Kənd Təsərrüfatı İnstitutunda Siyasi iqtisad kafedrasının müdiri vəzifəsində çalışıb. 1931-ci ildə "Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalı problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1930-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutu yenidən təşkil ediləndə Siyasi iqtisad kafedrasına müdir təyin olunmuşdur. 15 aprel 1933-cü ilə kimi həmin vəzifədə çalışmışdır. 1935-1937-ci illərdə Azər-

baycan Dövlət Universitetinin rektoru olub. 1936-cı il mart ayının 30-da Azərbaycan KP(b)P Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırovun imzaladığı qərarla Azərbaycan Şura Ensiklopediyasının iqtisadiyyat və kənd təsərrüfatı şöbəsinə redaktor təyin edilmişdir. Onun fəaliyyətinin son dövrü Azərbaycan Dövlət Universiteti ilə sıx bağlı olub. Bala bəy Həsənbəyov rektor olmaqla yanaşı, həm də ADU-da Siyasi iqtisad kafedrasına rəhbərlik etmişdir. 1937-ci il yanvarın 28-də Azərbaycan SSR XDİK Dövlət Təhlükəsizlik İdarəsi tərəfindən prof.Bala bəy Həsənbəyov saxta ittihamlarla həbs edilmiş, Azərbaycan SSR CM-nin 64, 69, 70, 72 və 73-cü maddələri ilə ona cinayət işi açılmışdı. Dövlət Təhlükəsizlik İdarəsi əməkdaşlarının ADU-nun Tarix fakültəsinin dekanı, prof.B.N.Tixomirova verdiyi ciddi işgəncə əsasında Həsənbəyovun əleyhinə ifadə almağa nail olmuşdular. Bu ifadələrdən birində göstərilirdi ki, B.Həsənbəyov əksinqilabi trotskiçilərdən Tağıyev, Bədəlbəyli, Nikolayev, Safranoviç və digərlərini himayə etmiş, 1936-cı ildə Marksizm-Leninizm İnstitutunun işçilərinin və tələbələrinin partiya iclasında əksinqilabi trotskiçi kimi çıxış etmişdir. Universitetdə millətçi əhvali-ruhiyyəli şəxslərdən - Ağamir Məmmədov, Heydər Verdiyev, Abdullayev və başqalarından ibarət bir dəstə düzəltmişdir. Beləliklə, bu ittihamları əsas götürən Azərbaycan SSR XDİK-in Dövlət Təhlükəsizliyi İdarəsinin müstəntiqi, leytenant M.Şer tərtib etdiyi arayışda göstərirdi ki, "B.C.Həsənbəyov həbs edilməli və Azərbaycan SSR CM-in 72,73 -cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb olunmalıdır". 1937-ci il yanvarın 29-da birinci istintaq keçirilib. Həsənbəyova "ənənəvi" sual verilib:

Sual: "İstintaqa aydın olmuşdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu etiraf edirsinizmi? "

Cavab: "Mən heç vaxt heç bir əksinqilabi millətçi təşkilatın üzvü olmamışam. Həmişə əksinqilabi millətçiliyə qarşı mübarizə aparmışam". Müstəntiq B.Həsənbəyovun cavabları ilə kifayətlənməyib, ona yeni bir sual verib.Sual: "Əksinqilabçı millətçilərdən kimləri tanıyırsınız?" Cavab: "Rəsmi mənbələrdən mənə məlum idi ki, milli təmayülçülüyə görə V.Xuluflu, Əyyub Xanbudaqov, Həbib Cəbiyev, Möhsüm Qədirli, S.Əfəndiyev, B.Talıblı həbs olunmuşlar". Bu cavab müstəntiqi qane etmədiyindən ondan istintaqdan gizlənən, azadlıqda qalan adamlardan kimləri tanıdığını soruşmuşdu. B.Həsənbəyov isə öz növbəsində, "Mən gizlənən əksinqilabi millətçilərdən heç kəsi tanımıram... heç bir qeyri-leqal əksinqilabi iş aparmamışam və bunu mənə on milyonlarla adam desə də, inanın ki, yalandır ", - deyə cavab verib.

Birinci istintaqdan 12 gün sonra, 1937-ci il fevralın 10-11-də ikinci istintaqı keçirən müstəntiq B.Həsənbəyovu istintaqı aldatmaqda, səmimi olma-

maqda, müqavimət göstərməkdə ittiham edib: "...Siz düz danışmırsınız və istintaqı aldatmağa cəhd edirsiniz. İstintaqa müqavimət göstərməyin və istintaqı məcbur etməyin ki, sizi digər ifşa olunan müttəhimlərin ifadələri ilə ifşa etsin. Məsləhət görürəm ki, hərəkət tərzini dəyişib səmimi olasınız, həqiqəti söyləyəsiniz ".

Cavab: "...Mən istintaqı aldatmıram və bildiklərimin hamısını söyləyirəm ".Sonra müstəntiq "SSRİ-də elm cəbhəsinin vəziyyətilə bağlı əksinqilabi trotskiçi görüşlər barədə sizə kim demişdir? " deyə soruşub. B.Həsənbəyov bu suala da: "Xatırlamıram. Belə ki, bu cür görüşlər haqqında mənə heç kim bir söz deməyib" - cavabını verib.1937-ci il aprelin 5-də növbəti istintaq zamanı müstəntiq ona axtarış zamanı evindən əksinqilabçı Trotskinin əsərlərindən götürülmüş sitatlar tapıldığını söyləyib və onun kim tərəfindən yazıldığını, hansı məqsədlə evində saxladığını soruşanda, o, cavabında demişdi: "Özüm yazmışam... Bunlar mənə 1931-ci ildə yazdığım "Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalı problemi" adlı elmi işim üçün lazım olmuşdur". Müstəntiq: "Cavabınız bizi qane etmir... Bizə məlumdur ki, siz 1936-cı ilin əvvəllərində Marksizm-Leninizm İnstitutunda keçirilən partiya yığıncağında xalqımızın rəhbəri Leninə və Stalinə qarşı əksinqilabi çıxışlar etmisiniz. Bunu boynunuza alırsınızmı? Cavab: "Rədd edirəm". İstintaq materiallardan aydın olur ki, B.Həsənbəyov "mədəni cəbhədə ziyankarlıq işi aparır, hökuməti devirməyə çalışır, Kalininə, Voroşilova və Bağırova qarşı terror hazırlayırmış". Ən kəskin ittihamlardan biri də bu oldu ki, professor Həsənbəyov iclaslarda və mühazirələrdə yoldaş Leninin və dahi rəhbərimiz Stalinin əsərlərindən az sitat gətirirmiş.

Beşinci istintaqda 3 nömrəli metodun (işgəncə) təsiri ilə B.Həsənbəyov özünün günahkar olduğunu "etiraf edib". 1937-ci il oktyabr ayının 10-da hərbi kollegiyanın səyyar sessiyası qərar verir: "B.C.Həsənbəyovun işilə bağlı məhkəmə iclasına müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın". 1937-ci il oktyabrın 11-də B.Həsənbəyovun işi ilə bağlı SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının iclası keçirilib. Müttəhim son sözdə cəzasının yüngülləşdirilməsini istəyib. Məhkəmə iclasında prof.B.Həsənbəyov ən ağır cəzaya – güllələnməyə məhkum edilib. O, 1937-ci il sentyabrın 12-də Bakı şəhərində güllələnib. Onun haqqında çıxarılan hökm 1956-cı il sentyabrın 15-də ləğv edilmiş, cinayət tərkibi olmadığına görə işə xitam verilmişdir.

Hadı Bədəl oğlu Əliyev
Əməkdar elm xadimi,professor
(1900-1982)

5 may 1900-cu ildə anadan olub. Orta təhsilini Bakının Maştağa kəndindəki realni məktəbində alıb. 1926-cı ildə Azərbaycan Dövlət Universitetini bitirib.

1927-ci ildən ali məktəblərdə coğrafiyanın tədrisi ilə məşğul olub.1939-cu ildə coğrafiya elmləri üzrə namizədlik dissertasiyası müdafiə edib. Azərbaycanda ilk coğrafiyaşünas alimlərdən biri olub.

30-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunda coğrafiya müəllimi işləyib, kafedra müdiri və institutun direktor müavini (1939) vəzifələrində çalışıb.

1938-ci ildə SSRİ EA-nın Azərbaycan filialında ilk iqtisadi coğrafiya şöbəsini təşkil edib və ona ictimai əsaslarla rəhbərlik edib. Onun təşəbbüsü ilə 1944-cü ildə ADU-da Geologiya-coğrafiya fakültəsinin nəzdində İqtisadi coğrafiya kafedrası açılmışdır. 1945-ci ildə Coğrafiya İnstitutuna direktor təyin edilib. H.Əliyev 1960-cı ildən universitetdə yeni yaradılmış Xarici ölkələrin iqtisadi və siyasi coğrafiyası kafedrasına rəhbərlik edib. 1965-ci ildə ona professor elmi adı, 1979-cu ildə Əməkdar elm xadimi fəxri adı verilib.

1950-1975-ci illərdə o, Azərbaycan SSR "Bilik" cəmiyyətinin "Beynəlxalq həyat" bölməsinin rəhbəri, 1939-1957-ci illərdə Azərbaycan Coğrafiya Cəmiyyətinin sədri, 1970-ci ildə SSRİ Coğrafiya Cəmiyyətinin fəxri üzvü seçilib.

Orta məktəb şagirdləri üçün rus və Azərbaycan dillərində "Azərbaycan SSR-in iqtisadi coğrafiyası" və ali məktəb tələbələri üçün "Azərbaycan SSR-in iqtisadi coğrafiyası", "Çin Xalq Respublikası", "Misir Ərəb Respublikası" və "Afrika bu gün" adlı dərsliklərin və onlarla elmi məqalənin müəllifi olub.

1982-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Zülqədər Həsən oğlu Cahangirov
iqtisad elmləri namizədi, professor,
Əməkdar iqtisadçı
(1907-1974)

1 may 1907-ci ildə Azərbaycanın Hadrut rayonunun Tuğ kəndində anadan olmuşdur. 1925-ci ildə Tuğ kənd orta məktəbini bitirdikdən sonra Bakıya gəlmişdir. 1925-1928-ci illərdə Azərbaycan KP MK yanında Sovet Partiya Məktəbində təhsil almışdır. 1927-1929-cu illərdə II dərəcəli məktəblərdə və partiya məktəbində siyasi iqtisad müəllimi işləmişdir.1929-1932-ci illərdə Daşkənd şəhərində Orta Asiya Kənd Təsərrüfatı İnstitutunun Plan-iqtisad fakültəsində təhsil almışdır. 1933-1939-cu illərdə Ali Kənd Təsərrüfatı Məktəbində Kənd təsərrüfatı müəssisələrinin iqtisadiyyatın təşkili və planlaşdırılması kafedrasına rəhbərlik etmiş, eyni zamanda Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda müəllimlik etmişdir. 1939-1945-ci illərdə SSRİ EA Azərbaycan filialında, 1945-1954-cü illərdə Azərbaycan EA-da kiçik elmi işçi və böyük elmi işçi vəzifələrində işləmiş, 1948-1954-cü illərdə Azərbaycan EA-nın İqtisadiyyat bölməsinə rəhbərlik etmişdir. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun aspiranturasında siyasi-iqtisad ixtisası üzrə təhsil almışdır. 1944-cü ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. SSRİ AAK-ın qərarı ilə 1946-cı ildə ona Siyasi iqtisad kafedrası üzrə dosent elmi adı verilmişdir. 1945-1974-cü illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Siyasi iqtisad kafedrasına rəhbərlik etmişdir. 1964-cü ildə ona Siyasi iqtisad kafedrası üzrə professor elmi adı verilmişdir. O, respublikada iqtisad elmi üzrə professor adını alan üçüncü (H.Dadaşov və B.Axundovdan sonra) şəxs idi. 1966-cı ildən əvəzçiliklə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Siyasi iqtisad kafedrasının professoru olmuşdur. Siyasi-iqtisad və kənd təsərrüfatı iqtisadiyyatına dair 60-dan çox elmi əsərin müəllifidir.Elmi rəhbərliyi ilə 15 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Prof.Z.Cahangirov SSRİ-nin müxtəlif ali məktəblərinin elmi şuralarında namizədlik və doktorluq dissertasiyalarının müdafiəsində rəsmi opponent kimi çıxış etmişdir. Uzun müddət respublika "Bilik" cəmiyyətinin iqtisadiyyat bölməsinə rəhbərlik etmişdir. 1973-cü ildə ona Əməkdar iqtisadçı fəxri adı verilmişdir

1974-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Nəsir Nəsirzadə Məmmədov
filologiya elmləri doktoru, professor
(1907-1982)

1907-ci ildə indiki Ordubad rayonun Dəstə kəndində anadan olmuşdur. O, əvvəlcə mədrəsədə, sonra isə yeni yaranan I dərəcəli məktəbində oxumuşdur. 1925-ci ildə Bakıya gəlmiş, 24 №-li məktəbdə təhsilini davam etdirmişdir. 1928-1931-ci illərdə Zaqafqaziya Kommunist Universitetində təhsil almışdır. 1932-1933-cü illərdə Naxçıvan Pedaqoji Texnikumunda müəllim işləmişdir.1933-cü ilin sentyabr ayından 1934-cü ilin iyun ayına qədər Moskvada Şərq xalqları adına Kommunist Universiteti yanında birillik ixtisasartırma kursunda oxumuşdur. 1934/1935-ci tədris ilində M.Əzizbəyov adına Neft və Kimya İnstitutunda assistent işləmişdir. 1935-1937-ci illərdə V.İ.Lenin adına ADPİ-də həm siyasi iqtisad müəllimi işləmiş, həm siyasi iqtisad ixtisası üzrə aspirantura hazırlığı keçmişdir. Aspiranturanı bitirdikdən sonra ADPİ-nin Coğrafiya fakültəsində dekan müavini işləmişdir. 1937-1938-ci illərdə ADPİ-də və ADU-da dosent əvəzi işləmişdir. 1939-cu ildə ixtisasını dəyişmiş, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində Azərbaycan dilçiliyi ixtisası üzrə aspiranturaya daxil olmuş və orada müəllim işləmişdir. 1941-1942-ci illərdə sovet ordusunun tərkibində İranda olmuşdur. 1943-1945-ci illərdə Naxçıvan Müəllimlər İnstitutunun direktoru olmuşdur.

1947-ci ildə "M.F.Axundovun dili" mövzusunda namizədlik, 1964 -cü ildə "Azərbaycan dilçiliyinin əsasları, başqa türk dilləri ilə əlaqələri barədə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.1950-ci ildə ona dosent elmi adı verilmişdir. 1967-1972 -ci illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik etmişdir. 1972-ci ildə BDU-nun Ümumi dilçilik kafedrasına professor vəzifəsinə seçilmiş, ömrünün sonuna kimi orada çalışmışdır. Azərbaycanda nəzəri dilçiliyin yaradıcılarındandır. "Dilçiliyin əsasları" (1961), "Dilçiliyə giriş" (1966, prof. A.Axundovla), "Cümlə" (1965), "Dilin lüğət tərkibinin zənginləşdirilməsinin mənbə və üsullarına dair" (1958) dərslik və dərs vəsaitlərinin müəllifidir.

1982-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Nəzər Abdulla oğlu Paşayev
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1908-1989)

1908-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Böyük Vedi kəndində anadan olub. 1915-ci ildə atası vəfat edib.1920-1923-cü illərdə Böyük Vedi kəndindəki uşaq evində yaşayıb.1923-1925-ci illərdə Vedi rayonunu Kerovan kəndində muzdur olub.1923-1927-ci illərdə ibtidai məktəbdə oxuyub.1925-1927-ci illərdə uşaq evində kuryer işləyib.1927-1930-cu illərdə İrəvan Azərbaycan Pedaqoji Texnikumunda təhsil alıb.Texnikumu bitirdikdən sonra kəndli-gənclər məktəbinə müdir və müəllim təyin olunub. 1932-1936-cı illərdə ADPİ-nin Tarix fakültəsində təhsil alıb.1936-1939-cu illərdə İrəvan Qiyabi Pedaqoji İnstitutunda və İrəvan Pedaqoji Məktəbində müəllimlik edib. 1939-cu ildə S.M.Kirov adına ADU-nun aspiranturasına daxil olub.1939/40-cı illərdə Müəllimləri Təkmilləşdirmə İnstitutunda SSRİ tarixi fənnini tədris edib.1942-1946-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Müharibədən sonra aspiranturaya bərpa olunan Nəzər Paşayev 1946-1951-ci illərdə S.M.Kirov adına ADU-da SSRİ tarixi fənnindən dərs deyib. 29 dekabr 1949-cu ildə "Azərbaycan SSR-də mədəni inqilab (1920-1940)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alıb. 12 mart 1958-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən ona dosent elmi adı verilib. 1959-1965-ci illərdə ADPİ-nin SSRİ tarixi kafedrasında dosent, 1965-1971-ci illərdə professor vəzifəsində çalışıb. 1964-cü ildə "Sovet Azərbaycanında müharibədən sonrakı illərdə mədəniyyətin inkişafı (1946-1962)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 17 oktyabr 1964-cü ildə ona tarix elmləri doktoru elmi dərəcəsi verilib. 26 may 1965-ci ildə professor vəzifəsinə seçilib. 1971-1988-ci illərdə ADPİ-nin Azərbaycan tarixi kafedrasıının müdiri olub. 5 iyul 1988-ci ildən 28 may 1989-cu ilə kimi həmin kafedrasının professoru vəzifəsində çalışıb. 3 iyun 1981-ci ildə Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyətinin qərarı ilə ona Əməkdar elm xadimi fəxri adı verilib. Müxtəlif orden və medallarla, Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanı ilə təltif edilib.

Əsas tədqiqat sahəsi Azərbaycan mədəniyyət tarixinin öyrənilməsi ilə bağlı olub."Zaqafqaziya respublikalarının elmi və mədəni əlaqələri" (1962),

“Azərbaycanda sosialist mədəniyyətinin inkişafı (1920-1955-ci illər) (1957), “Sovet Azərbaycanında mədəni quruculuğun tarixi oçerkləri” (1965), “Победа культурной революции в советском Азербайджане” (M., 1976), «Советская культура в годы отечественной войны» (M., 1976),“Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti” (1986) adlı monoqrafiyaların və 200-dən artıq elmi məqalənin müəllifidir. SSRİ EA-nın nəzdində təşkil edilən dünya mədəniyyəti Elmi Sovetinin, ADPİ-nin nəzdindəki Müdafiə Şurasının üzvü olub.- Moskva, Leninqrad, Riqa, Orta Asiyada təşkil edilmiş elmi konfrans və simpoziumların iştirakçısı olub. 18 fevral 1983-cü ildə ADPİ Elmi Şurası tərəfindən Dövlət Mükafatına təqdim olunub.

22 aprel 1989-cu ildə Bakı şəhərində vəfat edib.

Məmmədəli Xəlil oğlu Şərifli

tarix elmləri doktoru,professor

(1909-1969)



20 mart 1909-cu ildə Göyçayda anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra, 1924-cü ildən 1935-ci ilədək Göyçay, Qonaqkənd və Şuşada müəllimlik etmişdir. 1931-1935-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsində oxumuşdur. Tələbəlik illərində fars, ərəb, türk dillərini öyrənmişdir. 1938-ci ildə SSRİ EA-nın Azərbaycan filialının Tarix İnstitutunun aspiranturasına daxil olmuş, təhsilini Leninqradda davam etdirmişdir. 1941-ci ilin mayında aspiranturanı bitirib Azərbaycana gəlmişdir. Tarix İnstitutunda elmi fəaliyyətə başlayan M.Şərifli ömrünün axırınadək fasiləsiz olaraq burada işləmişdir. 1944-cü ildə “Azərbaycan Qazan xanın hakimiyyəti dövründə” mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Ali Attestasiya Komissiyasının (Moskva şəhəri) qərarı ilə Azərbaycan tarixi kafedrası üzrə ona dosent elmi adı verilmişdir. 1943-1952-ci illərdə Azərbaycan EA Tarix İnstitutunun direktor müavini və direktoru vəzifələrində çalışmışdır. 1952-1969-cu illərdə Tarix İnstitutunun “Orta əsrlər tarixi” şöbəsinə rəhbərlik etmişdir. 1945-1949-cu illərdə “SSRİ-nin Xarici Ölkələrlə Mədəni Əlaqələri Ümumittifaq Cəmiyyəti”nin xətti ilə İranda xüsusi ezamiyyətdə olmuş, Təbriz şəhərində Mədəniyyət evinin direktoru işləmişdir. 1965-ci ildə

"IX əsrin ikinci yarısında -XI əsrdə Azərbaycan feodal dövlətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1943-1958-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda Azərbaycan tarixindən dərs demiş və xüsusi kurslar aparmışdır. 1953-1954-cü illərdə Sofiya Universitetinə ezam edilmiş, orada türk dilində Azərbaycan tarixindən mühazirələr oxumuşdur. 1955-ci ildə Moskva şəhərində şərqşünasların XXV Beynəlxalq konqresində iştirak etmiş, rus və ingilis dillərində çap edilmiş "Sacilər dövləti" mövzusunda məruzə ilə çıxış etmişdir. M. Şərifli üç cilddə buraxılmış "Azərbaycan tarixi"nin V, VI fəsillərinin müəllifi, II, III, VII fəsillərinin həmmüəllifidir. Onun 100-dən çox elmi əsəri (monoqrafiya, dərslik və dərs vəsaiti, elmi məqalə) nəşr olunmuşdur. Müasirləri onu "Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsinin pionerlərindən biri" hesab edirdilər. "IX əsrin ikinci yarısında – XI əsrdə Azərbaycan feodal dövlətləri" monoqrafiyası (1978) ölümündən doqquz il sonra Azərbaycan dilində nəşr olunmuşdur.

1969-cu il sentyabrın 5-də vəfat etmiş və Göyçayda dəfn edilmişdir.

Novruz İmamqulu oğlu Hüseynov

tarix elmləri doktoru, professor
Əməkdar ali məktəb işçisi
(1909-1997)

1909-cu ildə mart ayının 21-də Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olub. İbtidai təhsilini doğma kəndlərində alıb. Atası vəfat etdiyinə görə işləmək məcburiyyətində qalıb. 1925-1926-cı illərdə kənddə işləyib. 1926-1928-ci illərdə kəndli gənclər məktəbində oxuyub. 1928-ci ildə altıaylıq pedaqoji kurs bitirib. 1929-1930-cu illərdə Cəbrayıl rayonunun Cəbrayıl qəsəbəsində ibtidai məktəb müəllimi işləyib. Azərbaycan komsomolunun zəmanəti ilə ali məktəbə daxil olmaq məqsədilə yaradılan hazırlıq kursuna göndərilib. 1931-1934-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix – ictimaiyyat fakültəsində təhsil alıb. 1934-1935-ci illərdə Qaryagin rayonunun (indiki Füzuli rayonu) Horadiz qəsəbəsində orta məktəb direktoru olub. 1935-1939-cu illərdə Qaryagin Pedaqoji Məktəbində və orta məktəbdə tarix və ictimaiyyat fənlərini tədris edib. 1939-1940-cı illərdə Bakı Neft Texnikumunda, 1940-1941-ci illərdə Bakı şəhərindəki 192 №-li məktəbdə, 1941-

1942-ci illərdə Bakı şəhəri Keşlə rayon xalq maarif şöbəsində təlimatçı, 1942-1943-cü illərdə 176 №-li məktəbdə müəllim işləyib. 1943-1945-ci illərdə Moskvada ÜİK(b)P MK yanında Ali Partiya Məktəbində oxuyub. 1945-1948-ci illərdə Moskvada ÜİK(b)P Təbliğat və təşviqat şöbəsində təlimatçı, 1948-ci ildə Azərb.K(b)P MK təbliğat və təşviqat şöbəsinin təbliğat bölməsinin müdiri, 1948-1951-ci illərdə Voroşilov rayon partiya komitəsinin əvvəlcə ikinci, sonra isə birinci katibi vəzifələrində çalışıb.

1951-1959-cu illərdə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda Tarix fakültəsinin dekanı olub, həm də Sov.İKP tarixi fənnindən dərs deyib. 1959-cu ildən V.İ.Lenin adına ADPİ-də pedaqoji fəaliyyət göstərməyə başlayıb.1959-1960-cı illərdə Sov.İKP tarixi kafedrasında baş müəllim, 1960-1979-cu illərdə Tarix fakültəsinin qiyabi şöbəsinin dekanı, 1979-1984-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Sov.İKP tarixi kafedrasının müdiri vəzifələrində çalışıb. 1984-1991-ci illərdə Sov.İKP tarixi kafedrasının, 1991-1997-ci illərdə isə Siyasi tarix kafedrasının professoru olub. 35 il Azərbaycan K(b)P MK-nın ştatdankənar mühaziraçisi, 1949-cu ildən ömrünün sonuna kimi respublika "Bilik" cəmiyyətinin üzvü olub.

31 dekabr 1957-ci ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında "Sovet İttifaqı Kommunist Partiyasının müharibədən sonrakı illərdə kommunistlərin ideya-siyasi səviyyələrinin yüksəldilməsi uğrunda mübarizəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 15 mart 1958-ci ildə ona tarix elmləri namizədi elmi dərəcəsi, 14 dekabr 1960-cı ildə dosent elmi adı verilib. 1972-ci ildə "Kommunizm quruculuğu dövründə Azərbaycan Kommunist Partiyasının ideoloji fəaliyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 1 iyun 1973-cü ildə ona tarix elmləri doktoru elmi dərəcəsi, 27 fevral 1976-cı ildə isə professor elmi adı verilib. Elmi rəhbərliyi ilə 12 nəfər tarix elmləri namizədi yetişib. 3 kitabın, 70-dən çox elmi məqalənin müəllifidir.

Bakı şəhər partiya komitəsinin üzvü, Bakı Xalq Deputatları Sovetinin deputatı olub, adı ustad təbliğatçı kimi Ümumittifaq "Bilik" cəmiyyətinin "Şərəf kitabı"na yazılıb. "V.İ.Leninin anadan olmasının 100 illiyi", "Əmək veteranı" medalı, "Azərbaycan SSR maarif xadimi" və "Sosializm yarışının qalibi" döş nişanları, Bilik cəmiyyətinin, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin, ADPİ-nin Fəxri fərmanları ilə təltif olunub. 23 dekabr 1981-ci ildə ona Əməkdar ali məktəb işçisi fəxri adı verilib.

26 dekabr 1997-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Nurəddin Kərəmzadə oğlu Kərəmov
coğrafiya elmləri doktoru, professor
Əməkdar elm xadimi
(1911-1981)

1911-ci ildə Şamaxı rayonunun Çarhan kəndində anadan olub. 1920-25-ci illərdə Çarhan kənd ibtidai məktəbində, 1925-30-cu illərdə Şamaxı şəhər M.Ə.Sabir adına orta məktəbdə təhsil alıb. 1930-34-cü illərdə Zaqatala rayonunun Faldar, Qax rayonunun Zəyəm, Qarabaldır, Marcan kəndlərində ibtidai və natamam orta məktəblərində müəllim, dərs hissə müdiri və direktor işləyib. 1934-38-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Coğrafiya fakültəsində oxuyub, institutu birinci dərəcəli diplomla bitirib. Tələbəlik illərində fakültə tələbə həmkarlar təşkilatının sədri olub. Həmin illərdə həm də Bakı şəhərindəki 49 №-li axşam məktəbində tarix və coğrafiya fənlərindən dərs deyib. 1938-1941-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Coğrafiya fakültəsində, 1943-1947-ci illərdə S.M.Kirov adına ADU-nun Coğrafiya kafedrasında baş müəllim, 1946-1949-cu illərdə Geoloji-coğrafiya fakültəsinin dekan müavini, 1949-1966 -cı illərdə Fiziki coğrafiya kafedrasında dosent vəzifəsində çalışıb. 17 aprel 1947-ci ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 1 iyun 1949 -cu ildə coğrafiya elmləri namizədi elmi dərəcəsi, 1 oktyabr 1949-cu ildə dosent elmi adı verilib.

1966-cı ildən ömrünün sonuna kimi V.İ.Lenin adına ADPİ-də çalışıb. 1 oktyabr 1966-cı ildə Pedaqoji İnstitutun Ümumi coğrafiya kafedrasına müdir vəzifəsinə seçilib. 1972-ci ilə kimi həmin kafedraya rəhbərlik edib.

18 noyabr 1967-ci ildə "Ландшафты и физико-географическое районирование Большого Кавказа в пределах Азербайджана" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 18 noyabr 1967-ci ildə coğrafiya elmləri doktoru elmi dərəcəsi, 19 iyul 1968-ci ildə Ümumi coğrafiya kafedrası üzrə professor elmi adı verilib. 4 iyul 1972-ci ildən 13 avqust 1981-ci ilə kimi V.İ.Lenin adına ADPİ-nin Fiziki coğrafiya kafedrasının professoru olub.

"Səyyah və coğrafiyaşünas Zeynalabdin Şirvani" (1958), "Abşerona və Böyük Qafqaza səyahət" (1957), "Zeynalabdin Şirvaninin Hindistana və Seylona səyahətləri" (1958), "Azərbaycana səyahət" (1965), "Böyük səy-

yah, coğrafiyaşünas Hacı Zeynalabdin Şirvani" (1975), "Qırx il səyahətdə" (1977) "Maraqlı səyahətlər" (1981),"Odlar yurdunun səyyah və coğrafiyaşünasları" (1986), "Qüdsinin səyahətləri" (1983), "Mirzə Ələkbər Sabirin səyahətləri" (2000), "Azərbaycan SSR-in fiziki coğrafiyası" kitablarının və 150 -dən artıq elmi məqalənin müəllifi olub. Onun rəsmi opponentliyi ilə 22 nəfər namizədlik, 1 nəfər doktorluq dissertasiyası müdafiə edib. Moskva, Riqa, Kiyev, Voronej, Tbilisi, Daşkənd, Səmərqənd, Almatı, Həştərxan, Xabarovsk şəhərlərində keçirilən Ümumittifaq konfranslarının iştirakçısı olub. SSRİ Maarif Nazirliyində coğrafiya ixtisası üzrə Elmi-metodik Şuranın üzvü olub. 1947-ci ildə Bakı sovetinə deputat seçilib. "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə", "Fədakar əməyinə görə V.İ. Leninin anadan olmasının 100 illiyi", "SSRİ əmək veteranı" medalları, SSRİ və Azərbaycan SSR Coğrafiya Cəmiyyəti tərəfindən Fəxri fərman və diplomlarla təltif olunub. SSRİ Coğrafiya Cəmiyyətinin 6 qurultayının iştirakçısı olan Nurəddin Kərəmov Azərbaycan SSR EA Coğrafiya Cəmiyyətinin "Elm tarixi" bölməsinin sədri olub. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilib.

13 avqust 1981-ci ildə Bakı şəhərində vəfat edib.

Şamil Rəhim oğlu Əliyev

iqtisad elmləri namizədi, professor
(1912-1969)

1912-ci ildə Ağdamda anadan olub. 1914-cü ildə atasını itirdiyindən böyük qardaşının himayəsində böyüyüb. 1920-1924-cü illərdə Şuşada uşaq evində yaşayıb və ilk təhsilini də orada alıb. 1924-1928-ci illərdə Şuşa Pedaqoji Texnikumunda təhsil alıb. 1928-ci ildə BDU-nun Tarix fakültəsinə daxil olan Şamil Əliyev 1931-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirib. Ali təhsilini başa vurduqdan sonra Ağdama qayıdıb. 1928-1933-cü illərdə Ağdamda və Şuşada pedaqoji fəaliyyətlə məşğul olub. Şuşa Pedaqoji Məktəbində direktor və Şuşa Rayon Xalq Maarif Şöbəsində müdir əvəzi işləyib. 1933-cü ilin sonlarında Bakıya gələrək V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunda siyasi iqtisad ixtisası üzrə aspiranturaya daxil olub. Aspiranturanı bitirdikdən sonra Siyasi iqtisad ka-

fedrasında müəllim işləyib. 1936-cı ildə siyasi iqtisad üzrə dissertasiya müdafiə edərək elmi dərəcə alıb. 1938-1939-cu illərdə ADPİ-nin direktor müavini (prorektor) vəzifəsində çalışıb. 1939-cu ilin sentyabrında Şamil Əliyev Azərbaycan K(b)P MK-nın təşəbbüsü ilə Moskvaya Ali Partiya Məktəbinə oxumağa göndərilib. 1941-ci ildə təhsilini başa vuran Şamil Əliyev bir müddət Ümumittifaq Radio Komitəsində Yaxın və Orta Şərq ölkələri üçün verilişlər şöbəsinə başçılıq edib. Bakıya qayıtdıqdan sonra bir neçə ay Mərkəzi Komitədə işləyib. 1941-ci ildə 29 yaşlı gənc alim Azərbaycan Dövlət Universitetinin rektoru təyin edilib. O, 1944-cü ilin sonuna qədər bu ali təhsil müəssisəsinin rektoru vəzifəsində çalışıb. Müharibə illərində Şamil Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunda siyasi iqtisad fənnindən dərs deyib. 1943-1953-cü illərdə Azərbaycan Sənaye İnstitutunda Siyasi iqtisad kafedrasına rəhbərlik edib. 1945-1947-ci illərdə AK(b)P Bakı Komitəsində təbliğat və təşviqat şöbəsinin müdir müavini və müdiri vəzifələrində çalışan Şamil Əliyev, eyni zamanda, "Təbliğatçı" jurnalının baş redaktoru olub. 1955-ci ildə Şamil Əliyev Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna direktor təyin olunub. Bununla bərabər, 1959-cu ildən ömrünün sonunadək Azərbaycan Dövlət Universitetinin Siyasi iqtisad kafedrasının dosenti kimi pedaqoji fəaliyyətini davam etdirib. Müxtəlif məsul vəzifələrdə işləməklə yanaşı, elmi-tədqiqat işləri ilə də məşğul olan Şamil Əliyev siyasi iqtisad elminin nəzəri problemlərinin tədqiqi ilə bağlı maraqlı araşdırmalar aparıb, bir sıra siyasi xadimlərin əsərlərini Azərbaycan dilinə tərcümə edib. Azərbaycanda siyasi iqtisad fənninin formalaşmasında, eyni zamanda, onun bir elm sahəsi kimi inkişafında Şamil Əliyevin böyük xidmətləri var. Şamil Əliyev müharibədən sonrakı illərdə bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, müxtəlif orden və medallarla təltif olunmuşdur.

1969-cu ildə 57 yaşında dünyasını dəyişmişdir.

Aben Nəsir oğlu Kərimov

pedaqoji elmlər doktoru, professor

(1913-1995)

23 avqust 1913-cü ildə Saatlı rayonunun Molday kəndində anadan olmuşdur. Yeddiillik təhsilini doğma kəndlərində, orta təhsilini Salyan Pedaqoji Məktəbində (1926-1930), ali təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsində (1930-1933) almışdır. Saatlı rayonunda dərs hissə müdiri, direktor, Maştağa orta məktəbinin direktoru vəzifə-



lərində çalışmışdır. Azərbaycan ETPEİ-də aspirantura təhsili (1946-1949) almışdır. Azərbaycan Dövlət Xarici Dillər Pedaqoji İnstitutunda (1949-1954) müəllim, Azərbaycan ETPEİ-də direktor müavini (1954-1958), ADPİ-nin Pedaqogika kafedrasında dosent (1958-1973) vəzifələrində çalışmışdır.

"Orta məktəb yaşlı şagirdlərlə aparılan əxlaqi söhbətin məzmunu və keçirilməsi üsulu" (1959) mövzusunda namizədlik, "Azərbaycanda əməyin və politexnizmin tarixinə dair oçerklər (XIX əsrin ikinci yarısı və XX əsrin birinci yarısı)" (1973) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1973-1984-cü illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun Pedaqogika kafedrasına rəhbərlik etmişdir.1984-cü ildən ömrünün sonuna kimi Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun Pedaqogika kafedrasının professoru olmuşdur. Pedaqogikanın nəzəriyyəsi və tarixi ilə bağlı 8 dərslik və dərs vəsaiti, 50-dən artıq elmi məqaləsi nəşr olunub.

1995-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Məmməd Əmin Adil oğlu Qazıyev

tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1914-1982)

12 noyabr 1914-cü ildə İrəvan şəhərində zadəgan ailəsində doğulmuşdur. 1930-cu ildə Bakıda orta məktəbi bitirdikdən sonra Bakı şəhər Arxiv idarəsində arxiv müdiri vəzifəsində işləmişdir. 1933-1934-cü illərdə M.N.Pokrovski adına Moskva Tarix-Arxiv İnstitutunda oxumuşdur. 1937-ci ildən Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun elmi işçisi olmuşdur. 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmiş, universitetin Azərbaycan tarixi kafedrasında müəllim vəzifəsində saxlamışlar. 1943-1944-cü illərdə M.Qazıyev Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun Böyük Vətən müharibəsi şöbəsinə rəhbərlik etməklə

yanaşı, həm də Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan tarixi kafedrasında işləmişdir. 1944-cü ildə SSRİ Xarici İşlər üzrə Xalq Komissarlığının nəzdindəki diplomatiya işçiləri kursunun dinləyicisi olmuşdur. Kursu bitirdikdən sonra Azərbaycan SSR Xarici İşlər nazirinin köməkçisi təyin olunmuşdur. 1945-ci ildə "Bakı proletariatı Stolıpin irticası dövründə" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bir il sonra ona dosent elmi adı verilmişdir. 1950-1953-cü illərdə H.B.Zərdabi adına Gəncə Pedaqoji İnstitutunda kafedra müdiri, 1953-1954-cü illərdə Azərbaycan EA Tarix və Fəlsəfə İnstitutunun direktor müavini vəzifələrində çalışmışdır. 1954-cü ilin sentyabr ayında Azərbaycan Tarix Muzeyinin müdiri təyin olunmuşdur. 1960-cı ildə Tbilisi Dövlət Universitetində "Bakı proletariatının inqilabı hərəkatı (1905-1910)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bir il sonra ona professor elmi adı verilmişdir.

1961-1962-ci illərdə Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsində işləmiş, Azərbaycan Kommunist partiyası XXV qurultayında Azərbaycan KP MK üzvü seçilmiş, Azərbaycan SSP Ali Sovetinin 5-ci çağırış deputatı olmuşdur. 50-dən artıq namizədlik və doktorluq dissertasiyasına rəhbərlik etmiş, rəsmi opponent olmuşdur.Azərbaycan bolşevik təşkilatları tarixinə, partiya və dövlətin görkəmli nümayəndələrinin həyat və fəaliyyətinə dair 300-dən artıq elmi məqalə, kitab və monoqrafiyanın müəllifidir.

M.Qazıyev "Qafqazın müdafiəsi uğrunda", "Böyük Vətən müharibəsində fədakar əməyinə görə", "Əməkdə fərqlənməyə görə" medalları və 2 dəfə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

14 iyun 1982-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Cəfər Məmməd oğlu İbrahimov

tarix elmləri doktoru, professor
Əməkdar elm xadimi
(1904-1977)

15 iyun 1904-cü ildə Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. 1917-ci ildə Gədəbəydə II dərəcəli məktəbi bitirib. 1917-1920-ci illərdə ibtidai qız məktəbində müəllim işləyib.

1920-1922-ci illərdə Gəncə Müəllimlər Seminariyasında təhsil alıb. Anasının vəfatından

sonra dayısının himayəsində yaşayan Cəfər İbrahimov onun da ölüm xəbərini eşidəndə imkansızlıqdan təhsilini yarımçıq qoyaraq Bakıya gəlib.

1922-1925-ci illərdə "Azneft"də çilingər köməkçisi işləyib. Bir il milis (polis) nəfəri kimi xidmət edib, 1926-1927-ci illərdə "Paris kommunası"nda fəhlə işləyib. 1927-1929-cu illərdə axşam kursunda, 1929-1933-cü illərdə Bakı şəhər Fəhlə fakültəsində oxuyub. 1933-cü ilin mart ayından oktyabr ayına kimi Moskvada təhsil alıb. 1934-1939-cu illərdə S.M.Kirov adına ADU-nun Tarix fakültəsində ali təhsil alıb.

21 iyun 1939-cu ildə ADU-nun dövlət imtahan komissiyasının qərarı ilə ona tarix üzrə elmi işçi, ali və orta məktəblərdə tarix müəllimi ixtisası verilib. Həmin illərdə müxtəlif kurslarda və institutlarda tarix fənnini tədris edib.

1933-1945-ci illərdə Kooperativ Texnikumunda, Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda tarix müəllimi işləyib. 1939-1941-ci illərdə ADPİ-nin nəzdindəki ikiillik Müəllimlər İnstitutunda çalışıb. Həmin illərdə həm də Müəllimlərin İxtisasartırma İnstitutunda direktor müavini olub. 1939-cu ildə Sov.İKP-nin üzvü seçilib.

28 dekabr 1945-ci ildə Azərbaycan EA-nın Tarix İnstitutunda "Gülüstan sülh müqaviləsi və onun Azərbaycan xalqı üçün əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

1941-1943-cü illərdə Bakı şəhəri Çaparidze rayon Partiya Komitəsində şöbə müdiri, partiya komitəsinin katibi vəzifələrində çalışıb. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsinin dekanı, SSRİ tarixi kafedrasının müdiri vəzifələrində (1943-1977) çalışıb.

Cəfər İbrahimov Azərbaycanın orta əsrlər dövrü tarixinin tədqiqatçılarından olub. O, Şirvanşahlar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövləti haqqında "Qaraqoyunlu dövləti" (1948), "Azərbaycanın XV əsr tarixinə dair oçerklər" (1958), "Феодальные государства на территории Азербайджана XV века" (1962) əsərlərinin müəllifidir. Ona 1972-ci ildə Əməkdar elm xadimi fəxri adı verilmiş, müxtəlif medallarla, Fəxri fərman və diplomlarla təltif edilmişdir.

2 mart 1977-ci ildə Bakıda vəfat etmişdir.

Həsən Əhliman oğlu Sadıxlı
pedaqoji elmlər namizədi, professor
(1914- 1991)

1914-cü ildə Abşeron rayonunun Saray kəndində anadan olub. 1927-1929-cu illərdə Bakı Pedaqoji Texnikumunda oxuyub, ibtidai məktəb müəllimi ixtisası alıb. Pedaqoji texnikumu bitirdikdən sonra müəllimlik fəaliyyətinə başlayıb. 1929-1930-cu illərdə Əlibayramlı rayonunun Nəvahi kəndində müəllim işləyib. 1931-1934-cü ildə Bakı şəhər 2 və 108 №-li məktəblərdə müəllim işləyib. 1934-1938-ci illərdə Lenin adına ADPİ-nin Coğrafiya fakültəsində təhsil alıb, institutu I dərəcəli diplomla bitirib. Dövlət imtahanlarının (fiziki coğrafiya, kapitalist ölkələrinin fiziki coğrafiyası, SSRİ-nin iqtisadi coğrafiyası, kapitalist ölkələrinin iqtisadi coğrafiyası, pedaqogika) hamısından əla alıb. İnstitutu bitirdikdən sonra Ələt rayon Xalq Maarif Şöbəsində metodkabinə müdiri işləyib. 1939-cu ilin fevral-oktyabr aylarında İxtisasartırma və Qiyabi Pedaqoji Təhsil İnstitutunda assistent, 11 oktyabr 1939-cu ildən -1 dekabr 1940-cı ilə kimi Qazıməmməd rayonu Udulu kənd natamam orta məktəbində direktor, 1 dekabr 1940-cı ildən 15 dekabr 1940-cı ilə kimi Nəvahi orta məktəbində tədris hissə müdiri, 15 dekabr 1940-cı ildən 5 iyul 1941-ci ilə kimi Qazıməmməd Xalq Maarif Şöbəsində inspektor-metodist vəzifəsində çalışıb.

Xəstəliyi ilə əlaqədar olaraq tutduğu vəzifədən azad olaraq Bakıya gələn Həsən Sadıxlı 1941- 1942-ci illərdə Bakı şəhərindəki 69 №-li məktəbdə dərs hissə müdiri, Lenin rayonu Xalq Maarif Şöbəsində inspektor-metodist, Bakı şəhər Xalq Maarif Şöbəsində coğrafiya üzrə metodist işləyib. Sonra öz fəaliyyətini Azərbaycan SSR Maarif Nazirliyində davam etdirib.1943-1947-ci illərdə Maarif Nazirliyində inspektor vəzifəsində çalışıb.1946-1949-cu illərdə Azərb.ETPEİ-də aspirantura təhsili alıb.

1949-1950-ci illərdə ADPİ-nin iqtisadi coğrafiya kafedrasında baş müəllim vəzifəsində çalışıb, "Fiziki coğrafiya və coğrafiyanın tədrisi metodikası" fənnini tədris edib. 1950-1955-ci illərdə Kabardin Pedaqoji İnstitutunda işləyib. Burada Coğrafiya kafedrasının müdiri (1950-1952) və Pedaqogika kafedrasının müəllimi (1952-1955) olub. 1955-1961-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsində çalışıb, ali və orta ixtisas məktəbləri şöbəsinin müdiri olub. 19 iyul 1959-cu ildə "Azərbaycan

SSR məktəblərində Azərbaycan coğrafiyasının tədrisində əyanilikdən istifadə" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. 26 aprel 1966-cı ildə ADPİ-nin Botanika kafedrasına baş müəllim təyin olunub. 3 yanvar 1964-cü ildə "Coğrafiya və onun tədrisi metodikası" kafedrasına ixtisası üzrə dosent vəzifəsinə seçilib. 19 dekabr 1964-cü ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona Botanika kafedrası üzrə dosent elmi adı verilib.

1970-ci ildən ömrünün sonuna kimi ADPİ-nin İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası kafedrasında çalışıb. 1970-1983-cü illərdə İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası kafedrasında dosent vəzifəsində çalışan Həsən Sadıxlı 1983-1988-ci illərdə həmin kafedraya rəhbərlik edib. 1973-cü ildə A.İ.Gertsen adına Leninqrad Dövlət Pedaqoji İnstitutunda iki aylıq stajirovkada olub. 27 may 1987-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası kafedrası üzrə professor adı verilib. 1988-1991-ci ildə İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası kafedrasında professor vəzifəsində çalışıb, "Ümumi yerşünaslıq" və "Coğrafiyanın tədrisi metodikası" fənlərini tədris edib.

15 aprel 1991-ci ildə dövlət təqaüdünə çıxdığı üçün İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası kafedrasının professoru vəzifəsindən azad olunub.

Onun elmi-pedaqoji yaradıcılığının əsasını ali və orta məktəblərdə Azərbaycan coğrafiyasının tədrisinin təkmilləşdirilməsi təşkil edir. O, "Coğrafiyanın tədrisi metodikası" (1976), "Pedaqoji institutların coğrafiya fakültələrində "Coğrafiyanın tədrisi metodikası" fənni üzrə laborator məşğələlərinin təşkili və keçirilməsinə dair metodik tövsiyə "(1985), "Tələbələrin coğrafiyadan pedaqoji təcrübəsinin təşkilinə dair metodik göstəriş" (1986), "Orta məktəb coğrafiya kurslarında iqtisadi biliklərin məzmunu və formalaşdırılması yolları". I-III hissə (1988, 1990) "Coğrafiya tədrisinin və müəllim hazırlığının aktual məsələləri" (1988), "Məktəb coğrafiyası kurslarında şagirdlərin iqtisadi biliklərinin məzmunu və formalaşması yolları" (1989) adlı dərslik və tədris vəsaitlərinin müəllifi və ya müəlliflərindən biridir. Onun elmi redaktorluğu ilə yerşünaslığa və coğrafiyaya dair xeyli kitab nəşr olunub. Əsərlərinin ümumi həcmi 90 müəllif vərəqindən artıqdır.

"Məktəbdə coğrafiya" jurnalının redaksiya heyətinin, Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-metodik şurasının üzvü, Azərbaycan Coğrafiya Cəmiyyətinin məktəb coğrafiyası bölməsinin sədri olmuşdur. Onun vəfatı ilə bağlı ADPU rəhbərliyinin imzaladığı nekroloqda deyilir: "H.Sadıxlı həyatının son günlərinədək ali məktəb auditoriyasında yorulmaq bilmədən, həvəslə dərs deyir, öz bilik və bacarığını gənc nəslə öyrədirdi". Onun elmi-pedaqoji

fəaliyyəti və kadr hazırlığındakı xidmətləri yüksək qiymətləndirilib. O, Azərbaycan SSR Maarif Nazirliyinin Fəxri Fərmanına layiq görülüb, "SSRİ ali məktəb işçisi" döş nişanı və "Əmək veteranı" medalı ilə təltif edilib.

4 dekabr 1991-ci ildə Bakı şəhərində vəfat edib

Midhəd Mirmusa oğlu Ağamirov

fəlsəfə elmləri doktoru, professor
Əməkdar elm xadimi
(1919-1995)

1919-cu ildə Şuşa şəhərində müəllim ailəsində anadan olub. (Bəzi sənədlərdə 1921-ci il göstərilir). 1922-ci ildən ömrünün sonuna kimi Bakı şəhərində yaşayıb. 1928-1938-ci illərdə orta məktəbdə,1939-1943-cü illərdə ADU-nun Filologiya fakültəsində oxuyub. IV kursda təhsilini yarımçıq qoyub. ADU-da oxumaqla yanaşı həm də 1940-cı ildə ADPİ-nin Tarix fakültəsində daxil olub. 1941-ci ilin yazında ekstern yolu ilə imtahan verərək orta məktəblərdə tarix müəllimi ixtisası alıb. 1941-ci ildən ÜİK(b)P MK-nın Marksizm-Leninizm İnstitutunun Azərbaycan filialında baş elmi işçi vəzifəsində işləyib. 1944-1950-ci illərdə ADPİ-nin Fəlsəfə kafedrasında baş müəllim işləyib. 1945-1946-cı illərdə əvəzçiliklə Azərbaycan EA-nın Fəlsəfə İnstitutunda baş elmi işçi vəzifəsində işləyib. 24 dekabr 1947-ci ildə ADU-nun Filologiya fakültəsinin Elmi Şurasında "Sabirin ictimai-siyasi görüşləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Dissertasiya işi 12 fevral 1948-ci ildə ADU-nun Elmi Şurasında prof.A.Qarayevin sədrliyi ilə keçən iclasda təsdiq edilmişdir. SSRİ Ali Təhsil Nazirliyinin yanında AAK tərəfindən 31 dekabr 1949-cu ildə ona filologiya üzrə elmlər namizədi elmi adı verilib. 1950-ci ildə SSRİ Elmlər Akademiyasının doktoranturasına göndərilib. 1972-ci ildə Moskva Dövlət Universitetində "Azərbaycanda marksist-leninçi təlim uğrunda mübarizə tarixindən" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 5 may 1959-cu ildə Azərbaycan SSR Maarif Nazirliyinin ali məktəb və texniki peşə təhsili şöbəsi tərəfindən Midhəd Ağamirov ADPİ-nin Marksizm-leninizm kafedrasına müdir və baş müəllim təyin edilmişdir. 1957-1977-ci illərdə Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda baş elmi işçi, 1977-1988-ci illərdə Marksist-leninçi fəlsəfənin tarixi şöbəsinin

müdiri vəzifəsində çalışıb. Azərbaycanda marksist-leninçi fəlsəfənin tarixinin sistemli tədqiqatçılarından biri olub. "Sabirin dünyagörüşü" (1962), "Azərbaycan ictimai fikrində milli məsələ" (1963), "Azərbaycanda marksist-leninçi ideologiya uğrunda mübarizə tarixindən" (1965), "Azərbaycanda marksist-leninçi təlim uğrunda mübarizə tarixindən" (1971), "Azərbaycanda irtica illərində marksist-leninçi fəlsəfi fikir" (1980), "Abdulla Şaiqin dünyagörüşü" (1983), "Məhəmməd Hadinin fəlsəfəsi" (1987) adlı monoqrafiyaları və 100 dən çox elmi məqaləsi çap olunmuşdur. Onun məqalələri Moskvada "Fəlsəfə məsələləri" jurnalında, "Moskva Universitetinin Xəbərləri"ndə nəşr edilmişdir. Azərbaycanda fəlsəfi və siyasi əsərlərin tərcüməsində Midhəd Ağamirovun böyük rolu olmuşdur. Leninin 55 cildliyinin tərcüməsində yaxından iştirak etmişdir. O, Marksın "Kapital" əsərinin birinci, ikinci, üçüncü, dördüncü cildinin tərcüməsində, K.Marks və F.Engelsin 2 cildlik və 3 cildlik "Seçilmiş əsərləri"nin tərcüməsində iştirak etmişdir. O, Engelsin "Anti-Dürinq", "Təbiətin dialektikası", "Sosializmin utopiyadan elmə doğru inkişafı" , "Ailənin xüsusi mülkiyyəti və dövlətin mənşəyi" əsərlərinin, V.İ.Leninin "Materializim və empiriokritisizm", "Fəlsəfə dəftərləri" əsərlərini tərcümə etmişdir. Respublika, Ümumittifaq və Beynəlxalq konfrans və konqreslərdə Azərbaycan fəlsəfə elmini ləyaqətlə təmsil etmişdir.

1970-ci ildə Əməkdar mədəniyyət işçisi, 2 dekabr 1982-ci ildə isə Əməkdar elm xadimi fəxri adları verilmişdir.

1995-ci ildə Bakı şəhərində vəfat etmişdir

Əbdürrəhman Şahmir oğlu Şahmirov

tarix elmləri doktoru, professor
(1920-1997)

2 avqust 1920-ci ildə Qax rayonunun Tanqıt kəndində anadan olub. 1928-1935-ci illərdə Baydarlı kənd yeddiillik məktəbində oxuyub. Təhsilini Nuxa Pedaqoji Məktəbində (1935-1938) davam etdirib.1938-1940-cı illərdə Nuxa (Şəki) rayonunun Aşağı Şabalıd kənd natamam orta məktəbində müəllim və direktor işləyib. 1940-1942-ci illərdə Qax rayon maarif şöbəsinin,1943-1946-cı illərdə Qax rayon Partiya Komitəsinin təbliğat-təşviqat şöbəsinin müdiri olub. 1946-1948-ci illər-

də Bakıda Ali Partiya məktəbində oxuyub. 1948-1953-cü illərdə Qax rayon Partiya Komitəsinin əvvəlcə ikinci, sonra isə birinci katibi vəzifəsində çalışıb. 1953-1954-cü illərdə Gəncə Vilayət Xalq Maarif Şöbəsinin əvvəlcə müdir müavini, sonra isə müdiri vəzifəsində çalışıb. Gəncənin vilayət statusu ləğv edildiyindən 1953-1959-cu illərdə Gəncə Pedaqoji İnstitutunda müəllim və baş müəllim işləyib. Həmin illərdə o, həm də Gəncə Pedaqoji İnstitutunun partiya komitəsinin katibi olub. 1959-cu ildə H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun Tarix fakültəsi V.İ.Lenin adına ADPİ-nin müvafiq fakültəsi ilə birləşdirildiyindən Ə.Şahmirov da Pedaqoji İnstituta köçürülüb. 1959-cu ildən ömrünün sonuna kimi (1997) ADPİ-də çalışıb. 1960-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "Azərbaycan Kommunist Partiyasının ikinci beşillikdə kolxoz quruluşunun maddi-texniki bazasının möhkəmləndirilməsi uğrunda mübarizəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 19 oktyabr 1960-cı ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanındakı AAK tərəfindən ona tarix elmləri namizədi elmi dərəcəsi, 21 yanvar 1965-ci ildə isə Sov.İKP tarixi kafedrası üzrə dosent elmi adı verilib. 1974-cü ildə "Sovet hakimiyyəti illərində kimya və neft sənayesinin inkişaf tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 10 iyun 1977-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona tarix elmləri doktoru elmi dərəcəsi, 2 noyabr 1979 -cu ildə professor elmi adı verilmişdir.

Pedaqoji İnstitutun partiya komitəsinin katibi, Tarix fakültəsinin dekanı, tarix ixtisası üzrə Müdafiə Şurasının elmi katibi, "Bilik" cəmiyyətinin üzvü, Türk və Şərqi Avropa xalqlarının tarixi kafedrasının professoru olub. Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanı,"Maarif əlaçısı" döş nişanı və müxtəlif medallarla təltif olunub. 70-dən artıq elmi əsərin müəllifidir.

1997-ci ildə Bakı şəhərində vəfat etmişdir.

İbrahim İsa oğlu İsmayılov

hüquq elmləri doktoru, professor
Əməkdar hüquqşünas
(1921-2014)

1921-ci ildə Naxçıvan şəhərində anadan olub. 1929-1939-cu illərdə Bakı şəhərindəki 161 №-li məktəbdə təhsil alıb. 1939-cu ildə Tbilisi Dəmiryolu İnstitutuna daxil olub, II Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq 1940-cı ildə müharibəyə səfərbər olunub. Belorus Respublikasında və Mosk-

va ətrafında gedən ağır döyüşlərin iştirakçısı olub. Ağır yaralandığından ordu sıralarından tərxis olunub. 1942-1948-ci illərdə Moskva şəhərindəki Ümumittifaq Ali Hüquq İnstitutunda (qiyabi) təhsil alıb.

Qiyabi ali hüquq təhsili almaqla yanaşı 1939-1941-ci illərdə Naxçıvan MSSR prokurorluğunda işlər idarəsinin katibi, 1943-1948-ci illərdə Naxçıvan MSSR prokurorluğunda prokuror köməkçisi və Muxtar Respublika prokurorunun müavini olub. 1948-1962-ci illərdə Azərbaycan SSR prokurorluğunda İstintaq şöbəsinin rəisi, Gəncə vilayət prokuroru, Respublika prokurorunun köməkçisi, Azərbaycan SSR prokurorunun müavini və Bakı şəhəri Nərimanov rayon prokuroru vəzifələrində işləyib.

1962-1980-ci illərdə Azərbaycan SSR Ali Məhkəməsinin üzvü, 1971-1978-ci illərdə Ədliyyə Nazirliyində Məhkəmə orqanları idarəsinin rəisi, 1978-1980-ci illərdə Bakı Şəhər Məhkəməsinin sədri vəzifələrində çalışıb. 1980 - 1986-cı illərdə Azərbaycan SSR Ali Məhkəməsinin sədri vəzifəsində işləyib. 1987-1989-cu illərdə Dövlət Aqrar-Sənaye Birliyində hüquq idarəsinin rəisi olub. 1962-1966-cı illərdə Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasında təhsil alıb. 29 iyun 1967-ci ildə S.M.Kirov adına ADU-da dissertasiya müdafiə edərək hüquq elmləri namizədi elmi dərəcəsi alıb. 17 fevral 1995-ci ildə ona Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən dosent elmi adı verilib. 21 noyabr 1997-ci ildə Tbilisi Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib. Həmin diplom Azərbaycan Respublikası AAK-ı tərəfindən nostrifikasiya olunaraq ona 11 may 1998-ci ildə hüquq elmləri doktoru elmi dərəcəsi, 9 iyul 2003-cü ildə professor elmi adı verilib. 1989-1992-ci illərdə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinin dosenti işləyib. X.Xasməmmədov adına Hüquq Kadrlarını Təkmilləşdirmə İnstitutunun tədris işləri üzrə direktor müavini işləyib. 1992-2010-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində dosent və professor vəzifələrində çalışıb.

1976-cı ildə Azərbaycan SSR Ali Sovetinin Fərmanı ilə Əməkdar hüquqşünas fəxri adına layiq görülüb. Hüquq təhsili və Azərbaycan Konstitusiyasının tədrisi ilə bağlı 50-yə yaxın elmi əsərin müəllifidir. I və II dərəcəli "Böyük Vətən müharibəsi" və "Xalqlar dostluğu" ordenləri və 12 medalla təltif olunub.

12 fevral 2014-cü ildə Bakı şəhərində vəfat edib.

Mürsəl Heydər oğlu Əliyev
fəlsəfə elmləri doktoru, professor
(1921-1983)

1921-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. İlk təhsilini Şamaxı şəhərində almış, ailəsinin Bakı şəhərinə köçməsi ilə əlaqədar orta təhsilini burada başa vurmuşdur.

Orta məktəbi qurtardıqdan sonra istehsalatda işləmişdir. 1941-ci ildə Böyük Vətən müharibəsinə səfərbər olunmuş, ürək xəstəliyi ilə əlaqədar olaraq 1942-ci ildə ordudan tərxis olunmuşdur.

1945-1950-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin fəlsəfə şöbəsində təhsil almışdır. Ali təhsilini başa vurduqdan sonra V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitunun Fəlsəfə kafedrasına müəllim təyin olunmuşdur.

ADPİ-nin Fəlsəfə kafedrasının qiyabi aspirantı olmuş, 1955-ci ilin may ayında dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. İnstitutun Xalq Nəzarət Komitəsinin sədri, partiya komitəsinin katibi, rayon partiya komitəsinin üzvü olmuşdur. 1964-1972-ci illərdə ADPİ-nin Fəlsəfə kafedrasının müdiri olmuşdur. Azərbaycan Fəlsəfə Cəmiyyətinin və "Bilik" Cəmiyyətinin üzvü olmuşdur. 1975-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1976-cı ildən ADPİ-nin Fəlsəfə kafedrasının professoru olmuşdur.

30-dan artıq monoqrafiya, dərs vəsaiti və elmi-kütləvi kitabçaların, o cümlədən "Dialektik materializm", "Tarixi materializm", "Sıçrayışların xarakteri haqqında", "Təvazökarlıq insanın yaraşığıdır", "Oktyabr və yeni insan", "Müasir maltusçuluq-imperializmin xidmətində", "Dinc yanaşı yaşama prinsipi və ümumi sülh uğrunda mübarizə" kitablarının müəllifi olub. Fəlsəfənin müxtəlif problemləri ilə bağlı V.İ.Lenin adına ADPİ-nin, ADU-nun və Azərbaycan EA-nın elmi əsərlərində xeyli məqaləsi çap olunub.

1983-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Şahəli Gülmalı oğlu Həsənov
coğrafiya elmləri doktoru, professor
(1921-2013)

12 may1921-ci ildə Ağsu rayonunun Gəgəli kəndində anadan olmuşdur. 1930-1937-ci illərdə Gəgəli kənd yeddiillik məktəbində, 1937-1941-ci illərdə Şamaxı Pedaqoji Məktəbində oxuyub. 1941-ci ildə hərbi səfərbərliyə alınıb. Krım uğrunda gedən döyüşlərdə ağır yaralandığına görə 1942-ci ilin avqust ayında ordudan tərxis olunub. 1942-1946-cı illərdə Ağsunun Gəgəli kəndində müəllim işləyib. 1946-1951-ci illərdə ADU-nun Geoloji-coğrafiya fakültəsində təhsil alıb. Ali təhsil almaqla yanaşı 1949-1951-ci illərdə Azərbaycan EA-nın Coğrafiya İnstitutunda laborant, 1951-1953-cü illərdə AMEA-nın Əkinçilik İnstitutunda kiçik elmi işçi işləyib. 1953-1956-cı illərdə AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun aspirantı olub. 2 iyun 1958-ci ildə Stalinqrad Kənd Təsərrüfatı İnstitutunun Elmi Şurasında "Ağstafa çay hövzəsinin torpaqları və onların kənd təsərrüfatında istifadə edilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1960-1963-cü illərdə AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda baş elmi işçi vəzifəsində işləyib. 1966-1978-ci illərdə Azərbaycan EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda laboratoriya müdiri və baş elmi işçi vəzifələrində çalışıb. 1972-ci ildə "Cənub - Qərbi Azərbaycan torpaqlarının təbii-genetik xüsusiyyətləri və bonitirovkası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.18 yanvar 1974-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona coğrafiya elmləri doktoru elmi dərəcəsi, 23 noyabr 1979-cu ildə professor elmi adı verilib. 1978-1991-ci illərdə ADPU-nun Ümumi coğrafiya kafedrasının müdiri, 1989-1991-ci illərdə Coğrafiya fakültəsinin dekanı,1978-2013-cü illərdə Ümumi coğrafiya kafedrasının professoru vəzifəsində çalışıb.

Tədqiqatlarının əsasını torpaqşünaslıq, torpaq coğrafiyası, torpağın aqroekologiyası, bonitirovkası və təbiətin mühafizəsi təşkil edir. O, respublikamızın arid meşə, bozqır, yarımsəhra zonası torpaqlarının əmələgəlmə şəraitini, ekoloji xüsusiyyətlərini, onların coğrafi yayımla areal və qanunauyğunluqlarını, morfogenetik və diaqnostik elementlərini, zona daxili tərkib və xassələrini dəqiq təsdiq etmiş, mükəmməl taksonomik bölgülər əsasında təsnifatını verərək mühüm elmi-nəzəri nəticələr əldə etmişdir.

1963-1965-ci illərdə elmi ekspert və sovet mütəxəssislər qrupunun rəhbəri kimi Birmaya ezam edilmiş, yerli torpaqşünas kadrların hazırlanması məqsədilə Yanqon KTİ-da mühazirələr oxumuşdur. Onun "731 gün Birmada" adlı etnocoğrafi səpgidə yazdığı elmi-kütləvi kitabı da məhz bu səfərin məhsuludur. Elmi və elmi-pedaqoji kadr hazırlığında mühüm xidmətləri var.Elmi rəhbərliyi ilə 18 nəfər coğrafiya elmləri namizədi yetişib.13 kitabın elmi redaktoru olub.

"Ağstafa çay hövzəsinin torpaqları və onlardan kənd təsərrüfatında istifadə" (1958), "Azərbaycan SSR-in üzümçülüyə yararlı torpaqları" (1961), "Kənd təsərrüfatı bitkilərinə yararlı torpaqların seçilməsi" (1968), "Arazboyu zonanın torpaqları və onlardan səmərəli istifadə" (1969), "Azərbaycanın torpaq coğrafiyasının xüsusiyyətləri" (Berlin), "Azərbaycan şəraitində torpaqların morfogenetik xüsusiyyətlərinin dəyişməsində antropogen amillərin rolu" (1992) monoqrafiyaları və 220-dən artıq elmi məqaləsi çap edilmişdir.

2013 -cü ildə Bakı şəhərində vəfat edib.

Pyotr Abramoviç Landesman

fəlsəfə elmləri namizədi, professor

(1922-1991)

1922-ci ildə Ukraynanın Vinnis diyarının Ternovka şəhərində anadan olub. 1929-1939-cu illərdə orta məktəbdə təhsil alıb. 1940-1941-ci illərdə Ukrayna Kommunist Jurnalistika Universitetində oxuyub. 1941-1942-ci illərdə Cəlalabdin mahalının Oktyabr rayon xalq maarif şöbəsində müəllim və inspektor işləyib. 1942-1943-cü illərdə Permin Kizel şəhərində "Şaxtyor" qəzetinin məsul katibi olub. 1943-1946-cı illərdə sovet-alman müharibəsində iştirak edib. 1946-cı ildə Sov.İKP sıralarına üzv qəbul olunub. 1946-1947-ci illərdə Xarkov Radio Komitəsində müxbir, 1947-1951-ci illərdə redaktor olub. 1948-1952-ci illərdə Q.S.Skovoroda adına Xarkov Pedaqoji İnstitutunda qiyabi təhsil alıb. İnstitutun Dövlət İmtahan Komissiyasının qərarı ilə ona 29 yanvar 1952-ci ildə orta məktəblərdə tarix müəllimi ixtisası verilib. 1952-ci ildə Bakıya köçüb. 1952-ci ildə Bakıda Radio Komitəsində müxbir, 1952-1957-ci illərdə Azərbaycan EA-nın nəşriyyatında baş redaktor, 1952-1962-ci illərdə 21, 1962-1964-cü illərdə 26 №-li fəhlə-gənclər məktəbində direktor olub. 1958-1959-cu illərdə M.Əziz-

bəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda Marksizm-leninizmin əsasları kafedrasında baş müəllim işləyib. 1960-1968-ci illərdə ADPİ-nin Fəlsəfə kafedrasında baş müəllim, 1968-1985-ci illərdə dosent, 1985-1991-ci ildə professor vəzifəsində çalışıb.

12 fevral 1958-ci ildə akademik A.O.Makovelskinin ona verdiyi rəydə göstərilir ki, o, 1952-1957-ci illərdə Azərbaycan EA-nın nəşriyyatında işləyərkən özünü fəlsəfə elmləri sahəsində geniş erudisiyaya malik mütəxəssis kimi göstərib, marksizm-leninizm metodologiyasını yaxşı bilir və fəlsəfənin ayrı-ayrı problemlərinin işlənilməsinə uğurla tətbiq edir.

23 fevral 1967-ci ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında "Proletar beynəlmiləlçiliyi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 20 yanvar 1969-cu ildə dosent elmi adı verilib. 10 mart 1982-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin əmri ilə yaradılan Elmi-texniki Şuranın fəlsəfə bölməsinin üzvü seçilib. Həmin şurada Azərbaycan fəlsəfə elmini iki nəfər təmsil edirdi: Azərbaycan Dövlət İncəsənət İnstitutunun professoru A.Aslanov və ADPİ-nin dosenti dos.P.A.Landesman. Onun 15 kitabı, rus, Azərbaycan, ingilis, bolqar, latış və b. dillərdə xeyli məqaləsi nəşr olunub. Onun "Burjua nihilizminin taleyi" adlı kitabı Moskvada "Proqress" nəşriyyatı tərəfindən nəşr olunub. Müharibə və əmək veteranı olan Landesman 5 müxtəlif medallarla və "Qabaqcıl maarif işçisi" döş nişanı, Azərbaycan SSR Maarif Nazirliyinin, rayon partiya komitəsinin və ADPİ-nin Fəxri fərmanları ilə təltif olunub. 19 aprel 1985-ci ildən 26 noyabr 1991-ci ilə kimi ADPİ-nin Fəlsəfə kafedrasında professor vəzifəsində çalışıb.

1991-ci ildə Bakı şəhərində vəfat edib.

Şükür Əli oğlu Sadıqov

tarix elmləri doktoru, professor

(1924- 1994)

1924-cü ildə Naxçıvan Muxtar Respublikasının İliç (indiki Şərur) rayonunun Qarabağlar kəndində anadan olub. Qarabağlar kənd orta məktəbində təhsil alıb. 1943-1945-ci illərdə Naxçıvan Müəllimlər İnstitutunun Tarix fakültəsində, 1945-1947-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix fakültəsində, 1947-1950-ci

illərdə ADPİ-nin aspiranturasında (SSRİ tarixi ixtisası üzrə) təhsil alıb. ADPİ-də SSRİ tarixi kafedrasında assistent (1948-1951), baş müəllim (1951-1953), Tarix fakültəsinin dekanı (1953-1954), Tarix-filologiya fakültəsinin dekan müavini (1958-1960), Tarix-filologiya fakültəsinin dekanı (1960-1962), SSRİ tarixi kafedrasında dosent (1959-1967) vəzifələrində işləyib.

1956-cı ilin 30 iyununda S.M.Kirov adına ADU-nun Tarix fakültəsinin Elmi Şurasında "Zaqafqaziya Federasiyasının təşkili və Zaqafqaziya xalqlarının mədəni və iqtisadi inkişafında onun rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 6 yanvar 1960-cı ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona SSRİ tarixi kafedrası üzrə dosent elmi adı verilib. 1966-cı ildə "Sosializm və kommunizm quruculuğunda sosialist millətlərin əməkdaşlığı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 3 iyun 1967-ci ildə ona SSRİ tarixi kafedrası üzrə professor elmi adı verilib. 10 mart 1970-ci ildən 12 iyul 1989-cu ilə kimi ADPİ-də tədris işləri üzrə prorektor vəzifəsində çalışıb. 6 sentyabr 1983-cü ildə ADPİ-nin SSRİ tarixi kafedrasına müdir vəzifəsinə seçilib. 1989-cu ildən ömrünün sonuna kimi ADPU-nun Türk və Şərqi Avropa xalqları tarixi kafedrasına rəhbərlik edib. Tarixin müxtəlif problemləri ilə bağlı 10 monoqrafiya, dərslik və dərs vəsaiti, 112 elmi məqaləsi nəşr edilib.

26 yanvar 1994-cü ildə Bakı şəhərində vəfat edib.

İsmayıl Mamedoviç Həsənov

tarix elmləri doktoru, professor

(1917- 1979)

25 avqust 1917-ci ildə Bakı şəhərində anadan olub. 1936-cı ildə S.M.Kirov adına ADU-nun Tarix fakültəsinə daxil olub.1937-ci ildə Moskva Dövlət Universitetinə köçürülüb. Müharibənin başlanması ilə əlaqədar olaraq ali təhsil almasında fasilə yaranıb.1941-ci ildə Quba rayonunda V-XI siniflərdə tarix və coğrafiya müəllimi işləyib. 1941-1945-ci illərdə hərbi səfərbərliyə alınaraq döyüşən orduya göndərilib. 1944-cü ildə Elba ətrafında gedən döyüşlərdə Sov.İKP sıralarına daxil olub.1945-ci ildə ordudan tərxis olunan İsmayıl Həsənov ali təhsilini davam etdirib və 1946-cı ildə Moskva Dövlət Universitetini bitirib.1946-1949-cu il-

lərdə Azərbaycan Dövlət Universitetində aspirantura hazırlığı keçib. 24 yanvar 1951-ci ildə SSRİ EA-nın Tarix İnstitutunun Leninqrad şöbəsinin Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edib. 1951-1954-cü illərdə Azərbaycan KP Bakı şöbəsinin nəzdindəki Marksizm-leninizm Universitetində (axşam) SSRİ tarixi fənnini tədris edib. 3 aprel 1954-cü ildə ona SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən dosent elmi adı, 23 iyun 1956-cı ildə Azərbaycanın yeni tarixi ixtisası üzrə baş elmi işçi adı verilib. 3 iyul 1965-ci ildə Gürcüstan EA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda doktorluq dissertasiyası müdafiə edib. 1947-1955-ci illərdə S.M.Kirov adına ADU-nun SSRİ tarixi kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində işləyib. Azərbaycan EA-nın Tarix İnstitutunun Azərbaycanın yeni tarixi şöbəsində baş elmi işçi (1953-1955;1965-1967) və şöbə müdiri (1957-1965) vəzifələrində çalışıb. 1967-ci ildə V.İ.Lenin adına ADPİ-nin SSRİ tarixi kafedrasına professor vəzifəsinə seçilib. 21 avqust 1968-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona SSRİ tarixi kafedrası üzrə professor elmi adı verilib. 2 iyun 1974-cü ildən 27 aprel 1978-ci ilə kimi V.İ.Lenin adına ADPİ-nin SSRİ tarixi kafedrasına rəhbərlik edib. 26 avqust 1978-ci ildə həmin kafedraya professor-məsləhətçi keçirilib. 23 aprel 1979-cu ildə səhhəti ilə əlaqədar olaraq işdən ayrılıb.

"XIX əsrdə Azərbaycanda kənd təsərrüfatı", "1870-ci ildə Azərbaycanda kəndli islahatı", "XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatı" adlı monoqrafiyaları və 50 -dən çox elmi məqaləsi nəşr olunub. Moskvada nəşr olunan "SSRİ -də tarix elmlərinin tarixi oçerkləri" çoxcildliyinin II və III cildlərinin müəlliflərindən biri olub. Müharibə və əmək veteranı olan İsmayıl Həsənov müxtəlif medallarla, fəxri fərman və təşəkkürnamə ilə təltif olunub.

1979-cu ildə Bakı şəhərində vəfat edib.

Şərif Allahverdi oğlu Haqverdiyev

tarix elmləri doktoru, professor

(1926 - 1993)

25 oktyabr 1926-cı ildə Qazax rayonunun Qaymaqlı kəndində dəmirçi ailəsində anadan olub. İbtidai təhsilini Yuxarı Salahlı kənd məktəbində, orta təhsilini Qaymaqlı kənd orta məktəbində alıb. 1942-1944-cü illərdə Tovuz Meşə İdarəsində çalışıb. 1944-cü il iyun-oktyabr aylarında Bakı şəhərindəki tikinti materialları zavodunda fəhlə işləyib. 1944-1948-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix fakültəsində təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə

bitirib. 1948-1951-ci illərdə ADPİ-nin Marksizm-leninizm əsasları kafedrasında Sov.İKP tarixi ixtisası üzrə aspiranturada təhsil alıb. 1954-cü ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi, 1965-ci ildə "Azərbaycan Kommunist Partiyasının müharibədən sonrakı illərdə kənd təsərrüfatının inkişafı uğrunda mübarizəsi (1945-1958)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 3 sentyabr 1966-cı ildə ona tarix elmləri doktoru elmi dərəcəsi, 7 may 1968-ci ildə professor elmi adı verilib. 1950-1955-ci illərdə ADPİ-nin Sov.İKP tarixi kafedrasında müəllim, 1955-1967-ci illərdə dosent vəzifəsində çalışıb. 1967-1973-cü illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda Sov.İKP tarixi kafedrasının müdiri və professoru vəzifəsində çalışıb. 1973-1974-cü illərdə SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda Sov.İKP tarixi kafedrasının müdiri və professor olub. 1974-cü ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin əmri ilə ADPİ-nin Sov.İKP tarixi kafedrasına professor vəzifəsinə dəyişdirilib.

1974-1993-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Sov.İKP tarixi kafedrasının professoru olub. "Yeni yüksəliş" (1964), "Partiyanın kənddə işi" (1971), "Sov.İKP-nin aqrar siyasəti" (1975), "Yeni tipli proletar partiyası haqqında Marksizm-Leninizm təlimi və onun Sov. İKP XXIV qurultayı tərəfindən daha da inkişaf etdirilməsi" (1974), "Sov.İKP-nin müasir aqrar siyasətinin Azərbaycan SSR-də təntənəsi" (1982), "Bolşeviklər partiyası-sovet hakimiyyətinin zəfər yürüşünün və ölkənin idarə edilməsinin təşkilatçısıdır" (1989) kitablarının və 80 -ə yaxın elmi məqalənin müəllifidir. O, həm də "Azərbaycan tarixi" çoxcildliyinin əsas müəlliflərindən biri olub.

Pedaqoji və elmi-pedaqoji kadr hazırlığında mühüm xidmətləri var. 50 nəfər elmlər namizədinin dissertasiya işinin elmi rəhbəri və ya rəsmi opponenti olub. Tarix ixtisası üzrə elmlər doktoru dissertasiyası müdafiə edən 8 nəfərin rəsmi opponenti olub.

V.İ.Lenin adına ADPİ-də fəaliyyət göstərən Sov.İKP və SSRİ tarixi üzrə ixtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olub. 1954-1985-ci illərdə Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsinin ştatdankənar mühazirəçisi olub. 1968, 1971 və 1978-ci illərdə ictimai elmlər kafedraları müdirlərinin

Ümumittifaq müşavirəsində iştirak edib. 2 dəfə (1960, 1980) M.Lomonosov adına MDU yanında ictimai elmlər müəllimlərinin ixtisasını artırma kursunun dinləyicisi olub. "Əmək rəşadətinə görə", "V.İ.Leninin anadan olmasının 100 illiyi" və "Əmək veteranı" medalı ilə təltif edilib. SSRİ və Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin, Azərbaycan KP Nəsimi və 26 Bakı Komissarı rayon komitələrinin, "Bilik" cəmiyyətinin, rektorluğun fəxri fərmanları ilə təltif edilib.

5 may 1993-cü ildə Bakı şəhərində vəfat edib.

Nurəddin Mustafa oğlu Kazımov

Rusiya Təhsil Akademiyasının xarici üzvü, pedaqoji elmlər doktoru, professor Əməkdar elm xadimi,Prezident təqaüdçüsü, (1926-2018)

28 aprel 1926-cı ildə Gəncə şəhərində anadan olmuşdur. 1933-cü ildə orada "III İnternasional" adına orta ümumtəhsil məktəbinə daxil olmuş və 1943-cü ildə həmin məktəbi bitirmişdir. 1943-1945-ci illərdə 2№-li sənət məktəbində oxuyub. 1945-ci ildə Azərbaycan Dövlət Universiteti Tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuş və təhsilini davam etdirmək üçün 1947-ci ildə Sankt-Peterburq Dövlət Universitetinin Fəlsəfə fakültəsinin III kursuna köçürülmüşdür. 1950-ci ildə universiteti bitirən N.Kazımov Nuxa Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasında baş müəllim (1950-1952), Bakı Vilayət Maarif Şöbəsində məktəb inspektoru (1952-1953), Azərbaycan SSR Maarif Nazirliyində Ali və orta pedaqoji təhsil şöbəsində inspektor (1953) vəzifələrində çalışmışdır.1953-1956-cı illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda aspirantura təhsili almışdır.

M.F.Axundov adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda baş müəllim (1957), Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktor müavini (1958; 1973) və direktor (1973-1976) vəzifəsində işləmişdir.

A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda 14 mart 1958-ci ildə "Müqayisə haqqında K.D.Uşinskinin fikirləri və məktəb təcrübəsi üçün bunun

əhəmiyyəti" mövzusunda namizədlik, 1969-cu ildə "Məktəbdə müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2 oktyabr 1963-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona pedaqogika ixtisası üzrə baş elmi işçi elmi adı, 14 fevral 1969-cu ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi, 29 iyul 1970-ci ildə professor elmi adı verilib.

6 mart 1967-ci ildən ADPİ-nin Pedaqogika kafedrasında saathesabı müəllim olub. 21 may 1976-cı ildən 17 sentyabr 1982-ci ilə kimi Azərbaycan Dövlət Pedaqoji İnstitutunda elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir. 1982-1984-cü illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Mədəni-maarif kafedrasında professor vəzifəsində çalışıb. 1984-2017-ci illərdə Azərbaycan Dillər Universitetinin pedaqogika kafedrasına rəhbərlik edib. Azərbaycan Pedaqoji Cəmiyyətinin sədri, Azərbaycanda Pedaqoji və Psixoloji Tədqiqatları Əlaqələndirmə Şurasının sədri (1970-1976), pedaqogika və psixologiya üzrə Elmi Metodik Şuranın sədri olmuşdur. On il Tbilisi şəhərində pedaqoji elmlər doktoru alimlik dərəcəsi almaq üçün Regional ixtisaslaşdırılmış Müdafiə Şurasının, Ali Attestasiya Komissiyasının ekspert şurasının və Naxçıvan Dövlət Universitetinin nəzdində yaradılan Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə Müdafiə Şurasının üzvü olmuşdur. "Qabaqcıl maarif xadimi", "SSRİ maarif əlaçısı" döş nişanları, "Şərəf nişanı" ordeni ilə təltif olunmuş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. 2012-ci ildə Rusiya Təhsil Akademiyasının xarici üzvü seçilmişdir. 500-ə qədər əsərin müəllifidir

6 dekabr 2018-ci ildə Bakı şəhərində vəfat edib.

Qara Əli oğlu Sadıqov

iqtisad elmləri doktoru, professor

(1926-1992)

1926-cı ildə Tovuz rayonun Düz Qırıxlı kəndində anadan olmuşdur. 1933-1943-cü illərdə Düz Qırıxlı kənd məktəbində təhsil almışdır. 1944-cü ildə Azərbaycan neft sistemində işləməyə səfərbər edilmişdir. 1946-cı ilə qədər orada elektrik montyoru vəzifəsində çalışmışdır. 1946-1950-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. 1950-

1951-ci illərdə Dövlət Plan Komitəsində baş iqtisadçı vəzifəsində çalışmışdır. 1951-1952-ci illərdə Azərbaycan Dövlət Universitetinin aspiranturasında təhsil almışdır. 1952-1954-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Siyasi iqtisad kafedrasında müəllim işləmişdir. 1957-ci ildə iqtisad elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1960-cı ildə ona dosent elmi adı verilmişdir. 1968-1990-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda dosent, professor, dekan, kafedra müdiri vəzifələrində çalışmışdır. Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi ilə bağlı apardığı tədqiqatlar əsasında 1973-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1972-1977-ci illərdə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda Ümumiqtisad fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1977-1987-ci illərdə Uçot-iqtisad və Əmtəəşünaslıq fakültələri üzrə Siyasi iqtisad kafedrasının professoru və müdiri olmuşdur. Onun elmi rəhbərliyi ilə 7 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. 26 monoqrafiya, dərs vəsaiti və çox saylı elmi məqalələrin müəllifidir. O, SSRİ Təhsil Nazirliyinin siyasi iqtisad üzrə Metodiki Şurasının üzvü olmuş, respublikanın Təhsil Nazirliyində Metodiki Şuranın sədr müavini vəzifəsində işləmişdir. Xalq Təsərrüfatı İnstitutunda, Respublika Milli Elmlər Akademiyasında Dissertasiya Şurasının üzvü olmuşdur. Böyük Vətən müharibəsinin iştirakçısı olan prof.Q.Sadıqov "Qafqazın müdafiəçisi" medalı ilə təltif edilib.

1992-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Abbas Məhəmməd oğlu İsmayılov

pedaqoji elmlər namizədi, professor

(1927-1992)



1927-ci ildə Qərbi Azərbaycanın Krasnoselo rayonunun Ardanış kəndində anadan olub. 1936-1942-ci illərdə Ardanış kənd orta məktəbində oxuyub. 1942-ci ildə natamam orta məktəbi qurtaran Abbas İsmayılov təhsilini yarımçıq qoyub cəbhəyə gedənləri əvəz etmək üçün kolxozda işləyib. Sonra hərbi komissarlıq tərəfindən Kirovakan şəhərindəki kimya zavodunda işləməyə göndərilib. O, həmin zavodda 1946-cı ilin avqust ayınadək işləyib. 1947-1951-ci illərdə İrəvan Pedaqoji Məktəbində (İrəvan Pedaqoji Məktəbi 1948-ci ildə Xanlar rayonuna (indiki Göygöl) köçürülüb), 1951-1955-ci illərdə V.Lenin adına ADPİ-nin Tarix

fakültəsində oxuyub. 1955-1956-cı illərdə Salyan rayonun Parça-xalac kənd yeddiillik məktəbində direktor, 1956-1959-cu illərdə Novxanıda, 1959-1960-cı illərdə Bakıdakı 30 №-li beynəlmiləl orta məktəbdə tədris hissə müdiri işləyib. O, tarix-coğrafiya fənlərini tədris etməklə yanaşı, tarix üzrə ictimai əsaslarla metodist işləyib, müəllim və valideynlər qarşısında tərbiyəşünaslığın müxtəlif problemləri ilə bağlı məruzələr oxuyub.

1960-1963-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Pedaqogika-psixologiya kafedrasında pedaqogikanın tarixi və nəzəriyyəsi ixtisası üzrə əyani aspirantura təhsili alıb. Prof.Ə.Seyidovun rəhbərliyi altında 16 aprel 1965-ci ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Şurasında "Günü uzadılmış qrup tərbiyəçilərinin I-IV sinif şagirdləri ilə işinin məzmunu və metodları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 16 oktyabr 1965-ci ildə pedaqoji elmlər namizədi elmi dərəcəsi verilib. 24 dekabr 1963-cü ildə ADPİ-nin Pedaqogika kafedrasına müəllim, 21 mart 1967-ci ildə dosent vəzifəsinə seçilib. 24 yanvar 1968-ci ildə ona SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən Pedaqogika kafedrası üzrə dosent elmi adı verilib. İnstitut Həmkarlar Təşkilatının (1967-1969) və Fizika-riyaziyyat fakültəsinin partiya təşkilatının büro üzvü (1966-1969) olub. Respublikada ilk dəfə V.İ.Lenin adına APİ-də İctimai peşələr fakültəsi təşkil edib və onun dekanı (1968-1972) olub.Ayrı-ayrı vaxtlarda Riyaziyyat və Tarix fakültəsində "Gənc pedaqoqlar" dərnəyinə rəhbərlik edib.

14 yanvar 1985-ci ildə ADPİ-nin Ümumi pedaqogika kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Xalq Təhsili Dövlət Komitəsi yanında AAK tərəfindən 13 dekabr 1990-cı ildə ona Ümumi pedaqogika kafedrası üzrə professor elmi adı verilib. "V.İ.Lenin nümunəsində gənclərin kommunist tərbiyəsi" (1987), "Pedaqogika tarixindən seminar və yoxlama işlərinə dair metodik göstəriş" (1984), "Tələbələrin ideya-siyasi tərbiyəsi" (1988), "Pedaqogika tarixindən tələbələrin müstəqil işlərinə dair" (1989), "Görkəmli sovet pedaqoqları yeni tipli ictimai tərbiyə ocaqları və ailə tərbiyəsi haqqında" (1989), "Şifahi xalq ədəbiyyatında tərbiyə məsələləri" (1976), "Günüuzadılmış qruplarda tərbiyəçi işinin məzmunu" (1975), "Günüuzadılmış qruplarda tərbiyə məsələləri" (F.Rüstəmovla birlikdə) (1992) kitabları, 100-dən artıq elmi və publisistik məqaləsi nəşr olunub.

"SSRİ maarif əlaçısı", "Azərbaycan SSR maarif xadimi" döş nişanları, Azərbaycan SSR Maarif Nazirliyinin, Respublika "Bilik" cəmiyyətinin və ADPU-nun Fəxri fərman və diplomları ilə təltif edilib.

15 yanvar 1992-ci ildə dünyasını dəyişmişdir.

Xəlil Süleyman oğlu Köçərli
tarix elmləri doktoru, professor
Əməkdar müəllim
(1927)

6 noyabr 1927 -ci ildə Gədəbəy rayonunun İsalı kəndində anadan olmuşdur. Yeddiillik təhsilini İsalı kənd məktəbində, orta təhsilini Çayrəsullu məktəbində almışdır. 1945-1950-ci illərdə Bakı Dövlət Universitetin Tarix fakültəsində oxumuşdur. Universitetin ictimai-siyasi həyatında fəal iştirakına və əlaçı oxuduğuna görə dəfələrlə rektorluğun fəxri fərmanları ilə təltif edilmişdir.

1950-1952-ci illərdə Çayrəsullu kənd orta məktəbində tarix müəllimi, 1952-1957-ci illərdə isə Novo-İvanovka orta məktəbində direktor vəzifəsində işləmişdir.

1958-1962-ci illərdə V.İ.Lenin adına ADPİ-nin "Gənc müəllim" qəzetinin redaktoru və nəşriyyatın direktoru olub. 1964-cü ildə "Birinci rus inqilabı dövründə zəhmətkeşlərin beynəlmiləl birliyi" mövzusunda namizədlik, 1984-cü ildə "Azərbaycan demokratik mətbuatı beynəlmiləlçiliyin carçısıdır" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1965 -ci ildə dosent, 1985-ci ildə professor elmi adı alıb.

1962- 2018-ci illərdə ADPİ-də (ADPU-da) baş müəllim, dosent, professor vəzifələrində çalışıb. Elmi rəhbərliyi ilə 10 nəfər aspirant və dissertant namizədlik dissertasiyası müdafiə edib, 6 nəfərin doktorluq, 3 nəfərin namizədlik dissertasiyasının rəsmi opponenti olub. 1993, 1995 və 1998-ci illərdə nəşr olunan "Siyasi tarix" dərsliyinin müəlliflərindən biridir. Ümumiyyətlə, 10 monoqrafiya, dərslik və dərs vəsaitinin, Azərbaycanda və xaricdə nəşr olunan 90-dan çox elmi- siyasi məqələnin müəllifidir.

Azərbaycan Həmkarlar İttifaqı, Təhsil Nazirliyi, "Bilik" cəmiyyəti və ADPU rəhbərliyi tərəfindən dəfələrlə fəxri fərmanlarla təltif olunub, Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülüb. 2012-ci ildə ona Əməkdar müəllim fəxri adı verilib.

Fəsli Məmməd oğlu Əmikişiyev
iqtisad elmləri doktoru, professor
(1928-1999)

1928-ci ildə Yevlax rayonunun Yaramanlı kəndində anadan olmuşdur. O, 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin siyasi-iqtisad şöbəsini bitirmişdir.

Prof.Həsən Dadaşovun zəmanəti ilə universitetin Siyasi iqtisad kafedrasında saxlanılmış, 1955-1958-ci illərdə aspiranturada oxumuşdur. Aspirantura təhsilini uğurla başa vuran Fəsli Əmikişiyev namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsi, 1960-cı ildə dosent elmi adı almışdır.

1954-1970-ci illərdə ADU-nun Siyasi iqtisad kafedrasında laborant, müəllim, baş müəllim, dosent, 1970-1978-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Siyasi iqtisad kafedrasının müdiri vəzifəsində işləmişdir. O, 1972-ci ildə doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsi, 1973-cü ildə isə professor elmi adı almışdır.1978-ci ildə Fəsli Əmikişiyev Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun tədris işləri üzrə prorektoru vəzifəsinə təyin edilmişdir. 1988-1999-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Siyasi iqtisad kafedrasında professor vəzifəsində çalışıb.

Fəsli Əmikişiyevin rəhbərliyi və elmi məsləhətçiliyi ilə 17 elmlər namizədi, 4 elmlər doktoru hazırlanmışdır. O, 59 doktorluq və namizədlik dissertasiyasına rəsmi opponentlik etmişdir.

150 -dən artıq elmi əsəri (kitab, dərslik, dərs vəsaiti və elmi məqalə) nəşr olunub. Respublika və İttifaq səviyyəli konfranslarda Azərbaycan iqtisadiyyat elmini ləyaqətlə təmsil edib. Azərbaycanda nəşr edilən "Siyasi iqtisad" dərsliyinin redaktoru və əsas müəlliflərindən biri olub. O, SSRİ Təhsil Nazirliyinin Elmi-metodik Şurasının və SSRİ Jurnalistlər İttifaqının üzvü seçilmişdir.

1999-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Cahid Süleyman oğlu Quliyev
fəlsəfə elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1928-1991)

10 yanvar 1928-ci ildə Ağdam şəhərində anadan olub. İlk təhsilini Ağdam şəhərindəki 2 №-li yeddiillik məktəbdə alıb. Ağdam Pedaqoji Məktəbində, Ağdam ikiillik Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsində (1944-1946), ADU-nun Tarix fakültəsinin fəlsəfə şöbəsində (1946-1951) təhsil alıb. 1949-1954-cü illərdə "Azərbaycan pioneri" qəzetində müxbir və şöbə müdiri vəzifələrində çalışıb. 1952-1954-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Fəlsəfə kafedrasında assistent, 1955-1957-ci illərdə müəllim, 1957-1963-cü illərdə baş müəllim və institutun nəşriyyatının direktoru, 1963-1973-cü illərdə ADPİ-nin Tarix fakültəsinin (qiyabi şöbəsinin) dekanı olub. 1963-1972-ci illərdə Fəlsəfə kafedrasında dosent, 1972-1978-ci illərdə professor vəzifəsində çalışıb. 1974-1978-ci illərdə ADPİ-nin Fəlsəfə, 1978-1991-ci illərdə Elmi kommunizm (Sosiologiya və politologiya) kafedrasının müdiri olub.

6 iyun 1958-ci ildə ADU-nun Elmi Şurasında "Fəhlə və kəndlilərin ittifaqını möhkəmləndirmək kommunizm quruculuğu üçün mühüm şərtdir" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən 1 aprel 1959-cu ildə ona fəlsəfə elmləri namizədi elmi dərəcəsi, 7 mart 1962-ci ildə dosent elmi adı verilib. 1970 -ci ildə Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "İncəsənətdə humanizm" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 4 may 1972-ci ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona fəlsəfə elmləri doktoru elmi dərəcəsi, 3 oktyabr 1973-cü ildə professor elmi adı verilib. Azərbaycan SSR "Bilik" cəmiyyətində fəlsəfə üzrə elmi-metodik şuranın sədri olub. Elmi rəhbərliyi ilə 30 nəfər elmlər namizədi və doktoru yetişmişdir. 50-dən artıq namizədlik və doktorluq dissertasiyalarının müdafiəsində rəsmi opponent kimi çıxış etmişdir. Onun "S.Vurğunun yaradıcılığında estetika məsələləri" (1966), "Dialektik materializm" (1969), "Tarixi materializm" (1970), "Sosializm və şəxsiyyət" (1968), "Böyük humanist" (1981), "Şəxsiyyət və kollektiv" (1984), "İki dünya - iki həyat tərzi" (1985), "Odur ki, bağlıyam sana"(rus dilində) (1986) dərslik və dərs vəsaitləri,150-dən çox qəzet və jurnal məqaləsi nəşr

olunub. Tədqiqatının əsas istiqamətini Azərbaycan incəsənətində humanizm və insan probleminin araşdırılması təşkil edir. O, "Şərəf Nişanı" ordeni, "Lenin" yubiley medalı, SSRİ və Azərbaycan SSR "Bilik" cəmiyyətlərinin Fəxri fərmanları ilə təltif olunub. 1 fevral 1990-cı ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

16 iyul 1991-ci ildə Bakı şəhərində vəfat edib.

Qaraş Əli oğlu Mədətov
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
(1928-1993)

1928-ci il fevralın 10-da indiki Şərur rayonunun Qarabağlar kəndində anadan olub. 1945-ci ildə kənd məktəbini, 1950-ci ildə ADU-nun Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1951-1953-cü illərdə Naxçıvanda orta məktəbdə müəllim işləyib. 1953-1956-cı illərdə Moskva Dövlət Universitetinin aspiranturasında təhsil alıb. 1956-cı ildə namizədlik, 1965-ci ildə "Azərbaycan Böyük Vətən müharibəsində" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1968-ci ildə professor elmi adı almış, 1983-cü ildə isə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.1980-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

1956-cı ildə Azərbaycan EA-nın Tarix İnstitutunda elmi fəaliyyətə başlamış, 1957-1958-ci illərdə Tarix İnstitutunda elmi katib, 1958-1968-ci illərdə baş elmi işçi olmuş və 1968-1993-cü illərdə Azərbaycanın müasir dövr tarixi şöbəsinə rəhbərlik etmişdir. Uzun müddət Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan tarixi kafedrasında əvəzçiliklə professor vəzifəsində çalışmış, Dövlət imtahan komissiyalarına rəhbərlik etmişdir.

Naxçıvan MR-in yaranması, Azərbaycan ikinci dünya müharibəsində mövzuları ilə bağlı tədqiqatlar aparmışdır. "Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in yaradılması", "Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945-ci illərdə)" adlı monoqrafiyaların, 10 ümumiləşdirici kollektiv tədqiqat işinin, 8 sənədlər məcmuəsinin, 15 kitabçanın, onlarla elmi məqalənin müəllifidir. O, 3 cildlik "Azərbaycan tarixi" və "Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri" kitablarının əsas müəlliflərindən bi-

ridir. Onun rəhbərliyi və iştirakı ilə "Azərbaycan Böyük Vətən müharibəsi dövründə" (2 cildlik), "Azərbaycanın qırmızı Ulduzları", "Azərbaycan oğulları Sovet İttifaqı Qəhrəmanlarıdır" və "Azərbaycan SSR fəhlə sinfi tarixinin oçerkləri" (3 cildlik), "Şöhrət və ölməzlik məktubları" və digər əsərlər nəşr olunmuşdur. 11 doktorluq və 30 namizədlik dissertasiyasının elmi rəhbəri olmuşdur.

Prof.Q.Mədətov "Şərəf nişanı" ordeni, müxtəlif medallarla və fəxri fərmanlarla təltif olunmuşdur.

1 iyul 1993-cü ildə Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur

Ramazan Baxşəli oğlu Tarverdiyev
coğrafiya elmləri doktoru, professor
(1928-1983)

5 avqust 1928-ci ildə indiki Hacıqabul rayonunun Navahı kəndində anadan olub. 1933-cü ildə ailəsi Ələt qəsəbəsinə köçdüyü üçün burada məktəbə gedib, 1947-ci ildə Ələt axşam məktəbini bitirib. 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin Geoloji- coğrafiya fakültəsinə qəbul olunub, ikinci kursdan təhsilini Moskva Dövlət Universitetində davam etdirib. 1953-cü ildə həmin universiteti bitirib. 1953-1956-cı illərdə Azərbaycan Hidrometeoroloji Xidmət İdarəsində, 1956-1959-cu illərdə Azərbaycan SSR EA Coğrafiya İnstitutunda işləyib. 1953-1956-cı illərdə Azərbaycan EA Coğrafiya İnstitutunun aspirantı olub. 1959-cu ildə "Mingəçevir su anbarının hidrologiyası" mövzusunda namizədlik dissertasiyası, 1975-ci ildə RSFSR-in Perm şəhərində "Böyük dağətəyi su anbarlarının lillənməsinin tədqiqi (Mingəçevir su anbarının nümunəsində)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1959-1961-ci illərdə Azərbaycan EA Coğrafiya İnstitutunda qurunun hidrologiyası şöbəsində kiçik elmi işçi və baş elmi işçi, 1968-1973-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Fiziki coğrafiya kafedrasında dosent, 1973-cü ildən 1983-cü ilə kimi həmin kafedranın müdiri vəzifəsində çalışıb. 1978-ci ildə ona professor elmi adı verilib.

Onun "Mingəçevir su anbarı" (1974) "Böyük Qafqazın gölləri və su anbarlarının hidroloji xüsusiyyətləri" (1965) "Mingəçevir su anbarının lillənməsi" (1974) adlı monoqrafiyaları və 100-dən çox elmi məqaləsi nəşr olunmuşdur.

"1941-1945-ci illər Böyük vətən müharibəsində fədakar əməyə görə" (1945), "Böyük vətən müharibəsində Qələbənin 30 illiyi" (1975) medalları və "Sosializm yarışının qalibi" (1980) döş nişanı ilə təltif edilmişdir.

27 may 1983-cü ildə Bakıda vəfat etmişdir.

Yusif Bəhlul oğlu Yusifov
tarix elmləri doktoru, professor
(1929-1998)

23 sentyabr 1929-cu ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Böyük Vedi kəndində anadan olub. Atası Bəhlul Yusifov İrəvan Pedaqoji Texnikumuna direktor vəzifəsinə təyin olunduğuna görə, ailə İrəvan şəhərinə köçməli olub. İlk təhsilini doğma kəndlərində alan Yusif Yusifov İrəvanda 7 illik məktəbdə təhsil alıb. Sonra təhsilini İrəvan Pedaqoji Texnikumunda davam etdirib. 1946-cı ildə İrəvanda Azərbaycan Pedaqoji Texnikumunu bitirdikdən sonra təhsilini dünyanın tanınmış şərqşünaslıq mərkəzlərindən olan Leninqrad (hazırda Sankt-Peterburq) Universitetində davam etdirib. Universitetdə qədim Şərq dilləri (şumer, akkad, elam, iran) üzrə yüksək tarixi-filoloji hazırlıq keçən Yusif Yusifov M.Boqolyubov, T.Tahircanov, K.Kurdoyev, L.Prisarevski, A.Boldırev, V.Struve, J.Petruşevski kimi görkəmli alimlərdən dərs alıb. 1952-ci ildə Universitetin İran filologiyası şöbəsini bitirən Yusif Yusifov vətənə qayıdaraq Azərbaycan EA-nın Tarix və Fəlsəfə İnstitutunda əmək fəaliyyətinə başlayıb. Qədim Şərq tarixinə maraq onu yenidən Leninqrada aparıb, 1953-1956-cı illərdə Leninqrad Dövlət Ermitajında görkəmli şumerşünas və assurşünas İ.M.Dyakonovun elmi rəhbərliyi ilə aspirantura təhsili alıb. Dünya tarixşünaslığında az öyrənilən Elam tarixini öyrənməyə başlayıb, 1958-ci ildə "Царское ремесленное хозяйство в Мидии и Эламе (VI в. до н. э.)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 25 aprel 1959-cu ildə ona tarix elmləri namizədi elmi dərəcəsi verilib. Bu əsəri ilə o, görkəmli şərqşünas alimlərin

diqqətini cəlb etməklə yanaşı, nüfuzlu elamşünas alim kimi tanınıb. Tarix elmləri namizədi kimi vətənə qayıdan Yusif Yusifov Azərbaycan EA-nın Tarix İnstitutunda elmi fəaliyyətə başlayıb. Həmin dövrdə onun Elam, Midiya, Assuriya və Urartu tarixinin mühüm problemlərinə aid respublika, İttifaq və xarici ölkələrin jurnallarında silsilə məqalələri nəşr edilib. 1965-ci ildə Tbilisidə Cavaxaşvili adına Tarix, Arxeologiya və Etnoqrafiya İnstitunun Elmi Şurasında "Elam. İctimai-iqtisadi tarix" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 19 fevral 1966-cı ildə ona tarix elmləri doktoru elmi dərəcəsi verilib. 25 müəllif vərəqi həcmində olan həmin əsər "Elam. İctimai-iqtisadi tarix" adı ilə 1968-ci ildə Moskvada nəşr olunub. Dünya alimləri tərəfindən Elamla bağlı ilk monoqrafiya kimi dəyərləndirilən bu əsərin müəllifinin adı Avropa və Amerikanın görkəmli elamşünas alimləri ilə bir sırada çəkilib. 7 mart 1962-ci ildə Azərbaycan EA-nın Rəyasət heyəti tərəfindən baş elmi işçi vəzifəsinə seçilən Y.Yusifov 1967-1971-ci illərdə M.F.Axundov adına Pedaqoji Dillər İnstitutunun Azərbaycan tarixi kafedrasında professor, 1971-1994-cü illərdə Azərbaycan Pedaqoji Universitetində professor, kafedra müdiri, fakültə dekanı vəzifələrində işləmişdir.

Qədim Şərq tarixini dərindən bilən və böyük pedaqoji təcrübəyə malik olan Yusif Yusifov 1993-cü ildə ali məktəblər üçün "Qədim Şərq tarixi" dərsliyini nəşr etdirmişdir.

Ümumiyyətlə, onun yaradıcılığı çoxşaxəli olmuşdur. Doktorluq dissertasiyasının müdafiəsindən sonra onun yaradıcılığında yeni bir elmi istiqamət formalaşmış, o, Azərbaycanda türk etnoslarının tarixi ilə bağlı ciddi elmi araşdırmalar aparmış, ərəb mənbələri əsasında tariximizi təhrif edənlərin fikirlərini tutarlı elmi dəlillərlə təkzib etmişdir.

Yusif Yusifov zəngin tarixi-pedaqoji irsə malik böyük alimdir. Onun Şərq və Azərbaycanın qədim tarixi və toponimikası ilə bağlı 2 monoqrafiyası, ali və orta məktəblər üçün 5 dərslik və dərs vəsaiti, Azərbaycanın, Rusiyanın, Avropanın nüfuzlu jurnallarında 150-dən artıq elmi məqaləsi nəşr olunmuşdur. Onun maraq dairəsi Azərbaycan tarixinin demək olaraq ki, dörd min illik (e.ə. III min. - b.e. I min.) dövrünü əhatə edirdi. O, hazırda ali məktəblərdə istifadə olunan "Azərbaycan tarixi" dərsliyinin redaktoru (akademik Z.Bünyadovla birlikdə) və müəlliflərindən biri olmuşdur. Görkəmli dilçi alim F.Cəlilov Yusif Yusifovu "Azərbaycan elminin nuru" və "Azərbaycan tarixində nadir simalardan biri" adlandırmışdır.

4 yanvar 1998-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Dərgah Humay oğlu Qüdrətov
tarix elmləri doktoru, professor
Əməkdar müəllim
(1929-2007)

5 yanvar 1929-cu ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olmuşdur. 1936-1943-cü illərdə Daşkəsən kəndindəki 7 illik məktəbdə, 1943-1946-cı illərdə Qubadlı rayonundakı orta məktəbdə, 1946-1951-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix fakültəsində təhsil almışdır.

1951-1953-cü illərdə Bakıdakı 65 №-li orta məktəbdə tarix müəllimi, 1953-1957-ci illərdə dərs hissə müdiri, 1957-1972-ci illərdə Azərbaycan EA Tarix İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır. 18 yanvar 1962-ci ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında namizədlik, 1970-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

1970 -ci ildə V.İ.Lenin adına ADPİ-nin SSRİ tarixi kafedrasında müəllim, 23 mart 1973-cü ildə baş müəllim, 1976-cı ildə professor vəzifəsinə seçilmişdir. 3 noyabr 1972-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən Dərgah Qüdrətova tarix elmləri doktoru elmi dərəcəsi, 10 iyun 1977-ci ildə SSRİ tarixi kafedrası üzrə professor elmi adı verilmişdir.

9 oktyabr 1981-ci ildən 25 sentyabr 1995-ci ilə kimi Tarix fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

1976 - 2007-ci illərdə əvvəlcə SSRİ tarixi, sonra isə Türk və Şərqi Avropa xalqları tarixi kafedrasında professor vəzifəsində çalışmışdır. 6 monoqrafiya, dərslik və dərs vəsaiti, 100-ə yaxın elmi məqaləsi nəşr olunmuşdur. O, uzun müddət Azərbaycan EA-nın Elmi Şurasının və Koordinasiya Şurasının üzvü olub.

Respublikada tarix müəllimlərinin və tarix üzrə elmi kadrların hazırlanmasında mühüm xidmətlərinə görə 26 dekabr 2006-cı ildə ona Əməkdar müəllim fəxri adı verilmişdir.

5 dekabr 2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Nəriman Həmid oğlu Nərimanov
iqtisad elmləri doktoru, professor
(1929-1996)

25 dekabr 1929-cu ildə Ağdam şəhərində anadan olub. 1937-1947-ci illərdə Ağdam şəhər 1 №-li orta məktəbdə, 1947-1952-ci illərdə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb. 1952-ci ildə S.M.Kirov adına ADU-nun Siyasi iqtisad kafedrasında pedaqoji fəaliyyətə başlayıb. 1953-cü ildə Azərbaycan KP MK tərəfindən ictimai elmlərdən ali məktəb müəllimi hazırlayan 1 illik kursda oxumaq üçün Moskva şəhərinə ezam edilib. Həmin illərdə Azərbaycan KP MK-nın ştatdankənar mühazirəçisi olmuşdur.

1955-1957-ci illərdə S.M.Kirov adına ADU-nun Siyasi iqtisad kafedrasının aspirantı olub. 13 dekabr 1962-ci ildə "İctimai əmək məhsuldarlığının artması– sosializmin iqtisadi qanunudur" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili yanında AAK tərəfindən 13 mart 1962-ci ildə ona iqtisad elmləri namizədi elmi dərəcəsi verilib. 1958-ci ildən ömrünün sonunadək V.İ.Lenin adına ADPİ-də işləyib. ADPİ-nin Siyasi iqtisad kafedrasında baş müəllim (1958-1966), dosent (1966-1991), professor (1991-1996) vəzifələrində çalışıb. 1975-ci ildə Rostov Dövlət Universitetində 5 aylıq müəllimlərin ixtisasartırma kursunun dinləyicisi olub. 1976-1986-cı illərdə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin Kollegiyasının qərarı ilə ADPİ-də təşkil edilən Ümumtəhsil məktəb direktorlarının ixtisasartırma fakültəsinin dekanı olub.

SSRİ Xalq Təhsili Komitəsi yanında AAK tərəfindən ona 25 aprel 1991-ci ildə Siyasi iqtisad kafedrası üzrə professor elmi adı verilib.

Onun "Ən mühüm, ən başlıca şərt" (1965), "V.İ.Lenin əmək məhsuldarlığı haqqında" (1975), "Siyasi iqtisad fənnindən seminar məşğələlərinə hazırlaşmağın planı və metodikası" (1977), "V.İ.Leninin imperializmə aid əsərlərinin öyrədilməsi" (1988) adlı kitabları və 50-yə yaxın elmi məqaləsi nəşr olunub. Azərbaycan SSR Ali Sovetinin, respublika "Bilik" cəmiyyətinin Fəxri fərmanları, "SSRİ maarif əlaçısı" və "Sosializm yarışının qalibi" döş nişanları ilə təltif edilib.

15 iyul 1996-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Yusif Rəhim oğlu Talıbov
pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim
(1929-2005)

28 noyabr 1929-cu ildə Füzuli rayonunun Gecəgözlü kəndində anadan olub. İbtidai təhsilini Gecəgözlü məktəbində (1937-1940), yeddiillik təhsilini Yuxarı Əbdülrəhmanlı natamam orta məktəbində (1941-1946), orta təhsilini Əhmədalılar kənd məktəbində (1946-1949) alıb. 1949-1953-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda oxuyub. Cəbrayıl rayonunun Soltanlı (1953-1955) və Füzuli rayonunun I Qaradağlı kənd məktəblərində (1955-1956) ingilis dili müəllimi işləyib. 1956-1959-cu illərdə ADPİ-nin Pedaqogika kafedrasının aspirantı olub. Azərb.ETPEİ-də elmi işçi (1959-1963), pedaqogika şöbəsinin müdiri (1963-1969), ADPİ-də müəllim (1967-1972), dosent (1970-1978), Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda professor (1980-2005 vəzifələrində çalışıb. Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun Pedaqogika və psixologiya kafedrasının müdiri (1973-1979; 1984-2005), direktoru (1976-1978), Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun Pedaqoji fakültəsinin dekanı (1982-1984) vəzifələrində işləyib.

28 iyun 1962-ci ildə "Şagirdlərin proletar beynəlmiləlçiliyi tərbiyəsi (V-VIII siniflər)" mövzusunda namizədlik, 1975-ci ildə "Məktəblərin sosialist beynəlmiləlçiliyi tərbiyəsinin nəzəriyyə və praktikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Ona 1970-ci ildə dosent, 1980-ci ildə professor elmi adı verilib.

25 kitabın, xeyli elmi və publisistik məqalənin müəllifidir. Yusif Talıbov görkəmli pedaqoq V.A.Suxomlinskinin "Ürəyimi uşaqlara verirəm" əsərini H.Əliyev və E.E.Eyvazovla birgə Azərbaycan dilinə tərcümə etmiş, "Vətəndaşın doğulması" kitabını redaktə etmişdir. "Qabaqcıl maarif xadimi" döş nişanı (1967),"Şərəf Nişanı" ordeni (1976), "Əmək veteranı" (1987) medalı, "SSRİ Maarif əlaçısı" (1977) döş nişanı, Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMK-nın, "Bilik" cəmiyyətinin, ÜİLKGİ MK-nın, Azərbaycan LKGİ MK-nın, SSRİ Maarif Nazirliyinin, SSRİ PEA-nın, Azərbaycan Mili Olimpiya Akademiyasının, Gənclər və İdman Nazirliyinin Fəxri fərman və diplomları ilə təltif olunub. 1998-ci ildə Azərbaycan Milli Olimpiya Aka-

demiyasının üzvü seçilib. Azərbaycan SSR Pedaqoji Cəmiyyətin təsis qurultayının iştirakçısı (1972) və sədr müavini (1972-1982) olub. 1965-1972-ci illərdə Azərbaycan Maarif Nazirliyinin pedaqogika üzrə Elmi-metodik şurasının sədr müavini, 1973-1983-cü illərdə sədri olub. "Azərbaycan məktəbi" (1963-1982), "Məktəbdə bədən tərbiyəsi" (1985-1992), "Pioner" (1978-1991) jurnallarının redaksiya heyətinin üzvü olub. ADPİ-də (1986-1993) və Tbilisi BTİ-də (1987-1992) fəaliyyət göstərən Dissertasiya şuralarının üzvü olub. 2001-ci ildə ona Əməkdar müəllim fəxri adı verilib. Haqqında " Yusif müəllim necə varsa.." (2000) kitabı nəşr olunub.

2005-ci ildə Bakı şəhərində vəfat edib.

Soltansəlim Həsən oğlu Axundov

pedaqoji elmlər namizədi, professor

(1929 - 2001)

31 dekabr 1929-cu ildə Salyan rayonunun Arbatan kəndində anadan olub. Salyan Qiyabi Pedaqoji Məktəbini bitirdikdən (1946) sonra Neftçala (1946-1947), Tərtər (1947-1948) və Daşkəsən (1948-1949) rayonlarında müəllim və məktəb müdiri işləyib. 1949-1953-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Dil-ədəbiyyat fakültəsində ali təhsil alıb. Neftçala (1953-1954) və Salyan (1954-1961) rayonlarında müəllim və məktəb inspektoru kimi fəaliyyət göstərib. 1961-1964-cü illərdə V.İ.Lenin adına ADPİ-də aspirantura təhsili alıb. 22 oktyabr 1965-ci ildə ADPİ-nin Elmi Şurasında "Əxlaq tərbiyəsində şagirdlərə fərdi yanaşma" mövzusunda dissertasiya müdafiə edib. İbtidai təhsil pedaqogikası və metodikası fakültəsinin qiyabi şöbə üzrə məntəqə müdiri (1964), baş laborant (1965), müəllim (1966), baş müəllim (1966-1967), dosent (1967-1968), axşam şöbəsi üzrə dekan müavini (1968), ictimai əsaslarla ADPİ-nin tərbiyə işləri üzrə prorektoru (1968-1970), institut partiya komitəsinin birinci katibi (1973-1975) vəzifələrində çalışıb. 1975-1987-ci illərdə Ümumi pedaqogika kafedrasının dosenti, 1987-2001-ci illərdə İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasının professoru olub. 28 fevral 1968-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona dosent, 2 sentyabr 1988-ci ildə SSRİ Xalq Təhsili Komitəsi yanında AAK tərəfindən professor elmi adı verilib.

"Lenin" yubiley medalı,"Qabaqcıl təhsil işçisi" döş nişanı, SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunub. "Ailədə uşaqların intizam tərbiyəsi" (1967), "Təlim prosesində şagirdlərə fərdi yanaşma" (1975),"Mənəvi tərbiyə və peşə oriyentasiyası" (1984), "Ailədə uşaqların əxlaq tərbiyəsi" (1991) monoqrafiyalarının, 6 kitab, 12 metodik göstərişin, 200-dən artıq jurnal və 500-dən çox qəzet məqaləsinin müəllifi olub. 6 nəfərin namizədlik dissertasiyasının opponenti, 2 nəfərin elmi məsləhətçisi olub.

16 avqust 2001-ci ildə Bakı şəhərində vəfat edib.

Sabir Əli oğlu Şəfiyev

pedaqoji elmlər namizədi, professor
(1930-2010)

28 aprel 1930-cu ildə Şuşa şəhərində anadan olmuşdur. Böyük qardaşı Şamaxı şəhərinə köçdüyündən orta təhsilini Şamaxıdakı 1 №-li orta məktəbdə almışdır. 1947-1951-ci illərdə ADPİ-nin Tarix fakültəsində təhsil almışdır. Şamaxı rayonunun Göylər kəndində müəllim (1951-1952), Azərbaycan LKGİ Bakı Vilayət Komitəsinin məktəbli gənclər şöbəsində təlimatçı (1952-1953), Azərbaycan LKGİ MK-nın məktəbli gənclər şöbəsində təlimatçı (1953-1955), Naxçıvan Vilayət Komsomol Komitəsinin birinci və ikinci katibi (1955-1960), Ağsu və Şamaxı rayon partiya komitəsinin birinci katibi (1965-1970) vəzifələrində çalışmışdır.

1961-1964-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Pedaqogika kafedrasının aspirantı olmuş, 1965-ci ildə "Şagirdlərin ideya-siyasi tərbiyəsində komsomol təşkilatının rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1970-1972-ci illərdə V.İ.Lenin adına ADPİ-də baş müəllim və 1972-1979-cu illərdə dosent vəzifəsində çalışmışdır. 1979-cu ilin noyabrından ömrünün sonuna kimi M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda Pedaqogika kafedrasının müdiri vəzifəsində işləmişdir. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona 1988-ci ildə professor elmi adı verilib. 12 iyun 1995-ci ildə Pedaqogika və Sosiologiya Beynəlxalq Akademiyasının həqiqi üzvü (akademik) seçilmişdir.

Əmək fəaliyyəti dövründə V çağırış Naxçıvan MSSR Ali Sovetinin, VII çağırış Azərbaycan SSR Ali Sovetinin, Ağsu, Şamaxı rayon və Naxçıvan şə-

hər Sovetinin deputatı, Azərbaycan Kommunist Partiyasının XXII, XXIII, XXIV, Azərbaycan LKGİ-nin XXI, XXII və ÜİLKGİ-nin XIII qurultaylarının nümayəndəsi olmuşdur. "Əmək fəaliyyətinə görə" "V.İ.Lenin anadan olmasının 100 illiyi" "Əmək veteranı" medalları və üç dəfə Azərbaycan və Naxçıvan MSSR Ali Sovetinin, SSRİ "Bilik" cəmiyyətini, ÜİLKGİ MK-nin "Komsomolda fəal işinə görə" "Xam torpaqların qaldırılmasında fəal iştirakına görə" döş nişanı ilə, Ümumittifaq Kənd Təsərrüfatı sərgisinin "Qızıl" medalı ilə, dəfələrlə ÜİLKGİ MK-nın, Azərbaycan LKGİ MK-nın, SSRİ və respublika Maarif Nazirliyinin, Ümumittifaq "Bilik" cəmiyyətinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

SSRİ və Azərbaycan SSR xalq maarif əlaçısı olub. 1972-1983-cü illərdə SSRİ Maarif Nazirliyinin nəzdindəki Tələbələrin elmi- metodik işləri üzrə şuranın, 1972-1978-ci illərdə ADPİ-nin və Azərbaycan ETPEİ-nin nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının, Azərbaycan SSR Maarif Nazirliyi nəzdindəki Elmi-metodik şuranın, "Azərbaycan məktəbi" jurnalının redaksiya heyətinin, 1964-cü ildən SSRİ Jurnalistlər İttifaqının üzvü olmuşdur. Elmi rəhbərliyi ilə 5 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

24 monoqrafiya, dərslik və dərs vəsaiti, 150-dən artıq elmi-pedaqoji və publisistik məqaləsi nəşr olunmuşdur. Haqqında H.Cəfərov,V.Cümşüdov və A.Qasımovun "Professor Sabir Şəfiyevin elmi-pedaqoji fəaliyyəti- 75 il" (2005) kitabı nəşr olunmuşdur.

2010-cu ildə Bakı şəhərində vəfat etmişdir. Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası onun adını daşıyır.

Rasim Şirin oğlu Qarayev

iqtisad elmləri namizədi, professor
(1930-2003)

15 yanvar 1930-cu ildə Ağdam rayonunun Seyidli kəndində anadan olub.1949-cu ildə Ağdam şəhərindəki 1 №-li orta məktəbi bitirib. 1949-1954-cü illərdə ADU-nun Tarix fakültəsinin siyasi iqtisad şöbəsində təhsil alıb. Universiteti qurtarandan sonra Bakı Sovet Ticarəti Texnikumunda siyasi iqtisad müəllimi işləyib. 1955-1959-cu illərdə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun Marksizm-leninizm kafed-

rasında siyasi iqtisad müəllimi, 1959-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Siyasi iqtisad kafedrasında baş müəllim vəzifəsində çalışıb. 3 noyabr 1967-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi Şurasında "İctimai istehlak fondları və onların kommunizm quruculuğunda rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 28 fevral 1968-ci ildə ona iqtisad elmləri namizədi elmi dərəcəsi, 28 oktyabr 1970-ci ildə Siyasi iqtisad kafedrası üzrə dosent, SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən isə 26 dekabr 1986-cı ildə Siyasi iqtisad kafedrası üzrə professor elmi adı verilib.

1985-2000-ci illərdə ADPİ-nin Siyasi iqtisad kafedrasında professor, 2000-2003-cü illərdə İqtisadi və sosial fənlər kafedrasında professor-məsləhətçi vəzifəsində çalışıb. Kiyev (1957) və Moskvada (1970, 1978) ixtisasartırma kurslarında, Moskvada stajirovkada (1984 və 1990) olub. 50 dərslik, dərs vəsaitinin, proqramın və elmi məqalənin müəllifi olub.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, Azərbaycan LKGİ MK tərəfindən Fəxri fərmanlarla təltif olunub.

20 fevral 2003-cü ildə Bakı şəhərində vəfat edib.

Süleyman Şükür oğlu Paşayev

fəlsəfə elmləri doktoru, professor

(1930-1990)

30 dekabr 1930-cu ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olub. 1947-ci ildə Bakı şəhərində orta məktəbi, 1959-cu ildə ADU-nun Tarix fakültəsini bitirib. 1960-1969 -cu illərdə "Elm və həyat" jurnalının şöbə müdiri olub. 1969-1976-cı illərdə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirliyində İctimai elmlər şöbəsinin müdiri olmuşdur. 1971-ci ildə "Marksist etikasında sadə əxlaq normaları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1972-1976 -cı illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda Marksizm-leninizm kafedrasında, 1976 -1987-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Marksizm-leninizm kafedrasında dosent vəzifəsində işləmişdir. 1985-ci ildə Moskva şəhərində "Elm və əxlaqi tərbiyə" mövzusunda doktorluq dissertasiyası müda-

fiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır. 1987-ci ildə ona professor elmi adı verilmişdir. O, gənclik və tərbiyə, gənclik və zaman, mənəvi və əxlaqi tərbiyə, tələbə gənclərin mənəvi tərbiyəsi kimi elmi problemlərin tədqiqi ilə məşğul olmuşdur. "Sadə əxlaq normaları" (1974), "Kommunist əxlaqının nəzəri məsələləri" (1978), "Elm və mənəviyyat" (1988), "Zəka işığında tərbiyə" (1988) monoqrafiyalarının və 60-dan çox elmi məqalənin müəllifidir. 1974-cü ildə Almaniya Demokratik Respublikası və sovet etika və estetika alimlərinin Moskva şəhərində keçirilən beynəlxalq simpoziumunda "Sadə əxlaq normaları kommunist əxlaqının əsas sahələrindən biridir" mövzusunda elmi məruzə ilə çıxış etmişdir. Həmin məruzə Berlin şəhərində nəşr edilən məcmuəyə daxil edilmişdir. Azərbaycan Jurnalistlər İttifaqının üzvü olmuşdur.

1990-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Nurqələm Mikayıl oğlu Mikayılov

fəlsəfə elmləri doktoru, professor,
Əməkdar müəllim
(1930-2014)

1930-cu ildə Şamaxı rayonunun Göylər kəndində anadan olub. Orta təhsilini doğma kəndlərində alıb. 1942-1947-ci illərdə ADU-nun Tarix fakültəsinin fəlsəfə şöbəsində təhsil alıb. 1952-1955-ci illərdə Göylər kənd məktəbində müəllim, 1955-1959-cu illərdə dərs hissə müdiri işləyib. 1959-cu ilin oktyabr ayında Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul olunub. 1964-1970-ci illərdə Azərbaycan Politexnik İnstitutunda baş müəllim və dosent, 1970- 1974 -cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda dosent, 1974 -1975-ci illərdə professor vəzifəsində çalışıb.

1975-ci il oktyabr ayının 1-də Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna kafedra müdiri vəzifəsinə seçilib. 35 ildən artıq bir müddətdə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Tarix və sosial-siyasi fənlər" kafedrasının müdiri vəzifəsində çalışmışdır. 1986-cı ildə Böyük Kreml sarayında keçirilən ali təhsil müəssisələrinin ictimai elmlər kafedraları müdirlərinin Ümumittifaq müşavirəsinə hazırlıqla əlaqədar Moskva komissiyası tərəfindən res-

publikanın ictimai elmlər kafedraları iki dəfə yoxlanılmışdır. Prof.Nurqələm Mikayılovun rəhbərlik etdiyi kafedra İttifaqın ən qabaqcıl kafedralarından biri kimi SSRİ Ali Təhsil nazirinin məruzəsinə düşmüşdür. Həmin müşavirədə Siyasi Büronun bütün üzvləri, o cümlədən Ulu Öndər H.Əliyev də iştirak etmişdir.

1963-cü ilin oktyabr ayında namizədlik, 1972-ci ilin may ayında doktorluq dissertasiyası müdafiə etmişdir. O, fəlsəfə və sosial-siyasi elmlərə aid 3 monoqrafiya, 26 kitab, dərslik, dərs vəsaitinin, 100-dən çox məqalənin müəllifidir.

Elmi rəhbərliyi ilə 6 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Bir neçə doktorluq və namizədlik dissertasiyalarının müdafiəsində rəsmi opponent kimi çıxış etmişdir. 1996-2009-cu illərdə Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın fəlsəfə, pedaqogika, psixologiya və ilahiyyat üzrə Ekspert Şurasının üzvü və sədri vəzifəsində işləmişdir.

19 yanvar 2009-cu ildə Azərbaycan KİVİHİ tərəfindən ona "İlin nüfuzlu ziyalısı" fəxri diplomu təqdim edilmişdir. Dəfələrlə SSRİ və Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili Nazirliyinin, SSRİ "Bilik" cəmiyyətinin fəxri fərmanları ilə təltif olunmuşdur. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona Əməkdar müəllim fəxri adı verilmişdir. 2 mart 2010-cu ildə Azərbaycan Memarlıq və İnşaat İnstitutunda anadan olmasının 80 illiyinə həsr olunmuş "Fəlsəfə və sosial-siyasi elmlərin aktual problemləri" mövzusunda elmi konfrans keçirilmişdir. Qızı filologiya elmləri doktoru, professor Əzizə Mikayılovanın redaktorluğu ilə haqqında "Elm və təhsilə həsr olunmuş ömür" (2011) kitabı nəşr olunmuşdur.

18 sentyabr 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Rafiq Əbdül oğlu Rəcəbov
tarix elmləri doktoru, professor
(1930-2006)

6 may 1930-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1938-1945-ci illərdə Bakı şəhərindəki 5 №-li məktəbdə, 1945-1949-cu illərdə Bakı Energetika Texnikumunda, 1949-1954-cü ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır.

1951-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin komsomol komitəsinin katibi,

1954-1956-cı illərdə Sov.İKP tarixi kafedrasında müəllim, 1956-1958-ci illərdə Azərbaycan KP MK-nın elm və təhsil şöbəsində təlimatçı və şöbə müdirinin müavini vəzifələrində işləmişdir.

1958-1961-ci illərdə Moskvada SSRİ Xarici İşlər Nazirliyinin nəzdində olan 3 illik Ali Diplomatiya Məktəbində oxumuşdur. 1961-ci ildən yenidən Azərbaycan KP MK-nın elm və məktəb şöbəsində fəaliyyətini davam etdirmiş, əvvəlcə şöbə müdirinin müavini, sonra isə şöbə müdiri vəzifəsində çalışmışdır.

1963-1964-cü illərdə Azərbaycan KP Bakı Şəhər Komitəsinə rəhbərlik etmişdir. 1965-1967-ci illərdə Azərbaycan KP MK-nın elm və mədəniyyət, 1965-1967-ci illərdə elm və tədris müəssisələri şöbəsinə rəhbərlik edib. 1967-1974-cü illərdə V.İ.Lenin adına ADPİ-də elmi işlər üzrə prorektor vəzifəsində çalışmışdır.

1965-ci ildə Azərbaycan EA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasında namizədlik, 1970-ci ildə doktorluq dissertasiyası müdafiə edib. Ona 1968-ci ilin 19 iyununda dosent, 15 yanvar 1971-ci ildə professor elmi adı verilib. 1974-1980-ci illərdə Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun rektoru, 1980-1989 -cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Tarix kafedrasının professoru olub. 1989-1995-ci illərdə həmin kafedraya rəhbərlik edib.

O, 4 monoqrafiya, 8 kitabçanın və 150-dən çox elmi məqalənin müəllifidir. Elmi rəhbərliyi ilə 6 nəfər elmlər doktoru, 12 nəfər elmlər namizədi elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. Bakıda, Moskvada və Kiyevdə 20-dən artıq doktorluq və namizədlik dissertasiyasının rəsmi opponenti olub.

1991-ci ildə "Azərbaycanşünasların Müstəqil Birliyi" adlı elmi cəmiyyət yaratmış və ömrünün sonuna kimi həmin cəmiyyətin sədri olmuşdur.

"Qırmızı Əmək Bayrağı" ordeni, Azərbaycan KP MK-nın, Təhsil Nazirliyinin, ADPİ-nin, Azərbaycan Dövlət Neft Akademiyasının Fəxri Fərmanları ilə təltif olunmuşdur. 2006-cı ilin aprel ayının 7-də Ümumdünya Sülh Federasiyası tərəfindən "Sülh səfiri" Beynəlxalq ictimai adla təltif edilmişdir.

2006-cı il mayın 16-da Bakı şəhərində vəfat etmişdir.

Seyfəddin Mirtağı oğlu Qəndilov
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1930-2010)

26 sentyabr 1930 -cu ildə Tərtər rayonunda anadan olub. Orta məktəbi başa vurduqdan sonra 1948-1953 -cü illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır.

1953-1956-cı illərdə ADU -da komsomol komitəsinin katibi, 1956-1958-ci illərdə assistent vəzifəsində çalışmışdır.1958-ci ildə namizədlik və 1967-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1958-1962-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda baş müəllim, dosent, 1962-1966-cı illərdə Azərbaycan Dövlət Universitetində dosent, 1966-1971-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda kafedra müdiri olmuşdur. 1969-cu ildə professor elmi adı almışdır.

1971-1999-cu illərdə Bakı Dövlət Universitetində professor və kafedra müdiri vəzifələrində işləmişdir. 1999-2010 -cu illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru olmuşdur. 2001-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü olmuşdur.

1989-cu ildə Azərbaycan ali məktəblərində tədris olunan "Siyasi tarix" fənninin işçi proqramının və ilk dərsliyinin hazırlanması onun adı ilə bağlıdır. Onun bilavasitə rəhbərliyi altında 1995-ci ildə Təhsil Nazirliyinin işçi qrupu tərəfindən "Ali məktəblərdə humanitar elmlərin tədrisi və tədqiqinin təkmilləşdirilməsi konsepsiyası", 1997-ci ildə isə Təhsil Nazirliyinin ekspert qrupu tərəfindən "Humanitar elmlər üzrə ali təhsilin istiqamət və ixtisaslarına dair dövlət standartları" işlənib hazırlanmışdır.

15 kitabı və 100-ə yaxın elmi məqaləsi nəşr olunub. Əməkdar təbliğatçı və Əməkdar elm xadimi fəxri adlarına layiq görülüb.

20 iyul 2010-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Nizaməddin Nurməmməd oğlu Allahverdiyev
pedaqoji elmlər namizədi, professor
(1930-2003)

30 aprel 1930-cu ildə Şamaxının Göylər kəndində anadan olub. 1948-1952-ci illərdə ADPU-nun Coğrafiya fakültəsində təhsil alıb. İnstitutu fərqlənmə diplomu bitirən Nizaməddin Allahverdiyev təyinatla iki il Göylər kənd orta məktəbində coğrafiya fənnini tədris edib. 1954-1957-ci illərdə ADPİ-də (indiki ADPU) coğrafiyanın tədrisi metodikası ixtisası üzrə əyani aspiranturada təhsil alıb. 1957-1958-ci illərdə Neft daşları meteoroloji stansiyasında texnik, 16 yanvar 1958-ci ildən 1 dekabr 1958-ci ilə kimi "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri vəzifəsində çalışıb. 1 noyabr 1958-ci ildən 31 avqust 1958-ci ilə kimi ADPİ-nin Ümumi coğrafiya kafedrasında müəllim işləyib. 1 sentyabr 1958-ci ildən 23 sentyabr 1968-ci ilə kimi Azərbaycan Dövlət Universitetinin İqtisadi coğrafiya kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində çalışıb. 1964-cü ildə "Coğrafiya üzrə tədris ekskursiyalarının təşkili və keçirilməsi metodikası" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 16 aprel 1966-cı ildə ona dosent elmi adı verilib.

1968-ci ilin sentyabrından ömrünün sonuna kimi Pedaqoji İnstitutda çalışıb. 23 sentyabr 1968-ci ildən 14 aprel 1970-ci ilə kimi ADPİ-nin Coğrafiya kafedrasında dosent, 14 aprel 1970-ci ildən 5 may 1974-cü ilə kimi İqtisadi coğrafiya kafedrasında müdir, 5 may 1974-cü ildən 20 sentyabr 1976-cı ilə kimi Coğrafiya fakültəsinin dekanı olub. 20 sentyabr 1976-cı ildə Coğrafiya fakültəsi Biologiya fakültəsinə birləşdirildiyindən o, İqtisadi coğrafiya kafedrasının müdiri vəzifəsinə seçilib.

1976-1982-ci illərdə İqtisadi coğrafiya kafedrasının müdiri, 1982- 1989-cu illərdə İqtisadi coğrafiya kafedrasının dosenti, 1989-2003-cü illərdə İqtisadi coğrafiya və coğrafiyanının tədrisi metodikası kafedrasının professoru vəzifələrində çalışıb. Xalq Təhsili üzrə SSRİ Dövlət Komitəsi 11 noyabr 1991-ci il tarixli qərarı ilə ona professor elmi adı verib.

Elmi rəhbərliyi ilə iki nəfər elmlər namizədi dərəcəsinə layiq görülüb. Onun dəstəyi və elmi köməyi ilə kafedranın 5 nəfər əməkdaşı keçmiş SSRİ-nin nüfuzlu elm mərkəzlərində aspirantura hazırlığı keçərək namizədlik dissertasiyası müdafiə etmişdir.

"Coğrafiyanın tədrisi metodikası". I-II hissə. (1976; 1986), "Azərbaycan respublikasının iqtisadi və sosial coğrafiyası" (1991) adlı dərs vəsaitlərinin və 100-dən artıq elmi məqalənin müəllifidir. Prof.N.Allahverdiyev keçmiş SSRİ-də yaxşı tanınan metodist alimlərdən biri olub. 1960-1982-ci illərdə SSRİ Maarif Nazirliyinin coğrafiya üzrə Elmi Metodik Şurasının və "Теорафия в школе" jurnalının redaksiya heyətinin üzvü olub. "Tarix, ictimaiyyat və coğrafiya tədrisi" məcmuəsinin redaktor müavini kimi fəaliyyət göstərib. O, SSRİ coğrafiya cəmiyyətinin V-VI, Azərbaycan coğrafiya cəmiyyətinin II-III qurultaylarının nümayəndəsi olub. O, həm də 1960-1990-cı illərdə Azərbaycan SSR Maarif Nazirliyinin coğrafiya üzrə Elmi Metodik Şurasının sədr müavini və sədri olub.1973-cü ildə Bolqarıstanda milli coğrafiya konqresində Azərbaycan elmini təmsil etmiş, məruzə ilə çıxış etmişdir. 1975 və 1980 -ci illərdə ADPİ-nin partiya komitəsinə üzv seçilib.

1971-ci ildə "Qabaqcıl maarif xadimi" döş nişanı, 1980-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Fəxri Fərman"ı və "Əmək veteranı" medalı ilə təltif olunub (1990).

14 avqust 2003-cü ildə Bakı şəhərində vəfat edib.

Zakir Burzu oğlu Şıxlınski

tarix elmləri doktoru, professor

(1931-1986)

1931-ci ildə Ağdam rayonunda anadan olmuşdur. 1948-1953-cü illərdə ADU-unun Tarix fakültəsində təhsil almışdır. Həmin ildə Azərbaycan EA-nın Tarix və Fəlsəfə İnstitutunun aspiranturasına daxil olmuşdur. 1956-1970-ci illərdə Azərbaycan EA-da kiçik elmi işçi işləmişdir. 1958-ci ildə namizədlik, 1967-ci ildə "Azərbaycan kəndində sovet quruculuğu (1926-1937-ci illərdə) mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. 1970 -ci ildə Azərbaycan Pedaqoji İnstitutunun professoru seçilmişdir. 1971-1974-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunun, 1974-1986-cı illərdə Azərbaycan Dövlət Universitetinin Sov.İKP tarixi kafedrasının müdiri olmuşdur. 1920-1930-cu illərdə Azərbaycan kəndində gedən sosial-siyasi proseslərlə bağlı tədqiqatlar aparmışdır. 70-ə yaxın elmi

əsərin, 4 monoqrafiyanın müəllifi olmuşdur. O, üç cildlik "Azərbaycan tarixi"nin müəlliflərindən biri olub. Onun elmi rəhbərliyi ilə 17 nəfər namizədlik dissertasiyası müdafiə edib.

1986-cı ilin may ayında Bakıda vəfat etmişdir.

Sabir Sadıx oğlu İbrahimov

tarix elmləri doktoru, professor
(1931-1997)

26 iyul 1931-ci ildə Ağdam şəhərində anadan olub. 1938-1948-ci illərdə Ağdam şəhər 1№-li orta məktəbində oxuyub. 1948-1953-cü illərdə Azərbaycan Dövlət Universitetində, 1954-1958-ci illərdə ADU-nun aspiranturasında təhsil almışdır. 1958-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, 1962-ci ildə ona dosent elmi adı verilmişdir. 1976-cı ildə ADU-nun Tarix fakültəsinin Müdafiə Şurasında "1926-1932-ci illərdə Azərbaycanda fəhlə sinifinin əmək və siyasi fəallığının yüksəlməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1977-ci ildə ona professor elmi adı verilmişdir.

1953-1978-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun SovİKP tarixi kafedrasında müəllim, baş müəllim, dosent, professor, kafedra müdiri, Tarix fakültəsinin axşam bölməsinin dekanı, institut Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifələrində çalışmışdır.

1978-1997-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun SovİKP tarixi kafedrasının professoru və müdiri olmuşdur. Respublikanın sosial-iqtisadi inkişafına, zəhmətkeşlərin ideya-siyasi və mənəvi tərbiyəsinə dair 50-dən artıq monoqrafiya, tədris-metodik vəsait və elmi məqalənin müəllifidir. Elmi kadr hazırlığında xidmətləri olub. ADU-nun nəzdində fəaliyyət göstərən doktorluq və namizədlik dissertasiyalarının müdafiəsini keçirən Dissertasiya Şurasının üzvü olub. Ümumittifaq və respublika simpozium və konfransların iştirakçısı olub.

Azərbaycan LKGİ-nin, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun və D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun diplom və fəxri fərmanları ilə təltif edilib.

1mart 1997-ci ildə Bakı şəhərində vəfat edib.

Süleyman Abbas oğlu Məmmədov
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı
(1932-2018)

30 oktyabr 1932-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində anadan olmuşdur. 1939-1945-ci illərdə Vedi rayonunun Xalisa kənd 7 illik məktəbində, 1947-ci ildə Avşar kənd məktəbinin 8-ci sinfində oxumuşdur. 1948-ci ildə İrəvan Pedaqoji məktəbinə daxil olmuş, azərbaycanlıların İrəvandan deportasiyası zamanı Xanlar rayonuna köçürülən həmin məktəbi 1951-ci ildə bitirmişdir. 1951-1952-ci illərdə Xalisə kənd 7 illik məktəbində müəllim işləmişdir. 1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır. 1959-1960-cı illərdə Azərbaycan EA Tarix İnstitutu Orta əsrlər tarixi şöbəsində baş laborant, 1960-1962-ci illərdə kiçik elmi işçi vəzifəsində işləmiş, 1960-1961-ci illərdə Ermənistan EA Dilçilik İnstitutunda Qədim erməni dili üzrə təhsil almışdır. 1962-1965-ci illərdə Ermənistan EA Tarix İnstitutunun məqsədli aspirantı olmuşdur. Həmin institutda 6 sentyabr 1966-cı ildə "XVII əsrin sonu-XVIII əsrin birinci 30 illiyində Azərbaycan və erməni xalqlarının tarixi əlaqələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Sonrakı illərdə Azərbaycan EA Tarix İnstitutunun Azərbaycanın Rusiya və Qafqaz xalqları ilə əlaqələri tarixi şöbəsində kiçik elmi işçi (1966), Orta əsrlər tarixi şöbəsində kiçik elmi işçi (1966-1971), ADPU-nun Azərbaycan tarixi kafedrasında baş müəllim (1971-1975), dosent (1975-1985), professor (1984-2017) vəzifələrində işləmişdir.

23 mart 1983-cü ildə Azərbaycan EA Tarix İnstitutunun Müdafiə Şurasında "Azərbaycan XV-XVII əsrin birinci yarısı mənbələrdə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1986-cı ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona professor elmi adı verilmişdir. S.Məmmədov ADPİ-nin nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının elmi katibi (1975-1985), Azərbaycan EA Tarix İnstitutunun Dissertasiya Şurasının üzvü (1987-2003), Təhsil Problemləri İnstitutunun Dissertasiya Şurasının üzvü (2000-2009), BDU-nun Tarix fakültəsində fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavini (2003-2006) olmuşdur. 17 fevral 1989-cu ildə müsabiqə yolu ilə ADPU-nun Azərbaycan tarixi kafedrasının müdiri vəzifəsinə seçilmişdir.

O, Moskva, İstanbul, Samsun, London, Ankara, Naxçıvan, Tbilisi, Bakı, Kutaisi, Batumi şəhərlərində keçirilən Beynəlxalq konfransların iştirakçısı olmuşdur. 26 dekabr 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sərəncamı ilə ona Əməkdar elm xadimi fəxri adı verilmiş, 25 may 2012-ci ildə "İrəvan xanlığı tarixi" kitabının həmmüəllifliyinə görə Dövlət mükafatına layiq görülmüşdür. 2005-2012-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın Ekspert Şurasının üzvü olmuşdur. Elmi-pedaqoji fəaliyyətinə görə ADPU Elmi Şurasının qərarı ilə 2007-2011-ci illərdə "İlin alimi" müsabiqəsinin qalibi olmuşdur. 10 cildlik ASE-nin və 2 cildlik Naxçıvan Ensiklopediyasının müəlliflərindən biridir. Onun 5 monoqrafiya, 5 ali məktəb, 16 ümumtəhsil məktəbləri üçün dərsliyi, 400-dən artıq elmi və publisistik məqaləsi nəşr olunmuşdur. "XVII əsrin II yarısı- XVIII əsrin birinci otuz illiyində Azərbaycan və erməni xalqlarının tarixi əlaqələri" (1977) və "Azərbaycan XV-XVIII əsrin I yarısı qaynaqlarda" (1993) adlı monoqrafiyaları Nyu-York Konqres Akademiyasının kitabxanasına düşmüşdür. Prof.S.Məmmədov Azərbaycanda Qədim erməni dili üzrə yeganə mütəxəssis olub. Onun elmi rəhbərliyi ilə 14 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Haqqında "S.Məmmədov. Biblioqrafiya" (2014) kitabı nəşr olunmuşdur.

30 iyun 2018-ci il tarixində Bakı şəhərində vəfat edib.

Bəşir Abbas oğlu Əhmədov
pedaqoji elmlər doktoru, professor
(1932-2007)

5 may 1932-ci ildə Tovuz rayonunun Alakol kəndində anadan olmuşdur. 7 illik təhsilini Alakol kənd məktəbində (1940-1947), orta təhsilini isə Gədəbəy rayonunun Qoşabulaq kənd orta məktəbində (1947-1950) almışdır. 1955-1956-cı illərdə Mərəzə qəsəbəsində (Şamaxı rayonu) və Əli Bayramlı (Şirvan) rayonunda dil-ədəbiyyat müəllimi işləmişdir. 1957-1960-cı illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspirantura-sında təhsil almışdır. 15 iyun 1961-ci ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Sovetində prof.Ə.Dəmirçizadənin rəhbərliyi altında "V sinifdə Azərbaycan dili fonetikasının tədrisi" mövzusunda namizədlik dissertasiyası müdafiə

edib. 4 aprel 1962-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona pedaqoji elmlər namizədi elmi dərəcəsi, 30 dekabr 1964-cü ildə isə Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası ixtisası üzrə baş elmi işçi adı verilib.

1967-ci ildə "Məzmunla formanın vəhdəti nitq inkişafı metodikasının əsası kimi" (elmi məsləhətçi prof. Ə.Abdullayev) mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 14 iyun 1968-ci ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi, 25 dekabr 1968-ci ildə isə professor elmi adı verilmişdir. 1960-1966-cı illərdə Azərbaycan ETPEİ-də elmi işçi, sonra elmi katib vəzifələrində çalışmışdır. 1966-1971-ci illərdə M.F.Axundov adına APRDƏİ (indi BSU) Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının,1971-1976-cı illərdə isə V.İ.Lenin adına ADPİ-nin Pedaqogika kafedrasının müdiri işləmişdir.-1976-1984-cü illər arasında APXDİ-də Pedaqogika kafedrasının professoru olmuşdur. 1984-2007-ci illərdə Bakı Slavyan Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına rəhbərlik etmişdir.

Yaradıcılığı Azərbaycan dilçiliyi, Azərbaycan dilinin tədrisi metodikası və pedaqogika elmi ilə bağlıdır. Onun yaradıcılığında fonetikanın tədrisi, Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları, rabitəli nitq vərdişlərini inkişaf etdirmək yolları, Azərbaycan dili dərslikləri ilə işləməyə dair metodik göstərişlər, sadə cümlənin tədrisi, nitq inkişafında müxtəlif fənlərin rolu, pedaqogikanın nəzəri və praktik məsələləri əhatə olunmuşdur.

3 nəfərin doktorluq dissertasiyasının elmi məsləhətçisi, 25 nəfər gənc tədqiqatçının elmi rəhbəri, 75 nəfərin dissertasiya işinin rəsmi opponenti olmuşdur. Elmi redaktorluğu ilə 30-dan artıq monoqrafiya, dərslik və dərs vəsaiti nəşr edilib. Kiyev, Daşkənd, Tbilisi, İrəvan şəhərlərində keçirilən elmi konfranslarda məruzələrlə çıxış etmişdir.

Azərbaycan Respublikası yanında Ali Attestasiya Komissiyasında ekspert şurasının, pedaqoji elmlər üzrə ixtisaslaşdırılmış Müdafiə Şurasının, AMEA-da Terminologiya Komitəsinin, Bakı Slavyan Universitetinin Elmi Şurasının, Pedaqoji-Psixoloji Elmləri Əlaqələndirmə Komissiyası rəyasət heyətinin, "Maarifçi" qəzeti redaksiya heyətinin və Milli Məclisdə təhsil qanununun yeni redaksiyasını hazırlayan işçi qrupunun üzvü olmuşdur. SSRİ dövründə Moskvada pedaqogikanın metodoloji problemləri üzrə elmi şuranın üzvü kimi bütövlükdə Zaqafqaziyanı təmsil etmişdir. Prof.B.Əhmədov Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

33 monoqrafiya, dərslik və dərs vəsaitləri, müxtəlif jurnal və qəzetlərdə çap olunmuş 650-ə yaxın məqaləsi nəşr edilib.

19 iyun 2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Bəşir Yusubəli oğlu Bəşirov
pedaqoji elmlər namizədi, professor
(1934-1996)

1934-cü ildə Lerik rayonunun Qışlaq kəndində anadan olub. 1941-ci ildə Qışlaq kəndindəki yeddiillik məktəbi, 1948 -ci ildə Qosmalıan kənd məktəbinin 8-ci sinfini, 1951-ci ildə Lerik qəsəbə orta məktəblərini bitirib. 1951-1955-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Coğrafiya fakültəsində təhsil alıb. Bəşir Bəşirov 1955-1968-ci illərdə Lerik rayonun Çayrud orta, Pirasora səkkizillik, Lerik qəsəbə internat məktəblərində direktor və tədris hissə müdiri, rayon xalq maarif şöbəsində inspektor və MAMEİHİ-nin rayon komitəsinin sədri vəzifələrdə çalışıb.

1961-1965-ci illərdə pedaqogika ixtisası üzrə V.İ.Lenin adına ADPİ-nin aspiranturasında (qiyabi) təhsil alıb.

1966-cı ildə prof. Ə.Y.Seyidovun rəhbərliyi altında "Azərbaycan məktəblərinin V-VIII siniflərində təlim prosesində şagirdlərin müstəqil işi (biologiya və coğrafiya fənlərinin materialları əsasında)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 28 iyun 1967-ci ildə ona pedaqoji elmlər namizədi elmi dərəcəsi verilib.

1968-ci ildə müsabiqə yolu ilə V.İ.Lenin adına ADPİ-nin Ümumi pedaqogika kafedrasına baş müəllim vəzifəsinə seçilib. O, burada baş müəllim (1968-1974), dosent (1974-1994) vəzifələrində çalışıb. 10 mart 1976-cı ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona dosent elmi adı verilib.

1980-1990-cı illərdə ADPİ-nin Riyaziyyat fakültəsində tərbiyə işləri üzrə dekan müavini, 1991-1996-cı illərdə ADPU-nun tərbiyə işləri üzrə prorektoru vəzifələrində çalışıb. 6 dekabr 1994-cü ildə ADPU-nun ümumi pedaqogika kafedrasına professor vəzifəsinə seçilib.

"Ali məktəb pedaqogikası" (1992) və "Ali məktəb didaktikası" (1992) monoqrafiyalarının və 30-a yaxın elmi məqalənin müəllifi olub.

1996-cı ildə Bakı şəhərində vəfat edib.

Pullu Səməd oğlu Mirzəyev
coğrafiya elmləri namizədi, professor
(1934 - 1997)

13 fevral 1934-cü ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Əylis kəndində anadan olub. 1950-1954-cü illərdə S.M.Kirov adına Ordubad Pedaqoji Texnikumunda, 1954-1959-cu illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində təhsil alıb. Azərbaycan EA Coğrafiya İnstitutunun iqlimşünaslıq şöbəsində laborant (1959-1963), kiçik elmi işçi (1963-1967) və baş elmi işçi (1967-1968) vəzifələrində çalışıb. 1960-1963-cü illərdə həmin şöbənin iqlimşünaslıq və metereologiya ixtisası üzrə aspirantı olub. 11 mart 1966-cı ildə Azərbaycan EA Coğrafiya İnstitutunun Elmi Sovetində Azərbaycan EA-nın müxbir üzvü, prof.Ə.M.Şıxlinskinin rəhbərliyi ilə "Naxçıvan MSSR-in aqroiqlim xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən 18 iyun 1966-cı ildə onun elmi dərəcəsi təsdiq olunub. 1968-ci ilin sentyabr ayında ADPİ-nin Coğrafiya kafedrasında ümumi yerşünaslıq ixtisası üzrə müsabiqədə iştirak edərək baş müəllim seçilib. 17 oktyabr 1970-ci ildə həmin kafedrada dosent vəzifəsinə seçilib. 9 fevral 1973-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona fiziki coğrafiya ixtisası üzrə dosent elmi adı verilib.

19 aprel 1974-cü ildən 14 iyul 1977-ci ilə kimi ADPİ-nin Ümumi coğrafiya kafedrasının müdiri vəzifəsində çalışıb. 21 fevral 1992-ci ildə Ümumi coğrafiya kafedrasının müdiri, 26 fevral 1993-cü ildə Ümumi coğrafiya kafedrasına professor vəzifəsinə seçilib. Rusiya Federasiyası Təhsil Nazirliyi tərəfindən 9 dekabr 1993-cü ildə ona professor elmi adı verilib. Moskva, Leninqrad və Tbilisidə iqlimşünaslıqla bağlı keçirilən konfranslarda elmi məruzələrlə çıxış edib. Uzun müddət fakültə TEC-nin rəhbəri və Azərbaycan Coğrafiya Cəmiyyətinin üzvü olub. "Naxçıvan MSSR-nin aqroiqlim səciyyəsi" (1972) adlı monoqrafiyanın və 60-dan artıq elmi məqalənin müəllifidir.

18 iyul 1997-ci ildə Bakı şəhərində vəfat edib.

Kərim Paşa oğlu Paşayev
iqtisad elmləri doktoru, professor
(1936-2016)

29 iyun 1936-cı ildə Bərdə rayonunun Lənbəran kəndində anadan olmuşdur. 1954-cü ildə orta məktəbi, 1958-ci ildə K.Marks adına Azərbaycan XTİ-nun Ticarət-iqtisad fakültəsini bitirmişdir. 1958-1960-cı illərdə Sumqayıt şəhər Komsomol Komitəsində təlimatçı, 1960-1962-ci illərdə S.M.Kirov adına ADU-da Sahələr iqtisadiyyatı kafedrasında baş laborant işləmişdir. 1962-1965-ci illərdə Q.V.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda aspirantura təhsili almışdır. 1966-cı ildə namizədlik, 1981-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1982-ci ildə ona professor elmi adı verilib. 1966-1967-ci illərdə Azərbaycan XTİ-nun Əmtəəşünaslıq fakültəsinin axşam şöbəsinin dekanı, 1967-1970-ci illərdə həmin fakültənin dekan müavini vəzifəsində işləmişdir. 1970-1979-cu illərdə Ticarətin təşkili və texnikası kafedrasının dosenti, 1979-1989-cu illərdə müdiri vəzifəsində çalışmışdır. 1989-1993-cü illərdə Təhsil Nazirliyinin elm idarəsinin rəisi, nazir müavini, Gəncə Texnologiya İnstitutunun birinci prorektoru, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin iqtisadi məsələlər üzrə prorektoru olmuşdur. 1993-2005-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Marketinq və ticarət kafedrasının professoru, 2005-2010-cu illərdə Ticarət kafedrasının müdiri vəzifəsində işləmişdir.

2 monoqrafiyanın, 2 dərsliyin, 5 dərs vəsaitinin, 100-dən artıq elmi məqalə, tezis və proqramın müəllifi olub.

2016-cı ilin may ayının 25-də Bakı şəhərində vəfat edib.

Mehdi Nəcəf oğlu Salahov
tarix elmləri doktoru, professor
(1936-2011)

15 sentyabr 1936-cı ildə İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olub. 1954-1959-cu illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix fakültəsində təhsil alıb, Azərbaycan dili, ədəbiyyatı və tarix müəllimi ixtisasına yiyələnib. İsmayıllı rayon Diyallı kənd orta məktəbində tarix və dil-ədəbiyyat müəllimi

(1959-1960), məktəb direktoru (1960), Burovdal kənd 8 illik məktəbində direktor (1961) vəzifələrində çalışıb.1962-1965-ci illərdə V.İ.Lenin adına ADPİ-nin SSRİ tarixi kafedrasının aspirantı olub. 1965-1966-cı illərdə həmin kafedrada laborant işləyib. 30 iyun 1967-ci ildə "Azərbaycan SSR-də ali təhsilin təşkili və inkişafı (1920-1941-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 22 noyabr 1967-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona tarix elmləri namizədi elmi dərəcəsi, 31 dekabr 1969-cu ildə Marksizm-leninizm kafedrası üzrə dosent elmi adı verilib. 1966-1968-ci illərdə Azərbaycan EA-nın Tarix İnstitutunda kiçik elmi işçi, 1968-1970-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda dosent vəzifəsində işləyib. 28 iyul 1970-ci ildən 5 iyul 1991-ci ilə kimi ADPİ-nin SSRİ tarixi kafedrasında dosent vəzifəsində çalışıb. Azərbaycan EA-nın Tarix İnstitutunda "Azərbaycan SSR-də ali təhsilin inkişafı və təkmilləşdirilməsi (1946-1980-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 15 mart 1991-ci ildə ona SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən tarix elmləri doktoru elmi dərəcəsi verilib. 1991-1996-cı illərdə ADPU-nun SSRİ tarixi kafedrasında, 1996-2011-ci illərdə Türk və Şərqi Avropa xalqlarının tarixi kafedrasında professor vəzifəsində çalışıb. Azərbaycanda ali təhsilin təşəkkülü və inkişafı ilə bağlı 5 monoqrafiyanın, 100-dən artıq məqalənin müəllifi olub.

Əmrulla Xamməd oğlu Paşayev

Gürcüstan Təhsil Akademiyasının həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor

Əməkdar müəllim

(1937-2013)

2 noyabr 1937-ci ildə Qax rayonunun Qarabaldır kəndində anadan olub. 7 illik təhsilini doğma kəndlərində (1944-1951), orta təhsilini Zaqatala rayonunun Bəhmənli kəndində (1951-1956), ali təhsilini A.S.Puşkin adına Tbilisi

Pedaqoji İnstitutunun İbtidai təhsil pedaqogikası və metodikası fakültəsində (1963-1968) alıb. 1957-1960-cı illərdə hərbi xidmətdə olub. Gürcüstan Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Azərbaycan dilində verilişlər redaksiyasında, A.S. Puşkin adına Tbilisi Pedaqoji İnstitutunun Pedaqogika kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində (1968-1993) işləyib. İnstitutda dərs deməklə yanaşı, Gürcüstanda fəaliyyət göstərən 200-ə qədər Azərbaycan məktəblərinin müəllimləri və məktəb direktorları üçün təşkil edilən təkmilləşdirmə kurslarında mühazirələr oxuyub, Tbilisidəki M.F.Axundov adına 73 №-li Azərbaycan orta məktəbindəki Valideynlər Universitetinə rəhbərlik edib. 11 noyabr 1974-cü ildə A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda "Gürcüstanda inqilabdan əvvəl rus-Azərbaycan məktəblərinin təşəkkülü və inkişafı" (1974) mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 14 may 1975-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona pedaqoji elmlər namizədi elmi dərəcəsi verilib. 1993-cü ildə "XIX-XX əsrin əvvəllərində Qafqazda ibtidai təhsilin inkişafının tarixi oçerkləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona 20 may 1981-ci ildə dosent elmi adı, 18 iyun 1993-cü ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi verilib. Doktorluq dissertasiyasının müdafiəsindən sonra ailəsi ilə birlikdə Bakıya köçüb, ADPU-da pedaqoji fəaliyyət göstərib. 14 yanvar 1994-cü ildə ADPU-nun Ümumi pedaqogika kafedrasına dosent vəzifəsinə təyin olunub. 1994-1998-ci illərdə ADPU-nun Ümumi pedaqogika kafedrasında dosent, 1998-2013-cü illərdə professor vəzifəsində çalışıb. 2003-2005-ci illərdə həmin kafedraya rəhbərlik edib. 1998-2007-ci illərdə Bakı Qızlar Universitetinin Pedaqogika kafedrasının müdiri və elmi işlər üzrə prorektoru olub. Gürcüstan Təhsil Akademiyasının həqiqi üzvü (akademiki) seçilib.

6 monoqrafiya, dərslik və dərs vəsaitinin, 120-dən artıq elmi və publisistik məqalənin müəllifidir. Elmi rəhbərliyi ilə 5 nəfər dissertasiya müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Təhsil Problemləri İnstitutunda və ADPU-da fəaliyyət göstərən Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə Dissertasiya Şurasının üzvü və Dissertasiya Şurasının nəzdindəki elmi seminarın rəhbəri olmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin, ADPU-nun rektorluğunun Fəxri fərmanları, "Əmək rəşadətinə görə" və "Tərəqqi" (2006) medalı ilə təltif olunmuş, Əməkdar müəllim (2012) fəxri adına layiq görülmüşdür. Haqqında "Professor Əmrulla Paşayev" (Tərtibçi və elmi redaktoru prof. F.Rüstəmov) kitabı nəşr olunub.

3 avqust 2013-cü ildə vəfat edib və doğma kənd qəbiristanlığında dəfn edilib.

Hüseyn Teymur oğlu Əmirov
tarix elmləri doktoru, professor
(1938-2005)

2 aprel 1938-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Əzizbəyov rayonunun) Qovuşuq kəndində anadan olub.

1957-1961-ci illərdə X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunun, 1961-1962-ci illərdə isə V.İ.Lenin adına ADPİ-nin Tarix-filologiya fakültəsində təhsil alıb. 1962-1963-cü illərdə Sabirabad rayonunun Zəngənə kənd 8 illik məktəbində, 1963-1965-ci illərdə doğma kəndlərində (Qovuşuq kəndində) tarix müəllimi işləyib.

1965-1968-ci illərdə Bakı şəhərindəki 11 №-li internat məktəbdə tərbiyəçi- müəllim, 1968-1984-cü illərdə Azərbaycan EA Tarix İnstitutunda kiçik elmi işçi, 1984-1991-ci illərdə Müasir Azərbaycan tarixi şöbəsində baş elmi işçi, 1991-1997-ci illərdə aparıcı elmi işçi vəzifələrində çalışıb. 1997-ci ildə ADPU-ya dəvət olunan Hüseyn Əmirov ömrünün sonuna kimi burada çalışıb.

30 iyun 1979-cu ildə Azərbaycan EA Tarix İnstitutunda "İnkişaf etmiş sosializm dövründə kənd təsərrüfatını yüksəltmək uğrunda mübarizədə Azərbaycan kolxozçularının rolu" mövzusunda namizədlik, 1989-cu ildə "Azərbaycan SSR-in kənd təsərrüfatı 60-80-ci illərdə" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona 21 mart 1979-cu ildə tarix elmləri namizədi, 15 noyabr 1991-ci ildə tarix elmlər doktoru elmi dərəcəsi verilib.

15 noyabr 1997-ci ildə ADPU-nun Azərbaycan tarixi kafedrasına professor vəzifəsinə seçilib, 10 iyun 2002-ci ildə həmin kafedraya professor-məsləhətçi vəzifəsinə təyin olunub. Müasir Azərbaycan tarixi ilə bağlı 8 monoqrafiya, kitab və kitabçanın, 50-dən artıq elmi məqalənin müəllifidir.

16 may 2005-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hacıbaba Sadıx oğlu Əzimov
tarix elmləri doktoru, professor
(1938)

1 avqust 1938-ci ildə Lənkəran şəhərində anadan olub. 1955-ci ildə Lənkəran şəhər 3 №-li orta məktəbi bitirib. 1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin (BDU) Tarix fakültəsində təhsil alıb. 1960-1961-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxivlər İdarəsində baş elmi işçi - baş inspektor, 1961-1969-cu illərdə Azərbaycan EA Tarix İnstitutunda elmi işçi və aspirant (1963 - 1966) olub. 14 noyabr 1966-cı ildə "Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 15 mart 1967-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona tarix elmləri namizədi elmi dərəcəsi, 11 dekabr 1975-ci ildə dosent elmi adı verilib. ADPİ-nin SSRİ tarixi kafedrasında baş müəllim, baş elmi işçi –doktorant (1974-1976), dosent (1975- 1981) vəzifələrində çalışıb.

1981-ci ildə "Azərbaycanda kütləvi-siyasi təşkilatlar 1917-1918)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 19 mart 1982-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona tarix elmləri doktoru elmi dərəcəsi, 3 fevral 1984 -cü ildə professor elmi adı verilib. 1982-1991-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Siyasi tarix kafedrasında professor (1981-1984) və müdir (1985-1991) vəzifələrində işləyib.

1991-1997-ci illərdə Bakı Dövlət Universitetinin Lənkəran filialının təşkilatçısı və direktoru (sentyabr 1991 - iyul 1992), Lənkəran Dövlət Universitetinin qurucusu və ilk rektoru (iyul 1992 - iyul 1997) olub. 1990-cı ildə Azərbaycan Respublikasının xalq deputatı seçilmişdir. 1992-ci ildən Vahid Azərbaycan Milli Birlik Partiyasının sədridir. 50 nəfərdən artıq tədqiqatçı onun elmi rəhbərliyi, rəyi və elmi məsləhətçiliyi ilə doktorluq və namizədlik dissertasiyası müdafiə etmişdir. 3 monoqrafiyanın, 100-dən çox elmi məqalənin müəllifidir.

Məhəmməd Alı oğlu Balayev
fəlsəfə elmləri doktoru, professor
Əməkdar müəllim
(1938-2020)

1 iyun 1938-ci ildə Qazax rayonunun Musaköy kəndində anadan olub. 1946-1953-cü illərdə Musaköy 7 illik məktəbində, 1953-1956-cı illərdə Qazax şəhər 1 nömrəli orta məktəbdə oxuyub. 1956-1961-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix-filologiya fakültəsində ali təhsil alıb. 1961-1962-ci illərdə Yardımlı rayonu Arus kənd orta məktəbində, 1962-1964 -cü illərdə Bakı şəhərində Nərimanov rayonu 1 №-li fəhlə - gənclər məktəbində və 83 №-li orta fəhlə-gənclər məktəbində tarix, dil və ədəbiyyat fənlərindən dərs deyib.

1964-1967-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda Elmi ateizm ixtisası üzrə əyani aspirantura təhsili alıb. 1970-ci ildə "Azərbaycanda müqəddəslərə pərəstiş qalıqları" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fəlsəfə elmləri namizədi elmi dərəcəsi alıb. 1967-1973-cü illərdə Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi vəzifəsində işləyib. 1973-cü ilin sentyabr ayında müsabiqə yolu ilə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fəlsəfə kafedrasına baş müəllim vəzifəsinə seçilib. 1973-1990-cı illərdə ADPİ-də partiya maarifi sistemində siyasi dərs deyib. 1982-1991-ci illərdə Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsinin ştatdankənar mühazirəçisi olub. 1977 -ci ildə ADPİ-nin Fəlsəfə kafedrasında dosent vəzifəsinə seçilib. Həmin kafedrada qrup partiya təşkilat katibi (1978-1991), Respublika və Bakı şəhər "Bilik" cəmiyyətinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvü olub.

1992-ci il may ayının 25-də Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasında "İslam: mənşəyi, təkamülü və ictimai-siyasi həyatda rolu (problemin siyasi aspekti)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsi alıb. 2004-cü ildə ADPİ-nin Fəlsəfə kafedrasına professor vəzifəsinə seçilib. Müxtəlif illərdə ADPİ-nin Fəlsəfə kafedrasına (1993- 1999; 2007- 2017) rəhbərlik edib. 1999-2007-ci illərdə Fəlsəfə kafedrasında, 2017-2020-ci illərdə Fəlsəfə və sosial elmlər kafedrasında professor vəzifəsində çalışıb.

1968-1974-cü illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda, 1999-2010-cu illərdə Azərbaycan Beynəlxalq Universitetində, 1996-

2000-ci illərdə Pedaqoji Universitetin Şamaxı filialında, 2008-2010-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasında əvəzçiliklə dərs deyib. 1990-1993-cü illərdə Məktəbəqədər fakültənin (qiyabi şöbəsinin) dekan müavini vəzifəsində çalışıb. 2000-2020-ci illərdə Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasında əvəzçiliklə professor vəzifəsində çalışıb. Magistraturada "Siyasi partiyalar və elektral siyasət" və "Demoqrafik problemlərin tədqiqinin xüsusiyyətləri" və "Sosial sistemlər və proseslər" fənlərindən mühazirə oxuyub. 9 kitabın, 24 fənn proqramının, 100-dən artıq elmi məqalənin müəllifidir.

Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasında və AMEA-nın Fəlsəfə İnstitutunda Dissertasiya Şurasının üzvü olub. 12 dissertasiya işinin müdafiəsində rəsmi opponent kimi çıxış edib.

Elmi və pedaqoji uğurlarına Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ona Əməkdar müəllim fəxri adı verilib. ADPU-da keçirilən "İlin alimi" müsabiqəsinin qaliblərindən (2012) biri olub. Anadan olmasının 70 və 80 illiyi münasibəti ilə ADPU-nun rəhbərliyi tərəfindən "Təşəkkürnamə" ilə təltif edilib.

2 mart 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Aydın Əhməd oğlu Şirinov

fəlsəfə elmləri namizədi, professor
(1938)

21 mart 1938-ci ildə Qəbələ rayonunun Həmzəli kəndində anadan olub. İlk təhsilini Həmzəli kənd məktəbində, orta təhsilini Bum kənd məktəbində alıb.1955-1959-cu illərdə təsərrüfatda çalışıb və hərbi xidmətdə olub. 1959-1964-cü illərdə ADPİ-nin Tarix-filologiya fakültəsində təhsil alıb. 1964-1965-ci illərdə Qəbələ rayon Əmirvan kənd məktəbində müəllim, 1965-1966-cı illərdə Bakı şəhərindəki 23 №-li peşə-texniki məktəbində tərbiyəçi-müəllim işləyib. 1964-1968-ci illərdə Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasında qiyabi təhsil alıb. 1965-ci ildən ADPİ-nin Fəlsəfə kafedrasında saathesabı müəllim, 1966-cı ildə kabinə müdiri, 1967-1977-ci illərdə baş müəllim, 1977-1991-ci illərdə

dosent, 1991-2004-cü illərdə professor, 2004-2007-ci illərdə professor-məsləhətçi vəzifəsində işləyib.

31 noyabr 1973-cü ildə Azərbaycan EA-nın İctimai elmlər bölməsinin Şurasında "V.İ.Leninin əsərlərində elmi kommunizm nəzəriyyəsinin inkişaf etdirilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 10 iyul 1974-cü ildə fəlsəfə elmləri namizədi elmi dərəcəsi, 27 sentyabr 1978-ci ildə Fəlsəfə kafedrası üzrə dosent elmi adı verilib.

1981-1984-cü illərdə Riyaziyyat fakültəsinin tərbiyə işləri üzrə dekan müavini olub. 1991-ci ildə ona professor elmi adı verilib.

2004-cü ildən AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. 4 monoqrafiyanın, dərslik və dərs vəsaitinin, 150-dən artıq elmi məqalənin müəllifidir. Tədqiqatları əsasən sosial fəlsəfə problemlərini əhatə edir.



Ağazeynal Alı oğlu Qurbanzadə

coğrafiya elmləri doktoru, professor

(1938)

12 mart 1938-ci ildə Astara şəhərində anadan olub.1945-1955-ci illərdə Astara şəhərindəki M.Ə.Sabir adına orta məktəbdə, 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Geoloji-coğrafiya fakültəsinin coğrafiya şöbəsində təhsil alıb. 1962-1968-ci illərdə Astara rayonunun Şahağac kənd məktəbində, Astara şəhər internat və M.Ə.Sabir adına orta məktəbində coğrafiya müəllimi işləyib. 1968-1971-ci illərdə ADU-nun İqtisadi coğrafiya kafedrasının əyani aspirantı olub. 1973-cü ildə "Arazboyu regionunda kənd təsərrüfatının ərazi təşkilinin coğrafi tədqiqi" mövzusunda ADU-nun Elmi şurasında dissertasiya müdafiə edərək coğrafiya elmləri namizədi elmi dərəcəsi alıb. 1971-1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və onun tədrisi metodikası kafedrasında baş müəllim, dosent vəzifələrində işləyib. 1996-2003-cü illərdə Lənkəran Dövlət Universitetinin Coğrafiya və ekologiya kafedrasına rəhbərlik etmişdir. Onun təşəbbüsü ilə ilk dəfə LDU-nun nəzdində Təhsil Nazirliyinin sərəncamı ilə "Coğrafi ekologiya" laboratoriyası təşkil olunmuşdur.

2003-cü ildə Azərbaycan Kooperasiya Universitetinin Ekologiya və coğrafiya kafedrasına rəhbərlik etmişdir. Hazırda həmin kafedranın professorudur. 2006-cı ildə AMEA-nın Coğrafiya İnstitutunun nəzdindəki Dissertasiya Şurasında "Azərbaycan Respublikasının aqrar funksional strukturunun ərazi təşkili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. AAK-nın qərarı ilə 2012-ci ildə ona professor elmi adı verilmişdir. Uzun müddət BDU-nun Coğrafiya fakültəsində mühazirələr oxumuşdur. Bakıda və xaricdə nəşr edilən 12 dərslik və dərs vəsaitinin, elmi-kütləvi kitabların və onlarla məqalənin müəllifidir. Əsərlərinin ümumi həcmi 250 çap vərəqi həcmindən artıqdır. "Təbiətşünaslıq, "İnsanşünaslıq", "Regionologiya", "Dialektik coğrafiya", "Tibbi coğrafiya", "Analitik coğrafiya" və "Elmi-tədqiqata giriş" kitablarının müəllifidir. Beynəlxalq simpozium, konfrans və coğrafiya cəmiyyətlərinin qurultaylarında elmi məruzələrlə çıxış etmişdir. AMEA-nın Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür. Elmi rəhbərliyi ilə 2 nəfər fəlsəfə doktoru yetişmişdir.

Musa Səməd oğlu Həsənov

tarix elmləri doktoru, professor

(1939)

2 sentyabr 1939-cu ildə Tovuz rayonunun Qaraxanlı kəndində ziyalı ailəsində anadan olub. 1947-1957-ci illərdə Xatınlı kənd orta məktəbində, 1957-1962-ci illərdə ADU-nun Tarix fakültəsində, 1962-1965-ci illərdə Moskva Dövlət Universitetinin aspiranturasında təhsil alıb. 1965-ci ildə Moskva Dövlət Universitetinin Elmi Şurasında "SSRİ və Qərb dövlətlərinin hamılıqla və tamamilə tərksilah məsələsinə dair mövqeləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alıb. 1965-1966-cı illərdə Azərbaycan Sovet Ensiklopediyasında şöbə müdiri vəzifəsində çalışıb. 1967-2017-ci illərdə Pedaqoji İnstitutda çalışıb. 1967-1970-ci illərdə ADPİ-nin Ümumi tarix kafedrasında baş müəllim, 1970- 1973-cü illərdə dosent, 1973-1978-ci illərdə Tarix fakültəsinin qiyabi şöbəsinin dekanı olub.

Musa Həsənov 1990-cı ildə BDU- da ixtisaslaşmış Müdafiə Şurasında "SSRİ - Qərb və Avropa təhlükəsizliyi" mövzusunda doktorluq dissertasiyası

müdafiə edib. 1991-ci ildə ADPU-nun Ümumi tarix kafedrasının professoru seçilib. Beynəlxalq münasibətlər və diplomatiya tarixi ilə bağlı Musa Həsənovun Türkiyə, Moskva və Bakıda 10 kitabı, elmi məcmuələrdə və jurnallarda 200-dən artıq məqaləsi nəşr edilmişdir. Onun "Tərk-silah bəşəriyyətin idealıdır" (1965) monoqrafiyası Moskvada,"Qərb sivilizasiyası nümunə ola bilər" (1997) monoqrafiyası Atatürk Ərzurum Universitetində çap olunub. 2000-ci ildə "Elm" nəşriyyatında "Avropa təhlükəsizliyi problemləri" adlı kitabına görə Almaniyanın Mərkəzi Tarix Cəmiyyətinə üzv seçilib. "Almaniya məsələsinin həlli və Avropa təhlükəsizliyi" (1992), "Avropada 1848-1849-cu il inqilabları" (1993), "Helsinki müşavirəsi. Yekun aktın həyata keçirilməsi problemləri" (2005), "Avropa və Amerika ölkələrinin yeni tarixi" (2000) adlı kitabların müəllifidir.

Pedaqoji və elmi kadr hazırlığında xidmətləri olub. Elmi rəhbərliyi ilə 4 nəfər namizədlik dissertasiyası müdafiə edib. AMEA-nın Tarix İnstitutunda və BDU-da tarix ixtisası üzrə Müdafiə Şurasının üzvü olub.

İslam Şamil oğlu Qarayev

iqtisad elmləri doktoru, professor
(1940- 2015)

26 noyabr 1940-cı ildə Qazax rayonunun II Şıxlı kəndində anadan olub. Orta təhsilini doğma kəndlərində alıb. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirib. 1963-1966-cı illərdə Moskva şəhərində SSRİ EA-nın İqtisadiyyat İnstitutunun aspirantı olmuş, 1966-cı ildə həmin institutda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsi alıb. 1968-1977-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutunda bölmə və şöbə müdiri, 1977-1984-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Siyasi iqtisad kafedrasında dosent, 1984-1987-ci illərdə professor vəzifəsində çalışmışdır. 1983-cü ildə doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsi alıb. 1985-ci ildə ona professor elmi adı verilib. 1987-1992-ci illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun Siyasi iqtisad kafedrasının müdiri olub. 1992-1994-cü illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunun birinci prorektoru olub. 1994-cü ilin yanvarından 2000-

ci ilin noyabrına qədər həmin institutun rektoru vəzifəsini icra edib. 2000-2015-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi kafedrasına rəhbərlik edib. Elmi kadr hazırlığında xüsusi xidmətləri olub. Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının sədri olub. Elmi rəhbərliyi ilə bir neçə nəfər namizədlik dissertasiyası müdafiə edib, MDB məkanında 20-dən çox namizədlik və doktorluq dissertasiyasının rəsmi opponenti olub. 1988-ci ilin iyul ayında Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilib. 1998-ci ildə onun rəhbərlik etdiyi Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi ABŞ-ın Milli Marketinq İnstitutu tərəfindən ən yüksək mükafata – "Qran pri" mükafatına layiq görülüb. 10 monoqrafiya, dərslik və dərs vəsaitlərinin, 170-dən çox elmi məqalənin müəllifidir. Tədqiqatlarının əsasını Azərbaycan milli iqtisadiyyatının formalaşma prinsipləri və istiqamətləri, onun nəzəri, metodoloji və praktiki məsələlərinin tədqiqi təşkil edir.

2 oktyabr 2015-ci ildə Bakı şəhərində vəfat edib.

Əli Mahmud oğlu Məmmədov

tarix elmləri doktoru, professor

(1942- 2015)

1942-ci ildə Cəbrayıl rayonunun Şahvəli kəndində anadan olmuşdur. Yeddiillik təhsilini Şahvəli kənd məktəbində (1951-1958), orta təhsilini Soltanlı kənd orta məktəbində alıb. 1961-1963-cü illərdə hərbi xidmətdə olub. 1963-1967-ci ildə Bakı şəhərindəki B.Sərdarov adına zavodda işləyib. 1967-1971-ci illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsində təhsil alıb. Salyan (1971-1974) və Abşeron (1974-1975) rayonlarında tarix müəllimi işləyib. 1975-1979-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunun Sov.İKP tarixi kafedrasının qiyabi aspirantı olub. 1976-cı ildə institutun Sov.İKP tarixi kafedrasına baş laborant, 1978-ci ildə müəllim təyin olunub. 4 noyabr 1983-cü ildə ADPİ-nin Elmi Şurasında "Azərbaycan fəhlə sinfinin istehsalın idarə olunmasında respublika partiya təşkilatının rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 13 dekabr 1988-ci ildə Sov.İKP tarixi kafedrasına do-

sent vəzifəsinə seçilib. 28 fevral 1991-ci ildə ona dosent elmi adı verilib. 1995-1998 -ci illərdə ADPİ-nin Tarix fakültəsinin dekan müavini vəzifəsində çalışıb. 2005-ci ildə AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunda "Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1980-ci illərin sonu -1997-ci il)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 22 iyun 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona tarix elmləri doktoru elmi dərəcəsi, 13 noyabr 2013-cü ildə isə professor elmi adı verilib.

"Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1980-ci illərin sonu- 1997-ci il)" (2004), "Teymur Quliyevin fəaliyyəti" adlı monoqrafiyaları, "Qərbdə və Rusiyada ictimai-siyasi hərəkatlar", "Azərbaycanda milli-azadlıq hərəkatı" adlı dərs vəsaitləri, 200-dən çox elmi və publisistik məqaləsi nəşr olunub.

9 dekabr 2015-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ağahüseyn Məhəmmədhüseyn oğlu Həsənov

pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim
(1942-2014)

10 iyun 1942-ci ildə Lənkəran rayonunun Şaqlase kəndində anadan olub. Orta məktəbi doğma kəndlərində bitirib. V.İ.Lenin adına APİ-nin (indiki ADPU) İbtidai təhsilin pedaqogika və metodikası fakültəsində oxuyub. 1962-1965-ci illərdə Şərqi Qazaxıstanda hərbi xidmətdə olub. Hərbi xidmətdən qayıtdıqdan sonra ali təhsilini uğurla başa vurub. M.Ə.Sabir adına Pedaqoji Texnikumda müəllim kimi əmək fəaliyyətinə başlayıb. Azərbaycan ETPE-nin dissertantı olub, 1988-ci ildə prof.Bəşir Əhmədovun elmi rəhbərliyi ilə "Kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən istifadənin imkan və yolları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1990-2007-ci illərdə Bakı Məktəbəqədər Pedaqoji Texnikumunun direktoru vəzifəsində çalışıb. 1999-cu ildə Bakı Dövlət Universitetində "Azərbaycan uşaq ədəbiyyatında əks olunmuş mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə üzrə işin sistemi" mövzusunda dok-

torluq dissertasiyası müdafiə edib. Azərbaycan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının professoru olub. 2007-2014-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi pedaqogika kafedrasının professoru vəzifəsində çalışıb.

2000-2004-cü illərdə Səbail, 2004-2007-ci illərdə Nərimanov rayonunun YAP siyasi şurasının üzvü, 1995-2007-ci illərdə Bakı Məktəbəqədər Pedaqoji Texnikumunun YAP ilk təşkilatının sədri olub. YAP-ın I, II, III, Azərbaycan müəllimlərinin XII və Dünya Azərbaycanlılarının I qurultayında iştirak edib. 2002-2014-cü illərdə Azərbaycan Yazıçılar Birliyinin üzvü olub.

Onun "Kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsi" (1987), "Ailədə uşaqların əxlaq tərbiyəsi" (1990, şərikli), "Azərbaycan uşaq ədəbiyyatında əks olunmuş mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə" 1997), "Məktəbəqədər pedaqogika" (2000), "Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı" (2001, I cild, şərikli), "Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı" (2002, II cild, şərikli), "Pedaqogika" (2007, şərikli), "Milli-mənəvi dəyərimiz" (2010) adlı kitabları və 100-dən artıq elmi məqaləsi nəşr olunub.

Təhsil Problemləri İnstitutunda və ADPU-da Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olub. Müxtəlif vaxtlarda ayrı-ayrı təşkilatlar tərəfindən fəxri fərmanlarla və diplomlarla təltif olunub. 2005-ci ildə ona Əməkdar müəllim fəxri adı verilib.

22 fevral 2014-cü ildə Bakı şəhərində vəfat edib.

İramin Namaz oğlu İsayev

pedaqogika üzrə fəlsəfə doktoru, professor
(1942)

1 dekabr 1942-ci ildə Qazax rayonunun Daş-Salahlı kəndində anadan olub, 1949-1959-cu illərdə Daş-Salahlı kənd orta məktəbində 1959-1963-cü illərdə V.İ.Lenin adına ADPİ-nin İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsində təhsil alıb. Təyinatla Qasım İsmayılov (indiki Goranboy rayonu) rayonunda pedaqoji fəaliyyətə başlayıb. 1963-1965-ci illərdə hərbi xidmətdə olub. 1965-1968-ci illərdə Sumqayıt şəhər 8 №-li məktəbdə müəllim işləyib. ADPİ-də pedaqoji fəaliy-

yətə İbtidai təhsil pedaqogikası və metodikası kafedrasında baş laborant kimi başlamışdır. 1968-1971-ci illərdə ADPİ-nin Ümumi pedaqogika kafedrasının pedaqogika tarixi və nəzəriyyəsi ixtisası üzrə əyani aspirantı olub. 1972-ci ildə həmin kafedraya müəllim təyin edilib. prof.Ə.Seyidovun elmi rəhbərliyi ilə 1974-cü ildə "A.Səhhətin təlim və tərbiyə haqqında fikirləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1975-ci ildə Ümumi pedaqogika kafedrasına baş müəllim, 1984-cü ildə dosent, 2009-cu ildə professor vəzifəsinə seçilib. ADPU-nun Pedaqoji fakültəsinin dekan müavini (1982-1991) və qiyabi şöbəsinin dekanı (1992-1996) vəzifələrində işləyib, 2014-cü ildə Ümumi pedaqogika kafedrasına müdir seçilib. Tarix və coğrafiya fakültəsinin Elmi Şurasının, fakültə Tədris Metodiki Şurasının və Universitet Elmi Şurasının üzvüdür. 12 monoqrafiya, dərs vəsaiti, metodik göstəriş və kitabın, 200-dən çox elmi-publisistik məqalənin müəllifidir. 30-dan çox proqramın redaktoru və ya müəllifidir. Onun tədqiqat obyekti əsasən Azərbaycan məktəb və pedaqoji fikir tarixi ilə bağlıdır. O, "Azərbaycan məktəb və pedaqoji fikir tarixi. I hissə." (rus dilində) (şərikli, 1991), "Pedaqogika" (şərikli, 1993, 2003, 2006), "M.V.Vidadinin, M.P.Vaqifin, Q.B.Zakirin təlim-tərbiyə haqqında fikirləri (şərikli, 1994), "Pedaqoji irsimizdən: M.V.Vidadi, M.P.Vaqif, Q.B.Zakir" (şərilki, 2013), "A.Səhhət və xalq maarifi" (2001), "A.O.Çernyayevskinin maarifçilik fəaliyyətinin tədqiqi tarixindən" (2010), "Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək" (2014) kitablarının müəllifidir. Moskvada nəşr olunan "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinin oçerkləri" (1991) kitabının Azərbaycanla bağlı yazılmış fəslin və "Azərbaycan pedaqoji fikir antologiyası"nın (1990) hazırlanmasında iştirak edib.

Akademik H.Əhmədovun "Seçilmiş pedaqoji əsərlər"inin IX (Azərbaycan dilində) və IX (rus dilində) cildlərinin (2006), «Müasirləri Hüseyn Əhmədov haqqında» adlı VII və VIII kitablarının (2006), Əjdər Ağayevin "Seçilmiş pedaqoji əsərləri"nin II cildinin (2013) tərtibçisidir. O, 20-yə yaxın kitab və kitabçanın, dərslik və dərs vəsaitinin elmi redaktoru və ya rəyçisi olub, bir neçə kitaba "Ön söz" yazıb. N.Tusinin əxlaqi-mənəvi dəyərlərlə bağlı məqaləsi Tomson reytinq indeksli jurnalda nəşr edilib. ABU-nun «Xəbərlər» (pedaqoji-psixoloji elmlər seriyası) jurnalının redaktor müavini və "ADPU-nun Xəbərləri" nin redaksiya heyətinin üzvü olub. O, 1986-cı ildən 1994-cü ilə qədər ADPU-da pedaqoji elmlər üzrə fəaliyyət göstərən Müdafiə Şurasının elmi katibi olmuşdur. 2009-2018-ci illərdə ADPU-da fəaliyyət göstərən FD.02.061 Dissertasiya Şurasının üzvü olub. Onun elmi rəhbərliyi ilə 7 nəfər namizədlik dissertasiyası müdafiə edib. "Qabaqcıl təhsil işçisi" döş nişanına (2015), "Avropa Nəşr Mətbuat Evi"nin qızıl medalına, "Azərbaycan bayrağı" (2011) və "Qızıl Qələm" (2012) media mükafatlarına və diplomlarına layiq görülmüşdür.

Mübariz Mirəziz oğlu Əmirov
pedaqogika üzrə elmlər doktoru, professor
(1947)

15 mart 1947-ci ildə Dəvəçi (indiki Şabran) rayonunda ziyalı ailəsində anadan olub. 1954-1965-ci illərdə Dəvəçi şəhər 1 №-li orta məktəbində orta təhsil, 1969-1973-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix fakültəsində ali təhsil alıb. 1973-1974-cü tədris ilində Dəvəçi rayonu Baş Əmirxanlı kənd orta məktəbində tarix müəllimi, eyni zamanda axşam fəhlə - gənclər orta məktəbinin direktoru, 1974-1975-ci tədris illərində Dəvəçi rayonu Surra kənd məktəbində direktor müavini işləyib. 1975-1978-ci illərdə Azərbaycan ETPEİ-nin əyani aspiranturasında (hüququn tədrisi metodikası ixtisası üzrə) təhsil alıb. 1978-1985-ci illərdə Azərbaycan ETPEİ-də kiçik elmi işçi işləyib. 1985-ci il mayın 5-də prof.Murtuz Ələsgərovun və prof.Əjdər Ağayevin rəhbərlikləri ilə Tbilisi Pedaqoji İnstitutunda "Hüquqi biliklərin verilməsi prosesində şagirdlərin müstəqil işlərinin təşkili" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1985-1999-cu illərdə Təhsil İnstitutunun Tarix coğrafiya və hüququn tədrisi metodikası şöbəsinə rəhbərlik edib. 1986-2014-cü illərdə ADPU-nun Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının dosenti olub. 2008- ci ildə "Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi" mövzusunda dissertasiya müdafiə edərək pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi alıb. 2014-cü ildən həmin kafedranın professorudur.

O, Tarix və coğrafiya fakültəsinin Tədris Metodiki Şuranın sədri, Fakültə elmi şurasının üzvüdür. ADPU-da fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü (2009-2016) və Dissertasiya Şurasının nəzdindəki elmi seminarın sədri (2014-2016) olub.

"Tarix, insan və cəmiyyət fənlərinin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması" (1994), "İnsan və cəmiyyət" (1994), "Azərbaycan Respublikası Konstitusiyasının əsasları" (şərikli) (2002), "İnsan hüquqlarının tədrisi" (2003), "Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi" (2004), "Orta məktəbdə tarixin tədrisinin aktual problemləri" (2009), "İnsan və cəmiyyət" (2010), "Orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası" (2011) dərslik və dərs vəsaitlərinin,

200-ə yaxın jurnal və qəzet məqaləsinin müəllifidir. O, çoxsaylı beynəlxalq seminar, simpozium və konfransların iştirakçısı olmuşdur. Onun elmi rəhbərliyi ilə 5 nəfər pedaqogika üzrə fəlsəfə doktoru yetişmişdir.

Mais İsrail oğlu Əmrahov
tarix üzrə elmlər doktoru, professor
(1948)

1948-ci il mayın 2-də Şəki rayonunun Cəfərabad kəndində anadan olmuşdur. 1962-ci ildə Cəfərabad kənd məktəbinin VIII sinfini, 1966-cı ildə Şəki Pedaqoji Texnikumunu "İbtidai sinif müəllimi" ixtisası üzrə bitirmişdir. 1966-1970-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix fakültəsində təhsil almışdır.1970-1973-cü illərdə Şəki rayonunun Cəfərabad kənd məktəbində tarix müəllimi, 1973-1979-cu illərdə Göybulaq kənd məktəbində direktor, 1979-1989-cu illərdə Şəki Şəhər Partiya Komitəsinin Təbliğat və təşviqat şöbəsində təlimatçı, şöbə müdirinin müavini, şöbə müdiri, 1989-1991-ci ildə Şəki şəhərindəki 43 № li texniki peşə məktəbində direktor, 1991-1992-ci illərdə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Şəki filialında metodist və kabinet müdiri, 1992-1994-cü illərdə Şəki Şəhər Təhsil Şöbəsində metodist və inspektor, 1994-1998-ci illərdə Şəki Şəhər İcra Hakimiyyətində məsləhətçi və ümumi şöbə müdiri, 1999-2000-ci illərdə Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun Şəki filialında metodist və kabinet müdiri, 2000-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Respublika Elmi-Metodiki Mərkəzində böyük metodist, 2001-2007-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında "Pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması" kabinetinin müdiri, 2007-2009-cu illərdə əlavə təhsil üzrə direktor müavini işləmişdir. 1979-1988-ci illərdə Şəki Şəhər Partiya Komitəsinin üzvlüyünə namizəd və üzv, 1979-1990-cı illərdə Şəki Şəhər Xalq Deputatları Sovetinin deputatı olmuşdur.

1977-1981-ci illərdə ADPU-nun Azərbaycan tarixi kafedrasının qiyabi aspirantı olmuş, 1984-cü ildə "Böyük Vətən müharibəsi illərində Azərbaycanda xalq maarifi (1941-1945-ci illər)" mövzusunda namizədlik, 2006-cı ildə "Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində" mövzusunda

doktorluq dissertasiyası müdafiə etmişdir. 150 elmi əsərin, o cümlədən 8 monoqrafiyanın, 4 dərsliyin, 6 dərs vəsaitinin, 7 metodiki vəsaitin, 6 proqramın və 3 tezisin müəllifidir. O, "Azərbaycan Respublikası ümumi təhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramının müəlliflərindəndir. 1979-cu ildə "Qabaqcıl maarif xadimi", 2012-ci ildə "Qabaqcıl təhsil işçisi" döş nişanları, 2018-ci ildə Azad Təhsil İşçiləri Respublika Komitəsinin və ADPU rektorluğunun Fəxri fərmanları ilə təltif olunmuşdur.

12 elmi əsəri Rusiya Federasiyasının nüfuzlu jurnallarında çap edilmiş, 2004-cü il aprel ayının 5-də Sankt - Peterburqda keçirilən "Педагогика ненасилия" mövzusunda XXV Beynəlxalq elmi-praktik konfransın, 2010-cu il oktyabr ayının 18-20-də Moskvada keçirilən "Современные проблемы гуманитарных и естественных наук" və 2011-ci ilin may ayının 24-də Novosibirskdə keçirilən "Наука и современность-2011" mövzusunda XI Beynəlxalq elmi-praktik konfransların iştirakçısı olmuş, 17-19 oktyabr 2012-ci il tarixlərində Azərbaycan-Avropa Cəmiyyətinin Bakı şəhərində keçirdiyi "Azərbaycanın II Dünya müharibəsində və Qafqazda Holokostun önlənməsində rolu" mövzusunda Beynəlxalq simpoziumda "II Dünya müharibəsi illərində dünya xalqlarının faşizm əsarətindən azad olunmasında azərbaycanlıların rolu", VII Beynəlxalq türk mədəniyyəti, incəsənəti və mədəni irsin mühafizəsi (VII İnternational Turkic culture, art and protection of cultural neritage symposium) simpoziumunda "Türklərdə dövlətin yaranması və torpaq mülkiyyətinin formaları probleminə dair" mövzularında məruzə ilə çıxış etmiş, 2017-ci ilin 12-14 sentyabrında keçirilən "Şərq və Qərb türklüyünün ortaq dövrləri və münasibətləri" mövzusunda keçirilən Beynəlxalq konfransda bölmə rəhbəri olmuşdur.

2009-2019-cu illərdə ADPU-nun Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının professoru olmuşdur. 2010-cu ildə ADPU-da keçirilən "İlin müəllimi" müsabiqəsində I yeri, "İlin alimi" müsabiqəsində 2012-ci ildə II yeri, 2014-cü ildə III yeri tutmuşdur.

Elmi rəhbəri ilə 4 nəfərin elmi rəhbəri, 7 nəfərin dissertasiya işinin rəsmi opponenti, 2010-2012-ci illərdə Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, 2012-2017-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın Tarix və siyasi elmlər Ekspert Şurasının üzvü olmuşdur.

Hazırda AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda şöbə müdiri vəzifəsində çalışır. İnstitutun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının və "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi"nin redaksiya heyətinin üzvüdür.

Ənvər Cümşüd oğlu Seyidov
hüquq elmləri doktoru, professor
(1949)

29 mart 1949-cu ildə Oğuz rayonunun Vartaşen kəndində anadan olub. 1956-1964-cü illərdə Vartaşen kəndindəki 2 №-li məktəbdə oxuyub. Ailə vəziyyəti ilə əlaqədar olaraq Bakı şəhərinə köçən Ənvər Seyidov 49 №-li orta məktəbi bitirib. 1966-1968-ci illərdə Bakı şəhərində Rabitə-Elektro Texnikumunda təhsil alıb. 1968-1972-ci illərdə Bakı poçtamtında müxtəlif vəzifələrdə çalışıb. 1969-1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb. 1972-ci ildə Azərbaycan Ədliyyə Nazirliyi sistemində işə başlamaqla respublika VVA Arxivinin müdiri, Notariat və VVA İdarəsinin baş məsləhətçisi, Zaqatala və Cəlilabad rayon məhkəmələrinin hakimi, Cəlilabad Rayon Məhkəməsinin sədri vəzifəsində işləmişdir.1990-2000-ci illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsində çalışıb. 2000-2019-cu illərdə Ağır cinayət işləri üzrə Azərbaycan Respublikası Məhkəməsində hakim vəzifəsində çalışıb. 1975-1977-ci illərdə Azərbaycan KP MK yanında Marksizm-Leninizm Universitetinin fəlsəfə bölməsini, Moskva şəhərində SSRİ Ədliyyə Nazirliyinin Hüquqşünasları Təkmilləşdirmə İnstitutunda rəhbərlər hazırlayan kursu bitirib.

Zaqatala (1979-1982) və Cəlilabad (1985-1995) şəhər və rayon sovetlərinin deputatı olub. 1994-1999-cu illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Kommissiyasının təftiş qrupunun rəhbəri olub.

15 aprel 2004-cü ildə ADPU-nun İqtisadiyyat və sosial fənlər kafedrasına baş müəllim təyin olunub. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən 29 iyun 2004-cü ildə ona hüquq elmləri üzrə fəlsəfə doktoru, 28 oktyabr 2008-ci ildə dosent elmi adı verilib. 5 dekabr 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona hüquq elmləri doktoru elmi dərəcəsi verilib.

"Azərbaycan Respublikasında beynəlxalq normaların tətbiqi" (2003), "Konstitusiya və hüququn əsasları", "Hüququn əsasları" (2008), "Heydər Əliyev və Azərbaycan Konstitusiyası" (2008) dərsliklərinin müəllifidir.

1997-ci ildən "Əsilzadələr Məclisinin" üzvüdür. "Ünvansız eşq" "Tələtüm" və "Gürzə" romanlarının və 6 filmin ssenari müəllifidir."Qızıl Qələm", "Qızıl Qılınc" və müxtəlif media mükafatlarına layiq görülmüşdür.

Hazırda Fəlsəfə və sosial fənlər kafedrasının professorudur.

Qasım Əhəd oğlu Hacıyev
tarix elmləri doktoru
(1950)

6 avqust 1950-ci ildə Bərdə rayonunun Hacallı kəndində anadan olub. 1957-1967- ci illərdə Hacallı kənd məktəbində, 1970-1974-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Tarix fakültəsində təhsil alıb. 1974-1983-cü illərdə Bərdə rayonunun 1 №-li Hacallı kənd məktəbində müəllim və direktor müavini işləyib. 1984-1987-ci illərdə Azərbaycan EA-nın Tarix İnstitutunun aspiranturasında təhsil alıb. 1990-cı ildə Kemerovo Dövlət Universitetinin İxtisaslaşdırılmış Müdafiə Şurasında "Şabran şəhərinin şüşə sənətkarlığı (IX-XVII əsrlər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alıb. 1990-1997-ci illərdə Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya bölməsində elmi işçi, baş elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 1997-ci ildən Tarix İnstitutunda aparıcı elmi işçi, Qarabağ tarixi şöbəsinin müdiri (2003-2018) vəzifələrində işləyib. 2006-cı ildə "Bərdə şəhərinin tarixi (e.ə.III əsr-b.e.XVIII əsr)" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2018-ci ildən AMEA-nın Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri vəzifəsində çalışır.

1992-2009-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsində dosent vəsifəsində çalışıb, arxeologiyadan, türk xalqları tarixindən mühazirələr oxuyub. Fakültə TEC-nin sədri (1993) olub. Təhsil aldığı fakültədə Yekun Dövlət Attestasiya Komissiyasının sədri olub. 5 monoqrafiya, 5 kitab, 160 elmi məqalənin müəllifidir. Xarici ölkələrin nüfuzlu elmi jurnallarında 15-dən artıq elmi məqaləsi nəşr olunub.

Rüfət Lətif oğlu Hüseynzadə
pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim
(1951)

1951-ci ildə Naxçıvan şəhərində müəllim ailəsində doğulmuşdur. 1956-1967-ci illərdə Naxçıvan şəhər 1 №-li orta məktəbində oxumuşdur. 1971-ci

ildə ADPU-nun Pedaqoji fakültəsini bitirmişdir. 1971-1974-cü illərdə Abşeron rayonunda müəllimlik etmişdir. 1974-1983-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunda tərbiyə işləri metodkabinetində metodist, 1983-2000-ci illərdə Pedaqogika kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. 1983-cü ildə pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisası üzrə "Şagirdlərin bilik keyfiyyəti uğrunda mübarizəsində pioner təşkilatının fəaliyyət sistemi" namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

2000-2002-ci illərdə AMİ-də Əlavə təhsil üzrə rəhbər pedaqoji kadrlar fakültəsinin, 2002 -2008 -ci illərdə ilkin müəllim kadrları hazırlığını həyata keçirən Pedaqogika və filologiya fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

2007-ci ildə "Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafı (VII-XI əsrlər)" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər doktoru elmi dərəcəsini almışdır.

2008-2016-cı illərdə AMİ-nin Pedaqogika kafedrasının müdiri olmuşdur. Hazırda ADPU-nun Ümumi pedaqogika kafedrasının professoru vəzifəsində çalışır. Əsas tədqiqat sahəsi qədim və orta əsrlər dövründə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir tarixidir. Əsərləri ölkəmizdə nəşr edilən nüfuzlu jurnallarda, həmçinin Rusiya və Türkiyədə nəşr edilmişdir.

15 monoqrafiya, kitab, dərslik və dərs vəsaitinin, 20-yə yaxın fənn proqramının və 200-ə yaxın elmi-pedaqoji və publisistik məqalənin müəllifidir. Pedaqogikanın nəzəriyyəsi və tarixi, təhsilin təşkili və idarəedilməsi ilə bağlı mühazirə və seminar məşğələləri aparır.

Elmi-pedaqoji kadr hazırlığında fəal iştirak edir, doktorantlara, magistrantlara elmi rəhbərlik edir, Dissertasiya Şurasının üzvü və rəsmi opponent kimi çıxışlar edir. Bir neçə jurnalın redaksiya heyətinin üzvüdür. Beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslarda, simpoziumlarda fəal iştirak edir. Müxtəlif media mükafatlarına layiq görülmüşdür.

2009-cu ildə Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

Əli Qulu oğlu Allahverdiyev
iqtisad elmləri doktoru, professor
(1952-2021)

22 mart 1952-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində anadan olub. 1959-1969-cu illərdə Cil kənd orta məktəbində, 1969-1974-cü illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb.

Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili nazirinin əmri ilə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Siyasi iqtisad kafedrasına laborant təyin olunub.

1974-1975-ci illərdə hərbi xidmətdə olub. Siyasi iqtisad kafedrasında laborant (1975-1980), assistent, baş müəllim (1980-1991), dosent (1992-2011), professor (2011-2012) vəzifələrində işləyib.

1988-ci ildə Daşkənd şəhərində "İctimai istehsalın iki bölməsinin arasındakı nisbətin təkmilləşdirilməsi və səmərəliliyin artırılması" mövzusunda" namizədlik dissertasiyasını müdafiə edib. 22 fevral 1989-cu ildə SSRİ AAK-ı ona iqtisad elmləri namizədi elmi dərəcəsi verib.

17 fevral 1992-ci ildə İqtisadi nəzəriyyə kafedrası üzrə ona dosent elmi adı verilib. 1997-2012-ci illərdə İqtisadi və sosial fənlər kafedrasında müdir vəzifəsində çalışıb. 2005-ci ildə "Bazar iqtisadiyyatına keçid şəraitində makroiqtisadi dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona 12 yanvar 2007-ci ildə iqtisad elmləri doktoru, 30 sentyabr 2011-ci ildə isə İqtisadi və sosial fənlər kafedrası üzrə professor elmi adı verilib. 2012-2015-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Quba filialının, 2015-2019-cu illərdə ADPU-nun Quba filialının direktoru vəzifəsində çalışmışdır. 18 sentyabr 2019-cu ildən ömrünün sonuna kimi ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1 monoqrafiyanın, 70-dən artıq elmi əsərin müəllifidir.

Həsən Bayram oğlu Bayramov
pedaqoji elmlər doktoru, professor
(1953)

1 may 1953-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalında - Krasnoselsk rayonunun Toxluca kəndində anadan olub. 1961-1970-ci illərdə Toxluca kənd orta məktəbində oxuyub. 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində oxuyub. Ümumittifaq komsomolunun "Əla təhsilə görə" döş nişanı ilə təltif olunub (1973). Aspiranturada saxlanması ilə bağlı fakültə Elmi Şurasının qərarının olmasına baxmayaraq doğma kəndlərinə qayıdıb. 1975-1980-ci illərdə Şorca və Toxluca kənd orta məktəblərində müəllim işləyib. Toxluca kəndində müəllim, direktor müavini, raykom hüquqlu sovxoz komsomol komitəsinin katibi, qəsəbə sovetinin sədri vəzifələrində çalışıb, 1984-1988-ci illərdə ADPİ-nin pedaqogika kafedrasının qiyabi aspirantı olub.- Müsabiqə yolu ilə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna müəllim seçilib. 1988-ci ildə azərbaycanlıların Ermənistandan deportasiya olunması ilə əlaqədar olaraq ailəsi Bakıya köçməli olub. H.Bayramov da Naxçıvan Dövlət Pedaqoji İnstitutundan ADPİ-nin "Şagirdlərin peşəyönümü" elmi-tədqiqat laboratoriyasına kiçik elmi işçi vəzifəsinə dəyişdirilib.

"Azərbaycan sovet pedaqoji elminin təşəkkülü və inkişafı (1920-1931-ci illər)" mövzusunda namizədlik (1989), "Çar Rusiyasının Azərbaycandakı təhsil siyasətinin əsas istiqamətləri" mövzusunda doktorluq (2016) dissertasiyası müdafiə edib. 1990-2014-cü illərdə ADPU-nun pedaqogika kafedrasının müəllimi və dosenti vəzifələrində çalışıb. 2017-ci ildən Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının professorudur.ABU-da fakültə dekanı və və tərbiyə işləri üzrə prorektor vəzifəsində işləmişdir. Uzun müddət Azərbaycan radiosunda siyasi icmalçı kimi fəaliyyət göstərmişdir.

15 monoqrafiya, kitab və kitabçası, 13 tədris proqramı, 200-dək elmi-publisistik məqaləsi, 20 tezisi işıq üzü görmüşdür. 35 kitabın elmi redaktoru, rəyçisi və tərtibçisi olub. Əsərləri Bakı, Moskva, Səmərqənd, Kiyev, Tbilisi, Çeboksarı, İstanbul, Astana, Almatı, Sankt-Peterburq şəhərlərinin nüfuzlu jurnallarında Azərbaycan, rus, türk, qazax dillərində, 4 məqaləsi isə ingiliscə Tomson reytinq indeksli jurnallarda nəşr edilib. O, akademik Hüseyn Əhmədovun 1990-cı ildə nəşr edilmiş biblioqrafik göstəricisinin, yenə onun "Seçil-

miş pedaqoji əsərləri”nin elmi redaktoru, rəyçisi və ya tərtibçilərindən biri olub.

2004-2006-cı illərdə ADPU-da fəaliyyət göstərən Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə Dissertasiya Şurasının üzvü olub. Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının müxbir (2001) və həqiqi üzvü (2006) seçilib. Azərbaycan Jurnalistlər Birliyinin üzvü və “Qızıl qələm” mükafatı laureatıdır.

O, ictimai-siyasi fəaliyyətinə görə Mərkəzi Seçki Komissiyasının, Binəqədi və Nərimanov rayon İcra Hakimiyyəti Başçılarının, eləcə də Yeni Azərbaycan Partiyasının hər iki rayon təşkilatlarının Fəxri Fərmanları ilə təltif edilib. 2012-ci ildən 9 №-li Binəqədi ikinci seçki dairəsi Dairə Seçki Komissiyasının sədri kimi də mühüm ictimai-siyasi vəzifə daşımaqla Respublikada uğurla aparılmış Prezident (2013, 2018), Parlament (2015,2019), Bələdiyyə (2014, 2019), seçkilərinin və Referendumun (2016) yüksək peşəkarlıqla, qüsursuz keçirilməsində mühüm xidmətlər göstərib.

Dəmir Yolu liseyinin (2014), Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru (2014-2016) olub. “Təhsil” jurnalının redaksiya heyətinin üzvüdür.

Oqtay Balaqədəş oğlu Sultanov

tarix elmləri doktoru, professor
Əməkdar müəllim
(1954)

3 noyabr 1954-cü ildə Dəvəçi rayonunun (indiki Şabran rayonu) Dağbilici kəndində anadan olmuşdur. 1960-1970-ci illərdə Dəvəçi şəhər Tofiq Abbasov adına orta məktəbdə, 1970-1974-cü illərdə ADPİ-nin Tarix fakültəsində oxumuşdur. 1974/1975-ci tədris ilində Dəvəçi rayon Sincan-boyad kənd səkkizillik məktəbində tarix müəllimi kimi əmək fəaliyyətinə başlayan Oqtay Sultanov həmin ilin sonunda Dəvəçi şəhər 2 №-li orta məktəbə köçürülmüşdür. 1977-1978-ci illərdə hərbi xidmətdə olmuşdur. 1979-1981-ci illərdə Dəvəçi rayon Xalq Maarif Şöbəsində metodist və Dəvəçi şəhər 2 №-li orta məktəbdə 0,5 ştat müəllim işləmişdir.

1981-ci ilin aprel ayında V.İ.Lenin adına ADPİ-nin Elmi kommunizm kafedrasına baş laborant təyin olunmuşdur. İctimai fənn kafedralarına vəzifə təyinatı üçün vacib şərt olan Kommunist Partiyasının üzvü olmadığına görə üç ay sonra SSRİ tarixi kafedrasına dəyişdirilmişdir. Həmin ildə kafedra üzrə elan edilmiş dissertantura yerini müsabiqə yolu ilə tutmuşdur. 6 dekabr 1985-ci ildə V.İ.Lenin adına APİ-nin nəzdindəki Müdafiə Şurasında prof.Şükür Sadıqovun elmi rəhbərliyi ilə "Azərbaycan SSR və RSFSR-in mədəni əməkdaşlığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.1989-cu ilin aprel ayında müsabiqə yolu ilə SSRİ tarixi kafedrasında müəllim, 1991-ci ildə baş müəllim vəzifəsinə seçilmişdir. SSRİ-nin iflası və müstəqil Azərbaycan dövlətinin yaradılması ilə bağlı olaraq SSRİ tarixi kafedrası ləğv edilmiş, onun kadr potensialı əsasında Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrası yaradılmışdır. Oqtay Sultanov 1993-cü ildə həmin kafedrada dosent vəzifəsinə seçilmişdir.

1996-cı ildə Bakı Dövlət Universiteti nəzdində tarix elmləri üzrə Müdafiə Şurasında "XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycanda siyasi mübarizə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 23 iyun 1997-ci ildə Türk və Şərqi Avropa xalqları tarixi kafedrasına professor vəzifəsinə seçilmişdir. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən 20 noyabr 1998-ci ildə ona professor elmi adı verilmişdir.

1999-2012-ci illərdə ADPU-nun Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının müdiri, 2007-2016 -cı illərdə Tarix fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

1999-2011-ci illərdə əvəzçiliklə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Müasir dövr tarixi şöbəsi" ndə 0,5 ştat aparıcı elmi işçi vəzifəsini icra etmişdir. İnstitutun nəzdində yaradılan tarix elmləri üzrə Müdafiə Şurasında sədr müavini və üzv kimi fəaliyyət göstərmişdir. 2005-2018-ci illərdə AMEA-nın Naxçıvan bölməsi nəzdində fəaliyyət göstərən tarix, iqtisadiyyat və arxeologiya üzrə Müdafiə Şurasının, 2016-2018-ci illərdə ADPU nəzdində pedaqoji elmlər üzrə fəaliyyət göstərən Müdafiə Şurasının üzvü olmuşdur. 2010-2016-cı illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuşdur.

Elmi rəhbərliyi ilə 13 tarix elmləri üzrə fəlsəfə doktoru, elmi məsləhətçiliyi ilə bir elmlər doktoru yetişmişdir. 10 elmlər doktoru, 9 fəlsəfə doktoru dissertasiyasının müdafiəsində opponent kimi çıxış etmişdir. 40-a yaxın monoqrafiya, elmi məqalə, tədris proqramı və metodik vəsaitin müəllifidir.

Müxtəlif illərdə keçirilən bakalavr və magistratura üzrə konfranslarda tələbə elmi işlərinə rəhbərlik etmiş, bölmə iclaslarının sədri olmuşdur. 2005-

2014-cü illərdə orta məktəb şagirdlərinin Respublika Olimpiadasında tarix fənni üzrə komissiyanın sədri olmuş, tarix üzrə bacarıqlı şagirdlərin seçilib təltif edilməsində iştirak etmişdir.

2003-2009-cu illərdə əvəzçiliklə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında 0,5 ştat professor vəzifəsində çalışmış, təhlükəsizlik orqanları üçün yüksək ideoloji hazırlığa malik ixtisaslı kadrların hazırlanmasında iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə 2006-cı ildə o, "Tərəqqi medalı" ilə təltif olunmuş, 2012-ci ildə Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

Hazırda Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasında professor vəzifəsində çalışır.

Xəqani Məmməd oğlu Məmmədov

tarix elmləri doktoru, professor

(1954)

1954-cü il iyunun 18-də Ağcabədi şəhərində qulluqçu ailəsində anadan olub. 1970-ci ildə Ağcabədi şəhərində 1 №-li orta məktəbi bitirib. 1970-1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsil alıb. 1975-1979-cu illərdə təyinatla Ağcabədi şəhər 7 №-li orta məktəbdə tarix müəllimi işləyib. 1979-1982-ci illərdə ADU-nun əyani aspirantı olub. 1982-ci ildə təyinatla ADU-nun Sovet İKP tarixi kafedrasına müəllim təyin olunub. 1985-ci ildə namizədlik dissertasiyası müdafiə edib. Sov.İKP tarixi kafedrasında baş müəllim (1987- 1994), dosent (1994-2000) vəzifələrində işləyib. 1998-ci ildə BDU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasında doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi alıb. 2000-ci ildə professor vəzifəsinə seçilib. 1994-2003-cü illərdə Bakı Biznes Universitetində kafedra müdiri və prorektor, 2005- 2007 -ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında dekan vəzifəsində işləyib. 2007-2012-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialının direktoru olub. 2016-cı ildən ADPU-nun "Azərbaycan tarixi" kafedrasının professorudur. 2016-2018-ci illərdə ADPU-nun nəzdindəki Ümumi pedaqogika, pedaqogika və

təhsilin tarixi ixtisası üzrə fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olub.

15 monoqrafiya, dərslik, metodik vəsaitin, 120-dən çox elmi məqalənin müəllifidir. Təhsil Nazirliyinin Fəxri fərmanı (2003) və müxtəlif media mükafatları ilə təltif olunub, "Qızıl qələm" mükafatına layiq görülüb.

Nazim Ziyad oğlu Hüseynli

fəlsəfə elmləri doktoru, professor

(1956)

30 aprel 1956-cı ildə Gədəbəy rayonunun Düz Rəsullu kəndində anadan olub. 1973-cü ildə Bakı şəhərindəki 70 №-li orta məktəbi bitirib. 1981-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini bitirib. 1976-1978-ci illərdə Krasnoyarsk vilayətinin Krasnoyarsk şəhərində və İrkutsk vilayətinin Zima şəhərində Sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1974-cü ildə əmək fəaliyyətinə başlamışdır. 1974-cü ildə 2 №-li Mebel fabrikində, 1974-1985-ci illərdə Azərbaycan Dövlət Universiteti nəzdində Elmi-Tədqiqat Hesablama Mərkəzində, 1985-ci ildə Azərittifaq İdarə Heyətində hesablama texnikasının tətbiqi şöbəsində, 1985-1989-cu illərdə SSRİ Sənaye-Tikinti Bankında, 1989-1994-cü illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Fəlsəfə kafedrasında işləmişdir. 1992-ci ildə Ali Diplomatiya Kollecini (hal-hazırda Bakı Avrasiya Universiteti adlanır) təsis etmişdir. 1986-cı ildə SSRİ Elmlər Akademiyası Sovet Sosioloji Assosiasiyasının üzvü seçilmişdir. 1989-cu ildə namizədlik dissertasiyası, 2005-ci ildə "Təfəkkürün anlayış-kateqorial aparatı: qnoseoloji və metodoloji təhlil" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1994-cü ildə dosent elmi adı almışdır. 1992-2005-ci illərdə Ali Diplomatiya Kollecinin, 2005-2006-cı illərdə Bakı Diplomatiya Universitetinin, 2006 -cı ildən Bakı Avrasiya Universitetinin rektorudur. Fəlsəfə elmləri doktoru, professor, Beynəlxalq Sosial və Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvüdür. Yaradıcısı olduğu Universitet Dünya Diplomatiya Akademiyaları və Beynəlxalq Münasibətlər Universitetləri Birliyinin, Mərkəzi və Şərqi Avropa Beynəlxalq Tədqiqatlar Birliyinin, MDB ölkələri Beynəlxalq Münasibətlər Universiteti Assosiasiyasının, Qara Dəniz Hövzəsi Universitetləri Birliyinin, Qafqaz Universitetlər Birliyinin üzvüdür.

Prof.Nazim Hüseynli "Ümumelmi anlayışlar: məntiqi-qnoseoloji təhlil" (1998). "Təfəkkürün anlayış-kateqorial aparatı: qnoseoloji və metodoloji təhlil (2003), "Türk dillərinin geneologiyası: Şumer və Türk leksik paralelləri" (şərikli) (2012) monoqrafiyalarının, 100-dən artıq elmi-metodik məqalənin müəllifidir. "Fəlsəfə ensiklopedik lüğəti"nin (1997), "Diplomatiya: ensiklopedik lüğəti"nin (2005) həmmüəlliflərindən biridir. Onlarla dərslik və dərs vəsaitinin, monoqrafiyanın elmi redaktoru və rəyçisi olub. Bakı Avrasiya Universitetinin təsis etdiyi "Sivilizasiya" adlı elmi-nəzəri praktik jurnalın elmi redaktorudur. 2014-cü ildə nəşr edilən Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) III cildliyinin elmi məsləhətçisi olub.

Rövşən Rasim oğlu Quliyev

iqtisad elmləri doktoru, professor

(1957)

14 fevral 1957-ci ildə Ağdam şəhərində anadan olub. 1963-cü ildə Ağdam şəhər 1 №-li orta məktəbin 1-ci sinfinə gedib. Təhsilini Bakı şəhərində davam etdirib. 1973-cü ildə Bakı şəhərindəki 190 №-li məktəbi bitirib. 1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində təhsil alıb. Azərbaycan EA-nın Kibernetika İnstitutunda elmi fəaliyyətə başlayıb. 1973-cü ildə Moskvaya SSRİ EA Hesablama Mərkəzinə stajirovkaya göndərilib. 1980-1983-cü illərdə həmin mərkəzin aspirantı olub. 1984-cü ildə dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb. 21 mart 1990-cı ildə baş elmi işçi elmi adı verilib. 1984-1996-cı illərdə V.İ.Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasının Ümumittifaq Elmi-tədqiqat Layihə-texnologiya Kibernetika İnstitutunda (Moskva) kiçik elmi işçi, böyük elmi işçi, sektor müdiri, laboratoriya müdiri vəzifələrində çalışıb. 1996-2000-ci illərdə həmin akademiyanın Aqrar problemlər və İnformatika İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışıb. 2000-2004-cü illərdə HPO "Kaskad-M" şirkətində elmi-tədqiqatlar şirkətinin və 2004-2006-cı illərdə İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Mərkəzində elmi-tədqiqatlar şöbəsinin müdiri vəzifəsində çalışıb. 2005-ci ildə doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri

doktoru elmi dərəcəsi alıb. 2006-2007-ci illərdə London Universitetinin Şərq və Afrika tədqiqatı fakültəsində layihə koordinatoru olub. 2004-2013-cü illərdə əvəzçiliklə Xəzər Universitetində, Azərbaycan Dövlət Neft Akademiyasında, Biznes Universitetində, Azərbaycan Universitetində professor, Heydər Əliyev adına Müasir Təhsil Kompleksində müəllim vəzifəsində çalışıb. 20 dekabr 2013-cü ildən 10 avqust 2016-cı il tarixinədək ADPU-nun İqtisadi və sosial fənlər kafedrasının müdiri vəzifəsində çalışıb.13 noyabr 2014-cü ildə öz xahişi ilə vəzifəsindən azad olunub. Hazırda Moskva şəhərində yaşayır.

Xaləddin Cəlal oğlu İbrahimli

tarix elmləri doktoru, professor

(1958)

1958-ci il sentyabrın 5-də Borçalı mahalının Başkeçid (indiki Gürcüstanın Dmanisi) rayonundakı Gəyliyən kəndində anadan olub. 1974-1978-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsində təhsil alıb. 1978-ci ildən indiyə qədər fasiləsiz olaraq elmi-pedaqoji fəaliyyətlə məşğul olub. 1992-ci ildən respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir. 1992-1997-ci illərdə müxtəlif qəzetlərin baş redaktoru, "Kavkaz" jurnalının ideya müəllifi, yaradıcısı və baş redaktoru olub.

1991-ci ildə "Ünsiyyət mədəniyyəti və onun formalaşdırılması yolları" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi, 2000-ci ildə "Azərbaycan siyasi mühacirəti (1920-1991)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

Xəzər Universitetində hüquq və sosial elmlər fakültəsində dekan müavini, Azərbaycan Univetsitetinin prorektoru, Azərbaycan Turizm Universitetinin prorektoru, Avrasya Üniversitesinin Uluslararası İlişkiler bölümünün başkanı (Türkiyə), ADPU-nun Azərbaycan tarixi kafedrasının professoru vəzifələrində çalışıb.

"Azərbaycan siyasi mühacirəti (1990-1991-ci illərdə)" (1996), "Yeni Avrasiya Qafqazı" (2000), "Deyişen Avrasiyada Kafkasiya" (Ankara, 2001), "Азербайджанцы Грузии" (Москва, 2006), "Azərbaycan mühacirəti tarixi"

(2012.) və s. kitabların müəllifidir. Bir sıra kitab və topluların elmi redaktəsində, çapa hazırlanmasında yaxından iştirak etmişdir. Azərbaycanda, eləcə də xarici ölkələrdə nəşr edilən qəzet və jurnallarda 150-dən artıq elmi, siyasi və publisistik məqalələri dərc edilmişdir. 20-dən artıq Beynəlxalq və respublika səviyyəli kofranslarda iştirak edib.

İntiqam Hilal oğlu Cəbrayılov
pedaqogika üzrə elmlər doktoru, professor
(1960)

15 dekabr 1960-cı ildə Neftçala rayonunun Qırmızıkənd kəndində ziyalı ailəsində anadan olmuşdur.1968-1978-ci illərdə Qırmızıkənd kənd tam orta məktəbində təhsil almışdır.1979-1981-ci illərdə Novosibirsk şəhərində hərbi xidmətdə olmuşdur.1981-1986-cı illərdə ADPİ-nin Tarix fakültəsində təhsil almışdır. İnstitutu fərqlənmə diplomu ilə bitirmişdir.1986-1989-cu illərdə təyinatla Neftçala rayonunun Xolqaraqaşlı kənd tam orta məktəbində ixtisası üzrə müəllim işləmişdir. 1989-1992-ci illərdə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda pedaqogika nəzəriyyəsi və tarixi (tərbiyə nəzəriyyəsi) ixtisası üzrə əyani aspiranturada təhsil almışdır. 1992-2000-ci illərdə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun tarix və coğrafiyanın tədrisi metodikası şöbəsində kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi və aparıcı elmi işçi vəzifələrində işləmişdir.1994-cü ildə "Tarixi abidələr şagirdlərdə milli mənlik şüuru formalaşdırmağın vasitəsi kimi" mövzusunda (pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə) dissertasiya işini müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

2001-2008-ci illərdə Təhsil Problemləri İnstitutunun ali və orta ixtisas təhsili şöbəsində aparıcı elmi işçi vəzifəsində işləmiş, 2004-2007-ci illərdə həmin şöbənin elmlər doktoru proqramı üzrə doktorantı olmuşdur. 25 sentyabr 2007-ci ildə "Pedaqoji təmayüllü ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəri və praktik problemləri" mövzusunda (tarixin tədrisi metodikası ixtisası üzrə) dissertasiya müdafiə edərək pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsini almışdır. 2008-2011-ci illərdə ARTPİ-nin Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdir müavini olmuşdur. 2011-ci ilin noyabrından həmin şöbənin müdiri vəzifəsində işləyir.

2014-2019-cu illərdə Azərbaycan Milli Elmlər Akademiyası Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının qərarı ilə Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın sədri vəzifəsində işləmiş, respublikada pedaqogika, psixologiya və fənlərin tədrisi metodikası elm sahələri üzrə tədqiqatların, dissertasiya mövzularının müəyyənləşdirilməsinə və əlaqələndirilməsinə rəhbərlik etmişdir. 2019-2020-ci illərdə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən, AMEA-nın Rəyasət Heyəti və Azərbaycan Respublikasının Elmi Tədqiqatların Əlaqələndirmə Şurasının birgə qərarı ilə yaradılmış Pedaqogika üzrə Elmi Şuranın üzvü olmuşdur.

1996-1998-ci illərdə ARTPİ-nin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının elmi katibi, Dissertasiya Şurasının nəzdindəki elmi seminarın elmi katibi (2006-2009), 1999-2013-cü illərdə Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Pedaqogika və Psixologiya bölməsinin elmi katibi, 2000-ci ildə "Azərbaycan məktəbi" jurnalının məsul katibi olmuşdur. BDU-nun və ADPU-nun nəzdində müxtəlif vaxtlarda yaradılmış birdəfəlik dissertasiya şuralarının üzvü olmuşdur. Hazırda ADPU-da fəaliyyət göstərən Dissertasiya Şurasının nəzdindəki elmi seminarın sədr müavinidir. Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən Doktorant və gənc tədqiqatçıların respublika elmi konfranslarında Pedaqogika və psixologiya bölməsinə rəhbərlik edir.

Ümumtəhsil məktəbləri üçün tarix, həyat bilgisi fənləri kurikulumunun hazırlanmasında komissiya üzvü kimi iştirak etmiş, Azərbaycan tarixi və ümumi tarix fənləri standartlarını hazırlayarkən milli məsləhətçi və işçi qrupunun sədri, ümumi təhsilin milli standartlarını hazırlayan işçi qrupunun üzvü olmuşdur. Hazırda orta ixtisas təhsili müəssisələri üçün təhsil proqramlarını hazırlayan işçi qrupunun üzvü kimi fəaliyyət göstərir. Tarix fənni üzrə respublika fənn olimpiadasında komissiya üzvü, " İlin müəllimi" müsabiqəsində ekspert, Ümummilli lider Heydər Əliyevə həsr olunmuş şagirdlər arasında respublika üzrə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsində münsiflər heyətinin üzvü kimi iştirak edir. 25 ildir ki, Respublika təhsil işçilərinin sentyabr konfranslarında Təhsil Nazirliyinin nümayəndəsi kimi iştirak edir. Tələbələrin respublika konfransında tarix bölməsi üzrə ekspert komissiyasının üzvü, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (indiki Dövlət İmtahan Mərkəzində) tarix fənni üzrə ekspert komissiyasının üzvü, 2007-ci ildə III ixtisas qrupu üzrə ali məktəblərə tələbə qəbulu imtahanında tarix fənni üzrə rəhbər-ekspert (bunkerdə) kimi iştirak etmişdir. Müxtəlif illərdə ali məktəblərdə ,lisey və gimnaziyalarda tarix fənlərindən dərs aparmışdır. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasında tarixin tədrisi metodikası fənnindən mühazirə və seminar məşğələləri aparır.

1992-ci ildən Bakı Qızlar Universitetində (BQU) pedaqoji fəaliyyət göstərir. BQU-nun professoru, Tarix kafedrasının müdiridir. "Təhsil" qəzetinin məsul katibi, "Nərgiz qəzeti"nin redaktoru olmuşdur. 260-dan çox elmi, pedaqoji-metodik, publisistik əsərin (monoqrafiya, proqram, dərs vəsaiti, metodik vəsait, metodik tövsiyə, jurnal məqaləsi, tezis və s.) müəllifidir. Pedaqogika nəzəriyyəsi və tarixi, tarixin tədrisi metodikası və Azərbaycan tarixinin müxtəlif problemləri ilə bağlı tədqiqatlar aparır. Təhsil problemləri ilə bağlı xarici ölkələrdə (Türkiyə, Fransa, İran) konfrans və seminarlarda iştirak etmiş, əsərləri Türkiyə, Rusiya və Ukraynada çap olunmuşdur. İki nəfərin dissertasiya işinə rəsmi opponent olmuş, elmi rəhbəri olduğu beş doktorant dissertasiya işini müdafiə etmişdir. Hazırda 5 doktoranta (onlardan ikisi elmlər doktoru proqramı üzrə) elmi rəhbərlik edir.Televiziya və radio kanallarında Vətən tarixi və təhsil problemləri ilə bağlı çıxış edir.

" Azərbaycan məktəbi", Pedaqogika", " Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" jurnallarının, Bakı Qızlar Universitetinin və Azərbaycan Respublikası Təhsil İnstitutunun "Elmi əsərlər"inin redaksiya heyətinin üzvüdür.

2006-cı ildə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

Məhəmməd Abdu oğlu Abduyev

coğrafiya elmləri doktoru, dosent

(1961)

7 iyul 1961-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ardanış kəndində anadan olub. 1968-1978-ci illərdə Ardanış kənd orta məktəbində təhsil alıb. 1978-1980-ci illərdə Ardanış kənd heyvandarlıq sovxozunda fəhlə işləyib. 1980-1982-ci illərdə Moskva şəhərində hərbi xidmət keçib. 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin Geologiya-coğrafiya fakültəsinin əyani şöbəsinə daxil olub. Tələbəlik illərində fakültə Tələbə Həmkarlar Təşkilatının və Tələbə Elmi Cəmiyyətinin sədri olub. Tələbə Elmi Cəmiyyətində elmi tədqiqat işlərinə və məruzələrinə görə dəfələrlə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin diplomları, Universitet və fakültə rəhbərliyi tərəfindən qiymətli hədiyyələrlə təl-

tif olunub. 1988-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirərək təyinatla AMEA-nın H.Əliyev adına Coğrafiya İnstitutuna göndərilib. Burada "Qurunun hidrologiyası və su ehtiyatları" şöbəsində baş laborant kimi əmək fəaliyyətinə başlayıb. 1989-cu ildə fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası ixtisası üzrə Coğrafiya İnstitutunun əyani aspiranturasına daxil olub. Aspirantura illərində SSRİ Elmlər Akademiyasının Coğrafiya İnstitutunda (Moskva), Dövlət Hidrologiya İnstitutunda (Leninqrad) və Zaqafqaziya Hidrometeorologiya İnstitutunda (Tbilisi) elmi təcrübə keçib. 1992-ci ildə aspiranturanı başa çatdırıb. Müdafiə Şurasının olmaması səbəbindən yalnız 1995-ci ildə "Çay gətirmələrinin təbii və pozulmuş rejimdə hidroloji tədqiqi (Azərbaycan ərazisi daxilində)" mövzusunda dissertasiyanı müdafiə edərək, coğrafiya elmləri namizədi elmi dərəcəsini alıb. 1992-ci ildən AMEA Coğrafiya İnstitutunun "Qurunun hidrologiyası və su ehtiyatları" şöbəsində kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi və aparıcı elmi işçi vəzifələrində işləyib. 2013-cü ildə "Azərbaycanın dağ çaylarının hidrokimyəvi xüsusiyyətlərinin tədqiqi və su ilə təminatın ekoloji təhlükəsizliyinin qiymətləndirilməsi" mövzusunda dissertasiya müdafiə edərək, coğrafiya elmləri doktoru elmi dərəcəsini alıb. AMEA Coğrafiya İnstitutunun qalibi olduğu bir sıra qrant layihələrinin icraçılarından biri olub. AMEA-nın akademik H.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, Coğrafiya İnstitutunun Elmi Şurasının, "Sudan istifadə sahəsində Mütəxəssislər" İctimai Birliyinin, ADPU Böyük Elmi Şurasının və ADPU "Xəbərlər" jurnalının redaksiya heyətinin üzvüdür. Məhəmməd Abduyev elmi-pedaqoji kadr hazırlığında da fəaliyyət göstərir. O, 7 nəfərin coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin rəsmi opponenti olub. 2014-cü ildən ADPU-nun Tarix və Coğrafiya fakültəsinin Ümumi coğrafiya kafedrasında müdir vəzifəsində çalışır.

İndiyə kimi 130 elmi məqaləsi, 12 tezisi və 7 tədris proqramı nəşr olunub. 40 yerli və Beynəlxalq səviyyəli konfransda iştirak edərək sertifikat və diplomlarla təltif olunub. 3 kitabın elmi redaktoru, 7 kitabın rəyçisi olub. Onun əsərləri Bakı, Naxçıvan, Tbilisi, Almatı, Moskva, Yekaterinburq, Daşkənd, İzmir, Kopenhagen, Varna, Sankt-Peterburq, Mogilyov, Perm və Voronej şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində Azərbaycan, rus və ingilis dillərində çap edilib. AMEA-nın 60 illiyi ilə əlaqədar Yer elmləri bölməsinin təşəkkürnaməsi və AMEA Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunub.

Sevinc Məmməd qızı Seyidova
tarix üzrə elmlər doktoru
(1964)



11 iyun 1964-cü ildə Bakı şəhərində anadan olmuşdur.1981-ci ildə Bakı şəhəri 80 №-li orta məktəbi, 1986-cı ildə ADPİ-nin Tarix və əlavə sovet hüququ fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1987-1989 -cu illərdə Azərbaycanda tarix və mədəniyyət abidələrinin mühafizəsi Cəmiyyətinin Sabunçu rayonu üzrə məsləhətçisi vəzifəsində çalışmışdır.1989-1992-ci illərdə Bakı şəhəri Sabunçu rayonu 96 №-li məktəbdə tarix müəllimi işləmişdir. 1992-1994 -cü illərdə ADPU-nun Türk və Şərqi Avropa xalqları tarixi, tarixin tədrisi metodikası kafedrasında "Vətən tarixi" ixtisası üzrə əyani aspiranturada təhsil almışdır. 1994-cü ildə "Azərbaycanın beynəlxalq əlaqələri (1920-1930-cu illər)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. 1994-1996-cı illərdə ADPU-nun Türk və Şərqi Avropa xalqlarının tarixi, tarixin tədrisi metodikası kafedrasında baş laborant, 1996-1998-ci illərdə müəllim, 1998-2000-ci illərdə baş müəllim vəzifəsində çalışmışdır. 2000-2019-cu ilə qədər Türk və Şərqi Avropa xalqlarının tarixi, tarixin tədrisi metodikası kafedrasında, 2019-cu ildən isə Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasında dosent vəzifəsində çalışır.

2017 -ci il iyulun 7-də BDU-nun Dissertasiya Şurasında "Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 6 aprel 2018-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona tarix üzrə elmlər doktoru elmi dərəcəsi verilmişdir.

2003-2006-cı illərdə dos.S.Seyidova Azərbaycan Respublikası Təhsil Nazirliyi və ABŞ Dövlət Departamentinin "Azərbaycanda sosial fənlər sahəsində orta məktəb müəllimlərinin hazırlığı üzrə tədris proqramının (kurikulumun) inkişafı" layihəsində iştirak etmiş, 2004 -cü ildə ABŞ-ın Corc Meysn Universitetində akademik fəaliyyət keçərək beynəlxalq təlimçi statuslu sertifikatlar almışdır. 2012-2013-cü illərdə Təhsil Nazirliyinin orta məktəb müəllimləri üçün "Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi" mövzusunda keçirdiyi təlim kurslarında təlimçi kimi fəal çalışmış və tarix fənn kurikulumu üzrə orta məktəblərdə dərs deyəcək müəllimlərinin hazırlanmasında iştirak etmişdir.

"Azərbaycanın beynəlxalq əlaqələri" (1998), "Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatların mövqeyi" (2014) adlı monoqrafiyaların, "Osmanlı imperiyasında milli münasibətlər -erməni məsələsi (XIX əsrin II yarısı, XX əsrin I rübü)" (2002), "Türk xalqlarının etnogenezi" (2002), "İnteqrativ kurikulum: mahiyyəti və nümunələr (Kurikulum modeli)" (2005), "Müəllim hazırlığının və orta təhsilin perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında)" (2005) dərs vəsaitlərinin, 70-dən çox elmi məqalə, tezis və fənn proqramlarının müəllifidir.

Rafail Ayvaz oğlu Əhmədli
fəlsəfə elmləri doktoru, professor
(1965)

1965 - ci il sentyabrın 15-də Gədəbəy rayonunun Şahdağı kəndində (Şurabad) anadan olub. 1972-1982-ci ildə Şahdağı kənd orta məktəbində oxuyub. 1983-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix əlavə hüquq fakültəsinin əyani şöbəsinə daxil olub. Həmin illərdə hərbi xidmətlə bağlı qanunun tələblərinə görə əyani şöbədən hərbi xidmətə cəlb olunub. 1984 - 1986-cı illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra təhsilini davam etdirib, 1990-cı ildə institutu fərqlənmə diplomu ilə bitirib. 1990 -cı ildə AMEA Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına qəbul olunub.1990 - 2010 – cu illərdə həmin institutda kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi, şöbə müdiri vəzifələrində çalışıb. 1995 -ci ildə "Əkinçi qəzeti və milli maarifçilik" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 2010-cu ildə "Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixində demokratik dövlətçilik ideologiyasının formalaşması" mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi, 2015-ci ildə professor elmi adı alıb. 2010 - 2016- cı illərdə Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasında Dissertasiya şuraları və attestasiya sənədləri şöbəsinin, 2016 – 2018 - ci illərdə AAK Humanitar və ictimai elmlər şöbəsinin müdiri vəzifələrində işləyib. Həmin illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində əvəzçiliklə müəllim, dosent və professor vəzifələrində çalışıb.

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun nəşrə hazırladığı "Azərbaycan fəlsəfəsi tarixi" III cild kitabının 3 bölməsinin, AMEA-nın Tarix İnstitutunun hazırladığı 7 cilddə "Azərbaycan tarixi" yeni nəşrinin IV cildində "XIX əsr Azərbaycan fəlsəfəsi" və V cilddə "XX əsrin əvvəlləri Azərbaycan fəlsəfəsi" bölmələrinin müəllifidir. "Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri" (2005), "Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, islamçılıq, müasirlik", "Azərbaycan dövlətçilik fəlsəfəsi" (2008), "Mirzə Kazımbəyin ictimai fikirləri" (2012), "Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri" (2017) adlı monoqrafiyaların, "Türk xalqlarının ictimai fikir tarixi" (2015) adlı dərs vəsaitinin, 90-dan cox elmi məqalə və məruzə tezisinin müəllifidir. İstanbulda nəşr edilən "Evreler ve şahsiyetler" (19. yüzyıl-20.yüzyılın ortaları)" (2021) kitabında "Azerbaycan Düşünce Tarihi" adlı 40 səhifəlik məqaləsi çap olunub. "Azərbaycanda milli şüurun inkişafına təsir edən amillər (XIX əsr və XX əsrin əvvəlləri)" adlı monoqrafiya üzərində işləyir.

AMEA Fəlsəfə institutunda baş elmi işçi vəzifəsində işləyir.

Sevinc İsrafil qızı Əliyeva

tarix elmləri doktoru

(1976)



19 may 1976-cı ildə Rusiya Federasiyasının Krasnodar diyarının Armavir şəhərində anadan olub. 1983-1993-cü illərdə Armavir şəhər 4 №-li ümumtəhsil məktəbində oxuyub. 1993-1998-ci illərdə Armavir Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsində ali təhsil alıb. 1996–1997-ci ildə Armavir şəhər 4 №-li məktəbdə tarix müəllimi işləyib. 1998-2001-ci illərdə Armavir Dövlət Pedaqoji İnstitutunda "Regionşünaslıq və tarixdən köməkçi fənlər" kafedrasında müəllim işləyib. 1998-2000-ci illərdə həmin institutun əyani aspiranturasında oxuyub. 2000-ci ildə Kuban Dövlət Universitetində "Şimal-qərbi Qafqazın noqayları XVIII-XX əsrin əvvəllərinin tarixi proseslərində" mövzusunda dissertasiya müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. 2004-2015-ci illərdə AMEA-nın Tarix İnstitutunun "Qafqaz tarixi" şöbəsində elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışıb. 2014-cü ildə AMEA-nın A.Bakıxanov

adına Tarix İnstitutunda “Azərbaycan və Şimali Qafqaz xalqlarının qarşılıqlı əlaqələri (XIX - XX əsrin əvvəlləri)” mövzusunda dissertasiya müdafiə edərək tarix üzrə elmlər doktoru elmi dərəcəsi alıb. 2017-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona dosent elmi adı verilib. 2015-2019-cu illərdə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycan - Rusiya əlaqələri tarixi” şöbəsinin müdiri olub. Əvəzçiliklə 2012-2013-cü illərdə Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasında müəllim, 2018 - 2019-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasında dosent vəzifəsində işləyib. 2019-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının müdiri vəzifəsinə seçilib. 2015-2018-ci illərdə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdindəki Dissertasiya Şurasının, 2015-2019-cu illərdə isə həmin institutun Elmi Şurasının üzvü olub. 2019-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və siyasi elmlər ixtisasları üzrə Ekspert Şurasının üzvüdür. AMEA-nın Tarix İnstitutunun “Elmi əsərləri”nin, “Известия Ингушского научно-исследовательского Института гуманитарных наук имени Ч.Э.Ахриева”, ”Вестник Майкопского государственного технологического университета” “Современная научная мысль: научный журнал НИИ Истории, экономики и права”,“Вестник науки Адыгейского республиканского института гуманитарных исследований имени Т.М. Керашева” “Северо-Кавказский юридический вестник”, “Научные известия”, “Minbar” (SCOPUS reytinqli), “Van Sosial Bilimlər Enstitüsü Dərgisi”nin (TC, Van), “Journal of Anglo-Turkish Relations (TC, Istanbul)” jurnallarının redaksiya heyətinin üzvüdür.

Elmi rəhbərliyi ilə 4 nəfər fəlsəfə doktoru, elmi məsləhətçiliyi ilə 2 nəfər doktorluq dissertasiyası üzərində işləyir. 8 monoqrafiya və kitabın, 5 kollektiv monoqrafiyanın həmmüəlliflərindən biri, xaricdə və Azərbaycanda nüfuzlu jurnallarda nəşr edilən 200-dən artıq elmi məqalənin müəllifidir.

Riyaziyyat fakültəsi

Yaroslav Borisoviç Lopatinski
Ukrayna EA-nın həqiqi üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor,
(1906-1981)

9 noyabr 1906-cı ildə Tiflis şəhərində anadan olub. 1926-cı ildə Azərbaycan Dövlət Universitetini bitirib. Ali Pedaqoji İnstitutda (1926-1927, 1929-1934), Azərbaycan Dövlət Universitetində (1927-1930, 1930-1945) və Bakı Politexnik İnstitutunda işləyib. ADU-nun aspiranturasında oxuyub.1938-ci ildə Xarkov Universitetində ona dissertasiya müdafiə etmədən fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi verilib. ADU-da apardığı elmi araşdırmalar əsasında 1946-cı ildə Moskva Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib. 1947-ci ildə ona professor elmi adı verilib. 1946-1963-cü illərdə Lvov Dövlət Universitetində, 1963-1966-cı illərdə Moskva Neft-Kimya və Qaz Sənayesi İnstitutunda, eyni zamanda Ukrayna SSR EA-nın Riyaziyyat İnstitutunda, 1966-1981-ci illərdə - Ukrayna SSR Elmlər Akademiyasının Donetsk Hesablama Mərkəzində (1970-ci ildən Tətbiqi Riyaziyyat və Mexanika İnstitutu) və Donetsk Dövlət Universitetində çalışıb. 1951-ci ildə Ukrayna EA-nın müxbir üzvü, 1965-ci ildə həqiqi üzvü seçilib. 1978-ci ildə Ukrayna Dövlət Mükafatına layiq görülüb. Əsas tədqiqatları diferensial tənliklər nəzəriyyəsinə aiddir. Azərbaycanda riyaziyyatçı alimlərin ilk nəslinin yetişməsində mühüm xidmətləri olub. Akademik Məcid Rəsulovun elmi rəhbəri olub. Prof.M.Cavadov və T.İbadovla şərikli əsərlər yazıb. Elmi uğurlarına və səmərəli elmi-pedaqoji fəaliyyətinə görə "Lenin" ordeni, "Oktyabr inqilabı" ordeni və medallarla təltif edilib.

10 mart 1981-də Donetsk şəhərində vəfat edib.

Əşrəf İsgəndər oğlu Hüseynov
AMEA-nın həqiqi üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor,
Əməkdar elm xadimi
(1907-1980)

20 sentyabr 1907-ci ildə Cəbrayıl qəzasının (indiki Füzuli rayonu) Əmirvarlı kəndində anadan olub. 1925-ci ildə Qaryagində II dərəcəli məktəbi, 1931-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Fizika-riyaziyyat şöbəsini bitirib. O, eyni zamanda 1928-ci ildə fəhlə kurslarında, 1929-cu ildə Sənaye Texnikumunda dərs deyib. 1931-ci ildə Azərbaycan Sənaye İnstitutunun Ali riyaziyyat kafedrasında assistent, 1933-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyazi analiz kafedrasında dosent, 1934-1938-ci illərdə isə həmin kafedranın müdiri vəzifələrində çalışıb. Moskva Dövlət Universitetində aspirantura hazırlığı keçən Əşrəf Hüseynov 1940-cı ildə həmin universitetinin Elmi Şurasında görkəmli riyaziyyatçı A.A.Buxştabın rəhbərliyi ilə "Potensiallar nəzəriyyəsinin bir məsələsinə dair" mövzusunda namizədlik dissertasiyası, 1948-ci ildə Moskva Dövlət Universitetində akademik A.N.Tixonovun rəhbərliyi ilə "Qeyri-xətti sinqulyar inteqral tənliklərin həllinin varlığı və yeganəliyi teoremləri və onların bəzi tətbiqləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1949-cu ildə ona professor elmi adı verilib. 1940-1955-ci illərdə ADU-nun Funksiyalar nəzəriyyəsi və cəbr kafedrasının müdiri, 1940-1943-cü illərdə Fizika-riyaziyyat fakültəsinin dekanı olub. 1944-1948-ci illərdə ADU-nun Fizika və Riyaziyyat Elmi Tədqiqat İnstitutunun Riyaziyyat bölməsinin müdiri, 1946-1953-cü illərdə Azərbaycan EA-nın Fizika və Riyaziyyat İnstitutunun şöbə müdiri vəzifəsində çalışıb. 1955-1965-ci illərdə ADU-nun "Funksiyalar nəzəriyyəsi və funksional analiz" kafedrasının müdiri, eyni zamanda Mexanika-riyaziyyat fakültəsinin dekanı vəzifəsində çalışıb. 1958-ci ildə Albaniyanın Tirana Universitetində mühazirələr oxuyub. 1965-1970-ci illərdə Azərbaycan EA -nın Kibernetika İnstitutunun direktoru olmaqla, ömrünün sonuna qədər həmin institutda işləyib. O, 1962-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilib. Onun riyaziyyata aid 8 kitabı, 70-dən artıq elmi məqaləsi nəşr olunub. Rəhbərliyi ilə 30-dan çox namizədlik dissertasiyası müdafiə olunub. "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı" ordenləri və me-

dallarla təltif olunub. Əməkdar müəllim və Əməkdar elm xadimi fəxri adlarına layiq görülüb.

26 avqust 1980-ci ildə vəfat etmiş, ikinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Zahid İsmayıl oğlu Xəlilov
AMEA-nın həqiqi üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor, Əməkdar elm xadimi
(1911- 1974)

14 yanvar 1911-ci ildə Tiflis quberniyasının Borçalı mahalında anadan olub. 1929-cu ildə Tiflis şəhərində Nəriman Nərimanov adına Pedaqoji Texnikumu, 1932-ci ildə Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirib. 1937-1940-cı illərdə Tbilisi Riyaziyyat İnstitutunun aspirantı olmuşdur. 1937-ci ildən Tbilisi Dövlət Universitetində professor S.Berqmanın rəhbərliyi ilə elmi fəaliyyətə başlamışdır. S.Berqman Amerika Birləşmiş Ştatlarına mühacirət etdikdən sonra, o, məşhur alim akademik N.İ.Musxelişvilinin rəhbərliyi ilə elastikiyyət nəzəriyyəsi ilə məşğul olub. 1940-cı ildə Tbilisi Dövlət Universitetində "Klebş məsələsi və onun ümumiləşməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Zahid Xəlilov 1940-cı ildə Bakıya qayıdıb və Azərbaycan Dövlət Universitetində dosent vəzifəsində çalışıb. 1942-ci ildən SSRİ EA Azərbaycan filialının Fizika bölməsində riyaziyyatçı kimi elmi fəaliyyət göstərib. 1943-1946-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat-fizika fakültəsində dosent vəzifəsində çalışıb. 1945-ci ildə Azərbaycan EA-nın Fizika və Riyaziyyat İnstitutunun riyaziyyat şöbəsinin rəhbəri təyin olunub. 1946-cı ildə Tbilisidə "Sərhəd məsələlərinin parametrdən asılılığının tədqiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Riyaziyyat üzrə ilk azərbaycanlı elmlər doktorudur. 1949-cu ildə "Основы функционального анализа",1949-cu ildə "Xətti normallaşdırılmış fəzalarda xətti tənliklər" monoqrafiyaları nəşr olunub.1961-ci ildə Zahid Xəlilov ilk olaraq dünya miqyasında Banax fəzasında qeyri-məhdud operator əmsallı diferensial tənliklərin həllərinin dayanıqlığı məsələsini həll etmişdir. Onun bu nəticələri dünyanın bir sıra tanınmış riyaziyyatçılarının monoqrafiyasında öz əksini tapmışdır.

1955-ci ildə birbaşa Azərbaycan EA-nın həqiqi üzvü seçilib. O, 1950-1957-ci illərdə Fizika və Riyaziyyat İnstitutunun direktoru, 1957-1959-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti, 1959-1962-ci illərdə isə akademik-katib vəzifələrində çalışmışdır. 1962-1967-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti, 1967-ci ildən ömrünün sonunadək Riyaziyyat və Mexanika İnstitutunun direktoru olmuşdur. Zahid Xəlilov Sovet riyaziyyatçıları, mexanikləri Milli Komitəsinin və SSRİ Ali Attestasiya Komissiyasının üzvü idi. Zahid Xəlilov funksional analiz, diferensial və inteqral tənliklər, riyazi fizika tənlikləri və mexanikanın müxtəlif problemlərinə həsr olunmuş 7 monoqrafiyanın və 75 elmi məqalənin müəllifi olub. O, Bakı Sovetinin, SSRİ Ali Sovetinin deputatı, Azərbaycan Kommunist Partiyası MK-nın üzvü seçilmişdir.30 ildən artıq ADU-da pedaqoji fəaliyyətlə məşğul olmuş, "Nəzəri mexanika" kafedrasının müdiri, "Funksional analiz və funksiyalar nəzəriyyəsi" kafedrasının professoru olmuşdur. 30-dan artıq elmlər namizədi və elmlər doktoru hazırlamışdır.

2 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni və "Şərəf Nişanı" ordeni ilə təltif olunub, Əməkdar elm xadimi fəxri adına layiq görülüb. Beynəlxalq elmi konfrans və forumların (İsveç-1962, Çexoslovakiya-1963, Avstriya-1964, Honq-Konq-1964) iştirakçısı olub.

4 fevral 1974-cü ildə 63 yaşında Bakı şəhərində vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

İbrahim İbiş oğlu İbrahimov

AMEA-nın həqiqi üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor,
Əməkdar elm xadimi
(1912-1994)

28 fevral 1912-ci ildə Qaryagin (indiki Füzuli) rayonunun Qarğabazar kəndində anadan olub. 1921-1926-cı illərdə Qarğabazar kənd ibtidai məktəbində, 1926-1928-ci ildə Qaryagin rayon mərkəzindəki yeddiillik məktəbdə təhsil alıb. 1928-1931-ci illərdə Gəncə Pedaqoji Məktəbində, 1931-1935-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinin riyaziyyat ixtisasında təhsil alıb. 1936-1938-ci illərdə ADU-nun Cəbr və

funksiyalar nəzəriyyəsi kafedrasının aspirantı olub. Üçüncü tədris ilindən M.Lomonosov adına MDU-nun Riyaziyyat Elmi Tədqiqat İnstitutunun aspiranturasına köçürülüb. Orada görkəmli riyaziyyatçı A.O.Gelfondun aspirantı olub. 24 sentyabr 1939-cu ildə Moskva Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin Elmi şurasında "Bəzi analitik funksiyalar sisteminin tamlığı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Riyaziyyat üzrə ilk azərbaycanlı elmlər namizədi kimi Bakıya qayıdan İbrahim İbrahimov 1947-ci ilə kimi ADU-nun Funksiyalar nəzəriyyəsi və cəbr kafedrasında dosent vəzifəsində çalışıb. 17 fevral 1940-cı ildə ona Funksiyalar nəzəriyyəsi və cəbr kafedrası üzrə dosent elmi adı verilib. 12 fevral 1948-ci ildə SSRİ EA-nın V.A.Steklov adına Riyaziyyat İnstitutunda "Analitik funksiyaların interpolyasiyası və aproksimasiyası" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmlər doktoru elmi dərəcəsi alıb. 13 noyabr 1948-ci ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi və professor elmi adı verilib.

İbrahim İbrahimov pedaqoji fəaliyyətə ibtidai məktəb müəllimi kimi başlayıb. 1927-1929-cu illərdə Qaryagində, 1929-1931-ci illərdə Gəncədə ibtidai məktəb müəllimi olub. 1932-1934-cü illərdə ali təhsil almaqla bərabər həm də Sabunçuda fəhlə fakültəsində, 1934-1936-cı illərdə Azərbaycan Sosial İqtisad İnstitutunda müəllim işləyib. 1936-1938-ci illərdə ADPİ-nin Riyazi analiz kafedrasının dosenti olan İbrahim İbrahimov 1947-1958-ci illərdə həmin kafedraya rəhbərlik edib. 1958-ci ildən onun elmi-pedaqoji fəaliyyəti Azərbaycan Elmlər Akademiyası ilə bağlı olub. 1958-1959-cu illərdə Fizika və Riyaziyyat İnstitutunda şöbə müdiri, 1959-1963-cü illərdə Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun direktoru vəzifələrində çalışıb. 1963-cü ildən ömrünün sonunadək həmin institutun "Funksiyalar nəzəriyyəsi" şöbəsinin müdiri olub. 1977-ci ildən Azərbaycan Riyaziyyat Cəmiyyətinin sədri olub.

İbrahim İbrahimovun rəhbərliyi altında ölkəmizdə həqiqi və kompleks dəyişənli funksiyaların yaxınlaşması nəzəriyyəsi, interpolyasiya nəzəriyyəsi, tam funksiyalar nəzəriyyəsi, funksiyalar sistemlərinin tamlığı kimi sahələrdə geniş tədqiqatlar aparılıb. Onun M.V.Keldışla və A.O.Gelfondla birlikdə yazdığı məqalələr dünya riyaziyyat ədəbiyyatında böyük iz qoymuş əsərlərdir. Funksiyaların konstruktiv nəzəriyyəsinin yaradıcılarından biri sayılan akademik S.N.Bernşteynin xatirəsinə həsr edilmiş Beynəlxalq konfransda onun yaradıcılığı haqqında məruzənin İbrahim müəllimə tapşırılması onun nüfuzunun göstəricisidir. Azərbaycan EA-nın müxbir üzvü (1959), həqiqi üzvü (1968) seçilib, Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

1960-cı ildə Stokholmda, 1974-1981-ci illərdə Varnada, 1974-cü ildə Praqada, 1968-ci ildə Budapeştdə, 1970-ci ildə Nitsada, 1974-cü ildə Poznanda keçirilən Beynəlxalq konfransların iştirakçısı olub. Onun rəhbərliyi ilə 40-dan çox elmlər namizədi (sonralar onlardan 6 nəfəri elmlər doktoru olub) hazırlanıb.

Onun SSRİ-nin və Azərbaycanın nüfuzlu jurnallarında 170-dən çox elmi məqaləsi, 3 monoqrafiyası, 5 dərsliyi nəşr edilib. O, K.Rosse və İ.Privalov tərəfindən ali məktəblər üçün yazılmış "Diferensial hesabı" və "İnteqral hesabı" kitablarını Azərbaycan dilinə tərcümə (1950-1952) edib. "Ədədlər nəzəriyyəsinin əsasları" (1955), "Sıralar nəzəriyyəsinin əsasları" (1957) "Riyazi analiz kursu" (1962) dərslikləri yeni riyaziyyatçılar nəslinin yetişməsində mühüm rol oynayıb.

6 noyabr 1994-cü ildə vəfat edib və I Fəxri Xiyabanda dəfn olunub.

Məcid Lətif oğlu Rəsulov

AMEA-nın həqiqi üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor
Əməkdar elm xadimi
(1916-1993)

1916-cı il iyul ayının 6-da Nuxa (indiki Şəki) şəhərində anadan olub. 1923-cü ildə Şəkidəki 7 illik məktəbin birinci sinfinə daxil olub. 1928-ci il martın 16-da Məcid 5-ci sinifdə oxuyanda atası Nuxa-Zaqatala Baş Siyasi İdarəsinin əməkdaşları tərəfindən həbs edilib. 1932-ci ildə Bakıya gələrək Nəriman Nərimanov adına Sənaye Texnikumuna daxil olub. 1934-1938-ci illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsində təhsil alıb. İnstitutu birinci dərəcəli diplomla bitirən M.Rəsulov 1938-ci ildə Azərbaycan Dövlət Universitetində funksional analiz ixtisası üzrə aspiranturaya qəbul olunur. Aspirantura təhsili almaqla bərabər Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyazi analiz kafedrasında assistent vəzifəsində çalışmağa başlayır. 1939- 1945-ci ildə illərdə sovet-alman müharibəsinin iştirakçısı olub. Müharibədən sonra ADU-nun Riyazi analiz kafedrasında müəllim vəzifəsində çalışmağa başlayır. 1946-cı ildə onun elmi rəhbəri Lopatinski Ukraynanın Lvov şəhərinə köçür. Ona

görə də Məcid Rəsulov aspirantura təhsilini Ukrayna Elmlər Akademiyasının Lvov filialında davam etdirir. Lvov mühitinin Rəsulovun bir alim, müəllim və şəxsiyyət kimi formalaşmasında böyük təsiri olmuşdur. Burada o, namizədlik dissertasiyası üzərində işləyir, eyni zamanda İvan Franko adına Lvov Dövlət Universitetində pedaqoji fəaliyyət göstərir. 1948-ci ildə Məcid Rəsulov "Diferensial tənliklər üçün bəzi qarışıq məsələlərin çıxıqlar üsulu ilə həllinin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını başa çatdırır və həmin il doğma Bakı şəhərinə qayıdır. Həmin əsəri 17 fevral 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin elmi şurasında müdafiə edir. Dissertasiya işinin rəsmi opponentləri akademiklər Zahid Xəlilov və Əşrəf Hüseynov, şuranın sədri isə Maqsud Cavadov olmuşdur. SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona 20 mart 1950-ci ildə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi, 9 may 1951-ci ildə dosent elmi adı verilib.

Müdafiədən sonra o, Azərbaycan Dövlət Universitetində fəaliyyətini davam etdirir. Əvvəlcə Riyazi analiz kafedrasında baş müəllim, 1949-cu ildən 1953-cü ilə qədər həmin kafedranın dosenti vəzifəsində çalışıb. Eyni zamanda 1949-cu ilin sentyabr ayından etibarən ADU-nun Riyaziyyat və Fizika Elmi-Tədqiqat İnstitutunun baş elmi işçisi vəzifəsində işləyib. 1951-ci ildə ona dosent elmi adı verilib. 1953-cü ildə Lopatinski Məcid müəllimə elmi tədqiqatlarını davam etdirmək təklifi ilə müraciət edir və onu Lvov şəhərinə çağırır. O, bu təklifi qəbul edir və ailəsi ilə birlikdə Lvova köçür. Lvovda Lopatinskinin rəhbərliyi ilə elmi tədqiqatını davam etdirir, İvan Franko adına Lvov Dövlət Universitetinin Diferensial tənliklər kafedrasında dosent vəzifəsində çalışır. 1960-cı il martın 21-də Moskvada V.A.Steklov adına Riyaziyyat İnstitutunda "Xüsusi törəməli xətti diferensial tənliklər üçün sərhəd və qarışıq məsələlərin həlli üçün çıxıqlar üsulu" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Rəsmi opponentləri görkəmli riyaziyyatçılar M.A.Naymark və A.V.Bitsadze olub.

1960-cı ilin sentyabr ayından ADU-nun Mexanika-riyaziyyat fakültəsinin Ümumi riyaziyyat kafedrasının müdiri vəzifəsində çalışmağa başlayır. 1961-ci ilin sentyabrında ona professor elmi adı verilir. 1964-cü ildə rəhbərlik etdiyi kafedranın bazasında Riyazi fizika tənlikləri kafedrasını yaradır və ona rəhbərlik edir. Rəhbərliyi ilə 17 nəfər namizədlik dissertasiyası, iki nəfər doktorluq dissertasiyası müdafiə etmişdir.

1964-cü ildə Moskvanın "Hayка" nəşriyyatında, 1967-ci ildə İngiltərə Kral Cəmiyyətinin sifarişi ilə Hollandiyada Məcid Rəsulovun "Kontur inteqralı" adlı ilk monoqrafiyası çap olunur. 1965- 1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının (fizika-riyaziyyat elmləri seriyası) redaktoru olub.

1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1983-cü ildə həqiqi üzvü seçilmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Qırmızı Əmək Bayrağı" (1980) ordeni ilə təltif olunmuşdur, Əməkdar elm xadimi fəxri adına (1989) layiq görülmüşdür. 3 monoqrafiyası, 85 elmi məqaləsi nəşr edilib.

1993-cü il fevralın 11-də 77 yaşında Bakı şəhərində vəfat etmiş, I Fəxri xiyabanda dəfn olunmuşdur.

Maqsud Əlisimran oğlu Cavadov

AMEA-nın müxbir üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1902-1972).

13 aprel 1902-ci ildə İsmayıllı rayonunun Basqal kəndində anadan olub. İbtidai təhsilini Basqal kənd məktəbində alıb, 1914-1918-ci illərdə təhsilini Nuxa (indiki Şəki) gimnaziyasında davam etdirib. 1918-ci ildə doğma kəndlərində təsərrüfatla məşğul olub. 1920-1924-cü illərdə nahiyə müəssisələrində işləyib, kənd sovetinin katibi olub. 1924-1927-ci illərdə Ali Pedaqoji İnstitutun Təbiyyat fakültəsinin fizika-riyaziyyat şöbəsində təhsil alıb. 1927-1930-cu illərdə təhsilini universitetin Fizika-riyaziyyat fakültəsində davam etdirərək riyaziyyatçı ixtisasına yiyələnib. 1930-1932-ci illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspirantı olub. Pedaqoji fəaliyyətə 1927-ci ildə Bakı Sənaye Texnikumunda müəllim kimi başlayıb. 1930-1934-cü illərdə Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Riyaziyyat kafedrasında assistent, 1934-1938-ci illərdə Azərbaycan Dövlət Universitetində, Azərbaycan Pedaqoji İnstitutunda dosent, 1938-1972-ci illərdə Azərbaycan Dövlət Universitetinin Həndəsə kafedrasının müdiri, eyni zamanda, 1943-1944-cü illər ərzində universitetin Fizika-riyaziyyat fakültəsinin dekanı, 1944-1952-ci illərdə tədris işləri üzrə prorektoru, 1957-ci ildən Həndəsə kafedrasının professoru vəzifələrində çalışıb.

1938-ci ildə Riyaziyyat kafedrası üzrə dosent elmi adına layiq görülüb. 1940-cı ildə Moskva Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin Elmi Şurasında prof.P.K.Raşevskinin elmi rəhbərliyi ilə "Honometrik sis-

temlər” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb. Həmin əsər 1946-cı ildə monoqrafiya kimi nəşr olunub. 1957-ci ildə V.İ.Ulyanov-Lenin adına Kazan Dövlət Universitetinin Elmi Şurasında professor Boris Abramoviç Rozenfeldin elmi məsləhətçiliyi ilə “Cəbrlər üzərində həndəsələr və onların həqiqi həndəsələrdə tətbiqləri” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi alıb. 1959-cu ildə Həndəsə kafedrası üzrə professor elmi adına layiq görülüb. 1962-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilib. 30 ildən artıq müddətdə Maarif Nazirliyinin Elmi-metodik şurasının riyaziyyat bölməsinin rəhbəri olub. 20-yə yaxın kitabı, 80-dən çox elmi-metodik məqaləsi nəşr olunub. “Lenin” ordeni, iki dəfə “Qırmızı Əmək Bayrağı” ordeni və “Şərəf nişanı” ordeni ilə təltif edilmişdir. Əməkdar müəllim (1943), Əməkdar elm xadimi (1962) fəxri adlarına layiq görülüb. Azərbaycan KP MK-nın bürosunda Ulu öndər Heydər Əliyevin təkilifi ilə Sosialist Əməyi Qəhrəmanı adına təqdim edilsə də, Moskva görkəmli Azərbaycan aliminə həmin adı verməyib.

27 may 1972-ci ildə vəfat edib, ikinci Fəxri Xiyabanda dəfn olunub.

Mais Həbib oğlu Cavadov

AMEA-nın müxbir üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1929-1992)

22 mart 1929-cu ildə İsmayıllı rayonunun Basqal kəndində anadan olub. 1937-1947-ci illərdə Basqal kənd orta məktəbində, 1947-1952-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Fizika və riyaziyyat fakültəsində təhsil alıb. 1958-ci ildə Azərbaycan Dövlət Universitetində akademik Zahid Xəlilovun rəhbərliyi ilə “Qarışıq məsələlərin həllinin ümumiləşmiş funksiyalar sinfində araşdırılması” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb.

Mais Cavadov namizədlik dissertasiyasını müdafiə etdikdən sonra daha ciddi elmi axtarışlar aparmaq məqsədi ilə Moskva Dövlət Universitetinə ezam olunur. Moskvada akademik Tixonovun rəhbərlik etdiyi kafedrada öz-

özünə qoşma olmayan operatorlar nəzəriyyəsinin ciddi praktik əhəmiyyəti olan problemləri ilə məşğul olmağa başlayır. O, öz-özünə qoşma olmayan spektral məsələnin məxsusi funksiyalarının bir hissəsinin çoxqat tamlığını isbat edən ilk riyaziyyatçıdır. Onun bu sahədə aldığı nəticələr sonralar bir çox mexanika məsələlərinə uğurla tətbiq olunmuşdur. Mais Cavadov 1966-cı ildə Moskva Dövlət Universitetində "Öz-özünə qoşma olmayan operatorlar nəzəriyyəsinin bir sıra məsələləri və onların riyazi fizika məsələlərinə tətbiqi haqqında" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1952-1954-cü illərdə Azərbaycan SSR EA-nın Fizika və Riyaziyyat İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlayıb, 1954-1957-ci illər ərzində həmin institutda aspirant olub, 1959-1967-ci illərdə Azərbaycan SSR EA Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb, 1967-1968-ci illərdə həmin institutda Tətbiqi riyaziyyat şöbəsinə rəhbərlik edib. Uzun müddət V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda çalışıb. 11 mart 1970-ci ildə Ali Attestasiya Komissiyasının qərarı ilə Cavadov Mais Ali cəbr və həndəsə kafedrası, diferensial və inteqral tənliklər ixtisası üzrə professor elmi adına layiq görülüb. 1969-1992-ci illər ərzində ADPİ-nin Cəbr və ədədlər nəzəriyyəsi kafedrasının müdiri və professoru vəzifələrində çalışıb.

M.Cavadovun elmi rəhbərliyi ilə 9 nəfər elmlər namizədi yetişib, 60-dan çox elmi əsəri nəşr olunub. Onların yetirmələri arasında Hindistan, Vyetnam, Bolqarıstan, Orta Asiya respublikalarının da xeyli vətəndaşı olmuşdur.

30 sentyabr 1992-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Vaqif Sabir oğlu Quliyev
AMEA-nın müxbir üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1957)

1957-ci il fevralın 22-də Salyan rayonunda anadan olub. 1978-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1983-cü ildə Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin Müdafiə şurasında "Sinqulyar inteqral operatorların tədqiqi" mövzu-

sunda namizədlik, 1994-cü il Moskva şəhərində V.A.Steklov adına Riyaziyyat İnstitutunun ixtisaslaşdırılmış Müdafiə şurasında "Интегральные операторы в пространствах функций на однородных группах и на областях в R" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona 28 fevral 1997-ci ildə professor elmi adı verilib. 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilib.

1978-1983-cü illərdə AMEA-nın Kibernetika İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb. 1983-cü ildən BDU-nun Riyazi analiz kafedrasında assistent, baş müəllim, dosent, 1995-ci ildən 2009-cu ilədək professor vəzifəsində işləyib. AMEA Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi (2009-2014), Riyazi analiz şöbəsinin müdiri (2014-2015), 2015-ci ilin mayın 7-dən elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. O, həm də BDU-nun Riyazi analiz kafedrasında əvəzçiliklə professor vəzifəsində çalışır.

1999-2009-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyazi analiz kafedrasında əvəzçiliklə professor vəzifəsində çalışıb.

2 monoqrafiya (1996, 1999) və 250-dən çox elmi əsərin müəllifidir. Bunlardan 200-ü nüfuzlu xarici jurnallarda, o cümlədən 170-i impakt faktorlu xarici jurnallarda çap olunmuşdur. MathSciNet Mathematical reviews-də elmi əsərlərinə istinadlar 785, Google Scholarda isə elmi əsərlərinə istinadların sayı 2250-dir. 4 nəfər elmlər doktorunun elmi məsləhətçisi olmuş və 20 elmlər namizədi və riyaziyyat üzrə fəlsəfə doktoru hazırlamışdır. 1995-1997-ci illərdə AMEA Riyaziyyat və Mexanika İnstitutunda fəaliyyət göstərən ixtisaslaşdırılmış müdafiə şurasının üzvü olmuş, 1997-ci ildən 2002-ci ilədək və 2011-ci ildən 2013-cü ilədək respublika Prezidenti yanında Ali Attestasiya Komissiyasının riyaziyyat və mexanika üzrə ekspert şurasının üzvü olmuş, 2013-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərir.

Vaqif Quliyev Azərbaycan Riyaziyyat Cəmiyyətinin idarə heyətinin üzvü, "Journal of Nonlinear Sciences and Applications", "Applied and Computational Mathematics", "Eurasian Mathematical Journals", "Communications de la Faculté des Sciences de l'Université d'Ankara. Séries A1. Mathematics and Statistics", və "TWMS Journal of Pure and Applied Mathematics" beynəlxalq jurnallarının, "Proceedings of Institute of Mathematics and Mechanics of NAS of Azerbaijan", "Azerbaijan Journal of Mathematics", respublika jurnalları redaksiya heyətinin üzvü, "Caspian journal of applied mathematics, ecology and economics" jurnalının baş redaktorlarından biri, "AMEA-nın xəbərləri" (fizika-texnika və riyaziyyat elmləri seriyası) jurnalında riyaziyyat buraxılışının baş redaktorudur.

1993-cü ildə elmi işlərinin yüksək səviyyəsinə görə Vaqif Quliyev Amerika Riyaziyyat Cəmiyyətinin, 2002-ci ildə NATO-nun, 2008-ci ildə İNTAS layihəsinin mükafatlarına layiq görülüb.

Onun rəhbərliyi ilə hazırlanmış layihələr 2003 və 2007-ci illərdə 1-ci və 2-ci Azərbaycan-Amerika ikitərəfli Qrant Proqramı çərçivəsində müsabiqələrin, 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant müsabiqəsinin və 2018-ci ildə 1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsinin qalibi olmuşdur.

O, 2011, 2013 və 2014-cü illərdə Padova Universitetində (İtaliya) PhD fəlsəfə doktoru dissertasiya müdafiəsində komissar (opponent) kimi çıxış etmiş, 2000-ci ildə yüksəkixtisaslı kadrların hazırlanmasında səmərəli elmi-pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanı ilə təltif edilmiş, 2017-ci ildə 60 illik yubileyi münasibəti ilə AMEA-nın Rəyasət Heyəti tərəfindən Fəxri fərmanla təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən ilk dəfə olaraq keçirilmiş "2016-cı ilin alimi" mükafat müsabiqəsinin Fizika, riyaziyyat və texnika elmləri sahəsinin əsas nominasiya üzrə qalibi mükafatı ilə təltif edilmiş, 2017-ci ildə Türk Dünyası Riyaziyyat Cəmiyyəti Rəyasət Heyətinin üzvü seçilmişdir.



Aleksey Mitrafanoviç Ammosov

professor, Əmək Qəhrəmanı

(1873-1946)

31 dekabr 1873-cü ildə Tver quberniyasının Kaşine kəndində anadan olub. İlk təhsilini Həştərxan gimnaziyasında alıb. 1892 -ci ildə gimnaziyanı gümüş medalla bitirib. 1892-1897-ci illərdə Moskva Universitetinin Fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsində oxuyub. Universiteti birinci dərəcəli diplomla bitirdiyinə görə Astronomiya kafedrasında müəllim saxlanılıb. Az sonra Bakıya köçüb, burada qadın gimnaziyasında riyaziyyat müəllimi (1902), "Müqəddəs Nina" Xeyriyyə Cəmiyyətinin qadın təhsil müəssisəsində inspektor və pedaqoji sovetin sədri (1904), və "Müqəddəs Nina" Xeyriyyə Cəmiyyəti idarə heyətinin üzvü (1909) seçilib.

Bakıda xalq universitetinin təşkilatçılarından biri olub. İdarə heyətinin üzvü kimi 1903-1910-cu illərdə xalq universitetində astronomiya və riyaziyyat müəllimi işləyib. Tümpyuk (indiki Krasnodar) vilayətində şəhər realnı məktəbinin direktoru (1910-1912), Kutaisi realnı məktəbinin direktoru (1913-1919-cı illər) vəzifələrində çalışıb. 1911-ci ildə xüsusi müşavir statusu alan Aleksey Ammosov bir il sonra Tümpyuk dairə məhkəməsinə fəxri hakim seçilib. 1917-ci ildə üzvü olduğu Müəllimlər İttifaqının əsasında yaradılan "Bakı qəzası və Dağıstan vilayəti müəllimlərinin ittifaqı"nın idarə heyətinin üzvü seçilib, bir il sonra həmin təşkilata rəhbərlik edib.

Bakıdakı 8 №-li II dərəcəli məktəbdə riyaziyyat müəllimi işləməklə bərabər, Azərbaycan Maarif Komissarlığında məktəblər şöbəsinin təlimatçısı vəzifəsində çalışıb. 1920-ci ildən ADU-nun Fizika-riyaziyyat kafedrasında və Bakı Politexnik İnstitutunun Ali riyaziyyat kafedrasında müəllim işləyib. 3 il ADU-nun, 5 il Bakı Politexnik İnstitutunun Elmi Şurasının katibi olub. 1928-ci ildə ona dosent, 1931-ci ildə professor elmi adı verilib. 25 il (1920- 1946) fasiləsiz olaraq Azərbaycan Neft İnstitutunda işləmiş, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (institut Bakıdan köçənə qədər) və Azərbaycan qiyabi Neft İnstitutunda (institut Azərbaycan Neft İnstitutu ilə birləşənə qədər) Ali riyaziyyat kafedrasının müdiri vəzifələrində çalışıb. Eyni zamanda 30-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunun Riyaziyyatın tədrisi metodikası kafedrasına rəhbərlik edib

Azərbaycan Xalq Maarif Komissarlığında peşə-ixtisas təhsili baş idarəsində Elmi-texniki şuranın (1920-1921), Elmi metodik şuranın (1924-1925), QUS-un (DEŞ) pedaqoji şöbəsinin (1928-1930) üzvü olub.

Riyaziyyatın tədrisi metodikasına dair Azərbaycan dilində çap edilmiş "Riyaziyyat metodikası"(1928) "Pedaqoji texnikumlar üçün riyaziyyat kursu" (şərikli) (1929) kitabının müəllifidir.

Respublikada riyazi təhsilin inkişafı, müəllim kadrlarının hazırlanması və təkmilləşməsi sahəsindəki fəaliyyətini yüksək qiymətləndirən Ali Attestasiya Komissiyası 17 iyun 1938-ci ildə ona dissertasiya müdafiə etmədən fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi vermişdir.

Bakı şəhər Sovetinin deputatı olub, "Şərəf Nişanı" ordeni, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı və müxtəlif medallarla təltif edilib. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 16 sentyabr 1934-cü il qərarı ilə 35 illik səmərəli elmi-pedaqoji fəaliyyətinə görə "Əmək Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

1946-cı il dekabrın 3-də vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Tahir Həsən oğlu Abdullayev
fizika-riyaziyyat elmləri doktoru, professor
(1904-1978)

1904-cü il dekabrın 25-də Qazaxda anadan olmuş, 1921-ci ildə Qazax Müəllimlər Seminariyasını bitirmiş, 1924-cü ildə Bakıda Ali Pedaqoji Məktəbin fizika-riyaziyyat fakültəsini, 1930-cu ildə ADU-nun fizika-riyaziyyat fakültəsinin riyaziyyat bölməsini bitirmişdir. 1948-ci ildə "Adi diferensial tənliklər üçün sərhəd məsələsinin fərqlər üsulu ilə həlli" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Əmək fəaliyyətinə 1924-cü ildə Qazax müəllimlər seminariyasında başlamış, 1927-ci ilə qədər burada çalışmışdır. 1927-ci ildən 1934-cü ilə qədər Bakı Sənaye texnikumunda riyaziyyat müəllimi işləmiş, 1934-cü ildə APİ-yə köçürülmüş, 1936-cı ilə qədər fizika-riyaziyyat fakültəsində assistent və dosent vəzifələrində çalışmışdır. 1936-1943-cü illərdə ADU-nun "Riyazi analiz" kafedrasının dosenti olmuşdur.

1943-1945-ci illərdə II Dünya Müharibəsində iştirak etmiş, 1947-ci ildən 1962-ci ilə qədər ADU-nun professoru olmuş, 1962-ci ildən Azərbaycan Politexnik İnstitutunun "Ali riyaziyyat" kafedrasına müdir seçilmiş, 1969-cu ilə qədər həmin kafedraya rəhbərlik etmiş, 1976-cı ilə qədər həmin kafedranın professoru, 1976-cı ildən isə həmin kafedrada professor-konsultant olmuşdur. O, 20-dən çox elmi əsərin müəllifidir.

1978-ci ildə Bakıda vəfat etmişdir

Bəylər Əbdülrəhim oğlu Ağayev
pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim
(1906-1987)

12 may 1906 -cı ildə Şuşa şəhərində anadan olub. İlk təhsilini rus-tatar məktəbində, sonra isə Şuşa pedaqoji məktəbində (1920-1925) alıb. 1925 -ci ildə Füzuli (keçmiş Qaryagin) rayonundakı Cuvarlı kənd ibtidai məktəbinə müdir və müəllim təyin olunub. 1926-1929-cu illərdə Füzuli rayonundakı

ikinci dərəcəli məktəbdə riyaziyyat müəllimi işləyib. Xalq Maarif Komissarlığının tövsiyəsi ilə ali təhsil almaq məqsədilə S.M.Kirov adına ADU-nun Pedaqoji fakültəsinin riyaziyyat şöbəsinə göndərilib. ADU-nun müvafiq fakültəsi əsasında Pedaqoji İnstitut təşkil edildiyindən 1932-ci ildə həmin institutun Fizika-riyaziyyat fakültəsini bitirib. 1932-1936-cı illərdə Azərbaycan SSR Maarif Komissarlığında metodist işləyib. 1934 -cü ildə ADPİ-yə saathesabı riyaziyyat müəllimi dəvət olunub, 1936-cı ildə tam ştata keçirilib. 1936-1957-ci illərdə ADPİ-də çalışıb. 1940-1941-ci illərdə fakültə dekanı, 1944-1946 və 1950-1951-ci illərdə tədris və elmi işlər üzrə direktor müavini işləyib. Müharibə illərində Pedaqoji İnstitut ADU-ya birləşdirildiyindən orada prorektor vəszifəsində çalışıb. 1934-1937-ci illərdə həm də "Müəllimə kömək" jurnalının məsul katibi olub.

1942-1944 -cü illərdə 30-cu diviziyanın 66-cı polkunda (Qroznı şəhəri) hərbi xidmət keçib. 1946-cı ildə ADPİ-də Riyaziyyatın tədrisi metodikası kafedrasını təşkil edib və 5 il həmin kafedraya rəhbərlik edib. 1951- 1954-cü ildə Azərb.ETPEİ-də direktor vəzifəsində çalışıb. Direktor olarkən 1952 və 1954-cü illərdə 6 nəfərlik mütəxəssislər qrupu ilə birlikdə riyazi-pedaqoji təhsilin təşkilinə və inkişafına kömək məqsədilə Bolqarıstan Xalq Respublikasında olub. 1954-1957-ci illərdə ADPİ-də, 1957-1976-cı illərdə ADU-da elmi-pedaqoji fəaliyyət göstərib.

1946-cı ildən Sov.İKP-nin üzvü olan Bəylər Ağayev ayrı-ayrı vaxtlarda ADPİ-nin və ADU-nun partiya komitəsinin katibi olub. 1957-1968-ci illərdə ADU-da dosent, 1968-1975-ci illərdə professor vəzifəsində çalışıb. 1975-ci ildən Fərdi təqaüdçü olub.

13 sentyabr 1949-cu ildə ilk dəfə riyaziyyatın tədrisi metodikası ixtisası üzrə namizədlik, 13 sentyabr 1968-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 14 oktyabr 1968-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən ona pedaqoji elmlər doktoru elmi adı verilib. 20 iyun 1969-cu ildə ADU-nun Cəbr və həndəsə kafedrasına professor vəzifəsinə seçilən Bəylər Ağayevə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən 12 avqust 1969-cu ildə professor adı verilib. 1976-cı ildən ADPİ-nin Riyaziyyat və onun orta məktəbdə tədrisi metodikası kafedrası üzrə 0,5 ştat professor-məsləhətçi qəbul edilib. 1982-ci ildə öz xahişi ilə tutduğu vəzifədən azad olunub.

"1941-1945-ci illərdə Böyük Vətən müharibəsinin iyirmi illiyi", 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində əməkdə şücaət" medalları, ADU-nun, ADPU-nun, "Bilik" cəmiyyətinin Fəxri Fərmanları ilə təltif olunub. Elmi rəhbərliyi ilə 9 nəfər namizədlik dissertasiyası müdafiə edib.

1969-cu ildə ona Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Əməkdar müəllim fəxri adı verilib. Onun "Riyaziyyat tədrisi metodikası" (1961), "Azərbaycan sovet məktəbində riyaziyyatın tədrisi tarixinə dair" (1964), "Riyaziyyat məsələləri. Həlli ilə. I hissə. (1967), "Riyaziyyat məsələləri. Həlli ilə. II hissə. (1962), "Riyaziyyat tədrisi metodikası" (qiyabiçi tələbələr üçün metodik göstəriş) (1966), "Səkkizillik məktəbdə riyaziyyatın tədrisi metodikası" (1972) kitabları və 100-dən artıq məqaləsi nəşr olunub.

1987-ci ilə Bakı şəhərində vəfat edib.

Sadıx Nəcəfalı oğlu Sadıxov

pedaqoji elmlər namizədi, professor
(1913-1987)

13 yanvar 1913-cü ildə Salyan şəhərində anadan olub. 1920-1929-cu illərdə Salyan şəhərindəki 3 №-li məktəbdə oxuyub. 1929-1930-cu illərdə Salyan rayonunun Cəngan kəndində ibtidai məktəb müəllimi işləyib. 1930-1931-ci illərdə V.İ.Lenin adına ADPİ-nin hazırlıq kursunda, 1931-1936-cı ildə həmin institutun Fizika-riyaziyyat fakültəsində oxuyub. 1936-1942-ci illərdə Bakı şəhərindəki 1№-li axşam məktəbinin direktoru olub. 1942-ci ildə hərbi xidmətə çağırılıb. Ağır yaralandığına görə ordudan tərxis edilib. 1942-44-cü illərdə Bakı dənizçilik məktəbində riyaziyyat müəllimi işləyib. 1943-cü ildə Xəzər tankerində siyasi şöbənin rəisi olub. Həmin vəzifə ixtisar edildiyindən Çaparidze rayon Xalq Deputatları Soveti sədrinin müavini təyin edilib. 1946-cı ildə həmin vəzifədən azad olunduğundan müəllimlik fəaliyyətini davam etdirib, Bakı şəhəri 132 №-li məktəbdə riyaziyyat müəllimi işləyib.

1955 -ci ildən ömrünün sonuna kimi V.İ.Lenin adına ADPİ-də işləyib. 1955-1960 -cı illərdə ADPİ-nin Elementar riyaziyyat kafedrasında müəllim, 1960- 1967-ci illərdə baş müəllim, 1967-1984 -cü illərdə dosent, 1984-90 -cı illərdə professor vəzifəsində çalışıb. 17 oktyabr 1966-cı ildə Fizika-riyaziy-

yat fakültəsinin əyani şöbəsinin dekan müavini təyin olunub. 4 dekabr 1968-ci ildə Fizika-riyaziyyat fakültəsinin bazasında Fizika və Riyaziyyat fakültələri yarananda o, Fizika fakültəsinin dekan müavini təyin edilib və 13 noyabr 1970 -ci ilə kimi həmin vəzifədə çalışıb.

6 mart 1966-cı ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Şurasında riyaziyyatın tədrisi metodikası ixtisas üzrə dissertasiya müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 4 mart 1967-ci ildə pedaqoji elmlər namizədi elmi dərəcəsi, 22 iyul 1970-ci ildə dosent elmi adı verilib. 27 dekabr 1974-cü ildə Elementar riyaziyyat və riyaziyyatın tədrisi metodikası kafedrasına müdir vəzifəsinə seçilib. 8 dekabr 1975-ci ildə həmin kafedranın adı Riyaziyyat və onun orta məktəbdə tədrisi metodikası adlandırılıb. O, 20 oktyabr 1987-ci ilə kimi həmin kafedranın müdiri olub. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 22 fevral 1985-ci ildə Riyaziyyat və onun tədrisi metodikası kafedrası üzrə professor elmi adı verilib.

SSRİ və Azərbaycan SSR maarif nazirliklərinin, habelə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirliyinin Elmi-metodik şurasının üzvü olub. Elmi rəhbərliyi ilə 5 nəfər namizədlik dissertasiyası müdafiə edib. V.İ.Lenin adına ADPİ-nin 50 illik yubileyi ilə əlaqədar olaraq 2 mart 1973-cü ildə ona Əməkdar müəllim fəxri adı verilib. Müharibə və əmək veteranı, "SSRİ Maarif əlaçısı", "Azərbaycan SSR Maarif əlaçısı" olub. SSRİ Ali Soveti Rəyasət heyəti tərəfindən 5 medalla təltif olunub.

Riyaziyyatın tədrisi metodikası ilə bağlı 16 dərslik və dərs vəsaitinin, 85 elmi-metodiki məqalənin müəllifi olub. 1987-ci ildə Bakı şəhərində vəfat edib.

Şamil İsmayıl oğlu Vəkilov

fizika-riyaziyyat elmləri namizədi, professor
(1916-2004)

5 sentyabr 1916 -cı ildə Bakı şəhərində anadan olmuşdur. Mərdəkan 7 illik məktəbində, N.Nərimanov adına Sənaye Texnikumunda (1930-1936), S.M.Kirov adına ADU-nun Fizika-riyaziyyat fakültəsində (1936-1941) təhsil almışdır. 1941-1944-cü illərdə Bakı şəhərinin müxtəlif məktəblərində fizika və riyaziyyat

müəllimi işləmişdir. 1943-1971-ci illərdə Azərbaycan EA-da kiçik elmi işçi (1943-1952), baş elmi işçi (1952-1954), Riyazi fizika şöbəsinin müdiri (1957-1971) vəzifələrində çalışıb. Əvəzçiliklə 1944- 1948-ci illərdə ADPİ-də, 1949-1970-ci illərdə ADU-da müəllim kimi çalışıb.17 aprel 1952-ci ildə S.M.Kirov adına ADU-nun Elmi şurasında "Harmonik funksiyalar heyətinə məxsus xətti və qeyri xətti sərhəd məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 28 sentyabr 1971-ci ildə müsabiqə yolu ilə ADPİ-nin Ümumi riyaziyyat kafedrasına müdir və dosent vəzifəsinə seçilib. 1971 -1978-ci və 1976-1988-ci illərdə Ümumi riyaziyyat kafedrasının müdiri, 1978-1980-ci illərdə Riyaziyyat fakültəsinin dekanı vəzifəsində çalışıb. 21 dekabr 1977-ci ildə Ümumi riyaziyyat kafedrasına professor vəzifəsinə seçilmişdir. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 17 aprel 1952-ci ildə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi, 30 mart 1955-ci ildə baş elmi işçi elmi adı, 30 dekabr 1975-ci ildə Ümumi riyaziyyat kafedrası üzrə dosent, 29 iyul 1979-cu ildə professor elmi adı verilmişdir. 30 aprel 1993-cü ildə Hesablama riyaziyyat və ehtimal nəzəriyyəsi kafedrasına professor, 9 mart 1994-cü ildə isə professor-məsləhətçi təyin edilmişdir. 1 dekabr 2004-cü ilə qədər həmin vəzifədə çalışmışdır. 5 kitabın, 40 elmi məqalənin müəllifidir. "Riyazi analiz" dərsliyi uzun müddət tələbələrin stol-üstü kitabı olub.

15 noyabr 2004-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Əli Səttar oğlu Cəfərov

fizika-riyaziyyat elmləri namizədi, professor

(1927-2006)

1927-ci il aprelin 4-də Füzuli rayonunun Horadiz kəndində anadan olub. 1934-1942-ci illərdə Bakı şəhərindəki 136 №-li məktəbdə, 1942-1943-cü illərdə Qaryagin rayonunun Əhmədalılar kənd məktəbində təhsil alıb. 9-cu sinfi bitirən Əli Cəfərov 1943-1944-cü illər Horadiz kəndindəki kolxozda ferma mühasibi, 1945-ci ildə isə Mincivan dəmiryol stansiyasında briqadir vəzifələrində çalışıb. 1945-1946-cı illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun

hazırlıq kursunda, 1946-1950-ci illərdə həmin institutun Fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsində təhsil alıb.

1950-1953-cü illərdə ADPİ-nin Riyazi analiz kafedrasında aspirant olub, 1953-1954-cü illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunda müəllim, baş müəllim işləyib. 22 aprel 1954-cü ildə APİ-nin Elmi Şurasında akademik İbrahim İbrahimovun rəhbərliyi ilə "Çoxdəyişənli funksiyaların sonlu tərtibli tam funksiyalar və çoxhədlilər vasitəsilə orta mənada ən yaxşı yaxınlaşması haqqında " mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona 20 aprel 1957-ci ildə Riyazi analiz kafedrası üzrə dosent elmi adı, 21 oktyabr 1959-cu ildə Funksiyalar nəzəriyyəsi ixtisası üzrə baş elmi işçi diplomu verilib.

APİ-nin Fizika-riyaziyyat fakültəsində müəllim, dosent (1957-1959), AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi (1959-1965) vəzifəsində çalışıb.

1969-1971-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinin dekanı olub. 1969-1974 və 1989- 1998-ci illərdə ADPU-nun Riyazi analiz kafedrasına rəhbərlik edib. 1981-ci ildə Riyazi analiz kafedrasına professor vəzifəsinə seçilən Əli Cəfərova 26 may 1994-cü ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən, 7 yanvar 2005-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən professor elmi adı verilib. Onun funksiyaların sonlu dərəcəli tam funksiyalar və sanki periodik çoxhədlilər vasitəsilə ən yaxşı yaxınlaşmalarına dair düz və tərs teoremlərin meydana gəlməsi ilə bağlı aldığı elmi nəticələr C.M.Nikolskinin, O.B.Besovun,V.P.İlyinin monoqrafiyalarına daxil edimiş, macar riyaziyyatçısı Q.Freydin, alman riyaziyyatçısı X.Tribelin, bolqar alimi B.X.Sendovun, akademik İ.İ.İbrahimovun monoqrafiyalarında geniş istifadə edilmişdir.

Elmi nəticələr özü tərəfindən daxil edilmiş diferensiallanan funksiyalar sinifləri üçün daxilolma teoremləri nəzəriyyəsi yaratmaq imkanı vermişdir. Xüsusi halda bu nəzəriyyənin köməyi ilə Ə.Cəfərov akademik S.L.Sobelev tərəfindən hipoteza şəklində qoyulmuş bir problemin həllini vermişdir.

Elmi rəhbərliyi ilə 26 nəfər riyaziyyat elmləri namizədi yetişib ki, hazırda onlardan 3 nəfəri elmlər doktorudur. 100-dən çox elmi əsərin, o cümlədən 5 dərs vəsaitinin müəllifi olub.

16 may 2006-cı ildə Bakı şəhərində vəfat edib.

Qardaşxan Əliməmməd oğlu Orucov
fizika-riyaziyyat elmləri doktoru,
professor,
Əməkdar müəllim
(1931-2015)

21 oktyabr 1931-ci ildə Qərbi Azərbaycanın Sisian rayonunun Ağudi kəndində anadan olub. 1946-1949-cu illərdə Sisian rayonu Vağudi kənd orta məktəbində, 1949-1954-cü illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsində oxuyub. 1954-1957-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyazi analiz kafedrasının aspirantı olub.

25 dekabr 1958-ci ildə ADPİ-nin Elmi Şurasında akademik İbrahim İbrahimovun rəhbərliyi ilə "Rasional kəsrlərin interpolyasiya sıralarının yığılması haqqında" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

V.İ.Lenin adına ADPİ-nin Riyazi analiz kafedrasında assistent (1957-1959), baş müəllim (1959-1964), dosent (1964-1996)vəzifələrində çalışıb. 1971-1974-cü illərdə ADPİ-nin Riyaziyyat fakültəsinə, 1984-1996-cı illərdə Riyazi analiz kafedrasına rəhbərlik edib. 1995-ci ildə "Kompleks parametrlərindən asılı olan qeyri-məxsusi Stiltyes inteqralları və onların tətbiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 14 mart 1997-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi, 25 aprel 2003-cü ildə Funksiyalar nəzəriyyəsi kafedrası üzrə professor elmi adı verilib. Funksiyalar nəzəriyyəsi kafedrasında dosent (1996-1997), professor (1997-1913) vəzifələrində çalışıb.1997-2012-ci illərdə həmin kafedraya rəhbərlik edib. 50-yə yaxın elmi əsərin müəllifidir.

1945-ci ildə "Şanlı əmək" ordeni, "Böyük vətən müharibəsinin yubiley medalı, "Ali təhsil əlaçısı" döş nişanı ilə təltif olunub. 26 dekabr 2006-cı ildə ona Əməkdar müəllim fəxri adı verilmişdir.

2015-ci ildə Bakı şəhərində vəfat edib.

Rəşid Həmid oğlu Məmmədov

fizika-riyaziyyat elmləri doktoru, professor
(1931-2000)

27 dekabr 1931-ci ildə Qazax rayonunun Daşsalahlı kəndində anadan olub. 1938-1948-ci illərdə kənd orta məktəbində, 1948-1952-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsində, 1952-1954-cü illərdə aspiraturasında təhsil alıb. 24 may 1954-cü ildə "Funksiyaların polinomlarla və tam funksiyalarla yaxınlaşmasının bəzi problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1953-1960-cı illərdə ADPİ-nin Riyazi analiz kafedrasında assistent, baş müəllim və dosent vəzifələrində işləyib. 1960-1963-cü illərdə Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi, 1963-1969-cu illərdə Azərbaycan Politexnik İnstitutunda dosent və professor vəzifələrində çalışıb. 1964-cü ildə Leninqrad şəhərində "Некоторые вопросы приближения функций линейными операторами " mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1969-1995-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Ali riyaziyyat kafedrasına rəhbərlik edib. Riyaziyyatın funksiyalar nəzəriyyəsi sahəsində dünyada tanınmış alim olan Rəşid Məmmədovun 43 dərsliyi və dərs vəsaiti, 5 monoqrafiyası çap olunub.

2000-ci ildə 68 yaşında Bakı şəhərində vəfat edib.

Əlif Məmmədhəsən oğlu Məmmədov

fizika-riyaziyyat elmləri namizədi, professor
(1933)

21 mart 1933-cü ildə Astara rayonu Təngərüd kəndində anadan olub. 1940-1947-ci illərdə Təngərüd orta məktəbində təhsil alıb. Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq kəndlərindəki orta məktəb yeddiillik məktəbə çevrildiyindən VIII-X sinifləri Pensər orta məktəbində oxuyub (1947-1950). 1950-

1954-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutun Fizika-riyaziyyat fakültəsində təhsil alıb. 1954-1962-ci illərdə Pensər orta məktəbində müəllim, rayon xalq maarif şöbəsində inspektor və Pensər kənd orta məktəbində direktor vəzifələrində işləmişdir.

1962-ci ildə Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunun əyani aspiranturasına daxil olub. Həmin dövrdə o, Riyaziyyat və Mexanika İnstitutunun nəzdində təşkil edilən "İstedadlı şagirdlər" məktəbinin direktoru olub. 1963-1970 -ci illərdə fəaliyyət göstərən həmin məktəb sonralar internat məktəbinə çevrilib.

1966-cı ildə Bakı Dövlət Universitetində namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alır. Onun tədqiqatının əsas istiqamətini təqribi analizdə ədədi-nəzəri metodlar təşkil edir. Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb. 1970-1989-cu illərdə ADPİ-nin Hesablama riyaziyyatı və ehtimal nəzəriyyəsi kafedrasında dosent vəzifəsində işləyib. 1989-cu ildən həmin kafedranın professoru vəzifəsinə seçilib. 1991-ci ildə SSRİ Ali Attestasiya Komissiyası onun elmi professor elmi adını təsdiq edib.

O, Riyaziyyat fakültəsində həmkarlar və partiya təşkilatı katibi, institut partiya komitəsinin üzvü olub. 1978-1981-ci illərdə Riyaziyyat fakültəsinin dekanı vəzifəsində çalışıb. Bir müddət Bakı şəhəri və Respublika riyaziyyat olimpiadasına rəhbərlik edib.

Ümumtəhsil məktəb proqramlarına "İnformatika və hesablama texnikası" fənninin daxil edilməsi məqsədi ilə yaradılan işçi komissiyanın üzvü kimi eksperimentlərin keçirilməsində, proqram və tədris vəsaitlərinin hazırlanmasında iştirak edib.

1965-ci ildən başlayaraq Azərbaycanda və keçmiş SSRİ-də riyaziyyat, informatika və hesablama texnikası ilə bağlı keçirilən elmi konfransların iştirakçılarından biri olub. 20 il Təhsil Nazirliyində İnformatika Elmi-Metodik Şuranın sədri olub.

Elmi rəhbərliyi ilə 11 nəfər elmlər namizədi alim yetişmişdir.

İnformatika, proqramlaşdırma, hesablama riyaziyyatı, ehtimal nəzəriyyəsi və orta məktəb riyaziyyat kursu ilə bağlı 43 dərslik və dərs vəsaitinin, 270-dən çox elmi-metodiki məqalənin müəllifidir.

Beykəs Həbibulla oğlu İmranov
pedaqoji elmlər doktoru, professor
(1934-2008)

5 may 1934-cü ildə Göyçay rayonunun Alxasova kəndində anadan olub. Kənd yeddiillik məktəbində və Göyçay Pedaqoji Texnikumunda (1946-1950) təhsil alıb. 1950-1951-ci illərdə Göyçay İncə kənd 7 illik məktəbində müəllim işləyib. 1951-1953 -cü illərdə Nuxa ikiillik Müəllimlər İnstitutunda, 1954-1958 -ci illərdə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinin riyaziyyat müəllimliyi ixtisasında təhsil alıb. İnstitutu bitirdikdən sonra Göyçay rayonunun Alpoud kəndində riyaziyyat müəllimi (1953-1959), Göyçay rayon Partiya Komitəsində təlimatçı (1959-1961), S.M.Kirov adına ADU-da baş laborant (1961-1964), Göyçay rayon Alxasova kəndində məktəb direktoru (1964-1970), ADU-da kiçik elmi işçi (1970-1972), Bakı şəhərindəki 10 №-li axşam məktəbində riyaziyyat müəllimi (1971-1977) vəzifələrində işləyib. 1977-ci ildən ömrünün sonuna kimi V.İ.Lenin adına ADPİ-də müxtəlif vəzifələrdə işləmişdir.

13 mart 1974-cü ildə Daşkənd şəhərində namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi yanında AAK tərəfindən 17 iyun 1974-cü ildə ona pedaqoji elmlər namizədi elmi dərəcəsi, 15 sentyabr 1980-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən dosent elmi adı verilmişdir. 1977-1983-cü illərdə V.İ.Lenin adına APİ-də dosent, 1986-1987-ci illərdə baş elmi işçi, 16 aprel 1997-ci ildə Rusiya Federasiyası AAK tərəfindən, 10 iyul 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən pedaqoji elmlər doktoru elmi dərəcəsi, 16 may 2003-cü ildə professor elmi adı verilib.

2003-2008 -ci illərdə Riyaziyyatın tədrisi metodikası kafedrasına professor vəzifəsində çalışıb. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası ilə bağlı 50-dən artıq elmi əsərin müəllifidir.

26 iyun 2008-ci ildə Bakı şəhərində vəfat etmişdir

Sasun Yakuboviç Yakubov
fizika-riyaziyyat elmləri doktoru, professor
(1935)

11 oktyabr 1935-ci ildə Bakı şəhərində anadan olub. 1953-cü ildə Bakıda orta məktəbi, 1958-ci ildə ADU-nun Fizika-riyaziyyat fakültəsinin riyaziyyat bölməsini bitirib. Universitet təhsilini başa vurduqdan sonra AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda əmək fəaliyyətinə başlayıb.

1962-ci ildə Bakıda akademik Z.Xəlilovun rəhbərliyi ilə "Некоторые вопросы теории симметрических и симметризуемых операторов, действующих в банаховых пространствах" mövzusunda namizədlik, 1969-cu ildə Rusiyanın Voronej şəhərində "Разрешимость задачи Коши для эволюционных уравнений и краевых задач для нестационарных дифференциальных уравнений в частных производных" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1976-cı ildə ona professor elmi adı verilib.

1970-1974 və 1981-1990-cı illərdə Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunda şöbə müdiri, 1974-1981-ci illərdə ADPİ-də Riyazi analiz kafedrasının müdiri vəzifələrində çalışıb. 1990-cı ildə ailəsi ilə birlikdə İsrail dövlətinə köçən Sasun Yakubov 1991-2003-cü illərdə İsrailin Hayfa Universitetinin professoru olmuşdur.

"Линейные дифференциально-операторные уравнения и их приложения"(1985), "Completeness of root functions of requlal differential operators" (Logman, Scientific and Technical, New York. (1994), "Differential-operator equations. Ordinary and partial differential equations" (oğlu Yakov Yakubovla birlikdə) (Chapman and Hall/CRC, Boca Raton (2000) adlı monoqrafiyaların və nüfuzlu jurnallarda nəşr olunmuş 100-dən artıq elmi məqalənin müəllifidir.

Elmi rəhbərliyi ilə 25 nəfər fizika-riyaziyyat elmləri namizədi yetişmişdir ki, hazırda onlardan 5 nəfəri fizika-riyaziyyat elmləri doktorudur.

2003-cü ildə təqaüdə çıxmışdır. Hal-hazırda ailəsi ilə birlikdə İsrailin Netanya şəhərində yaşayır.

Yusif Camulla oğlu Salmanov
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1938-2009)

1938-ci il iyunun 1-də Şamaxıda anadan olub. 1957-ci ildə Bakı şəhərində orta məktəbi bitirib. 1957-1962-ci illərdə ADU-nun Mexanika-riyaziyyat fakültəsində təhsil alıb. 1962-1965-ci illərdə Moskva Dövlət Universitetinin aspirantı olub. 1967-ci ildə SSRİ EA-nın V.A.Steklov adına Riyaziyyat İnstitutunda akademik S.M.Nikolskinin rəhbərliyi ilə "Şturm-Liuvill və güclü cırlaşan sərhəd məsələləri ilə bağlı məsələlər" mövzusunda namizədlik, 1999-cu ildə Bakı Dövlət Universitetində "Çəkili daxilolma teoremləri və ixtiyari ölçülü çoxobrazlılardan ibarət sərhəddə güclü cırlaşan elliptik tənliklərin variasiya metodu ilə həllinə tətbiqləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Onun tədqiqatlarında bütün sərhəddə güclü cırlaşan funksiyalardan ibarət çəkili fəzalar üçün Puankare tipli bərabərsizliklər alınmış, ixtiyari ölçülü çoxobrazlılarda çəkili fəzalar üçün iz teoremləri və daxilolma teoremləri isbat edilmiş, alınan nəticələr güclü cırlaşan yüksək tərtibli xətti və qeyri-xətti elliptik tənliklər üçün qoyulmuş sərhəd məsələlərinin tədqiqinə tətbiq olunmuşdur.

Əmək fəaliyyətinə 1962-ci ildə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda baş laborant kimi başlayıb. 1966-1967-ci illərdə həmin institutda kiçik elmi işçi, 1967-2003- cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyazi analiz kafedrasında dosent, 2003-2009-cu illərdə professor vəzifəsində çalışıb.

Funksiyalar nəzəriyyəsi sahəsində tanınmış mütəxəssis Y.Salmanovun "Riyazi fizika tənliklərinə aid məsələlər "(Ş.Salmanova ilə birlikdə) (2005), "Riyazi fizika tənlikləri" (2005) kitabları, 60-dən artıq elmi məqaləsi nəşr olunub. 40-dan artıq məqaləsi xarici ölkələrin nüfuzlu jurnallarında nəşr edilib.

19 avqust 2009-cu ildə Bakı şəhərində vəfat edib.

Azadxan Səfərxan oğlu Adıgözəlov
pedaqoji elmlər doktoru, professor
(1940)

20 dekabr 1940-cı ildə Mərəzə (hazırda Qobustan) rayonunun Bəklə kəndində anadan olub. 1948-1953-cü illərdə Bəklə kəndində ibtidai, 1953-1956-cı illərdə Nabur kəndində yeddiillik və 1956-1959-cu illərdə Nərimanov kənd orta məktəblərində oxuyub. 1959-1960-cı illərdə kənd təsərrüfatında işləyib.

1960-1965 -ci illərdə V.İ.Lenin adına ADPİ-nin (indiki ADPU-nun) Fizika-riyaziyyat fakültəsində riyaziyyat-rəsmxət ixtisası üzrə təhsil alıb.

1965-1968 -ci illərdə Şamaxı rayonunun 6 №-li üzümçülük sovxozundakı (hazırda Şəhriyar qəsəbəsindəki) səkkizillik məktəbdə və Şamaxı şəhər axşam (növbəli) fəhlə gənclər orta məktəbində müəllim, həm də Şamaxı RXMŞ-da filmoteka müdiri işləyib.

1968-ci ildə ADPİ-nin Elementlər riyaziyyat və riyaziyyatın tədrisi metodikası kafedrasına müəllim vəzifəsinə seçilib. Həmin ildən başlayaraq kafedrada "Həndəsənin rəsmxətlə əlaqəli təlimi" mövzusunda elmi-tədqiqat işləri aparıb. Bunların nəticəsi olaraq "Orta məktəbdə stereometriyanın rəsmxətlə əlaqəli təlimi" mövzusunda dissertasiya müdafiə edərək (1979) pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. 1983-cü ildə ona dosent elmi adı verilib.

1992-ci ildə "Fasiləsiz təhsil şəraitində məktəb riyaziyyat kursunun fənlərarası əlaqə əsasında reallaşdırılması" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1993-cü ildə Riyaziyyat və onun tədrisi metodikası kafedrasına professor vəzifəsinə seçilib. 2003-2019-cu illərdə Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, Riyaziyyat və informatika fakültəsi Elmi Şurasının və Universitetin nəzdindəki Dissertasiya Şurasının üzvü olub.

15-dən artıq dərs vəsaitinin, 10-dan artıq tədris-metodik vəsaitin, 150-dən artıq elmi-metodik jurnal məqaləsinin müəllifidir. "İbtidai siniflərdə riyaziyyatın tədrisi metodikası" (2006), "Orta məktəbdə riyaziyyat tədrisi metodikası (ümumi metodika)" (2015), "Elementar cəbr" (2011), "Elementar həndəsə" (2018) və "Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları" (2018) adlı dərslik və dərs vəsaitləri nəşr olunub. Elmi rəhbərliyi ilə 16 nəfər namizədlik dissertasiyası müdafiə edib. 20 nəfər tədqiqatçının dissertasiya işinin rəsmi opponenti olub.

2010-2013-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü olub.

2013-cü ildə Almaniyanın Hannover şəhərində Beynəlxalq Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilib, Akademiyanın döş nişanı ilə təltif olunub.

Yafəs Rəsul oğlu Baxşəliyev
pedaqogika üzrə elmlər doktoru
(1940-2012)

1940-cı il fevralın 5-də Qərbi Azərbaycanın Qafan rayonunun Pəyhan kəndində anadan olub. 1954-cü ildə Pəyhan kənd 7 illik məktəbində təhsilini başa vuran Yafəs Baxşəliyev 1957-ci ildə Kığı kənd orta məktəbini gümüş medalla bitirib. 1957-1962-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsində təhsil alıb. 2 il təyinatla Laçında fizika və riyaziyyat müəllimi işləyib. 1964-cü ildə Bakıya qayıdan Yafəs Baxşəliyev 54 №-li orta məktəbin axşam şöbəsində, və Neft-Kimya Avtomatlaşdırma Elmi-Tədqiqat Layihə İnstitutunda işləyib.

1965-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Ali cəbr və həndəsə kafedrasının qiyabi aspirantura şöbəsinə qəbul olunan Yafəs Baxşəliyev bir il sonra həmin kafedraya baş laborant vəzifəsinə təyin edilib. 1968-ci ildə Ali cəbr və həndəsə kafedrasına assistent, 1971-ci ildə baş müəllim təyin edilib. 1976-cı ildə "Sağ tərəfi qeyri-xətli hiperbolik tənliklər üçün qoyulmuş çoxölçülü qarışıq məsələlərin həllinin araşdırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1980-ci ildə Cəbr və ədədlər nəzəriyyəsi kafedrasına dosent vəzifəsinə seçilib. 1999-2013-cü illərdə həmin kafedraya rəhbərlik edib. 2009-cu ildə ADPU-nun nəzdindəki Dissertasiya Şurasında "Universitetlərin riyaziyyat fakültələrində riyaziyyatın nəzəri məsələlərin cəbri strukturlar əsasında təlimi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi alıb. Dissertasiya işi AMEA-nın müxbir üzvü, prof.B.İsgəndərov, prof.S.Həmidov və prof.Ş.Tağıyev tərəfindən yüksək dəyərləndirilib.

"Pedaqoji universitetlərdə riyaziyyatın cəbri struktur əsasında təlimi" (2007), "Cəbr və ədədlər nəzəriyyəsi kursu" (2008), "Cəbr və ədədlər

nəzəriyyəsi".III hissə.(1995), "Cəbr və ədədlər nəzəriyyəsi". IV hissə (1997), "Cəbr kursu" (2011) monoqrafiya, dərslik və dərs vəsaitləri, 80-dən çox elmi məqalə və tezisi nəşr olunmuşdur. Təhsil Nazirliyi Kollegiyasının 27 dekabr 2006-cı il tarixli qərarı ilə Fəxri fərmanla təltif edilib. 2008-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində "İlin alimi" müsabiqəsinin qaliblərindən biri olub. 2012-ci ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

18 aprel 2012-ci ildə vəfat edib. Haqqında Z.Şahsevənlinin "Görkəmli elm xadimi Yafəs Baxşəliyev" (2013) kitabı nəşr olunub.

Vəli Mustafa oğlu Musayev
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1941-2010)

1941-ci ildə Gürcüstanın Qardabani rayonunun Ağtəhlə kəndində anadan olub. 1958-ci ildə doğma kəndlərində orta məktəbi bitirən Vəli Musayev 1958-1963 -cü illərdə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində təhsil alıb. 1961-1963-cü illərdə ADU-nun nəzdindəki Hesablama mərkəzində, 1963-1964-cü illərdə Hesablama riyaziyyatı kafedrasında laborant işləyib, 1964-1967-ci illərdə həmin kafedranın aspirantı olub. 2 noyabr 1967-ci ildə "Volter tipli qeyri-xətti operator tənliklərin həllinin bəzi xassələri haqqında" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.12 iyul 1968-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi verilib.

1967-1968-ci illərdə ADPİ-də Riyazi analiz kafedrasında assistent, 1968-1971-ci illərdə baş müəllim, 1971-1997-ci illərdə dosent vəzifəsində çalışıb. 7 aprel 1971-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona Riyazi analiz kafedrası üzrə dosent elmi adı verilib. O, ayrı-ayrı vaxtlarda ADPU-da Riyaziyyat fakültəsinin dekan müavini və axşam fakültəsinin dekanı vəzifəsində işləyib. 1995-ci ildə Kiyev şəhərində "Volter-Fredholm tipli qeyri-xətti tənliklər" mövzusunda ("Нелинейного уравнения типа Вольтера-Фредгольма") doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi alıb. 31 yanvar 1997-ci ildə Hesablama

riyaziyyatı və ehtimal nəzəriyyəsi kafedrasına müdir,18 fevral 2000-ci ildə Riyazi analiz kafedrasına professor vəzifəsinə seçilib. 7 noyabr 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona professor elmi adı verilib. Azərbaycanda, Rusiyada və Rumıniyada keçirilən çoxsaylı beynəlxalq elmi konfransların iştirakçısı olub.

7 dərslik və dərs vəsaiti, 50-dən artıq elmi məqaləsi nəşr edilib. 2006-cı ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

5 oktyabr 2010-cu ildə Bakı şəhərində vəfat edib.

Məlikməmməd Saday oğlu Cəbrayılov

fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar müəllim

(1945)

15 may 1945-ci ildə Hacıqabul (Qazıməmməd) rayonunun Atbulaq Sovetliyinin Qızılburun kəndində anadan olub. 1961-ci ildə Atbulaq kənd orta məktəbini, 1967-ci ildə V.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu Riyaziyyat ixtisası üzrə bitirib. Tələbəlik illərində ən yüksək tələbə təqaüdünə -Lenin təqaüdünə layiq görülüb. 1966-cı ildə Moskvada SSRİ tələbələrinin I forumunda iştirak edib. İnstitutu fərqlənmə diplomu ilə bitirən M.Cəbrayılov Lenin təqaüdçüsü olduğu üçün Universitet Elmi Şurasının qərarı ilə Riyazi analiz kafedrasında assistent saxlanılıb. 1966-1970-ci illərdə ADPU-nun komsomol komitəsinin ştatlı katibi olan M.Cəbrayılov 1970-1974-cü illərdə aspiranturada təhsil alıb. 1974-cü ildə "Çoxdəyişənli diferensiallanan funksiyalar nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda namizədlik, 1998-ci ildə "Vektorqiymətli funksiyalar üçün Besov fəzalarında daxilolma teoremləri və onların operator-diferensial tənliklərə tətbiqləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Tədqiqatlarında riyaziyyat elmi üçün vacib bir problem-bir sinif anizotrop diferensial operator tənliklərin tədqiqi ilə bağlı meydana gələn vektorqiymətli funksiyalardan ibarət Besov-Nikolski fəzalarının struktur xassələri öyrənilib, həmin fəzalarda, həmçinin vektorqiymətli Sobolev-Liuvill fəzalarında daxilolma kəsilməzliyi, çəkili halda isə kompaktlığı araşdırılıb, aproksimasiya ədədləri qiymətləndirilib. Aldığı nəticələrin tətbiqi ilə müəyyən sinif operatorun

operator əmsallı diferensial tənliklər üçün sərhəd məsələsinin koersitiv həllinin varlığını isbat edib, baş hissəni öz-özünə qoşma olmayan diferensial operatorların rezolventasının qiymətləndirilməsi ilə bağlı nəticələr alıb. Aldığı elmi nəticələr görkəmli rus riyaziyyatçıları-akademiklər S.M.Nikolski, V.A.İlin və Ukrayna EA-akademiki M.Qorbaçuk tərəfindən yüksək qiymətləndirilib.

ADPU-nun Riyazi analiz kafedrasında müəllim (1967-1980), dosent (1980-1991) vəzifələrində işləyib, 1991-ci ildə həmin kafedraya professor seçilib. 1989-1996-cı illərdə ADPU-nun qiyabi təhsil üzrə prorektoru, 1996-2017-ci illərdə tədris işləri üzrə prorektoru,1998-2012-ci illərdə Riyazi analiz kafedrasının müdiri vəzifələrində çalışıb. Hazırda həmin kafedranın professorudur.

1989-1992-ci illərdə Azərbaycan ali pedaqoji məktəblərinin Elmi Metodiki Birləşməsinin sədri, sonrakı illərdə Təhsil Nazirliyinin müxtəlif işçi qruplarının və komissiyalarının üzvü olub. 2006, 2009 və 2012-ci illərdə Təhsil Nazirliyinin Dövlət Təhsil Proqramlarını (Dövlət standartları) hazırlayan işçi qrupuna rəhbərlik edib.

2009-2018-ci illərdə ADPU-nun nəzdində fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi, təlim və tərbiyənin nəzəriyyəsi və metodikası ixtisasları üzrə Dissertasiya Şurasının üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda namizədlik və doktorluq dissertasiyalarının müdafiəsini keçirən birdəfəlik şuraların sədr müavini olmuşdur. Onun elmi rəhbərliyi ilə 7 nəfər riyazi analiz və riyaziyyatın tədrisi metodikası ixtisasları üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış, 1 nəfər elmlər doktoru, 4 nəfər fəlsəfə doktoru dərəcəsi almaq üçün dissertasiyalarını tamamlamışdır. 21 dissertasiya işinin rəsmi opponenti olmuşdur.

M.Cəbrayılov 1 monoqrafiya, 120-dən artıq elmi və metodiki məqalə, 11 dərs vəsaiti və 2 metodik vəsaitin müəllifidir. Məqalələrinin xeyli hissəsi Rusiya və Ukrayna Elmlər Akademiyalarının Xəbərlərində və digər nüfuzlu elmi jurnallarda nəşr olunub. "Ədədi üsullardan mühazirələr" (1989), "Metrik fəzalar və çoxdəyişənli funksiyaların diferensial hesabı" (1982), "Metrik və normalı fəzalar. Xətti operatorlar" (2004), "Riyazi analiz" (diferensial hesabı) (2006,2010) və "Riyazi analiz" (inteqral hesabı) (B.Əliyevlə birlikdə) (2016) dərs vəsaitləri nəşr olunub.

Moskva Pedaqoji Universitetinin əməkdaşları ilə birlikdə Rusiya Təhsil Nazirliyinin qrifi ilə dərs vəsaiti kimi təsdiq edilən "Riyazi analiz" (I-II hissə) (Moskva, 2005,2006) kitabının nəşrinə nail olub.

Ali pedaqoji təhsilin və riyazi analizin tədrisinin aktual problemləri ilə bağlı Bakı, Ankara, Kiyev, Moskva, Odessa, Düşənbə, Kaluqa, Saratov, Teberda, Voronejdə keçirilən Beynəlxalq və respublika səviyyəli konfransların

iştirakçısı olub. "Ömür boyu təhsil" layihəsi çərçivəsində Sankt-Peterburq, Roma, Afina, İstanbul, Helsinki şəhərlərində keçirilən konfrans və treninqlərdə iştirak edib. "ADPU-nun Xəbərləri" məcmuəsinin redaksiya heyətinin üzvüdür. 2002-ci ildə Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı (2006), "Rəşadətli əməyə görə" medalı (1970), müxtəlif diplom və Fəxri fərmanlarla təltif olunub.

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ona Əməkdar müəllim fəxri adı verilib. Yeni Azərbaycan Partiyası ADPU ərazi təşkilatı idarə heyətinin üzvüdür. 2018-ci ildən ADPU Ağsaqqallar Şurasının sədridir.

Müdafiə Cəmil oğlu Mahmudov

pedaqoji elmlər doktoru, professor

(1945)

1945-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Sisyan rayonunun Şıxlar (1940-cı ildən sonra Qızıl-Şəfəq) kəndində anadan olub. Orta təhsilini Qızıl Şəfəq kənd məktəbində, Naxçıvan şəhər 2 və 4 №-li məktəblərdə, ali təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsində (1962-1967) alıb. Azərbaycan EA-nın Riyaziyyat-Mexanika İnstitutunun tətbiqi riyaziyyat şöbəsində kiçik elmi işçi (1968-1969) vəzifəsində işləyib. Həmin institutda aspirantura hazırlığı keçib, 1977-ci ildə fizika-riyaziyyat ixtisası üzrə namizədlik dissertasiyası müdafiə edib. 1980-1989-cu illərdə həmin şöbədə baş elmi işçi, 1989-2006-cı illərdə Azərbaycan Texniki Universitetinin Ali riyaziyyat kafedrasında dosent, 2009-2013-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyazi analiz kafedrasında dosent vəzifəsində işləyib. "Ali texniki məktəblərdə riyaziyyat kursunun nəzəri və praktiki istiqamətlərdə tədrisinin təkmilləşdirilməsi yolları və vasitələri" (2009) mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun "Ali və orta ixtisas təhsilinin nəzəri problemləri" şöbəsində baş elmi işçi (2013-2014), "Müəllim hazırlığı kurikulumu" şöbəsinin müdiri (2014-2015) vəzifələrində işləyib. 2015-ci ildən Azərbaycan Texniki Universitetinin Riya-

ziyyat kafedrasının professorudur. “Matrislər və determinantlar. Xətti tənliklər sistemi”, “Vektorlar, cəbri və xətti çevirmələr”, “Müstəvi və fəzada analitik həndəsə”, “Cəbr və analitik həndəsə”, “Birdəyişənli funksiyanın diferensial hesabının elementləri”, “Xətti proqramlaşdırmanın elementləri”, “Riyaziyyat” (məsələ və misallar. Ali texniki məktəblər üçün), “Tibbi məsələlərin həllində riyazi metodlar”, Riyaziyyatın tədrisi metodikası” (ali texniki məktəblər üçün), “Dünyada və Azərbaycanda təhsil sistemi”, “Система образования в Азербайджане и во всем мире”, “The education system in Azerbaijan and in the world”, “Bolonya prosesi və Azərbaycan”, “Azərbaycanın Bolonya prosesinə daxil olmasının reallığa çevrilməsi”, “Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar”, “Təhsilin modernləşdirilməsinin aktual problemləri”, “Zəngəzur tarixində Şıxlar: dünən və bu gün” adlı dərslik, dərs vəsaiti, elmi-kütləvi kitabların və 200-ə yaxın elmi məqalənin müəllifidir. “Ukrayna-Azərbaycan dostluq körpüləri”, “Dnepropetrovsk Milli Universitetinə sədaqətli xidmətinə görə” medallarına və Ukrayna Milli Elmlər Akademiyasının akademiki V.İ.Mossokovski adına fəxri medala layiq görülmüşdür. 2020-ci ildə 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilmişdir.

Arif Rüstəm oğlu Buniyatov
fəlsəfə elmləri doktoru, professor
(1946)

1946-cı ildə Bakı şəhərində anadan olub. 1952-1959-cu illərdə Bakı şəhəri 199 №-li orta məktəbdə, 1959-1964-cü illərdə Bakı Energetika Texnikumunda, 1964-1971-ci illərdə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində, 1976-1979-cu illərdə AMEA-nın Fəlsəfə İnstitutunun aspiranturasında təhsil alıb. 1980-ci ildə AMEA-nın Fəlsəfə İnstitutunun Müdafiə Şurasında “Elmi-idrakda tarixilik prinsipi” mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1990-cı ildə AMEA-nın Fəlsəfə və hüquq İnstitutunda “Принцип историзма в развитии научного познания” mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Riyaziyyatın, riyazi-məntiqin metodoloji problemlərinə həsr olunan doktorluq dissertasiyasında müxtəlif dinamik sistemlərin statistik informasiya modellərini işləyib hazırlayıb. Onun elmi araşdırmalarının əsas istiqamətini təhsilin informatlaşdırılmasının

konseptual, metodoloji, texniki-texnoloji problemlərinin təhlili təşkil edir. Onun bu istiqamətli araşdırmaları "Distant təhsil sisteminin yaradılmasının konseptual əsasları", "Virtual təlim sistemləri", "Kompüter riyaziyyatının tədrisi metodikası", "Süni intellekt və ekspert sistemləri" adlı monoqrafiya və dərsliklərdə öz əksini tapıb. "Riyazi məntiq" kitabında onun riyazi məntiq elminin aktual problemlərinə dair tədqiqatlarının əsas nəticələri öz əksini tapıb.

Son illərdə müəllifin Lütvi Zadənin qeyri-səlis məntiqinə dair bir sıra məqalələri, "Qeyri-səlis məntiq konsepsiyasının elmi-nəzəri əsasları", "Qeyri-səlis məntiq konsepsiyasının statistik informasiya modelləri sistemləri" monoqrafiyaları nəşr olunub. ADPU-da nəşr olunan "Təhsildə İKT" jurnalının redaktorudur. 2010-cu ildə ona professor elmi adı verilib.

Elman Cavanşir oğlu İbrahimov

fizika-riyaziyyat elmləri doktoru

(1946)

1946-cı il yanvarın 15-də Zəngilan rayonunda anadan olub. 1956-1966 -cı illərdə Bakı şəhərində 141 №-li orta məktəbdə, 1966-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsində təhsil alıb. 1971-1977-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş laborant, assistent, 1977-1978-ci illərdə Çingiz İldırım adına Azərbaycan Dövlət Politexnik İnstitutunun Ali riyaziyyat kafedrasında müəllim, 1978-2015-ci illərdə Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Ali riyaziyyat kafedrasında baş müəllim, dosent vəzifələrində çalışıb.

1975-ci ildə Bakı Dövlət Universitetinin Müdafiə Şurasında "Ortalaşmış funksiyalar sinfi və funksiyaların sferada yaxınlaşması" mövzusunda namizədlik, 2017-ci ildə AMEA Riyaziyyat və Mexanika İnstitutunun Müdafiə Şurasında "Gegenbauer diferensial operatoru ilə bağlı harmonik analizin bəzi aspektləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2015-ci ildən AMEA Riyaziyyat və Mexanika İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. Elman İbrahimov harmonik analiz sahəsi üzrə mütəxəssisdir, 30-dan çox elmi əsərin müəllifidir.

Maqsud Ağaqulu oğlu Nəcəfov
riyaziyyat üzrə elmlər doktoru
(1948-2021)

25 oktyabr 1948-ci ildə Qərbi Azərbaycanın Sisian rayonunun Ağudi kəndində anadan olub. 1966-cı ildə Sisian rayonunun Vağudi kənd orta məktəbini, 1971-ci ildə Kirov adına Azərbaycan Dövlət Universitetinin Mexanika - riyaziyyat fakültəsini bitirib.

1972-1975-ci illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunda Diferensial və inteqral tənliklər ixtisası üzrə əyani aspirantura təhsili alıb. 1975-1986-cı illərdə ADPİ-nin Ümumi riyaziyyat kafedrasında, 1986-1989-cu illərdə Cəbr və ədədlər nəzəriyyəsi kafedrasında laborant, baş laborant kimi fəaliyyət göstərib.

1983-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Müdafiə Şurasında "Sinqulyar həyəcanlanmış gecikən arqumentli adi diferensial tənliklər üçün optimal idarəetmə nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1989 – 1998 -ci illərdə Həndəsə kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb. 1989-cu ildə dosent elmi adı alıb. 1998 - 2019-cu illərdə ADPU-nun Riyaziyyat fakültəsinin dekanı olub. 1999, 2004, 2009, 2014 -cü illərdə bələdiyyə seçkilərində Xətai rayon bələdiyyəsinə üzv seçilib, müxtəlif komissiyalara rəhbərlik edib.

2012-ci ildə "Silindrik və konik örtüklərin aeroelastik rəqslər və dayanıqlığı" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsi alıb. 2019-cu ildə Cəbr və həndəsə kafedrasına professor vəzifəsinə seçilib.

Ulu öndər H.Əliyevə müraciət edən 91 vətənpərvər ziyalıdan biri, Heydər Əliyevin hüquqlarının müdafiə komitəsinin üzvü olub.

"Tərəqqi" (2006), "Azərbaycan Xalq Cumhuriyyətinin 100 ili (1918-2018)" medalları ilə təltif olunub. 2012-ci ildə ona Əməkdar müəllim fəxri adı verilib.

4 dərs vəsaitinin və 80 elmi əsərin müəllifidir.

22 aprel 2021-ci ildə Bakı şəhərində vəfat edib.

Kamal Nəsir oğlu Soltanov
fizika-riyaziyyat elmləri doktoru, rofessor
(1949)

19 mart 1949-cu ildə Kürdəmir rayonunda anadan olub. 1967-ci ildə Göyçayda 1 №-li məktəbi, 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini bitirib. 1972-1975-ci illərdə Moskva Dövlət Energetika İnstitutunun aspiranturasında təhsil alıb. 1976-cı ildə Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunda namizədlik, 1994-cü ildə M.Lomonosov adına Moskva Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib.

Moskva Dövlət Energetika İnstitutunda (1972-1975), AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda (1976-1979; 1992-2002), SSRİ EA-nın Steklov adına Riyaziyyat İnstitutunda (1979-1992), Ankarada Hacəttəpə Universitetində (2002-2016) işləyib. Xətti olmayan analiz və xətti olmayan funksional analiz, xətti olmayan xüsusi törəməli diferensial tənliklərə tətbiqlər və onların analizi sahəsində tanınmış mütəxəssis olan Kamal Soltanov uzun müddət Azərbaycan Dövlət Pedaqoji Universitetin Riyazi analiz kafedrasında əvəzçiliklə professor vəzifəsində çalışıb. 100-ə yaxın elmi əsərin müəllifidir. Onun elmi rəhbərliyi ilə 14 nəfər namizədlik dissertasiyası müdafiə edib.

Vəli Binəddin oğlu Şahmurov
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1951)

1951-ci il iyulun 3-də İmişli rayonunun Telişli kəndində anadan olub. 1968-ci ildə İmişli şəhər 1 №-li orta məktəbini bitirib. 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsini riyaziyyat ixtisası üzrə bitirib. 1974-1978-ci illərdə ADPİ-nin aspiranturasında oxuyub. Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunda prof.S.Ya-

qubovun rəhbərliyi ilə "Vektor-qiymətli funksional fəzalarda daxilolma teoremləri və elliptik və kvazi elliptik-operator tənliklərinə tətbiqləri (01.01.01)" mövzusunda namizədlik (1979), Moskvada, V.A.Steklov adına Riyaziyyat İnstitutunda prof.P.Lizorkinin məsləhətçiliyi ilə "Abstrakt funksional fəzalarda daxil olma teoremləri və cırlaşan diferensial-operator tənliklərinə tətbiqləri" mövzusunda doktorluq dissertasiyası (1987) müdafiə edib. 1973-1981-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində Riyazi analiz kafedrasında müəllim, 1982-1988-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin Ali riyaziyyat kafedrasında baş müəllim, sonra professor, 1989-1997-ci illərdə Bakı Dövlət Universitetində professor, 1991-1992-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyində Elm və Elmi Pedaqoji kadrların hazırlanması idarəsinin müdiri vəzifəsində işləyib. 1993-1994-cü illərdə Akdəniz Universitetində, 1997-2007-ci illərdə İstanbul Universitetində professor vəzifəsində çalışıb. 2008-ci ildən İstanbul Okan Universitetinin Mühəndislik fakültəsinin professorudur. Funksional analiz və operator-diferensial tənliklər sahəsində tanınmış mütəxəssis olan Vəli Şahmurov 118 elmi məqalənin və 5 kitabın müəllifidir. Elmi əsərlərinin çoxu nüfuzlu xarici jurnallarda, o cümlədən impakt faktorlu jurnallarda nəşr edilmişdir. Onun rəhbərliyi ilə 6 fəlsəfə doktoru və 1 elmlər doktoru hazırlanmışdır. O, Türkiyədə geniş elmi və ictimai fəaliyyətlə məşğuldur. "Boundary Value Problems, USA, Springer", "Journal of abstract differential equations and applications, USA, Math. Research. Publ", Mathematics and statistics, USA, Harizon Research Pablis hing" jurnallarının redaksiya heyətinin üzvüdür.

İlham Vəliyullah oğlu Əliyev
riyaziyyat elmləri doktoru
(1951)

24 mart 1951-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olub. 1958-1968-ci illərdə Baş Layısqı kənd orta məktəbində, 1968-1972-ci ildə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsində təhsil alıb. 1975-1978-ci illərdə Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyazi analiz kafedrasının əyani aspirantı olub. 1980-ci ildə "Bütün oxda ikinci tərtib diferensial

operator tənliklərin spektral nəzəriyyəsi və onların tətbiqi" mövzusunda namizədlik, 2012-ci ildə "Diferensial-operator tənliklərin bəzi spektral məsələləri və onların tətbiqləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1978-1982-ci illərdə ADPİ-nin Riyazi analiz kafedrasında böyük laborant, 1983-1987-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialında assistent, 1990-2000-ci illərdə Azərbaycan Sənaye İnstitutunun Ali riyaziyyat kafedrasında baş müəllim, 2001-2004-cü illərdə Sumqayıt Dövlət Universitetinin Riyazi analiz və funksiyalar nəzəriyyəsi kafedrasında dosent, 2004-2006-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, 2006-cı ildən AMEA Riyazi fizika tənlikləri şöbəsində elmi işçi, 2012-ci ildən isə aparıcı elmi işçi vəzifələrində işləyib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Funksiyalar nəzəriyyəsi kafedrasında dosent, AMEA Riyaziyyat və Mexanika İnstitutu "Riyazi fizika tənlikləri" şöbəsində əvəzçiliklə baş elmi işçi (0,5 ştat) vəzifəsində işləmişdir.

İlham Əliyev xətti operatorların spektral nəzəriyyəsi, Banax fəzalarında operator-diferensial tənliklərin tədqiqi, requlyar olmayan sərhəd məsələləri, spektral parametr daxil olan sərhəd məsələləri üçün həm fəza dəyişəninə, həm də spektral parametrə görə qiymətləndirmələrlə məşğul olmuş, abstrakt nəticələr həm adi diferensial tənliklərə, həm də xüsusi törəməli diferensial tənliklərə tətbiq edilmişdir. Müxtəlif məsələlərin spektrlərini öyrənmiş, məxsusi və qoşulmuş elementlərin tamlığı və bazisliyi kimi məsələləri tədqiq etmişdir. İlham Əliyevin 54 elmi məqaləsi, 1 kitabı çap olunmuşdur. Rəhbərliyi ilə bir nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

Mahir Mirzəxan oğlu Səbzəliyev

riyaziyyat elmləri doktoru, professor

(1951)

11 fevral 1951-ci ildə Ağsu rayonunun Qaraqoyunlu kəndində ziyalı ailəsində anadan olub. 1967-ci ildə Ağsu şəhər orta məktəbini, 1971-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1977-1980-ci illərdə V.İ.Lenin adına ADPİ-nin riyazi analiz kafedrasının əyani aspirantı olub, 1982-ci ildə prof.Mayis Cavadovun rəhbərliyi ilə "Kiçik parametr daxil olan xüsusi

törəməli diferensial tənliklər nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda namizədlik, 2013-cü ildə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda "Sinqulyar həyəcanlanmış diferensial tənliklər nəzəriyyəsinin bəzi məsələləri " mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1971-1976-cı illərdə Ağsu rayonunda orta məktəb müəllimi, 1980-1984-cü illərdə Lenin adına APİ-də Cəbr və ədədlər nəzəriyyəsi kafedrasında baş laborant, 1984-1988-ci illərdə "Xəzərdənizneftqazsənaye" Ümumittifaq Sənaye Birliyinin Kust İnformasiya Hesablama Mərkəzində böyük mühəndis, 1988-1993-cü illərdə Azərbaycan Dövlət Neft Akademiyasında Ali riyaziyyat kafedrasında baş müəllim, 1993-2011-ci illərdə həmin kafedrada dosent, 2011-2016-cı illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Ali riyaziyyat kafedrasının müdiri vəzifələrində çalışıb.

104 elmi əsərin, 32 dərs vəsaitinin, 2 monoqrafiyanın müəllifidir. 2012-ci ildə "Qızıl qələm" media mükafatına layiq görülüb, 2015-ci ilin sentyabr ayında Beynəlxalq Pedaqoji Akademiyanın müxbir üzvü seçilib.

Bəhram Əli oğlu Əliyev

riyaziyyat üzrə elmlər doktoru, professor

(1952)

22 may 1952-ci ildə Gürcüstan Respublikasının Qardabani rayonu, Ağtəhlə kəndində anadan olub. 1959-1969-cu illərdə doğma kəndlərindəki orta məktəbdə təhsil alıb. 1969-1973-cü illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsində təhsil alıb. 1973-1975-ci illərdə Gürcüstan Respublikasının Qardabani rayonunda orta məktəbdə riyaziyyat müəllimi işləyib. 1975-1976-cı illərdə hərbi xidmətdə olub. 1982-ci ildə prof.S.Y.Yakubovun rəhbərliyi altında Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunda "Hiperbolik və elliptik tip diferensial-operator tənliklərin həll edilməsi və onların xüsusi törəməli diferensial tənliklərə tətbiqləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

1977-1985-ci illərdə ADPİ-nin Riyazi analiz kafedrasında baş laborant, 1985-1990-cı illərdə Kosmik Tədqiqatlar Elm İstehsalat Birliyində baş elmi işçi vəzifəsində çalışıb. 1990-cı ildən yenidən Azərbaycan Dövlət Pedaqoji

Universitetinin Riyazi analiz kafedrasında pedaqoji fəaliyyətini davam etdirib. Burada müəllim, baş müəllim, dosent vəzifələrində fəaliyyət göstərib. 2013-cü ildə may ayının 17-də AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda "Elliptik tip diferensial-operator tənliklər üçün sərhəd məsələlərinin həll olunması və onların bəzi spektral xassələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Onun tədqiqatlarında kompleks parametrli elliptik tip diferensial-operator tənliklər üçün, sərhəd şərtlərinə xətti qeyri-məhdud operator daxil olan sərhəd məsələlərinin həll olunma problemləri öyrənilir. Eyni bir spektral parametr tənliyə və sərhəd şərtlərinə daxil olan sərhəd məsələlərinin bəzi spektral xassələri tədqiq olunmuşdur. Baxılan sərhəd məsələləri xüsusi törəməli diferensial tənliklər üçün sərhəd məsələlərinin həllinə tətbiq olunmuşdur.

21 fevral 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsi, 12 oktyabr 2018-ci il tarixdə isə Riyazi analiz kafedrası üzrə professor elmi adı verilib. 2016-cı ilin sentyabrında ADPİ-nin Riyazi analiz kafedrasının müdiri vəzifəsinə seçilib. 2003-cü ildən AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun Diferensial tənliklər şöbəsində 0,5 ştat baş elmi işçi vəzifəsində işləyir. Elmi rəhbərliyi ilə 1 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə edib. İki nəfərin riyaziyyat üzrə elmlər doktorluğu dissertasiyasının, 5 nəfərin fəlsəfə doktoru dissertasiyanın rəsmi opponenti olub. 60-dan çox elmi əsərin və 4 dərs vəsaitinin müəllifidir. 20-dən çox məqaləsi xarici ölkələrin elmi jurnallarda (ДАН СССР, Дифференциальные уравнения, Сибирский математический журнал, Advances in differential equations, Integral equations and operator theory, Украинский Математический Журнал və s.) nəşr olunub.

İlham Cumayıl oğlu Mərdanov

fizika-riyaziyyat elmləri doktoru, professor
(1954)

27 noyabr 1954-cü ildə Qərbi Azərbaycanın İcevan rayonunun Salah kəndində anadan olub. 1971-ci ildə Polad kənd orta məktəbini bitirib. 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsində təhsil alıb.1977-1980-ci illərdə Azərbaycan

EA-nın Riyaziyyat və Mexanika İnstitutunun əyani aspirantı olub. 1980-ci ildə "Meyl edən arqumentli ikinci tərtib neytral tip adi diferensial tənliklər üçün xüsusi sərhəd məsələlərinin tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb. 1980-2001-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində müəllim, baş müəllim, dosent, kafedra müdiri, dekan, prorektor vəzifələrində çalışıb. 1999-cu ildə "Banax fəzasında fərq tənliklər sistemi üçün gətirilmə prinsipi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2003-cü ildə Ali Attestasiya Komissiyası tərəfindən ona professor elmi adı verilib. 2001-2004-cü illərdə Azərbaycan Dillər Universitetində kafedra müdiri və prorektor vəzifəsində çalışıb. 2004 - 2007- ci illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Strateji planlaşdırma və elmi potensial şöbəsinin müdiri, 2007 – 2015 -ci illərdə Aparat rəhbərinin müavini vəzifəsində işləyib.

2015-2018-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində Riyaziyyat və informatika fakültəsində professor vəzifəsində çalışıb. ADPU-nun nəzdində fəaliyyət göstərən Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi (5804.01) və Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (5801.01) ixtisasları üzrə fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olub.

2018-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində rektorun müşaviri və Ali Riyaziyyat kafedrasının professoru vəzifəsində işləyir.

Yeni Azərbaycan Partiyasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Ərazi ilk təşkilatının sədri və YAP Səbail rayon təşkilatının idarə heyətinin üzvü olub. Beynəlxalq Kadrlar Akademiyasının (Kiyev şəhəri) akademikidir. 2009-cu ildə Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı, 2009-cu ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "Fəxri Fərman", 2011-ci ildə Prezident Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub. Türkiyə, Rusiya, Almaniya, Fransa, Böyük Britaniya, İspaniya, Ukrayna və ABŞ-da elmi ezamiyyətlərdə olmuşdur.

Elmi rəhbərliyi ilə 3 nəfər namizədlik disertasiyası müdafiə edib, 5 nəfərin rəsmi opponenti olub. Azərbaycan Voleybol Federasiyasının üzvü və eləcə də "Rabitə" voleybol klubunun vitse-prezidenti seçilib.

3 monoqrafiya, 7 dərs vəsaiti, 100-dən artıq elmi məqalənin müəllifidir.

İlham Tofiq oğlu Məmmədov
AMEA-nın müxbir üzvü,
fizika-riyaziyyat elmləri doktoru
(1955-2003)

1 iyul 1955-ci ildə Bakı şəhərində anadan olub. 1962-1970-ci illərdə 27 №-li məktəbdə oxuyub. Məktəbi qızıl medalla 15 yaşında, 8 ilə bitirib. 1970-ci ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun Tətbiqi riyaziyyat şöbəsinə qəbul olunub. 1974-1975-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Hesablama riyaziyyatı və kibernetika fakültəsində təcrübə keçib. 1975-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının Tətbiqi riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib.

1976-cı ildə 21 yaşında ADU-nun Müdafiə Şurasında "Xətti və kvazixətti ikinci tərtib parabolik tənliklərin keyfiyyət nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

1981-ci ildə 26 yaşında Ukrayna Riyaziyyat İnstitutunun Müdafiə Şurasında "Elliptik və parabolik tənliklərin keyfiyyət nəzəriyyəsi məsələləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1988-ci ildə ona professor elmi adı verilib.

2001-ci ildə AMEA-nın müxbir üzvü seçilib. 1975-1982-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Tətbiqi riyaziyyat kafedrasında assistent, baş elmi işçi, 1982-2001-ci illərdə AMEA Riyaziyyat və Mexanika İnstitutunda böyük elmi işçi, elmi işlər üzrə direktor müavini, şöbə müdiri, 2001-2003-cü illərdə isə həmin institutun direktoru vəzifəsində işləyib. ADPU-nun Riyazi analiz kafedrasında əvəzçiliklə professor vəzifəsində çalışıb.

Kəsilən əmsallı ikinci tərtib kvazi-xətti parabolik tənliklərin həllərinin hamarlığı, mənfi olmayan xarakteristik formaya malik tənliklərin həllərinin sərhəd xassələri və parabolik tənliklərin keyfiyyət nəzəriyyəsi ilə əlaqədar bir sıra ciddi nəticələr alınıb.

1982-ci ildə elm və texnika sahəsində Azərbaycan Lenin komsomolu Mükafatı laureatı adına layiq görülüb. 1999-2002-ci illərdə NATO elmi komitəsinin eksperti vəzifəsində işləmiş, 80-dən çox elmi məqalənin və bir kitabın müəllifi olmuşdur. Onun rəhbərliyi ilə 18 fəlsəfə doktoru və 1 elmlər doktoru hazırlamışdır.

1992-2001-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali

Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü, Azərbaycan Riyaziyyat Cəmiyyətinin üzvü, *"Transactions of NASA"* və *"Proceedings of IMM of NASA"* jurnallarında baş redaktorun müavini olmuşdur.

2003-cü ildə 48 yaşında Bakı şəhərində vəfat etmişdir.

Fəxrəddin Güləli oğlu Ağayev
texnika elmləri doktoru, professor
(1956)

16 aprel 1956-cı ildə Xaçmaz rayonunda anadan olub. 1963-1973- cü illərdə Xaçmaz rayonun Qusarçay kənd məktəbində oxuyub. 1974-1976-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. 1978-1982-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Riyaziyyat fakültəsində təhsil alıb. Tələbəlik illərində Lenin təqaüdçüsü olan F.Ağayev institutu fərqlənmə diplomu ilə bitirib. 1982-1985-ci illərdə AMEA-nın Fizika İnstitutunda kiçik elmi işçi, 1986-1993-cü illərdə Kosmik Tədqiqatlar Elm İstehsalat birliyində kiçik elmi işçi, elmi işçi, bölmə rəisi, direktor vəzifələrində çalışıb.

1993-1995-ci illərdə Azərbaycan Milli Aerokosmik Agentliyində baş direktorun müavini, 1995-1996-cı illərdə Kosmik Cihazqayırma Məxsusi Konstruktor bürosunun direktorunun Elmi işlər üzrə birinci müavini vəzifəsində işləyib. 1996 -cı ildən Kosmik Cihazqayırma Məxsusi Konstruktor bürosunda direktor vəzifəsində işləyir. 1992-ci ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsi alıb.

Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən 6 iyul 1999-cu ildə baş elmi işçi adı, 19 sentyabr 2003-cü ildə texnika elmləri doktoru elmi dərəcəsi, 5 mart 2010-cu ildə professor elmi adı verilib. 2002-ci ildə Nyu-York Elmlər Akademiyasının üzvü seçilib.

7 yanvar 2004-cü ildən 15 iyul 2013-cü ilə kimi ADPU-nun Riyazi analiz kafedrasında əvəzçiliklə professor vəzifəsində çalışıb. 3 monoqrafiya, 80-dən artıq elmi məqalənin və 2 patentin müəllifidir.

Asəf Dağbəyi oğlu Zamanov
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1957)

10 may 1957-ci ildə Naxçıvanda ziyalı ailəsində anadan olmuşdur. 1974-cü ildə orta məktəbi əla qiymətlərlə bitirib Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə daxil olmuş, 1979-cu ildə həmin fakültəni bitirmişdir. 1978-1979-cu tədris ilində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Hesablama riyaziyyatı və kibernetika fakültəsində təhsil almış, SSRİ Dövlət mükafatı laureatı professor A.S.İlinskinin rəhbərliyi ilə diplom işini yerinə yetirmişdir. 1983-1986-cı illərdə Riyaziyyat və Mexanika İnstitutunun aspiranturasında əyani təhsil almışdır.

1979-1994-cü illərdə Riyaziyyat və Mexanika İnstitutunda böyük laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, 1994-1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin elmi katibi vəzifələrində çalışmışdır.

1997-2007-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi Elm İdarəsinin rəisi, eyni zamanda 2000-2001-ci illərdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ilk direktoru, 2007-2016-cı illərdə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidən hazırlanma İnstitutunun rektoru, 2015-2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun rektoru vəzifələrində çalışmışdır. 18 mart 2016-cı il tarixdən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elm və innovasiyalar üzrə prorektoru vəzifəsində işləyir. 2017-ci ildən ilk dəfə ADPU-da yaradılmış Türksoy kafedrasına, 2021-ci ildən təşəbbüsü ilə yaradılmış Təhsil menecmenti kafedrasına ictimai əsaslarla rəhbərlik edir. 1986-cı ildə «Устойчивостъ полых цилиндрических тел под одновременном действии «мертвых» и «следящих» нагрузок» mövzusunda dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsinə, 1992-ci ildə dosent elmi adına, 2003-cü ildə "Собственные и вынужденные колебания пластин из композитного материала с искривленными структурами" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə, 2009-cu ildə professor elmi adına layiq görülmüşdür.

Riyaziyyatçıdır, deformasiya olunan bərk cism mexanikası sahəsində tanınmış mütəxəssisdir. Elmi əsərləri mexanikanın müasir və aktual sahələrindən

olan əyri struktura malik kompozit materiallardan hazırlanmış konstruksiya elementlərinin hesabatının fundamental nəzəri əsaslarına həsr olunmuşdur. Elmi-tədqiqat işlərinin nəticələri strukturunda periodik və lokal əyriliyi olan kompozitlərin kontinual nəzəriyyəsinin təkmilləşdirilməsinə və konkret məsələlərin həllinə tətbiq olunmuşdur. Hissə-hissə bircins cism modeli çərçivəsində başlanğıc gərginliyi olan mühitlərdə xəttiləşdirilmiş üçölçülü dalğa yayılması nəzəriyyəsi tətbiq edilərək yüksək elastiki sıxılan materialdan hazırlanmış sonlu başlanğıc deformasiyalı lövhənin laylarında simmetrik və antisimmetrik Lamb dalğalarının yayılması tədqiq edilmişdir.

Üçölçülü xəttiləşdirilmiş nəzəriyyə əsasında "izləyən" və "ölü" yüklərin eyni zamanlı təsiri anında sıxılan və sıxılmayan boş silindrik cismlərin dayanaqlığı tədqiq edilmişdir. Maye özlülüyünün bu maye ilə yüklənmiş özlüelastik lövhənin tezlik xarakteristikasına, lövhənin bu maye ilə təmasda olduğu lövhə materialının reoloji parametrlərdən asılılığına təsiri araşdırılmışdır. Mayenin sıxılan özlü olmayan və sıxılan özlü kimi modelləşdirildiyi hallarda elmi nəticələr alınmışdır.

130-a qədər elmi əsərin, o cümlədən 1 monoqrafiyanın "Колебания пластин из композитного материала с искривленными структурами" (Баку, Элм, 2011, 190 стр.,), ali məktəblər üçün "Riyaziyyat", "Sosial işin əsasları" dərsliklərinin, 10 dərs vəsaitinin və müəllifidir. Əsərlərinin xeyli hissəsi xarici ölkələrin nüfuzlu elmi jurnallarında (Mechanics of Composite Materials, İnternational Applied Mechanics, European Journal of Mechanics A/Solids və s.) çap olunmuşdur. Rusiyada, Ukraynada, Belarusda, Latviyada, Almaniyada, Fransada, Macarıstanda, ABŞ-da, İtaliyada, İspaniyada, İsveçdə, Türkiyədə, Sinqapurda, Cənubi Koreyada, İranda, Qazaxıstanda, Gürcüstanda, Özbəkistanda, elm və təhsil sahəsində keçirilən beynəlxalq konfranslarda, simpoziumlarda elmi məruzələrlə çıxış etmiş, elmi bölmələrə rəhbərlik etmiş, Azərbaycan elm və təhsilini yüksək səviyyədə təmsil etmişdir. 20-yə qədər beynəlxalq elmi konfransın Təşkilat Komitəsinə rəhbərlik etmişdir. Elmi rəhbərliyi ilə 9 namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası hazırlanmış və müdafiə edilmişdir. Bir sıra elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiya işlərinin rəsmi opponenti olmuşdur.

1997-ci ildən Beynəlxalq Elmlər Akademiyalarının Hesablama Riyaziyyatı üzrə Koordinasiya Komitəsinin, 2001-ci ildən UNESKO-nun "Bioetika, Elm və Texnologiyaların Etikası" Azərbaycan Komitəsinin, 2011-ci ildən ABŞ-da (ingilis dilində) və Latviyada (rus dilində) nəşr edilən impakt-faktor göstəricili "Mechanics of Composite Materials", 2018-ci ildən Ukraynada nəşr olunan "Післядипломна освіта в Україні" beynəlxalq elmi jurnallarının redaksiya

heyətinin üzvüdür. “Pedaqoji Universitetin Xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası”, “Magistrant” dövri-elmi jurnallarının baş redaktoru, “Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji psixoloji elmlər seriyası” dövri elmi jurnalının baş redaktorunun müavinidir. 2005-2014-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Riyaziyyat və Mexanika ixtisasları üzrə Ekspert Şurasının, 2004-2005-ci illərdə Azərbaycan Texniki Universiteti nəzdində, 2015-2016-cı illərdə AMEA Riyaziyyat və Mexanika İnstitutu nəzdində fəaliyyət göstərən dissertasiya şuralarının üzvü olmuşdur. 2017-ci ildən ADPU nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavinidir.

Elmin və təhsilin inkişafında xidmətlərinə görə 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə “Tərəqqi” medalı, 2007-ci ildə Təhsil Nazirliyinin “Qabaqcıl təhsil işçisi” döş nişanı, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının 100 illik yubiley medalı ilə təltif edilmişdir.

Mehralı Ömər oğlu Yusifov

texnika elmləri doktoru, professor

(1957)

1957-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Mollaoğlu kəndində anadan olub.1974-cü ildə Mollaoğlu kənd orta məktəbini, 1979-cu ildə ADU-nun Mexanika-riyaziyyat fakültəsini bitirmişdir. 1979-1982-ci illərdə Yardımlı rayonunun Honuba Şıxlar kəndində riyaziyyat müəllimi işləyib. 1982-1983-cü illərdə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda riyaziyyatçı-proqramçı işləyib. 1983-2016-cı illərdə Pedaqoji Universitetdə işləyib. 1988-ci ildə “Deformasiya olunan bərk cisimlər mexanikası” mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb. Hesablama riyaziyyatı və informatika kafedrasında riyaziyyat-proqramçı, laboratoriya müdiri vəzifələrində işləyib. 1997-ci ildə həmin kafedrada dosent vəzifəsinə seçilib. 4 aprel 2007-ci ildə Azərbaycan Texniki Universitetinin nəzdindəki Dissertasiya Şurasında ”Müqavimətli mühitdə konstruksiya elementlərinin qeyri-xətti rəqsləri” mövzusunda doktorluq dissertasiyası müdafiə edib.12 oktyabr 2012-ci ildə

ona Hesablama riyaziyyatı və informatika kafedrası üzrə professor elmi adı verilib. ADPU-nun Əlavə təhsil fakültəsinin dekanı vəzifəsində çalışıb. Riyaziyyata, informatikaya və mexanikaya aid 50-dən artıq elmi əsərin müəllifidir.

Rəhim Mikayıl oğlu Rzayev
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1958)

1958-ci il iyunun 1-də İmişli rayonunda anadan olub. 1973-cü ildə İmişli rayonunun Əliqulular kəndindəki orta məktəbi, 1978-ci ildə Azərbaycan Dövlət Universitetini riyaziyyat ixtisası üzrə ilə bitirib. 1978-1987-ci illərdə Azərbaycan EA-nın Kibernetika İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışıb. 1983-cü ildə "Məxsusi inteqralların lokal xassələri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1987-1989-cu illərdə Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunun Riyazi analiz şöbəsində kiçik elmi işçi və elmi işçi, 1989-1990-cı illərdə Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialının (indiki İqtisad Universitetinin) Riyaziyyat kafedrasında baş müəllim işləyib. Azərbaycan Dövlət İqtisad İnstitutu bərpa edildikdən sonra Riyaziyyat kafedrasında baş müəllim, dosent (1990-2000) vəzifələrində çalışıb. 1998-ci ildə "Funksiyaların orta ossilyasiyası üzərinə qoyulan şərtlərlə təyin edilən fəzalarda inteqral operatorlar və bəzi tətbiqlər" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2000-2012-ci illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunun Riyaziyyat kafedrasında professor vəzifəsində çalışıb. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın qərarı ilə ona professor elmi adı verilib. 2012-2017-ci illərdə ADPU-nun Funksiyalar nəzəriyyəsi kafedrasına rəhbərlik edib. Hazırda həmin kafedranın professorudur.

Funksiyalar nəzəriyyəsi və funksional fəzalarda inteqral operatorlar nəzəriyyəsi sahəsində mütəxəssisdir. Lokal cəmlənən funksiyaların orta ossilyasiyasının köməyi ilə yeni metrik xarakteristikalar daxil etmiş və onların vasitəsilə yeni funksional fəzalar təyin etmişdir. Həmin fəzaların məlum orta ossilyasiya fəzaları ilə əlaqələrini öyrənmişdir. Orta ossilyasiya fəzalarında

çoxölçülü sinqulyar inteqral operatorların məhdud təsir etməsi haqqında teoremlər isbat etmişdir. Maksimal sinqulyar inteqral operatorun, potensial tipli inteqral operatorların orta ossilyasiya xassələrini öyrənmişdir. Hamarlığı ölçən maksimal funksiyanın köməyi ilə sinqulyar inteqralın və Riss potensialının müxtəlif lokal və qlobal struktur xassələrini araşdırmışdır. Bürünmə tipli sinqulyar inteqralların orta ossilyasiya terminlərində approksimativ xassələrini araşdırmış və alınan nəticələri çoxqat Furye sırasının cəmlənməsi məsələlərinə tətbiq etmişdir.

Aldığı elmi nəticələrlə bağlı Bolqarıstanın Varna şəhərində (1989), Rusiyanın Moskva (1995, 1998, 2005), Kaluqa (1996) və Rostov (1999) şəhərlərində, Türkiyənin Mersin (2004) və Kırşehir (2011) şəhərlərində keçirilmiş Beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış edib.

80-dən artıq elmi əsərin, 5 tədris proqramının, "Xətti cəbrin elementləri" (2004) adlı dərs vəsaitinin müəllifi, 2 hissəlik "Ali riyaziyyat kursu" (1991) adlı metodik vəsaitin müəlliflərindən biridir.

Elmi məqalələrinin bir qismi "Доклады АН СССР", "Известия вузов. Математика", "Funct. Approx. Comment. Math.", "Доклады РАН", "Central European Journal of Mathematics", "WSEAS Transactions on Mathematics", "Eurasian Mathematical Journal", "American Journal of Mathematics and Statistics", "Pure and Applied Mathematics Journal", "Ukrainian Mathematical Journal" kimi nüfuzlu xarici elmi jurnallarda dərc olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Riyaziyyat və Mexanika Elmləri üzrə Ekspert Şurasının üzvü (2003-2010), və sədri (2013-2014), Azərbaycan MEA-nın Riyaziyyat və Mexanika İnstitutunun nəzdində fəaliyyət göstərən elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələrinin verilməsi üzrə Müdafiə Şurasının üzvü və həmin Şuranın nəzdindəki elmi seminarın sədri (2011-2012) və Müdafiə Şurasının üzvü (2015-2018) olub.

Elmi rəhbərliyi ilə 4 doktorant riyaziyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Hal-hazırda 4 doktorantı və 1 dissertantı fəlsəfə doktoru dissertasiyası üzərində elmi-tədqiqat işini davam etdirir. 11 tədqiqatçının fəlsəfə doktoru, 2 tədqiqatçının isə elmlər doktoru dissertasiyasının rəsmi opponenti olub.

Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının Riyaziyyat bölməsinin, Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Riyaziyyat Problemləri üzrə elmi şurasının, "Azerbaijan Journal of Mathematics", "AMEA Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" elmi jurnalının Redaksiya Heyətinin; "ADPU-nun Xəbərləri" elmi jurnalının redaksiya heyətinin üzvü və "Riyaziyyat və təbiət elmləri seriyası"nın redaktoru kimi geniş elmi-pedaqoji fəaliyyət göstərir.

Əbülfət Qulam oğlu Pələngov
pedaqogika üzrə elmlər doktoru, professor
(1959)

1959-cu ildə Lerik rayonunun Züvüç kəndində anadan olub. 1976-cı ildə qardaşı Bunyadəli Qulamoğlu (Qarabağ uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur) adına Züvüç kənd orta məktəbini əla qiymətlərlə bitirib. 1974 və 1976 -cı illərdə riyaziyyatdan keçirilən Respublika olimpiadasının qalibi, Ümumittifaq riyaziyyat olimpiadasının mükafatçısı olub. 1977-1981-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsində təhsil alıb.

1981-1982-ci illərdə təyinat üzrə Puşkin (indiki Biləsuvar) rayonunun Nərimanovka kəndində, 1982-1990-cı illərdə Səmədabad qəsəbə orta məktəbində riyaziyyat müəllimi işləyib. Hazırladığı şagirdlər respublika riyaziyyat olimpiadasının qalibi olduğuna görə o, 1986-cı ildə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun diplomu və Fəxri fərmanı ilə təltif olunub, Maarif nazirinin əmri ilə ona "Baş müəllim" adı verilib.

1990 - 1993-cü illərdə ADPU -da proqramçı-riyaziyyatçı vəzifəsində çalışıb. 1993-1996-cı illərdə ADPU-nun dissertantı olub. Professor Seyidağa Həmidovun elmi rəhbərliyi ilə "Ölçmə xarakterli praktik və laborator işləri şagirdlərin həndəsi biliklərini formalaşdıran vasitə kimi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1996-2014-cü illərdə ADPU-nun Hesablama riyaziyyatı və informatika kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləyib. 2001-2007-ci illərdə Riyaziyyat fakültəsinin dekan müavini və dekan əvəzi olub. 2010-cu ildə ADPU-nun nəzdində yaradılmış birdəfəlik Dissertasiya Şurasında "Orta məktəb həndəsə kursu təlimində müasir metodların kompüter texnikası ilə əlaqəli tətbiqinin reallaşdırılması problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 7 mart 2014-cü ildə Hesablama riyaziyyatı və informatika kafedrasında professor vəzifəsinə seçilib. Həmin il AAK-nın qərarı ilə ona professor elmi adı verilib.

Riyaziyyatın kompüter texnologiyası ilə tədrisi sahəsində öyrədici proqramların tərtib edilməsi və tədris prosesinə tətbiqi elmi yaradıcılığının və pedaqoji fəaliyyətinin əsas istiqamətini təşkil edir. Aldığı elmi nəticələrlə bağlı Beynəlxalq (24 dəfə) və respublika səviyyəli konfranslarda məruzələr etmiş, tezisləri nəşr olunmuşdur.

2013-2016-cı illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Riyaziyyat bölməsi üzrə yaradılmış ekspert şurasının üzvü olub. 2016-cı il aprel ayından AAK-nın Rəyasət heyətinin qərarı ilə ADPU-da fəaliyyət göstərən FD 02.061 Dissertasiya Şurasının həmsədri təsdiq edilmişdir. 2017-2018-ci illərdə ilə ADPU-da fəaliyyət göstərən FD 02.061 Dissertasiya Şurasının üzvü, şura nəzdindəki elmi seminarın sədri olmuşdur.

1996-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 2002-ci ildə "Vektor Beynəlxalq Elm Mərkəzi"nin "Gənc alim" müsabiqəsinin laureatı olub. 2010 və 2015-ci illərdə ADPU-da "İlin alimi" (dəqiq elmlər üzrə) müsabiqəsinin qaliblərindən biri olub. 2011-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. 2020-ci ildə Rusiya Təbiətşünaslıq Akademiyasının həqiqi üzvü seçilib.

120-dən artıq elmi əsərin, o cümlədən, 9 kitab, bir monoqrafiyanın müəllifidir. Əsərlərinin 40-dan çoxu xarici ölkələrdə çap edilib. Elmi rəhbərliyi ilə 4 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə edib. 7 nəfər doktorant dissertasiya işlərini tamamlamaq üzrədir. ADPU "Xəbərlər"inin və "Təhsildə İKT" jurnallarının redaksiya heyətinin üzvüdür.

Vəli Məhərrəm oğlu Qurbanov

fizika- riyaziyyat elmləri doktoru, professor

(1962)

22 yanvar 1962-ci ildə Gürcüstan Respublikasının Soqareco rayonun Düzəyrəm kəndində müəllim ailəsində anadan olub. 1969-1977-ci illərdə Düzəyrəm kənd məktəbində, 1977-1979-cu illərdə Bakı şəhərindəki 1 №-li Fizika-riyaziyyat təmayüllü internat məktəbdə təhsil alıb. 1979- 1982-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tətbiqi riyaziyyat fakültəsində, 1982- 1985-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin "VMİK" (Tətbiqi piyaziyyat) fakültəsində təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə bitirdiyinə görə MDU-nun Ümumi riyaziyyat kafedrasında aspirant saxlanılıb. 12 may 1989-cu ildə MDU-nun ixtisaslaşmış Müdafiə Şurasında akademik V.A.İlinin rəhbərliyi ilə "İkinci tərtib diferensial opera-

torların spektrinin və məxsusi və qoşma funksiyalarının xassələri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1989-cu ildə ADPİ-nin Riyazi analiz kafedrasında pedaqoji fəaliyyətə başlayıb. Kafedrada müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb.

1998-2000-ci illərdə MDU-nun Ümumi riyaziyyat kafedrasının elmlər doktoru proqramı üzrə doktorantı olub. 17 may 2000-ci il tarixində MDU-nun ixtisaslaşmış Müdafiə Şurasında "Adi diferensial operatorların məxsusi ədədlərinin paylanması və məxsusi və qoşma funksiyaları üzrə biortoqonal ayrılışların yığılması" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi alıb. Rusiya Federasiyası Ali Attestasiya Komissiyası 12 yanvar 2001-ci il tarixli qərarı ilə ona verilən fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini təsdiq edib.

2004-cü ilin iyul ayında ADPU-nun Riyazi analiz kafedrasına professor vəzifəsinə seçilib. 2011-2016-cı illərdə həmin kafedranın müdiri vəzifəsində çalışıb. Hal-hazırda həmin kafedranın professorudur. Onun tədqiqat sahələri diferensial operatorların spektral nəzəriyyəsinin əsas fundamental istiqamətləri ilə bağlıdır. Elmi fəaliyyətinin nəticəsi olaraq 125 elmi məqalə və tezisin, 12 metodiki vəsaitin, 1 dərs vəsaitinin və 1 monoqrafiyanın müəllifidir. 50 elmi işi Azərbaycandan kənarda yayımlanıb. 30 elmi məqaləsi Thomson Scene Station İndeksli jurnallarda çap olunub.

1991-1998-ci illərdə ADPU-nun Riyaziyyat fakültəsində Tələbə Elmi Cəmiyyətinin sədri, 2001-2007-ci illərdə Təhsil Nazirliyi nəzdində Respublika üzrə riyaziyyat olimpiada komissiyasının, 1993-2011-ci illərdə isə Universitetlərarası riyaziyyat olimpiada komissiyasının üzvü olub. ADPU-nun Riyaziyyat və informatika fakültəsinin Elmi Şurasının üzvüdür. 2009, 2010, 2012, 2013-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin təbiət və dəqiq elmlər üzrə "İlin alimi" müsabiqəsinin qalibi olub.

2002-ci ildə PC NATO (qrant) araşdırmaları xətti ilə iki ay müddətində Türkiyə Respublikasının "Yüzüncü yıl" Universitetində elmi tədqiqat işi aparmışdır. Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun 2011-ci ilin birinci qrant müsabiqəsinin (EİF-2011-1(3)) və 2016-cı il "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant üzrə 1-ci müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/05/1-M-32) qalibi olub.

2001-ci ildən AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun Funksional analiz şöbəsində əvəzçiliklə baş elmi işçi vəzifəsində çalışır. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu nəzdindəki D.01.111 Dissertasiya Şurasının nəzdindəki doktorluq və namizədlik dissertasiyalarının müzakirəsi üzrə elmi seminarın sədri, BDU-nun 01.01.02 ixtisası üzrə fizika-riyaziyyat elm-

ləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının üzvü olub. 2008-2014 və 2016-2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert komissiyasının, 2014-2016-cı illərdə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu nəzdindəki D.01.111 Dissertasiya Şurasının üzvü olub. Riyaziyyat elmləri üzrə Koordinasiya Şurasının, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu nəzdindəki D.01.111 Dissertasiya Şurasının üzvüdür. Bir çox doktorluq və namizədlik dissertasiyalarının müdafiəsində rəsmi opponent və ya rəyçi kimi çıxış edib. Elmi rəhbərliyi ilə 6 nəfər dissertasiya müdafiə edərək riyaziyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Bir nəfər elmlər doktorunun məsləhətçisi, 6 nəfər fəlsəfə proqramı üzrə doktorantın elmi rəhbəridir.

Rövşən Zülfüqar oğlu Hümbətəliyev

riyaziyyat üzrə elmlər doktoru

(1970)

1970-ci il noyabrın 6-da Qubadlı rayonunda anadan olub. 1977-1987-ci illərdə Sumqayıt şəhər 12 №-li məktəbdə təhsil alıb. 1987-ci ildə V.İ.Ulyanov (Lenin) adına Leninqrad Elektrotexnika İnstitutunun Elektrofizika fakültəsinin "yarımkeçiricilər və dielektriklər" ixtisasına qəbul olunub. 1990-cı ildə Sumqayıt hadisələri və milli münaqişə ilə əlaqədar olaraq təhsilini yarımçıq qoyaraq Bakıya qayıdıb. 1990-1996-cı illərdə Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin axşam şöbəsində oxuyub. Universiteti riyaziyyat ixtisası üzrə fərqlənmə diplomu ilə bitirən Rövşən Hümbətəliyev elə həmin il AMEA-nın Riyaziyyat və Mexanika İnistitutunun Riyazi analiz ixtisası üzrə əyani aspiranturasına qəbul olunub. 2000-ci ildə "Bir sinif dördtərtibli operator-diferensial tənliklər üçün sərhəd məsələlərinin həlli haqqında" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək Riyazi analiz ixtisası üzrə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb. 2000-2012-ci illərdə AMEA Riyaziyyat və Mexanika İnstitutunun Funksional analiz şöbəsində elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışıb. 2004-cü ildə Ali Attestasiya Komissi-

yası ona Riyazi analiz ixtisası üzrə dosent elmi adı verib. 2013-cü ildə Diferensial tənliklər ixtisası üzrə "Yüksəktərtibli operator-diferensial tənliklər və bəzi spektral məsələlər" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək riyaziyyat üzrə elmlər doktoru alimlik dərəcəsi alıb. 2012-2016 -cı illərdə Azərbaycan Kooperasiya Universitetinin Tətbiqi riyaziyyat kafedrasında dosent, professor vəzifəsində işləyib.

Mütəmadi olaraq öz ixtisas təhsilini artırmağa çalışıb. 2005-2008-ci illərdə A.S.Popov adına Milli Rabitə Akademiyasının "Müəssisənin iqtisadiyyatının təşkili" ixtisası üzrə bakalavr (qiyabi) pilləsini, 2008-2009-cu illərdə isə magistr pilləsini (qiyabi) fərqlənmə diplomu ilə bitirib.

2016-cı ilin oktyabrında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Hesablama riyaziyyatı və informatika kafedrasında dosent vəzifəsinə seçilib. 2017-2020-ci illərdə həmin kafedraya rəhbərlik edib. O, 160 elmi əsərin, 2 monoqrafiya (monoqrafiyadan biri 2008-ci ildə Bolqarıstanın Sofiya şəhərində, digəri isə 2014-cü ildə Moskvada Rusiya Elmlər Akademiyasının "Nauka" nəşriyatında çap edilib), 28 dərs vəsaitinin, 10 dərsliyin, bir metodiki vəsaitin və ali məktəblər üçün dörd proqramın müəllifidir. Polşa, Türkiyə, Rusiya, Ukrayna və respublikada keçirilən bir çox Beynəlxalq konfrans və simpoziumlarda çıxış edib. 2015-ci ildə Beynəlxalq Pedaqoji Akademiyanın müxbir üzvü, Nyu -York Elmlər Akademiyasının həqiqi üzvü, 2016-cı ildə Rusiya Təbiətşünaslıq Akademiyasının müxbir üzvü, 2016-cı ildə Beynəlxalq Təbiətşünaslıq Akademiyasının, Avropa Təbiətşünaslıq Akademiyasının İngiltərə və Şotlandiya Bölmələrinin həqiqi üzvü, 2017-ci ildə Rusiya İnformatika Təhsili Akademiyasının həqiqi üzvü seçilib.

2016-cı ildə Avropa Elm Mərkəzi tərəfindən "K.D.Uşinski", "M.Lomonosov", "İsaak Nyuton", "Vilhelm Leybnis" və "European Quality" qızıl medallarına, Rusiya Təbiətşünaslıq Akademiyası tərəfindən "Yekaterina Velikaya" (Elm və mariflənməyə görə), "Aleksandr Velikiy" (Elmi qələbə və nailiyyətlərə görə) ordeninə, "Əməkdar elm və texnika" fəxri adına və "Ali təhsildə novatorluğa görə" qızıl medalına layiq görülüb. 2017-ci ildə riyaziyyatın tətbiq sahələrində aldığı nəticələrə görə Avropa Elm Mərkəzi "A.Nobel" qızıl medalı ilə təltif edilib. 2019-cu ildən Rusiya Dağ Elmləri Akademiyasının akademiki seçilib. 2014-cü ildən Beynəlxalq "Caspian Journal of Applied Mathematics, Economy and Ecology" jurnalının, 2017-ci ildən "Təhsildə İKT" jurnalının, 2018-ci ildən Təhsil İnstitutunun "Elmi Əsərləri"nin redaksiya heyətinin üzvüdür. 2017-ci ilin sonunda Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinin Həmkarlar Komitəsi tərəfindən "İlin alimi" medalına və müxtəlif media mükafatlarına layiq görülüb.

Kimya və biologiya fakültəsi

Konstantin Adamoviç Krasuski
SSRİ EA-nın müxbir üzvü,
Ukrayna EA-nın müxbir üzvü,
kimya elmləri doktoru, professor
(1867 – 1937)

14 sentyabr 1867-ci ildə Ryazan quberniyasının Zaraysk qəzasının Vereykino kəndində anadan olub. Zaraysk realni məktəbini bitirdikdən sonra 2-ci Moskva gimnaziyasında təhsil alıb. 1883- 1887-ci illərdə ailəsinin Sankt-Peterburqa köçməsi ilə əlaqədar olaraq gimnaziya təhsilini orada davam etdirib. 1887-1891-ci illərdə Sankt-Peterburq Universitetinin Fizika-riyaziyyat fakültəsinin təbiiyyat şöbəsində təhsil alıb. 1892-1893-cü illərdə Heidelbergdə Gatterman və V.Meyerin laboratoriyalarında işləyib. 1894-cü ildə Sankt-Peterburq Universitetinin keyfiyyətli analiz şöbəsinə laborant, Qeyri-üzvi kimya kafedrasına assistent təyin olunub. 1898-ci ildə magistr imtahanı verib. 1902-ci ildə "Üzvi oksidlərin iştirakı ilə izomerik çevrilmələrin tədqiqi" mövzusunda dissertasiya müdafiə edərək kimya magistri dərəcəsi alıb. 1902-ci ildə Varşava Universitetinin Qeyri-üzvi və analitik kimya kafedrasına dosent vəzifəsinə təyin edilib. Az sonra həmin kafedraya professor vəzifəsinə seçilib. 1905-ci ildə Üzvi kimya kafedrasına dəyişdirilib. 1911-ci ildə "Ammonyak və aminlərin üzvi oksidlərlə reaksiyasının tədqiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Kiyev Politexnik İnstitutunun (1907), Kiyev (1913-1916) və Xarkov (1916) universitetlərinin professoru olub. 1919-cu ildə Xarkov Universitetinin prorektoru seçilib. Xarkov Universiteti Xarkov Xalq Təhsili İnstitutuna çevriləndən sonra Xarkov şəhərindəki Tibb Akademiyasında, Baytarlıq, Əczaçılıq və Kənd Təsərrüfatı institutlarında, ali qadın kurslarında çalışıb. 1925-ci ildə Xarkovda nəşrə başlayan "Ukrayna kimya jurnalı"nın ilk məsul redaktoru təyin olunub.

1926-cı ildə Ukrayna SSR Elmlər Akademiyasının müxbir üzvü seçilib. Ukrayna SSR Ali İqtisadi Şurasının Elmi və Texniki Şurasının və Ukrayna SSR xalq təsərrüfatının kimyəviləşdirilməsi üzrə Rəyasət Heyətinin və SSRİ

Xalq Təsərrüfatının Kimyəviləşdirilməsi Şurasının üzvü (1929) olub. 1929-1930-cu illərdə ADU-da, 1930-1933-cü illərdə Azərbaycan Politexnik (Sənaye) İnstitutunda çalışıb. 1933-1937-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Üzvi kimya kafedrasının müdiri vəzifəsində işləyib. 1935-1937-ci illərdə SSRİ EA Azərbaycan Filialının Kimya İnstitutunun təşkilatçısı və ilk direktoru olub. Onun elmi fəaliyyətinin əsasını hipoxlorit turşusunun olefinlərə birləşmə qaydasının müəyyən edilməsi, üzvi oksidlərin iştirakı ilə gedən izomerləşmə reaksiyalarının öyrənilməsi, ammonyak və aminlərin üzvi oksidlərə təsirinin araşdırılması məsələləri təşkil edib. Azərbaycanda üzvi kimya elminin inkişafında, elmi kadrların hazırlanmasında, üzvi kimya laboratoriyalarının yaradılmasında onun mühüm xidmətləri olub. 1933-cü ildə SSRİ EA-nın müxbir üzvü seçilib. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə ona Əməkdar elm xadimi fəxri adı verilib. 60-dan artıq elmi əsərin müəllifidir.

1937-ci il aprelin 7-də Bakıda vəfat edib.

Mir Əsədulla Mir Ələsgər oğlu Mirqasımov

Azərbaycan EA-nın prezidenti, akademik, tibb elmləri doktoru, professor, SSRİ Ali Sovetinin deputatı, Əməkdar elm xadimi (1883 –1958)

17 noyabr 1883-cü ildə Bakı şəhərində anadan olmuşdur.1889-1903-cü illərdə ibtidai məktəbdə, 1903-1908-ci illərdə gimnaziyada, 1908-1913-cü illərdə Odessa şəhərindəki Novorossiysk İmperator Universitetinin Tibb fakültəsində təhsil almışdır. Ali təhsilini başa vurduqdan sonra bir müddət Odessada həkim işləyib. 1916-cı ildə Bakıya qayıdıb, hərbi lazaretdə, Mixaylov xəstəxanasının cərrahiyyə şöbəsində baş ordinator, Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin Cərrahiyyə və topoqrafik anatomiya kafedrasında ordinator vəzifəsində işləyib. 1922-23-cü tədris ilində Azərbaycan Ali Pedaqoji İnstitutuna dəvət olunan 19 nəfər müəllimdən biri olub. Ali Pedaqoji İnstitutda anatomiya fənnini tədris edib. 1927-ci ildə "Azərbaycanda böyrək daşı xəstəliyinin öyrənilməsinə dair materiallar" mövzusunda doktorluq

dissertasiyası müdafiə edib. 1929-cu ilin yanvarında Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin Hospital cərrahiyyəsi kafedrasının professoru seçilib. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin bazasında Azərbaycan Tibb İnstitutu yaradılır. O, yeni yaranmış institutun Hospital cərrahiyyəsi kafedrasına professor və müdir (1930—1958) təyin edilir. 1934-cü ildə Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülür.

Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti (1945-1947) olub. 1945-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilib. Elmi rəhbərliyi ilə 5 elmlər doktoru, 20-dən artıq elmlər namizədi yetişib. 90 elmi məqalənin, 6 monoqrafiyanın və "Ümumi cərrahlığın ümumi kursu" (1933) kitabının müəllifidir.

Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı Kollegiyasının üzvü, Elmi Tibb Şurasının, Azərbaycan Tibb Cəmiyyətinin, eləcə də müxtəlif metodoloji komissiyaların və Terminologiya Komitəsinin sədri olmuşdur. Ümumittifaq Uroloqlar Cəmiyyətinin (ÜUC) üzvü olan Mirəsədulla Mirqasımov Azərbaycan uroloqlarının 1955 və 1958-ci ildə keçirilmiş konfranslarında Rəyasət Heyətinin fəxri sədri seçilmişdir. 1956-cı ildən Dünya Cərrahlar Assosiasiyasının üzvü olub. SSRİ Ali Sovetinin (1-3-cü çağırış) deputatı olub. "Lenin", 2 dəfə "Qırmızı Əmək Bayrağı", "Qırmızı Ulduz" ordenləri və medallarla təltif edilib.

20 iyul 1958-ci ildə Bakı şəhərində vəfat edib.

Aleksandr Alfonsoviç Qrossheym

SSRİ EA-nın həqiqi üzvü, Azərb. EA-nın akademiki, biologiya elmləri doktoru, professor, SSRİ Dövlət mükafatı laureatı (1888-1948)

23 fevral 1888 -ci ildə Yekaterinoslavski quberniyasının Lixovka kəndində (Ukraynanın Dnepropetrovski vilayəti) anadan olub. 1912-ci ildə Moskva Universitetininin Fizika-riyaziyyat fakültəsinin təbiət şöbəsini bitirib. 1913-1926-cı ildə Tbilisidə Botanika bağında və Politexnik İnstitutunda çalışıb. O, Azərbaycan Dövlət Universitetinin Ali bitkilərin morfologiyası və sistematikası kafedrasında dosent (1929-1930), professor (1934-1946) və kafedra müdiri (1942-1946) vəzifələrində çalışıb. ADU ləğv edildiyindən elmi-pedaqoji fəaliyyəti-

ni 1930-1934-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunda davam etdirib. 1932-1936 -cı illərdə SSRİ EA-nın Zaqafqaziya filialının Azərbaycan şöbəsinin botanika bölməsinə və Botanika Bağına rəhbərlik edib. 1936-1947-ci illərdə Botanika İnstitutuna rəhbərlik edib. Qafqazın, o cümlədən, Azərbaycanın bitki ehtiyatları, bitkiçiliyi və florası üzrə geniş tədqiqat işləri aparmışdır. Onun təşəbbüsü ilə Respublikada qoruqlar, xüsusilə də Lənkəran və Muğan qoruqları, həmçinin Herbari fondu yaradılmış və herbari kolleksiyasının saxlanma metodikası və strukturu işlənib hazırlanmışdır. Əsas tədqiqatı Qafqazın florası, bitki örtüyü və bitki ehtiyatlarının öyrənilməsinə həsr olunmuşdur. A.A.Qrossheymin elmi-tədqiqat fəaliyyətinin əsas istiqamətləri arasında floristik-sistematika mühüm yer tutur.O, 300-dək yeni növ təsvir etmişdir. 29 yanvar 1939-cu ildə SSRİ EA-nın riyaziyyat və təbiət elmləri bölməsinin müxbir üzvü, 1945-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü, 30 noyabr 1946-cı ildə SSRİ EA-nın bioloji elmlər şöbəsinin (botanika ixtisası üzrə) həqiqi üzvü seçilib. 1946-cı ildə ona SSRİ EA-nın təsis etdiyi V.L.Komarov mükafatı verilib. 1946-1948-ci illərdə Azərbaycan EA-da elmi məsləhətçi olub. Ömrünün son iki ili Leninqrad şəhəri ilə bağlı olub. 1947-1948-ci illərdə SSRİ EA Botanika İnstitutunun Qafqaz florası bölməsinə rəhbərlik etməklə yanaşı, Leninqrad Dövlət Universitetində Ali bitkilərin morfologiyası və sistematikası kafedrasında müdir vəzifəsində çalışıb. 1948-ci ildə SSRİ Dövlət mükafatı laureatı olub. Azərbaycanda bitki sistematikası məktəbinin təşkilatçılarından biri hesab olunur.

4 cildlik "Qafqaz florası" (1928-1934), 3 cildlik "Azərbaycan florası" (1934-1936), "Qafqaz florasının analizi" (1936),"Qafqazın bitki ehtiyatları" (1946), "Qafqazın bitki örtüyü" (1948),"Qafqaz bitkilərinin təyinedicisi" (1949) monoqrafiyalarının və 200-dən çox elmi məqalənin müəllifidir. Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

A.A.Qrossheym Moskva Təbiət Mühafizəçiləri Cəmiyyətinin, Ümumittifaq Coğrafiya Cəmiyyətinin, Bolqarıstan Botanika Cəmiyyətinin üzvü, Rusiya Botanika Cəmiyyətinin Fəxri üzvü olub.

4 dekabr 1948-ci ildə Leninqrad şəhərində vəfat edib.

Həbibulla Baxşəli oğlu Şahtaxtinski

AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor (1900-1986)

9 sentyabr 1900-cü ildə Naxçıvanın Şahtaxtlı kəndində anadan olub. İlk təhsilini İrəvan klassik gimnaziyasında alıb. Gimnaziyanın son sinfindən 2-ci Bakı gimnaziyasına köçürülüb. 1920-1921-ci illərdə Xalq Əmək Komissarlığında təlimatçı işləyib.

Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsini (1926) və Azərbaycan Politexnik İnstitutunun Kimya-texnologiya fakültəsini (1930) bitirib. 1930-1972-ci illərdə respublikanın ali məktəblərində pedaqoji fəaliyyətlə məşğul olub. Azərbaycan Politexnik İnstitutunda Miqdari kimyəvi analiz kafedrasının, Azərbaycan Sənaye İnstitutunda Analitik kimya kafedrasının müdiri olub (1937-59). 1959-1986-cı illərdə Azərbaycan EA-nın Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunda mineral maddələr texnologiyası laboratoriyasının müdiri işləyib. 17 sentyabr 1949-cu ildə Moskva Dövlət Universitetinin Kimya fakültəsinin Elmi Şurasında doktorluq dissertasiyası müdafiə edib.

31 dekabr 1949-cu ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona kimya elmləri doktoru elmi dərəcəsi, 28 yanvar 1950-ci ildə analitik kimya ixtisası üzrə professor elmi adı verilib.

Uzun müddət Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda, 1961-ci ildən isə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri A.Qarayevin icazəsi ilə Azərbaycan Pedaqoji İnstitutunda professor vəzifəsində çalışıb.

7 monoqrafiya və dərsliyin, 380-dən çox elmi və publisistik əsərin müəllifidir. Onun elmi rəhbərliyi ilə 3 elmlər doktoru, 35 elmlər namizədi yetişmişdir.

1967-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilib. 1974-cü ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb. "Oktyabr İnqilabı" ordeni (1971) və bir sıra medallarla təltif edilib.

22 sentyabr 1986 -cı ildə Bakı şəhərində vəfat edib.

Müzəffər Heydər oğlu Abutalıbov
AMEA-nın həqiqi üzvü,
biologiya elmləri doktoru, professor
(1908-1984)

14 dekabr 1908-ci ildə Naxçıvanın Ordubad şəhərində anadan olmuşdur. İlk təhsilini Ordubaddakı beşillik məktəbdə almışdır. 1922-1926 -cı illərdə Ali Pedaqoji İnstitutun nəzdindəki A.Şaiq adına "Nümunə məktəbi"ndə, 1926-1930-cu illərdə Azərbaycan Politexnik İnstitutunun Kənd təsərrüfatı fakültəsində oxumuşdur. 1931-1936 -cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Bitki fiziologiyası kafedrasında laborant, assistent, dosent kimi çalışmışdır. 1938-ci ildə Azərbaycan Dövlət Universitetində "Pambıq bitkisinin inkişafının müxtəlif fazalarında mineral elementlərə tələbkarlığı" mövzusunda namizədlik, 1944-cü ildə SSRİ EA-nın K.A.Timiryazev adına Bitki Fiziologiyası İnstitutunda "Pambıq bitkisində kalsium, bor, dəmir və kalium permanqanatın hərəkəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan EA-nın Botanika İnstitutunda baş elmi işçi və elmi işlər üzrə direktor müavini (1936-1948), "Bitki fiziologiyası və biokimyası" şöbəsinin müdiri (1940-1947) və institutun direktoru (1947-1950;1962-1978), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Botanika kafedrasının müdiri (1946-1950), Azərbaycan Dövlət Universitetinin Bitki fiziologiyası kafedrasının müdiri (1949-1959), Elmi Tədqiqat Əkinçilik İnstitutunun Bitki fiziologiyası laboratoriyasının rəhbəri (1949-1959) olmuşdur. 1960-1962-ci illərdə Azərbaycan EA-nın Genetika və Seleksiya İnstitutunun direktoru, 1978-ci ildən ömrünün sonuna kimi Botanika İnstitutunda Bitki fiziologiyası şöbəsinin müdiri vəzifələrində çalışmışdır.1950-ci ildə ona professor elmi adı verilib.

Əsas elmi fəaliyyəti bitkilərin mineral qidalanması, kimyəvi elementlərin bitki orqanizminə daxil olması, hərəkəti, paylanması və təkrar istifadəsinin tədqiqinə həsr olunmuşdur. 300-dən çox elmi məqalənin, 5 monoqrafiyanın və Azərbaycan dilində 2 cildlik "Bitki fiziologiyası" dərsliyinin, "Bitkilərin mineral maddələrlə qidalanması" (1962) dərs vəsaitinin müəllifidir.

Elmi rəhbərliyi ilə 55 fəlsəfə doktoru və elmlər doktoru yetişmişdir. O, SSRİ Elmlər Akademiyasının Bitki fiziologiyası və biokimyası, Fotosintez Problem Şuralarının və Azərbaycan Sovet Ensiklopediyası Baş Redaksiyasının üzvü, SSRİ "Fiziologiya və biokimya" və "Fotosintez problemləri" üzrə

Koordinasiya Sovetinin üzvü və Azərbaycan üzrə həmin Problem Şurasının və SSRİ Botanika cəmiyyətinin Azərbaycan bölməsinin sədri olmuşdur. 1959-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə həqiqi üzvü seçilmişdir.

"1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində Qafqazın müdafiəsinə görə" və "Fədakar əməyə görə" medalları ilə təltif edilmişdir.

1984-cü ilin noyabrın 8-də Bakı şəhərində vəfat etmişdir.

Abdulla İsmayıl oğlu Qarayev

AMEA-nın həqiqi üzvü,
tibb elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1910 –1968)

1910-cu il yanvarın 14-də Bakıda anadan olmuşdur. O, 1920 -1923 -cü illərdə 10 №-li məktəbdə, 1923-1927-ci illərdə Bakı xalq maarif şöbəsinin Pedaqoji Texnikumunda təhsil alıb. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Pedaqoji fakültəsinin təbiyyat bölməsini bitirib. Universitetdə təhsilini başa vurduqdan sonra ADPİ-nin İnsan və heyvan fiziologiyası kafedrasında əmək fəaliyyətinə başlayıb. 1932-1936-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil alıb. 1937-1938-ci illərdə ADPİ-nin Təbiət fakültəsinin dekanı vəzifəsində çalışıb. 1937-ci ildə "Sulukarbonların əzələlərin potensialların mənşəyində əhəmiyyəti" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi, elə həmin ildə "Diafraqmanın fiziologiyasına dair" mövzusunda dissertasiya müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi alıb. Eyni ildə hər iki dissertasiya SSRİ Xalq Komissarlığı yanındakı Ali Məktəb İşləri Komitəsi tərəfindən təsdiq olunub və ona dosent elmi adı verilib.

1938-ci ildə S.M.Kirov adına Elmi-tədqiqat İnstitutunda Elmi-təcrübi fiziologiya laboratoriyası yaradır. 1940-cı ildə - 30 yaşında tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün "Bioelektrik hadisələrin nəzəriyyəsinə dair" mövzusunda dissertasiya müdafiə edir. Beləliklə, 3 il müddətində 3 dissertasiya müdafiə edir. 1941-ci ildə ADU-nun İnsan və heyvan fiziologiyası və Azərbaycan Tibb İnstitutunun Normal fiziologiya kafedralarına professor vəzifəsinə seçilir. 1941-1942-ci illərdə ADU-nun Biologiya fakül-

təsinə rəhbərlik edir. 1942-1944-cü illərdə ADU-da elmi hissə üzrə prorektor, 1944-cü ilin sentyabr ayından 1950-ci ilin oktyabr ayına qədər rektor vəzifəsində çalışır. 1943-cü ildə ona Əməkdar elm xadimi fəxri adı verilir. 1949-cu ildə - 39 yaşında Abdulla Qarayev Azərbaycan EA-nın həqiqi üzvü seçilir.

1953-cü ildə onun təşəbbüsü ilə Azərbaycan EA Zoologiya İnstitutu nəzdində Fiziologiya şöbəsi yaradılıb. 1950-1956-cı illərdə Azərbaycan EA-nın Biologiya və kənd təsərrüfatı elmləri şöbəsinin akademik-katibi vəzifəsində çalışıb. 1956-cı ildə Fiziologiya bölməsinə rəhbər təyin edilib. Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri (1961-1963) olmuşdur. 1968-ci il fevralın 2-də Azərbaycan EA –nın Fiziologiya İnstitutuna direktor təyin edilmişdir.

1947-ci ildə Azərbaycan SSR Ali Sovetinin, 1948-ci ildə isə Bakı Şəhər Zəhmətkeş Deputatları Sovetinin deputatı seçilmişdir. Azərbaycan SSR "Bilik" Cəmiyyəti sədrinin müavini, İ.P.Pavlov adına Respublika Fizioloqlar Cəmiyyətinin sədri, müxtəlif elmi şuraların, redaksiya heyətlərinin üzvü və bir çox jurnalların redaktoru olmuşdur. 1968-ci ildə Sovet Milli Komitəsinin zəmanəti ilə ilk dəfə Azərbaycan fizioloqları içərisindən İBRO-ya üzv seçilmişdir. Dəfələrlə Beynəlxalq Fizioloqlar Konqresinin iştirakçısı olub. XXI Beynəlxalq Fizioloqlar Konqresində "İ.M.Seçenov adına Medal"la təltif olunub.

Əsərlərinin ümumi həcmi 100 çap vərəqinə yaxındır. 7 monoqrafiya və 470-dən artıq məqalənin müəllifidir.

8 dekabr 1968-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Məmməd Əhəd oğlu Salmanov

AMEA-nın həqiqi üzvü
biologiya elmləri doktoru, professor
(1932)

12 yanvar 1932-ci ildə Qərbi Azərbaycanın Zəngibasar rayonu, Qaraqışlaq kəndində anadan olub. 1940-1947-ci illərdə Qaraqışlaq kənd 7 illik məktəbində, 1947-1950-ci illərdə İrəvan Kənd Təsərrüfatı Texnikumunda təhsil alıb. 1950-1955-ci illərdə Gəncə Kənd Təsərrüfatı İnstitutunun Baytarlıq fakültəsində oxuyub.

1955-ci ildə Azərbaycan SSR EA-nın Zoologiya İnstitutunun su mikrobiologiyası ixtisası üzrə aspiranturasına daxil olub.1960-cı ildə dissertasiya müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi alıb. Azərbaycan EA -da kiçik elmi işçi (1959-1962), baş elmi işçi (1962-1973), laboratoriya müdiri (1973-1997) vəzifələrində işləyib. 1982-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 14 yanvar 1983-cü ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona biologiya elmləri doktoru elmi dərəcəsi verilib. 11 oktyabr 1996 -cı ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona professor elmi adı verilib. 1997- 2012-ci illərdə ADPU-nun Botanika kafedrasının professoru, 1999-2000 -ci illərdə Azərbaycan Tibb Universitetində kafedra müdiri vəzifələrində çalışmışdır. 2002-ci ildən AMEA-nın Mikrobiologiya İnstitutunun direktorudur.

9 monoqrafiyanın, 300-dən artıq elmi məqalənin, 1 müəlliflik şəhadətnaməsi və patentin müəllifidir. 80-dən artıq məqaləsi xarici ölkələrin nüfuzlu elmi nəşrlərində çap olunub.

Azərbaycanda Mikrobioloqlar Cəmiyyətinin sədri, AMEA-nın Biologiya Elmləri Bölməsinin "Xəbərlər" jurnalının redaksiya heyətinin üzvü, Azərbaycan Milli Yüksək Texnologiyalar və Bioetika Komitəsinin üzvü, YUNESKO-nun Azərbaycan Milli Komitəsinin üzvü, Azərbaycan Dövlət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin eksperti kimi fəaliyyət göstərir.

Elmi rəhbərliyi ilə 18 nəfər biologiya elmləri üzrə fəlsəfə doktoru, 2 nəfər elmlər doktoru yetişib. 2002-ci ildə o, AMEA-nın Fəxri Fərmanı ilə təltif olunub. 2005-ci ildə ona Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni verilib.

Cümşüd İsmayıl oğlu Zülfüqarlı

Azərbaycan EA-nın müxbir üzvü,
kimya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1905-1982)

30 yanvar 1905-ci ildə Naxçıvan şəhərində anadan olub. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin təbiiyyat şöbəsini bitirib. 1930 -1932 -ci illərdə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasında oxuyub. Həmin dövrdə həm də

Azərbaycan Pedaqoji İnstitutunda qeyri-üzvi kimyadan dərs deyib. 1932 - 1934-cü illərdə Müdafiə Nazirliyində işləyib. 1937 -ci ildə namizədlik, 1963 -cü ildə qeyri-üzvi kimya ixtisası üzrə doktorluq dissertasiyası müdafiə edib. 1960-cı ildə ona professor elmi adı verilib. 1941-1945 -ci illərdə Böyük Vətən müharibəsində iştirak edib. 1946-1950 -ci illərdə Azərbaycan EA-nın Neft İnstitutunda laboratoriya müdiri, 1951-1952 -ci ildə Azərbaycan Dövlət Universitetində Kimya fakültəsinin dekanı, 1957-1982 -ci illərdə Qeyri-üzvi kimya kafedrasının müdiri vəzifələrində işləyib. 1968-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilib.

1966-1967-ci illərdə Almaniya Demokratik Respublikasında, 1974-cü ildə Yaponiyada, 1977-ci ildə Şotlandiya, Suriya və Çexoslovakiyada beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış edib.

C.Zülfüqarlının rəhbərliyi ilə Azərbaycan, Tacikistan, Gürcüstan, Dağıstan və Volqoqrad vilayətinin müxtəlif təbii obyektlərində elementlərin yayılması öyrənilmişdir. "Qeyri-üzvi kimya terminologiyası" (1939), "Azərbaycanca üzvi kimya terminologiyasının prinsipləri haqqında" (1941), "Qeyri-üzvi kimya praktikumu" (1979), "Распространение микроелементов в каустобиолитах, организмах, осадочных породах и пластовых водах" (1960) kitablarının və 300 -dən artıq məqalənin müəllifidir.

"Qırmızı Ulduz" ordeni ilə təltif edilib. SSRİ-nin və Azərbaycan SSR-in "Qabaqcıl maarif xadimi" döş nişanına layiq görülüb. 1979-cu ildə ona Əməkdar elm xadimi fəxri adı verilib.

12 dekabr 1982-ci ildə Bakı şəhərində vəfat edib.

Heydər Xəlil oğlu Əfəndiyev
Azərbaycan EA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor (1907-1967)

1907-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin Təbiət–riyaziyyat fakültəsini bitirmişdir. Şəkidə Fəhlə fakültəsinin tədris hissə müdiri vəzifəsində çalışmış, kimya fənnindən dərs demişdir. 1933-cü ildə Bakıda SSRİ EA Azərbaycan filialının Geologiya bölməsindəki geokimya laboratoriyasında baş laborant kimi el-

mi fəaliyyətə başlayıb böyük elmi işçi səviyyəsinə kimi yüksəlmişdir. 1940-cı ildə dissertasiya müdafiə edərək geokimya ixtisası üzrə Azərbaycanda ilk elmlər namizədi olmuşdur. 1941-ci ildə Kimya İnstitutunda qeyri-üzvi kimya laboratoriyasına rəhbər təyin olunmuşdur. 1949-cu ildə Geokimya və radiokimya laboratoriyasına rəhbərlik etməklə yanaşı həmin institutun direktoru vəzifəsinə təyin edilmişdir. 1938-1945-ci illərdə Azərbaycan Sənaye İnstitutunda assistent və dosent, 1945-1958-ci illərdə Bakı Dövlət Universitetində və Azərbaycan Dövlət Pedaqoji İnstitutunda əvəzçiliklə professor işləmişdir. 1958-ci ildə dissertasiya müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsi, 1959-cu ildə professor elmi adı almış, 1962-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

"Azərbaycan mineral sularının radioaktivliyi" (1953) "Kiçik Qafqazın şimal-şərq hissəsinin hidrotermal filiz kompleksi" (1957) "Nadir elementlərin geokimyası" (1966) irihəcmli monoqrafiyaların müəllifidir. Ümumiyyətlə, 216 elmi əsərin, 8 monoqrafiya və kitabın müəllifidir. Onun redaktorluğu ilə 22 monoqrafiya və məqalələr toplusu nəşr edilmişdir.

27 yanvar 1967-ci ildə vəfat etmişdir.

Məhəmməd Mirzə oğlu Mövsümzadə

AMEA-nın müxbir üzvü,
kimya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1908-1984)

1908-ci il dekabrın 25-də Bakı şəhərinin Nardaran kəndində anadan olub. 1925-ci ildə Bakı şəhərində orta məktəbi, 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin təbiiyyat şöbəsini bitirib. 1929-1930 -cu illərdə ADU-nun Üzvi kimya kafedrasında laborant işləyib. ADU-nun ləğvi ilə əlaqədar olaraq fəaliyyətini müstəqil institut kimi yenidən fəaliyyətə başlayan Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişdir. 1930/31-ci tədris ilində ADPİ-nin Üzvi kimya kafedrasında assistent işləyib. 1931-1935-ci illərdə ADPİ ilə bərabər Azərbaycan Kənd Təsərrüfatı və Pambıqçılıq İnstitutunda, Neftayırma və Sənaye Texnikumlarında kimya müəllimi və laboratoriya müdiri vəzifələrində çalışıb. 1938-ci ildə kimya ixtisası üzrə namizədlik, 1946-

cı ildə doktorluq dissertasiyası müdafiə edib. 1947-ci ildə ona professor elmi adı verilib, 1967-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilib. 1938-1940 -cı illərdə SSRİ Elmlər Akademiyası Kimya İnstitutunun Azərbaycan filialında baş elmi işçi, 1939-1948-ci illərdə Azərbaycan Sənaye İnsitutunun (indiki ADNSU) Kimya-texnologiya fakültəsində dekan, 1940-1960-cı illərdə Azərbaycan Tibb Universitetində Üzvi kimya kafedrasında dosent, professor, kafedra müdiri, 1947-1984-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNSU) Üzvi kimya kafedrasında professor, kafedra müdiri vəzifələrində çalışıb.

Elmi rəhbərliyi ilə 20 fəlsəfə doktoru və 2 elmlər doktoru yetişib. 9 monoqrafiyası, 250-dən artıq məqaləsi nəşr olunub. 20-dən çox müəlliflik şəhadətnaməsi alıb. Əməkdar elm xadimi və "Fəxri kimyaçı" fəxri adlarına layiq görülüb, "Şərəf nişanı" ordeni və Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı (1946), "Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" və "Əmək veteranı" medalları, "Fədakar əməyə görə" (1945) yubiley medalı ilə təltif olunub,.

1984-cü il dekabrın 7-də Bakı şəhərində vəfat edib.

Şamxal Əliməmməd oğlu Məmmədov

AMEA-nın müxbir üzvü,
kimya elmləri doktoru, professor
(1910-1984)

1910-cu il oktyabrın 15-də Qaryagin (Füzuli) şəhərində anadan olub. Qaryagin şəhər ibtidai məktəbində, Qaryagin kəndli-gənclər məktəbində (1922-1926), Qaryagin Pedaqoji Texnikumunda (1928-1930) oxuyub. V.İ.Lenin adına ADPİ-nin hazırlıq kursunu bitirib. 1931-1935-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Kimya fakültəsində ali təhsil alıb. Azərbaycan Dövlət Universitetinin Üzvi kimya kafedrasında assistent, dosent, professor (1936-1943), kafedra müdiri (1943-1952) vəzifələrində çalışıb. SSRİ EA Azərbaycan filialının Kimya İnstitutunda laboratoriya müdiri (1937-1943) və həmin institutun direktoru (1943-1949) vəzifəsində işləyib. 1936-cı ildə namizədlik,1942-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1967-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilib. Azərbaycan Dövlət Pedaqoji İnsti-

tutunda Kimya kafedrasının müdiri (1956-1959), Azərbaycan EA-nın Neft-Kimya Prosesləri İnstitutunda Bioloji fəal maddələrin sintezi və texnologiyası laboratoriyasının rəhbəri (1959-1978) və elmi məsləhətçisi (1978-1984) olub.

Onun elmi fəaliyyətinin əsas istiqamətini bioloji fəal xassə daşıyan qlikol efirlərin müxtəlif törəmələrinin sintezi və onların əsasında alınmış effektiv preparatların yaradılmasının elmi əsaslarının işlənib hazırlanması təşkil edir. Onun tərəfindən olduqca mühüm insektisid olan "Sevin" preparatında istifadə olunan metilizosianatın təhlükəsiz alınma üsulu işlənib hazırlanıb.Tədqiqatların nəticələri 400-dən artıq elmi əsərdə, 3 monoqrafiyada, 70 müəlliflik şəhadətnaməsində öz əksini tapıb.

Elmi rəhbərliyi ilə 3 elmlər doktoru və 50-dən artıq fəlsəfə doktoru yetişib. "Qafqazın müdafiəsi" , "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində rəşadətli əməyə görə", "Zəfər nişanı" və "Əmək veteranı" medalları , "Sosializm yarışının qalibi" döş nişanı, "Şərəf nişanı"ordeni ilə təltif olunub.

10 noyabr 1984-cü ildə Bakı şəhərində vəfat edib.

Zülfüqar Hüseynqulu oğlu Zülfüqarov

AMEA-nın müxbir üzvü,
kimya elmləri doktoru, professor,
Əməkdar elm xadimi,
(1913-1992)

1913-cü il dekabrın 3-də Şəki şəhərində anadan olub. İlk təhsilini Şəkidə alıb. 1916-cı ildə atası vəfat etdikdən sonra o, iki qardaşı və bacısı ilə anasının himayəsində yaşayıb. 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunun Kimya-texnologiya fakültəsini bitirib.1938-ci ildə SSRİ EA-nın Azərbaycan filialının Kimya İnstitutunun aspirantı olub. Həmin illərdə Azərbaycan Pedaqoji İnstitutunda və SSRİ EA-nın Azərbaycan filialının Kimya İnstitutunun fiziki kimya laboratoriyasında kiçik elmi işçi işləyib. 1941-ci ildə kimya ixtisası üzrə namizədlik, 1957-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1959-cu ildə professor elmi adı alıb, 1976-cı ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilib.

1968-1970-ci illərdə Azərbaycan SSR EA Neft-Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri, 1970-1983-cü illərdə Azərbaycan SSR EA Qeyri-

üzvi və Fiziki Kimya İnstitutunun direktoru, 1983-cü ildən ömrünün sonuna kimi həmin institutda laboratoriya müdiri işləyib.

400-dən çox elmi əsərin, 62 ixtira və patentin, 2 monoqrafiyanın müəllifidir. Elmi məsləhətçiliyi və rəhbərliyi ilə 7 elmlər doktoru, 47 fəlsəfə doktoru yetişib. II dərəcəli "Vətən müharibəsi" ordeni və 16 müxtəlif medalla təltif olunub. Azərbaycan SSR Dövlət mükafatına və Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

1992-ci ildə Bakı şəhərində vəfat edib.



Sadıq Cavad oğlu Hüseynov

professor, Əməkdar elm xadimi

(1883 –1952)

1883-cü il may ayının 1-də Bakı şəhərində anadan olub. 1904-cü ildə orta təhsilini Bakı realni məktəbində alıb. 1910-cu ildə Almaniyanın Darmştad Kimya Texnologiya İnstitutunun kimyaçı-mühəndis ixtisasını bitirib. Bakıya qayıtsa da, öz ixtisasına uyğun işlə təmin edilməyib. 1913-cü ildə Kiyev Tibb İnstitutuna daxil olub. 1917-ci ildə fevral inqilabı zamanı yenidən Bakıya qayıtmağa məcbur olub. 1920-ci ildə birillik müəllimlik kurslarında dərs deyib. Ali Pedaqoji İnstitutun təşkilatçılarından olub. 1921-1927-ci illərdə Ali Pedaqoji İnstitutun, 1927-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin Kimya kafedrasına rəhbərlik edib. 30-cu illərin əvvələrində Azərbaycan Pedaqoji İnstitutunda, Azərbaycan Tibb İnstitutunda və Azərbaycan Sənaye İnstitutunda kimyadan mühazirələr oxuyub. Azərbaycan Dövlət Universitetinin və Azərbaycan Tibb İnstitutunun Qeyri-üzvi kimya kafedralarına rəhbərlik edib. Ana dilində nəşr olunan ilk "Qeyri-üzvi kimya praktikumu" kitabının müəllifidir.

1939-cu ildə ona professor elmi adı, 1943-cü ildə Əməkdar elm xadimi fəxri adı verilib.

1952-ci il martın 12-də vəfat edib.

Mirmusa Haşım oğlu Ağamirov
professor
(1886-1947)

1886-cı ildə Şuşada anadan olub. 6 yaşında valideynlərini itirib. İlk təhsilini Şuşada alıb. Təhsilini davam etdirmək məqsədilə 1904-1906-cı illərdə Tbilisidə yaşayıb. 17-18 yaşlarında gizli inqilabi hərəkata maraq göstərib, qadağan olunmuş kitablar və qəzetlər oxuyub, mitinqlərdə iştirak edib. 1906-1917-ci illərdə Nuxa şəhər məktəbində, 1917-1923-cü illərdə Nuxada gimnaziyada və II dərəcəli məktəbdə, 1923-1928-ci illərdə Bakıda Əli Bayramov adına məktəbdə, 1928-1930-cu ilərdə Azərbaycan Dövlət Universitetində, 1930-1931-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda assistent işləyib.

1924 - 1928-ci illərdə ADU-nun Pedaqoji fakültəsinin təbiyyat şöbəsində təhsil alıb. Bakı Xalq Təhsili Şöbəsinin pedaqoji texnikumunda (1928-1930), ADU-nun Rabfakının hazırlıq şöbəsində (1928-1931), Zaqafqaziya Pambıq İnstitutunda (1930-1931), Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (1931-1943) əvəzçiliklə müəllim işləyib. 13 oktyabr 1931-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı nəzdində Dövlət Elm Şurasının təbiət-riyaziyyat şöbəsi tərəfindən ona dosent elmi adı verilib. 1931- 1937-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Botanika kafedrasının dosenti, 1939-1941-ci illərdə həmin kafedranın müdiri olub. 1943-1946-cı illərdə ADU-nun Bitki fiziologiyası kafedrasına rəhbərlik etmişdir. 1944-cü ildə ona professor elmi adı verilmişdir. 30-40-cı illərdə Azərbaycanda Bitki fiziologiyası ilə bağlı proqramların hazırlanmasında, rus dilindən tərcümə edilən əsərlərin redaktəsində onun mühüm xidmətləri olub. Azərbaycanda ilk nəbatat alimlərindən biri sayılır. 1939-cu ildə "Bitki anatomiyası" dərsliyi nəşr edilmişdir. Onun tədqiqatları respublikada pambıqçılığın və qarğıdalı əkinlərinin inkişafına, pambığın və qarğıdalının quraqlığa və şoranlığa davamlılığı məsələlərinə həsr edilmişdir.

1947-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Xudaverdi Şahbaz oğlu Kələntərli

kimya elmləri doktoru, professor

(1889-1956)

1889-cu il fevral ayının 2-də Lənkəran şəhərində kənd mirzəsi ailəsində anadan olmuşdur. İlk təhsilini mədrəsədə alıb.1907-ci ildə Lənkəran şəhərindəki altısinifli məktəbi bitirib. 1907-1909-cu illərdə Petrovsk (hazırkı Mahaçqala) şəhərindəki müəllimlər seminariyası hüququnda yaradılmış ikillik pedaqoji kursda təhsil alır.

1909 -1920-ci illərdə Ucar, Lənkəran rayonlarında və Bakı şəhərində müəllim işləyir. 1921-1926-cı illərdə Bakı şəhərindəki müxtəlif məktəblərdə müəllim işləməklə yanaşı Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin təbiyyat şöbəsində (kimya ixtisası üzrə) oxuyur. 1930-cu ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda pedaqoji fəaliyyətə başlayır. ADPİ-nin Ümumi kimya kafedrasında assistent, dosent və professor vəzifəsində çalışır, uzun illər həmin kafedraya rəhbərlik edir.

1938-ci ildə ona dosent elmi adı verilmişdir. 1940-cı ildə Tbilisi Dövlət Universitetinin Elmi şurasında kimya ixtisası üzrə namizədlik, 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "Yüksək molekullu üzvi turşular almaq üçün petrolatunun katalitik oksidləşdirməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1951-ci ildə ADPİ-nin Ümumi kimya kafedrasına professor vəzifəsinə seçilmişdir. Ali Pedaqoji İnstitutda kimyadan ana dilində dərs deyən ilk müəllimlərdən olmuşdur. Hələ gənc yaşlarında "Məktəb" jurnalında "Torpaq" (1914) , "Neft"(1916), "Yer" (1917) ,"Hava" (1918) və s. məqalələrlə çıxış edərək təbiyyat müəllimlərinə elmi-metodik kömək göstərmişdir.

Azərbaycan Dövlət Universitetində, Azərbaycan Tibb İnstitutunda, ADPİ-nin nəzdindəki ikiillik Müəllimlər İnstitutunda əvəzçiliklə kimyadan dərs demiş, Xalq Maarif Komissarlığında inspektor vəzifəsində çalışmışdır.

1956-cı il noyabrın 6-da Bakı şəhərində vəfat edib.

Azad bəy Abbas oğlu Əmirov

professor
(1889-1939)

2 yanvar 1889-cu ildə Yelizavetpol (indiki Gəncə) quberniyasının Şuşa şəhərində anadan olmuşdur. 1904-cü ildə Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Tiflis və Yelizavetpol şəhərlərində müəllim işləmişdir. 1910-cu ildə Odessa Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. Bu barədə o, öz tərcümeyi-halında yazırdı: "Sevimli pedaqoji fəaliyyətimi davam etdirmək üçün Odessa Universitetinin təbiət fakültəsinə daxil olmaq istəyirdim, amma o vaxtlar qeyri-xristian dini etiqadı olanların məktəblərdə müəllimlik etmək hüququ olmadığını biləndə, Hüquq fakültəsinə girməyi qərara aldım ki, öz kamal attestatımdan istifadə edə bilim, zira onda praktik təbabət mənim o qədər də xoşuma gəlmirdi". Odessa Universitetində 4 il təhsil aldıqdan sonra o, dövlət imtahanlarını Moskva Universitetində verir. Hüquqşünas diplomunu alan A.Əmirov sonra Odessa Universitetinin Tibb fakültəsinə daxil olur. Fevral İnqilabı başlayanda Bakıya qayıdır.

Azərbaycanda təhsil sahəsində böyük təşkilatçılıq işi aparır, pedaqoji kursların, ibtidai və orta məktəblərin, texnikumların, habelə ali təhsil müəssisələrinin yaradılmasında, azərbaycanlı qadınların təhsilə cəlb edilməsində fəal iştirak edir. 1926-cı ildən ADU-nun Tibb fakültəsinin Fiziologiya kafedrasında çalışır: əvvəlcə laborant, sonra assistent (1929) və dosent (1930) vəzifələrini tutur. 1930-cu ildən etibarən Azərbaycan Tibb İnstitutunun Normal fiziologiya kafedrasında fəaliyyətini davam etdirir. Fiziologiya fənnini tədris edən ilk azərbaycanlı alim olub. 1936-cı ildə ona professor elmi adı verilib. 1930-1939-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunun İnsan və heyvan fiziologiyası kafedrasının müdiri olub. "Karbohidrat mübadiləsinin fiziologiyası" sahəsində maraqlı araşdırmalar aparıb. Ü. Hacıbəyovun uşaqlıq dostu olmuş, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında onunla birgə təhsil almışdı. Musiqi istedadına və gözəl səsə malik olan Əmirov 1912-ci ildə Şuşada "O olmasın, bu olsun" musiqili komediyasını tamaşaya qoymuşdu. Ü. Hacıbəyov öz xatirələrində Məşədi İbad rolunun Azad Əmirovun ifasında əvəzsiz olduğunu söyləmişdi. 1918- ci ildə "Leyli və Məcnun" operasının 10 illiyi münasibətilə Üzeyir bəy Hacıbəyova yazdığı məktubda Azad bəy Əmirov

onun Azərbaycan tarixindəki mühüm rolunu çox böyük uzaqgörənliklə göstərmişdi: "Vaxt gələcək, tarix, yalnız ədalətli tarix özünün ehtiyatlı əli ilə öz səhifələrində müsəlman həyatındakı bu misilsiz müstəsna hadisəni qızıl hərflərlə yazacaq və sənin, əziz Üzeyir, əzabkeş millətinin fərəhsiz həyatına çox zəngin xəzinə, nadir inci kimi bəxş etdiyin gözəl, ilahiləşdirilmiş cərəyanı xüsusi qeyd edəcəkdir"

Azad Əmirov fiziologiya elminin təbliğində böyük rol oynamış, respublikalararası və Ümumittifaq fizioloji konfrans və qurultayların iştirakçısı, XV Beynəlxalq fiziologiya konqresinin nümayəndəsi olmuşdur. "Qan və əzələlər arasında korbohidratların mübadiləsi" mövzusunda yazdığı dissertasiya işini vaxtsız ölüm səbəbindən müdafiə edə bilməmişdir.

1939-cu ilin may ayının 26-da Bakı şəhərində qəflətən vəfat etmişdir.

Savalan Rüstəm oğlu Ocaqverdizadə

tibb elmləri doktoru, professor
(1895-1977)

1895-ci ildə Ağdam rayonunda anadan olub. İbtidai təhsilini Ağdamda alıb. Şuşa realni məktəbini bitirib, Ağcabədi və Zəngeşal kəndlərində müəllimlik edib. 1925-1927-ci illərdə Ali Pedaqoji İnstitutda, 1927-1929-cu illərdə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin təbiət şöbəsində təhsil alıb. Tələbəlik illərində universitetin Fiziologiya kafedrasında professor P.Y.Rostovsevin yanında laborant işləyib. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsi əsasında Azərbaycan Tibb İnstitutu təşkil olunur və Fiziologiya kafedrası yeni yaranan institutun tərkibində fəaliyyət göstərməyə başlayır. Kafedraya milli kadrların cəlb olunmasına böyük ehtiyac var idi. Kafedraya cəlb edilən ilk milli kadrlardan biri Savalan Ocaqverdizadə olur. 1931-1937-ci illərdə ATİ-nin Müalicə-profilaktika fakültəsində təhsil alıb. 1939-cu ildə "İstiqanlı heyvanlarda əzələlərin təqəllüs qabiliyyəti üçün şəkərin əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. 1937-1941-ci illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun İnsan və heyvan fiziologiyası kafedrasına rəhbərlik edib. Böyük Vətən müharibəsi illərində Kiyev cəbhəsi bölgəsində hərbi-tibb bölməsinin rəisi vəzifəsində çalışıb. 1942-ci ildə ordu

sıralarından tərxis olunduqdan sonra vətənə qayıdaraq Azərbaycan Tibb İnstitutunun və Azərbaycan Pedaqoji İnstitutunun Fiziologiya kafedralarında dosent vəzifəsində pedaqoji fəaliyyətini davam etdirir.1959-cu ildə Tiflis Dövlət Universitetinin Elmi Şurasında "Böyrəküstü vəzin fiziologiyasına dair" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1961-ci ildə ona Normal fiziologiya kafedrası üzrə professor elmi adı verilib. 1957-1970-ci illərdə Azərbaycan Tibb İnstitutunun Normal fiziologiya kafedrasının müdiri vəzifəsində çalışmışdır. "Həzmin fiziologiyası", "İfrazatın fiziologiyası" dərsliklərinin və 100-ə yaxın məqalənin müəllifi olmuşdur. "Qırmızı Əmək Bayrağı ordeni", "Səhiyyə əlaçısı" döş nişanı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və müxtəlif medallarla təltif olunmuşdur. İttifaq və Zaqafqaziya fizioloqlarının konfrans və konqreslərinin iştirakçısı olmuşdur. O, Azərbaycan Fizioloqlar Cəmiyyəti Rəyasət Heyətinin və Fiziologiya İnstitutu Elmi Şuralarının üzvü olmuşdur.

23 aprel 1977-ci ildə Bakı şəhərində vəfat edib.

Zəhra Mustafa qızı (Ağayeva) Şahtaxtinskaya

biologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi (1895-1977)

17 noyabr 1895-ci ildə Xankəndində anadan olub. 1917-ci ildə Tiflis Universitetinin Təbiyyat fakültəsini bitirmişdir. Ali təhsil alan ilk azərbaycanlı qadınlardan biridir.1916-1922-ci illərdə qadın gimnaziyasında müəllim işləmişdir. Azərbaycan Qadın Məktəbəqədər Tərbiyə İnstitutunda, onun əsasında təşkil edilən Ali Pedaqoji Qadın İnstitutunda işləyib. Ali Pedaqoji Kişi İnstitutu və Ali Pedaqoji Qadın İnstitutu Azərbaycan Pedaqoji İnstitutu adı ilə birləşdiriləndə pedaqoji fəaliyyətini burada davam etdirməli olub.1927-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsində, 1930-1977-ci illərdə ADPİ-də pedaqoji fəaliyyət göstərib. 1937-1977-ci illərdə ADPU-nun Zoologiya kafedrasına rəhbərlik etmişdir. 1937-ci ildə ADPİ-nin Elmi Şurasında "Azərbaycanın gövşəyən heyvanlarında parazitlik edən infuzorlar" mövzusunda namizədlik, 1953-cü ilin may ayında isə ADU-nun Elmi Şurasında "Azərbaycan ev və çöl

quşlarının helmint faunası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1943-cü ildə yenidən müstəqil fəaliyyətə başlayan ADPİ-nin Təbiyyat fakültəsinin dekanı olmuşdur. 1954-cü ildə ona Zoologiya kafedrası üzrə professor, 1960-cı ildə Əməkdar elm xadimi fəxri adı verilmişdir. Onun təşəbbüsü ilə Zoologiya kafedrasının nəzdində "Zoologiya muzeyi" yaradılmışdır. Pedaqoji və elmi –pedaqoji kadr hazırlığındakı xidmətlərinə görə "Lenin" ordeni ilə təltif edilmişdir. Tədqiqat sahəsi əsasən, Azərbaycanda yaşayan su və bataqlıq quşlarında parazitlik edən qurdlar olmuşdur. "Onurğasızlar zoologiyasından qısa kurs" adlı ilk kitabı 1928-ci ildə nəşr edilib. 60-70-ci illərdə "Onurğasızlar zoologiyası" (I hissə), "Zoologiya"(I hissə), "Təbiətşünaslığın əsasları" (şərikli), "Çiyinayaqlılar", "Molyuskalar", "Dərisi tikanlılar" "Darvinizmdən terminlər", "Onurğasızlar zoologiyasının qısa kursu", "Molyuskalar", "Dərisitikanlılar" adlı dərs vəsaitləri və 100-dən artıq elmi məqaləsi çap olunmuşdur. Elmi rəhbərliyi ilə 1 elmlər doktoru, 10 elmlər namizədi yetişmişdir. 1996-cı ildə ADPU-da 100 illik yubileyi keçirilmişdir.

16 sentyabr 1977-ci ildə vəfat etmişdir.

Əsədulla Ömər oğlu Əbdürrəhimov

pedaqoji elmlər namizədi, professor
Əməkdar müəllim
(1900 –1969)

1900-cü ildə Şəkidə anadan olmuşdur. Şəkidəki rus-tatar (Azərbaycan) məktəbində və altıillik ali-ibtidai məktəbdə oxumuşdur. 1915-ci ildə oranı bitirdikdən sonra bir müddət sahibkarın zavodunda mirzəlik etmiş, 1917-ci ildə Zaqatala şəhərindəki üç aylıq müəllimlər kursunu bitirdikdən sonra Lahıc kəndində, Zaqatala şəhər ibtidai məktəbində müəllim, Zaqatala Qəza Xalq Maarif şöbəsində təlimatçı işləmişdir.

Ali ibtidai təhsillə kifayətlənməyən Ə.Əbdürrəhimov tezliklə Bakıya gələrək Fəhlə fakültəsinə daxil olmuşdur. O, fəhlə fakültəsində oxuduğu müddətdə Bakının orta məktəblərində müəllimlik fəaliyyətini davam etdirmişdir. 1930-cu ildən orta və ali məktəblərdə kimya fənnini tədris etməyə başlamışdır. Bununla yanaşı, bir sıra dərs vəsaitlərini rus dilindən ana dilimizə tərcümə

etmişdir. 1945-ci ildə ADU-nun Elmi Şurasında "Orta məktəbin kimya kursunda sosialist sənayesi, kənd təsərrüfatı və ölkə müdafiəsi məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Az sonra ona dosent elmi adı verilmişdir. 20-dən artıq tədris-metodik vəsaiti, 200-ə qədər jurnal məqaləsinin müəllifidir. Azərbaycanda kimyanın tədrisi metodikası sahəsində elmi məktəb yaratmışdır.Azərbaycan Respublikası Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktoru, Respublika Maarif Nazirliyində şöbə müdiri, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktoru, ADPU-nun Kimya-biologiya fakültəsinin dekanı, kafedra müdiri vəzifələrində işləmişdir. 1966-cı ildə ona professor elmi adı verilib. Əməkdar müəllim fəxri adına layiq görülüb, bir sıra medal və Fəxri fərmanlarla təltif olunub.

1969-cu ilin avqust ayında Bakı şəhərində vəfat edib.

Mirəli Abdulla oğlu Axundov

biologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1902-1992)

22 fevral 1902 -ci ildə Şəkidə anadan olmuşdur. Şəki şəhərindəki ali ibtidai məktəbdə (təhsil haqqını ödəyə bilmədiyinə görə bitirə bilməyib) və ikiillik ibtidai məktəbdə oxuyub. 1923-cü ildə Bakı kişi müəllimlər seminariyasını bitirib. Zaqatala rayonunda ibtidai məktəbə müdir və müəllim təyin edilib. 1926-1930-cu illərdə ADU-nun Təbiyyat fakültəsində oxuyub.

1930-1932-ci illərdə Zaqatala Pedaqoji Texnikumunda müəllim işləyir, Zaqatala təcrübi-seleksiya stansiyasında aparılan elmi işlərə qoşulur.1932-1935-ci illərdə Moskva şəhərində genetika ixtisası üzrə aspirantura təhsili alır. 1935-ci ildə dissertasiya müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi alır.1935-ci ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda və ADU-da pedaqoji fəaliyyətlə məşğul olur. 1937-ci ildə ADU-da Genetika kafedrasını təşkili edir və onun nəzdində "Təkamül təlimi" muzeyini yaradır. 1939-1941-ci illərdə ADPİ-də Darvinizm kafedrasına rəhbərlik edir. 1966-cı ildə dissertasiya müdafiə edərək biologiya elmləri doktoru elmi dərəcəsi alır. 1967-ci ildə ona professor elmi adı verilir. 1988-ci ilə kimi ADU-da təşkil etdiyi Genetika kafedrasına rəhbərlik edir. O, darvinizm, təkamül təliminin tarixi, ge-

netika, həyatın mənşəyi və inkişafı ilə bağlı 10 dərslik və dərs vəsaitinin, 200-dək elmi-metodiki məqalənin və "Məktəblinin izahlı biologiya lüğəti"nin müəllifidir. Uzun müddət "Kimya və biologiya" məcmuəsinin redaktoru və redaksiya heyətinin üzvü olmuşdur. 1943-cü ildə Əməkdar müəllim, 1969-cu ildə Əməkdar elm xadimi fəxri adları verilmişdir.

10 may 1992 ci ildə Bakı şəhərində vəfat edib.

Murtuza Qasım oğlu Əhmədli
Əməkdar elm xadimi,
kimya elmləri doktoru, professor
(1906-1979)

4 mart 1906-cı ildə Lənkəran şəhərində anadan olub. 1930-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakültəsinin təbiyyat şöbəsini bitirib. Uzun müddət Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Üzvi kimya və Azərbaycan Dövlət Universitetinin Analitik kimya kafedrasına rəhbərlik edib.

1947-ci ildə ADPİ-nin Üzvi kimya kafedrasının müdiri işləyərkən "Katalizin polyarizasiya nəzəriyyəsi baxımından bir nüvəli və ikiqat əlaqəli karbohidrogenlərin qarışıq katalizator mühitində hidrogenləşməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1948-ci ildə ona kimya elmləri doktoru elmi dərəcəsi və professor elmi adı verilib.

Elmi fəaliyyəti əsasən üzvi reaktivlərin kimyada tətbiqi ilə əlaqəli olub. Azərbaycanda fotometrik analiz metodunun əsasını qoyub. Yeni üzvi reaktivlər sintez edib, onları qeyri-üzvi maddələrin təyinində tətbiq edib, məlum reaktivlərin imkanlarının artırılması sahəsində mühüm tədqiqatlar aparıb.

Kompleks əmələgəlmə reaksiyalarını təkmilləşdirərək, mürəkkəb tərkibli sistemlərdən istifadə zamanı, fotometrik təyinatlarda, həssaslıq və s. kimi analitik göstəricilərin əhəmiyyətli dərəcədə yüksəldiyini müəyyən edib.

400-dən çox elmi əsərin müəllifidir. "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib. 1969-cu ildə ona Əməkdar elm xadimi fəxri adı verilib. Elmi rəhbərliyi ilə 18 namizədlik və doktorluq dissertasiyası müdafiə olunub. 20 may 1979-cu ildə Bakı şəhərində vəfat edib.

Məhərrəm Qafar oğlu Mustafayev

tibb elmləri doktoru, professor
(1906-1986)

1906-cı ildə Şəki rayonunda anadan olub. 1926 -cı ildə Nuxa pedaqoji məktəbini bitirib. Müəllimlik fəaliyyətinə kənddə başlayıb. Elə həmin il təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinə göndərilib. Ali Pedaqoji İnstitutun nəzdindəki pedaqoji məktəbdə (A.Şaiq adına Nümunə məktəbi) müəllim işləyib. 1927 -cı ildə həmin pedaqoji məktəbin əsasında 48 №-li orta məktəb təşkil olunur. Məhərrəm Mustafayev həmin məktəbə ilk direktor təyin edilir. 1930-1933-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunun İnsan və heyvan fiziologiyası kafedrasında çalışıb. 1933-1938-ci illərdə Azərbaycan Tibb İnstitutunda təhsil alır. Həmin illərdə (1933-1942) tibb texnikumunda biologiya, fiziologiya və anatomiyadan dərs deyir. 1942-ci ildə Tibb Texnikumuna dərs hissə müdiri təyin edilir. 1943–1945-ci illərdə Bakı Feldşer və Diş Həkimi Texnikumunun direktoru olub. 1952-ci ildə tibb elmləri namizədi elmi dərəcəsi alıb. 1968-ci ildə professor vəzifəsinə seçilib. 1948-1954-cü illərdə Azərbaycan Tibb İnstitutunda dekan işləyib. 1954-1986-cı illərdə Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun Fiziologiya kafedrasına rəhbərlik edib. Respublika Fizioloqlar Cəmiyyəti sədrinin müavini olub.

80-dən çox elmi işin, 5 dərsliyin, 40 elmi məqalənin müəllifidir.

1986-cı ildə Bakı şəhərində vəfat edib.

Kamil Əbdülsalam oğlu Balakişiyev

tibb elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1906-1973)

1906-cı il sentyabr ayının 20-də Bakının Novxanı kəndində anadan olmuşdur. Orta təhsilini ikinci dövlət kişi gimnaziyasında almış, 1921-ci ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olmuşdur. Beşinci kurs tələbəsi olarkən K. Balakişiyev öz müəl-

limi A. Valenkaya ilə birlikdə rus dilində "Osteologiya üzrə praktik məşğələlərə rəhbərlik" adlı dərs vəsaiti yazmış və həmin vəsait 1926-cı ildə çap olunmuşdur. 1930-cu ildə 24 yaşında elmi-pedaqoji fəaliyyətindəki xidmətlərinə görə K.Balakişiyev privat-dosent elmi adına layiq görülmüşdür. O, Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Tibb İnstitutunda praktik məşğələlər aparmaqla yanaşı, tələbələrə həm rus, həm də Azərbaycan dilində normal anatomiya fənni üzrə mühazirələr oxumağa başlamışdır. Elmi-tədqiqat işlərinə görə 1935-ci ildə ona tibb elmləri namizədi elmi dərəcəsi verilmişdir. 1936-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Elmi Şurasında "Sidik kanalı soğanağı (Meri və Kuper) vəziləri" mövzusu üzrə doktorluq dissertasiyası müdafiə etmiş, 30 yaşında tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.1937-1973-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Normal anatomiya kafedrasına, 1937–1941-ci illərdə Azərbaycan Dövlət Universitetinin Anatomiya kafedrasına, 1938–1940-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunun Anatomiya və fiziologiya kafedrasına rəhbərlik etmişdir.

1942-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. O, 1943–1945-ci illərdə ATİ-nin Müalicə-profilaktika fakültəsinin dekanı, 1944 – 1945-ci illərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Tibb bölməsinin baş elmi işçisi vəzifəsində çalışmış, Bakının bir sıra xəstəxanalarının cərrahiyyə şöbələrində həkim-cərrah kimi fəaliyyət göstərmişdir.

Onun elmi rəhbərliyi ilə 15 nəfər elmlər doktoru və namizədi yetişdirilmişdir. O, 100-ə yaxın elmi işin, o cümlədən orijinal dərslik və dərs vəsaitinin, lüğət və terminologiyanın, elmi-kütləvi məqalənin müəllifi olmuşdur.

17 il Azərbaycan Tibb İnstitutunda tədris işləri üzrə prorektor, Səhiyyə Nazirliyində idarə rəisi, Azərbaycan Elmlər Akademiyasının Terminologiya Komitəsinin tibb bölməsinin sədri vəzifələrində çalışmışdır. SSRİ Anatom, Histoloq və Embrioloqlar Cəmiyyətinin rəyasət heyətinin üzvü olmuş, 1953-1973-cü illərdə bu cəmiyyətin Azərbaycan şöbəsinə rəhbərlik etmişdir.

"Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" (2 dəfə), "Oktyabr inqilabı" ordenləri, "SSRİ səhiyyə əlaçısı" döş nişanı və bir sıra medallarla təltif edilmiş, SSRİ Səhiyyə Nazirliyinin təşəkkürünə layiq görülmüşdür.

1973-cü ilin noyabrın 22-də Bakıda vəfat edib.

Hacıbaba Səməd oğlu Qasımov
biologiya elmləri doktoru, professor
(1908-1973)

1908-ci ildə Bakıda anadan olub. 1930 -cu ildə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin təbiət-riyaziyyat şöbəsini bitirib. Pedaqoji fəaliyyətə Azərbaycan Tibb İnstitutunun Biologiya kafedrasında başlayıb. Tibb İnstitutunda işləməklə bərabər həm də orada təhsil alır.1936-cı ildə institutu bitirərək Azərbaycan Tropik İnstitutunda tibbi helmintologiya sahəsində işləməyə başlayıb.

1938-ci ildə Moskvada "Azərbaycanda insan trixosronhilidləri" mövzusunda elmi araşdırmalar aparır. 1942-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi alır. Tropik İnstitutunda işləməklə bərabər ADU-da, Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Pedaqoji İnstitutunda fiziologiyadan mühazirələr oxuyur.

1944-cü ildə akademik K.İ.Skryabin Bakıya gəlir, Azərbaycan EA-nın Zoologiya İnstitutunda Parazitologiya şöbəsi təşkil edir. Şöbəyə rəhbərlik H.Qasımova həvalə olunur. O, 1952-ci ildə dissertasiya müdafiə edərək biologiya elmləri doktoru elmi dərəcəsi alır. Azərbaycanda parazitologiya elminin inkişafında mühüm xidmətləri olub.

Azərbaycan EA Zoologiya İnstitutunun helmintologiya laboratoriyasının müdiri, Azərbaycan Helmintoloqlar Cəmiyyətinin sədri olub. "İnsan helmintozları" (1967), "Heyvanlarda təsadüf edilən helmintozlar və onlara qarşı mübarizə tədbirləri" (1964) kitablarının və 100-dən artıq elmi məqalənin müəllifidir. Zooloqların ABŞ (1963), Çexoslovakiya (1962), Bolqarıstan (1968) və Moskvada(1971) keçirilən Beynəlxalq konqres və simpoziumlarının iştirakçısı olub.

19 iyul 1973-cü ildə Bakı şəhərində vəfat edib.

Şixbala Əbülfəz oğlu Əliyev
kimya elmləri doktoru, professor
(1910-1960)

1910-cu ildə mart ayının 28-də Bakının Binəqədi kəndində anadan olmuşdur. Binəqədi kəndində ibtidai məktəbi, Bakı şəhərindəki 18 №-li orta məktəbi bitirib. Azərbaycan Ali Pedaqoji İnstitutunun Təbiyyat fakültəsinin kimya şöbəsində oxuyub. İnstitutu bitirdikdən sonra təhsilini Leninqrad Dövlət Universitetinin aspiranturasında (1931-1934) davam etdirib. 1934-cü ildə Leninqrad Dövlət Universitetinin Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi (24 yaşında) almışdır.

1935-ci ildə SSRİ EA-nın Azərbaycan filialının Kimya İnstitutunda elmi fəaliyyətə başlamış, Neft kimyası şöbəsinə və "Yanacaq kimyası" laboratoriyasına rəhbərlik etmişdir. Sonralar Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutunun "Xüsusi yanacaqlar" laboratoriyasında işləmişdir. 1943-cü ildə SSRİ Elmlər Akademiyasının Neft İnstitutunun Elmi Şurasında Ş.Əliyev dünya şöhrətli alim, akademik A.E.Favorskinin rəhbərliyi ilə "Krekinqin buxar fazasında toluolun və stirolun yaranma mexanizmi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1946-cı ildə Azərbaycanda üzvi kimya sahəsində ilk professor elmi adını almışdır. 1935-ci ildən başlayaraq Azərbaycan Sənaye İnstitutunda və Bakı Dövlət Universitetində dosent, SSRİ EA Azərbaycan filialının Kimya İnstitutunda əvvəlcə şöbə, sonra laboratoriya müdiri, 1941-1943-cü illərdə direktor, 1947-1949-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, 1950-ci ildə isə Azərbaycan Politexnik İnstitutunda Ümumi kimya kafedrasının müdiri vəzifəsində işləyib.

1950-1960-cı illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri olub. 1950-1960-cı illərdə D.İ.Mendeleyev adına Ümumittifaq Kimya Cəmiyyətinin sədr müavini olmuşdur.70-dən çox elmi əsərin müəllifi olub. Əldə etdiyi yüksək elmi nəticələr Amerika və Almaniyanın elmi jurnallarında nəşr olunub. SSRİ Nazirlər Soveti yanında İxtiralar və Kəşflər üzrə Komitə tərəfindən 13 müəllif şəhadətnaməsi və patent verilib.

"Şərəf Nişanı" (1945) ordeni, "Qafqazın müdafiəsi uğrunda" (1945), "1941-1945-ci illərdə Böyük vətən müharibəsində fədakar əməyinə görə" (1945) "Fədakar əməyinə görə" (1946) medalları ilə təltif olunmuşdur.

1960-cı ildə Azərbaycan EA-nın Neft-Kimya Prosesləri İnstitutunda aparılan sınaq işləri zamanı baş vermiş partlayış nəticəsində faciəli surətdə həlak olub.

İslam Qafar oğlu Əlizadə
kimya elmləri doktoru, professor
(1910-1974)

10 iyun 1910-cu ildə anadan olub. 1931-1935-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Təbiət fakültəsinin kimya şöbəsində oxuyub. Qusar Pedaqoji Texnikumunda tədris hissə müdiri işləyib.

Uzun müddət Azərbaycan Pedaqoji İnstitutunun Kimya-biologiya fakültəsinin kimya şöbəsində çalışıb. 1937-ci ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsinin aspiranturasına qəbul olunub. Bir il sonra tədqiqatlarını davam etdirmək üçün Kazan Dövlət Universitetinə göndərilib. 1941-ci ildə namizədlik, 1965-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1942-ci ildə ADU -nun Üzvi kimya kafedrasına dosent seçilmişdir. 1945-1946-cı illərdə ADU -nun aspirantura şöbəsinin müdiri, elmi işlər üzrə prorektorun köməkçisi vəzifələrində işləyib. 1947-1952-ci illərdə Kimya fakültəsinin dekanı olub.

1952-1954-cü illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin Üzvi kimya kafedrasında dosent vəzifəsində çalışıb. 1954-1960-cı illərdə BDU-nun Üzvi kimya kafedrasına rəhbərlik edib. 1969-cu ildə Üzvi kimya ixtisası üzrə professor elmi adına layiq görülüb. 100 elmi əsərin və 5 müəlliflik şəhadətnaməsinin müəllifidir.

1943-46-cı illərdə BDU Həmkarlar Təşkilatının sədri, Elmi Şuranın və bir sıra Müdafiə Şuralarının üzvü olub. "Qafqazın müdafiəsinə görə", "Böyük Vətən müharibəsi illərində əmək rəşadətinə görə»" medalları ilə təltif edilib.

1974-cü ildə Bakı şəhərində vəfat edib.

Firudun Cahangir oğlu Əliyev
pedaqoji elmlər namizədi, professor,
Əməkdar müəllim
(1910-1986)

1910-cu ildə Gəncə şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1925-ci ildə Bakı müəllimlər seminariyasını, 1930-cu ildə isə V.İ.Lenin adına APİ-nin Təbiyyat fakültəsini bitirmişdir. Pedaqoji fəaliyyətə orta məktəbdə müəllim işləməklə başlamışdır. II Dünya müharibəsinin iştirakçısı olmuşdur.

Müharibədən qayıtdıqdan sonra ADPİ-də pedaqoji fəaliyyətə başlamışdır. 1956-cı ildə "Orta məktəbin V sinfində botanikanın tədrisi metodikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1963-cü ildə Biologiyanın tədrisi metodikası kafedrası üzrə dosent elmi adı almışdır. 1970-1982-ci illərdə Biologiyanın tədrisi metodikası kafedrasının müdiri olmuşdur. 1986 -cı ildə həmin kafedraya professor vəzifəsinə seçilmişdir.

Biologiyanın tədrisi metodikası ilə bağlı 1 monoqrafiya, 5 dərslik və dərs vəsaitinin, 32 elmi-metodiki məqalənin müəllifidir. Elmi rəhbərliyi ilə 4 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. 9 dissertasiya işinin rəsmi opponenti olmuşdur.

1973-cü ildə ona Əməkdar müəllim fəxri adı verilmişdir.

1986-cı il sentyabrın 8- də Bakı şəhərində vəfat etmişdir.

İsmayıl İsrafil oğlu Hüseynov

kimya elmləri doktoru, professor
(1911-1979)



1911-ci ildə Tbilisi şəhərində anadan olmuşdur. 1937-ci ildə Tbilisi Meşə Texnikası İnstitutunu bitirmişdir. 1941-ci ilədək orta məktəblərdə müəllimlik etmişdir.

1941-1944-cü illərdə Vətən müharibəsində iştirak etmişdir. 1944-1970-ci illərdə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda və H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunda dekan, dosent, professor vəzifələrində işləmişdir. Elmi rəhbərliyi ilə 2 nəfər (E.Abbasov, V.Həsənov) namizədlik dissertasiyası müdafiə etmişdir.

1972-1979-cu illərdə ADPİ-nin Üzvi kimya və kimya tədrisi metodikası kafedrasının müdiri olub. Vinilasetilenin alkil-tio, alkolsi efirlərinin eləcə də xlor, kükürd və fosfor saxlayan dienlərin şəraitini öyrənmişdir. "Qeyri-üzvi və üzvi kimyadan tipik məsələlərin həlli" (1974), "Kimyanın yeni sahələri" (1976), "Molekulun sirrləri" (1977) kitablarının və 50 -dən çox elmi məqalənin müəllifidir.

1979-cu ildə Bakı şəhərində vəfat etmişdir

Əbdüləziz Əbdül oğlu Salahov

pedaqoji elmlər namizədi, professor
(1913 - 1988)

1913-cü ildə Qutqaşen (indiki Qəbələ) rayonunun Savalan kəndində anadan olub. 1924-1927-ci illərdə Savalan kənd ibtidai məktəbində, 1927- 1931-ci ildə Gəncə Kənd Təsərrüfatı Texnikumunda oxuyub. 1930-1931-ci illərdə Qaradonlu (indiki İmişli) rayonunun Qaralar kəndində kolxozçu-gənclər məktəbində müəllim işləyib. 1931-1935-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Təbiyyat-kimya fakültəsində ali təhsil alıb. 1935-1937-ci illərdə Qaradonlu rayonunda yeddiillik məktəbdə müəllim

və direktor işləyib.1937-1944-cü illərdə Dəvəçi rayonunun Dəvəçi-bazar, Pirəbədil kəndlərində orta məktəb direktoru və biologiya müəllimi vəzifəsində çalışıb.1944-1946-cı illərdə Ağdaş Pedaqoji Məktəbinin direktoru olub. 1946-1950-ci illərdə Azərbaycan SSR Maarif Nazirliyinin ali və pedaqoji məktəblər idarəsində inspektor kimi fəaliyyət göstərib. 1950-1952-ci illərdə Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqogika İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərməklə yanaşı, həm də burada dissertantura hazırlığı keçib. 19 iyun 1952-ci ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alıb. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi nəzdində AAK tərəfindən 14 mart 1953-cü ildə onun elmi dərəcəsi təsdiq olunub.1952-1953-cü illərdə Ağdam Dövlət Müəllimlər İnstitutunun direktoru və Təbiyyat-coğrafiya kafedrasının müdiri olub. 1953-1958-ci illərdə Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi vəzifəsində çalışıb. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi nəzdində AAK tərəfindən ona Təbiətşünaslıq kafedrası üzrə 3 dekabr 1953-cü ildə dosent elmi adı verilib. 1958-1970-ci illərdə ADPİ-nin Zoologiya kafedrasında, 1970-1983-cü illərdə Biologiyanın tədrisi metodikası kafedrasında dosent vəzifəsində çalışıb. 14 dekabr 1983-cü ildə Biologiyanın tədrisi metodikası kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Nazirlər Soveti yanındakı Ali Attestasiya Komissiyası ona 24 may 1985-ci ildə Biologiyanın tədrisi metodikası kafedrası üzrə professor elmi adı verib. Bir neçə il həmin kafedraya rəhbərlik edib.

Zoologiya və biologiyanın tədrisi metodikası ilə "Qabaqcıl biologiya müəllimlərinin iş təcrübələri" (1955),"Gənc təbiətçilərin nailiyyətləri" (1956), "Zoologiya (orta məktəbin "Zoologiya" dərsliyinə əlavə) (1961), "Azərbaycanın ov heyvanları" (1962),"Biologiyadan əyani vəsaiti necə hazırlamalı" (1967), "Təbiətin gənc dostları" (1973), "Zoologiya tədrisinin ölkəşünaslıq materialları ilə əlaqələndirilməsi" (1979), "Biologiya tədrisinin ümumi metodikası" (1984, 1988), "Biologiyanın tədrisində təlimin texniki vasitələrindən istifadə" (1986), "Biologiya tədrisindən laborator məşğələlərin aparılmasına dair metodik göstərişlər (təbiətşünaslıq, botanika və zoologiya üzrə) (1988) kitab və kitabçanın, 50-dən artıq elmi-metodiki və publisistik məqalənin müəllifidir. Uzun müddət "Kimya və biologiyanın tədrisi" metodik məcmuəsinin redaktor müavini olub. On il biologiyadan Respublika fənn olimpiadası komissiyasının sədr müavini olub.

17 oktyabr 1988-ci ildə Bakı şəhərində vəfat edib.

Püstəxanım Fərəməz qızı Rzazadə

kimya elmləri doktoru, professor,
Dövlət mükafatı laureatı
(1913-1981)

2 iyul 1913-cü ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakı şəhərində alıb. 1935-ci ildə Azərbaycan Pedaqoji İnstitunun Təbiyyat fakültəsinin kimya bölməsini bitirib. 1935-1937-ci illərdə Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat laboratoriyasında, 1937-1945-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində müəllim, 1945-1957-ci illərdə Azərbaycan EA -nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışıb.

1957-ci ildən ömrünün sonuna kimi həmin institutda laboratoriya müdiri olub. 1965-ci ildə kimya ixtisası üzrə doktorluq dissertasiyası müdafiə edib. Həmin ildə professor elmi adı alıb.

1978-ci ildə Dövlət mükafatı laureatı olub. Əsas tədqiqatları Azərbaycanın təbii mineral sərvətlərinin kompleks emalı və istifadəsi ilə bağlıdır. 2 dəfə "Şərəf Nişanı" ordeni və medallarla təltif olunub. «Пути использования серпентинита» (1960), «Исследования в области неорганической и физической химии» (şərikli) (1975), «Bor mikro gübrəsi və onun bitki həyatında əhəmiyyəti» (1975) monoqrafiyaların və nüfuzlu elmi jurnallarda nəşr olunan xeyli elmi məqalənin müəllifidir.

2 may 1981-ci ildə Bakı şəhərində vəfat edib.

Allahverdi Əmənullah oğlu Verdizadə

kimya elmləri doktoru, professor
(1914-1973)

1914-cü il may ayının 2-də Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub. 1930-cu ildə Füzuli şəhərində (o vaxtkı Qaryagin) II dərəcəli məktəbi bitirib. 1930-1933-cü illərdə[12] Azərbaycan Pedaqoji İnstitutunun Təbiyyat-riyaziyyat fakültəsinin kimya–biologiya şöbəsində təhsil alıb. 1933-1941-ci illərdə respublikanın ucqar rayonlarının orta məktəblərində müəllim işləyib.

[12] Həmin dövrdə Azərbaycan Pedaqoji İnstitutunda təhsil müddəti 3 il idi.

1941-1942- ci illərdə sovet-alman müharibəsinin iştirakçısı olub.

1943 -cü ildə ordudan tərxis olunub. 1943-1946-cı illərdə Azərbaycan Sənaye İnstitutunda assistent kimi fəaliyyət göstərib. 1945-ci ildə ASİ-nin Elmi Şurasında kimya elmləri namizədi alimlik dərəcəsi almaq üçün "Yodun üzvi həlledicilərinin tətbiqi ilə dəmirin mikroyodometrik təyini" mövzusunda dissertasiya müdafiə edib. 1947-ci ildən ömrünün sonuna kimi Azərbaycan Pedaqoji İnstitutunda elmi-pedaqoji fəaliyyət göstərib.

1953-1954- cü illərdə əvəzçiliklə Elmi-tədqiqat Bərpaedici Cərrahiyyə və Ortopediya İnstitutunun biokimya laboratoriyasının müdiri vəzifəsində işləyib. 1959-1964-cü illərdə ADPİ-nin Ümumi kimya kafedrasına rəhbərlik edib.

1965-ci ildə Azərbaycan EA-nın Neft-Kimya Prosesləri İnstitutunun birləşmiş Elmi Şurasında analitik kimya ixtisası üzrə "Yodometriyanın peryodat üsulu" mövzusunda dissertasiya müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsi alıb. 1967-ci ildə ona professor elmi adı verilib. Onun təşəbbüsü ilə 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunda Analitik və fiziki kimya kafedrası təşkil olunub. Həmin kafedraya 1969-1973-cü illərdə Allahverdi Verdizadə rəhbərlik etmişdir.

Analitik kimya sahəsində həyata keçirdiyi elmi-tədqiqat işləri əsasən 2 istiqamətdə aparılmışdır. Əsas elmi istiqaməti analitik kimyaya peryodatometrik analiz üsulunun gətirilməsi olmuşdur. İkinci istiqamət isə fotometrik analizdə bəzi d-keçid elementlərinin amin –rodanid komplekslərinin sintezi və tədqiqinə həsr olunub. 1970-ci ildən onun rəhbərliyi ilə bəzi d- keçid elementlər üçün həssas və seçici yeni ekstraksiyalı –fotometrik üsullar işlənib hazırlanıb.

Elmi rəhbərliyi ilə 3 nəfər elmlər namizədi və 1 nəfər elmlər doktoru yetişib. 150-dən artıq elmi əsərlərin, o cümlədən 20-ə qədər dərslik, dərs vəsaiti, elmi kütləvi kitabların müəllifidir.

"Yarım mikro kimyəvi analiz" (I və II hissə, 1959, 1961), "Vəsfi analiz praktikumu" (1972), "Vəsfi analizin nəzəri əsasları" (1973), "Miqdari analiz praktikumu" (1975), "Analitik kimya" (2002), "Oksidimetriya", abituriyentlər üçün yazılmış "Kimyadan vəsait" (1967, 1982,1983) kitabları nəşr olunub.

2009-cu və 2014-cü illərdə AMEA-nın, Təhsil Nazirliyinin və ADPU-nun təşəbbüsü və iştirakı ilə ADPU-da professor A.Ə.Verdizadənin 95 və 100 illik yubileylərinə həsr olunmuş "Üzvi reagentlər analitik kimyada" adlı respublika konfransları keçirilmişdir.

1973-cü il sentyabr ayının 24-də Bakı şəhərində vəfat edib.

Abbas Qulam oğlu Misgərli
texnika elmləri doktoru,professor
(1915-1987)

15 may 1915-ci ildə Salyan şəhərində anadan olub. 1931-ci ildə Salyan şəhər 4 №-li orta məktəbi, 1935-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Kimya-biologiya fakültəsini bitirib. 1935-1938-ci illərdə Salyan şəhər Kənd Təsərrüfatı Texnikumunda müəllim işləyib. 1938-1941-ci illərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının aspiranturasında oxumaqla yanaşı Azərbaycan Pedaqoji İnstitutunda müəllim işləyib. Böyük Vətən müharibəsi illərində sovet ordusu sıralarında kimya qoşun növündə aviasiya hissəsində leytenant rütbəsində kimya xidməti rəisi vəzifəsində xidmət edib.

1944-cü ilin may ayında dissertasiya müdafiə edərək kimya elmləri namizədi elmi dərəcəsi alıb. Hərbi xidmətdən tərxis olunduqdan sonra Azərbaycan SSR EA-nın Kimya İnstitutuna qayıtmış, əvvəlcə kiçik, sonra isə böyük elmi işçi vəzifəsində çalışmışdır. 1948-ci ildə laboratoriya rəhbəri seçilmişdir.

1956-cı ilin fevral ayında Moskva şəhərində - SSRİ EA-nın Neft İnstitutunda doktorluq dissertasiyası müdafiə edərək texnika elmləri doktoru elmi dərəcəsi alıb. 3 yanvar 1957-ci ildə ona kolloid kimyası ixtisası üzrə professor elmi adı verilib.

Elmi-tədqiqat fəaliyyəti ilə yanaşı Azərbaycan Neft - Kimya İnstitutunda, Azərbaycan Dövlət Universitetində, Azərbaycan Pedaqoji İnstitutunda və Politexnik İnstitutunda assistent, dosent, fizika kafedrasında kolloid kimyası üzrə əvəzçiliklə professor vəzifəsində işləyib. 1967-ci ildə SSRİ Elmlər Akademiyasının xətti ilə Rumıniyada bir aylıq elmi ezamiyyətdə olub.

"Kolloid kimyası kursu" dərsliyinin müəllifidir. Neft hasilatında, kimya sənayesində tətbiqini tapmış və tətbiq üçün təklif edilmiş 12 elmi işin müəlli-

fidir. 13 müəlliflik və həmmüəlliflik şəhadətnaməsi alıb, həmçinin SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (XTNS) və respublika sənayesində fərqləndiyinə görə "böyük gümüş" və "bürünc" medallara, pul mükafatlarına layiq görülüb. Elmi rəhbərliyi ilə 25 nəfər namizədlik dissertasiyası müdafiə edib. 4 monoqrafiyası, 200-dən çox elmi məqaləsi nəşr edilib.

Azərbaycan EA-nın Fizika İnstitutunun Fiziki kimya şöbəsinin Elmi Şurasının sədri, SSRİ Elmlər Akademiyası və Ukrayna SSR Elmlər Akademiyasının Problemlər Şurasının üzvü, Mendeleyev adına Kimya Cəmiyyətinin kolloid kimyası üzrə Elmi Şurasının üzvü, Respublika Zəhmətkeşləri arasında Kimyəvi Bilgilərin Təbliğatı Cəmiyyətinin üzvü olub.

Azərbaycan SSR-nin "Bilik" Cəmiyyətinin Təşəkkürnaməsi (1971), Mendeleyev adına Ümumittifaq Kimya Cəmiyyətinin Fəxri Fərmanı (1975), Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin Fəxri Fərmanı (1985) ilə təltif olunub.

17 may 1987-ci il tarixdə Bakı şəhərində vəfat edib.

Tələt Dənyarbəy oğlu Qayıbov
biologiya elmlər doktoru, professor,
Əməkdar müəllim
(1923-2002)

1923-cü ildə Quba rayonunun Alpan kəndində anadan olmuşdur. 1939-cu ildə Bakı şəhərində 132 №-li məktəbi bitirmişdir.

1939-1944-cü illərdə Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsində təhsil almışdır. 1943-cü ildə SSRİ EA-nın Azərbaycan filialının Zoologiya İnistitutunda baş laborant vəzifəsində işləmişdir. 1945 –1948-ci illərdə Azərbaycan EA-da fiziologiya ixtisası üzrə aspirant olmuşdur. 1948-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1948 – 1960-cı illərdə Elmi Tədqiqat Hematologiya və Qanköçürmə İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır.

1961-ci ildə Moskvada N.İ.Piroqov adına 2 №-li Tibb İnstitutunda "Uyğun gələn və uyğun olmayan qanın köçürülməsindən sonra resipiyentin orqanizmində yaranan funksional dəyişikliklər" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1951-1966-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun

İnsan və heyvan fiziologiyası kafedrasının müdiri, institutun partiya təşkilatının katibi, elmi işlər üzrə prorektor, 1966–1992-ci illərdə Azərbaycan Dövlət Universitetində İnsan və heyvan fiziologiyası kafedrasının müdiri vəzifəsində çalışmışdır.

ADPİ-də işlədiyi illərdə "İnsan və heyvan fiziologiyası" kafedrası institutda fiziologiya fənnindən başqa "İnsan anatomiyası", "Histologiya", "Sitologiya və məktəb gigiyenası" kimi fənlərin birləşdiyi ən böyük kafedraya çevrilmişdir. 1963-cü ildə Fiziologiya kafedrasının nəzdində onun rəhbərliyi ilə "Problem laboratoriya" yaradılmışdır.

1992-2002- ci illərdə Bakı Dövlət Universitetində "İnsan və heyvan fiziologiyası" kafedrasının professoru işləmişdir. Ayrı-ayrı vaxtlarda "Hemostaz", "Radiobiologiya", "Biostimulyatorlar" laboratoriyasına rəhbərlik etmişdir. 1954-cü ildən fiziologiya sahəsində Zaqafqaziya pedaqoji institutlarının və universitetlərinin birgə keçirdiyi konfransların təşkilatçılarından biri olmuşdur.

O, 29 elmlər namizədi və 11 elmlər doktoru hazırlayıb. 350-dən çox elmi əsərin, o cümlədən 3 monoqrafiyanın, 2 dərslik, bir sıra metodiki göstərişlər və patentlərin müəllifidir.

Azərbaycan Fizioloqlar Cəmiyyətinin sədr müavini, "Bilik" cəmiyyətinin Rəyasət heyətinin üzvü, uşaq və yeniyetmələrin fizioloji problemlərinin Koordinasiya Şurasının üzvü, BDU-nun, ATU-nun, ADPU-nun, Azərbaycan EA-nın Fiziologiya İnstitutunun elmi şuralarının üzvü olub.

2000-ci ildə Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

26 yanvar 2002-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Rza İbrahim oğlu Səfərov

biologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1923-1993)

1 sentyabr 1923-cü ildə Gəncə şəhərində anadan olub. 1930-1940-cı illərdə Gəncə şəhər orta məktəbində təhsil alıb. 1940-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə qəbul olunub.

İki il sonra ordu sıralarına səfərbərliyə alınıb. Tbilisi şəhərindəki Artilleriya məktəbində kursant kimi xidmət edib. 1942-ci ilin sentyabr ayında səhhəti ilə əlaqədar

olaraq ordudan tərxis olunub, xəstəliyi ilə əlaqədar olaraq təhsilini davam etdirə bilməyib. 1944-cü ildə Moskva Baytarlıq Akademiyasına qəbul olunub. 1949-cu ildə həmin akademiyanı fərqlənmə diplomu ilə bitirib.

1949-1951-ci illərdə Moskva Baytarlıq Akademiyasının Normal fiziologiya kafedrasının aspirantı olub. 1952-ci ildə akademik N.F.Popovun rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta ixtisas Təhsili Nazirliyi nəzdində Ali Attestasiya Komissiyası tərəfindən 14 mart 1953-cü ildə ona elmlər namizədi elmi dərəcəsi verilib.

1953-1954-cü illərdə Azərbaycan EA-nın Fiziologiya laboratoriyasında baş elmi işçi olub. 14 may 1956-cı ildə ona böyük elmi işçi diplomu verilib. 1954-1962-ci illərdə Azərbaycan Travmatologiya və Ortopediya ETİ-nin Fiziologiya laboratoriyasının müdiri olub. 22 mart 1961-ci ildə İ.V.Stalin adına Tbilisi Dövlət Universitetinin Elmi Şurasında doktorluq dissertasiyası müdafiə edib.

SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi nəzdində AAK tərəfindən 4 may 1962-ci ildə ona elmlər doktoru elmi dərəcəsi, 1 iyun 1964-cü ildə fiziologiya ixtisası üzrə professor elmi adı verilib.

1962-1967-ci illərdə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Mərkəzi ETL-nin müdiri vəzifəsində çalışıb. 1967-1993-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun İnsan və heyvan fiziologiyası kafedrasının müdiri olub. 26 il həmin kafedraya rəhbərlik etməklə yanaşı, Azərbaycan EA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunda laboratoriya müdiri olub.

Biologiyanın müxtəlif problemləri ilə bağlı 2 monoqrafiya, 3 tədris vəsaiti və 274 elmi məqalənin müəllifidir.

7 nəfərin elmlər doktoru, 10 nəfərin elmlər namizədi dissertasiyasının elmi rəhbəri olub. Azərbaycan SSR Ali və Orta Təhsil Nazirliyi, Moskva Baytarlıq Akademiyası, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu və Azərbaycan SSR Səhiyyə Nazirliyi tərəfindən Fəxri Fərmanlarla təltif olunub, "Əmək veteranı" medalı ilə təltif olunub. 23 dekabr 1981-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

27 noyabr 1993-cü ildə Bakı şəhərində vəfat edib

Roza Zeynal qızı Qafarova
biologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1926-1997)

1926-cı ildə İrəvan şəhərində anadan olub. 1933-1943-cü illərdə İrəvan şəhərindəki S.M.Kirov adına Azərbaycan orta məktəbində oxuyub. 1943-1945-ci illərdə İrəvan Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsində oxuyub. Həmin ixtisasda təhsilini davam etdirmək istəmədiyinə görə Bakıya gələrək S.M.Kirov adına ADU-nun Biologiya fakültəsinə qəbul olunub.1946-1951-ci illərdə həmin fakültədə təhsil alıb.

1951- 1954-cü illərdə V.İ.Lenin adına ADPİ-nin İnsan və heyvan anatomiyası və fiziologiyası kafedrasının aspirantı olub. Həmin kafedrada assistent kimi əmək fəaliyyətinə başlayıb. 7 aprel 1955-ci ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında "Dad analizatorunun şərti refleks üsulu ilə təyini" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 7 sentyabr 1956-cı ildə İnsan və heyvan fiziologiyası kafedrasına dosent vəzifəsinə seçilib.

21 yanvar 1957-ci ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona İnsan və heyvan anatomiyası və fiziologiyası kafedrası üzrə dosent elmi adı verilib. 1967-ci ildə "İsti iqlim şəraitində müxtəlif yaşla əlaqədar termorequlyasiyanın xüsusiyyətləri və onun dəyişməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

27 iyul 1967-ci ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona biologiya elmləri doktoru elmi adı verilib. 8 dekabr 1967-ci ildə İnsan və heyvan anatomiyası və fiziologiyası kafedrasına professor vəzifəsinə seçilib. 12 iyul 1968-ci ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona İnsan və heyvan fiziologiyası kafedrası üzrə professor elmi adı verilib.

1968-1972-ci illərdə Biologiya və coğrafiya fakültəsinin (əyani şöbə üzrə), 1972-1976-cı illərdə Biologiya fakültəsinin dekanı vəzifəsində işləyib. Biologiya və Coğrafiya fakültələri birləşdirildiyindən 1976-1981-ci illərdə Biologiya-coğrafiya fakültəsinə, 1981- 1997-ci illərdə Kimya-biologiya fakültəsinə rəhbərlik edib. İnsan və heyvan fiziologiyası (ekoloji fiziologiya) sahəsində tanınmış mütəxəssis olub.

3 mart 1973-cü ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb. Rusiyanın və Azərbaycanın nüfuzlu jurnallarında 200 -dən çox məqaləsi və 1 monoqrafiyası nəşr olub. "Uşağın anatomiya və fiziologiyası" (1971), "Yaş fiziologiyası" (1981) tədris proqramlarını rus dilindən Azərbaycan dilinə tərcümə edib.

SSRİ EA-nın İ.P.Pavlov adına Fiziologiya İnstitutunun Elmi Metodik Şurasının, Azərbaycan EA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunun Müdafiə Şurasının üzvü olub.

23 iyun 1997-ci ildə Bakı şəhərində vəfat edib.

Sadıx Yusif oğlu Əliyev

biologiya elmləri doktoru, professor

(1927- 1997)

15 iyul 1927-ci ildə Gəncə şəhərində anadan olub. 1948-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) baytarlıq fakültəsini bitirib. İnstitutu fərqlənmə diplomu ilə bitirdiyinə görə Cərrahlıq kafedrasında assistent və ordinator saxlanılıb. Kafedrada mövcud olan həmin vəzifələr ləğv edildiyinə görə, 1949-1954-cü illərdə istehsalatda işləyib, əvvəlcə zoobaytarlıq sahəsinin, sonra isə bakterioloji laboratoriyanın müdiri olub. 1954-1957-ci illərdə aspirantura təhsili alıb. 1957-1959-cu illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun təkmilləşdirmə kursunun müdiri, 1959-1961-ci illərdə tədris hissə müdiri işləyib.

19 iyun 1958-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edib. 27 dekabr 1958-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona biologiya elmləri namizədi elmi dərəcəsi verilib. 1961-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Zoologiya, baytarlıq tibbi müayinəsi və parazitologiya kafedrasına dosent vəzifəsinə seçilib. 11 dekabr 1963-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona dosent elmi adı verilib. 1968-ci ilə kimi həmin vəzifədə çalışıb.

1968-ci ildə Bakıya köçüb və burada V.İ.Lenin adına ADPİ-nin Zoologiya kafedrasına dosent vəzifəsinə seçilib. Az sonra doktorluq dissertasiyası mü-

dafiə edib. 3 dekabr 1971-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK ona biologiya elmləri doktoru elmi dərəcəsi verib. 10 oktyabr 1973-cü ildə ADPİ-nin Zoologiya kafedrasına professor vəzifəsinə seçilib. 31 yanvar 1974-cü ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona professor elmi adı verilib. 1977-1979-cu illərdə Azərbaycan KP MK yanında Marksizm-leninizm Universitetində oxuyub. 1980-ci ildə Kimya-biologiya fakültəsinin nəzdindəki nəzəri seminarın rəhbəri təyin olunub. 1976-1990-cı illərdə ADPİ-nin Zoologiya kafedrasına rəhbərlik edib.

24 aprel 1990-cı ildə S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunun Parazitologiya və baytarlıq tibbi müayinəsi kafedrasına müdir vəzifəsinə seçildiyinə görə Gəncə şəhərinə köçüb. Bir müddət S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunda tədris işləri üzrə prorektor vəzifəsində çalışıb.

"Heyvandarlıq məhsullarının emalı və baytarlıq-sanitariya ekspertizası" (1965), "Heyvanlarda dikroselioz və onunla mübarizə tədbirləri" (1970), "Onurğalı heyvanların sistematikasının əsasları" (1983) dərs vəsaitləri və 50-dən çox elmi məqaləsi nəşr olunub.

1981-ci ildə ona Azərbaycan SSR əməkdar ali məktəb işçisi fəxri adı verilib.

1997-ci ildə Gəncə şəhərində vəfat edib.

Cəmil İsfəndiyar oğlu Sayılov

biologiya elmləri namizədi, professor
(1929-1999)

1929-cu ildə Zəngilan rayonu Bartaz kəndində anadan olub. 1946-1950-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Təbiyyat fakültəsində təhsil alıb.

1950-1951-ci illərdə Zəngilan rayonu Pirçivan qəsəbə orta məktəbində müəllim işləyib. 1951-1953-cü illərdə hərbi xidmətdə olub. 1953-1957-ci illərdə Azərbaycan EA-nın Kimya İnstitutunda laborant və kiçik elmi işçi vəzifəsində çalışıb.

1957-1960-cı illərdə ADPİ-nin aspiranturasında təhsil alıb. 27 dekabr 1962-ci ildə namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin yanında AAK tərəfindən 11 may 1963-cü ildə ona

biologiya elmləri namizədi elmi dərəcəsi verilib. ADPİ-nin Zoologiya kafedrasında baş laborant (1960-1963), müəllim (1963-1966), dosent (1966-1991) vəzifələrində işləyib.

24 oktyabr 1966-cı ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona dosent elmi adı verilib. 5 iyul 1991-ci ildə ADPU-nun Zoologiya kafedrasına professor vəzifəsinə seçilib. 17 dekabr 1992-ci ildə Rusiya Federasiyasının Ali Attestasiya Komissiyası tərəfindən ona professor elmi adı verilib.

Dəfələrlə Moskva şəhərində keçirilən Ümumittifaq helmintoloqlarının və zooloqlarının elmi konfranslarında iştirak edib. "Təbiətşünaslığın əsasları" (1972), "Onurğasızlar zoologiyasına dair laborator məşğələlər" (1974), "Parazitologiyadan ixtisas kursu" (1978), "Onurğasızlar zoologiyasından metodiki işləmə" (1989) adlı dərs vəsaitlərinin və 70-dən artıq elmi əsərin müəllifidir. Səmərəli elmi-pedaqoji fəaliyyətinə görə müxtəlif diplom, fəxri fərman, "Sosializm yarışının qalibi" və "SSR-nin ali məktəb əlaçısı" döş nişanları ilə təltif edilib.

30 yanvar 1999-cu ildə Bakı şəhərində vəfat edib.

Rəcəb Yaqub oğlu Əliyev
pedaqoji elmlər doktoru, professor
(1930-2007)

10 mart 1930-cu ildə Lənkəran şəhərində anadan olub. 1937-1944-cü illərdə Lənkəran şəhər 4 №-li natamam orta məktəbində, 1944-1947-ci illərdə Lənkəran Subtropik Bitkiləri Texnikumunda, 1948-1952-ci illərdə ADPİ-nin Təbiyyat-kimya fakültəsində ali təhsil alıb.

1952-1958-ci illərdə əvvəlcə Lənkəran rayonunun Boladi kənd orta məktəbində, sonra isə Bakı şəhərindəki 38 №-li məktəbdə kimya müəllimi işləyib. 1953-1956-cı illərdə ADPİ-nin Kimya fakültəsinin aspirantı olub.

4 iyun 1958-ci ildə ADPİ-nin Elmi Şurasında "Orta məktəbin kimya kursunda Azərbaycanın kimyəvi xammallarının öyrədilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 14 fevral 1959-cu ildə pedaqoji elmlər namizədi elmi dərəcəsi, 4 iyul 1962-ci ildə Kimya kafedrası üzrə dosent adı ve-

rilib. ADPİ-nin ümumi kimya kafedrasında assistent (1954-1959), baş müəllim (1959-1962), dosent (1962-1969), Ümumi kimya və kimyanın tədrisi metodikası kafedrasının müdiri (1969-1983) vəzifələrində çalışıb.

Elmi və pedaqoji fəaliyyətdə qazandığı uğurlara görə ona SSRİ Nazirlər Soveti yanında AAK -ı tərəfindən 13 may 1977-ci ildə professor elmi adı verilib. Kimya-biologiya fakültəsinin dekan müavini, Kimya fakültəsinin ilk dekanı olub (1969-1979). SSRİ və Azərbaycan SSR Maarif Nazirliyinin kimya üzrə elmi-metodik seminarının üzvü olub.

1999-cu ildə "Orta ümumtəhsil məktəblərində kimya tədrisinin təkmilləşdirilməsi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona 9 iyun 2000-ci ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi verilib.

Onun elmi rəhbərliyi ilə 7 nəfər namizədlik dissertasiyası müdafiə edib. 41 dərslik və dərs vəsaiti, 9 proqramı, 400- dən artıq elmi-metodiki və publisistik məqaləsi nəşr olunub.

SSRİ-də kimya ixtisası üzrə tanınmış metodist alimlərdən biri olub. SSRİ-nin "Maarif əlaçısı", "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanları, "Əmək veteranı" medalı, Azərbaycan SSR Maarif Nazirliyi, ADPU və digər təşkilatlar tərəfindən Fəxri Fərmanlarla təltif olunub.

3 iyul 2007-ci ildə Bakı şəhərində vəfat edib.

İsmayıl Osman oğlu Nəsibov

kimya elmləri namizədi, professor

(1932 –2001)

1932-ci il fevralın 23-də Qazax rayonunun Aslanbəyli kəndində anadan olmuşdur. 1939-1947-ci illərdə Əlibayramlı kənd səkkizillik məktəbində, 1947-1949-cu illərdə Qaymaqlı kənd orta məktəbində, 1949-1953-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Təbiət fakültəsində təhsil alıb. 1953-1960-cı illərdə təyinatla Şəmkir rayonunda kimya-biologiya müəllimi işləyib. 1960-cı ildə Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun Yarımkeçiricilərin kimyası laboratoriyasına kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur. Həmin laboratoriyanın ilk aspirantı kimi lantanoidlərin kimyası sahəsində elmi-tədqiqat işləri aparmışdır.

1965-ci ildə Qeyri-üzvi kimya ixtisası üzrə "Serium yarımqrupu elementlərinin selenoqallatlarının sintezi və tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1964-1966-cı illərdə aspirantı olduğu laboratoriyada kiçik elmi işçi vəzifəsində işləmişdir. 1966-cı ildə müsabiqə yolu ilə ADPİ-nin Ümumi kimya kafedrasına baş müəllim, 1968-ci ildə dosent seçilmişdir.

1989-2001-ci illərdə Ümumi kimya və kimya tədrisinin metodikası kafedrasının müdiri olmuş, Yarımkeçirici materiallar laboratoriyasına rəhbərlik etmişdir. 1990-cı ildə həmin kafedranın professoru, 1995-ci ildə Nyu-York EA-nın üzvü seçilmişdir.

Lantanoidlərin və IV A qrupu elementlərinin xalkohenidləri əsasında yarımkeçirici materialların alınması və tədqiqi sahəsində elmi-tədqiqat işləri aparmışdır. O, 215 elmi əsərin, o cümlədən 17 dərslik və dərs vəsaitinin, 6 müəlliflik şəhadətnaməsinin müəllifidir. Onun rəhbərliyi ilə 4 elmlər namizədi hazırlanmışdır.

2001-ci il yanvarın 28-də Bakı şəhərində vəfat etmişdir.



Məmməd Abbas oğlu Qarayev
biologiya elmləri doktoru, professor
(1933)

21 dekabr 1933-cü ildə Cəlilabad rayonunun Həziabad kəndində anadan olub. 1941-1947-ci illərdə Həziabad, Şıxlar kəndlərində, 1947-1951-ci illərdə Pirişib qəsəbə orta məktəbində oxuyub.

1951-1957-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Bədən tərbiyəsi fakültəsində təhsil alıb. Tələbəlik illərində fakültə, institut və Respublika səviyyəli idman yarışlarında iştirak edərək I-II idman dərəcələrinə layiq görülüb, "Fəxri Fərman"la təltif edilib.

1957-1962-ci illərdə Puşkin rayonunun (indiki Biləsuvar rayonu) Nizami adına orta məktəbində müəllim işləyib. 1962-1964-cü illərdə V.İ.Lenin adına APİ-nin İbtidai təhsil pedaqogikası və metodikası fakültəsində məsləhət məntəqə müdiri, 1965-1966-cı illərdə İnsan və heyvan fiziologiyası kafedrasının nəzdindəki elmi problem laboratoriyasında baş laborant, 1966-1968-ci illərdə həmin kafedrada müəllim, 1968-1973-cü illərdə baş müəllim vəzifələrin-

də işləyib. 1970-ci ildə Bakıda "İonlaşdırıcı şüalanmadan sonra postnatal ontogenezdə sulu karbon mübadiləsinin dəyişilməsinə fiziki işin təsiri" mövzusunda namizədlik, 1989-cu ildə Sankt-Peterburq şəhərində "Elektroensefaloqrafik yuxu fazaları və beyin sütununun nəqledici yollarının süni asimmetriyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Tbilisi (1986) və Belqradda (1988) keçirililən ümumdünya fizioloqlarının konfranslarının iştirakçısı olub. 1982-1989-cu illərdə SSRİ TEA-nın "Mozq" İnstitunun keçirdiyi konfranslarda, P.K.Anoxin adına Fiziologiya İnstitutunun Elmi Şurasında (1985-1988), Sankt-Peterburq Təkamül Fiziologiyası İnstitutunda (1987), İrkutsk Eksperimental Tibb İnstitutunda (1985, 1987), Kiyevdə Kibernetika İnstitutunda (1988) və Moskvada Ali sinir fəaliyyəti İnstitutunda (1986) elmi məruzələrlə çıxış edib.

ADPİ-nin Biologiya-coğrafiya fakültəsində dekan müavini (1977-1979), İnsan və heyvan fiziologiyası kafedrasının dosenti (1973-1990), Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında Test idarəsinin rəisi (1992-1995), ÇAĞÖŞ-də İnformasiya və hesablama mərkəzinin müdiri (1995-1997) vəzifələrində çalışıb.1997-ci ildən ADPU-nun İnsan və heyvan fiziologiyası kafedrasının professorudur.

"İnsan və heyvan fiziologiyası", "İnsan anatomiyası", "Uşağın anatomiya və fiziologiyası", "İnsan fiziologiyası", "İnsan və heyvanın ekoloji fiziologiyası", "Pedaqoji fiziologiya" dərslik və dərs vəsaitlərinin, "Yuxu fazalarının elektroensefaloqrafik asimmetriyası" (2005), "Yaddaşın psixofiziologiyası və inkişaf etdirilməsi yolları" (2007) monoqrafiyalarının müəllifidir. Əsərləri Bakı, Moskva, Yuqoslaviya (Belqrad), Fransa, Sankt-Peterburq, Rostov, İrkutsk, və Tbilisi şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində Azərbaycan, rus, ingilis, fransız dillərində çap edilib.

Onun əsas elmi tədqiqat istiqaməti ali sinir fəaliyyətinin yuxu, yaddaş, diqqət və s. sahələrinin funksional asimmetriyasıdır.

20 monoqrafiya, dərslik, dərs vəsaiti, kitab və kitabçası, 10 tədris proqramı, 150-dən çox elmi məqaləsi, tezisi, bir neçə elmi-pedaqoji və publisistik qəzet yazısı işıq üzü görüb.

4 nəfərin elmlər doktoru, 14 nəfərin biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq ücün təqdim etdiyi dissertasiya işinin rəsmi opponenti olub. 2009-2016 -cı illərdə ADPU-da fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsil tarixi ixtisası üzrə Dissertasiya Şurasının üzvü olub.

TQDK-nın nəşr etdiyi "Test" jurnalının redaktoru (1994), "Zirvə" test jurnalının redaktor müavini və redaktoru (1995-1997) olmuşdur. Onun rəh-

bərliyi ilə 30-dən çox "Zirvə" test jurnalı nəşr olunub. "Pedaqogika" jurnalının redaksiya heyətinin üzvüdür. ADPU-da "İlin müəllimi" (2013) müsabiqəsinin qaliblərindən biri olub.

"Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" (2012) döş nişanı ilə, tələbələrin Respublika fənn olimpiadasının biologiya bölməsinin işində məhsuldar fəaliyyətinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri Fərman"ı (2012), milli mətbuatımızda səmərəli fəaliyyətinə görə "Əsrin ziyalısı" Fəxri Diplomu, Universitetdə uzun illər elmi-pedaqoji fəaliyyətinə görə ADPU-nun (2018) və Azad Həmkarlar İttifaqı Respublika komitəsinin Fəxri Fərmanı (2018) ilə təltif olunub.

Cavid Nəbi oğlu Xıdırov
kimya elmləri doktoru, professor
(1933-2005)

1933-cü il iyunun 20-də Gürcüstan Respublikası Marneuli rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur.

1939-1947-ci illərdə Kəpənəkçi kənd orta məktəbində, 1947-1951-ci illərdə Marneuli Pedaqoji Texnikumunda, 1951- 1955-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Təbiət fakültəsində təhsil almışdır. Təhsil illərində Stalin təqaüdçüsü olmuşdur.

1955-1958-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Kimya kafedrasının aspirantı olmuşdur.1958-1959-cu illərdə həmin kafedrada assistent işləmişdir. 1959-1964-cü illərdə Azərbaycan EA-nın Neft-Kimya Prosesləri İnstitutunda mühəndis, 1964-1965-ci illərdə kiçik elmi işçi, 1966-1978-ci illərdə böyük elmi işçi vəzifələrində çalışmışdır.

1964-cü ildə "Aromatik spirtlərin və bəsit efirlərinin və onların törəmələrinin sintezi və tədqiqi" mövzusunda namizədlik, 1988-ci ildə isə Moskvada Ümumittifaq Elmi-Tədqiqat Bitkiləri Kimyəvi Mühafizə Vasitələri İnstitutunda "Fenol, aromatik yağ sırası spirt və qlikol efirlərinin məqsədyönlü sintezinin elmi əsaslarının və bu pestisidlərin işlənib hazırlanması" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə ona professor elmi adı verilmişdir.

1979-2005-ci illərdə Bioloji fəal maddələrin sintezi və texnologiyası laboratoriyasına rəhbərlik etmişdir. O, zərif-üzvi sintez sahəsində ixtisaslaşdırılmış alim idi. Onun fundamental elmi-tədqiqat işləri fizioloji fəal maddələrin kimyası və texnologiyasına həsr edilmişdir.

Tədqiqat işləri 150 elmi əsər, o cümlədən 40 müəlliflik şəhadətnaməsi və 4 xarici (ABŞ, AFR, İngiltərə,Fransa) patentdə öz əksini tapmışdır. Onun rəhbərliyi ilə 5 elmlər namizədi hazırlanmışdır. SSRİ-nin Kimya sənayesinin "Fəxri kimyaçı"sı diplomuna layiq görülmüş, "Kimya sənayesinin əlaçısı" döş nişanı ilə təltif edilmişdir.

2005-ci il noyabrın 19-da vəfat etmişdir.

Əli Məhərrəm oğlu Hüseynov

pedaqoji elmlər doktoru, professor
Əməkdar müəllim
(1935-2021)

5 dekabr 1935-ci ildə Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur. Faxralı kənd orta məktəbini (1941-1952), Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsini (1954-1959) bitirmişdir. Faxralı kənd orta məktəbində kimya və biologiya müəllimi, direktor müavini işləmişdir. ADU-nun Biologiya fakültəsində biokimya ixtisası üzrə aspirantura təhsili almışdır (1965-1968).

"Müxtəlif nisbətlərdə makro və mikro gübrələrin pambıq bitkisinin toxumlarında yağın miqdarına və keyfiyyətinə təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1968). Azərbaycan EA-nın Botanika İnstitutunda kiçik elmi işçi, Azərbaycan ETPEİ-də baş elmi işçi (1971-1982) vəzifələrində çalışmışdır.

ADPİ-nin Biologiyanın tədrisi metodikası kafedrasında dosent, professor vəzifələrində işləmişdir. 1988-2016-cı illərdə həmin kafedranın müdiri olmuşdur.

"Orta məktəbdə biologiya tədrisinin nəzəri və metodiki əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (2003). 1998-ci ildə Beynəlxalq Biologiya Cəmiyyətinin diplomunu almışdır. Beynəlxalq Biologiya Cəmiyyətinin "Qızıl Heykəl" mükafatını almışdır.

Amerika Bioqrafiya İnstitutunun üzvü seçilmişdir. 2006-cı ildən Azərbaycan Respublikasının əməkdar müəllimidir.

2010-cu ildə Biologiyanın tədrisi metodikasının professoru vəzifəsinə seçilib. Orta və ali məktəblər üçün 200-ə yaxın elmi-metodik məqalə, kitab, proqram, dərslik və dərs vəsaitinin müəllifidir.

Telman Məmmədəli oğlu Ağayev

AMEA-nın müxbir üzvü,
biologiya elmləri doktoru, professor
(1935-2020)

10 oktyabr 1935-ci ildə Sisian rayonun Vaqudi kəndində anadan olmuşdur. 1954-cü ildə Vaqudi kənd orta məktəbini bitirmişdir. 1954-1959-cu illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Zootexnika fakültəsində oxumuşdur.

1960-1963-cü illərdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Sovetində təlimatçı, kənd təsərrüfatı üzrə referent vəzifəsində çalışmışdır. 1963-cü ildə Naxçıvan Muxtar Respublikasında Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1964-cü ildə "Mədə reseptorlarının qıcıqlanmasının beyində zülal və sərbəst aminli turşuların mübadiləsinə təsiri" mövzusunda namizədlik, 22 aprel 1983-cü ildə Leninqrad Dövlət Univeristetində "Beyinin görmə analizatorunda qlutamin turşusu sisteminin formalaşmasının yaş qanunauyğunluğu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1989-cu ildə professor elmi adı alıb.

1993-1999 -cu illərdə A.İ.Qarayev adına Fiziologiya İnstitutunda elmi işlər üzrə direktor vəzifəsini icra etmiş, 2001-ci ildə institutun direktoru seçilmşdir. Uzun müddət ADPU-da əvəzçiliklə professor vəzifəsində işləmiş, Buraxılış Yekun Dövlət Attestasiyası imtahanlarına sədrlik etmişdir. O, 1985-1990-cı illərdə Kosmik Cihazqayırma Məxsusi Konstruktor bürosunda direktor vəzifəsində çalışmış, Ümumittifaq Biokimyaçılar Cəmiyyətinin Mərkəzi Şurasının üzvü olmuşdur.

1985-1990-cı illərdə Azərbaycan Biokimya Cəmiyyətinə rəhbərlik etmişdir. 1999-cu ildən Federativ Avropa Biokimyaçılar Cəmiyyətinin üzvüdür.

Respublika Biokimyaçılar və Molekulyar Bioloqlar Cəmiyyətinin 1995-ci ildən vitse –prezidenti, 2005-ci ildən prezidentidir. 2001-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilib. YUNESKO- nun Azərbaycan Respublikasında Elmi Biliklərin və Texnologiyanın (bioetika) Milli Komitəsinin üzvüdür.

9 may 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Telman Əhməd oğlu Ağdamski
kimya elmləri doktoru, professor,
Əməkdar müəllim
(1936)



6 avqust 1936-cı ildə Ağdaş rayonunda görkəmli teatr xadimi, Respublikanın Əməkdar İncəsənət Xadimi Əhməd Bədəlbəyli –Ağdamskinin ailəsində anadan olub.

Ağdaş rayonunda orta məktəbdə (1943-1953), Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsində (1953-1958) təhsil alıb. Tələbə ikən AMEA-nın Kataliz və Qeyri- üzvi Kimya İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlayıb (1957). Həmin institutun aspirantı olmuş, kiçik elmi işçi vəzifəsində çalışmışdır (1957-1967).

"Dehidrogenləşmə və polimerləşmə reaksiyalarında oksid katalizatorlarının tədqiqi" mövzusunda namizədlik (1965), "İkivalentli nadir torpaq elementlərinin tsiklopentadienil (arenil), metal karboniltetrafurant komplekslərinin sintezi, quruluşu və katalitik xassələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib (1992). O, fiziki kimya, həm də qeyri-üzvi kimya ixtisasları üzrə elmlər doktorudur.

1967-1993-cü illərdə ADPU-nun Analitik və üzvi kimya kafedrasında dosent vəzifəsində çalışan Telman Ağdamski 1993-cü ildən həmin kafedranın professoru vəzifəsində çalışır. O, 1972-1981-ci illərdə Kimya fakültəsinin dekanı vəzifəsində işləyib. Koordinasiya kimyası üzrə İsveçrə (1985), Yunanıstan (1986), Avstraliya (1988), Portuqaliya (1989), Almaniya (1992), Yaponiya (1994), Kanada (1998), və Amerikada (2001) keçirilən XIII-XXIV Beynəlxalq konfrans və simpoziumlara, karbon 4 oksidin tətbiqinə dair Almaniya (1990), İtaliya (1993) və Yaponiyada (1994, 1997) keçirilən I, II, III,IV Beynəlxalq konfranslara dəvət olunmuş və məruzələrinin tezisləri nəşr olunmuşdur.

O, 2 dərsliyin, 16 dərs vəsaitinin, 200-ə qədər elmi əsərin, o cümlədən 3 müəlliflik şəhadətnaməsinin müəllifidir. “Fiziki kimyadan praktiki rəhbərlik” (şərikli) (1978), “Fiziki kolloid kimyanın əsasları”(şərikli) (1983), “Kimyəvi termodinamika və tarazlıq” (1990), “Fiziki kimyadan praktikum” (şərikli) (1993), “Məhlullar” (1997), “Kinetika və kataliz” (2000), “Fiziki kimyadan məsələ və çalışmalar” (2005), “Elektrokimya” (2009), “Fiziki kimyadan praktikum” (şərikli) (2011), “Kolloid kimya” (2012), ”Kimyəvi termodinamika və tarazlıq” (şərikli) (2016), “Fiziki-kolloid kimya” (2017) adlı dərslik və dərs vəsaitlərinin müəllifidir.

Təhsil Nazirliyinin “Fəxri fərman”ı (2006), “Qabaqcıl təhsil işçisi” döş nişanı, “Bilik“ maarifçilik və informasiya mərkəzinin akademik Yusif Məmmədəliyev medalı (2007) və Ü.Hacıbəyli adına fəxri medalla (2008) təltif olunmuşdur.

1973-1981 və 1993-2003-cü illərdə kimya ixtisası üzrə Müdafiə Şurasının, 2004-2009 və 2011-2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında kimya elmləri üzrə ekspert şurasının üzvü olub.

2012-ci ildə ona Əməkdar müəllim fəxri adı verilib.

Ədalət Nurulla oğlu Fərəcov

fiziologiya elmləri doktoru, professor,
Prezident təqaüdçüsü
(1936)

1936-cı ildə Masallı rayonunun Kürdəbaz kəndində anadan olmuşdur. 1953-cü ildə Qarğalıq kənd 7 illik məktəbini tərifnamə, 1956 - cı ildə Masallı rayon məktəbini əla qiymətlərlə və 1963-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Təbiyyət-kimya fakültəsini bitirmişdir. Tələbəlik illərində institut Tələbə həmkarlar təşkilatının sədri olub. İnstitutu fərqlənmə diplomu ilə bitirdiyinə görə Kimya kafedrasında baş laborant saxlanılıb. 1964-cü ildə Biokimya ixtisası üzrə aspiranturaya qəbul olur.

1970-ci ildə namizədlik, 1990-cı ildə Leninqradda biokimya və fiziologiya ixtisasları üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. 1967-ci ildən

ADPU-nun İnsan və heyvan fiziologiyası kafedrasında müəllim, dosent, professor vəzifəsində işləyib.

1989-1994-cü illərdə Hərbi və fiziki təlim fakültəsinin dekanı olub. 1994-2017-ci illərdə ADPU-nun İnsan və heyvan fiziologiyası kafedrasının müdiri olub. Onun elmi işlərinin nəticələri 214 adda məqalə şəklində dünyanın ən nüfuzlu elmi jurnallarında, konfrans materiallarında çap olunub.

Elmi rəhbərliyi ilə 16 nəfər namizədlik dissertasiyası müdafiə edib. 4 monoqrafiyanın, 5 dərsliyin, 3 dərs vəsaitinin müəllifidir. Televiziya və radioda yayımlanan "İnsan və onun sağlamlığı" verilişlərinin aparıcısı olub.

Biologiya üzrə respublika fənn Olimpiadası münsiflər heyətinin sədri olub. 1983-cü ildə SSRİ Elmlər Akademiyasının "Fəxri fərmanı" ilə təltif olunub. Adı 2000-ci ildə dünyanın görkəmli alimləri kitabına daxil edilib, 2001-ci ildə Beynəlxalq Kembric Bioqrafiya Universitetinin qızıl medalını alıb. 1999-cu ildən Xətai rayon Bələdiyyəsinin üzvüdür. 2008-2015-ci illərdə Xətai rayon Bələdiyyəsinin sədri vəzifəsində fəaliyyət göstərib. Prof.Ə.Fərəcov Prezident təqaüdçüsüdür. 2017-ci ildə "Tərəqqi medalı" ilə təltif olunub. Pedaqoji Universitetdə keçirilən "İlin müəllimi" və "İlin alimi" müsabiqəsinin qaliblərindən biri olub. AMEA Fiziologiya İnstitutunda Dissertasiya Şurasının həmsədri vəzifəsində çalışır. Azərbaycanın ən yeni tarixinə "91"-lər adı ilə daxil olmuş görkəmli ziyalılardan biridir.

Hazırda Fiziologiya kafedrasının professoru vəzifəsində fəaliyyət göstərir.

Tamilla Ələkbər qızı Feyzullayeva

biologiya elmləri namizədi, professor
Əməkdar müəllim
(1936-2019)

1936-cı il avqustun 6-da Bakı şəhərində anadan olub. Bakı şəhərindəki 189 №-li orta məktəbi, 1959-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirib.

Əzizbəyov rayonu 7 №-li Birləşmiş xəstəxanada həkim-pediatr (1959-1961), Bakı şəhəri 14 №-li şəhər xəstəxanasında həkim pediatr (1961-1962) işləyib. 1962-1965-ci illərdə Azərbaycan EA -nın Fiziologiya bölməsində əyani aspirant olub.

1966-1971-ci illərdə Azərbaycan EA -nın Fiziologiya İnstitutunda elmi işçi vəzifəsində çalışıb. 1967-ci ildə Azərbaycan EA-nın birləşmiş Elmi Şurasında "İnteroseptiv qlikemik reflekslərin yerinə yetirilməsində hipofizin rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. V.I.Lenin adına ADPİ -nin Məktəb gigiyenası kafedrasında baş müəllim (1971-1972), dosent (1973-1992), kafedra müdiri (1972-1992) işləyib. 1990-cı ildə ona professor elmi adı verilib. 1992-2017-ci illərdə ADPU-nun Tibbi biliklərin əsasları kafedrasının müdiri olub. 2017- 2019-cu illərdə İnsan və heyvan fiziologiyası kafedrasının professoru olub. 153 elmi məqalənin, dərs vəsaitinin və proqramın müəllifidir. 2012-ci ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

29 dekabr 2019 - ci ildə Bakı şəhərində vəfat edib

Rafiq Qədir oğlu Ələkbərov

kimya elmləri doktoru, professor

(1938 –2004)

1938-ci ilin fevralın 15-də Gədəbəy rayonunun Şurabad kəndində anadan olmuşdur. 1946-1956-cı illərdə Gədəbəy rayonunun Böyük Qaramurad kənd orta məktəbində, 1956-1961-ci illərdə Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsində təhsil alıb.

Əmək fəaliyyətinə 1961-ci ildə hələ tələbə ikən Azərbaycan Sənaye İnstitutunda laborant kimi başlayıb.

1961-1964-cü illərdə ADU-nun Neft kimyası və kimya texnologiyası kafedrasının əyani aspirantı olub. 1965-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Üzvi kimya və kimya texnologiyası kafedrasına müəllim vəzifəsinə qəbul olunub. Sonralar həmin kafedrada baş müəllim (1966-1973), dosent (1973-1988) və professor vəzifələrində işləyib. Uzun müddət Üzvi kimya və kimya texnologiyası kafedrasına rəhbərlik edib. Yeni bioloji aktiv birləşmələr problem laboratoriyasının elmi rəhbəri olub.

1965-ci ildə "Sürtkü yağlarına əlavələr almaq məqsədilə alkilfenolların xlorhidrinlərlə kondensləşməsi və reaksiya məhsullarının bəzi çevrilmələri" mövzusunda namizədlik, 1992-ci ildə isə "Əvəzli aminlər və spirtlər əsasında virus inaktivatorlarının, kimyəvi mutagenlərin və bioksidlərin istiqamətli sintezi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1988-ci ildə ona Üzvi kimya ixtisası üzrə professor elmi adı verilib. 10 dərs vəsaiti, 170-dən artıq elmi məqaləsi nəşr edilib. 30 müəlliflik şəhadətnaməsi alıb.

Elmi rəhbərliyi ilə 6 nəfər namizədlik dissertasiyası müdafiə edib. Respublika Təhsil Nazirliyinin və ADPU-nun Fəxri fərmanları ilə təltif edilib.

2004-cü il mayın 11-də vəfat etmişdir.

Ələkbər Nemət oğlu Qurbanov
kimya elmləri doktoru, professor
əməkdar müəllim
(1938-2020)



1938-ci il avqust ayının 20-də Zəngəzur mahalının Qafan Kurud kəndində anadan olmuşdur. 1947-1957-ci illərdə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Əbrəqunus kənd orta məktəbində oxumuşdur.

1957-1959-cu illərdə istehsalatda çalışmış, 1959-1964 -cü illərdə ADPİ-nin Təbiət-kimya fakültəsində təhsil almışdır.

1964-1966-cı illərdə Qafan şəhər 4 №-li Azərbaycan orta məktəbində kimya müəllimi işləmişdir. 1966-1969-cu illərdə ADPU-nun Analitik və fiziki kimya kafedrasının aspirantı olmuşdur. 1969-1971-ci illərdə həmin kafedrada assistent, 1971-1975-ci illərdə baş müəllim, 1975-2002-ci illərdə dosent vəzifələrində çalışmışdır. 1981-1994-cü illərdə Kimya-biologiya fakültəsində dekan müavini, 1994-1996-cı illərdə ödənişli fakültənin dekanı, 1997-2005-ci illərdə Kimya fakültəsinin dekanı, 2000-2017-ci illərdə Ümumi kimya və kimyanın tədrisi metodikası kafedrasının müdiri olmuşdur.

O, 1971-ci ildə "Torium və serium peryodat metodu ilə miqdarı təyini" mövzusunda namizədlik, 2000-ci ildə isə "d-elementlərinin oksinaftoy turşusu, onun törəmələri və hidrofob aminlərlə müxtəlif liqandlı komplekslərı fotometrik analizdə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Professor elmi adına (2005), Əməkdar müəllim (2006) fəxri adına layiq görülüb.18 dərslik, dərs vəsaiti və fənn proqramının, 170-dən çox elmi və elmi-metodik əsəri nəşr edilib.

2020-ci ildə Bakı şəhərində vəfat edib.

Reyhan Əsədulla qızı Əbdürrəhimova
kimya elmləri doktoru, professor
(1939 – 1984)

1939-cu il sentyabr ayında Bakıda anadan olmuşdur. 1946-1957-ci illərdə Bakı şəhəri 176 №-li orta məktəbdə, 1957-1962-ci illərdə ADPU-nun Kimya-biologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun Qeyri-üzvi kimya laboratoriyasında kiçik elmi işçi kimi başlamışdır.

Kurnakov adına Ümumi və Qeyri-üzvi Kimya İnstitutunun məqsədli aspirantı olmuşdur. 1967-ci ildə "45, 75^0C-də su-duz-bor sisteminin fiziki-kimyəvi tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1968-ci ildə ADPİ-nin Ümumi kimya kafedrasının dosenti vəzifəsinə seçilmiş, 1971-1972-ci illərdə Kimya fakültəsinin dekanı vəzifəsində işləmişdir.

1973-cü ildə "25, 45 və 75^0C-də alüminat məhlullarının fiziki-kimyəvi tədqiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1974-cü ildə Qeyri-üzvi kimya ixtisası üzrə professor adını almışdır. 3 dərs vəsaitinin, 20-dən artıq elmi əsərin müəllifidir.

1984-cü ilin mayın 25 -də 45 yaşında uzun sürən xəstəlikdən sonra vəfat etmişdir.

Yusif Kərəm oğlu Əhmədov
biologiya elmləri namizədi, professor
Əməkdar müəllim
(1941)

30 iyun 1941-ci ildə Kəlbəcər rayonunda anadan olmuşdur. 1948-1958-ci illərdə Kəlbəcər 1 №-li orta məktəbində təhsil almışdır. 1958-ci ildə Kəlbəcər rayonunda mərkəzi pionerlər evinin direktoru işləmişdir. 1959-1964-cü illərdə ADPİ-nin Təbiyyat-kimya fakültəsində təhsil almışdır.1964-1967-ci illərdə Kəlbəcər rayonunda müəllim, rayon xalq maarif şöbəsində metodist-inspektor (1965), fəhlə-gənclər məktəbində direktor (1966-1967) işləmişdir.

1967-1970-ci illərdə ADPİ-nin aspiranturasında təhsil almışdır. 1973-cü ildə Azərbaycan EA-da "Bitki köklərinin uduculuq fəaliyyətinə sitokininlərin təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1977-ci ildə ona dosent elmi adı verilmişdir.

1970-1992-ci illərdə ADPİ-nin Botanika kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir. 1982-1984-cü illərdə Azərbaycan KP MK yanında Maksizim-Leninizim Universitetinin ideoloji kadrlar fakültəsinin fəlsəfə şöbəsində siyasi təhsil almışdır. 6 ay olmaqla 2 dəfə SSRİ Elmlər Akademiyasının K.A.Timirzayev adına Bitki Fiziologiyası İnstitutunda, 1 dəfə isə Almaniyanın Humboldt adına Berlin Universitetində elmi işçi kimi fəaliyyət göstərmişdir.1992-ci ildə ADPU-nun Botanika kafedrasının professoru seçilmişdir.

1984-2011-ci illərdə Botanika kafedrasının müdiri, 2011-2015-ci illərdə isə Biologiya fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

1 monoqrafiya, 2 dərslik, 4 dərs vəsaiti,14 proqramın və 100-dən artıq elmi məqalənin müəllifidir. Əsərləri Almaniya, Böyük Britaniya, Türkiyə, Rusiya, Ukrayna, İsrail, Çexiya, Slovakiya və digər xarici ölkələrin nüfuzlu jurnallarında dərc olunmuşdur. Xarici ölkələrdə keçirilən 7 simpozium, konqres və konfranslarda məruzələrlə çıxış etmişdir.

Onun bütün elmi fəaliyyəti fitohormonların bitki orqanizminə təsirinə həsr edilmişdir. 2004-cü ildə "Qarabağ media" və "Vektor" Beynəlxalq Elm Mərkəzinin qərarı ilə "XXI əsrin tanınmış ziyalısı" beynəlxalq diplomu ilə təltif edilmişdir. Bir müddət Murovdağ Xeyriyyə Cəmiyyətinə rəhbərlik

etmişdir. 2006-cı ildə ona Əməkdar müəllim fəxri adı verilmişdir. ADPU-nun Biologiya və onun tədrisi metodikası kafedrasının professorudur.



Özbək Misirxan oğlu Əliyev
kimya elmləri doktoru, professor
(1941)

1941-ci il martın 25-də Yardımlı rayonunun Kürəkçi kəndində anadan olmuşdur. 1949-1959-cu illərdə Kürəkçi kənd orta məktəbində oxumuşdur. 1959-1964-cü illərdə ADPU-nun Kimya-biologiya fakültəsində təhsil almışdır. 1964-1965-ci illərdə hərbi xidmətdə olmuşdur.1965-1969-cu illərdə Quba rayonunun müxtəlif məktəblərində kimya müəllimi işləmişdir. 1969-1972-ci illərdə Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun əyani aspiranturasında oxumuşdur. Aspiranturanı bitirdikdən sonra həmin institutda mühəndis, kiçik və böyük elmi işçi, "Nadir elementlərinin kimyası" (1986-2001) laboratoriyasının müdiri vəzifələrində işləmişdir.

1972-ci ildə "Cu_3LnX_3 (Ln=NTE, X=S, Se, Te) tipli birləşmələrin sintezi və tədqiqi" mövzusunda namizədlik, 1986-cı ildə isə Yekaterinburq şəhərində SSRİ EA-nın Ural Elm Mərkəzinin Kimya İnstitutunda "Yb_3Sn və V_5S quruluş tipli törəmə üçlü yarımkeçiricilərin alınmasının fiziki-kimyəvi əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə Qeyri-üzvi kimya ixtisası üzrə professor elmi adını almışdır. 1999-2008-ci illərdə ADPİ-nin Ümumi kimya və kimyanın tədrisi metodikası kafedrasının professoru olub.

Ümumi kristallokimyəvi, quruluş-kristallokimyəvi analiz nəticəsində vittixenit, bornit və polisulfid birləşmələri əsasında üçlü, eləcə də daha mürəkkəb tərkibli NTE-ləri yarımkeçirici birləşmələrinin fiziki-kimyəvi əsasları sahəsində elmi-tədqiqat işi aparmışdır.

12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 300-dən çox elmi məqalənin, 42 müəlliflik şəhadətnaməsinin müəllifidir. Elmi rəhbərliyi ilə 1 nəfər doktorluq, 18 nəfər namizədlik dissertasiyası müdafiə edib.

Nailə Allahverdi qızı Verdizadə
kimya elmləri doktoru, professor
Əməkdar müəllim
(1945)

1945-ci ilin may ayının 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1952-1962-ci illərdə Bakı şəhərində 36 №-li orta məktəbdə, 1962-1967-ci illərdə ADPİ-nin (indiki ADPU) Kimya və biologiya fakültəsində təhsil alıb. Tələbə ikən TEC xətti ilə elmi-tədqiqat işi aparıb, elmi konfranslarda çıxışlar edib. Pedaqoji fəaliyyətə Pedaqoji İnstitutda assistent kimi başlayıb. 1970-ci ildə "Qələvi torpaq metalların periodatları talliumun təyinində bir reagent kimi" mövzusunda namizədlik, 1991-ci ildə "Fotometrik analizdə d-keçid metalların amirodanid kompleksləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Analitik və üzvi kimya kafedrasında müəllim, baş müəllim, dosent (1976-1986) vəzifələrində çalışıb. 1986-cı ildən həmin kafedranın professorudur. 1976-2017-ci illərdə Analitik və fiziki kimya kafedrasına rəhbərlik edib. Elmi sahəsi "Koordinasion birləşmələr kimyası", istiqaməti "analitik kimya" olmuşdur. Dar ixtisası fotometrik və ekstraksiyalı-fotometrik analizdir. Apardığı elmi-tədqiqat işlərinin nəticələri ilə bağlı SSRİ-də keçirilmiş Ümumittifaq və respublika konfrans və simpoziumlarda, ümumi və tətbiqi kimya üzrə XII Mendeleyev qurultayında (1981), ekologiya üzrə Rusiya-Amerika Beynəlxalq konqresdə (1996), Polşada keçirilən qurultayda, Avstriyanın Vyana şəhərində (1990), Evroanaliz VII konqresində, Voronejdə (2003, 2005, 2010) beynəlxalq forumlarda məruzələrlə çıxış edib.

N.A.Verdizadə Voronejdə keçirilən forumların beynəlxalq koordinasiya komitəsinin üzvü olub. 1978-ci ildə Çexoslovakiya alimi prof.Sommerin dəvətilə bir ay müddətində Brno Universitetinə, 1981-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində akademik İ.P.Alimarinin kafedrasında üç ay müddətində elmi ezamiyyətdə olmuşdur. 1979-cu ildə onun təşəbbüsü və rəhbərliyi ilə ADPU-da "Üzvi reagentlər analitik kimyada" adlı respublika konfransı keçirilib. Konfransda 40-a yaxın keçmiş SSRİ-nin müxtəlif ali məktəb və elmi-tədqiqat müəssisələrindən gələn mütəxəssislər iştirak ediblər.

Elmi rəhbərliyi ilə 8 nəfər elmlər namizədi, 2 nəfər elmlər doktoru yetişib. 1989-2010-cu illərdə "Koordinasion birləşmələr" elmi-tədqiqat laborato-

riyasına rəhbərlik edib. O, 450-dən artıq əsərin, o cümlədən 40 dərslik, dərs vəsaiti, elmi-populyar kitablar və metodik göstərişlərin, 13 proqramın müəllifidir. Onun rəhbərliyi altında 15 ədəd tətbiq aktları alınmışdır.

Azərbaycanda kimya ixtisası üzrə namizədlik və doktorluq dissertasiyalarının Müdafiə Şurasının, müxtəlif komissiyaların, institut partiya komitəsi bürosunun üzvü (1978-1988) olub. Təhsil Nazirliyinin, rektorluğun Fəxri fərmanı, D.İ.Mendeleyev adına Ümumittifaq kimya cəmiyyətinin Azərbaycan bölməsinin diplomu (1980) ilə təltif olunub. 1981-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən "За отличные успехи в работе" döş nişanı ilə təltif edilib. Şimali Karolina ştatında Amerika bioqrafiya institutu tərəfindən 2001-ci ildə professional qadın kimi "Kim-kimdir" beynəlxalq nəşrin 8-ci buraxılışına daxil edilib.. 2007-ci ildə ADPU-da "İlin alimi" müsabiqəsinin qaliblərindən biri olub. "Vektor" Beynəlxalq Elm Mərkəzinin Mükafat Komissiyasının qərarı ilə "XXI əsrin tanınmış xanımı" Beynəlxalq Diplomu, AMEA-nın qərarı ilə "Humay-2005" milli mükafat diplomu ilə təltif edilmiş, "Qızıl qələm" media mükafatına layiq görülüb.

2006-cı ildə ona Əməkdar müəllim fəxri adı verilib.

Rauf Lütvəli oğlu Sultanov
biologiya elmləri doktoru, professoru
(1948)

1948-ci ildə Quba şəhərində anadan olmuşdur. 1968-ci ildə Quba şəhərindəki 2 №-li məktəbi, 1971-ci ildə Kənd Təsərrüfatı İnstitutunu, 1976 -cı ildə Rusiya Elmi-Tədqiqat Arıçılıq İnstitutunun məqsədli aspiranturasını bitirmişdir. 1977-ci ildə "Yüksək keyfiyyətli bal arısının (Apis Mellifral) yetişdirilməsi üçün onun süfrəsinin calaq edilməsi üsullarının bioloji xüsusiyyətləri" mövzusunda namizədlik, 1995 -ci ildə "Azərbaycanda bal arısının (Apis Mellifral) bioloji və təsərrüfat xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2009-cu ildən Biologiyanın tədrisi metodikası kafedrasının professorudur.

1977-1983-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində və Azərbaycan Respublikası Tədarük Nazirliyində müxtəlif vəzifələrdə işləmişdir. 1983- 1996-cı illərdə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnsti-

tutunun "Entomologiya və ipəkçilik" kafedrasında assistent, dosent vəzifələrində işləmişdir. 1996-2000-ci illərdə Təhsil Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzində şöbə müdiri, 2000 -2002 -ci illərdə Təhsil Problemləri İnstitutunda "Tədris planları və proqramlarının ekspertizası və tətbiqi" şöbəsinin müdiri, 2002 -2003- cü illərdə "Təlim prosesi və nəticələrin qiymətləndirilməsi" şöbəsində baş mütəxəssis, 2003- 2010-cu illərdə "Ali və orta peşə ixtisas təhsili" şöbəsində baş elmi işçi, 2010- 2015-ci illərdə Ekologiya kafedrasında professor vəzifələrində çalışmışdır. 2015-ci ildən Biologiya və onun tədrisi texnologiyası kafedrasının professorudur. 310-a yaxın elmi və elmi-metodik əsəri (10 monoqrafiya, 18 dərslik, 3 dərs vəsaiti, 10 metodik vəsait, 52 praktik tövsiyə, fənn proqramı, metodik göstəriş, 189 məqalə, 28 tezis) nəşr edilmişdir. 28 məqaləsi xarici ölkələrin nüfuzlu jurnallarında çap edilmişdir. 3 ixtiranın və 1 səmərələşdirici təklifin müəllifidir. Bal arılarının ekologiyasının öyrənilməsi sahəsində uzun müddətli tədqiqat işi aparmışdır. O, respublikamızda bal arılarının coğrafi mövqeydən, iqlimdən, landşaftın genetik strukturundan, bitki örtüyündən və s mühit amillərindən asılı olaraq arı cinslərini və onların ekoloji populyasiyaları müəyyənləşdirmişdir. 2 arı cinsinin və 5 arı populyasiyasının müəllifidir. O, ekologiya elminin əsasını təşkil edən populyasiya anlayışı ilə əlaqədar olaraq respublikamızda arı populyasiyalarının ekoloji xüsusiyyətlərini öyrənmişdir. Elmi rəhbərliyi ilə 11 nəfər fəlsəfə doktoru yetişdirilmişdir. "Respublika Zoologiya Cəmiyyəti"nin və "Ziyalılar cəmiyyətinin" idarə heyətinin üzvü və onun təftiş komissiyasının sədridir. AVCİYA-nın nəzdində fəaliyyət göstərən AESMF-nun prezidentidir. Təhsil Nazirliyinin və Kənd Təsərrüfatı Nazirliyinin Fəxri fərmanları və "Tərəqqi" medalı ilə təltif edilib. ADPU-da 2010-2015-ci illərdə keçirilən "İlin alimi" müsabiqəsinin qaliblərindən biri olub.

Əli Zal oğlu Zalov

kimya üzrə elmlər doktoru, professor
(1966)

23 may 1966-cı ildə Cəbrayıl rayonunun Xələfli kəndində anadan olub. 1973-1983-cü illərdə Cəbrayıl rayonunda orta məktəbdə, 1986-1991-ci illərdə ADPU-nun Kimya-biologiya fakültəsində təhsil alıb. 1984-1986-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə

olub. Tələbəlik illərində Tələbə Elmi Cəmiyyəti xətti ilə keçmiş SSRİ -nin müxtəlif şəhərlərində tələbə elmi konfranslarında və Ümumittifaq kimya olimpiadasında iştirak edib və apardığı tələbə elmi tədqiqat işinə görə universitet rektorluğunun I-II dərəcəli diplomları və Fəxri Fərmanları ilə təltif olunub. Universiteti fərqlənmə diplomu ilə başa vurub. 1992-ci ildə ADPU-nun Analitik kimya ixtisası üzrə qiyabi aspiranturasına daxil olub. "Molibden və volframın kükürd və azottərkibli liqandlarla komplekslərinin tədqiqi və onların fotometrik analizdə tətbiqi" mövzusunda namizədlik (1997), "Bəzi d- və f-elementlərinin 2-hidroksitiofenol, onun törəmələri və hidrofob aminlərlə müxtəlifliqandlı kompleksləri fotometrik analizdə" mövzusunda doktorluq (2017) dissertasiyası müdafiə edib.

ADPU-nun "Koordinasion birləşmələr" elmi tədqiqat laboratoriyasında kiçik elmi işçi (1992-1997), baş elmi işçi (1997-2010), Analitik və fiziki kimya kafedrasında baş müəllim (2005-2006), dosent (2006-2017) vəzifəsində çalışıb. 2017-ci ilin iyul ayından Analitik və üzvi kimya kafedrasına rəhbərlik edir. 2008-ci ildən ADPU Tələbə Elmi Cəmiyyətinin sədridir və Universitet Elmi Şurasının üzvüdür.

Apardığı elmi-tədqiqat işlərinin nəticələri ilə bağlı Beynəlxalq konfrans və simpoziumlarda (Misir, Moskva, Nijni-Novqorod, Çeboksarı, Sank-Peterburq, Voronej, Mahaçqala və s.), ekologiya üzrə Rusiya-Amerika Beynəlxalq konqresdə (1996), Serbiyada keçirilən qurultayda, Avstriyanın Vyana şəhərində (2015), Voronejdə (2003, 2005, 2010) məruzələrlə çıxış etmişdir. Onun işləri mütəmadi olaraq respublika və beynəlxalq səviyyəli jurnallarda çap olunur. Avstriyada çap olunan "International Journal of Analytical Chemistry" jurnalının redaksiya heyətinin (2015), İngilis "Kral kimya cəmiyyətinin" (2015), Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür.

25 kitab və kitabçanın, 15 tədris proqramının, 200-dən çox elmi məqalənin, 70 tezisin, 100-dən artıq publisistik yazının müəllifidir.

ADPU-nun 90 illik yubileyi ilə əlaqədar rektorluğun Fəxri fərmanı ilə təltif olunub. O, "Vektor" Beynəlxalq Elm Mərkəzinin Mükafat Komissiyasının qərarı ilə "XXI əsrin tanınmış ziyalısı" Beynəlxalq Diplomu ilə təltif olunub (2003).

Məktəbəqədər təhsil fakültəsi

Əhməd Kərədi Məhəmməd oğlu
Zəkuyev (Zəkuzadə)
psixologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi
(1888-1968)

1888-ci ildə Dağıstanın Kumuk kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndlərindəki ikisinifli məktəbdə, orta təhsilini Həştərxan şəhərində almışdır. Dağıstanda "İlçi" qəzetində redaktor kimi fəaliyyət göstərmişdir. İstanbul Universitetinin Tarix-filologiya fakültəsinin psixologiya fəlsəfə şöbəsində ali təhsil almışdır (1919-1922). Sonrakı fəaliyyəti Azərbaycanla bağlı olmuşdur. Bakı Pedaqoji Texnikumunda (1922-1931), ADU -da (1926-1930) psixologiyadan dərs demiş, Azərbaycan ETİ-nin fəlsəfə şöbəsində baş elmi işçi (1930-1932) işləmişdir. 1929-cu ildə ona ADU-nun Fəlsəfə kafedrası üzrə privatdosent elmi adı, 1935-ci ildə dissertasiya müdafiə etmədən pedaqoji elmlər namizədi elmi dərəcəsi verilmişdir. Ayrı-ayrı vaxtlarda ADU-da və ADPİ-də psixologiya və məntiq fənlərindən dərs demişdir. ADPİ-nin Psixologiya kafedrasına rəhbərlik etmişdir (1943-1963). Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda baş elmi işçi kimi fəaliyyət göstərmişdir (1960-1967). Onun yaradıcılığının əsasını psixoloji fikir tarixinin araşdırılması təşkil edir. 1 oktyabr 1947- ci ildə "IX-XI əsrlərdə Şərqdə fəlsəfə və psixoloji nəzəriyyələrin tarixindən" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, Yaxın və Orta Şərq fəlsəfəsində psixoloji nəzəriyyələrin ardıcıl tədqiqatçısı kimi tanınmışdır. Ə.Zəkuzadə lak və rus dillərində bir neçə şeir kitabının müəllifidir. Onu Dağıstanda lak romanının banisi hesab edirlər. O, Azərbaycan, rus, türk, tatar, ərəb, fars dillərini mükəmməl bilirdi. "Bəhmənyarın fəlsəfi görüşləri" (1958), "İbn Sinanın psixologiyası" (1958), "Orta əsrlərdə ərəb dillərinin məntiq tarixindən" (1971) adlı kitabların və 100-dən artıq elmi məqalənin müəllifidir. 1958 -ci ildə nəşr olunan "Pedaqogika və psixologiya terminləri lüğəti" onun rəhbərliyi ilə hazırlanmışdır. Kiyev (1940), Mahaçqa-

la (1943), Moskva (1946, 1947), Daşkənd (1953), Tbilisi (1953, 1965), İrəvan (1960), Bakı (1962) şəhərlərində keçirilən Beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. 14 may 1960-cı ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. "Şərəf nişanı" ordeni, "Böyük Vətən müharibəsində vicdanlı əməyə görə"medalı ilə təltif olunmuşdur.

15 iyul 1968-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Zəkəriyyə Məmməd oğlu Mehdizadə
pedaqoji elmlər namizədi, professor
(1913-1990)

24 mart 1913-cü ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olub. 1920-24-cü illərdə doğma kəndlərindəki ibtidai məktəbdə, 1926-30-cu illərdə Qaryagində II dərəcəli məktəbdə oxuyub. 1930-31-ci tədris ilində Azərbaycan Neft İnstitutunda, 1932-1936-cı illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsində təhsil alıb. 1936-1942-ci illərdə Cəbrayıl rayonunun Cəbrayıl kəndində müəllim, 1942-1944-cü illərdə Cəbrayıl rayon partiya komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri, 1944-46-cı illərdə isə rayon partiya komitəsinin II katibi, 1946-47-ci illərdə Bakı şəhərində 1 №-li məktəbdə müəllim işləyib. 1947-1950-ci illərdə V.İ.Lenin adına ADPİ-də psixologiya ixtisası üzrə aspirantura təhsili alıb. Aspiranturanı bitirdikdən sonra Azərbaycan SSR Maarif Nazirliyinin göndərişi ilə Ağdam Dövlət Müəllimlər İnstitutunun Pedaqogika kafedrasına göndərilib. 1949/50-ci tədris ilindən 1951/52-ci tədris ilinə kimi orada baş müəllim vəzifəsində çalışıb. 1952-1954-cü illərdə ADPİ-nin Psixologiya kafedrasında baş müəllim, 1954-61-ci illərdə Azərb-.ETPEİ-də pedaqogika-psixologiya şöbəsinin müdiri, psixologiya laboratoriyasının rəhbəri, 1961-1975-ci illərdə V.İ.Lenin adına ADPİ-də Psixologiya kafedrasında baş müəllim və dosent vəzifələrində çalışıb.

RSFSR PEA-nın Elmi Tədqiqat Psixologiya İnstitutunun Elmi Sovetində 22 dekabr 1953-cü ildə namizədlik dissertasiyası müdafiə edib. Ona 31 mart 1954-cü ildə SSRİ Mədəniyyət Nazirliyi yanında AAK tərəfindən pedaqoji elmlər namizədi elmi dərəcəsi, 6 sentyabr 1958-ci ildə isə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən baş elmi işçi elmi adı verilib. 16 mart

1966-cı ildə ADPİ-nin Psixologiya kafedrasına dosent vəzifəsinə seçilib. 20 yanvar 1966-cı ildə ona SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən Psixologiya kafedrası üzrə dosent elmi adı verilib. 1971-1976-cı illərdə İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsində (indiki İbtidai təhsil fakültəsi) partiya təşkilat katibi olub. 12 fevral 1975-ci ildən 1 sentyabr 1987-ci ilə kimi ADPİ-nin Yaş və pedaqoji psixologiya kafedrasına rəhbərlik edib. Ümumtəhsil məktəblərində riyaziyyat və fizika fənlərinin mənimsənilməsində şagirdlərin qarşılaşdıqları çətinliklərin tədqiqi və onun psixoloji təhlili onun yaradıcılığının əsas istiqamətini təşkil edir. O, həm də peşəkar tərcüməçi kimi tanınıb. N.A.Dobrolyubovun "Seçilmiş pedaqoji əsərləri"ini (Ə.Zeynalovla birlikdə) və "IV sinifdə riyaziyyat" kitablarını dilimizə tərcümə edib.

"Məktəb direktoru üçün sorğu kitabı" (1959), "Faizlərin mənimsənilməsi psixologiyası" (1961), "Səkkizinci sinifdə cəbr materiallarının mənimsənilməsi psixologiyası haqqında" (1963), "Uşaqlarda təfəkkür və nitqin inkişafı" (1966), "Əlifba" (Y. Kərimovla birgə) (1972 - 1978), "Yaş və pedaqoji psixologiya". I hissə. (1977), "Yaş və pedaqoji psixologiya".II hissə. (1978), "Uşaq psixologiyası".II hissə. (1984), "Uşaq psixologiyası". I hissə. (1982), "Uşaq psixologiyası". III hissə. (1988) dərslik və dərs vəsaitləri, 50-dən artıq elmi məqalənin və məruzə tezisinin müəllifidir. Tanınmış metodist alim Y.Kərimovla birlikdə yazdığı "Əlifba" dərsliyi dəfələrlə nəşr olunub. Ümumittifaq və Zaqafqaziya psixoloqlarının qurultay və konfranslarının fəal iştirakçılarından biri olub. Hesab və cəbr materiallarının mənimsənilməsindəki çətinliklər və onların aradan qaldırılması ilə bağlı doktorluq dissertasiyası yazıb. Həmin əsər Gürcüstan Dövlət Universitetinin psixologiya kafedrasında müzakirə edilərək müdafiəyə təqdim olunub.

10 iyun 1984-cü ildə ADPİ-nin Yaş və pedaqoji psixologiya kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən 24 may 1985-ci ildə ona professor elmi adı verilib. 29 avqust 1987-ci ildə dövlət təqaüdünə çıxdığı üçün öz ərizəsi ilə işdən azad olub. 20 sentyabr 1989-cu ildə Yaş və pedaqoji psixologiya kafedrasına professor-məsləhətçi təyin olunub, ömrünün sonuna kimi həmin vəzifədə çalışıb.

21 yanvar 1990-cı ildə Bakı şəhərində vəfat edib.

Fuad Əhməd oğlu İbrahimbəyov
psixologiya elmləri namizədi,
tibb elmləri namizədi, professor,
Əməkdar həkim
(1901- 1985)

1901-ci ilin dekabr ayının 29 -da Şamaxıda anadan olmuşdur. O, orta təhsilini Şamaxı realni məktəbində Abbas Səhhətin sinfində almışdır. 1917-1918-ci illərdə Şamaxı Seysmik stansiyasında baş müşahidəçi işləmişdir. 1919-1920-ci illərdə Bakı Dövlət Universitetinin Tarix-filologiya, 1920-1925-ci illərdə Tibb fakültəsində oxumuşdur. Bakı Xalq Maarif Şöbəsinin 44, 60 və 23 №-li orta məktəblərində müəllimlik etməklə yanaşı, Ali Pedaqoji İnstitutda psixologiya kursunu bitirmişdir. 1926-1927-ci illərdə Ali Pedaqoji İnstitutda, 1927-1930-cu illərdə ADU-da, 1930-1938-ci illərdə ADPİ-də ümumi və xüsusi psixologiya fənlərindən mühazirə oxumuşdur. Burada ilk eksperimental psixologiya laboratoriyası yaratmış və ona rəhbərlik etmişdir. ADU-nun Əsəb xəstəlikləri kafedrasında həkim kimi təcrübə (1925-1927) keçən F.İbrahimbəyov 1930-1933-cü illərdə həm də psixotexniki və defektoloji kabinetdə, profilaktik ambulatoriyalarda işləmişdir. 1931-ci il iyul ayının 1 -də Azərbaycan Elmi -Tədqiqat Pedologiya İnstitutu yaradılır və elə həmin gün Xalq Maarif Komissarlığının 30 № li və Bakı şəhər Xalq Maarif şöbəsinin 87 № li əmrinə əsasən psixologiya laboratoriyası və elmi -tədqiqat pedologiya kabineti yaradılır. Fuad İbrahimbəyov həmin kabinetə müdir, professor A.O.Makovelski isə elmi məsləhətçi təyin olunur. Azərbaycan Tibb İnstitutunun Psixiatriya kafedrasında assistent (1933-1935) və dosent (1938-1948) vəzifələrində işləmiş, 1936-1939-cu illərdə psixiatrik kömək şöbəsinə rəhbərlik etmişdir. 1936-cı ildə ona psixologiya ixtisası üzrə elmlər namizədi elmi dərəcəsi və dosent elmi adı verilmişdir. 1939-cu ildə SSRİ XKS-nın Ali Məktəblər İdarəsinin nəzdində fəaliyyət göstərən AAK tərəfindən ona tibb elmləri namizədi elmi dərəcəsi və dosent elmi adı verilmişdir. 1939-1948-ci illərdə Bakıda Psixiatrik Klinikada işləmişdir. 1941-1948-ci illərdə Respublika Psixiatrik hərbi-həkim komissiyasının sədri olmuşdur. Bir müddət Stasionar Məhkəmə - Psixiatrik Ekspert Komissiyasının sədri, eyni zamanda Azərbaycan Səhiyyə Nazirliyinin baş psixiatrı vəzifəsində işləmişdir.

1948 -ci ildə Fuad İbrahimbəyov siyasi repressiyaya məruz qalmışdır. Onu Sibirə - İrkutsk ətrafı meşələrdə yerləşən siyasi məhbuslar üçün düşərgəyə sürgün edirlər. Yalnız 1953-cü ildə ölkədə baş verən siyasi vəziyyətlə əlaqədar bəraət almışdır. 1954-cü ildə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunda pedaqoji fəaliyyətə başlamışdır. 1960-1970-ci illərdə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun, 1973-1977-ci illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun Psixologiya kafedrasının müdiri, 1977-1984-cü illərdə həmin kafedranın professoru olmuşdur. Yarısından çoxunun rus, fransız və ingilis dillərində nəşr edilən 80 - dən artıq elmi əsərin müəllifidir. Əsərləri Amsterdamda, Londonda, Tokioda, eləcə də Sovet İttifaqının müxtəlif elmi mərkəzlərində çap olunmuşdur. "Psixologiya" (K.N.Kornilov) dərsliyinin Azərbaycan dilinə tərcüməsinin, "Psixopatalogiya" (X.Həsənov) dərs vəsaitinin elmi redaktoru olmuşdur. 1964-cü ildə nəşr edilən "Psixologiya" dərsliyin "Psixikanın inkişafı" və "Temperament" fəsilləri onun tərəfindən yazılmışdır. F.Ə.İbrahimbəyovun işləyib hazırladığı "Hiperemosiyaların motor – ifadəli tədqiqi metodikası", "Əqli funksiyaların tədqiqi metodları" və "Müttəfiq respublikalarda psixotexniki tədqiqat aparan praktik işçilər üçün qurğu" 1930 -cu ildə Leninqradda keçirilən insan davranışı üzrə I Ümumittifaq qurultayında və VII Beynəlxalq psixotexniki konfransda müzakirə olunmuş və yüksək elmi əhəmiyyətə malik işlər kimi dəyərləndirilmişdir. Onun testlərlə bağlı əsəri ölkənin sənayeləşdirilməsi illərində peşə oriyentasiyası və peşəseçmə məsələlərinin həllində böyük rol oynamışdır.50-ci illərdə bilinqvizmin (2 dil öyrənmənin) psixologiyası ilə əlaqədar işləyib hazırladığı tədqiqat metodikası bu gün də ciddi praktik əhəmiyyətə malikdir.

SSRİ Psixoloqlar Cəmiyyətinin Azərbaycan şöbəsinin rəhbəri, SSRİ Psixoloqlar Cəmiyyətinin Mərkəzi Şurasının üzvü, I-IV Zaqafqaziya psixoloqlarının Təşkilat Komitəsinin sədri olmuşdur. Nüfuzlu alim kimi psixoloqların XVI (Amsterdam), XVIII (Moskva), XIX (London), XX (Tokio) Beynəlxalq konqreslərinin iştirakçısı olub.

"Əməkdar həkim" (1943) fəxri adına layiq görülmüş, "Şərəf Nişanı" ordeni (1945), "Qafqazın müdafiəsinə görə" (1945) və "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsi illərində fədakar əməyə görə" (1946) medalları, "SSRİ-nin səhiyyə əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.

1985-ci ildə Bakı şəhərində vəfat etmişdir.



Muxtar Əliş oğlu Həmzəyev
psixologiya elmləri doktoru, professor
(1929-2008)

12 fevral 1929-cu ildə Laçın rayonunun Əhmədli kəndində anadan olub. Əhmədli kənd yeddiillik kənd məktəbində (1936-1943), Laçın pedaqoji məktəbində (1945-1948), Azərbaycan Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinin məntiq və psixologiyası şöbəsində (1948-1952) təhsil alıb. Təhsil illərində Nizami təqaüdçüsü olub. 1955-1956-cı illərdə Bakı şəhərindəki 208 №-li orta məktəbdə məntiq və psixologiyadan dərs deyib. 18 may 1956-cı ildə Azərbaycan Pedaqoji İnstitutunda " İbtidai məktəbin II sinif şagirdlərində samitlər üzrə düzgün yazı vərdişlərinin təşəkkül etməsi və inkişafının psixoloji xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

1956-1960-cı illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda pedaqogika və psixologiya şöbəsində baş elmi işçi, 1960-1961-ci illərdə həmin şöbənin müdiri vəzifəsində işləyib.1960-1970-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Psixologiya kafedrasında əvəzçiliklə baş müəllim vəzifəsində çalışıb. 1969-cu ilin aprel ayında Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "Azərbaycan dili orfoqrafiya və durğu işarələrinin mənimsənilməsi psixologiyası (səkkizillik məktəbdə)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 16 yanvar 1970-ci ildə ona psixologiya elmləri doktoru elmi dərəcəsi, 11 iyun 1971-ci il tarixdə Psixologiya kafedrası üzrə professor elmi adı verilib.1974-1978-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun Psixologiya və pedaqogika kafedrasının, 1978-2008-ci illərdə SSRİ-nin 50 illiyi adına Azərbaycan Xarici Dillər Pedaqoji İnstitutunun Psixologiya kafedrasının müdiri vəzifəsində çalışıb.

1976-1987-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasının elmi məsləhətçisi olmuşdur.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Ekspert Şurasının üzvü olub. Onun elmi rəhbərliyi ilə 10 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. 10 doktorluq, 20 namizədlik dissertasiyasının rəsmi opponenti olmuşdur.

200-dən artıq elmi əsərin, o cümlədən 11 monoqrafiya və kitabçanın, orta və ali məktəblər üçün 10-dan artıq dərslik və dərs vəsaitinin, xeyli tədris proqramlarının müəllifi, 20-dən çox kitabın elmi redaktoru olmuşdur.

1970-ci ildə “Qabaqcıl maarif xadimi” döş nişanı, 1989-cu ildə “Əmək veteranı”medalı,1990-cı ildə “İşdə əla müvəffəqiyyətinə görə”döş nişanı ilə təltif olunmuşdur.Akademik M.Mehdizadə mükafatının laureatıdır. Dəfələrlə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir..

Əkbər Salman oğlu Bayramov
psixologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi,
Prezident təqaüdçüsü
(1930-2017)

30 dekabr 1930-cu ildə Ağdam rayonunun Əlimədətli kəndində anadan olub. Əlimədətli kənd 7 illik məktəbini (1945), Ağdam Pedaqoji Texnikumunu (1945-1949), Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini (1949-1954) bitirib. 1954-1957-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda psixologiya ixtisası üzrə aspirantura təhsili alıb. ADPİ-də aspirantura şöbəsinin müdiri (1957-1958), elmi işlər üzrə prorektorun köməkçisi (1958-1960) işləyib. “Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III- IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri” mövzusunda namizədlik (1959), “Kiçik məktəbyaşlı şagirdlərdə təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dinamikası” mövzusunda doktorluq dissertasiyası (1969) müdafiə edib. 1960-1970-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda psixologiya kafedrasında müəllim, dosent, professor vəzifələrində çalışıb.

1965-1969-cu illərdə əvəzçiliklə Azərb.ETPEİ-də baş elmi işçi, 1965-1983-cü illərdə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsində əvəzçiliklə professor vəzifəsində çalışıb.

1971-1992-ci illərdə ADU-nun Pedaqogika və psixologiya kafedrasına, 1992-1999-cu illərdə isə BDU-nun Psixologiya kafedrasına rəhbərlik edib. 1999-2017-ci illərdə BDU-nun Psixologiya kafedrasının professoru olub. 40-dan artıq monoqrafiya, dərslik, dərs vəsaiti, elmi -kütləvi kitabı, 250-dən artıq elmi, 270 publisistik məqaləsi və məruzə tezisləri nəşr olunub. 35-dən artıq dərslik, dərs vəsaiti və monoqrafiyanın elmi redaktoru olub.

Elmi rəhbərliyi ilə 35-dən artıq tədqiqatçı elmlər namizədi və elmlər doktoru dissertasiyası müdafiə edib. 10 nəfərin namizədlik və doktorluq dissertasiyasının rəsmi opponenti olub.

SSRİ Psixoloqlar Cəmiyyəti Azərbaycan şöbəsinin, Azərbaycan Təhsil Nazirliyi Elmi-Metodik Şurasının pedaqogika və psixologiya bölməsinin sədri, Respublika ictimai rəyi öyrənən sosioloji mərkəzin üzvü, BDU-nun nəzdində fəaliyyət göstərən ixtisaslaşdırılmış Müdafiə Şurasının (1994-2000) sədri, Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü (2000-2004) olub.

O, "Fədakar əməyə görə" yubiley medalı (1970), "Şərəf Nişanı" ordeni (1976), "SSRİ maarif əlaçısı" (1977) döş nişanı, "Şöhrət" ordeni (2000) və Təhsil Nazirliyinin "Fəxri fərman"ları ilə təltif edilib. 1981-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilib.

8 iyul 2017-ci ildə Bakı şəhərində vəfat edib.

Qulam Eynulla oğlu Əzimli

psixologiya elmləri namizədi, professor

(1931)

1931-ci ildə İmişli rayonunda Bəcirəvan kəndində anadan olmuşdur. 1954-cü ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini bitirmişdir. 1954-1955-ci illərdə İmişli şəhər 1 №-li məktəbində müəllim, 1955-1962-ci illərdə rayon komsomol, partiya və hökumət orqanlarında rəhbər vəzifələrdə işləmişdir. 1970-ci ildə dissertasiya müdafiə edərək psixologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 1987-1992-ci illərdə ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasının müdiri, 1991-1997-ci illərdə Pedaqoji fakültənin qiyabi və axşam şöbəsinin dekanı vəzifəsində işləmişdir. 1990-cı ildə ona professor elmi adı verilmişdir. "Psixi inkişaf və tərbiyənin müasir problemləri" (2006) dərs vəsaitinin və 75-dən artıq elmi məqalənin müəllifidir. Pedaqoji və elmi pedaqoji kadr hazırlığında xidmətləri olub.

SSRİ Ali Soveti Rəyasət heyətinin "Əmək igidliyinə görə" medalı, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Fəaliyyətində əla müvəffəqiyyətinə görə" döş nişanı, "VI Ümumittifaq festivalının hazırlanmasında və keçirilməsində fəal iştirakına görə" xatirə nişanı ilə təltif edilmişdir.

Əbdül Əli oğlu Əlizadə

psixologiya elmləri doktoru, professor,
Əməkdar elm xadimi, "Şöhrət" ordenli,
Prezident təqaüdçüsü
(1932-2015)

1932-ci il avqust ayının 16-da Bakı şəhərində anadan olub. 1950-ci ildə Bakı şəhərindəki 31 №-li ümumtəhsil orta məktəbini bitirib.1950-1955-ci illərdə ADU-nun Məntiq-psixologiya fakültəsində təhsil alıb. 1955-1959-cu illərdə Ə.Əzimzadə adına Rəssamlıq məktəbində və "Azərbaycan məktəbi" jurnalının redaksiyasında işləyib. 1959-1963-cü illərdə V.İ.Lenin adına ADPİ-nin aspiranturasında təhsil alıb. 24 yanvar 1963-cü ildə V.İ.Lenin adına ADPİ-nin Elmi Şurasında "Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.13 mart 1965-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona pedaqoji elmlər namizədi elmi dərəcəsi verilib. 1962-ci ildə Pedaqogika və ibtidai təhsilin metodikası kafedrasında assistent kimi pedaqoji fəaliyyətə başlayıb. 1963-cü ildə Pedaqogika və ibtidai təhsilin metodikası kafedrasına baş müəllim, 1965-ci ildə Psixologiya kafedrasına baş müəllim, 1966-cı ildə dosent seçilib. 1966-1968-ci ildə İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsinin dekan müavini olub. 1968-ci ildə ADPİ-nin axşam fakültəsinə dekan müavini təyin edilib. 20 iyul 1966-cı ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona dosent elmi adı verilib. 8 aprel 1976-cı ildə Ümumi psixologiya kafedrasına müdir və dosent vəzifəsinə seçilib. 16 sentyabr 2013-cü ilə kimi həmin kafedraya rəhbərlik edib. 1975-ci ildə "Cinsi demorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 25 iyun 1975-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona psixologiya elmləri doktoru elmi dərəcəsi, 21 oktyabr 1977-ci ildə professor elmi adı verilib. 1982-1983-cü illərdə ADPİ-nin partiya komitəsinin katibi vəzifəsində işləyib. İttifaq səviyyəsində tanınan psixoloq alim olub. SSRİ Psixoloqlarının II-V qurultaylarında, Zaqafqaziya psixoloqlarının II-VIII konfranslarında, Özbəkistan psixoloqlarının III konfransında iştirak edib. SSRİ Psixoloqlar Cəmiyyətinin, SSRİ Maarif Nazirliyinin psixologiya üzrə elmi-metodik şurasının, SSRİ Jurnalistər İttifaqı-

nın, Azərbaycan Jurnalistlər Birliyinin, Pedaqoji-psixoloji elmlər üzrə Koordinasiya Şurasının üzvü və SSRİ Psixoloqlar Cəmiyyətinin Azərbaycan şöbəsinin məsul katibi olub. Azərbaycan Təhsil Şurasında, Azərbaycan Praktik Psixoloqlar Assosiasiyasında səmərəli fəaliyyət göstərib. 500-dən artıq pedaqoji-psixoloji və publisistik məqaləsinin, 80 monoqrafiya, dərslik, dərs vəsaiti və kitabın müəllifidir. Elmi rəhbərliyi ilə 20 nəfər fəlsəfə və elmlər doktoru yetişib. "Qırmızı Əmək Bayrağı", "Şöhrət" ordenləri və "Azərbaycan SSR maarif əlaçısı" döş nişanı, SSRİ PEA-nın, ADPU-nun, SSRİ və Azərbaycan SSR "Bilik" cəmiyyətinin "Fəxri Fərman"ları ilə təltif olub. Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın pedaqogika və psixologiya elmləri üzrə ekspert şurasının üzvü, Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının həmsədri olub.

O, 2010-cu ildə ADPU-da keçirilən "İlin müəllimi" və "İlin alimi" müsabiqəsinin qaliblərindən biri olub. 2002-ci ildə ona Prezident təqaüdü, 2012-ci ildə Əməkdar elm xadimi fəxri adı verilib. ADPU-nun "Elmi xəbərlər"inin (psixologiya və pedaqogika seriyası) baş redaktoru, "Azərbaycan məktəbi" və "Kurikulum" jurnalının redaksiya heyətinin üzvü olub. ADPU-da 70 və 80 illik yubileyləri keçirilib.

22 fevral 2015-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ərəstun Təriş oğlu Baxşəliyev

psixologiya elmləri doktoru, professor

(1940)

17 mart 1940-cı ildə Cəlilabad rayonunun kiçik Bəcrəvan kəndində anadan olub. Yeddiillik təhsilini doğma kəndlərində, orta təhsilini Prişib qəsəbəsindəki orta məktəbdə alıb. 1960-1964 -cü illərdə ADPİ-nin İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsində oxuyub. 1964-1967-ci illərdə Cəlilabad rayonunun Göytəpə qəsəbəsində sinif müəllimi işləyib. 1967-1970 - ci illərdə ADPİ-nin rektor köməkçisi işləyib. 1967- 1971-ci illərdə ADPİ-nin psixologiya ixtisası üzrə qiyabi aspiranturasında təhsil alıb.1973 -cü ildə "Azərbaycan SSRİ-də psixoloji fikrin inkişaf tarixindən" mövzusunda namizədlik, 1995-ci ildə "XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1996 -cı ildən psixologi-

ya elmləri doktoru, professordur. 1970-1992-ci illərdə ADPU-nun Ümumi psixologiya kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb. 1992-2019-cu illərdə ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasının müdiri olub. 2019-cu ildən həmin kafedranın professorudur.

Təhsil Nazirliyinin Fəxri fərmanı (1982), "Qabaqcıl maarif işçisi" (2005), "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanları ilə təltif olunub. 10 monoqrafiya, dərslik və dərs vəsaitinin, 100-dən artıq elmi məqalənin və tezisin müəllifidir.

Müseyib İbrahim oğlu İlyasov

pedaqogika üzrə elmlər doktoru, professor
(1951)

11 fevral 1951-ci ildə Laçın rayonunun Oğuldərə kəndində müəllim ailəsində anadan olmuşdur. 1957-1965-ci illərdə Oğuldərə kənd 8 illik məktəbində, 1965-1967-ci illərdə Laçın şəhər orta məktəbində, 1967-1971 -ci illərdə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) Pedaqoji fakültəsində oxumuşdur. 1971-1977-ci illərdə Laçın rayonunun Oğuldərə kənd orta məktəbində müəllim və təlim - tərbiyə işləri üzrə direktor müavini işləmişdir. Rayon Təhsil Şöbəsinin qərarı ilə təlim-tərbiyə işləri üzrə direktor müavini kimi iş təcrübəsinin rayonda yayılması məsləhət bilinmişdir. 1972-1973 -cü illərdə hərbi xidmətdə olmuşdur.

1978-1980 -ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə əyani aspiranturasında təhsil almışdır. 1981-ci ildə Ümumi pedaqogika kafedrasına müəllim təyin edilmişdir. 1987 -ci ildə "Kənd məktəblərarası tədris-istehsalat kombinatlarında şagirdlərin peşəyönümünün pedaqoji əsasları" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1989 -cu ildə Ümumi pedaqogika kafedrasında baş müəllim, 1991-ci ildə dosent vəzifəsinə seçilmişdir. 1989 - 1997 - ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya fakültəsində ictimai əsaslarla dekan müavini vəzifəsində işləmişdir. 2011-ci ildə "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2017-ci ildə professor elmi adı almışdır. 2013 -cü

ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri vəzifəsində çalışır. Universitetin və Məktəbəqədər təhsil fakültəsinin Elmi Şurasının üzvüdür. ADPU -nun Elmi - Metodik Şurasının üzvü, fakültə Elmi-Metodik Şurasının sədridir.

1997-1998-ci illərdə Azərbaycan ETPEİ-də fəaliyyət göstərən pedaqogika üzrə ixtisaslaşmış Müdafiə Şurasının üzvü olmuşdur. 2007-2010-cu illərdə ADPU-da Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi, təhsil və tərbiyənin nəzəriyyəsi və metodikası ixtisasları üzrə Dissertasiya Şurasının elmi seminarının üzvü, 2013-2015 -ci illərdə elmi seminarının sədri olmuşdur. 2010-2012-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Fəlsəfə, pedaqogika, psixologiya və ilahiyyat komissiyasının Ekspert Şurasının elmi katibi, 2012-2018-ci illərdə isə Fəlsəfə, pedaqogika və psixologiya elmləri üzrə Ekspert Şurasının üzvü olmuşdur.

1984-1995-ci illərdə Respublika televiziyasında ayda bir dəfə efirə çıxan "İstehsalatın əsasları. Peşə seçmə" adlı televiziya tədris proqramının aparıcısı olmuşdur. 1980 - 1990 -cı illərdə Respublika "Bilik" cəmiyyətinin xətti ilə respublikamızın müxtəlif bölgələrində əhali arasında pedaqoji biliklərin yayılmasında iştirak etmişdir.

1982-1984-cü illərdə üç dəfə hər biri 10 gün olmaqla Ümumittifaq Komsomol Təşkilatı Mərkəzi Komitəsinin, SSRİ Maarif Nazirliyinin və SSRİ Pedaqoji Elmlər Akademiyasının Rusiyanın Yaroslav vilayətinin Rostov-Velikiy və Zveniqorod şəhərlərində təşkil etdikləri "Gənc alimlər və mütəxəssislər məktəbi"nin iştirakçısı olmuşdur.

1992-1997-ci illərdə N.Tusi adına ADPU-nun "Pedaqoji Universitet Xəbərləri"nin pedaqoji - psixoloji elmlər seriyasının, 2007-2010-cu illərdə "Beynəlxalq Universitet Xəbərləri"-nin pedaqoji-psixoloji elmlər seriyasının məsul katibi olmuşdur. 2016-cı ildən ADPU-nun "Pedaqoji Universitet Xəbərləri" jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası"nın redaktor müavinidir. "Pedaqogika", "Peşə təhsili və insan kapitalı", "Pedaqoji tədqiqatlar" elmi-metodik jurnallarının redaksiya heyətinin üzvüdür. "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları" (2005), "Şagirdlərin peşə seçməyə hazırlanması" (2009), "Müəllim sərişləliliyi və pedaqoji peşəkarlığın aktual problemləri" (2018) monoqrafiyaları, "Məktəbdə peşəyönümü işinin sistemi"(1990), "Yuxarı sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsi" (2003), "Peşəyönümün əsasları" (2011), "Müəllimin pedaqoji ustalığı" (2013), "Peşə, ixtisas seçimi"(2015) və "Didaktika" (2015) adlı dərs vəsaitləri, 200-dən artıq elmi-pedaqoji və publisistik məqaləsi, 35 tədris proqramı, 10 metodik göstərişi nəşr olunub. 10 kitabın və 30-dan çox tədris proqramının elmi

redaktoru və 6 kitabın tərtibçisidir. Məqalələri Bakı, Moskva, Səmərqənd, Tbilisi, Kiyev, Kirovoqrad və Tolyattidə nəşr olunan nüfuzlu jurnallarda çap edilmişdir.

"Vektor" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "XXI əsr Azərbaycan ziyalıları" müsabiqəsinin qalibi olmuşdur. 2012-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

Ramiz İbrahim oğlu Əliyev

psixologiya elmləri doktoru, professor,
Əməkdar müəllim
(1954)

9 noyabr 1954- cü ildə Gədəbəy rayonunun Arısu kəndində müəllim ailəsində anadan olmuşdur. 1960-1968-ci illərdə Arısu kənd səkkizillik məktəbində, 1968-1970 -ci illərdə Miskinli kənd orta məktəbində oxumuşdur. 1971-1975 -ci illərdə SSRİ -nin 50 illiyi adına APXDİ-nin (indiki ADU) ingilis dili fakültəsini bitirmişdir. 1975-1978-ci illərində Arısu kənd səkkizillik məktəbində müəllim işləmişdir. 1978 -ci ildə Azərbaycan ETPEİ-nin Uşaq, yaş və pedaqoji psixologiya ixtisası üzrə əyani aspiranturasına daxil olmuşdur. 1979-1980 -ci illərdə Sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur.

1981-1982-ci illərdə Moskva şəhərində SSRİ PEA-nın Elmi-Tədqiqat Psixologiya İnistutunda professor İrina Vladimrovna Dubrovinanın rəhbərlik etdiyi laboratoriyada təhsilini davam etdirmişdir. 1983-cü ildə əyani aspirantura təhsilini başa vurmuş, Azərbaycan ETPEİ-nin Psixologiya və defektologiya şöbəsində kiçik elmi işçi kimi elmi fəaliyyətə başlamışdır.

1985-ci ildə Ukrayna Elmi-Tədqiqat Psixologiya İnstitutunda "Kiçik yaşlı məktəblilərin şəxsiyyətinin formalaşmasında ictimai fəallığın rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Azərbaycan ETPEİ-də aparıcı elmi işçi (1986-2001), Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda Yaş fiziologiyası və psixologiya şöbəsinin müdiri (2001- 2013) vəzifəsində çalışmışdır.

2004-cü ildə BDU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasında "Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

2006-2013-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Ekspert Şurasının üzvü olmuşdur. 2009-cu ildə psixologiya üzrə professor elmi adı almışdır. Şəxsiyyət psixologiyası, etnopsixologiya, təhsildə psixoloji xidmət və psixologiya tarixi ilə bağlı tədqiqatların müəllifidir.

"Psixologiya" (2003, 2007, 2008), "Psixologiya tarixi" (2006), "Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması" (1995), "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları" (2000)." Məktəbə psixoloji xidmətin aktual məsələləri" (2004) "Tərbiyə psixologiyası" (2006), "Etnopsixologiya: qlobollaşma və millilik" (2007), "Azərbaycan psixologiyasının korifeyi-Əbdül Əlizadə" (2009), "Mentalitet" (2009), "Praktik psixologiya məsələləri (2011, müştərək), "Mühit. İdeologiya. Şəxsiyyət" (2015, müştərək) adı monoqrafiya, dərslik və dərs vəsaitləri nəşr olub.

Ümumiyyətlə, psixologiyanın nəzəri və praktik problemlərinə həsr olunmuş 15 monoqrafiya, dərslik və dərs vəsaitinin, 200-dən artıq elmi-metodik əsərin müəllifidir.

Əsərlərinin bir qismi rus və ingilis dillərində xarici ölkələrin nüfuzlu jurnallarında çap olunub. Bakı, Moskva, Sankt-Peterburq, Kiyev şəhərlərində psixologiya ilə bağlı keçirilən konfrans və simpoziumların iştirakçısı olmuşdur. Elmi rəhbərliyi ilə 25 nəfər fəlsəfə doktoru, 1 nəfər elmlər doktoru yetişib.

ADPU-nun "Elmi xəbərləri", Təhsil İnstitutunun "Elmi əsərləri" və "Naxçıvan Universitetinin Elmi Xəbərləri"nin, "Azərbaycan məktəbi", "Məktəbəqədər və ibtidai təhsil" və "Psixologiya" jurnallarının redaksiya heyətinin üzvüdür.

2013-cü ildən ADPU-nun Ümumi psixologiya kafedrasının müdiridir. 2006 -cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Şəhla Qasım qızı Əliyeva
pedaqogika üzrə elmlər doktoru, dosent
(1960)

29 iyun 1960-cı ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Qaraqışlaq kəndində anadan olub. 1977-ci ildə Bakı şəhəri 155 №-li orta məktəbi bitirib. 1984-cü ildə V.İ.Lenin adına ADPİ-nin Məktəbəqədər tərbiyə fakültəsini fərqlənmə diplomu ilə bitirib. Tələbəlik illərində fakültə komsomol komitəsinin katibi olub.1984-1986-cı illərdə institut komsomol komitəsində çalışıb. 1989-1993-cü illərdə Məktəbəqədər pedaqogika kafedrasının dissertantı olub.

1993-cü ildə "Təbiətlə tanışlıq məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinin vasitəsi kimi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. 1986-1997-ci illərdə Məktəbəqədər pedaqogika kafedrasında laborant, müəllim, baş müəllim vəzifələrində çalışıb. 1998-ci ildə ona dosent elmi adı verilib.

1995-1997-ci illərdə ADPU-nun Pedaqogika və psixologiya fakültəsinin dekan müavini, 1997-2001-ci illərdə dekanı, 2001-2011-ci illərdə Məktəbəqədər pedaqogika kafedrasında dosent, 2011-2015-ci illərdə Pedaqogika və psixologiya fakültəsinin, 2015-2019-cu illərdə Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin dekanı vəzifəsində çalışıb. Hazırda Məktəbəqədər təhsil fakültəsinin dekanı, fakültə Elmi Şurasının sədri, universitet Elmi Şurasının üzvüdür.

"Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları" (2014) mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan Respublikasının Prezidenti yanında AAK tərəfindən ona 2015-ci ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi verilib. Respublikada məktəbəqədər təhsil sahəsində ilk elmlər doktorudur.

Azərbaycanda məktəbəqədər təhsilin nəzəri və tarixi problemlərinin araşdırılması, sosial tərbiyə və inklüziv təhsilin təşkili tendensiyalarının müəyyənləşdirilməsi, məktəbəqədər yaşlı uşaqların sosial inkişafı və tərbiyəsi məsələlərinin öyrənilməsi onun tədqiqatlarının əsasını təşkil edir.

3 monoqrafiya, 14 kitab və kitabça, 21 tədris proqramı, 80-dən çox elmi məqalənin müəllifidir. 22-dən artıq beynəlxalq və respublika konfranslarında istirak edib, tezisləri nəşr olunub. Əsərləri Bakı, Moskva, Pyatiqorsk, Minsk,

Qroznı, İstanbul, Daşkənd, Almatı, Astana, Kazan, Krasnodar, Dnepr şəhərlərinin nüfuzlu elmi jurnallarında Azərbaycan, rus, türk, ingilis dillərində çap edilib.

2016-cı ildən ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür. "Pedaqoji Universitetin Xəbərləri"nin (humanitar,ictimai, pedaqoji-psixoloji elmlər seriyası),"Azərbaycanda təhsil" beynəlxalq jurnalının redaksiya heyətinin üzvü, "Musiqi elmi, mədəniyyəti və təhsilin aktual problemləri" jurnalının redaksiya komissiyasının məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə sədridir.

2018-ci ildən Özbəkistan Andican Dövlət Pedaqoji Universitetinin "Илмий хабарнома. Педагогик тадқиқотлар" jurnalının, 2019-cu ildən Ankara Eğitim Araştırmaları dərgisinin redaksiya heyətinin üzvüdür. Fəlsəfə və elmlər doktoru proqramı üzrə araşdırma aparan doktorant və dissertantların elmi rəhbəri və elmi məsləhətçisidir. "Müasir təhsil və tədrisə yardım mərkəzi", "Dünyaya baxış" təşkilatı və Təhsil Nazirliyinin dəstəyi ilə Pedaqoji Universitetdə inklüziv təhsilə dair pilot layihənin həyata keçirilməsində fəal iştirak edib.

Azərbaycan Respublikası Milli Kvalifikasiya Çərçivəsi layihəsində peşə standartları hazırlayan işçi qrupun üzvü olaraq ixtisasın modul dərs vəsaitlərini hazırlayıb.Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" və UNİCEF-in "Azərbaycanda əlilliyi olan uşaqlar üçün keyfiyyətli inklüziv təhsilin genişləndirilməsi" layihələrində işçi qrupun üzvü olub. 2019-cu ildən Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının professorudur. ADPU-da keçirilən "İlin alimi" (2010) müsabiqəsinin qaliblərindən biri olub, müxtəlif media mükafatlarına layiq görülüb.

Qızxanım Nizaməddin qızı Qəhrəmanova

psixologiya elmləri doktoru

(1973)

20 sentyabr 1973-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1980-1990-cı illərdə Bakı şəhəri, Nərimanov rayonu 45 №-li orta məktəbi, 1990-1995-ci illərdə isə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil pedaqogikası və metodikası, əlavə musiqi fakültəsini bitirib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi və onun tədrisi metodikası kafedrasında müəllim və baş müəllim vəzifələrində çalışıb.

2007-2011-ci illərdə Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsinin fəlsəfə doktoru proqramı üzrə doktorantı olub.

2011-ci ildə BDU-da "Tələbə şəxsiyyətinin formalaşmasında birgə fəaliyyət və şəxsiyyətlərarası münasibətlərin rolu" mövzusunda psixologiya üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə edib. 2012-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 2013-cü ildə isə dosent elmi adı verilib.

2011- 2019 -cu illərdə ADPU-nun Əlavə təhsil fakültəsinin dekan müavini və dekan əvəzi vəzifələrində çalışıb. 2013- 2017-ci illərdə Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsinin elmlər doktoru proqramı üzrə doktorantı olub.

2018 -ci ildə BDU-da "Tələbə kollektivinin idarə olunmasında gender xüsusiyyətlərinin nəzərə alınması" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2019-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası ona psixologiya üzrə elmlər doktoru elmi dərəcəsi verib.

2019-cu ildə ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasına müsabiqə yolu ilə müdir vəzifəsinə seçilib. "Gənclərin fəaliyyətinin sosial - psixoloji xüsusiyyətləri", "Tələbə kollektivinin idarə olunmasında gender problemi", "Peşə etikası" adlı monoqrafiyaların, "Uşaq psixologiyası" adlı dərs vəsaiti, 60-dan artıq elmi məqaləsi, məruzə tezisi nəşr olunub.

Fizika fakültəsi

Həbibulla İbrahim oğlu Əmirxanov
SSRİ EA-nın müxbir üzvü,
Azərbaycan EA-nın həqiqi üzvü,
fizika-riyaziyyat elmlər doktoru, professor
(1907-1986)

1907-ci il aprel ayının 28-də Dağıstanın Qunib rayonunun Qaradağ kəndində doğulmuşdur. 1925-ci ildə Bakıya köçmüş və Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunda, Azərbaycan Sənaye İnstitutunda və SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan bölməsinin fizika bölməsində çalışmışdır. 1939-1944-cü illərdə Azərbaycan EA-nın Fizika bölməsinə rəhbərlik edib. 1944-1947-ci illərdə Fizika İnstitutunun, 1947-1950 -ci illərdə Fizika və Riyaziyyat İnstitutunun direktoru olmuşdur. 1942-ci ildə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi və professor elmi adını almışdır. 1949-cu ildən Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir. SSRİ EA Dağıstan filialı Rəyasət Heyətinin sədri, SSRİ EA Fizika İnstitutu Dağıstan filialının direktoru və Azərbaycan Sənaye İnstitutunun Fizika kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1972-ci ildə SSRİ EA-nın müxbir üzvü seçilmişdir.

Tədqiqatları neft fizikası, yarımkeçiricilər, geofizika və fiziki termodinamikaya həsr olunmuşdur. İstilik tutumu və istilikkeçirməni ölçmək üçün yüksək dəqiqliyi ilə fərqlənən cihazlar yaratmışdır. İxtira etdiyi adiabat kalorimetr SSRİ XTNS-in fəxri diplomuna layiq görülmüşdür. Mədən süxurlarının mütləq yaşını təyin etmək üçün kütlə spektrometriyasına əsaslanan yeni üsulun müəlliflərindəndir. Akademik A.F.İoffenin tələbəsi kimi yarımkeçiricilər məktəbinin üzvü olmuş və öz tələbələri və həmkarları ilə böyük elmi məktəb yaratmışdır. Rəhbərliyi və bilavasitə iştirakı ilə müxtəlif elmi istiqamətlərdə - yarımkeçiricilər fizikası, neft fizikası, geofizika və fiziki termodinamika üzrə tədqiqatlar aparılmış, metal və bəzi yarımkeçiricilərin fiziki xüsusiyyətləri,

neft və neft məhsullarının molekulyar-istilik xüsusiyyətləri, Xəzər dənizi sularının, Abşeron rayonu ərazisinin və Naftalan neftinin radioaktivliyinin tədqiqi sahəsində geniş tətbiq olunan nəticələr əldə edilmişdir. O, güclü maqnit sahəsində Landau səviyyələrinin spin parçalanması və maqnit müqavimətinin kvant ossilyasiyasını tədqiq etmişdir.

Ümumittifaq "Bilik" cəmiyyətinin Dağıstan MSSR bölməsinin sədri, RSFSR Ali Sovetinin 8-10-cu çağırış deputatı olmuşdur. 400-dən artıq elmi əsərin, 13 monoqrafiyanın müəllifidir. "Lenin", "Oktyabr İnqilabı" və "Qırmızı Əmək Bayrağı" ordenləri, Vavilov adına qızıl medalla təltif olunmuş, Azərbaycan SSR və Dağıstan MSSR-in Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdür. Dağıstan Elmi mərkəzinin Fizika İnstitutuna H.Əmirxanovun adı verilmişdir.

1986-cı ildə vəfat etmişdir

Abasqulu Ağabala oğlu Abaszadə

SSRİ PEA-nın müxbir üzvü
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1906 - 1969)

10 aprel 1906-cı ildə Təbriz şəhərində anadan olmuşdur. 1916-cı ildə anası ilə Bakıya köçmüşdür. Birinci dərəcəli məktəbdə, Nəriman Nərimanov adına Sənaye Texnikumunda oxumuşdur. Həm Ali Pedaqoji İnstitutu (1926), həm də Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsini (1930) bitirmişdir. 1934-cü ildən ömrünün sonuna kimi Azərbaycan Pedaqoji İnstitutunda müxtəlif vəzifələrdə – Eksperimental və nəzəri fizika kafedrasının müdiri (1938-1969), Fizika-riyaziyyat fakültəsinin dekanı (1939-1957) vəzifələrində işləmişdir. 1957-1962-ci illərdə institutun elmi işlər üzrə prorektoru olmuşdur. Tbilisi Dövlət Universitetində namizədlik (1941), M.V.Lomonosov adına MDU-da doktorluq dissertasiyası müdafiə etmişdir (1953). 1953-cü ildə ona professor elmi adı da verilmişdir.Termodinamika və mayelər fizikası sahəsindəki fundamental tədqiqatlarına dünya şöhrətli fizika alimləri yüksək qiymət vermişlər. Fizika sahəsində fundamental tədqiqatlarla yanaşı dövri mətbuatda fizikanın tədrisi metodikasına dair orijinal məqalələrlə çıxış et-

mişdir. Fizika və pedaqogika sahəsindəki nailiyyətlərinə görə 1957-ci ildə RSFSR PEA-nın, 1967-ci ildə isə SSRİ PEA-nın müxbir üzvü seçilmişdir. 200-dən artıq elmi-nəzəri, metodiki, elmi-kütləvi səciyyəli əsərin müəllifidir. Rəhbərliyi ilə 60-a yaxın elmlər namizədi və doktoru hazırlamışdır. Aspirantları sırasında azərbaycanlılarla yanaşı rus, ukraynalı, belarus, özbək, tacik, qırğız, qazax, türkmən, osetin, ləzgi və başqa millətlərin nümayəndələri olmuşdur.

18 fevral 1969-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Malik Heydər oğlu Ramazanzadə

AMEA-nın müxbir üzvü,
Əməkdar elm xadimi,
texnika elmləri doktoru, professor
(1912 –1987)

21 mart 1912-ci ildə Bakı şəhərinin Əmircan kəndində anadan olmuşdur. 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olmuş, 1931-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir. 30-cu illərdə ADPİ-də fizika fənnindən dərs demiş, "Xəzər dənizi sularının temperatur sıxlığının təyin edilməsi" mövzusunda araşdırmalar aparmışdır. Həmin illərdə o, həm də Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) Fizika kafedrasında baş laborant, assistent, dosent vəzifələrində çalışmışdır. 1948-1987-ci illərdə həmin kafedraya rəhbərlik etmişdir. 1941-ci ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1969-cu ildə ona professor elmi adı verilmişdir. 21 aprel 1976-cı ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir.

Əsas tədqiqatları selen və neft fizikasına aiddir. Selenin istilik keçirməsini, müxtəlif dalğa uzunluqlu şüaların onun elektrik keçirməsinə təsirini, Abşeron neftinin və neft məhsullarının istilikkeçirməsini, neftin istilikötürmə qabiliyyətini tədqiq etmişdir. Respublikada ilk dəfə olaraq texniki ali məktəblər üçün Azərbaycan dilində "Ümumi fizika" adlı dərslik yazmışdır. "Şərəf nişanı"ordeni, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərdəki Böyük Vətən müharibəsində şərəfli əməyə görə" medalları və Azərbaycan SSR Ali Sovetinin "Fəxri Fərmanı" ilə təltif olunmuşdur. 1970-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

22 iyul 1987-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Yusif Əmən oğlu Əmənzadə
AMEA-nın müxbir üzvü,
kimya elmləri doktoru, professor
(1914-1982)

1914-cü il fevralın 18-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Neft-mədən fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.Riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsini (1959), professor elmi adını (1961) almış, 1968-ci ildə AEA-nın müxbir üzvü seçilmişdir. Azərbaycan Dövlət Universitetinin Nəzəri mexanika kafedrasının müdiri, Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun Elastikliyyət nəzəriyyəsi söbəsinin rəhbəri vəzifələrində çalışmışdır. 1972-ci ildən SSRİ-nin mexanika üzrə Milli Komitəsinin üzvü olub.

Elmi fəaliyyəti əsasən hissə-hissə bircins elastiki mühitdə gərginlik deformasiya vəziyyətinin və elastiklik nəzəriyyəsinin kontakt məsələlərinin tədqiqinə həsr olunmuşdur. Elastiklik nəzəriyyəsinin müstəvi məsələlərinin həllində yaranan sonsuz xətti cəbri tənliklər sistemlərinin kvazirequlyarlığını sübut etmiş, boşluğa malik prizmatik tirin əyilmə mərkəzinin koordinatlarını bir burulma funksiyası vasitəsi ilə təyin edən düstur vermişdir. Çoxrabitəli və qarışıq yarımmüstəviyə sərt ştampın təsiri məsələsi və bu kimi məsələlərin həlli üsulunu vermiş, sonlu mühitdə çat məsələsinin analitik həll üsulunu inkişaf etdirmişdir. Çoxrabitəli oblastlar üçün elektromodelləşdirmə üsulu ilə Dirixle məsələlərinin həlli üçün yeni orijinal metodika təklif etmişdir. Neft- mədən mexanikasında bir sıra mühüm statik və dinamik məsələlərin həlli ona məxsusdur. Elastiki örtüklərin variasiya üsulu ilə həllini tədqiq etmiş və bu məsələlərin ədədi həllini verimişdir.

Y.Əmənzadə “Elastiklik nəzəriyyəsi” (rus və ingilis dillərində), “Nazik elastik örtüklər nəzəriyyəsi üzrə ümumi kurs”, “Elastiklik nəzəriyyəsinin hamarlılıq məsələsi” dərsliklərinin müəllifi, həmçinin “SSRİ-də elastiklik nəzəriyyəsinin əlaqə məsələlərinin həlli” monoqrafiyasının həmmüəllifi olub. Alim 150-dan çox elmi məqalə dərc etdirib, 40-dan çox elmlər namizədi və 5 elmlər doktoru yetişdirib.

1982-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Sədi Şəmsəddin oğlu İmanov
SSRİ PEA-nın müxbir üzvü,Əməkdar elm xadimi,
pedaqoji elmlər doktoru, professor
(1924-2013)

14 aprel 1924-cü ildə Şamaxı rayonunun Əngəxaran kəndində anadan olmuşdur. Əngəxaran kənd ibtidai məktəbini, Məlhəm kənd 7 illik məktəbini bitirmişdir. 1939-1942-ci illərdə M.Ə.Sabir adına Şamaxı Pedaqoji Məktəbində oxumuşdur. 1942-1949-cu illərdə Mərzəndiyə, Ərçiman, Qələybuğurd, Dəmirçi və Məlhəm kəndlərində müəllim, dərs hissə müdiri və məktəb direktoru vəzifəsində işləyib. 1945-1949-cu illərdə ADPİ-nin Fizika -riyaziyyat fakültəsinin fizika bölməsində oxumuşdur. 1949-1953-cü illərdə Şamaxı rayonunun orta məktəblərində və pedaqoji texnikumda, 1953-1955-ci illərdə Bakı Neft Texnologiya Texnikumunda, 1955-1958-ci illərdə ADPİ-də müəllim işləmişdir. 1958-1961 -ci illərdə ADPİ-nin aspiranturasında oxumuşdur. 14 fevral 1964-cü ildə ADPİ-də "Orta məktəbdə fizika tədrisində kinoproyeksiya və digər proyeksiya növlərindən istifadənin metodikası və texnikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi yanında AAK tərəfindən 13 fevral 1965-ci ildə ona pedaqoji elmlər namizədi elmi dərəcəsi verilmişdir. Fizikanın tədrisi metodikası kafedrasında assistent (1961-1963), baş müəllim (1963-1966), dosent (1966-1975), professor (1975-2011) vəzifələrində çalışıb. 7 fevral 1967-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi yanında AAK tərəfindən ona dosent elmi adı verilib. 1973-cü ildə "Orta məktəbdə fizikanın tədrisində təlimin texniki vasitələrinin rolu, yeri və tətbiqi metodikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi yanında AAK tərəfindən ona 4 oktyabr 1974-cü ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi, 22 oktyabr 1976-cı ildə professor elmi adı verilib. 1976-2004-cü illərdə ADPU-nun Fizikanın tədrisi metodikası kafedrasının müdiri, 2004- 2012 -ci illərdə həmin kafedrada professor-məsləhətçi olmuşdur. 1984-cü ildə SSRİ PEA-nın müxbir üzvü, 1990-cı ildə SSRİ PEA-nın Rəyasət heyətinin üzvü, 1994-cü ildə Rusiya Təhsil Akademiyasının əcnəbi üzvü seçilmişdir. Azərbaycan Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Təbiət elmlərinin tədrisi metodikası və təlimin texniki vasitələri Elmi Metodik Şurasının və fizika və riyaziyyatın tədris metodikası üzrə Müdafiə Şurasının sədri olub.

1990-cı ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 2008-ci ildə Təhsil Nazirliyinin "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

12 nəfərin elmi rəhbəri, 23 nəfərin rəsmi opponenti olmuşdur. 34 kitab və kitabçanın, 11 proqramın, 80 elmi məqalənin, 23 tezisin, 15 qəzet məqaləsinin müəllifidir

2013-cü ildə Bakı şəhərində vəfat edib.

Arif Mehdi oğlu Quliyev

AMEA-nın müxbir üzvü,
texnika elmləri doktoru, professor
(1933)

15 dekabr 1933-cü ildə Füzuli rayonunun Gecə-Gözlü kəndində anadan olmuşdur. 1942-1946-cı illərdə Gecə-Gözlü kənd ibtidai məktəbində, 1946-1949-cu illərdə Yuxarı Əbdürrəhmanlı kənd yeddiillik məktəbində, 1949-1952-ci illərdə Füzuli şəhər 1 №-li orta məktəbində, 1952-1957-ci illərdə Azərbaycan Sənaye İnstitutunun Neft-mədən fakültəsində təhsil alıb. 1958-ci ilin iyul ayınadək Azərbaycan MEA-nın Neft Ekspedisiyasında böyük laborant və kiçik elmi işçi vəzifələrində çalışmışdır. Neft Ekspedisiyasının ləğvi ilə əlaqədar olaraq, o, 1958-1960-cı illərdə Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda kiçik elmi işçi və böyük mühəndis vəzifələrində işləmişdir.

Azərbaycan EA-nın Neft və Qaz Yataqlarının İşlənməsi İnstitutunun yaradılması iə əlaqədar olaraq, o, 1960-cı ildə bu instituta köçürülmüş və orada 1977-ci ilədək böyük mühəndis, kiçik elmi işçi, böyük elmi işçi və "Lay və quyuların tədqiqi" laboratoriyasının müdiri vəzifələrində işləmişdir. 1 mart 1963-cü ildə "Qaz-neft layının hidrodinamikasının bəzi məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 16 aprel 1966-cı ildə ona böyük elmi işçi elmi adı verilmişdir. 1974-cü ildə Moskvada "Çox saylı neft və qaz yataqlarının işlənməsinin qazohidrominamiki hesablama üsulları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 1 noyabr 1974-cü ildə texnika elmləri doktoru elmi dərəcəsi, 13 avqust 1977-ci ildə ona professor elmi adı verilmişdir.

1976-1985-ci illərdə ADPU-nun Ümumi texniki fənlər kafedrasının professoru və müdiri olmuşdur. 1985 -1996-cı illərdə DNQYPİ-da "Neft-qaz hasilatı inkişafının proqnozlaşdırılması, 1966 -2003-cü illərdə isə Neft yataqlarının işlənməsi və neft-qaz hasilatının proqnozlaşdırılması şöbəsinin müdiri olmuşdur. DNQYPİ ilə Geologiya İnstitutunun bazasında yeni institutun yaradılması ilə əlaqədar 2003-cü ildən 2016-cı ilədək həmin institutda Neft yataqlarının işlənməsi şöbəsinin müdiri vəzifəsində işləmişdir. 2016-cı ildən yeni yaradılmış AMEA Neft və Qaz İnstitutunun Neft-qaz sahələrinin iqtisadiyyatı və proqnozlaşdırılması şöbəsinin müdiri, 2018-ci ilin sentyabr ayından etibarən həmin institutun Kabrohidrogen yataqlarının işlənilməsinin texniki-texnoloji və iqtisadi problemləri şöbəsinin baş elmi işçisidir.

1989-cu ildə AMEA-nın müxbir üzvü seçilmişdir. 1981-ci ildə SSRİ ixtiraçısı adına layiq görülmüşdür. Arif Quliyev Amerika Neftçi-Mühəndislər Cəmiyyətinin, Azərbaycan Milli Geofizika Komitəsinin üzvüdür. Almaniya, Türkiyə, İran, Rusiya və s. ölkələrdə elmi konfranslarda iştirak və məruzələrlə çıxış etmiş, DNQYPİ-nin ABŞ-ın UNOKAL şirkətilə birgə layihəsinə əsasən ABŞ-da şirkətin əməkdaşları ilə birlikdə elmi-tədqiqat işləri aparmışdır.

245 elmi əsərin, o cümlədən 10 monoqrafiya və kitabın, neftqazçıxarma terminlərinin izahlı lüğətinin, SSRİ Neft və Qaz Sənaye Nazirlikləri, həmçinin "Azneft" və "Xəzərdənizneftqaz" İstehsalat Birlikləri tərəfindən təsdiq olunmuş və istehsalatda tətbiq olunan 6 "Rəhbər Sənəd"in, 12 ixtira və patentin müəllifidir. O, 4 elmlər doktoru və 14 elmlər namizədi hazırlamışdır.

SSRİ EA-nın "Neft-qaz yataqlarının işlənməsi" problemi üzrə Elmi Şurasının və AMEA-nın "Neftqazçıxarma" problemi üzrə Elmi Şurasının üzvü, "Yer haqqında elmlər" seriyası üzrə AMEA "Xəbərlər" jurnalının redaksiyasının üzvü və baş redaktorunun müavini, bir sıra ixtisaslaşdırılmış şuraların, SSRİ Maarif və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Metodika Şuralarının üzvü, Azərbaycan Sovet Ensiklopediyasının elmi məsləhətçisi olmuşdur. 2003-2011-ci illər ərzində o, Geologiya İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olmuşdur. 2011-2015-ci illər ərzində Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Yer elmləri üzrə komissiyasının sədri olmuşdur. ABŞ-ın nüfuzlu "Universal geofizika"jurnalının rəyçisi təyin olunub. ABŞ-ın "Yer elmləri", "Neft, qaz və kömür mühəndisliyi üzrə beynəlxalq jurnal" və "Enerji mühəndisliyi üzrə elmi jurnal"ların redaksiya heyətinin üzvüdür. "Şanlı əməyə görə" yubiley medalı və müxtəlif təşkilatlar tərəfindən Fəxri fərmanlarla təltif olunmuşdur.

İsgəndər Həsən oğlu Cəfərov
AMEA-nın müxbir üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor,
Əməkdar elm xadimi
(1940- 2015)

30 dekabr 1940-cı ildə İmişli rayonunun Əlipənahlı kəndində anadan olub. 1957-ci ildə Sarxanlı kənd orta məktəbini bitirib. 1957-1962-ci illərdə ADU-nun Fizika-riyaziyyat fakültəsində təhsil alıb. 1962-1965-ci illərdə Moskva Dövlət Universitetinin Nəzəri fizika kafedrasının aspirantı olub. 4 may 1966-cı ildə "О возможностях определения комплексных электромагнитных формфакторов и проверки применимости однофотонного приближения на опытах с поляризованными частицами" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1966-1969-cu illərdə Azərbaycan Politexnik İnstitutunun Fizika kafedrasında baş müəllim vəzifəsində çalışıb. 1969-1985-ci illərdə Azərbaycan EA-nın Fizika İnstitutunun nüvə fizikası laboratoriyasında baş elmi işçi və müdir vəzifəsində çalışıb. 1971-ci ildə ona böyük elmi işçi adı verilib. 1979-cu ildə Moskva Dövlət Universitetinin Dissertasiya Şurasında "Калибровочные ŞU (2) x U (1) – модели и слабое взаимодействие элементарных частиц" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1985-1989-cu illərdə Yusif Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutunun rektoru olub. 15 may 1987-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona professor elmi adı verilib.

Elementar zərrəciklər nəzəriyyəsi sayəsində tanınmış mütəxəssis olub. Elmi rəhbərliyi ilə 6 nəfər namizədlik, elmi məsləhətçiliyi ilə 2 nəfər doktorluq dissertasiyası müdafiə edib. 1989-1995-ci illərdə ADPU-nun Fizika fakültəsinin dekanı, 1995-2015-ci illərdə ADPU-nun Nəzəri fizika kafedrasının müdiri olub.

Naxçıvan KP Vilayət Komitəsinin üzvü, Naxçıvan şəhər Partiya Komitəsinin büro üzvü, Naxçıvan MSSR "Bilik" Cəmiyyətinin idarə heyətinin sədri, Azərbaycan KP XXXI qurultayının nümayəndəsi olub. Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın fizika-riyaziyyat elmləri üzrə Ekspert Şurasının üzvü, Təhsil Nazirliyinin Elmi-metodik Şurasının fizika bölməsinin sədr müavini, Fizika Cəmiyyətinin vitse-prezidenti, BDU-nun nəzdində fəa-

liyyət göstərən Müdafiə Şurasının, AMEA-nın yanında nüvə və elementar zərrəciklər fizikası problemləri üzrə Koordinasiya Şurasının, Astrofizika Cəmiyyətinin üzvü olub.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin, Təhsil Nazirliyinin Fəxri Fərmanları və "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilib. 2012-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb. 2014- cü ildə AMEA-nın müxbir üzvü seçilib.

Respublikanın və xarici ölkələrin nüfuzlu jurnallarında nəşr edilmiş 160 elmi əsərin, 1 dərslik, 4 dərs vəsaiti, 1 elmi-metodik vəsaitin, 3 elmi-kütləvi kitabın müəllifi olub.

7 yanvar 2015-ci ildə Bakı şəhərində vəfat etmişdir

Abdulla Oruc oğlu Mehrabov

Rusiya Təhsil Akademiyasının xarici üzvü,
fizika-riyaziyyat elmləri doktoru,
professor
Əməkdar müəllim
(1938-2015)

1938-ci il mayın 1-də Gürcüstan Respublikasının Bolnisi rayonunun Saraclı kəndində anadan olmuşdur. Natamam orta təhsilini kənddə, tam orta təhsilini Arxılıda alıb. 1957-ci ildə orta məktəbi qızıl medalla, 1962-ci ildə ADPİ-nin Fizika fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1962-1963-cü illərdə ADPİ-də İstehsalatın əsasları kafedrasında tədris ustası vəzifəsində çalışıb. 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunun Fizika kafedrasında pedaqoji fəaliyyətə başlayıb. Həmin il elmi staj keçmək məqsədilə Leninqrad Dəqiq Mexanika və Optika İnstitutunun istilik fizikası kafedrasına göndərilib. 1967-ci ildə "Qurğuşun-manqan ərintilərinin fiziki xassələrinin tədqiqi" mövzusunda namizədlik, 1983-cü ildə "Mürəkkəb həndəsi formalı sistemlərdə istilik ötürülməsinin bəzi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1967-1975- ci illərdə Azərbaycan Politexnik İnstitutunun Fizika kafedrasında assistent, baş müəllim, Fizika kafedrasının müdiri vəzifələrində işləmişdir. Azərbaycan İnşaat Mühəndisləri İnstitutu yarandıqda bu institutun Fizika kafedrasına rəhbərlik etmişdir. 1984-cü ildə professor elmi adı alıb. Bərk cisimlər fizikası, istilik fizika-

sı və molekulyar fizika ixtisasları üzrə tanınmış alimdir. Elmi rəhbərliyi ilə 12 elmlər doktoru, 29 elmlər namizədi hazırlanmışdır.

Xalq təhsili nazirinin müavini (1989-1992), Azərbaycan İnşaat Mühəndisləri Universitetində rektor əvəzi, birinci prorektor – tədris-tərbiyə işləri üzrə prorektor (1992- 2000), 2001-2013-cü illərdə Təhsil Problemləri İnstitutunun direktoru, 2013-2015-ci illərdə ADPU-nun "Pedaqoji təhsilin problemləri" elmi-tədqiqat laboratoriyasının müdiri vəzifələrində çalışmışdır. 1992-ci ildə Nyu-York Elmlər Akademiyası və Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmişdir. "Tərəqqi" medalı (2005) ilə təltif olunmuş, Əməkdar müəllim fəxri adına (2006) layiq görülmüşdür. 500-dən çox məqalənin, 56 elmi-metodik vəsaitin, 13 dərslik və dərs vəsaitinin, 14 monoqrafiya və kitabın, 15 ixtiranın müəllifi olmuşdur. 2004-cü ildə Rusiya Təhsil Akademiyasının əcnəbi üzvü seçilmiş, 2006-cı ildə Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

30 may 2015-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Rəhim bəy Mehrəli bəy oğlu Məlikov

professor

(1886-1936)

20 aprel 1886-cı ildə Göyçay qəzasının Zərdab kəndində anadan olmuşdur. 7 yaşında olanda atası Mehrəli bəy ermənilər tərəfindən öldürülmüşdür. Əmisi Həsən bəy Zərdabinin himayəsində yaşamışdır. 1906-cı ildə Bakı realni gimnaziyasını bitirmiş, Kazan Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1912-1923-cü illərdə R.Məlikov Şimali Qafqazın Nalçik, Mozdok, Qroznı, Pyatiqorsk şəhərlərində müəllimlik etmişdir. 1920-1923-cü illərdə Pyatiqorsk şəhərində Xalq Universitetində, Birinci dərəcəli nümunə məktəbində və hazırlıq kurslarında müəllim işləmişdir. Bakıya qayıtdıqdan sonra Azərbaycan Ali Pedaqoji İnstitutunda, Azərbaycan Dövlət Universitetində, Politexnik və Ticarət İnstitutlarında, müxtəlif texnikumlarda, ixtisasartırma kurslarında, fəhlə fakültələrində fizikadan, həndəsədən və riyaziyyatdan dərs demiş, Azərbaycan dilində dərs vəsaitləri, proqramlar hazırlamışdır. 1930-1936-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunun Fizika kafedrasının müdiri olmuşdur. O zaman Azər-

baycanda işləyən və R.Məlikovdan sonra həmin kafedraya rəhbərlik edən prof. V.Tixomirov 1937-ci ildə R.Məlikovun elmi-pedaqoji fəaliyyəti haqqında yazmışdır: "O bizim cəmiyyətimizin qarşısında və Azərbaycanda ali türk təhsili məsələsində daşıdığı məsuliyyəti hiss edirdi... Rəhim bəyin zəhməti bəhrə verməyə başlamışdır. Hazırda bizim bir sıra azərbaycanlı fiziklərimiz yetişmişdir ki, onların hamısı R.Məlikovun tələbəsi hesab olunurlar". O, yeniyetmə yaşlarından milli ədəbiyyatı dərindən öyrənmiş, teatr həyatı ilə bağlı dövri mətbuatda silsilə məqalələrlə çıxış etmişdir. "Molla Nəsrəddin" jurnalında "Bayquş" imzası ilə müxbir məktubları dərc etdirmişdir. Realist Azərbaycan ədəbiyyatı nümunələrindən rus dilinə tərcümələr etmişdir. Azərbaycan dilində istilik fizikasına dair dərslik yazan (əlyazma şəklində) müəllif kimi də tarixə düşmüşdür. O, fizika və riyaziyyata dair terminlər lüğəti və proqramlar tərtib etmişdir. 1930-cu ildə ADPİ-nin Elmi Şurasında dosent, 1935-ci ildə isə professor vəzifəsinə seçilmişdir.

23 fevral 1936-cı ildə ADU-da mühazirə oxuyarkən qəflətən vəfat etmişdir.



Bəhram Rüstəm oğlu Mirzəyev

Əməkdar elm xadimi, professor

(1891-1974)

16 aprel 1891-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Atası Rüstəm bəy rus ordusunun polkovniki olub. Şuşa realni məktəbində təhsil alıb. 1905-1906-cı illərdə Şuşada ermənilərin törətdiyi qırğın onun təhsilini yarımçıq qoymasına səbəb olub. Təhsilini davam etdirmək üçün digər həmyerliləri kimi Bakı realni məktəbinə dəyişdirilib. 1909-cu ildə Bakı realni məktəbini bitirərək Peterburq Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olub və oranı 1916-cı ildə başa vurub. Bir müddət Peterburqda və Donetsk vilayətində pedaqoji fəaliyyətlə məşğul olub. 1917-ci ilin oktyabr ayında Donetsk vilayətinin Drujovski şəhərindəki zavodların nəzarətində məktəb kombinatının təşkilatçı-müdir vəzifəsinə təyin olunub. Burada o, 1918-ci ilin yanvarına kimi üç məktəb açmağa nail olub. 1919- 1921-ci illərdə hərbi xidmətdə olub. 1921-ci ilin axırlarında Bakıya gəlib. Bakı Xalq Maarif Şöbəsinin 2 №-li məktəbində pedaqoji fəaliyyətə (1922) başlayıb. Az sonra Azərbaycan Dövlət Universitetinə dəvət olunub.

1923-cü ildə Ali Pedaqoji İnstitutunda fizika və riyaziyyat fənlərini tədris etməyə başlayıb. Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsində Azərbaycan dilində optikaya dair ilk mühazirəni o deyib.1930-cu ildə ona dosent elmi adı verilib. Azərbaycan Tibb İnstitutunda Fizika kafedrasının təşkili, ADU-da xüsusi laboratoriyaların, nümayiş muzeyinin, fizika kabinetinin yaradılması onun adı ilə bağlıdır. 30-cu illərdə "Molekulyar fizika" (1933)." Fizikadan praktikum" (1935) kitabları nəşr olunub. Elmi uğurlarına görə ona fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi verilib, 1941-ci ildə Təcrübi fizika kafedrasına müdir təyin olunub. 1960-1970 -ci illərdə Yarımkeçiricilər fizikası kafedrasının müdiri olmuşdur. 1969-cu ildə ona professor elmi adı verilib. 50-dən çox elmi əsərin, 2 ixtiranın, "Molekulyar fizika" (1933)." Fizikadan praktikum" (1935) dərsliklərinin müəllifidir. 1954-cü ildə "Lenin" ordeninə,1969-cu ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb. Azərbaycan SSR Ali Sovetinin "Fəxri Fərmanı" ilə təltif olunub. 1991-ci ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsində görkəmli alimin anadan olmasınının 100 illiyi yüksək səviyyədə qeyd olunmuşdur.

1974-cü ildə Bakı şəhərində vəfat edib.

Ələkbər Məcid oğlu Kərimov
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1912-1982)

20 aprel 1912-ci ildə Qəbələ rayonunun Qutqaşen kəndində (Cuxur Qəbələ kəndi) anadan olmuşdur. 1926-cı ildə kənd məktəbini bitirərək Şəki Pedaqoji Texnikumuna daxil olmuşdur. 1930-1931-ci illərdə doğma kəndlərində ibtidai məktəb müəllimi işləyib. 1931-1934-cü illərdə də V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsinin fizika şöbəsində oxumuşdur. Bakı şəhərindəki 10 №-li məktəbdə müəllim işləməklə bərabər M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda təhsil almış, 1939-cu ildə həmin institutu da bitirmişdir. 1939-1942-ci illərdə Müəllimləri Təkmilləşdirmə İnstitutunda elmi işçi vəzifəsində işləmişdir. 1942-1945-ci illərdə müharibəyə səfərbər olunub. 1945-1950-ci illərdə Azərbaycan Tibb İnstitutunun Fizika kafedrasında assistent işləyib. 1951-1953-cü illərdə Azərbaycan

EA-nın Fizika İnstitutunun aspiranturasında oxuyub. 24 aprel 1958-ci ildə N.K.Krupskaya adına Moskva Pedaqoji İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edib. 8 iyul 1959-cu ildə SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən ona fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi verilib. İstilik fizikası sahəsində fundamental tədqiqat işləri aparmışdır. 1958-1963-cü illərdə o, SSRİ EA-nın Dağıstan filialının fiziki termodinamika laboratoriyasına rəhbərlik etmişdir. 1965-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Həmin dissertasiya SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 5 mart 1966-cı ildə təsdiq olunub. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 17 oktyabr 1961-ci ildə ona eksperimental fizika ixtisası üzrə baş elmi işçi, 5 may 1971-ci ildə Teplofizika ixtisası üzrə professor elmi adı verilib.

1963-1975-ci illərdə Azərbaycan EA-nın Energetika İnstitutunda laboratoriya müdiri olub. 1975-1976-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunun Ümumi texniki fənlər kafedrasına, 1976-1981-ci ildə Eksperimental və nəzəri fizika kafedrasına rəhbərlik edib. 1976-1981-ci illərdə Fizika fakültəsinin dekanı vəzifəsində çalışıb.

SSRİ EA istilik fizikası kompleks problemləri elmi sovetinin, SSRİ-nin Beynəlxalq Energetika Birliyi Komitəsinin, su və su buxarının xassələri üzrə Sovet Milli Komitəsinin, Azərbaycan EA-nın fizika problemləri və energetika üzrə kompleks problemləri Elmi sovetlərinin üzvü olmuşdur. Elmi rəhbərliyi ilə 9 nəfər elmlər namizədi, 5 nəfər elmlər doktoru yetişmişdir. O, 200-dən çox elmi əsərin müəllifidir.

"V.İ.Leninin anadan olmasının 100 illiyi" yubiley medalı, müxtəlif təşkilatların "Fəxri fərmanlar"ı və "Energetika əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.

21 aprel 1982-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Kərim Pənah oğlu Məmmədov

fizika-riyaziyyat elmləri doktoru, professor

(1916-1987)

1916-cı ildə Ucar rayonunun Danabatan kəndində anadan olmuşdur. 7 illik təhsilini doğma kəndlərində almışdır. Bakıda Rabitə Elektrik Texnikumunu bitirmişdir. 1934-1936-cı illərdə Bərdə rayonunun rabitə qovşağında fəaliyyət göstərmişdir. 1936-1941 -ci illərdə ADU-nun Fizika fakültəsində oxumuşdur. 1941-ci ildə müharibəyə səfərbər olunmuş, 1946-cı ilə kimi Sovet

Ordusu sıralarında döyüşlərdə iştirak etmişdir. 1946-cı ildə Bakıda Qubkin adına Geodeziya İnstitutunun aspiranturasına qəbul olunmuşdur. Aspirantura illərində Moskva Dövlət Universitetinin Rentgenoqrafiya laboratoriyasına ezam edilmişdir. 1950-ci ilin mart ayında MDU-da namizədlik dissertasiyası müdafiə etmişdir. Dissertasiyada kub şəkilli kristallarda rentgen şüalarının səpilməsinə atomun analizatorluğunun təsiri tədqiq olumuşdur.

Azərbaycan EA-nın Fizika-Riyaziyyat İnstitutunun Rentgenoqrafiya laboratoriyasında baş elmi işçi və müdir vəzifələrində çalışıb. Burada Moskvada başladığı tədqiqatlarını davam etdirmiş, kub şəkilli alüminium və almaz kristallarını tədqiq edərək kristal qəfəsində elektron sıxlığının paylanma mənzərəsini müəyyənləşdirmiş və burada kimyəvi əlaqənin təbiətini aydınlaşdırmışdır. 1967-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Odessa Dənizçilik Məktəbinin Bakı filialında, Bakı Dövlət Universitetində fizikanın xüsusi kurslarından mühazirələr oxumuşdur. 1978-ci ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elektrik və optika kafedrasının müdiri və professoru vəzifəsinə seçilmiş, ömrünün sonuna kimi həmin vəzifədə çalışmışdır.

"Rentgen-quruluş təhlilinin əsasları" (1958), "Rentgen şüaları və onların tətbiqi" (1965), "Fizika nə öyrədir" (1975), üç hissədən ibarət "Optika" (X.Xəlilovla birlikdə) (1979, 1980, 1981) və "Optika və atom fizikası" (1986) dərs vəsaitlərinin və onlarla elmi məqalənin müəllifidir.

20 noyabr 1987-ci ildə qəflətən vəfat etmişdir.

Baba Aqil oğlu Haqverdiyev

fizika-riyaziyyat elmləri namizədi, professor
(1925- 2003)

22 mart 1925-ci ildə İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olub. 1941-ci ildə Gəncədəki M.Ə.Sabir adına 5 №-li orta məktəbi bitirib. 1941-1949-cu illərdə ADU-nun Fizika-riyaziyyat fakültəsinin fizika ixtisasında təhsil alıb. 1942-1945-ci illərdə müharibədə iştirak edib.1949-1950-ci illərdə Qazax ikiillik Müəllimlər İnstitutunda baş müəllim işləyib. 1950-



1953-cü illərdə V.İ.Lenin adına ADPİ-nin aspiranturasında təhsil alıb. 9 oktyabr 1951-ci ildə Fizika kafedrasına assistent təyin olunub. 19 iyun 1959-cu ildə ADPİ-nin Elmi Şurasında "Исследование некоторых физических своиств нефтянных фракции нефти Бакинского месторождения" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 10 sentyabr 1963-cü ildə Ümumi və nəzəri fizika kafedrasına dosent vəzifəsinə seçilib. Fizika fakültəsində "İxtisas praktikumu" laboratoriyasının yaradılması onun adı ilə bağlıdır. 80-ə yaxın elmi məqalənin, 1 dərs vəsaitinin ("İxtisas praktikumu üzrə laboratoriya işləri") və 1 elmi-populyar kitabın ("Maraqlı səth hadisələri") müəllifidir. Doktorluq dissertasiyası üzərində işləmiş, onunla bağlı xeyli elmi məqalə nəşr etdirmişdir. Lakin həmin dissertasiya işini müdafiə etməmişdir. 23 iyul 1993-cü ildə Rusiya Federasiyası Elm və Ali Məktəb və Texniki Siyasət Nazirliyinin nəzdində AAK tərəfindən ona professor elmi adı verilib. 3 iyul 1995-ci ildə Elektrik və optika kafedrasına professor vəzifəsinə seçilib. 2002-ci ildə həmin kafedraya professor-məsləhətçi təyin olunub.

"Qırmızı Ulduz" ordeni ,"İgidliyə görə", "Almaniya üzərində qələbəyə görə" medalları və "Maarif əlaçısı" döş nişanı ilə təltif olunub.

26 fevral 2003-cü ildə Bakı şəhərində vəfat edib.

Əbülfət Həbib oğlu Rüstəmov

fizika-riyaziyyat elmləri doktoru, professor

(1929-1993)

1929-cu il dekabr ayının 15-də Şuşa şəhərində anadan olub. 1938-1948-ci illərdə Şuşa şəhər 1 №-li ümumtəhsil məktəbində oxuyub. 1948-1949-cu illərdə Şuşa ibtidai məktəbində müəllim, 1949-1950-ci illərdə Şuşanın Nəbilər kəndindəki ibtidai məktəbdə müəllim işləyib. 1950-1954-cü illərdə V.İ.Lenin adına ADPİ-

nin Fizika-riyaziyyat fakültəsində təhsil alıb. 1954-1958-ci illərdə Xankəndi şəhərində 4 №-li orta məktəbdə, 1958-1960-cı illərdə Bakı şəhərinin 73 №-li orta məktəbində fizika müəllimi işləyib. 1960-1963-cü illərdə Azərbaycan EA-nın Fizika İnstitutunda Maqnit yarımkeçiriciləri ixtisası üzrə aspiranturada təhsil alıb. Aspiranturanı SSRİ EA-nın Sverdlovsk Metallar Fizikası İnstitutunda başa vurub.

1965-ci ildə S.M.Kirov adına ADU-nun Elmi Şurasında "Tərkibində ikivalentli dəmirin dəyişdiyi ferrit şpinellərdə elektrikkeçirmə mexanizminin və elektron spektrinin strukturasının tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 3 noyabr 1965-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən AAK onun elmi dərəcəsini təsdiq edib. 1965-1969-cu illərdə Azərbaycan EA-nın Fizika İnstitutunda laboratoriya müdiri vəzifəsində işləyib.

1968-ci ildə Azərbaycan EA Rəyasət heyətinin qərarı ilə ona baş elmi işçi adı verilib. 1969-cu ildən ömrünün sonuna kimi V.İ.Lenin adına ADPİ-də elmi-pedaqoji fəaliyyətlə məşğul olub.1970-ci ildə ADPİ-nin Ümumi fizika və astronomiya kafedrasına dosent vəzifəsinə seçilib. 3 sentyabr 1971-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən AAK ona Ümumi fizika və astronomiya kafedrası üzrə dosent elmi adı verib. 1972-1974-cü illərdə doktorluq dissertasiyası üzərində çalışdığına görə 2 illik elmi ezamiyyətdə olub.

26 mart 1974-cü ildə SSRİ EA-nın Metallar Fizikası İnstitutunda (Sverdlovsk şəhəri) "Güclü elektronlararası korrelasiyaya malik kristallarda elektrik keçiriciliyinin tədqiqi" mövzusunda (01.04.07-Bərk cisim fizikası ixtisası üzrə) doktorluq dissertasiyası müdafiə edib. 10 dekabr 1976-cı ildə SSRİ Nazirlər Soveti yanında AAK-sı onun fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini təsdiq edib. 15 noyabr 1977-ci ildə V.İ.Lenin adına ADPİ-nin Elektrik və optika kafedrasına professor vəzifəsinə seçilib. 1978-1982-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Ümumi texniki fənlər (ÜTF) fakültəsinin dekanı vəzifəsində çalışıb.

1982-1983-cü illərdə V.İ.Lenin adına APİ-nin Elektronika və optika kafedrasının professoru olub. 1983-cü ildə ADPİ-nin Mexanika və molekulyar fizika kafedrasına müdir vəzifəsinə təyin olunub. 20 aprel 1979-cu ildə SSRİ Nazirlər Soveti yanında AAK Elektronika və optika kafedrası üzrə ona professor elmi adı verib.

12 iyun 1990-cı ildən 26 oktyabr 1992-ci ilə qədər ADPU-nun Şuşa fakültəsində yeni yaradılan Fizika və ÜTF kafedrasının müdiri vəzifəsində çalışıb. 1 noyabr 1993-cü ildə yenidən ADPU-nun Ümumi fizika kafedrasına

professor vəzifəsinə təyin edilib, ömrünün sonuna qədər həmin vəzifədə çalışıb. Elmi rəhbərliyi ilə 7 nəfər fizika-riyaziyyat elmləri namizədi, 1 nəfər elmlər doktoru dissertasiyası müdafiə edib. "Maqnetizmə aid mühazirələr" (1987), Elektrik bəhsi" (1985) dərs vəsaitlərinin və 120-dən artıq elmi məqalənin müəllifidir. O, "Maarif əlaçısı" döş nişanı və "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

29 noyabr 1993-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ramiz Əli Oğlu Mustafayev
texnika elmləri doktoru, professor
Dövlət mükafatı laureatı
(1932-1996)

1932-ci ildə Sabirabad şəhərində anadan olmuşdur. Orta təhsilini Sabirabadda, ali təhsilini ADU-nun Fizika-riyaziyyat fakültəsində (1949-1954) almışdır. Azərbaycan EA-nın Fizika İnstitutunda kiçik elmi işçi kimi elmi fəaliyyətə başlamışdır. 1955-ci ildə ADPİ-nin aspiranturasına daxil olmuş, Prof.A.Abaszadənin rəhbərliyi ilə texniki yağların istilik keçirməsi ilə bağlı araşdırmalar aparmış, tədqiqat üçün Azərbaycanda yeni olan kürəvi biokalorimetr metodundan istifadə etmişdir. 1961-ci ildə namizədlik, 1974-cü ildə "Yüksək hal parametrlərində üzvi mayelərin və onların buxarlarının istilik fiziki xassələrinin tədqiqi metodları və aparatları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1958-1974-cü illərdə ADPİ-nin Fizika kafedrasında baş müəllim, dosent vəzifələrində işləmiş, 1975-1996 -cı illərdə Azərbaycan Texniki Universitetinin Fizika kafedrasına və "Yüksək temperaturlar istilik fizikası" elmi-tədqiqat problem laboratoriyasına rəhbərlik etmişdir. Onun elmi nəticələri ABŞ, Fransa və SSRİ-də keçirilən beynəlxalq elmi konfrans və konqreslərdə müzakirə edilmişdir. Moskvada nəşr olunan "Karbohidrogenlərin yüksək hal parametrlərində istilik- fiziki xassələri" (1980,1991) adlı monoqrafiyasının, SSRİ-nin və xarici ölkələrin nüfuzlu jurnallarında çap olunmuş 250-dən artıq elmi məqalənin müəllifidir. V.Krivsovla birgə yazdığı "Fizika" dərsliyi Moskvada nəşr edilmişdir. 1984-cü ildə elm və texnika üzrə Azərbaycan Respub-

likası Dövlət Mükafatına layiq görülmüşdür. Elmi rəhbərliyi ilə 10 namizədlik və 2 doktorluq dissertasiyası müdafiə edilmişdir.

1996-cı ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Azərbaycan EA-nın "Fizika problemləri" Elmi Şurasının, habelə SSRİ EA-nın Termodinamik cədvəllər üzrə hökumət komissiyasının işçi qrupunun üzvü olmuşdur.

20 avqust 1996-cı ildə Bakıda vəfat etmişdir.

Bəşir Abbas oğlu Bəşirov
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1934-1998)

1934-cü ildə Masallı rayonunun Çaxırlı kəndində anadan olub. 1941-1948-ci illərdə Çaxırlı kənd yeddiillik məktəbində, 1948-1951-ci illərdə Masallı 1 №-li orta məktəbində oxuyub. 1951-1955-ci illərdə ADPİ-nin fizika-riyaziyyat fakültəsində ali təhsil alıb. 1955-1958-ci illərdə Masallı rayonu, Təzə Alvadı kəndində, 1958-1961-ci illərdə Bakı şəhəri 25 №-li orta məktəbdə müəllim işləyib. 1961-1964-cü illərdə ADPİ-nin aspirantura-sında təhsil alıb. 1965-ci ildə Y.Məmmədəliyev adına Neft və Kimya Prosesləri İnstitutunda laborant vəzifəsində çalışıb. 1965-ci ilin sentyabr ayında ADPU-nun Ümumi fizika kafedrasına müəllim təyin edilib. 23 dekabr 1966-cı ildə Y.Məmmədəliyev adına Neft və Kimya Prosesləri İnstitutunun Birləşmiş Sovetində "İonlaşdırıcı şüalanmanın bəzi polimerlər və kopolimerlərin istilik parametrlərinə təsirinin təcrübi tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 3 may 1967-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi verilib. 1964-1968-ci illərdə ADPİ-nin Fizika kafedrasında müəllim işləyib. 29 mart 1968-ci ildə Eksperimental və nəzəri fizika kafedrasına baş müəllim, 24 sentyabr 1969-cu ildə isə dosent vəzifəsinə seçilib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında Ali Attestasiya Komissiyası tərəfindən 27 avqust 1971-ci ildə ona dosent elmi adı verilib. 1988-ci ilin fevral ayının 18-də doktorluq dissertasiyası müdafiə edib. SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyası tərəfindən 19 avqust 1988-ci ildə

ona fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi verilib. 27 dekabr 1988-ci ildə Mexanika-molekulyar fizika kafedrasına professor vəzifəsinə seçilib. 26 iyul 1990-cı ildə SSRİ Xalq Təhsili Komitəsi yanında AAK tərəfindən ona professor elmi adı verilib. 1990-1998-ci illərdə ADPU-nun Mexanika-molekulyar fizika kafedrasının müdiri olub.

"Polimerlər fizikası" (1988) kitabının, 70-dən artıq elmi məqalənin müəllifidir.

1998-ci ildə Bakı şəhərində vəfat edib.



Mikayıl Muxtar oğlu Əliyev
fizika-riyaziyyat elmləri doktoru, professor
(1934-2000)

2 yanvar 1934-cü ildə Şamxor (Şəmkir) rayonunun III Beynəlmiləl kəndində anadan olmuşdur. 1940-1947-ci illərdə III Beynəlmiləl kənd 7 illik məktəbində, 1948-1951-ci illərdə Gəncə Pedaqoji Məktəbində, 1951-1955-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsində oxumuşdur.

1955-1956-cı illərdə ADPİ-nin Fizika kafedrasında baş laborant vəzifəsində işləmişdir. 1956-1959-cu illərdə ADPİ-nin Fizika kafedrasının aspirantı olmuşdur. Aspiranturanı bitirdikdən sonra ADPİ-nin Fizika kafedrasında müəllim (1959-1964), Ümumi fizika və astronomiya kafedrasında baş müəllim (1964-1975), Elektrik və optika kafedrasında dosent (1975-1983) vəzifələrində çalışmışdır. 20 iyun 1974-cü ildə Azərbaycan EA-nın Fizika İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən 2 iyul 1974-cü ildə ona fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi, 26 yanvar 1977-ci ildə isə Ümumi fizika və astronomiya kafedrası üzrə dosent elmi adı verilmişdir.

1983-1988-ci illərdə ADPİ-nin Fizika fakültəsinin, 1996-1998-ci illərdə İxtisasartırma və yenidənhazırlanma fakültəsinin dekanı vəzifələrində işləmişdir. 24 fevral 1989-cu ildə ADPİ-nin Elektrik və optika kafedrasına professor vəzifəsinə seçilmişdir. SSRİ Dövlət Xalq Təhsili Komitəsi tərəfindən 2 oktyabr 1991-ci ildə həmin kafedra üzrə ona professor elmi adı verilmişdir.

Azərbaycan SSR Maarif Nazirliyinin və "Bilik" Cəmiyyətinin "Fəxri fərman"ları, 2 dəfə (1977 və 1981) "Sosializm yarışının qalibi" və "Qabaqcıl maarif xadimi" döş nişanları ilə təltif olunmuşdur.

9 aprel 2000-ci ildə Bakı şəhərində vəfat etmişdir

Mirzəli İsmayıl oğlu Murquzov
fizika-riyaziyyat elmləri doktoru,
professor,
Əməkdar müəllim
(1937)

1 aprel 1937-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olmuşdur. Orta təhsilini doğma kəndlərində almışdır. 1956-1962-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsində oxumuşdur. 1963-cü ildə Azərbaycan EA-nın Qeyri-üzvi və Üzvi Kimya İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamışdır. 1964-1967-ci illərdə Ukrayna EA-nın Materialşünaslıq İnstitutunun aspiranturasında təhsil almışdır. 1967-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1969-cu ildə ADPİ-nin Ümumi fizika və astronomiya kafedrasına baş müəllim vəzifəsinə seçilmişdir. 1981-ci ildə V.Kansukas adına Vilnüs Dövlət Universitetinin Müdafiə Şurasında "Lantanoidlərin iştirakı ilə mürəkkəb yarımkeçiricilərdə valent elektronların vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1982-1996-cı illərdə ADPİ-nin Elektrik və optika kafedrasının müdiri vəzifəsində çalışıb. Kafedranın nəzdindəki Nadir torpaq metalları fizikası elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib. 1996-2016-cı illərdə ADPU-nun Fizika fakültəsinin dekanı vəzifəsində çalışıb. Ali və orta məktəblər üçün 8 dərsliyin, 250-dən artıq elmi əsərin müəllifidir. Elmi rəhbərliyi ilə 11 nəfər namizədlik dissertasiyası müdafiə edib, 2 elmlər doktorunun elmi məsləhətçisi olub. Onun 10-dan artıq elmi işi SSRİ Dövlət Komitəsinin "Müəlliflik şəhadətnaməsi"nə layiq görülmüşdür. ADPU-nun nəzdində Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi və təlim-tərbiyənin nəzəriyyəsi ixtisası üzrə fəaliyyət göstərən Dissertasiya Şurasının (2009-2016) üzvü olub. Respublika Təhsil Şurası sədrinin müavini, respublika Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının Fizika bölməsinin sədri, məktəblilərin fizika fənni üzrə Respublika Olimpiadasının münsiflər heyəti-

nin sədri, TQDK fizika fənni üzrə ekspert komissiyasının sədri, "Təhsil sektorunun inkişafı" layihəsi çərçivəsində ümumtəhsil məktəbləri üçün fizika fənninin kurikulumunu hazırlayan işçi qrupunun sədri olub. 2005-ci ildə ona Əməkdar müəllim fəxri adı verilib. 2006-cı ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Kamal Dadaş oğlu Hüseynov
fizika-riyaziyyat elmləri doktoru, professor
(1937-2015)

28 avqust 1937-ci ildə Qazıməmməd rayonunun Xıdırlı kəndində anadan olub. 1953-cü ildə Xıdırlı kənd yeddiillik məktəbini, 1956-cı ildə Ələt stansiyasındakı orta məktəbi bitirib. 1957-1962-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsində təhsil alıb. Əmək fəaliyyətinə Əlibayramlı şəhər 1 №-li məktəbində dərs hissə müdiri kimi başlayıb. 1962-1965-ci illərdə V.İ.Lenin adına ADPİ-nin əyani aspirantı olub. Aspiranturanı bitirdikdən sonra Eksperimental və nəzəri fizika kafedrasına assistent təyin olunub. 1965-1968-ci illərdə həmin kafedrada baş müəllim, 1968-1976-cı illərdə dosent vəzifəsində çalışıb. 1965-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb. 28 iyul 1971-ci ildə ona Eksperimental və nəzəri fizika kafedrası üzrə dosent elmi adı verilib. 1972-1981-ci illərdə ADPİ-də əvəzçiliklə elmi-tədqiqat şöbəsinə rəhbərlik edib. Doktorluq dissertasiyası üzərində işləməsi ilə əlaqədar olaraq 1977-1979-cu illərdə elmi ezamiyyətdə olub.1979-cu ildə istilik texnikasının nəzəri əsasları ixtisası üzrə doktorluq dissertasiyası müdafiə edib. 27 iyun 1980-ci ildə SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona texnika elmləri doktoru elmi dərəcəsi, 15 oktyabr 1982-ci ildə professor elmi adı verilib. 1980-2013-cü illərdə Mexanika və molekulyar fizika kafedrasının professoru olub. 1981-1983-cü illərdə ADPİ-nin Fizika fakültəsinin dekanı, 1983-1989-cu illərdə ADPİ-nin elmi işlər üzrə prorektoru,1989-1999-cu illərdə Mühəndis-pedaqoji fakültənin dekanı vəzifələrində çalışıb. 26 dekabr 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif olunub.

İstilik fizikası ilə bağlı 2 monoqrafiya, 2 dərslik və 110 elmi məqalənin müəllifi olub. Elmi rəhbərliyi ilə 16 nəfər namizədlik dissertasiyası müdafiə edib.

2015-ci ildə Bakı şəhərində vəfat edib.

Bəkir Bahadur oğlu Quliyev
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1938- 2016)

20 mart 1938-ci ildə Cəbrayıl rayonunun Quycaq kəndində anadan olmuşdur. 1945-1952-ci illərdə Quycaq kənd yeddiillik məktəbində,1952-1955-ci illərdə M.Qorki adına Cəbrayıl orta məktəbində, 1955-1960-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsində oxumuşdur. 1962-1965-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunun aspiranturasında təhsil alıb. Akademik Həsən Abdullayevin rəhbərliyi ilə 1967-ci ildə Elmi Şuranın iclasında "Yarımkeçirici amorf selenin molekulyar strukturasının öyrənilməsi" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi alıb.

Azərbaycan EA-da laborant, kiçik elmi işçi vəzifələrində işləmişdir. 1971-ci ildə ADPİ-nin Fizika fakültəsində pedaqoji fəaliyyətini davam etdirmişdir. Burada baş müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdır. 1975-1995-ci illərdə təşəbbüsü ilə yaradılan "Nazik təbəqələr" elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir. ABŞ-ın Rutqers Universitetinin professoru B.Laleviç dörd ay bu laboratoriyada işləmişdir.

1972-1973-cü illərdə ABŞ-ın Prinston Universitetində, 1980-1981-ci illərdə ABŞ-ın Rutqers Universitetindəki Bərk cisimlər elektronikası laboratoriyasında elmi araşdırma aparmış, 1992-ci ildə 5 ay Kanadada elmi ezamiyyətdə olmuşdur.

1985 -ci ildə Moskvada Kurçatov adına Atom Enerjisi İnstitutunda "Səthi baryerli yarımkeçirici strukturlar əsasında yaradılan yeni tip qaz və kimyəvi sensor cihazların fizikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır. 1988-ci ildə ona professor elmi adı verilmişdir. 1991-ci ildə ADPU-nun Ümumi fizika kafedrasına müdir seçilmişdir. 1995-2003-cü illərdə Türkiyə Respublikasında işləmişdir. 2004-2008-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Fizika-riyaziyyat və iqtisadiyyat bölməsinin müdiri olmuşdur.

2014-2016-cı illərdə Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində aparıcı mütəxəssis vəzifəsində işləmişdir.

SSRİ, ABŞ, Almaniya, Belçika, İngiltərə, İsveçrə, Macarıstan, Hollandiya, Fransa, Çexoslovakiya, Türkiyə, Səudiyyə Ərəbistanı və başqa ölkələrdə keçirilən beynəlxalq konfranslarda 120-dən çox məruzə etmişdir. 4 kitabın, onlarla elmi məqalənin və 4 ixtiranın müəllifidir.

1994-cü ildə Beynəlxalq EKO Enerjisi Akademiyasına, 1996-cı ildə Rusiya Federasiyasının Mühəndis Elmlər Akademiyasına, 1999-cu ildə Nyu-York Elmlər Akademiyasına üzv seçilmişdir. 2001-2003-cü illərdə Amerikada çap olunan ensiklopediyada tərcümeyi-halı verilmişdi.

28 aprel 2016-cı ildə Bakıda vəfat etmişdir.

Qaryağdı İsfəndiyar oğlu Səfərəliyev
fizika-riyaziyyat elmləri doktoru,
professor
(1938-2008)

17 may 1938-ci ildə Qəbələ rayonunun Həmzəlli kəndində anadan olmuşdur. Yeddiillik təhsilini Həmzəlli kəndində, orta təhsilini Bum kəndində almışdır. 1957-1962-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinin fizika və istehsalatın əsasları şöbəsində, 1962-1965-ci illərdə Azərbaycan EA-nın Fizika İnstitutunda "Yarımkeçiricilər fizikası" ixtisası üzrə aspiranturada oxumuşdur.1967-ci ildə həmin institutun Elmi Şurasında "Qallium antimonidində yükdaşıyıcıların və fotonların səpilməsi proseslərinin tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Pedaqoji fəaliyyətə ADPİ-nin Fizika və astronomiya kafedrasında başlamışdır. 1968-1971-ci illərdə həmin kafedrada müəllim, 1971- 1986-cı illərdə dosent vəzifəsində çalışmışdır. 1972-1974-cü illərdə doktorluq dissertasiyası üzərində işləməsi ilə əlaqədar olaraq Moskva, Leninqrad və Kiyev şəhərlərindəki elmi tədqiqat mərkəzlərində ezamiyyətdə olmuşdur. 1984-cü ildə Azərbaycan EA-nın Fizika İnstitutunun Elmi Şurasında "Aşqarlanmış qalliumantimonidində və onun əsasında alınmış maqnit-nizamlanmış və istiqamətli düzülüşlü ərintilərdə elektron və foton prosesləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1986-cı ildə ADPİ-nin Elektrik və optika kafedrasına professor vəzifəsinə seçilmişdir. 1987-1992-ci illərdə Nəzəri fizika və astronomiya kafedrasının

müdiri və professoru vəzifəsində çalışmışdır. 1992-2008-ci illərdə Elektrik və optika kafedrasının professoru olmuşdur. 1996- cı ildən əvəzçiliklə Azərbaycan Milli Aviasiya Akademiyasında çalışmışdır. 1994-cü ildə Nyu-York Akademiyasının həqiqi üzvü seçilmişdir.

2 cildlik "Aerodinamika", "Elektrik", "Uçuş dinamikası" kitablarının, Azərbaycanın və xarici ölkələrin nüfuzlu elmi jurnallarında nəşr olunmuş 150-dən artıq elmi məqalənin müəllifi olmuşdur. 30-dan artıq Beynəlxalq və elmi konfransların iştirakçısı olub.

18 dekabr 2008-ci ildə vəfat etmiş, Qəbələ şəhərində dəfn olunmuşdur.

Edil Əli oğlu Eyvazov

fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar müəllim (1940-2021)

9 avqust 1940-cı ildə Qubadlı rayonunun Tarovlu kəndində anadan olmuşdur. 1957-ci ildə Qubadlı orta məktəbini, 1963-cü ildə isə "Aşağı temperaturlar fizikası" ixtisası üzrə Xarkov (Ukrayna) Dövlət Universitetinin Fizika fakültəsini bitirmişdir. 1963-1966-cı illərdə həmin universitetin Kristallar fizikası kafedrasının aspirantı olmuş, 1967-ci ildə "İon kristallarında xarici qüvvə sahəsinin təsiri ilə makroskopik defektlərin tədqiqi" mövzusunda dielektriklər və yarımkeçiricilər fizikası üzrə namizədlik, 1985-ci ildə Xarkov Dövlət Universitetinin ixtisaslaşdırılmış Müdafiə Şurasında bərk cisimlər fizikası sahəsində "İki və daha çox maqnitoaktiv ionlu xrom halkospinlərində maqnit, rezonans və kinetik hadisələr" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1967-1968-ci illərdə Azərbaycan Respublikası EA-nın Fizika İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır. 1968-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışır.

ADPU-nun elmi-tədqiqat sektorunun rəhbəri, Fizika fakültəsinin dekanı və Universitetin Elmi işlər üzrə prorektoru, 2011-2016-cı illərdə Mexanika və molekulyar fizika kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2016-cı ildən "Ümumi fizika" kafedrasının professorudur.

Xarici ölkələrin nüfuzlu jurnallarında 170-dən çox elmi məqaləsi və 16 kitabı nəşr olunmuşdur. "Yarımkeçiricilər fizikasından xüsusi kurs". I və II

hissə. (1980), "Bərk cisimlər fizikası və elektronikanın əsasları". I və II hissə. (1993), "Bərk cisimlər fizikası", (2003, 2012), "Yarımkeçiricilər fizikasına giriş" (2007), "Molekulyar fizika və termodinamikaya giriş" (2010), "Molekulyar köçürmə hadisələri" (2011), "Bərk cisimlər fizikasının seçilmiş fəsilləri" (2010), "Элементарная физика". (2010) (rus dilində) kitablarının müəllifidir.

Elmi rəhbərliyi ilə 10 nəfər fizika üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir. Ayrı-ayrı vaxtlarda namizədlik və doktorluq Müdafiə Şuralarına rəhbərlik etmiş, beynəlxalq elmi konfransların iştirakçısı olmuşdur.

2012-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Şükür Həmid oğlu Əlizadə

pedaqoji elmlər doktoru, professor

(1940)

25 oktyabr 1940-cı ildə Lənkəran rayonunun Viyən kəndində anadan olmuşdur. Kərgəlan kənd orta məktəbini (1957), ADPİ-nin Fizika fakültəsini bitirmişdir (1963). 1963-1965-ci illərdə Kərgəlan kənd orta məktəbində fizika müəllimi, 1965-1970-ci illərdə Gərmətük kənd orta məktəbində direktor müavini işləmişdir. 1970-1973-cü illərdə ADPİ -nin Fizikanın tədrisi metodikası kafedrasının aspirantı olmuşdur. 1974-1983-cü illərdə Fizikanın tədrisi metodikası kafedrasında müəllim, baş müəllim, 1983- 2010-cu illərdə dosent, 2010-cu ildən professor vəzifəsində çalışır. "Yarımkeçirici cihazlarla məktəb fiziki eksperimentinin aparılması metodikası" mövzusunda namizədlik (1974), "Məktəb fizika eksperimentinin sistemi və onun təkmilləşdirilməsi yolları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (2003).

Tədqiqatlarında məktəb fizika eksperimentinin tam sistemini yaratmış, onun təsnifatını vermiş, həmin sistemi təchiz etmək üçün lazım olan cihazlar dəstini müəyyənləşdirmiş, çatışmayan cihazların bəzilərini təkmilləşdirmiş, 12 ixtira, 50 faydalı model təklif etmişdir. ADPU-nun fizikanın tədrisi metodikası kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir. 2006-cı ildən həmin kafedranın professorudur. 22 dərslik, dərs vəsaiti və me-

todiki tövsiyəsi, 250-dən artıq elmi-metodiki məqaləsi nəşr olunmuşdur.

"Azərbaycanda fizikanın tədrisi metodikasının inkişafı (2006), "Pedaqoji Universitetlərdə "Məktəb fizika eksperimenti" (II hissə) (2011),"Fizikadan laboratoriya işləri (7-9 siniflər üçün) (2008), "Fizikadan laboratoriya işləri (10-11 siniflər üçün)" (2008), "Fizikanın tədrisi metodikası. I hissə (2009), "Pedaqoji Universitetlərdə "Məktəb fizika eksperimenti" IV hissə. (2011), "Fizikadan nümayiş eksperimenti (IX siniflər üçün). (2011),"Fizikadan nümayiş eksperimenti. (VIII siniflər üçün) (2011), "Kurikulum üzrə fizikadan dərs nümunələri (2014). "Fizikanın tədrisi metodikası (2016) kitablarının müəllifidir. SSRİ Maarif Nazirliyi və SSRİ Pedaqoji Elmlər Akademiyasının (1973), Təhsil Nazirliyinin (2015) "Fəxri fərman"ları, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Tələbə elmi-tədqiqat işlərinin təşkilində əldə etdiyi nailiyyətlərə görə" döş nişanı (1986), "Qabaqcıl təhsil işçisi" döş nişanı (2012) ilə təltif olunmuşdur. "Avropa Nəşr mətbu evi" komissiyasının qərarı ilə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı (2017), ADPU -da "İlin müəllimi" (2008, 2009, 2010, 2011, 2012), "İlin alimi" (2008, 2009, 2010, 2011, 2012) müsabiqəsinin qaliblərindən biri olub.

Natiq Ağarza oğlu Əliyev
pedaqoji elmlər doktoru
(1943 - 2020)

21 noyabr 1943- cü ildə Bakı şəhərinin Sabunçu rayonunun Maştağa qəsəbəsində qulluqçu ailəsində anadan olmuşdur.

1951-1961-ci illərdə Maştağa qəsəbəsindəki 128 №-li məktəbdə təhsil almışdır. 1961 - 1964 -cü illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika - riyaziyyat fakültəsində təhsil almışdır. 1964-1967-ci illərdə hərbi xidmətdə olmuşdur. Ordu sıralarından tərxis olunduqdan sonra ADPİ -nin Fizika fakültəsində təhsilini (1967-1969) davam etdirmişdir. 1969 -1972-ci illərdə Salyan rayonunun Kərimbəyli kənd orta məktəbdə, 1972-1975-ci illərdə Sabunçu rayon 80 №-li orta məktəbdə fizika müəllimi işləmişdir. 1975-1977 -ci illərdə Azərb.ETPEİ-nin Fizika-riyaziyyat şöbəsində fizikanın tədrisi metodikası ixtisası üzrə əyani aspiranturasında təhsil almışdır.

1982 -ci ilin may ayının 28 -də "Orta məktəbin fizika kursunda kvant mexanikası elementlərinin məzmunu və öyrədilməsi metodikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1978-1982- ci illərdə Azərb-.ETPEİ-də kiçik elmi işçi, 1982-1985-ci illərdə elmi işçi vəzifələrində işləmişdir. 1979-1985 -ci illərdə Azərb.ETPEİ-də "Gənc alimlər şurası"nın sədri, institut Elmi şurasının üzvü, Respublika Pedaqoji cəmiyyətinin fizika bölməsinin sədr müavini vəzifələrində çalışmışdır.

1985-1989 -cu illərdə Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun Fizika - riyaziyyat fənlərinin tədrisi metodikası kafedrasında baş müəllim, 1989-cu ildən dosent vəzifəsində çalışmışdır. 1991- 2006 -cı illərdə həmin institutun Fizika və riyaziyyat fənlərinin tədrisi metodikası kafedrasının müdiri və "Elmi xəbərlər" jurnalının baş redaktoru və redaktor müavini vəzifələrində işləmişdir. Həmin illərdə (2000 -2006) o həm də AMİ- nin Elmi şurasının elmi katibi vəzifəsini də yerinə yetirmişdir. 1997-2003-cü illərdə ADPU-da fəaliyyət göstərən Müdafiə Şurasının üzvü kimi fəaliyyət göstərmişdir. 1972 -2017 - ci illərdə Bakıdakı 80 №-li məktəbində fizika müəllimi kimi də fəaliyyət göstərmişdir.

2016 -cı ilin fevral ayında "Orta məktəbdə fizika nəzəriyyələrinin tədrisi metodikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 14 mart 2017 -ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona pedaqogika üzrə elmlər doktoru elmi adı verilmişdir. ADPU-nun fizikanın tədrisi metodikası kafedrasının dosentidir.

Fizikanın tədrisi metodikası ilə bağlı 150 elmi əsərin (monoqrafiya, dərslik, dərs vəsaiti, elmi-metodiki məqalə, məruzə tezisi və s.) müəllifidir.

1989-cu ildə "Maarif əlaçısı" döş nişanı ilə təltif edilmişdir. 2017-ci ildə Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü seçilmiş, həm də Rusiyanın tanınmış alimləri siyahısına (sertifikatla təsdiq olunub) daxil edilmişdir.

26 dekabr 2020-ci ildə Bakı şəhərində vəfat edib.

Vaqif İbad oğlu Nəsirov

fizika-riyaziyyat elmləri doktoru, professor

(1945)

1945-ci ildə Masallı rayonunun Mollaoba kəndində anadan olub. 1963-cü ildə Nizami Gəncəvi adına Boradigah onbirillik məktəbini qızıl medalla, 1967-ci ildə V.İ.Lenin adına ADPİ-nin Fizika fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1968-ci ildə eksperimental fizika ixtisası üzrə aspiranturaya daxil

olmuş, 1972-ci ildə S.M.Kirov adına ADU-da "KNO3, AgNO3 və TlNO3 monokristallarında polimorf çevrilmələrin tədqiqi" mövzusunda namizədlik, 1993-cü ildə isə AMEA-da akademik H.M.Abdullayev adına Fizika İnstitutunda "İon və molekulyar kristallarda polimorfizm" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1971-1994-cü illərdə ADPİ-də assistent, baş müəllim, dosent vəzifələrində çalışıb. 1994-cü ildə ADPU-nun Elektrik və optika kafedrasının professoru vəzifəsinə seçilib. Hazırda Ümumi fizika kafedrasının professorudur.

1977-1978-ci illərdə XI Paris Universitetində elmi ezamiyyətdə olmuş, fransız fizikləri ilə birlikdə elmi təcrübələr aparmışdır. Fransada ezamiyyətdə olduğu müddətdə Parıs, Bordo, Qrenobl, Strasburq, Tuluza universitetlərində elmi məruzələrlə çıxış etmişdir. 1978-ci ildə Fransa Kimyəvi Fizika Cəmiyyətinin Fəxri Prezidenti prof. M.Maqa və prof. H.Svarkinin təqdimatı ilə həmin cəmiyyətə üzv seçilmişdir.

1983-1987-ci illərdə Əlcəzair Xalq Demokratik Respublikasının Bumerdes şəhərində Yüngül Sənaye İnstitutunun Fizika kafedrasına rəhbərlik etmişdir. Həmin illərdə əlcəzairli tələbələr üçün fransız dilində 5 dərs vəsaiti hazırlayıb çap etdirmişdir.

Əlcəzairdən qayıtdıqdan sonra ADPU-da fəaliyyətini davam etdirmişdir. 170-dən artıq elmi və elmi-metodiki məqalənin, 30 dərs vəsaiti, monoqrafiya və elmi-kütləvi kitabın müəllifidir.

"Elektrik", "Elektrik və maqnetizm", "Optika", "Elektrik dövrələrinin nəzəri əsasları", "Ümumi fizika kursundan laboratoriya praktikumu", "Elektrik və maqnetizmdən məsələlər", "Kristalloqrafiyanın elementləri" dərslik və dərs vəsaitlərinin müəllifidir.

2000-ci ildə akademik Y.Məmmədəliyev mükafatına, 2015-ci ildə Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülmüşdür. O, AMEA Fizika Problemləri Əlaqələndirmə Şurasının komissiya sədri, AzTU-nun və Bakı Mühəndislər Universitetinin "Elmi əsərlər"i jurnallarının redaksiya heyətinin üzvüdür. Elmi rəhbərliyi ilə 5 nəfər fizika üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə edib.

Elm aləmində görkəmli fizik kimi tanınan Vaqif müəllim, geniş oxucu kütləsi üçün Vaqif Nəsirdir "Sonradan bilmişəm", "Etiraf", "Dünya çətin dü-

zələ”, ”Dərd budur”, ”Anamın duaları”, ”Şairlər vaxtsız qocalır”, ”Qardaş harayı”, “Tanrı payı”, “Ömrün qürbət payı”,”Öz odunda yanan ürək”, ”Əsrin loğmanı” (sənədli povestləri), “Yenə də qatarda”, ”Bir elmi-tədqiqat sektorunda” və 2 cilddə “Seçmələr” kitablarının müəllifidir. 2001-ci ildən Azərbaycan Yazıçıları Birliyinin üzvüdür.

İsa Namaz oğlu İsmayılov

pedaqogika üzrə elmlər doktoru, professor

(1946)

26 may 1946-cı ildə Qərbi Azərbaycanın Dərəçicək mahalının, Razdan (Axta) rayonunun Axundov kəndində anadan olub. 1953-1958-ci illərdə Axundov kənd orta məktəbində, 1958-1962-ci ilərdə Saatlı rayonunun Xanlar kənd orta məktəbində oxuyub. 1962-1967-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsində təhsil alıb. 1967-1970 - ci illərdə Saatlı rayon Severski orta məktəbində fizika-riyaziyyat müəllimi işləmişdir. 1967-71-ci illərdə C.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Hidromelorasiya fakültəsinin qiyabi şöbəsində təhsil alıb. Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqogika İnstitutunun “Təlimin texniki vasitələri və proqramlaşdırılmış təlim” laboratoriyasında fizikanın tədrisi metodikası ixtisası üzrə əyani aspiranturaya daxil olduğundan Azərbaycan Politexnik İnstitutunu bitirə bilməmişdir. Aspiranturada təhsil aldığı illərdə (1970-1973-ci illər) Moskva Hərbi Siyasi Akademiyasının kafedra müdiri professor, general İ.İ.Tixonovun rəhbərliyi altında elmi-tədqiqat işini tamamlamışdır. 1973-1974-cü illərdə Kalinin şəhərində hərbi xidmətdə olmuşdur. 1974-cü ildə ADPİ-də Ümumi texniki fənlər kafedrasında laborant kimi əmək fəaliyyətinə başlamışdır. 1975-ci ildə prof.İ.İ.Tixonovun köməyi ilə institutun nəzdində Respublikada ilk dəfə yaradılmış “Avtomatlaşdırılmış AKKORD sinfi”ndən ibarət proqramlaşdırılmış təlim laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. “Orta məktəbdə fizika təliminin effektliyinin yüksəldilməsində texniki vasitələrdən və proqramlaşdırılmış materiallardan kompleks istifadə problemi” mövzusunda namizədlik dissertasiyası müdafiə edib (1980). 1983-1985-ci illərdə ADPİ-nin Fizikanın tədrisi metodikası kafedrasında müəllim, 1985-1989 - cu illərdə baş müəllim, 1989-2016-cı illərdə dosent vəzifəsində çalışmışdır. 2011-ci ildə ADPU-da “Ümum-

təhsil məktəblərində fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadənin nəzəri və praktik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2017-ci ildən ADPU-nun Fizikanın tədrisi metodikası kafedrasının professorudur.

ADPİ-də "Bilik" cəmiyyətinin məsul katibi (1978-1982), institut Metodik Şurasının katibi (1985), ADPU-nun Aspirantura, doktorantura və magistratura şöbəsinin müdiri (1997-2004), ADPU-nun Elmi Metodik Şurasının sədr müavini (2014-2018), "Testlərin keyfiyyətinə nəzarət və qəbulu" komissiyasının sədri (2007-2016), "Fizika və texnologiya" Fakültəsinin Metodik Şurasının sədri (2016-2017) vəzifələrində çalışmışdır. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Fəlsəfə, pedaqogika, psixologiya və fənlərin tədrisi metodikası üzrə ekspert şurasının üzvü (2013-2015; 2017- 2018-ci illərdə) olmuşdur.

12 monoqrafiya, kitab və kitabçanın, 14 metodik göstəriş və tədris proqramı, 170-dən çox elmi məqalə və 20 tezisin müəllifidir. "Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları, tədrisdə onlardan istifadə metodikası" (2006), "Ümumtəhsil məktəblərində fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadə üzrə işin sistemi" (2009), "Ümumtəhsil məktəblərində fizika təliminin müasir texnologiyaları" (2012), "Ümumtəhsil məktəblərində fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadənin nəzəri və praktik problemləri" (2013), "Fizikanın tədrisi metodikasının müasir problemləri" (2016), "Fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadə (laboratoriya praktikumu) dərs vəsaiti" (2017), "Fizikanın tədrisi metodikası" (2018) adlı dərslik və dərs vəsaitlərinin müəllifidir. 8 kitabın tərtibçisi, 20-yə yaxın metodik göstəriş və proqramın elmi redaktoru və rəyçisi olub. Əsərləri Bakı, Moskva, Voronej, Kursk, Novosibirsk, Almatı, Ankara, Astana, Minsk, Mahaçqala, Dərbənd şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində çap edilib.

Rəhbərliyi ilə 1 nəfər fəlsəfə doktoru elmi dərəcəsi almış, 1 nəfərin elmlər doktoru dissertasiyasının elmi məsləhətçisidir. 1997-2003-cü illərdə ADPU-da fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsil tarixi ixtisası üzrə Dissertasiya Şurasının elmi katibi olub. ADPU-nun "Təhsildə İKT", Az.TU-nun "Elmi əsərləri", "Pedaqogika" elmi-metodik jurnalların redaksiya heyətinin üzvüdür. Elmi-pedaqoji fəaliyyəti ilə əlaqədar müxtəlif sertifikatlara, mükafat və təltiflərə layiq bilinib. ADPU-da keçirilən "İlin alimi" müsabiqəsində pedaqoji elmlər üzrə I yer (2012), III yer (2011) və II yerə (2013) layiq görülmüşdür. Təhsil Nazirliyinin kollegiyasının qərarı ilə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub (2012), ADPU rəhbərliyinin təşəkkürnaməsinə layiq bilinib (2016).

Həşim İsaq oğlu Həşimov
fizika-riyaziyyat elmlər namizədi,
professor
(1946-2009)

1946-cı ildə Zaqatala rayonunu Qımır kəndində ziyalı ailəsində anadan olub. 1952-1963-cü illərdə Qımır kənd orta məktəbində təhsil alıb. 1963-cü ildə APİ-nin (indiki ADPU-nun) fizika- riyaziyyat fakültəsinin fizika şöbəsinə daxil olub, 1967-ci ildə həmin şöbəni fərqlənmə diplomu ilə bitirib. Təyinatla Zaqatala rayonunda Çobankol kəndində pedaqoji fəaliyyətə başlayıb. 1969-1973-cü illərdə ADPİ-nin (ADPU) aspiranturasında eksperimental fizika ixtisası üzrə əyani təhsil alıb. Aspiranturada oxuyarkən 1 il hərbi xidmətdə olub. 1975-ci ildə "Nikel ferritində anion əvəzedilməsi zamanı yük köçürmə mexanizminin tədqiqi" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmlər namizədi alimlik dərəcəsi alıb.

1973-cü ildə Ali və Orta İxtisas Təhsili Nazirliyinin təyinatı ilə ADPİ-nin ümumi fizika və astronomiya kafedrasına laborant təyin olunub. Həmin illərdə Fizika fakültəsinin OADKYC-nın sədri olub.

1974-1977-ci illərdə həmin kafedrada müəllim, 1977-1983-cü illərdə baş müəllim kimi fəaliyyət göstərib. 8 avqust 1984-cü ildə SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyası tərəfindən Elektroradiotexnika kafedrası üzrə dosent elmi adı verilib. 1983-2000-ci illərdə ADPİ-nin Elektroradiotexnika kafedrasına, 1998-2009-cu illərdə Mühəndis –pedaqoji və bədii qrafika fakültəsinə rəhbərlik edib.` 28 oktyabr 1993-cü ildə ona professor elmi adı verilib.

Azərbaycanda və xaricdə nüfuzlu jurnallarda çap edilən 51 elmi məqalənin, ali məktəb tələbələri üçün nəzərdə tutulan 12 adda dərslik, dərs vəsaiti və metodiki tövsiyənin müəllifi olub. "Elektrotexnika" (2003) "Avtomatikanın əsasları və elektron hesablama texnikası (1992), Elektrik maşınları və aparatları (1992), "Dövrələr nəzəriyyəsinin əsasları" (1987) kitabları nəşr olunub.

30 -dan artıq respublika və beynəlxalq miqyaslı elmi konfrans və simpoziumlarda məruzə edib. 2 nəfərin namizədlik dissertasiyasının elmi rəhbəri olub. "Tərəqqi" medalı (2006) ilə təltif olunmuşdur.

16 sentyabr 2009-cu ildə vəfat etmişdir.

Həmzə Səməd oğlu Seyidli
fizika-riyaziyyat elmləri doktoru, professor
(1953)

21 yanvar 1953-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1959-cu ildə Naxçıvan şəhər 2 №-li orta məktəbi bitirmişdir. 1969-1974-cü illərdə ADU-nun Fizika fakültəsində təhsil almışdır. 1974-1991-ci illərdə Azərbaycan EA-nın Fotoelektronika Elmi Tədqiqat İnstitutunda baş laborant, mühəndis, şöbə müdiri vəzifələrində işləmişdir. 1991-1998-ci illərdə Bakı Ali Hərbi Dənizçilik məktəbində Fizika kafedrasının müdiri, 1998-2009-cu illərdə Azərbaycan Müəllimlər İnstitutunda elmi işlər üzrə prorektor vəzifəsində çalışmışdır. 1979-cu ildə AMEA-nın Fizika İnstitutunda "Kadmium-hidrargium-tellur bərk məhlullarının monokristallarında qeyri-tarazlıqlı proseslərin tədqiqi" mövzusunda namizədlik dissertasiyası, 1989-cu ildə isə həmin İnstitutda "Dar zolaqlı yarımkeçiricilərdə qeyri-tarazlıqlı proseslər" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1991-ci ildə ona professor elmi adı verilmişdir.

2009-2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunda Riyaziyyat, informatika və onların tədrisi metodikası kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2016-cı ildən ADPU-nun Ümumi fizika kafedrasının professorudur. Elmi rəhbərliyi ilə 12 nəfər fizika üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

2 metodik vəsait, 3 proqram və 150-dan çox məqalənin müəllifidir.

Cahangir İslam oğlu Hüseynov
fizika üzrə elmlər doktoru, professor
(1958)

2 oktyabr 1958-ci ildə Tovuz rayonunun Xatınlı kəndində anadan olmuşdur. 1975-ci ildə Xatınlı kənd orta məktəbini bitirmişdir. 1981-ci ildə BDU-nun Fizika fakültəsini bərk cisimlər fizikası ixtisası üzrə bitirdikdən sonra Elmi Tədqiqat Tətbiqi Fizika İnstitutunun Bakı filialında mühəndis kimi əmək fəaliyyətinə başlamışdır. 1990-cı ildə ADPU-da qiyabi aspiranturaya daxil olmuş və 1994-cü ildə "(GeS)1-x(Ln2S3)x monokristallarının (harada Ln-

La, Pr, Ce) elektrofiziki, fotoelektrik və optik xassələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1990-1998 -ci illərdə ADPU-nun Elektrik və optika kafedrasında baş laborant, 2000-2002-ci illərdə baş müəllim, 2002-2005-ci illərdə ADİU-nun Riyaziyyat kafedrasında baş müəllim, 2005-2007-ci illərdə ADİU-nun Riyaziyyat kafedrasında dosent, 2007-2008-ci illərdə ADPU-nun Elektrik və optika kafedrasında baş müəllim vəzifəsində işləmişdir. 2008-ci ildə həmin kafedrada dosent vəzifəsinə seçilmişdir. 2012- 2016-cı illərdə Elektrik və optika kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2016-cı ildən ADPU-nun Ümumi fizika kafedrasına rəhbərlik edir.

2017-ci ildə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən D.02.012 Dissertasiya Şurasında Bərk cisimlər fizikası ixtisası üzrə fizika elmlər doktoru elmi dərəcəsi almaq üçün "Ln-Sn-S(Se) (Ln- Pr, Gd, Er, Dy) sistem ərinti və birləşmələrində elektron, foton prosesləri" mövzusunda dissertasiya müdafiə etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona fizika üzrə elmlər doktoru elmi dərəcəsi verilmişdir.

1 müəlliflik şəhadətnaməsinin, republikamızın və xarici ölkələrin nüfuzlu jurnallarında nəşr olunan 200-dən artıq elmi məqalənin, 1 dərsliyin, 14 dərs vəsaitinin, 10-dan artıq tədris proqramının müəllifidir. O, fizika fənni üzrə respublika Elmi-metodiki şuranın, fizika fənn olimpiadasının münsiflər heyətinin üzvüdür. 30-a yaxın beynəlxalq seminar, simpozium və konfransın iştirakçısı olmuşdur.

Xanlar Alı oğlu Həsənov

fizika üzrə elmlər doktoru

(1959)

15 fevral 1959-cu ildə Xanlar rayonunun Yenikənd kəndində anadan olmuşdur. 1976-cı ildə orta məktəbi, 1981-ci ildə ADU-nun Fizika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə ADU-nun paleobiogeokimya laboratoriyasında mühəndis kimi başlamışdır. 1981-1982-ci illərdə həmin laboratoriyada laborant, baş laborant, 1983-1993-cü illərdə Optika və molekulyar fizika kafedrasında baş laborant işləmişdir. 1993- 2003-cü illərdə Azərbaycan EA-nın Radiasiya

tədqiqatları İnstitutunda böyük mühəndis, 2003-2010-cu illərdə AMEA-nın Fizika İnstitutunda baş elmi işçi, 2010-2012-ci illərdə TEKTİ baş elmi işçi vəzifəsində çalışmışdır. Sonrakı fəaliyyəti Pedaqoji Universitetlə bağlı olmuşdur. 1994-cü ildə ona Azərbaycan AAK tərəfindən elmlər namizədi elmi dərəcəsi, 1998-ci ildə istilik fizikası və molekulyar fizika ixtisası üzrə baş elmi işçi elmi adı verilmişdir. 13 aprel 2012-ci ildə ona elmlər doktoru elmi dərəcəsi verilmişdir. 2019-cu ildə öz ərizəsi ilə ADPU-nun Texnologiya və OTM kafedrasının dosenti vəzifəsindən azad olunmuşdur.

Hüseyn Behbud oğlu İbrahimov

fizika-riyaziyyat elmləri doktoru, professor

(1960)

15 avqust 1960-cı ildə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə Zəngilan rayonu Mincivan qəsəbə orta məktəbində,1977-1982-ci illərdə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsində təhsil alıb. 1982- 1984-cü illərdə Moskva Elmi Tədqiqat Tətbiqi Fizika İnstitutunun Bakı filialında mühəndis işləyib. 1984-1987- ci illərdə Azərbaycan EA-nın Fizika İnstitutunun əyani aspirantı olub. 1988-ci ildə namizədlik, 2004- cü ildə doktorluq dissertasiyası müdafiə edib. 2010-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona professor elmi adı verilib. 1988-2003-cü illərdə Azərbaycan EA-nın Fizika İnstitutunda kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, 2003- 2006-cı illərdə tam ştat, 2006-2018 -ci illərdə əvəzçiliklə laboratoriya rəhbəri vəzifəsində çalışıb. 2018-ci ildən AMEA Fizika İnstitutunda tam ştat laboratoriya müdiri vəzifəsində işləyir. 2006-2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında şöbə müdiri vəzifəsində

işləyib. 2006-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika fakültəsində 0.5 ştatla professor vəzifəsində çalışır. Tədqiqatları məhdud ölçülü sistemlərdə - ifrat qəfəslərdə, kvant çuxurlarda, kvant məftillərdə və kvant nöqtələrdə elektron proseslərinin tədqiqinə həsr olunub. Ümumi həcmi 164 çap vərəqindən artıq olan əsərlərinin bir qismi Almaniya, ABŞ, Böyük Britaniya, Fransa, Ukrayna, Türkiyə və Hindistanın nüfuzlu elmi jurnallarında çap olunmuşdur. Beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Aldığı elmi nəticələr bir neçə dəfə AMEA-nın vacib nəticələrinə daxil edilmişdir.

Namiq Nadir oğlu Niftiyev
fizika üzrə elmlər doktoru
(1960)

5 noyabr 1960-cı ildə Masallı rayonunun Sarıcəfərli kəndində anadan olmuşdur.1968-1976-cı illərdə Kəlbəhüseynli kənd 8 illik məktəbində, 1976-1978-ci illərdə Çaxırlı kənd orta məktəbində, 1978-1982-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Fizika fakültəsində təhsil alıb.

Masallı rayonunda və Bakı şəhərində müəllim işləyib. 1987-1991-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Bərk cisimlər fizikası" ixtisası üzrə aspiranturada (istehsalatdan ayrılmamaqla) təhsil almışdır. 1992-ci ildə BDU-da "MnGa2S4, MnIn2S4 və MnGaInS4 monokristallarının fotoelektrik və optik xassələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1991-1999-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Mexanika və molekulyar fizika kafedrasında laborant, baş laborant və laboratoriya müdiri, 1999- 2009-cu illərdə müəllim, 2009-2016-cı illərdə dosent vəzifəsində çalışmışdır. 2016-cı ildə BDU -da "AB2X4 (A-Mn, Fe, Co; B- Ga, In; X- S, Se) tipli birləşmələrdə elektron və optik proseslər" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fizika üzrə elmlər doktoru elmi dərəcəsini almışdır.

Əsas tədqiqat sahəsi AB2X4 (A- Mn, Fe; B- Ga, In; X- S, Se) tipli birləşmələrin elektrofiziki və optik xassələrinin tədqiqi ilə yükdaşıyıcıların keçmə mexanizmini, polyarizasiya mexanizmini, lokal səviyyələrin parametrlə-

rini və optik keçidlərin xarakterini müəyyən etməklə onlarda elektron və optik prosesləri öyrənmək və bu materialların bərk cisimlər opto-elektronikasında tətbiq edilməsini araşdırmaqdır.

100-dən çox elmi işi müxtəlif elmi jurnallarda və konfrans materiallarında çap olunmuşdur.

O cümlədən 30-dan çox məqaləsi xarici jurnallarda ("Solid State Commununications", "Intermetallics", "Inorganic materials", "Физика и техника полупроводников", "Журнал технической физики", "Оптика и спектроскопия" və s.) nəşr olunmuşdur. "Mexanikadan məsələlər", "Molekulyar fizikadan məsələlər", və "Mexanika və molekulyar fizika (laboratoriya praktikumu)" dərs vəsaitlərinin və 10-a yaxın fənn proqramının müəllifidir.

ADPU-nun Ümumi fizika kafedrasında dosent vəzifəsində çalışır.

Aydın Səfərbəy oğlu Ələkbərov
fizika elmlər doktoru
(1960)

5 iyun 1960-cı ildə Quba rayonunun Susay kəndində müəllim ailəsində anadan olmuşdur. 1967-1968 -ci illərdə Bakıdakı 111 №-li orta məktəbdə, 1968–1977-ci illərdə 36 №-li orta məktəbdə oxumuşdur. 1977-1982-ci illərdə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsində təhsil almışdır.

1982-ci ildə Moskva vilayətinin Dubna şəhərində yerləşən Birləşmiş Nüvə Tədqiqatları Mərkəzində diplom işini tamamlayaraq universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1982-1985-ci illərdə Tətbiqi Fizika İnstitutunda (Fotoelektronika İnstitutu) mühəndis-texnoloq vəzifəsində işləmişdir.

1985-1992-ci illərdə ADPU-nun Elektrik və optika kafedrasında baş laborant, 1992-1998-ci illərdə laboratoriya müdiri, 1998-2006 -cı illərdə müəllim işləmişdir. 1986–1990-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin aspirantı olmuş, 1992-ci ildə Bakı Dövlət Universitetində "(GeS)1-x(Ln2S3) (Ln–Nd, Sm, Gd) monokristallarının elektrofiziki və optik xassələri" mövzusunda dissertasiya işini müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi almışdır. 2006-cı ildə Azərbaycan Respublikası Pre-

zidenti yanında AAK tərəfindən ona dosent elmi adı verilmişdir. 2006-2016-cı illərdə "Elektrik və optika" kafedrasında dosent vəzifəsində çalışıb.

2017-ci ildə Azərbaycan EA-nın Radiasiya Problemləri İnstitutunda fəaliyyət göstərən Elmi Şurada "Lantanoidlərlə aşqarlanmış GeS laylı monokristalında və onlar əsasında hazırlanmış heterostrukturda elektron hadisələrinə ionlaşdırıcı şüaların təsiri" adlı doktorluq dissertasiyasını müdafiə edərək fizika üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

15 kitabın, 1 monoqrafiyanın, 1 patent işinin, Azərbaycan, ABŞ, Rusiya, Hindistan, Ukrayna, Belarusda nüfuzlu elmi jurnallarda nəşr olunan 90-dan artıq elmi məqalənin və konfrans materiallarının müəllifidir.

Ümumtəhsil məktəblərinin VII–IX və X–XI sinifləri üçün "Fizikadan laboratoriya işləri" (2008), abituriyent hazırlığı üçün "Fizika" (2011) və "Riyaziyyat" (2013) tədris resurslarının müəlliflərindən biridir. "Atom fizikasından laboratoriya praktikumu" (2002; 2005), "Fiziki elektronikadan laboratoriya praktikumu" (2004; 2015), "Ümumi fizika kursu" (2011), "Mexanika və molekulyar fizika" (2012), "Optik atom spektroskopiya üsulları" (2014), "Elektronika və mikroprosessor sistemləri" (2018) adlı dərs vəsaitlərinin və Almaniyanın "Lampert" nəşriyyatında çap olunmuş "Влияние атомов РЗЭ на физические свойства монокристалла GeS" (2016), "Bir türk əsgərinin izi ilə..." (2019) adlı monoqrafiyaların müəllifidir.

ADPU-nun Ümumi fizika kafedrasının dosentidir.

İncəsənət və fiziki tərbiyə fakültəsi

Nadir Qəmbər oğlu Əbdürrəhmanov

Əməkdar incəsənət xadimi,
Dövlət mükafatı laureatı,
Xalq rəssamı, professor
(1925 –2008)

5 dekabr 1925-ci ildə Laçında anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (1941-1944), Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (1947-1953) təhsil almışdır. 1954-cü ildən Azərbaycan Rəssamlıq Məktəbində, 70-ci illərdə ADPU-da dərs demiş, 1984-cü ildən etibarən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi fəaliyyət göstərmiş, Azərbaycan Rəssamlıq Akademiyasında yaradıcılıq emalatxanasının rəhbəri olmuşdur.

1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 1964-cü ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri, Azərbaycan SSR Ali Sovetinin deputatı olub. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeninə və Prezident təqaüdünə layiq görülmüşdür.

26 iyul 2008-ci ildə Bakı şəhərində vəfat edib.

İbrahim İsmayıl oğlu Zeynalov

SSRİ və Azərbaycan SSR Dövlət mükafatı
laureatı, Azərbaycan Respublikasının
Xalq artisti, professor, Əməkdar incəsənət xadimi
(1934-2008)

27 dekabr 1934-cü ildə Bakı şəhərində anadan olub. 1951- 1956-cı illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin heykəltə-

raşlıq şöbəsində, 1956-1962-ci illərdə Xarkov Rəssamlıq İnstitutunun heykəltəraşlıq fakültəsində təhsil alıb. Ömrünü heykəltəraşlıq sənətinə həsr edib.

1957-ci ildən respublika, Ümumittifaq və beynəlxalq sərgilərin iştirakçısı olub. 1971-1973-cü illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində müəllim, 1973-1993-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunda müəllim (1973-1974), baş müəllim (1974), dosent (1975-1983), professor (1983-2008) və kafedra müdiri (1980-1996) vəzifələrində çalışıb.

1994 - 2003-cü illərdə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru olmuşdur. SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyası tərəfindən 17 yanvar 1979-cu ildə ona dosent, 28 oktyabr 1983-cü ildə Rəsm, heykəltəraşlıq və boyakarlıq kafedrası üzrə professor elmi adı verilmişdir.

Azərbaycanda milli heykəltəraşlıq məktəbinin inkişafında xüsusi xidmətləri olmuşdur. Monumental heykəl, büst-portret və digər heykəltəraşlıq janrlarında yaratdığı gözəl sənət əsərləri ölkəmizin zəngin ənənələrə malik heykəltəraşlıq mədəniyyətinin parlaq səhifələrindəndir.

Mücirəddin Beyləqani, Əcəmi Naxçıvani, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov və Hacı Zeynalabdin Tağıyevin obrazlarını abidələrə çevirmişdir.

1962-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü seçilib. 1972-ci ildə SSRİ Dövlət mükafatı, 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, 1975-ci ildə Azərbaycanın Əməkdar incəsənət xadimi, 1988-ci ildə isə - Xalq rəssamı fəxri adına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub.

6 mart 2008-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Sabir Dadaş oğlu Quliyev
pedaqoji elmlər doktoru, professor
(1938-2001)

1938-ci il aprel ayının 3-də Bakının Bülbülə kəndində anadan olub. İlk təhsilini Bülbülə kəndindəki 79 №-li məktəbdə alıb. 1955-1959 -cu illərdə 208 №-li orta məktəbdə və paralel olaraq Suraxanı rayonundakı 5 №-li musiqi məktəbində tar sinfi üzrə təhsil alıb. 1955-ci ildə A.Zeynallı adına Bakı musiqi məktəbinin xalq çalğı alətləri şöbəsinə daxil olub. 1959-cu ildə musiqi məktəbinin tar sinfini (musiqi məktəblərində müəllim ixtisası üzrə) bitirib. 1959-1962-ci illərdə 79 və 208 №-li məktəblərdə musiqi müəllimi işləyib. 1956-1961-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb. 1964-1969 -cu illərdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq çalğı alətləri fakültəsində oxuyub. Burada o, Səid Rüstəmov və Süleyman Ələsgərov kimi tanınmış musiqi xadimlərindən dərs alıb.

1 sentyabr 1962-ci ildə ADPU-nun Rəsm, nəğmə və onların tədris metodikası kafedrasına musiqi ixtisası üzrə assistent təyin edilib. 1968-ci ildə Rəsm və musiqi tədrisi metodikası kafedrasına baş müəllim vəzifəsinə seçilib.

1973-cü ildə SSRİ PEA-nın Təlimin Məzmunu və Metodları Elmi -Tədqiqat İnstitutunda "Məktəblilərdə sovet və klassik musiqiyə marağın formalaşdırılması" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. 20 may 1973 -cü ildə Azərbaycan SSR Maarif Nazirliyinin qərarı ilə "Qabaqcıl maarif xadimi" döş nişanına layiq görülüb.

16 yanvar 1974-cü ildə Rəsm və musiqi tədris metodikası kafedrası iki müstəqil kafedraya ayrılır. Yeni yaranan Musiqi tədrisi metodikası kafedrasına baş müəllim Sabir Quliyev müdir təyin olunur və o, həmin il İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsinin Elmi Şurasının üzvü seçilir. 24 yanvar 1976-cı ildə Musiqi tədris metodikası kafedrasına dosent vəzifəsinə seçilir. 1977-ci ildə SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən AAK tərəfindən ona dosent elmi adı verilir.

ADPİ-nin Pedaqoji fakültəsinin nəzdində Musiqi şöbəsinin təşkili onun adı ilə bağlıdır. 30 iyun 1982-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin 26 may 1982-ci il tarixli Kollegiyasının 6/11 nömrəli qərarına uyğun olaraq Musiqi və onun tədrisi

metodikası kafedrasının bazası əsasında iki müstəqil kafedra yaradılıb. Musiqi fənləri və onun tədrisi metodikası kafedrasına dosent N.Məlikməmmədov, Musiqi alətləri kafedrasına dosent S.Quliyev kafedra müdiri təyin olunub.24 iyun 1985-ci ildə Musiqi alətləri kafedrasına professor vəzifəsinə seçilib. 27 dekabr 1985-ci ildə SSRİ Nazirlər Soveti yanında AAK tərəfindən ona professor elmi adı verilib. "Məktəblilərin musiqi tərbiyəsində Azərbaycan musiqisindən istifadənin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyası (1996) müdafiə edib. Azərbaycan ümumtəhsil məktəblərinin III, IV, V, VI və VII sinifləri üçün "Musiqi" dərsliklərinin, "Musiqi inkişafı və musiqi tərbiyəsi", "Musiqi və onun tədrisi metodikası", "Mahnı oxumaq üçün qrammafon vallarından istifadə", "Azərbaycan ümumtəhsil məktəblərinin I-VI sinifləri üçün qrammafon valları" adlı dərsliklərin, metodik vəsaitlərin və xeyli elmi-metodiki məqalənin müəllifidir. Musiqi müəllimləri hazırlığı ilə bağlı Moskva, Leninqrad, Vladimir, Tbilisi, Kiyev, Daşkənd, Alma-Ata, Şaulyay şəhərlərdə keçirilən konfransların iştirakçısı olub. Azərbaycan Televiziyası və Radiosunda bir sıra musiqi verlişlərinin yaradıcısı və aparıcısı olub. "Təhsil", "Qobustan təranələri" mahnı və rəqs ansambllarını yaradıb və onlara rəhbərlik edib. 1993-1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində "Musiqi sənəti" ixtisası üzrə fəaliyyət göstərən Müdafiə Şurasının sədri olub.

2001-ci ildə Bakı şəhərində vəfat edib. 2018 -ci ildə ADPU-da professor Sabir Quliyevin 80 illik yubileyinə həsr olunmuş yubiley tədbiri keçirilib.

Rafiq Məmmədbağır oğlu Baxşəliyev
biologiya elmləri namizədi, professor, Beynəlxalq dərəcəli hakim, Əməkdar məşqçi
(1939)

31 may 1939 -cu ildə İrəvan şəhərində anadan olmuşdur.1948-ci ildə Ermənistandan deportasiya olunanda ailəsi ilə birlikdə Gəncə şəhərinə gəlmişdir. 1958-ci ildə Gəncə şəhərindəki M.Ə.Sabir adına 5 №-li orta məktəbi bitirmişdir. 1958-1962- ci illərdə Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda təhsil almışdır.1966-1973-cü illərdə Bakı Dövlət Universitetinin Bədən tərbiyəsi ka-

fedrasında baş müəllim, 1973-1981-ci illərdə Azərbaycan Xarici Dillər İnstitutunun Bədən tərbiyəsi kafedrasının müdiri, 1981-1989 və 1994-2002-ci illərdə ADPİ-nin İbtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinin dekanı, 1989-1994 -cü illərdə Fiziki tərbiyə nəzəriyyəsi və tədrisi metodikası kafedrasının dosenti, 2002-2015-ci illərdə ADPU-nun Tərbiyə işləri üzrə prorektoru, 2015-2018-ci illərdə Fiziki tərbiyə və çağırışaqədər fənlərin tədrisi metodikası kafedrasının müdiri vəzifələrində çalışmışdır.

1972-ci il biologiya ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1973-cü ildə Fiziki tərbiyə və çağırışaqədər hazırlıq kafedrasına dosent, 2003-cü ildə professor vəzifəsinə seçilmişdir. 1 monoqrafiya, 70 elmi məqalə, 15 dərslik və dərs vəsaitinin müəllifidir. Elmi rəhbərliyi ilə 3 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Təhsil əlaçısı" döş nişanı, "Tərəqqi" medalı, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və ADPU rektorluğunun "Fəxri fərmanlar"ı ilə təltif olunmuşdur. Əməkdar məşqçi, Beynəlxalq dərəcəli hakimdir. 2018-ci ildən təqaüddədir.

Çingiz Əbdül Məcid oğlu Fərzəliyev

Əməkdar incəsənət xadimi,
professor
(1943)

20 noyabr 1943-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1973-cü ildə V.İ.Surikov adına Moskva Dövlət Akademik Bədii İnstitutunun Boyakarlıq fakültəsini bitirib. 1975-ci ildən SSRİ Rəssamlıq İttifaqının üzvüdür. 1966-cı ildən respublika, Ümumittifaq və beynəlxalq sərgilərin iştirakçısıdır. 1970-ci illərdə ADPİ-nin Təsviri incəsənət kafedrasının müəllimi olub. 2004-cü ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında boyakarlıq kafedrasının müdiridir. 2006-cı ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. 2008-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professorudur. 2010-cı ildən Azərbaycan Milli İncəsənət Muzeyinin direktorudur. Həmçinin 2010-cı ildən Təsviri sənət Dövlət Ekspert Komissiyasının sədridir.

Rusiya Rəssamlıq Akademiyasının Fəxri üzvü (2009), Özbəkistan Rəssamlıq Akademiyasının Fəxri professoru (2012), Beynəlxalq Bioqrafik Mər-

kəzinin Fəxri professoru (2015), "Humay" Milli Mükafatı Akademiyasının "Humay" mükafatı laureatı (2015), Tbilisi Dövlət Rəssamlıq Akademiyasının Fəxri doktoru (2015) və V.İ.Surikov adına Moskva Dövlət Akademik Bədii İnstitutunun Fəxri professorudur (2017).

Avstriya Respublikasının "Şərəf Ordeni", Gürcüstan Respublikasının "Şəfəq"ordeni, Azərbaycan Respublikasının "Şöhrət" ordeni, TÜRKSOY-un xatirə medalı, Rusiya Rəssamlıq Akademiyasının Qızıl medalı, Azərbaycan Mədəniyyət Assosiasiyasının medalı, MDB ölkələri Beynəlxalq Memarlar İttifaqı Assosiasiyasının diplomu, Kembric Universitetinin "İncəsənətdə görkəmli şəxsiyyət" mükafatı, "İlin ən yaxşı vətənpərvər tədqiqatçı alimi" qızıl medalı və digər mükafatlarla təltif olunmuşdur.

Hənifə Hüseyn oğlu Qurbanov
pedaqogika üzrə fəlsəfə doktoru, professor, Əməkdar müəllim (1946)

1946-cı il mayın 9-da anadan olub. 1978-ci ildən biologiya elmləri namizədidir. Estoniyanın Tartu Universitetində Ümumittifaq Bədən Tərbiyəsi və İdman Elmi-Tədqiqat İnstitutunda (Moskva şəhəri) hazırlanmış namizədlik dissertasiyasını müdafiə edib. 1983-cü ildə dosent elmi adına layiq görülüb. 1995-ci ildə ona beynəlxalq "İnkorvuz" təşkilatı tərəfindən fəlsəfə doktoru elmi dərəcəsi verilib.

Elmi-pedaqoji stajı 42 ildir, 130 elmi işin o cümlədən 8 dərsliyin müəllifidir. O, respublika və beynəlxalq yarışların qalibləri olan xüsusi olimpiaçılar Rəşad Axundov (üzgüçülük), Rauf Qurbanov (atletika), Anar Əzimov (stolüstü tennis) və Eyvaz Muradovun (stolüstü tennis) hazırlığında bilavasitə iştirak edib. H.Qurbanovun yüksəkixtisaslı idmançı kadrların hazırlanmasındakı fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib və o, 1991-ci ildə "SSRI Bədən Tərbiyəsi və İdman əlaçısı", 2002-ci ildə isə "Azərbaycan Respublikasının fəxri bədən tərbiyəsi və idman işçisi" fəxri adları ilə təltif olunub. H.Qurbanov bir müddət (1993-1996-cı illər) Türkiyənin aparıcı Universitetlərində müəllimlik edib. O, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında bədən tərbiyəsi müəllimləri və respublikanın yığma koman-

dalarının məşqçiləri ilə müntəzəm əlaqə saxlayır, onlarla elmi-metodiki seminarlar keçirərək idman elminin yeniliklərini onlara çatdırır.

H.Qurbanovun elmi kadrların hazırlanmasında da rolu böyükdür. O, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında magistraturanı müvəffəqiyyətlə bitirmiş 18 magistrin elmi dissertasiyasının rəhbəri olub və hal-hazırda 3 namizədlik dissertasiyasına rəhbərlik edir.

2005-ci ildə Hənifə Qurbanova professor elmi adı verilib. Azərbaycan Respublikasının Prezdentinin 2010-cu il tarixli sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

Onun yazdığı "Fiziki Tərbiyənin Tədrisi Metodikası" dərsliyi 2011-ci ildə bədən tərbiyəsi və idman sahəsində yazılan kitablar arasında birincilik qazanıb.

Hənifə Qurbanov Azərbaycan Respublikası Xüsusi Olimpiya İcraiyyə Komitəsinin üzvü, Təhsil Nazirliyinin Elmi-metodik şurasının bir bölməsində sədr müavini, digərində isə üzvdür.

O Azərbaycan Respublikasında "Fiziki tərbiyə" üzrə Milli kurikulumun müəlliflərindən biri və bu sənəd əsasında yazılmış yeni dərsliklərin müəlliflərindən biridir.

Minarə Rəhim qızı Dadaşova

pedaqoji elmlər doktoru, professor
(1948)

4 may 1948-ci ildə Bakı şəhərində anadan olub. 1965-ci ildə Dövlət Təhlükəsizliyi Nazirliyinin nəzdindəki orta ixtisas musiqi məktəbini, 1966-cı ildə Bakı şəhər 34 №-li orta məktəbi bitirib. 1965-1982 -ci illərdə həmin məktəbdə fortepiano müəllimi kimi fəaliyyət göstərib. 1966-1971-ci illərdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano şöbəsində təhsil alıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi alətləri kafedrasında müəllim (1982-1989), baş müəllim (1989-1994, dosent (1994-2007) vəzifələrində işləyib. 1984-1988-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogikanın tarixi və nəzəriyyəsi ixtisası üzrə aspirantı olub. "Pedaqoji fakültə tələbələrində yaradıcı təxəyyülün tərbiyəsi" mövzusunda namizədlik (1989), "Fortepiano sinfində tələbələrin musiqi bilik, bacarıq və vərdişlərinin forma-

laşdırılması üzrə işin sistemli (pedaqoji ali məktəblərin materialları əsasında)" mövzusunda doktorluq dissertasiyası (2006) müdafiə edib. 2001- 2017-ci illərdə Musiqi alətləri fənlərinin tədrisi metodikası kafedrasının müdiri vəzifəsində işləyib. 2007-2017 -ci illərdə Musiqi alətləri fənlərinin tədrisi metodikası kafedrasının professoru olub. 2018-ci ildən isə Musiqi və onun tədrisi metodikası kafedrasının professorudur.

ADPU-nun Elmi Şurasının, Bakı Musiqi Akademiyasının nəzdindəki Dissertasiya Şurasının üzvüdür. Elmi rəhbərliyi ilə 3 nəfər pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.1994-2000-ci illərdə ADPU-nun Pedaqoji fakültəsinin elmi işlər üzrə dekan müavini (ictimai əsaslarla) vəzifəsində çalışıb.

Tədqiqatları musiqi pedaqogikasının nəzəri və praktik problemlərini əhatə edir. 1 monoqrafiyanın, 2 dərsliyin, 8 dərs vəsaitinin, 3 fənn proqramının, 80 -dən çox elmi-metodiki məqalənin müəllifidir. Ümumtəhsil məktəbləri üçün nəzərdə tutulan "Musiqi" dərsliklərini rus dilinə tərcümə edib. "Tələbələrin musiqi təfəkküründün inkişafına kömək göstərən biliklər" (2002), "Ümumtəhsil məktəbinin gələcək musiqi müəlliminin bacarıq və vərdişləri" (2002), "Fortepiano tədrisinin metodikası" (2007),"Fortepianoda çalmaq üçün" (1998, 2007), "Musiqi müəlliminin hazırlığının metodikası" (2010) kitablarının müəllifidir.

Təhsil Nazirliyi Kollegiyasının qərarı ilə 2006 və 2010-cu illərdə "Fəxri fərman"la təltif olunub. Beynəlxalq və respublika səviyyəli konfranslarda fəal iştirakına görə sertifikatlarla təltif edilib. "Azərbaycanın tanınmış xanımları" (2003) və "XXI əsr Azərbaycan ziyalıları" beynəlxalq layihəsinin (2009) qalibi olub. ADPU-da keçirilən "İlin alimi" (2008, 2011), "İlin müəllimi" (2011) müsabiqəsinin qaliblərindən biri olub. "Azərbaycan Bayrağı" media mükafatının laureatıdır (2014). ADPU və Təhsil işçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən Fəxri fərmanla, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 18 aprel tarixli Sərəncam ilə "Tərəqqi" medalı ilə təltif olunub.

Əli Əyyub oğlu Mehtiyev

pedaqogika üzrə fəlsəfə doktoru, professor,
Beynəlxalq dərəcəli hakim, Əməkdar məşqçi
(1950)

6 yanvar 1950-ci ildə Qərbi Azərbaycanın Eçmiədzin rayonunun Rəncbər kəndində anadan olub. 1957-1965-ci illərdə Rəncbər kənd orta məktəbində,



1965-1968-ci illərdə Sumqayıt şəhər 5 №-li ümumtəhsil orta məktəbində oxuyub. 1978-1983-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunun (indiki ADBTİA) Pedaqoji fakültəsində təhsil almışdır. 1974-cü ildə sərbəst güləş üzrə SSRİ idman ustası adına layiq görülüb. Həmin ildən həm də məşqçilik fəaliyyətinə başlayıb. 1974-1978-ci illərdə "Neftçi" Könüllü İdman Cəmiyyətinin Mərkəzi Şurasının nəzdindəki xüsusi uşaq idman məktəbində metodist və məşqçi işləyib. 1978 - 1981-ci illərdə "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətində baş məşqçi, 1981-1983-cü illərdə Respublika idman təmayüllü orta ümumtəhsil internat məktəbində sərbəst güləş üzrə məşqçi-müəllim işləyib. O, Avropa və SSRİ çempionları, habelə beynəlxalq və respublika yarışlarının qalibləri və mükafatçıları hazırlayıb. 1984-cü ildə Azərbaycan Respublikasının Əməkdar məşqçisi və Ümumittifaq dərəcəli hakim adlarına layiq görülüb. V.İ.Lenin adına ADPİ-nin "İbtidai hərbi hazırlıq və bədən tərbiyəsi" fakültəsinin "Təknövlülük və gimnastika kafedrasında" müəllim (1983-1990), baş müəllim (1990-1992) işləmişdir. Respublika ali məktəblərinin sərbəst güləş üzrə yığma komandasına rəhbərlik edib. Sonra fəaliyyətini ADPU-nun İbtidai hərbi hazırlıq və bədən tərbiyəsi fakültəsinin Fiziki tərbiyənin nəzəri əsasları və yüngül atletika kafedrasında davam etdirib. Burada baş müəllim (1992-1994), dosent və kafedra müdiri (1994-1999) vəzifələrində çalışıb. 1997-ci ildə "Məktəbdənkənar tərbiyə müəssisələrində şagirdlərin fiziki hazırlıq və hərbi-vətənpərvərlik tərbiyəsi" (Azərbaycan xalqının qəhrəmanlıq dastanlarının materialları əsasında) mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. Tələbə İdman Klubuna rəhbərlik etdiyi müddətdə Universitetin müxtəlif idman növləri üzrə yığma komandaları respublika ali məktəbləri arasında birincilik qazanıb, Ümumittifaq və beynəlxalq yarışlarda iştirak edib.

2000-2016 -cı illərdə ADPU-nun Ümumi bədən tərbiyəsi kafedrasının müdiri vəzifəsində çalışıb. 2007-ci ildə həmin kafedranın professoru seçilib. Təhsil Nazirliyinin əmri ilə ali məktəblərdə bədən tərbiyəsi kafedralarının ləğv edilməsi ilə əlaqədar olaraq Fiziki tərbiyə və çağırışaqədərki hazırlığın tədrisi metodikası kafedrasına professor vəzifəsinə keçirilib. Hazırda həmin vəzifədə çalışır. Milli Olimpiya Akademiyasının üzvüdür. "Güləş yarışlarının təşkili və keçirilməsi" (1992), "Məktəbdənkənar tərbiyə müəssisələrində şa-

girdlərin fiziki hazırlıq və hərbi vətənpərvərlik tərbiyəsi" (2008), "Fiziki tərbiyə və onun tədrisi metodikası" (2009), "Ali məktəblərdə tələbələrin fiziki tərbiyəsi" (2014) adlı dərs vəsaitlərinin, 20 proqramın, 40 -dan artıq elmi məqalə və tezisin müəllifidir.

Zemfira Kəlpəli qızı Abdullayeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
professor
(1951)

25 iyul 1951-ci ildə Bakı şəhərində anadan olub. 1958-1966-cı illərdə 99 №-li orta məktəbdə, 11 №-li musiqi məktəbində, 1966-1970-ci illərdə Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbində oxumuşdur. 1970-ci ildə orta ixtisas musiqi məktəbini fərqlənmə diplomu ilə bitirərək Azərbaycan Dövlət Konservatoriyasının fortepiano ifaçılığı şöbəsinə daxil olmuşdur. 1975-ci ildə konservatoriyanı solo ifaçı, musiqi müəllimi, kamera ansamblının solisti və konsertmeyster ixtisasları üzrə bitirmişdir.

1975-ci ildə Bakı şəhəri 8 №-li uşaq musiqi məktəbində müəllim, 1980-cı ildən Lenin adına ADPİ-də yeni açılmış "Musiqi və onun tədrisi metodikası" kafedrasında konsertmeyster vəzifəsində çalışmışdır. 1982-ci ildən ADPİ-nin "Musiqi alətləri" kafedrasının müəllimi olmuşdur. 1988-ci ildə "Azərbaycan xalq mahnı və rəqslərinin notlaşdırılması və fortepiano üçün işləmələri" mövzusunda namizədlik dissertasiyasını müdəfiə etmişdir. ADPU-nun Musiqi alətləri kafedrasında baş müəllim (1988-1994), dosent (1994-2009) vəzifələrində çalışıb. 2009-cu ildən "Musiqi alətləri fənlərinin tədrisi metodikası" kafedrasının professoru olmuşdur. 2017-ci ildən ADPU-nun "Musiqi və onun tədrisi metodikası" kafedrasının müdiridir.

1998-2002-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetdə, 2015-2019 -cu illərdə Bakı Musiqi Akademiyasında fəaliyyət göstərən Müdafiə Şurasının, 2000-2016-cı illərdə Pedaqoji fakültənin Elmi Şurasının üzvü olub. 2016-cı ildən Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və ÇH fakültəsinin elmi şurasının üzvüdür.

2008-ci ildə "Tofiq Quliyev" monoqrafiyasına görə "Humay" mükafatı, 2010-cu ildə Təhsil Nazirliyinin Fəxri Fərmanı, 2011-ci ildə "Qabaqcıl təhsil

işçisi" döş nişanı ilə təltif olunmuşdur. 2010-cu və 2011-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən "İlin müəllimi" müsabiqəsinin qaliblərindən biri olub. "Vektor" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "XXI əsr Azərbaycanın ziyalı qadınları" müsabiqəsinin qalibi olub. Musiqi pedaqogikası, sənətşünaslıq, musiqi ifaçılığına həsr olunmuş çoxsaylı elmi və metodik əsərlərin müəllifidir. 6 monoqrafiya, 6 dərslik, 3 dərs vəsaiti, 60-dan çox elmi məqalə və 10 tədris proqramının müəllifidir. "Fikrət Əmirov" (2004), "Ecazkar sənətkar" (2007), "Mahnılarda döyünən ürək" (2017) monoqrafiyaları nəşr olunub.

35 nəfərin musiqişünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin rəsmi opponenti olub. Mütəmadi olaraq dövrü mətbuatda, televiziya və radio verlişlərində, respublika və Beynəlxalq konfranslarda çıxış edir.

Jalə Həmid qızı Qədimova

pedaqoji elmlər doktoru, professor
(1954)

7 iyul 1954-cü ildə Gəncə şəhərində anadan olub. l972-ci ildə Gəncə Musiqi Texnikumunu, 1977-ci ildə isə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirib. 1983-1984-cü illərdə ADPU-nun Musiqi alətləri kafedrasında konsertmeyster, 1984 -1991-ci illərdə müəllim, 1991-1996-cı illərdə baş müəllim, 1996-2008-ci illərdə dosent vəzifəsində çalışıb. 2009-cu ildən həmin kafedranın professorudur. 1998-2016 -cı illərdə ADPU-nun Musiqi və onun tədrisi metodikası kafedrasına rəhbərlik etmişdir. 2017-ci ildən həmin kafedranın professorudur.

1994-cü ildə "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan maarif xadimlərinin irsində musiqi tərbiyəsi məsələləri" mövzusunda namizədlik, 2007-ci ildə "Müasir dövrdə Azərbaycanda musiqi tədrisi və tərbiyəsinin problemləri və onların həlli yolları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

"Формы и методы исползования идей Азербайджанских просветителей в музыкальном воспитании" (1994), "Məktəb mahnı üzərində iş musiqi

müəlliminin hazırlığında əsas amil kimi" (1994), "Вопросы музыкального воспитания в творческом наследии Азербайджанских просветителей конца XIX, начала XX веков" (1995), "Проблемы музыкального обучения и воспитания в Азербайджане на современном этапе" (2005), "Musiqinin tədrisi metodikası" (2007), "Musiqi" (2007) (E.Əfəndiyeva ilə birlikdə), "Etnomusiqişünaslıq" (2009), "Методика музыкального образования" (2011) (L.Həsənova ilə birlikdə), "Musiqi pedaqogikası: tarixilik və müasirlik" (2012) adlı monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. Ali pedaqoji məktəblərin musiqi müəllimliyi ixtisası ilə bağlı 11 proqramın, 50-dən artıq elmi məqalənin müəllifidir. 20-yə yaxın beynəlxalq seminar, simpozium və konfransda ali məktəb pedaqogikası, musiqi pedaqogikası, musiqi ədəbiyyatı və tarixi ilə bağlı məruzələr etmiş, elmi-diskussiyalarda iştirak etmişdir.

1998-2011-ci illərdə ADPU YAP qadınlar şurasının sədri, Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon Qadınlar Şurası idarə heyətinin, həmçinin Universitetin YAP idarə heyətinin üzvü, 2009-2017-ci illərdə Azərbaycan Qızıl Aypara cəmiyyətinin ADPU bölməsinin sədri olmuşdur. 2018-ci ildən ADPU-nun Tədris Metodiki Şurasının üzvüdür. 2002-2008-ci illərdə Bakı Musiqi Akademiyasında yaradılmış Dissertasiya Şurasının üzvü, 2008-2016-cı illərdə AAK-ın ekspert şurasının üzvü, 2017-2018-ci illərdə həmin şuranın sədr müavini olmuşdur.

2007, 2008, 2010-cu illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Fəxri fərman"la, həmçinin YAP Səbail rayon təşkilatının "Fəxri fərman"ları, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının "Fəxri fərman"ı, Səbail rayon YAP təşkilatının İdarə heyəti tərəfindən "Fəxri fərman"la təltif olunmuşdur. 2012-ci ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir. Elmi rəhbərliyi ilə 5 nəfər pedaqogika üzrə fəlsəfə doktoru yetişdirmişdir. 2016-cı ildən "Musiqi elmi, mədəniyyəti və təhsilin aktual problemi" adlı beynəlxalq jurnalın baş redaktorudur.

Tamilla Əli qızı Bağırova

pedaqogika üzrə elmlər doktoru, professor

(1954)

7 mart 1954-cü ildə Bakı şəhərində anadan olub. 1961-ci ildə 154 №-li ümumtəhsil məktəbinə və 5 №-li musiqi məktəbinə daxil olub. 1969-1973-cü illərdə A.Zeynallı adına Musiqi Texnikumunda, 1973-1978-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının İfaçılıq fakültəsində

təhsil alıb. 1978-1979-cu illərdə 18 №-li musiqi məktəbində, 1979-1989-cu illərdə 23 №-li musiqi məktəbində müəllim işləyib.

1986-1989-cu illərdə ADPU-nun Musiqi və onun tədrisi metodikası kafedrasında saathesabı müəllim, 1989-1992-ci illərdə konsertmeyster, 1992-1993-cü illərdə müəllim, 1993-1996-cı illərdə baş müəllim, 1996-2010-cu illərdə dosent, 2010-cu ildən professor vəzifəsində çalışır.

1990-cı ildə "Azərbaycanda uşaq musiqi məktəblərinin yaranması və inkişafı (1920-1961)" mövzusunda namizədlik, 2007-ci ildə "Pedaqoji fikir tarixində musiqi ilə sözün sintezinin təşəkkülü, inkişafı və problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2009-2015-ci illərdə Bakı Musiqi Akademiyasında fəaliyyət göstərən Dissertasiya Şurasının nəzdindəki elmi seminarın sədri olub. Musiqinin tədrisi metodikası ilə bağlı xeyli namizədlik və doktorluq dissertasiyalarına rəy yazıb, rəsmi opponent kimi çıxış edib.

2016-2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Fəlsəfə, sosiologiya, psixologiya və pedaqogika ekspert şurasının üzvü olub. Elmi rəhbərliyi ilə 1 nəfər pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib.

"Становление и развитие детских музыкальных школ в Азербайджане (1920-1961 г.)" (1994), "Синкретизм искусств в воспитании индивида и социума" (2005), "Синтез музыки и слова в истории педагогической мысли" (2008) monoqrafiyalarının, "Etnomusiqişünaslıq" (prof.J.Qədimova ilə birlikdə) (2009), "Uşaq musiqi yaradıcılığı" (2012) dərsliklərinin, "Формирование технического мастерства музыканта-инструменталиста" (N.Abutidze ilə birlikdə) (1996), "Aşıq sənətinin yaranma tarixi və inkişafı" (F.Hidayətova ilə birlikdə) (2009), "Aşıq mahnıları" (2015) dərs vəsaitlərinin, 6 tədris proqramının, Azərbaycanda və xaricdə nəşr edilmiş 50 elmi məqalənin müəllifidir.

Soltan Həmid oğlu Atayev
pedaqoji elmlər namizədi, professor
(1954)

5 noyabr 1954-cü ildə Balakən rayonunun Katex kəndinə anadan olub.1961-1971-ci illərdə Zaqatala şəhəri 2 №-li internat məktəbində, 1971-1974-cü illərdə Bakı şəhəri 4 №-li rəssamlıq məktəbində təhsil alıb.1974-1977-ci illərdə hərbi xidmətdə olub.1977-1982-ci illərdə ADPİ-nin təsviri sənət və rəsmxət ixtisasında təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə bitirib. Pedaqoji fəaliyyətə ADPİ-nin Təsviri sənət və onların tədrisi metodikası kafedrasında baş laborant kimi başlayıb. 1984-1989-cu illərdə həmin kafedrada müəllim və baş müəllim vəzifələrində işləyib.

1994-cü ildə "İbtidai sinif şagirdlərinin estetik tərbiyəsində Azərbaycan dekorativ tətbiqi sənət materiallarından istifadə" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1994- 1999-cu illərdə Təsviri sənət və onların tədrisi metodikası kafedrasının, 2000-2014-cü illərdə Təsviri sənət, rəsmxətt və onların tədrisi metodikası kafedrasının müdiri vəzifəsində işləyib. 2001-ci ildə "İbtidai siniflərdə təsviri sənətin tədrisi metodikası" adlı dərs vəsaiti Təhsil Cəmiyyətinin təsis etdiyi ən yaxşı dərs vəsaitinə görə ilin qalibi olmuş, diplom və pul mükafatı ilə təltif edilmişdir.

2005-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. 2008-ci ildə ona dosent elmi adı verilib.

2014-2017-ci illərdə yaradıcılıq işləri ilə məşğul olub.

2017-ci ildən "Odlar Yurdu" Universitetində pedaqoji fəaliyyətini davam etdirir. 2018-ci ildən "Odlar Yurdu" Universitetində təşəbbüsü ilə yaradılan Dizayn kafedrasına rəhbərlik edir. 2020-ci ildə ona professor elmi adı verilmişdir. Xeyli respublika və universitet səviyyəli tədbirlərin tərtibatçısı olub. 3 dərslik və dərs vəsaitinin, 5 metodiki göstərişin, 30-a yaxın proqram və məqalənin müəllifidir.

2012-ci ildə ADPU-nun 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Əməkdar rəssam fəxri adına layiq görülüb.

İbtidai təhsil fakültəsi

Mərdan Əsədulla oğlu Muradxanov
pedaqoji elmlər namizədi, professor,
Əməkdar elm xadimi
(1909-1979)

30 may 1909-cu ildə Salyan şəhərində anadan olmuşdur. Atası Əsədulla bəy Rusiyanın 1-ci Dövlət Dumasının deputatı olub. İlk təhsilini Salyan şəhərində almışdır. 1927-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirmişdir. 1927-1929-cu illərdə Salyan şəhərində müəllim işləmişdir. 1929-cu ildə ADU-nun Pedaqoji fakültəsinə qəbul olunsa da, 1932-ci ildə Pedaqoji İnstitutu bitirib. 1932-1935-ci illərdə Azərbaycan ETPEİ-də baş laborant, kiçik elmi işçi, 1932-1934-cü illərdə "Azərnəşr"də redaktor vəzifəsində işləmişdir. 1934- 1936-cı illərdə Bakıdakı 18 №-li məktəbdə və BXMŞ-də pedoloq işləyib. 1936-1938 -ci illərdə Azərbaycan ETPEİ-də kiçik elmi işçi, 1938-1939-cu illərdə Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda müəllim, 1939-1941-ci illərdə ADPİ-də baş müəllim işləyib. 1941-1945-ci illərdə sovet-alman müharibəsinin iştirakçısı olub. 1943-cü ilin dekabrın 30-da ADU-nun Elmi Şurasında "Nizaminin pedaqoji görüşləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Ümumittifaq Ali Təhsil Komitəsi yanında AAK tərəfindən 8 mart 1946 –cı ildə ona pedaqoji elmlər namizədi elmi dərəcəsi verilib.1945-1946 -cı illərdə Azərbaycan ETPEİ-də baş elmi işçi, əvəzçiliklə M.F.Axundov adına ikiillik Müəllimlər İnstitutunda baş müəllim, 1946-1952-ci illərdə Azərbaycan ETPEİ-də elmi işlər üzrə direktor müavini vəzifəsində işləyib. 1952-1956-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Pedaqogika və psixologiya kafedrasına, 1960-1979-cu illərdə İbtidai təhsil pedaqogikası və metodikası kafedrasına rəhbərlik edib. SSRİ Ali Təhsil Nazirliyi yanında AAK tərəfindən 9 mart 1949-cu ildə ona Pedaqogika kafedrası üzrə dosent, 27 may 1961-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən professor elmi adı verilib. 1973-cü ildə Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

"Pedaqogika" (1958-1959, 1964) dərsliyinin, Moskvada nəşr edilən 2 cildlik "Pedaqoji lüğət"in və 4 cildlik "Pedaqoji ensiklopediya"nın müəlliflərindəndir. Elmi rəhbərliyi ilə 20 nəfər pedaqoji elmlər namizədi yetişmişdir. Eyni vaxtda 3 Elmi Şuranın (M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun, Azərbaycan ETPEİ-nin, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun) və Ali və Orta İxtisas Təhsil Nazirliyinin elmi-metodik komissiyasının üzvü olmuşdur. "Azərbaycan məktəbi" jurnalının redaksiya heyətinin üzvü, "Təşviqatçı" jurnalında və Bakı qəzetində "Valideyn guşəsi"nin rəhbəri olmuşdur. M.Muradxanov "Nizami Gəncəvinin pedaqoji ideyaları" (1947), "Pedaqogika və psixologiya terminləri lüğəti" (1956,1958) "Dərs hazırlamaqda uşaqlara valideynlərin köməyi" (1939), "Ailədə uşağın əmək tərbiyəsi" (1952), "Orta məktəbdə intizam tərbiyəsi" (1955), "Uşaqların tərbiyəsində ailə mühüm ocaqdır" (1961), "Məktəblilərin əxlaq tərbiyəsinin prinsip və üsulları" (1962), "İbtidai sinif müəllimlərinə kömək" (1966), "Məktəblilərin ailədə tərbiyəsi" (1972), "Ali məktəbdə mühazirə" (1976), "50 sual-50 cavab" (1980) "A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri" (1965) kitablarının 134 jurnal və 255 qəzet məqaləsinin müəllifidir.

"Qırmızı Əmək Bayrağı" ordeni, "Əmək rəşadətinə görə" xatirə medalı, "Qabaqcıl maarif xadimi" döş nişanı və müxtəlif təşkilatların "Fəxri fərmanlar"ı ilə təltif olunmuşdur.

11 aprel 1979-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Nüsrət Abdulla oğlu Sadıqov
pedaqoji elmlər namizədi, professor
(1927-1993)

10 dekabr 1927-ci ildə Ağdam şəhərində anadan olub. 1946-cı ildə Bakı şəhərindəki 1 №-li orta məktəbi bitirib. 1946-1950-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsində oxuyub. 1950-1954-cü illərdə Mirbəşir rayonunun (indiki Tərtər rayonu) Evoğlu kəndində, 1954-1956-cı illərdə Bakıda 40 №-li fəhlə-gənclər məktəbində riyaziyyat müəllimi işləyib. 1956-1957-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Riyazi analiz kafedrasında baş laborant işləyib.1957-1960-cı il-

lərdə V.İ.Lenin adına ADPİ-nin aspiranturasında təhsil alıb. 1960-62-ci illərdə Elementar riyaziyyat və riyaziyyatın tədrisi metodikası kafedrasında müəllim, 1962-1966-cı illərdə baş müəllim vəzifəsində çalışıb.

27 sentyabr 1962-ci ildə akademik İ.İ.İbrahimovun elmi rəhbərliyi ilə ADPİ-nin Elmi Şurasında "Orta məktəbdə limitin öyrədilməsi" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 1 aprel 1964-cü ildə pedaqoji elmlər namizədi elmi dərəcəsi verilib.

1963-1966-cı illərdə Riyaziyyat-fizika fakültəsinin dekan müavini olub. 12 oktyabr 1966-cı ildə Riyaziyyat və ibtidai siniflərdə hesab tədrisi metodikası kafedrasının müdiri seçilib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 29 iyun 1966-cı ildə dosent elmi adı verilib. 22 oktyabr 1975-ci il tarixində Riyaziyyat və ibtidai siniflərdə hesab tədrisi metodikası kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında AAK tərəfindən ona 13 may 1977-ci ildə professor elmi adı verilib. 1993-cü ilə kimi Pedaqoji fakültənin Riyaziyyat və onun tədrisi metodikası kafedrasına rəhbərlik edib.

"Limitdən inteqrala" (1971), "Nəzəri və praktik hesab" (şərikli) (1969), "Riyaziyyatın tədrisi metodikası (I-III siniflər) (1979), "Riyaziyyat tədrisi metodikası: xüsusi metodika" (1981), "Ali riyaziyyat və riyazi məntiq elementlər" (şərikli) (1985),"Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları" (şərikli) (1986) dərslik və dərs vəsaitlərinin, 80-dən artıq elmi məqalənin müəllifi olub.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri Fərman"ı, "Sosializm yarışının qalibi" döş nişanı", "Lenin yubiley medalı" ilə təltif olunub.

25 dekabr 1993-cü ildə Bakı şəhərində vəfat edib.

Sərdar Musa oğlu Quliyev

pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim
(1932)

7 aprel 1932-ci ildə Füzuli rayonunun Dədəli kəndində anadan olmuşdur. 1939-1947-ci illərdə Dədəli kənd 7 illik məktəbində, 1947-1949-cu illərdə Füzuli şəhərindəki Pedaqoji Texnikumda, 1949-1953-cü illərdə V.İ.Lenin adına ADPİ-nin Tarix fakültəsində təhsil almışdır. 1953-cü ildə təyinatla Naxçıvan ikiillik Müəllimlər İnstitutuna müəllim təyin olunmuşdur. 1953-cü

ildə ikiillik institutlar ləğv edildiyinə görə, Maarif Nazirliyinin təyinatı ilə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kənd orta məktəbinə tarix müəllimi göndərilmişdir. 1954-1958-ci illərdə Dədəli kənd yeddiillik məktəbində direktor işləmişdir. Göyçay rayon xalq maarif şöbəsində metodist, inspektor (1958), Göyçay şəhər 4 №-li orta məktəbdə direktor (1959-1964) işləmişdir. 1964-cü ilin oktyabr ayında Azərbaycan ETPEİ-nin aspiranturasına daxil olmuşdur. 1968-ci ildə "Şagirdlərin düzlük və doğruçuluq tərbiyəsi" mövzusunda namizədlik, 1988-ci ildə Tbilisi Dövlət Universitetinin nəzdindəki Müdafiə Şurasında "Şagirdlərin mənəvi tərbiyəsində ailə, məktəb, ictimaiyyətin birgə işinin elmi pedaqoji əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə professor elmi adına layiq görülmüşdür.1988-1990-cı illərdə ADPU-da hazırlıq şöbəsinin dekanı, partiya komitəsinin katibi, axşam və qiyabi işlər üzrə prorektor, 1992-1997-ci illərdə İbtidai təhsil pedaqogikası və metodikası kafedrasının müdiri vəzifələrində işləmişdir. 17 il müddətində "Ailə və məktəb", həmçinin "Valideynlər, sizin üçün" verilişinin aparıcısı və ssenari müəllifi olmuş, 50-dən artıq ssenari yazmışdır. 4 doktorluq, 29 namizədlik dissertasiyasının rəsmi opponenti olmuşdur. Elmi rəhbərliyi ilə 5 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. ADPU-da və BDU-da təşkil edilən Dissertasiya Şuralarının üzvü olmuşdur. 20-dən çox kitabın, 200 elmi-pedaqoji və publisistik məqalənin müəllifidir. Azərbaycan Respublikasının "Maarif əlaçısı", "Qabaqcıl maarif xadimi" və "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuş, Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

Seyidağa Sail oğlu Həmidov
pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim
(1938-2018)

20 aprel 1938-ci ildə Lənkəran rayonunun Boladi kəndində anadan olmuşdur. Boladi kənd orta məktəbində (1945-1955), V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsində oxumuşdur (1955-1960). Bakının Qaradağ

rayonunun 223, 166 və 233 №-li məktəblərində fizika və riyaziyyat müəllimi işləmişdir. 1966-cı ildən ADPİ-nin Elementar riyaziyyat və onun tədrisi metodikası kafedrasında müəllim işləmişdir. ”VII-VIII siniflərdə nəzəri hesab elementlərinin tədrisi metodikası” mövzusunda namizədlik (1972), “Gələcək ibtidai sinif müəllimlərinin riyazi hazırlığının peşə-pedaqoji istiqaməti” mövzusunda doktorluq (1992) dissertasiyası müdafiə etmişdir.

“Müqayisə nəzəriyyəsi elementlərinin riyazi isbat və hesablamalara tətbiqi” (1984), “Elementar riyazi təsəvvürlərin formalaşdırılması kursunun nəzəri əsasları” (1987), “Uşaqlarda elementar riyazi təsəvvürlərin formalaşdırılması metodikası” (1988), “Pedaqoji fakültədə riyaziyyatın tədrisi metodikası” (1990) “Riyaziyyatın tədrisi metodikası (I-IV siniflər) (şərikli, 1994)”, “Həndəsədən didaktik materiallar” (1994), “Riyaziyyatın tədrisi metodikası (I-IV siniflər) (1997)”, “Riyaziyyatın tədrisi metodikası (2001)”, “Riyaziyyatdan məsələ və misallar” (şərikli, 1983), “İbtidai siniflərdə məsələ həlli təliminin aktual problemləri” (şərikli, 2008) adlı dərslik və dərs vəsaitlərinin, 200-dən artıq elmi və metodiki məqalənin müəllifidir. Ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün riyaziyyat dərsliklərinin rus dilindən tərcümə edilməsində və nəşrə hazırlanmasında da mühüm xidmətləri olmuşdur. Ona 1994-cü ildə professor elmi adı verilmişdir. Elmi rəhbərliyi altında 14 nəfər namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. ADPU-nun Pedaqoji fakültə həmkarlar təşkilatının sədri, ilk partiya təşkilatının katibi, universitet Elmi şurasının elmi katibi (1994-2000), 1973-2016-cı illərdə pedaqoji elmlər üzrə namizədlik və doktorluq dissertasiyalarının Müdafiə Şurasının üzvü, 2000-2005-ci illərdə elmi katibi olmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında ekspert şurasının elmi katibi (1995-2000) vəzifəsində çalışmışdır. 1994-2016 -cı illərdə Riyaziyyat və onun ibtidai kursunun tədrisi metodikası kafedrasının müdiri olmuşdur.

Təhsil Nazirliyinin “Fəxri fərman”ı (1973) və “Qabaqcıl təhsil işçisi” (2011) döş nişanı ilə təltif edilmiş, Əməkdar müəllim fəxri adına (2006) layiq görülmüşdür.

18 yanvar 2018-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Sərxan Aslan oğlu Feyziyev
pedaqoji elmlər doktoru
(1939)

1939-cu ildə Lerik rayonunun Aran kəndində anadan olmuşdur. Kənd yeddillik məktəbində, Lerik rayon, Şingədulan kənd orta məktəbində (indiki Vəli Məmmədov adına orta məktəb) təhsil almışdır. Məktəbi gümüş medalla bitirmişdir. 1957-1962-ci illərdə V.İ.Lenin adına ADPİ-nin Fizika-riyaziyyat fakültəsində oxumuşdur. Lerik rayon Şingədulan kənd orta məktəbində riyaziyyat müəllimi (1962-1966) işləmişdir. Azərbaycan EA-nın Mexanika-Riyaziyyat İnstitutunun aspirantura-sında oxumuş, funksiyalar nəzəriyyəsi sahəsində tədqiqat aparmışdır. V.A.Steklov adına Riyaziyyat İnstitutunda "Ümumiləşmiş hamarlığa malik funksiyaların inteqral göstərilişi və daxiletmə teoremləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Fizika və riyaziyyatın tədrisi metodikası kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 2011-ci ildə "Diferensiallaşdırılmış təlim şəraitində istedadlı şagirdlərin riyazi hazırlığı prosesinin intensivləşdirilməsi üzrə işin təşkili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir 15 kitab və kitabçanın, 100 elmi məqalənin müəllifidir. 2015-2017-ci illərdə ADPU-nun Riyaziyyat və onun ibtidai kursunun tədrisi metodikası kafedrasının dosenti olmuşdur. 2017-ci ildə səhhəti ilə əlaqədar olaraq pedaqoji fəaliyyətdən uzaqlaşmışdır.

Məcid Abdulla oğlu İsmixanov
pedaqogika elmləri namizədi, professor
(1940)

5 may 1940-cı ildə Quba (keçmiş Qonaqkənd) rayonunda anadan olub. 1958-1962-ci illərdə ADPİ-nin Pedaqoji fakültəsində oxuyub. 1962-1964-cü illərdə hərbi xidmətdə olub. ADPİ-nin İbtidai təhsil pedaqogikası və metodikası kafedrasında assistent-müəllim, 1964-1969-cu illərdə baş müəllim, 1969-1982-ci illərdə dosent vəzifəsində işləyib.

1968-ci ildə "Az komplektli məktəbdə dərsin xüsusiyyətləri və təkmilləşdirilməsi yolları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

1982-1987-ci illərdə "Azərbaycan məktəbi" jurnalının redaktoru vəzifəsində çalışıb. 1987-2003-cü illərdə Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasında dosent, 2003-cü ildən professor vəzifəsində çalışır. Rusiya, Ukrayna, Belorusiya, Azərbaycan və başqa MDB respublikalarında keçirilmiş 20-dən artıq beynəlxalq elmi konfrans və simpoziumlarda iştirak edib, SSRİ PEA-nın Elmi-Problem Şurasının üzvü olub. Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanına, müxtəlif təşkilatların və media qurumlarının "Fəxri Fərman"ları ilə təltif edilib. Respublika Jurnalistlər Birliyinin üzvüdür. 20 kitabın (o cümlədən 12 dərslik və dərs vəsaitinin), 10 tədris-metodik vəsaitin, 3 monoqrafiyanın, 300-dən çox elmi məqalənin müəllifidir.

Xəlil Qənimət oğlu Fətəliyev

pedaqoji elmlər doktoru, professor
(1944 - 1998)



14 fevral 1944-cü ildə Ağcabədi rayonunun Üzeyirkənd kəndində anadan olub. 1951-1961-ci illərdə Ağcabədi rayonundakı Nizami adına orta məktəbdə oxuyub. 1961-1962-ci illərdə Ağcabədi rayonunda "Şəfəq" kolxozunda kolxozçu, 1962-1963-cü illərdə Nizami adına orta məktəbdə pioner baş dəstə rəhbəri, 1963-1965-ci illərdə Ağcabədi rayonundakı 19 №-li tikinti-quraşdırma idarəsində fəhlə işləyib.

1965-1969-cu illərdə V.Lenin adına APİ-nin Pedaqoji fakültəsində təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə bitirdiyinə görə Ali və Orta İxtisas Təhsil Nazirliyinin təyinatı ilə V.Lenin adına APİ-nin İbtidai təhsil pedaqogikası və metodikası kafedrasında assistent saxlanılıb. İbtidai təhsil pedaqogikası və

metodikası kafedrasında müəllim (1969-1974), baş müəllim (1974-1977), dosent (1977- 1988), professor (1988-1998) vəzifələrində işləyib.

5 aprel 1974-cü ildə "Kiçik və orta yaşlı pionerlərin əxlaq tərbiyəsində hərbi idman oyunlarının rolu" mövzusunda namizədlik, 25 noyabr 1986-cı ildə "Orta ümumtəhsil məktəblərində hərbi-vətənpərvərlik tərbiyəsinin nəzəriyyə və praktikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. SSRİ Ali Attestasiya Komissiyası tərəfindən ona 14 may 1975-ci ildə pedaqoji elmlər namizədi, 9 oktyabr 1987-ci ildə isə pedaqoji elmlər doktoru elmi dərəcəsi, 5 sentyabr 1977-ci ildə İbtidai təhsilin pedaqogikası və metodikası kafedrası üzrə dosent, 31 may 1990-cı ildə professor elmi adı verilib.

Azərbaycan Pedaqoji Cəmiyyətinin hərbi-vətənpərvərlik tərbiyəsi bölməsinin sədri olub (1986-1991). 1986-1987-ci illərdə ictimai peşələr fakültəsinin, 1987-1989-cu illərdə Məktəbəqədər tərbiyə fakültəsinin, 1989-1994-cü illərdə Pedaqoji fakültənin dekanı olub.

"Hərbi idman oyunları" (1973), "Hərbi idman oyunları və əxlaq tərbiyəsi" (1977), "Məktəbli gənclərin hərbi vətənpərvərlik tərbiyəsi" (1980), "İbtidai təlim pedaqogikası və metodikası tələbələrinin pedaqoji praktikasına aid metodik göstərişlər" (1980), "Kapital dünyasının gözü yaşlı uşaqları" (1985), "Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsinin istiqamətləri" (1985), "Pioner işinin nəzəriyyə və təcrübəsinə dair metodik göstəriş" (1985), "Dərsdənkənar vaxtlarda hərbi vətənpərvərlik tərbiyəsinin təşkili" (1986), "Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi" (1987), "Pedaqoji irsimizdən: Hacı Kərim Sanılı" (1991) (şərikli), "Halallıq" (1992), "İbtidai təhsil pedaqoqları və metodistləri (I-II hissə)" (1992, 1993) kitablarının, 4 tədris proqramının, 200-ə yaxın elmi-pedaqoji və publisistik məqalənin müəllifidir. "Məktəbdə hərbi-vətənpərvərlik tərbiyəsi" monoqrafiyasına görə Ümumittifaq "Bilik" cəmiyyətinin Fəxri Fərmanı ilə təltif olunub.

1989-1993- cü illərdə V.Lenin adına APİ-də pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisası üzrə fəaliyyət göstərən Müdafiə Şurasının üzvü, 1993-cü ildə isə həm də elmi katibi olub. Elmi rəhbərliyi ilə 5 nəfər namizədlik dissertasiyası müdafiə edib. 25 nəfərin rəsmi opponenti olub.

SSRİ Xalq Təhsili Komitəsinin musiqi pedaqogikası ixtisası üzrə elmi-metodik sovetin (1990-1992), Respublika Xalq Təhsili Nazirliyinin pedaqogika üzrə Elmi-metodik şurasının (1990-1994), V.Lenin adına APİ-nin Elmi Şurasının (1986-1994), Respublika "Bilik" cəmiyyətinin (1970-1991), ADPU-nun "Elmi əsərləri"nin redaksiya heyətinin (1992-1996), "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinin redaksiya heyətinin (1992-1998), Pedaqogika üzrə Elmi-metodik şuranın (1992-1998), Azərbaycan Pedaqoji Cəmiyyəti-

nin (1978-1998), "Dədəm Qorqud" qəzeti redaksiya heyətinin (1991), "İlham" qəzeti redaksiya heyətinin (1992) üzvü, Respublika müəllimlər qurultayının nümayəndəsi (1990) olub.

MAMEİHİ respublika komitəsinin (1981) və "Bilik" cəmiyyətinin (1987) Fəxri fərmanları ilə, "Sosializm yarışının qalibi" (1982) döş nişanı ilə təltif edilib.

12 iyun 1998-ci ildə Bakı şəhərində vəfat edib.

Fərrux Abbas oğlu Rüstəmov
pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi
(1961)

1 yanvar 1961-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində anadan olub. 1968-1978-ci illərdə Cil kənd orta məktəbində, 1978-1982-ci illərdə V.İ.Lenin adına ADPİ-nin (indiki ADPU) Pedaqoji fakültəsində təhsil alıb. Tələbəlik illərində fakültə Əlaçılar şurasının və Tələbə Elmi Cəmiyyətinin sədri olub, "Əla təhsilə görə", "Əla təhsilə və ictimai işə görə" SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin, ÜİLKGİ-nin döş nişanları, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin I-II dərəcəli diplomları, ÜİLKGİ-nin və institut rektorluğunun Fəxri Fərmanları ilə təltif olunub, Lenin təqaüdünə layiq görülüb. 1982-1985-ci illərdə Quba rayonu Rəngidar kənd səkkizillik məktəbində müəllim və məktəb direktoru işləyib. 1985-ci ildə V.İ.Lenin adına ADPİ-nin pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə əyani aspiranturasına daxil olub. 1985-1987-ci illərdə hərbi xidmətdə olub. "Azərbaycanda sovet pedaqoji elminin inkişafı (1961-1981-ci illər)" mövzusunda namizədlik (1989), "Azərbaycanda pedaqoji elmin inkişaf yolları (1920-1991-ci illər) mövzusunda doktorluq (2003) dissertasiyası müdafiə edib. 1988-ci ildə SSRİ Elmlər Akademiyasının Sovet Sosioloqları Assosiasiyasının üzvü seçilib. ADPU-nun "Şagirdlərin peşəyönümü" elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi (1990-1991), ümumi pedaqogika kafedrasında müəllim (1992-1995), dosent (1996-2004), professor (2004-2006) vəzifələrində çalışıb. "Şagirdlərin peşəyönümü" elmi-tədqiqat laboratoriyasına (1996-2000) və "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyasının

"pedaqogika, psixologiya, fəlsəfə" bölməsinə (2000-2004), Bakı Qızlar Seminariyasının (Bakı Qızlar Universitetinin) Pedaqogika kafedrasına (1998-2006), ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasına (2007-2011) və "Pedaqoji təhsilin problemləri" elmi-tədqiqat laboratoriyasına (2008-2011) rəhbərlik edib. 2006-cı ildən "İbtidai təhsilin pedaqogikası və metodikası" kafedrasının professorudur. 2007-2015-ci illərdə ADPU-nun Pedaqoji fakültəsinin dekanı, universitet Elmi Şurasının üzvü, fakültə Elmi Şurasının sədri olub. 2015-ci ilin dekabr ayından İbtidai təhsil fakültəsinin dekanı vəzifəsində çalışır. 2015-ci ildə yeni yaranan Musiqi və təsviri incəsənət fakültəsinə rəhbərlik edib.

35 monoqrafiya, kitab və kitabçası, 31 tədris proqramı, 200-dən çox elmi məqaləsi, 40 tezisi, 140-dan artıq elmi-pedaqoji və publisistik qəzet yazısı işıq üzü görmüşdür, 10 kitabın tərtibçisidir.100-ə yaxın kitabın elmi redaktoru və rəyçisi olub. "Prof. H.Əhmədovun əsərlərinin izahlı biblioqrafiyası" (1990), "Tələbələrin ictimai fəaliyyəti və ona pedaqoji rəhbərlik" (1991), "Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən" (1992), "Günüuzadılmış qruplarda tərbiyə məsələləri" (1993), "M.V.Vidadinin, M.P.Vaqifin, Q.B.Zakirin təlim-tərbiyə haqqında fikirləri" (1994; 2013), "Azərbaycan pedaqoji biblioqrafiyası: məktəb və pedaqogika tarixinə aid ədəbiyyat" (1995), "Görkəmli pedaqogika tarixçisi Əyyub Tağıyev" (1996), "Akademik Hüseyn Əhmədov" (1997), "Azərbaycanda pedaqogikanın nəzəriyyəsi və tarixi üzrə tədris planları, proqramları, dərslik və dərs vəsaitlərinin hazırlanması və təkmilləşdirilməsi tarixi" (1997), "Основные направления развития теория воспитания и обучения в Азербайджане" (1998), "Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri" (1998), "Pedaqogika kafedrasının tarixi: sələflər və xələflər (1999), "Pedaqogikadan kurs və yoxlama işlərinə aid mövzu, plan və ədəbiyyat" (2001), "Pedaqogika. Yeni kurs" (2002,2007,2010), "Ümumtürk pedaqoji fikrində əxlaqi-mənəvi dəyərlər" (2002), "Şərqdə pedaqogika tarixi" (2002), "Qərb pedaqogika tarixi" (2003), "Yeni dövrün pedaqogika tarixi" (2004), "Ən yeni dövrün pedaqogika tarixi" (2005), "Akademik Hüseyn Əhmədov və yetirmələri" (2004), "Pedaqogika tarixi" (2006,2011), "Ali məktəb pedaqogikası" (2007), "Pedaqogikadan kurs və buraxılış işlərinə dair metodik göstəriş" (2007),"Pedaqoji oçerklər: sələflərim və müasirlərim" (2010), "Pedaqoji qeydlər, resenziyalar, müsahibələr" (2010), "Azərbaycanda ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə elmi-pedaqoji kadr hazırlığı"(2010), "Azərbaycanda təhsil və tərbiyə nəzəriyyəsinin inkişafı" (1961-1981-ci illər)" (2011), "Pedaqogika fənninin kurikulumu" (2014), "Azərbaycan pedaqogikaşünaslığı" (2016),"Humanist pedaqogika, yoxsa pedaqogikada humanizm" (2018), "Azərbaycan Dövlət Pedaqoji Uni-

versitetinin professorları”(2019),”Ali Pedaqoji İnstitutun salnaməsi (2020), “Azərbaycan Ali Pedaqoji İnstitutu” (2020), “Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi (1930-1946)” (2021) monoqrafiya, dərslik və dərs vəsaitləri nəşr olunub. Sankt-Peterburqda nəşr edilən 4 kollektiv monoqrafiyanın müəlliflərindən biridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Azərbaycan və rus dillərində nəşr olunan “Azərbaycan Milli Ensiklopediyası”na daxil edilən irihəcmli “Pedaqogika” məqaləsinin müəllifidir.

YUNESKO-nun yaşlıların təhsili ilə bağlı nəşr etdirdiyi 10 cildlik monoqrafiyanın (“Образование на протяжении всей жизни: разнообразие идей концепций форм методов технологий”. Санкт-Петербург, 2013) redaktorlarından biridir. Əsərləri Bakı, Moskva, Səmərqənd, Ceboksarı, Tehran, Təbriz, İstanbul, Astana, Sankt-Peterburq və Tbilisi şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində Azərbaycan, rus, türk, özbək dillərində çap edilmişdir. Rusiya Təhsil Akademiyası onun “Müasir dövrdə Azərbaycanda təhsilin inkişafının əsas istiqamətləri” (şərikli) (Moskva, 2000) əsərini nəşr etmişdir. 2010-cu ildə Tehranın “Xorşidafərin” nəşriyyatı onun “Pedaqoji (təlim və tərbiyə) tarixi Şərqdə” kitabını (377 s.) nəşr etmişdir. Akademik Hüseyn Əhmədovun əsərlərinin biblioqrafik göstəricisinin (1990, 1996, 2001), 15 cildlik “Seçilmiş pedaqoji əsərləri”nin və professor Yəhya Kərimovun “Seçilmiş pedaqoji əsərləri”nin tərtibçilərindən biridir. Dosent Tapdıq Məmmədovla bağlı “Yarımçıq ömrün sahibi” (2000) və “Professor Əmrulla Paşayev” (2015), “Pedaqoji fakültə-50” kitablarının tərtibçi-müəllifidir.

Təşəbbüsü ilə prof.Mərdan Muradxanovun, dos.İsfəndiyar Vəlixanlının 100 illik, Pedaqoji fakültənin 50 illik yubileyləri respublika səviyyəsində keçirilmişdir. Elmi rəhbərliyi ilə 18 nəfər fəlsəfə doktoru elmi dərəcəsi almış, 5 nəfər isə müdafiə ərəfəsindədir. Elmi məsləhətçiliyi ilə 2 nəfər elmlər doktoru elmi dərəcəsi almaq üçün doktorluq dissertasiyası müdafiə etmişdir. 4 nəfərin elmlər doktoru, 25 nəfərin pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin rəsmi opponenti olmuşdur. 1997-ci ildən 2009-cu ilə kimi Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Təhsil Problemləri İnstitutunda və ADPU-da fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olmuşdur. 2009-2016-cı illərdə ADPU-da fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə Dissertasiya Şurasının sədr müavini olmuşdur. Onun sədrliyi ilə 18 nəfər elmlər doktoru, 146 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir.

Türkiyə, Rusiya, Yunanıstan, Albaniya, İtaliya, Finlandiya, İsveç, Norveç, Danimarka, Estoniya, İspaniya və Portuqaliyada keçirilən Beynəlxalq konfranslarda iştirak edib.

"Pedaqoji Universitetin Xəbərlər"inin (humanitar, pedaqoji-psixoloji seriyası), "Məktəbəqədər və ibtidai təhsil", "Kurikulum", "Təhsildə İKT", "Azərbaycan məktəbi", "Dədə Qorqud araşdırmaları", "Media və təhsil innovasiyaları" jurnallarının, "Bakı Qızlar Universitetinin Elmi Xəbərləri"nin, "Təhsil İnstitutunun Elmi Xəbərləri"nin, "Naxçıvan" Universitetinin Elmi xəbərləri"nin redaksiya heyətinin üzvü, "Pedaqoji tədqiqatlar" elmi məqalələr məcmuəsinin redaktorudur. Azərbaycanda müəllim kadrları hazırlığının strategiya və konsepsiyasını hazırlayan işçi qrupunun, Azərbaycan Respublikası Milli Məclisinin "Elm və Təhsil Məsələləri Daimi Komissiyası"nın "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nu hazırlayan işçi qrupunun, Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurasının, Dərslikləri Qiymətləndirmə Şurasının üzvü, "Həyat bilgisi" fənn kurikulumunu hazırlayan işçi komissiyasının sədri olmuşdur.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, akademik Mehdi Mehdizadə, "Gənc alimlər" və "Qızıl qələm" mükafatları laureatıdır. "Avropa Nəşr Mətbu evi" komissiyasının qərarı ilə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı (2009), Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının qərarı ilə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" (2010) döş nişanı ilə təltif olunmuşdur. "Vektor" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "XXI əsr Azərbaycan ziyalıları" ADPU-da "İlin müəllimi" (2007), "İlin alimi" (2011,2013,2015) müsabiqələrinin qaliblərindən biri olmuşdur.

1998-ci ildə Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, 2010-cu ildə isə Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü (akademiki) seçilmişdir. 2006-cı ildə "Tərəqqi medalı"na layiq görülmüş, 2012-ci ildə isə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Anadan olmasının 50 və 60 illiyi ilə əlaqədar olaraq Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Təhsil İnstitutunun, ayrı-ayrı qəzet və jurnalların redaksiya heyətinin Fəxri fərmanları və diplomları ilə təltif olunmuşdur. Haqqında "Professor Fərrux Rüstəmov-50" (2011), "Fərrux Rüstəmov. Biblioqrafiya" (2016) kitabları nəşr olunmuşdur.

ADPU-nun Şəki filialı

Firədun Nadir oğlu İbrahimov
pedaqoji elmləri doktoru, professor,
Əməkdar müəllimi
(1952)

5 fevral 1952-ci il tarixdə Nuxa rayonunun Qudula kəndində anadan olmuşdur. 1958-1965-ci illərdə Şəki rayon Qudula kənd səkkizillik, 1966-1968-ci illərdə Şəki şəhər 3 №-li orta məktəbdə, 1968-1972-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil almışdır. 1977-1982-ci illərdə ADPİ-nin aspiranturasında (qiyabi) oxumuş, 1982-ci ildə "Riyaziyyatın tədrisi prosesində şagirdlərin fəza təsəvvürlərinin formalaşdırılması problemi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1998-2002-ci illərdə Azərb.ETPEİ-də doktorantura hazırlığı keçərək "Təlim prosesində alqoritmik və evristik fəaliyyətlərin optimal münasibətlərinin əsasları" (2006) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Şəki rayon Təpəcənnət kənd məktəbində müəllim (1972-1973), Baltalı kənd orta məktəbində müəllim və direktor (1973-1982), BPKİA və YH-nin Şəki filialının direktoru(1982-1992), Şəki şəhər 17 №-li orta məktəbin direktoru (1993), BPKİA və YH İnstitutunun Şəki filialının direktoru(1993-2000), Şəki şəhər İcra Hakimiyyəti Başçısı aparatında şöbə müdiri və müavin əvəzi (2000-2005), Şəki şəhər Təhsil Şöbəsinin müdiri (2005-2010), AMİ-nin Şəki filialının Ümumelmi fənlər kafedrasında baş müəllim, dosent, professor (2006-2010), AMİ-nin Şəki filialının Ümumelmi fənlər kafedrasında baş müəllim, dosent, professor (2010-1015) vəzifələrində işləmişdir. Əvəzçiliklə AMEA Şəki Regional Elmi Mərkəzinin aparıcı elmi işçi vəzifəsində çalışır. 181 elmi əsərin (dərslik, dərs vəsaiti, monoqrafiya, elmi-metodiki məqalə, metodiki tövsiyə və fənn proqramları) müəllifidir. 15 məqaləsi xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap olunub.

2008-ci ildə dosent, 2015-ci ildə professor elmi adı almış, 2009-cu ildə ona Əməkdar müəllim fəxri adı verilmişdir.Qabaqcıl maarif xadimi döş nişanı ilə təltif olunmuşdur. 2015-ci ildən ADPU-nun Şəki filialında Təbiət fənləri və onların tədrisi metodikası kafedrasının professoru və müdiri vəzifələrində işləyir.

Tofiq Vahid oğlu Mehdiyev
tibb elmləri doktoru,
Əməkdar həkim
(1953)

1953-cü il oktyabrın 27-də Şəki rayonunun Qoxmuq kəndində anadan olmuşdur. 1970-ci ildə Şəki şəhər 10 №-li orta məktəbini, 1976-cı ildə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. Bakı şəhərində 4 №-li kliniki xəstəxanada terapiya ixtisası üzrə internatura kursu keçmişdir. 1977-1980-ci illərdə Bakı şəhərində 12 №-li xəstəxanada həkim-terapevt işləməklə yanaşı, Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasında pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1980-1981-ci illərdə Şəki Rayon Mərkəzi Xəstəxanasında növbətçi sahə terapevti, 1981-1984-cü illərdə Şəki Rayonlararası Endokrinoloji Dispanserdə həkim-endokrinoloq, 1984 - 2010-cu illərdə həmin dispanserdə baş həkim, 2010-2020-ci illərdə Şəki Rayon Mərkəzi Xəstəxanasının endokrinologiya şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1995-ci ildə "Şəkərli diabetli xəstələrdə trofiki xora və qanqrenanın kompleks müalicəsi" mövzusunda namizədlik, 2015-ci ildə "Şəkərli diabet fonunda inkişaf edən erektil disfunksiyanın ikincili profilaktikası və müalicəsinin müasir prinsipləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Tibb elmləri doktorudur.

6 monoqrafiya, 5 metodik tövsiyə və 80-dən artıq məqalənin müəllifidir. Amerika Birləşmiş Ştatları, Almaniya, İngiltərə, Türkiyə, Rusiya və s. ölkələrdə nəşr olunan 20-dən artıq məqalənin müəllifidir. "Tibbi biliklərin əsasları"ndan mühazirələr" (2021) adlı dərs vəsaiti tələbələr və fənni tədris edən müəllimlərin istifadə edəcəyi qiymətli vəsait kimi dəyərləndirilir.

Çexoslovakiya (1989,1990-cı illərdə), Türkiyə (2003), İsrail (2008) və Misir (2008), İtaliya (2009), Dubay (2010), Antaliya (2012), Avstriya (2014), Almaniya (2015) və ABŞ (2015), İngiltərə (2017), Almaniya (2018) və Barselonada (2019) beynəlxalq konfranslarda iştirak etmişdir. "Urologiya və Reproduktiv Təbabət", "Metabolizm" jurnallarının redaksiya heyətinin, Rusiya Federasiyasında nəşr olunan "Курортная медицина" jurnalının redaksiya şurasının üzvüdür. 1990-cı ildə "SSRİ səhiyyə əlaçısı" döş nişanı, 2000-ci ildə Əməkdar həkim fəxri adına layiq görülmüşdür.

Şəki Rayon Mərkəzi Xəstəxanasının terapiya şöbəsində həkim-endokrinoloq işləyir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında pedaqoji fəaliyyət göstərir.

Rafiq Abduləli oğlu Rasulov
riyaziyyat üzrə elmlər doktoru,
Əməkdar müəllim
(1958)

10 aprel 1958-ci ildə Şəki şəhərində anadan olub. 1965-1975-ci illərdə Şəki şəhər 7 №-li orta məktəbdə, 1975-1980 -ci illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır. 1985-1989-cu illərdə Azərbaycan EA-nın Geologiya İnstitutunda qiyabi aspirant olmuşdur. 1992-ci ildə "Üç laylı geoloji mühitdə tektonik dalğavari proseslərin modelləşdirilməsi" mövzusunda namizədlik, 2014-cü ildə AMEA-nın Riyaziyat və Mexanika İnstitutunda "Qeyri-xətti parabolik və hiperbolik tənliklərin həllərinin keyfiyyət xassələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 2008-ci ildə dosent elmi adı almışdır. 1980-1983-cü illərdə Şəki rayonunun Taxılçılıq sovxozundakı qiyabi orta məktəbin Böyük Dəhnə tədris-məsləhət məntəqəsində müəllim, 1983-1993-cü ildə Geofizika İnstitutunda mühəndis, 1993-2000-ci illərdə BDU-nun Şəki filialında Təbiət elmləri kafedrasının müdiri və direktor müavini, 2001- 2015-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının direktoru vəzifələrində çalışıb. 2015-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının direktoru vəzifəsində çalışır. Fransa, Türkiyə, Gürcüstanda təcrübə kurslarında olmuş, bir sıra ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda iştirak etmişdir

1 monoqrafiya, 1 dərs vəsaiti və 30-dan artıq məqalənin müəllifidir.

Son söz əvəzi

Pedaqoji Universitetin məzunu görkəmli şairə, Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi Mədinə Nurulla qızı Ələkbərzadə (Mədinə Gülgün) xatirələrinin birində yazırdı:"*Azərbaycan Pedaqoji İnstitutu ana olub, mənə analıq şərəfi öyrətmiş, ata olub nəsihətləri ilə mənə nəsihət verməyi öyrədib, ev olub evimin sirlərini əziz tutubdur. Mən də öz sirlərimi şeir vasitəsilə sevimli instituta pıçıldamışam, məhəbbətimi onun uca kürsülərindən bəyan etmişəm*"[13].

Mədinə xanımın 50 il bundan əvvəl söylədiyi fikirləri bu gün olduğu kimi təkrar edən on minlərlə məzunlardan biri kimi fəxr edirəm ki, həyatımın 40 ili bu müqəddəs elm və təhsil məbədi ilə bağlıdır. Burada tələbə, aspirant, elmi-tədqiqat laboratoriyasının müdiri, kafedra müdiri olmuşam, fakültə dekanıyam, görkəmli pedaqoq, psixoloq və metodistlərdən dərs almışam, ən yüksək tələbə təqaüdünə - Lenin təqaüdünə, elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə, dosent və professor elmi adlarına, "Tərəqqi" medalına, Əməkdar elm xadimi fəxri adına,"Qızıl qələm", "Gənc alimlər", "Akademik Mehdi Mehdizadə" və müxtəlif media mükafatlarına layiq görülmüşəm, Beynəlxalq Pedaqoji Akademiyanın və Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü seçilmişəm. Yazdığım irili-xırdalı 600-ə yaxın elmi-pedaqoji və publisistik məqalələrim, dərslik və dərs vəsaitlərim, kitab və monoqrafiyalarım, tərtib etdiyim proqramlar, rəy verdiyim, redaktə etdiyim əsərlər bu müqəddəs məkanda ərsəyə gəlib. Məhz bu binada sədrliyimlə Dissertasiya Şurasının iclasında 148 fəlsəfə doktoru, 18 elmlər doktoru, elmi rəhbərliyimlə 20 fəlsəfə doktoru, 2 elmlər doktoru dissertasiyası müdafiə olunub.

Şüurlu həyatımın ən gözəl, ən mənalı illəri, elmi nailiyyətlərim, uğurlarım ADPU ilə bağlıdır. Həyatım boyu bu müqəddəs məkana - Azərbaycan Dövlət Pedaqoji Universitetinə, mənə elm və helm öyrətmiş müdrik müəllimlərimə borcluyam. Bakının yolunu tanımayan, çoban atasının çöhrəsini belə düzəməlli xatırlamayan, köməksiz və arxasız bir kənd uşağının yüksək nailiyyətlər qazanması təmənnasız və xeyirxah müəllimlərin, yüksək əxlaq və fəzilət sahiblərinin, səsində adilik, mənliyində ucalıq, görkəmində müdriklik olan xeyirə xidmət edən fikir adamlarının imzalarının hesabına mümkün olmuşdur. Mən xoşbəxtəm ki, həm orta məktəbdə, həm də ali məktəbdə müəllimliyi, hər şeydən əvvəl, bir tanrı sənəti hesab edən ustadlardan dərs

[13] Bax:Söhrab Tahir. Uzaq uçan qanadlar."Gənc müəllim" qəzeti, 26 fevral 1973

almışam, onlarla yoldaş və həmkar olmuşam. Yaxşı insanlarla yoldaşlıq etmək, Məhəmməd peyğəmbər demişkən, ətir satanla yoldaşlıq etmək kimidir. Sənə ətir verməsə də, ətrinin xoş qoxusu sənə də dəyir. Müəllimlərim mənə elə bir ətir bəxş ediblər ki, onun rayihəsindən milyonlar xoşbəxt olur, səadətə, şərəfə, şöhrətə çatır. Bu ətir brendinin adı təhsil və elmdir. Müəllimlər tələbələrinə yalnız ədəb, əxlaq, mərifət öyrətmir, həm də onlara gizlədilməsi mümkün olmayan gözəllik- bilik aşılayır, onun əqlini və ruhunu saflaşdırır, cilalayır.

Adları bu kitaba daxil edilmiş elm adamları ilə bağlı materialları hazırlayarkan xeyli müddət arxivlərdə oldum, müxtəlif mənbələri araşdırdım, müdrik insanlarla həmsöhbət oldum. Bu təhsil ocağını yaradanların, yaşadanların və sabaha aparanların işgüzarlığına, milli təəssübkeşliyinə, fədakarlığına heyran qaldım. Onlar ilk milli təhsil ocağının yaradılması uğrunda, sözün həqiqi mənasında böyük mücadilə apararaq bütün çətinliklərə və əziyyətlərə baxmayaraq möhtəşəm bir təhsil məbədi yaradıb, onu dövrün buz kimi soyuq ictimai-siyasi hadisələrindən, totalitar rejimin təzyiqlərindən qoruyub. Repressiya olunaraq Sibirin şaxtalı-qarlı çöllərində donsalar da, 15-20 dəqiqəlik dindirilmədən sonra güllələnsələr də, bu müqəddəs ocağın alovunu sönməyə qoymayıblar. Estafeti ildən-ilə layiqli və ləyaqətli nəsillərə ötürüblər.

100 il ərzində Azərbaycan Dövlət Pedaqoji Universitetində güclü elmi və pedaqoji potensial formalaşıb. On minlərlə yüksəkixtisaslı müəllim kadrları hazırlığında bu və ya digər dərəcədə xidmətləri olanların hamısını ehtiramla xatırlayır, minnətdarlıqla yad edirik. Onların hər biri haqqında araşdırmalar aparılmalı, elmi məqalələr yazılmalı və gənc nəslə tanıdılmalıdır.

Ərsəyə gətirdiyimiz *"Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları"* kitabında bir əsr müddətində Pedaqoji Universitetdə çalışan elmlər doktoru elmi dərəcəsi və ya professor elmi adı olan 400 nəfər[14] haqqında məlumat verilmişdir. Məlumatlar fakültələrin ardıcıllığına görə düzülmüşdür. Əvvəlcə SSRİ EA-nın, SSRİ PEA-nın və AMEA-nın həqiqi və müxbir üzvləri haqqında, sonra isə elmlər doktoru, professor və ya elmlər namizədi, professor haqqında məlumatlar xronoloji ardıcıllıqla yerləşdirilmişdir[15]. Kitabı

[14] *Bu o demək deyil ki, 100 il ərzində Azərbaycan Dövlət Pedaqoji Universitetində cəmi 400 nəfər professor işləmişdir. Keçən əsrin 20-40-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetdə RSFSR və Ukrayna SSR-dən dəvət olunmuş xeyli elmlər doktoru, professorlar çalışmışdır.Təəssüf ki, onlar haqqında ətraflı məlumat əldə edə bilmədik. Bu təhsil ocağı iki dəfə (1927-1929; 1942-1943) Bakı Dövlət Universitetinə birləşdirildiyindən xeyli materiallar itib-batmışdır. ADPU-nun 20-ci illərdəki fəaliyyəti ilə bağlı ADPU-nun arxivində, ümumiyyətlə, heç bir sənəd yoxdur.Kitabda bir müddət ADPİ-də işləyən, sonra isə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna köçürülən professorlar haqqında da məlumat verilməmişdir.*

[15] *Bir qrup əməkdaş var ki, onlar Pedaqoji Universitetdə deyil, başqa təhsil müəssisəsində*

müxtəlif strukturda tərtib etmək olardı, amma biz təqdim edilən variantı ən yaxşı variantlardan biri kimi dəyərləndiririk.

Pedaqoji Universitetin bir əsrlik tarixini onu yaradan, inkişaf etdirən və sabaha aparan alimlərin simasında təqdim edən bu kitab, ADPU-nun rektoru, professor Cəfər Cəfərovun yazdığı kimi, taleyini bu müqəddəs təhsil ocağı ilə bağlayan işıqlı zəka sahiblərinə ucaldılan mənəvi bir abidədir.

***

Kitabın ərsəyə gəlməsində mənə dəstək olan layihənin rəhbəri, ADPU-nun rektoru, ***prof.Cəfər Cəfərova,*** kitabın elmi redaktoru, elm və innovasiyalar üzrə prorektor ***prof.Asəf Zamanova,*** tədris işləri üzrə prorektor ***dos.Eldar Aslanova,*** sosial və humanitar məsələlər üzrə prorektor ***prof.Fikrət Rzayevə,*** Ağsaqqallar Şurasının sədri, ***prof.Məlikməmməd Cəbrayılova***, tədris departamentinin direktoru, ***dosent Sənan Əliyevə***, Ümumi psixologiya kafedrasının müdiri, ***prof.Ramiz Əliyevə***, Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının professoru ***Yaqub Babayevə***, Elmi Tədqiqat Mərkəzinin müdiri ***dos.Ərəstun Mehdiyevə,*** fakültə dekanlarına (***prof.Mahirə Hüseynova, dos.Arzu Axundov, dos.Araz Fərəcov, dos.Elnarə Mehbalıyeva, prof.Şəhla Əliyeva, dos.Laçın Həsənova, dos.Arzu Daşdəmirov***), kafedra müdirlərinə, Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru ***Bəhram Məmmədova***, İbtidai təhsil fakültəsinin tyutoru ***Aynur Abıyevaya*** təşəkkürümü bildirirəm.

çalışarkən elmlər doktoru elmi dərəcəsi və professor elmi adı alıblar. Həmin elmlər doktoru, professorlar haqqında da məlumat verməyi məqsədəuyğun hesab etdik. Belə ki, onların da həyatının mühüm bir dövrü ADPU ilə bağlı olub.

AD GÖSTƏRİCİSİ

Abaszadə Abasqulu Ağabala oğlu 453
Abbasova Nəmidə Kabı qızı 115
Abbaszadə Eldar Cəfər oğlu 153
Abdullah Cəfərəli Caspi 68
Abdullayev Ağamməd Səməd oğlu 37
Abdullayev Nadir Əziz oğlu.....143
Abdullayev Tahir Həsən oğlu 338
Abdullayeva Nabat Cumay qızı.....116
Abdullayeva Zemfira Kəlpəli qızı 498
Abduyev Məhəmməd Abdu oğlu.....319
Abutalıbov Müzəffər Heydər oğlu.....382
Adıgözəlov Azadxan Səfərxan oğlu 350
Ağamirov Midhəd Mirmusa oğlu 248
Ağamirov Mirmusa Haşım oğlu 391
Ağayev Bəhlul İsfəndiyar oğlu..... 61
Ağayev Bəylər Əbdülrəhim oğlu 338
Ağayev Fəxrəddin Güləli oğlu..... 366
Ağayev Əkbər Məmməd oğlu 109
Ağayev Həşim Nizam oğlu.....54
Ağayev Şövqi Süleyman oğlu 52
Ağayev Telman Məmmədəli oğlu..... 423
Ağazadə Nəzakət Həsən qızı.....111
Ağdamski Telman Əhməd oğlu 421
Axundov Mirəli Abdulla oğlu..... 397
Axundov Nazim Fərrux oğlu 113
Axundov Soltansəlim Həsən oğlu 273
Alev Çakmakoğlu Kuru.....71
Allahmanlı Mahmud Qara oğlu 189
Allahverdiyev Əli Qulu oğlu 309
Allahverdiyev Nizaməddin Nurməmməd oğlu.....281
Almənmədov Almənməd Məmməd oğlu 121

Ammosov Aleksey Mitrafanoviç 336
Andrey Marqa 70
Araslı Həmid Məmmədtağı oğlu 80
Aslanov Səlvər Rıza oğlu 58
Aşurbəyli Sara Balabəy qızı 98
Aşmarin Nikolay İvanoviç 73
Atayev Soltan Həmid oğlu 502
Babayev Yaqub Məhərrəm oğlu 181
Baqri Aleksandr Vasilyeviç 89
Bayramov Aslan Əhmədxan oğlu 160
Bayramov Əkbər Salman oğlu 441
Bayramov Həsən Bayram oğlu 310
Bayramov İbrahim Məhəmməd oğlu 73
Bayramov İlyas Oruc oğlu 140
Bayramov Məmməd Abbas oğlu 28
Bağırova Tamilla Əli qızı 500
Baxşəliyev Ərəstun Təriş oğlu 444
Baxşəliyev Rafiq Məmmədbağır oğlu 492
Baxşəliyev Yafəs Rəsul oğlu 351
Balakişiyev Kamil Əbdülsalam oğlu 399
Balayev Məhəmməd Alı oğlu 294
Balıyev Həsən Balı oğlu 129
Bağırov Quşdan Əmikişi oğlu 135
Bartold Vasili Vladimiroviç 196
Bəşirov Bəşir Abbas oğlu 469
Bəşirov Bəşir Yusubəli oğlu 287
Bəşirov Kamil Kamal oğlu 176
Buniyatov Arif Rüstəm oğlu 356
Bünyatov Bəşir Nurəli oğlu 29
Cahangirov Zülqədər Həsən oğlu 234
Cavad Heyət 67
Cavadov Mais Həbib oğlu 333
Cavadov Maqsud Əlisimran oğlu 332
Cavadov Təyyar Salam oğlu 188
Cəbrayılov İntiqam Hilal oğlu 317
Cəbrayılov Məlikməmməd Saday oğlu 353

Cəfərov Cəfər Əsəd oğlu 134
Cəfərov Cəfər Məmməd oğlu 64
Cəfərov Cəfər Haşım oğlu 86
Cəfərov Əkrəm Səftər oğlu.....95
Cəfərov Əli Səttar oğlu 342
Cəfərov İsgəndər Həsən oğlu 459
Cəfərov Məmməd Cəfər Zeynalabdin oğlu 79
Cəfərov Səlim Əbdüllətif oğlu.....99
Cəfərova Nabat Beydulla qızı.....172
Çobanzadə Bəkir Vahab oğlu.....74
Dadaşov Kamal Oğlan oğlu.....131
Dadaşova Minarə Rəhim qızı 495
Dadaşzadə Məmməd Arif Məhərrəm oğlu 77
Dəmirçizadə Əbdüləzəl Məmməd oğlu 84
Erivanski Mehdiquluxan Məhəmməd oğlu 228
Eyvazov Edil Əli oğlu 475
Əbdürrəhimov Əsədulla Ömər oğlu 396
Əbdürrəhimova Reyhan Əsədulla qızı 428
Əbdürrəhmanov Nadir Qəmbər oğlu 489
Əfəndiyev Heydər Xəlil oğlu 386
Əfəndiyev Hidayət Əli oğlu.....105
Əfəndiyev Məmməd Rəşid oğlu.....20
Əfəndiyev Paşa Şərif oğlu 123
Əfəndiyeva Türkan Əşrəf qızı 126
Əhmədli Murtuza Qasım oğlu 398
Əhmədli Rafail Ayvaz oğlu.....322
Əhmədov Bayram Baxşəli oğlu.....146
Əhmədov Bəşir Abbas oğlu 285
Əhmədov Hüseyn Mustafa oğlu 209
Əhmədov Nazim Hüseyn oğlu.....139
Əhmədov Ramin Muxtar oğlu 158
Əhmədov Yusif Kərəm oğlu 429
Ələkbərov Aydın Səfərbəy oğlu 487
Ələkbərov Məmməd Həmid oğlu 39
Ələkbərov Rafiq Qədir oğlu 426
Ələsgərov Cəbrayıl Ağaəli oğlu.....48

Əliyev Bəhram Əli oğlu 362
Əliyev Camal Əhməd oğlu 34
Əliyev Firudun Cahangir oğlu 404
Əliyev Hadı Bədəl oğlu 233
Əliyev İlham Vəliyullah oğlu 360
Əliyev Mehdi Sadıq oğlu.....51
Əliyev Məmməd Hüseyn oğlu 219
Əliyev Mikayıl Muxtar oğlu 470
Əliyev Mürsəl Heydər oğlu 252
Əliyev Natiq Ağarza oğlu 477
Əliyev Rafiq Yusif oğlu 164
Əliyev Ramil Manaf oğlu 170
Əliyev Ramiz İbrahim oğlu 447
Əliyev Vəli Hüseyn oğlu 212
Əliyev Vilayət Hüseyn oğlu.....149
Əliyev Özbək Misirxan oğlu 430
Əliyev Rəcəb Yaqub oğlu 416
Əliyev Sadıx Yusif oğlu 414
Əliyev Şamil Rəhim oğlu 241
Əliyev Şixbala Əbülfəz oğlu 402
Əliyeva Sevinc İsrafil qızı 323
Əliyeva Şəhla Qasım qızı 449
Əliyeva Tamuris Nağı qızı.....124
Əlizadə Əbdül Əli oğlu 443
Əlizadə İslam Qafar oğlu 403
Əlizadə Məmməd Mübariz 108
Əlizadə Şükür Həmid oğlu 476
Əmənzadə Yusif Əmən oğlu 455
Əmikişiyev Fəsli Məmməd oğlu 264
Əmirxanov Həbibulla İbrahim oğlu 452
Əmirov Azad bəy Abbas oğlu 393
Əmirov Hüseyn Teymur oğlu 292
Əmirov Mübariz Mirəziz oğlu.....303
Əmrahov Mais İsrail oğlu.....304
Əsgərov Nəbi Ələsgər oğlu 177
Əzimli Qulam Eynulla oğlu 442

Əzimov Hacıbaba Sadıx oğlu 293
Feyziyev Sərxan Aslan oğlu 508
Feyzullayeva Tamilla Ələkbər qızı 425
Fərəcov Ədalət Nurulla oğlu 424
Fərəcov Əli Abbas oğlu 120
Fərhadov Fərhad Qulam oğlu 110
Fərzəliyev Çingiz Əbdül Məcid oğlu 493
Fətəliyev Xəlil Qənimət oğlu 509
Fridolin Pyotur Pyoturoviç 217
Hacıyev Abbas Məhəmməd oğlu....138
Hacıyev Aydın Cəfər oğlu....147
Hacıyev Cəfər Xəndan Zeynal oğlu 42
Hacıyev Qasım Əhəd oğlu....307
Haqverdiyev Baba Aqil oğlu 465
Haqverdiyev Şərif Allahverdi oğlu....257
Həkimov Mürsəl İsmayil oğlu....127
Həmidov Seyidağa Sail oğlu 506
Həmzəyev Muxtar Əliş oğlu 440
Həsənbəyov Bala bəy Cabbar bəy oğlu....230
Həsənov Ağahüseyn Məhəmmədhüseyn oğlu....300
Həsənov İdris Məşədi-Zaman oğlu....90
Həsənov İsmayıl Mamedoviç 256
Həşimov Ələsgər Mahmud oğlu....36
Həşimov Həşim İsaq oğlu 482
Həsənov Xanlar Alı oğlu 484
Həsənov Musa Səməd oğlu 297
Həsənov Şahəli Gülmalı oğlu 253
Hümbətəliyev Rövşən Zülfüqar oğlu 375
Hüseynli Nazim Ziyad oğlu....314
Hüseynov Balaxan Qaraxan oğlu 151
Hüseynov Cahangir İslam oğlu 483
Hüseynov Əli Məhərrəm oğlu 421
Hüseynov Əşrəf İsgəndər oğlu 326
Hüseynov Heydər Nəcəf oğlu....201
Hüseynov Firidun Cəlal oğlu....136
Hüseynov İsmayıl Abbas oğlu 203

Hüseynov İsmayıl İsrafil oğlu 405
Hüseynov Kamal Dadaş oğlu 472
Hüseynov Məhərrəm Abbasəli oğlu 157
Hüseynzadə Muxtar Hüseyn oğlu.....92
Hüseynov Novruz İmamqulu oğlu.....238
Hüseynov Rafael Baba oğlu 87
Hüseynov Sadıq Cavad oğlu 390
Hüseynova Həcər Emin qızı 190
Hüseynova Mahirə Nağı qızı 184
Hüseynzadə Rüfət Lətif oğlu 307
Xalıqov Fikrət Ramazan oğlu.....163
Xalisbəyli Tağı Teymur oğlu 137
Xəlil Fikrət Kanat 225
Xəlilov Buludxan Əziz oğlu 192
Xəlilov Xəlil Rza (Ulutürk).. 132
Xəlilov Səlahəddin Sədrəddin oğlu 213
Xəlilov Zahid Abdulla oğlu 154
Xəlilov Zahid İsmayıl oğlu..... 327
Xıdırov Cavid Nəbi oğlu 420
Xudiyev Nizami Mənaf oğlu 59
Xuluflu Vəli Məmmədhüseyn oğlu 227
İbrahimbəyov Fuad Əhməd oğlu 438
İbrahimli Xaləddin Cəlal oğlu 316
İbrahimov Cəfər Məmməd oğlu 244
İbrahimov Elman Cavanşir oğlu 357
İbrahimov Firədun Nadir oğlu 515
İbrahimov Hüseyn Behbud oğlu 485
İbrahimov İbrahim İbiş oğlu 328
İbrahimov Sabir Sadıx oğlu.....283
İbrahimov Zülfəli İmaməli oğlu 205
İlyasov Müseyib İbrahim oğlu 445
İmanov Sədi Şəmsəddin oğlu 456
İmranov Beykəs Həbibulla oğlu 347
İsayev İramin Namaz oğlu.....301
İsmayıl Hikmət 88
İsmayılov Abbas Məhəmməd oğlu 261

İsmayılov İbrahim İsa oğlu 250
İsmayılov İsa Namaz oğlu 480
İsmayılova Mirvari Abbas qızı 186
İsmixanov Məcid Abdulla oğlu 508
Kazımov Qəzənfər Şirin oğlu 148
Kazımov Nurəddin Mustafa oğlu 259
Kələntərli Xudaverdi Şahbaz oğlu 392
Kərəmov Nurəddin Kərəmzadə oğlu 240
Kərimov Aben Nəsir oğlu 242
Kərimov Ələkbər Məcid oğlu 463
Kərimov Yəhya Şəfi oğlu 122
Komarovski Boris Borisoviç 224
Köçərli Xəlil Süleyman oğlu 263
Krasuski Konstantin Adamoviç 377
Qafarlı Ramazan Oruc oğlu 166
Qafarova Roza Zeynal qızı 413
Qarabağlı Əliyar Məmməd oğlu 93
Qarayev Abdulla İsmayıl oğlu 383
Qarayev İslam Şamil oğlu 298
Qarayev Rasim Şirin oğlu 275
Qarayev Məmməd Abbas oğlu 418
Qasımov Hacıbaba Səməd oğlu 401
Qasımov Himalay Ənvər oğlu 152
Qasımov Pənah Ələkbər oğlu 26
Qasımzadə Feyzulla Səməd oğlu 75
Qayıbov Tələt Dənyarbəy oğlu 410
Qazıyev Məmməd Əmin Adil oğlu 243
Qədimova Jalə Həmid qızı 499
Qədirov Həmid Musa oğlu 46
Qəhrəmanova Qızxanım Nizaməddin qızı 450
Qəndilov Seyfəddin Mirtağı oğlu 280
Qrossheym Alfonsoviç Aleksandr 379
Quliyev Arif Mehdi oğlu 457
Quliyev Bəkir Bahadur oğlu 473
Quliyev Cahid Süleyman oğlu 265
Quliyev Elman Hilal oğlu 179

Quluzadə Mirzəağa Yüzbaşı oğlu 101
Quliyev Rövşən Rasim oğlu 315
Quliyev Sabir Dadaş oğlu 491
Quliyev Sərdar Musa oğlu 505
Quliyev Vaqif Sabir oğlu 334
Qurbanov Afad Məhəmməd oğlu 56
Qurbanov Ələkbər Nemət oğlu 427
Qurbanov Hənifə Hüseyn oğlu 494
Qurbanov Şıxəli Qurban oğlu 114
Qurbanov Vaqif Tapdıq oğlu 156
Qurbanov Vəli Məhərrəm oğlu 373
Qurbanzadə Ağazeynal Alı oğlu 296
Qüdrətov Dərgah Humay oğlu 270
Landesman Pyotr Abramoviç 254
Lopatinski Yaroslav Borisoviç 325
Mahmudbəyov Həbib bəy İbrahimxəlil oğlu 22
Mahmudov Müdafiə Cəmil oğlu 355
Mahmudov Yaqub Mikayıl oğlu 206
Makovelski Aleksandr Osipoviç 198
Manatov Şarif Əhmədzyanoviç 23
Marr Nikolay Yakovleviç 195
Mehdizadə Mehdi Məmməd oğlu 44
Mehrabov Abdulla Oruc oğlu 460
Mehdiyev Şəfayət Fərhad oğlu 202
Mehdiyev Tofiq Vahid oğlu 516
Mehdizadə Zəkəriyyə Məmməd oğlu 436
Mehtiyev Əli Əyyub oğlu 496
Mədətov Qaraş Əli oğlu 266
Məlikov Rəhim bəy Mehrəli bəy oğlu 461
Məmmədov Əli Mahmud oğlu 299
Məmmədov Əlif Məmmədhəsən oğlu 345
Məmmədov Xeyrulla Qulam oğlu 144
Məmmədov Xəqani Məmməd oğlu 313
Məmmədov İlham Tofiq oğlu 365
Məmmədov Kərim Pənah oğlu 464
Məmmədov Məmməd Mahmud oğlu 130

Məmmədov Mirzə Sultan oğlu 30
Məmmədov Nəsir Nəsirzadə 235
Məmmədov Rəşid Həmid oğlu 345
Məmmədov Süleyman Abbas oğlu.....284
Məmmədov Şamxal Əliməmməd oğlu 388
Məmmədov Yusif Əbülfət oğlu 63
Məmmədzadə Cəlil Məmməd oğlu. 25
Mərdanov İlham Cumayıl oğlu 363
Mikayılov Nurqələm Mikayıl oğlu.....277
Mirqasımov Mir Əsədulla Mir Ələsgər oğlu 378
Mirzəyev Bəhram Rüstəm oğlu 462
Mirzəyev Həsən İbrahim oğlu.....118
Mirzəyev Pullu Səməd oğlu.....288
Mirzəzadə Hadi İsmayıl oğlu.....102
Misgərli Abbas Qulam oğlu 409
Mövsümzadə Məhəmməd Mirzə oğlu 387
Muradxanov Mərdan Əsədulla oğlu 503
Murquzov Mirzəli İsmayıl oğlu 471
Musayev Hüseyn Məmməd oğlu.....32
Musayev Vəli Mustafa oğlu 352
Mustafayev Məhərrəm Qafar oğlu 399
Mustafayev Mustafa Qasım oğlu.....117
Mustafayev Ramiz Əli oğlu 468
Nəcəfov Maqsud Ağaqulu oğlu 358
Nərimanov Nəriman Həmid oğlu.....271
Nəsibov İsmayıl Osman oğlu 417
Nəsirov Vaqif İbad oğlu 478
Niftiyev Namiq Nadir oğlu 486
Novruzov Tərlan Cabbar oğlu.....159
Nuriyeva Minaxanım Allahşükür qızı.....165
Ocaqverdizadə Savalan Rüstəm oğlu 394
Orucov Qardaşxan Əliməmməd oğlu 344
Panteleymon Juze Krestoviç 214
Paşayev Əmrulla Xamməd oğlu.....290
Paşayev Kərim Paşa oğlu.....289
Paşayev Mir Cəlal Əli oğlu.....103

Paşayev Nəzər Abdulla oğlu.....236
Paşayev Süleyman Şükür oğlu.....276
Pələngov Əbülfət Qulam oğlu 372
Ramazanzadə Malik Heydər oğlu 454
Rəcəbov Rafiq Əbdül oğlu.....278
Rəfili Mikayıl Həsən oğlu.....93
Rasulov Rafiq Abduləli oğlu 517
Rəsulov Məcid Lətif oğlu 330
Rəsulzadə Mirzə Davud Məsim oğlu.....31
Rüstəmov Fərrux Abbas oğlu 511
Rüstəmov Əbülfət Həbib oğlu .. 466
Rzabəyli Fətulla Əziz oğlu.....19
Rzayev Fikrət Çingiz oğlu.....168
Rzayev Rəhim Mikayıl oğlu 370
Rzazadə Püstəxanım Fərəməz qızı 407
Sadıxlı Həsən Əhliman oğlu.....246
Sadıxov Sadıx Nəcəfalı oğlu 340
Sadıqov Qara Əli oğlu.....260
Sadıqov Nüsrət Abdulla oğlu 504
Sadıqov Şükür Əli oğlu.....255
Sadıqova Nailə Məmmədhüseyn qızı.....161
Salahov Əbdüləziz Əbdül oğlu 405
Salahov Mehdi Nəcəf oğlu.....289
Salayev Aqil Qasım oğlu.....33
Salmanov Məmməd Əhəd oğlu 384
Salmanov Yusif Camulla oğlu 349
Samoyloviç Aleksandr Nikolayeviç 197
Sayılov Cəmil İsfəndiyar oğlu 415
Seyidli Həmzə Səməd oğlu 483
Seyidov Əhməd Yusif oğlu.....40
Seyidov Ənvər Cümşüd oğlu.....306
Seyidova Sevinc Məmməd qızı.....321
Səbzəliyev Mahir Mirzəxan oğlu 361
Səfərəliyev Qaryağdı İsfəndiyar oğlu 474
Səfərov Rza İbrahim oğlu 411
Soltanov Kamal Nəsir oğlu 359

Sultanlı Əli Abdulla oğlu.....97
Sultanov Oqtay Balaqədəş oğlu.....311
Sultanov Rauf Lütvəli oğlu 432
Sumbatzadə Əlisöhbət Sumbat oğlu 200
Şahmirov Əbdürrəhman Şahmir oğlu.....249
Şahmurov Vəli Binəddin oğlu 359
Şahtaxtinski Həbibulla Baxşəli oğlu 381
Şahtaxtinski Həmid bəy Xəlil ağa oğlu.....218
Şahtaxtinskaya (Ağayeva) Zəhra Mustafa qızı 395
Şəfiyev Sabir Əli oğlu.....274
Şərifli Məmmədəli Xəlil oğlu.....237
Şərifov Davud bəy Mikayıl bəy oğlu 220
Şıxlınski Zakir Burzu oğlu.....282
Şirəliyev Məmmədağa Şirəli oğlu.....82
Şirinov Aydın Əhməd oğlu.....295
Şükürov Əlisa Cəbrayıl oğlu.....133
Tağızadə Zeynal Xuduş oğlu.....96
Tahirov Arif Tahir oğlu.....141
Tanrıverdiyev Əzizxan Vəli oğlu.....183
Talıbov Yusif Rəhim oğlu.....272
Tarverdiyev Ramazan Baxşəli oğlu.....267
Təhmasib Məmmədhüseyn Abbasqulu oğlu.....100
Tunçalp Özgən.....69
Ubaydullin Əziz Salih oğlu.....221
Verdizadə Allahverdi Əmənullah oğlu 407
Verdizadə Nailə Allahverdi qızı 431
Vəkilov Mehdixan Yusif oğlu.....50
Vəkilov Şamil İsmayıl oğlu 341
Vəlixanlı Nailə Məmmədəli qızı 208
Vəliyev Abdulla Hüseyn oğlu.....106
Vəliyev Teymur Süleyman oğlu 211
Vəzirova Leyla Orxan qızı.....194
Vəzirzadə Aslan Zeynalabdin oğlu.....229
Yakubov Sasun Yakuboviç 348
Yəqubi Əsəd Rza oğlu.....112
Yusifov Mehralı Ömər oğlu 369

Yusifov Yusif Bəhlul oğlu.....268
Zalov Əli Zal oğlu..... 433
Zamanov Abbas Fəttah oğlu.....85
Zamanov Asəf Dağbəyi oğlu 367
Zeynalov İbrahim İsmayıl oğlu 489
Zeynalov Sərdar Səyyad oğlu.....175
Zəkuyev Əhməd Kərədi Məhəmməd oğlu 435
Zülfüqarov Zülfüqar Hüseynqulu oğlu 389
Zülfüqarlı Cümşüd İsmayıl oğlu 385

İstifadə olunmuş ədəbiyyat

A.A.Bakıxanov adına Tarix İnstitutu (Əməkdar elm xadimi, prof. Y.Mahmudovun elmi redaktorluğu ilə). Bakı, "Təhsil", 2005

ADPU-nun Arxivi. Abdullayev Ağamməd Səməd oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Abdullayeva Nabat Cumay qızının şəxsi işi

ADPU-nun Arxivi. Abbaszadə Eldar Cəfər oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Ağamirov Mirmusa Haşım oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Ağamirov Midhəd Mirmusa oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Ağayev Bəylər Əbdülrəhim oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Ağayev Həşim Nizam oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Ağayev Şövqi Süleyman oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Axundov Soltansəlim Həsən oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Allahverdiyev Nizaməddin Nurməmməd oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Aslanov Səlvər Riza oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Bağırov Quşdan Əmikişi oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Baxşəliyev Yafəs Rəsul oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Balayev Məhəmməd Alı oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Balıyev Həsən Balı oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Bayramov İlyas Oruc oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Bəşirov Bəşir Yusubəli oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Cəfərov Əli Səttar oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Cəfərov İsgəndər Həsən oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Dəmirçizadə Əbdüləzəl Məmməd oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əhmədov Bəşir Abbas oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əhmədov Hüseyn Mustafa oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əliyev Mikayıl Muxtar oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əfəndiyeva Türkan Əşrəf qızının şəxsi işi

ADPU-nun Arxivi. Əhmədov Nazim Hüseyn oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Ələkbərov Məmməd Həmid oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əliyev Özbək Misirxan oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əliyev Rəcəb Yaqub oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əliyev Rəhim İbrahim oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əliyev Sadıx Yusif oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Əliyev Şixbala Əbülfəz oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Əlizadə Əbdül Əli oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Əliyeva Tamuris Nağı qızının şəxsi işi
ADPU-nun Arxivi. Əmirov Hüseyn Teymur oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Əzimov Hacıbaba Sadıx oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Fərəcov Əli Abbas oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Fərhadov Fərhad Qulam oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Fətəliyev Xəlil Qənimət oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Hacıyev Abbas Məhəmməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Hacıyev Aydın Cəfər oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Hacıyev Cəfər Xəndan Zeynal oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Haqverdiyev Baba Aqil oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Həkimov Mürsəl İsmayıl oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Haqverdiyev Şərif Allahverdi oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Həsənov Ağahüseyn Məhəmmədhüseyn oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Həsənov İsmayıl Mamedoviçin şəxsi işi
ADPU-nun Arxivi. Həsənov Şahəli Gülmalı oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Həşimov Ələsgər Mahmud oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Həşimov Həşim İsaq oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Hüseynov Balaxan Qaraxan oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Hüseynov Kamal Dadaş oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Hüseynov Novruz İmamqulu oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Xəlilov Səlahəddin Sədrəddin oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Xalisbəyli Tağı Teymur oğlunun şəxsi işi
ADPU-nun Arxivi. İbrahimov Cəfər Məmməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. İbrahimov İbrahim İbiş oğlunun şəxsi işi
ADPU-nun Arxivi. İmanov Sədi Şəmsəddin oğlunun şəxsi işi
ADPU-nun Arxivi. İmranov Beykəs Həbibulla oğlunun şəxsi işi
ADPU-nun Arxivi. İsmayılov Abbas Məhəmməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. İsmayılov İbrahim İsa oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Kazımov Qəzənfər Şirin oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Kərəmov Nurəddin Kərəmzadə oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Kazımov Nurəddin Mustafa oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Kərimov Ələkbər Məcid oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Komarovski Boris Borisoviçin şəxsi işi
ADPU-nun Arxivi. Köçərli Xəlil Süleyman oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Kərimov Aben Nəsir oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Qafarova Roza Zeynal qızının şəxsi işi
ADPU-nun Arxivi. Qarayev Rasim Şirin oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Qasımzadə Feyzulla Səməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Qayıbov Tələt Dənyarbəy oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Qədirov Həmid Musa oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Quliyev Arif Mehdi oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Quliyev Bəkir Bahadur oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Quliyev Cahid Süleyman oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Quliyev Rövşən Rasim oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Quliyev Sabir Dadaş oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Qurbanov Afad Məhəmməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Qüdrətov Dərgah Humay oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Landesman Pyotr Abramoviçin şəxsi işi
ADPU-nun Arxivi. Mehdizadə Mehdi Məmməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Mehdizadə Zəkəriyyə Məmməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Məmmədov Əli Mahmud oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Məmmədov Xeyrulla Qulam oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Məmmədov Məmməd Mahmud oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Məmmədov Süleyman Abbas oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Mirzəyev Həsən İbrahim oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Mirzəyev Pullu Səməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Muradxanov Mərdan Əsədulla oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Musayev Vəli Mustafa oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Mustafayev Mustafa Qasım oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Nərimanov Nəriman Həmid oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Nəsibov İsmayıl Osman oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Orucov Qardaşxan Əliməmməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Paşayev Əmrulla Xammməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Paşayev Nəzər Abdulla oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Paşayev Süleyman Şükür oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Rəcəbov Rafiq Əbdül oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Rəfili Mikayıl Həsən oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Rəsulov Məcid Lətif oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Rüstəmov Əbülfət Həbib oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Rzabəyli Fətulla bəy Əziz oğlunun şəxsi işi

ADPU-nun Arxivi. Tağızadə Zeynal Xuduş oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Tahirov Arif Tahir oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Talıbov Yusif Rəhim oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Tarverdiyev Ramazan Baxşəli oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Sadıxlı Həsən Əhliman oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Sadıqov Nüsrət Abdulla oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Sadıqov Şükür Əli oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Sadıxov Sadıx Nəcəfalı oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Salahov Əbdüləziz Əbdül oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Salahov Mehdi Nəcəf oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Sayılov Cəmil İsfəndiyar oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Səfərov Rza İbrahim oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Şahmirov Əbdürrəhman Şahmir oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Şahtaxtinski Həbibulla Baxşəli oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Seyidov Əhməd Yusif oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Şirinov Aydın Əhməd oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Şükürov Əlisa Cəbrayıl oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Verdizadə Allahverdi Əmənullah oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Vəkilov Mehdixan Yusif oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Vəkilov Şamil İsmayıl oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Vəliyev Xostan Ələsgər oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Yəqubi Əsəd Rza oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Yusifov Yusif Bəhlul oğlunun şəxsi işi
ADPU-nun Arxivi. Zeynalov İbrahim İsmail oğlunun şəxsi işi

Ağayev Ə. Xalq maarifinə həsr edilmiş ömür. "Azərbaycan müəllimi" qəzeti, 21 yanvar 1983-cü il

Akademik Mehdi Mehdizadə ömrünün işığı. (Nəşrə hazırlayanlar: prof. **V.Xəlilov, H.Musayev**). "Nərgiz", 2012

Akademiya simalarda (1945-2015). Bakı: 2015

Aqil Qasım oğlu Salayev. Nekroloq. "Gənc müəllim" qəzeti, 10 aprel 1973

Ali Pedaqoji İnstitutun salnaməsi (Transliterasiya, tərtib və ön sözün müəllifi **prof. F.A.Rüstəmov**). Bakı: Elm və təhsil, 2020, 176 s.

Azərbaycan Ali Pedaqoji İnstitutu (Transliterasiya, tərtib və ön sözün müəllifi **prof. F.A.Rüstəmov**). Bakı: Elm və təhsil, 2020, 144 s.

Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqoji İnstitutu (1931-1981). Bakı, Maarif,1981

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Arxivi. f.1,siy.1, sax. vah.3, v.62

Azərbaycan Elmlər Akademiyası. Bakı: Cabah,1995, 367 s.

Azərbaycan Milli Ensiklopediyası. Xüsusi cild. Bakı: AME, 2007

Azərbaycan pedaqoji antologiyası. 3 cilddə. II c. (XIX əsr-XX əsrin əvvəlləri). (Tərtib edəni və çapa hazırlayanı: akademik **Hüseyn Əhmədov**). Bakı, 2011

Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. f.1, siyahı 4, iş. 936, v.94

Azərbaycan Respublikası Dövlət Arxivi. f.167, siyahı, 2, sax.siy.209

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1., saxlama siyahısı 8, iş 4065 (Hüseyn Məmməd oğlu Musayevin şəxsi işi).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,siyahı 26, sax. vah.713

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,saxlama siyahısı 7, iş 3389 (Cəlil Məmmədzadənin şəxsi işi).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,saxlama siyahısı 8, iş 1182 (Məmməd Abbas oğlu Bayramovun şəxsi işi).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1., siyahı 8, iş 2830 (Qasımov Pənah Ələkbər oğlunun şəxsi işi).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1., saxlama siyahısı 8, iş 4686 (Mirzə Davud Məsim oğlu Rəsulzadənin şəxsi işi)

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,siyahı 25, iş 2564 (Əliyev Camal Əhməd oğlunun şəxsi işi).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,siyahı 74, 6 hissə, gizli saxlama 25 (APİ-nin direktorları ilə bağlı)

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1., siyahı 126, iş 71, v.246 (C.Ə.Əliyevin APİ-nin rektoru vəzifəsindən azad edilməsi ilə bağlı Azər.KP MK bürosunun 11 mart 1940 –cı il qərarı)

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,siyahı 26, iş 713, v.246 (Həşimov Ələsgərin APİ-yə rektor təyin edilməsi haqqında Azərb. KP MK bürosunun 11 mart 1940-cı il qərarı).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,siyahı 34, sax/ vahidi 1237 (Həşimov Mirələsgər haqqında anonim məktublar).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,siyahı 26, iş 713, v.246 (Həşimov Mirələsgərin Azərb.K(b)P MK yanında partiya kurslarının direktoru olması haqqında)

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi.f.1.,saxlama siyahısı 31, iş 432 (Ə.Seyidovun RSFSR Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvlüyünə namizədliyinin müzakirəsi).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1.,saxlama siyahısı 29, iş 6, v.89 (Cəbrayıl Ağaəli oğlu Ələsgərovun Azərbaycanin Xalq Maarif Komissarının müavini təyin olunması haqqında Azərbaycan KP MK Bürosunun qərarı. 5-7 yanvar, 1944, Protokol № 334)

Azərbaycan Respublikası Təhsil İnstitutunun Arxivi. Boris Borisoviç Komarovskinin şəxsi işi

Azərbaycan Respublikası Təhsil İnstitunun Arxivi. Rəsulzadə Mirzə Davud Məsim oğlunun şəxsi işi

Azərbaycan Respublikası Təhsil Nazirliyi. Xalq Təhsili Muzeyi.f.167, siy.2, sax.vah. 209, 20 v

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xalq Təhsili Muzeyi. (Hüseyn Məmməd oğlu Musayevin şəxsi işi).

Azərbaycan Sovet Ensiklopediyası. I-IX cildər. Bakı: ASE-nin Baş redaksiyası.1976 -1987

Azərbaycanın coğrafiyaçı alimləri. Bakı: «Elm», 2013, 204 s

Baxşəliyev Ə. Psixologiya tarixi oçerkləri.Bakı,Elm,2012, s.350-358

Bakı Dövlət Universitetinin professorları.(Layihənin rəhbəri: **prof. A.Məhərrəmov**). Bakı: "Bakı Universiteti", 2014, 447 s.

Bakı Slavyan Universitetinin Arxivi. Ələsgər Mahmud oğlu Həşimovun şəxsi işi

Bakı Slavyan Universitetinin Arxivi. Boris Borisoviç Komarovskinin şəxsi işi

Cəbrayılbəyli C. Pənah Qasımov.// "Azərbaycan müəllimi" qəzeti, 22 noyabr 1959-cu il

Cəfər Xəndan Hacıyev. Biblioqrafiya.Bakı: BDU,2010

Cəlil Məmmədzadə (nekroloq).// "Kommunist" qəzeti, 8 iyun 1934

Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi. Qasımov Pənah Ələkbər oğlunun şəxsi işi

Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi. Məmməd Abbas oğlu Bayramovun şəxsi işi

Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi. Mirzə Sultan oğlu Məmmədovun şəxsi işi

Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi. Mirzə Davud Məsim oğlu Rəsulzadənin şəxsi işi

Əhmədov H. Pedaqogika elminin görkəmli tədqiqatçısı // "Azərbaycan məktəbi" jurnalı, 1988, №1, s.58-62

Əhmədov H., Həmidov S. 100 yaşlı Qarğabazar məktəbi. Bakı: Maarif, 1983, s.31-32

Əhmədli S., Babanlı R. Qazax mahalının alimləri. Bakı: Günəş MMC, 2017, 512 s.

Əliyev R.C. Akademik Mehdi Mehdizadənin pedaqoji fəaliyyəti və pedaqoji görüşləri. Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın avtoreferat, Bakı 2007

Əliyev R.İ. Psixologiya tarixi.Bakı, Elm və təhsil, 2006

Əliyev R.Y., Əzizov Ə.T. Kimyanın tədrisi metodikası.Bakı,2005, 368 s.

Əliyeva L.İ. Neft-Kimya Prosesləri İnstitutunun alimləri:bioqrafik portret, elmə və təhsilə töhfələr.Bakı: Müəllim, 2019, 240 s.

Əliyeva N., Quluzadə N., Məmmədov E. Davud bəy Şərifov. Kitab-albom. Bakı:Elm və Təhsil, 2017, 60 s.

Əmiraslanov Ə., İslamzadə F. Azərbaycan Tibb Universiteti. Bakı:Təbib,2000, 376 s.

Ələsgərov C. Görkəmli maarif xadimi //"Azərbaycan məktəbi" jurnalı, 1966, № 6,

Əsgərov Ə. Cəfər Xəndan dünyası, yaxud unudulan bir rubrikanın işığında.//"525-ci qəzet". 6 yanvar 2016

Hacıyev H. Mənim tələbəlik illərim // "Gənc müəllim" qəzeti, 26 fevral 1973-cü il

Hacıyev M. Görkəmli pedaqoq, nəcib insan, əsl vətəndaş // "Gənc müəllim" qəzeti, 30 oktyabr 1971

Həşimov A., Qasımov R. Şərəfli alim ömrü (Akademik Abdulla Qarayev haqqında) // "Respublika" qəzeti, 9 iyul 2020

Hüseynov Ə. Məmməd Rəşid oğlu Əfəndiyev// Fizika-riyaziyyat tədrisi məcmuəsi, 1957, I buraxılış

Hüseynov Ə.M., Babayev M.Ş. Məşhur biologiya alimləri.Bakı: Maarif, 1991, 144 s.

Hüseynov Ə., Cavadov M. Sovet Azərbaycanında riyaziyyat elminin inkişafı (1920-1950-ci illər). Bakı: Azərnəşr, 1962

Xalq Təhsili Muzeyi. Mehdizadə Mehdi Məmməd oğlunun şəxsi işi

Xalq Təhsili Muzeyi. Ələkbərov Məmməd Həmid oğlunun şəxsi işi

Xalq Təhsili Muzeyi. Muradxanov Mərdan Əsədulla oğlunun şəxsi işi

Xudiyev Nizami Manaf oğlu. Biblioqrafiya.Bakı: Elm,2002

İbrahimbəyov F. Seçilmiş elmi əsərləri və haqqında xatirələr. Bakı: Mütərcim, 2017, 512 s.

İzmayılov Ə.E. Alimin yubileyi //Azərbaycan məktəbi, 1983, № 5, s.55-62

İnstitutumuzun ilk rektoru. //"Gənc müəllim", 26 fevral 1973

Kərimov M., Hacıyev A. Elmi məktəbi və təşkilatçılığı ilə tanınan alim. (AMEA-nın müxbir üzvü,prof.Y.Məmmədov haqqında). //"Azərbaycan"qəzeti, 2 yanvar 2010-cu il

Qurbanov A. Azərbaycan elm və mədəniyyət xadimləri. Biblioqrafiya. Bakı: Elm, 2006

Qurbanov A., İbrahimov B. Azərbaycan dilçiləri. Bakı: Elm,1970

Maqsudov F.Q., Abdullazadə F.H. Riyaziyyat və riyaziyyatçılar. Bakı, "Gənclik", 1981,156 s.

Mehrabov A., Abbasov Ə. Görkəmli riyaziyyatçı alim.// "525-ci qəzet", 6 fevral 2010-cu il

Məhərrəmov A. Azərbaycan kimyaçıları. Bakı: Bakı Universiteti, 2017, 496 s.

Məmmədov A. Xatirələrdə yaşayan ömür. //"Gənc müəllim" qəzeti, 30 iyun 1991

Məmmədov O. Riyaziyyat elminin yaradıcıları haqqında.Bakı: "Maarif,-1991, 112 s.

Məmmədov Y. Azərbaycan Dövlət Pedaqoji Universiteti-90.Bakı:Təhsil, 2011,432 s.

Məmmədova A. Professor Əhməd Seyidov və Azərbaycanda pedaqoji elminin inkişafı. Bakı: Elm və təhsil, 2018

Mərdanov M. Azərbaycan riyaziyyatçıları. Bakı:Elm və təhsil, 2019, 496 s.

Mərdanov M. Azərbaycan təhsil tarixi. I cild. Bakı:Təhsil, 2011, 211 s.

Mərdanov M. Azərbaycan təhsil tarixi.II cild. Bakı: Təhsil, 2011, 704 s.

Mərdanov M. Azərbaycan təhsil tarixi. III cild.Bakı: Təhsil, 2011, 672 s.

Mərdanov M. Azərbaycan təhsil tarixi.IV cild. Bakı: Təhsil, 2011, 912s.

Mərdanov M. Azərbaycanın təhsil nazirləri. Bakı: Şərq-Qərb, 2010.

Mərdanov M. Mehdi Əliyev: tanınmış təhsil təşkilatçısı, böyük müəllim//"Azərbaycan məktəbi" jurnalı, 2012, № 5, s.10-16

Mərdanov M. Təhsilimizin nurlu siması // "525-ci qəzet", 26 yanvar, 2018

Mərdanov M., Rüstəmov F. Görkəmli elm xadimi akademik Yusif Məmmədov // "Respublika" qəzeti, 23 yanvar 2020

Mehdixan Yusif oğlu Vəkilov-70. "Gənc müəllim" qəzeti, 28 iyun 1973

Mehdixan Vəkilovun nekroloqu. //"Kommunist" qəzeti, 21 oktyabr 1975

Mirzəyev Bəhram Rüstəm bəy oğlu. **Ənvər Çingizoğlu.** Mirzəyevlər. Soy dərgisi, Bakı, 2008, 8 (16), səh.17-27.

Mirzəyeva N. Rəşid Şəfəq: həyatı və yaradıcılığı. Bakı,"MBM",2010, 120 s.

Muxtar Əliş oğlu Həmzəyevin həyat və fəaliyyəti haqqında biblioqrafik məlumat.Bakı:Çaşıoğlu,1999, 140 s.

Mustafayeva D. Görkəmli maarifpərvər müəllim Həbibbəy Mahmudbəyov // "Azəbaycan məktəbi" jurnalı, 1961, № 6

Pedaqoji elmlər doktoru, professor,Əməkdar elm xadimi Fərrux Abbas oğlu Rüstəmov. Biblioqrafiya. (tərtib edənlər:**prof.R.Əliyev, prof.İ.İsayev, dos.H. Cəfərov, O.Rüstəmov**).Bakı:Elm və təhsil, 2016, 271 s.

Rüstəmov F.A. Azərbaycan pedaqogikaşünaslığı. Bakı:Elm və təhsil, 2016, 888 s.

Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları. Bakı:: Elm və təhsil, 2019, 304 s.

Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi.Bakı:Elm və təhsil, 2021, 186 s.

Rüstəmov F.A. ADPU-nun Pedaqoji fakültəsinin professor-müəllim heyətinin əsərlərinin biblioqrafiyası. Bakı:Elm və təhsil, 2011, 248 s.

Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsi. Bakı: Elm və təhsil, 2021, 152 s.

Rüstəmov F.A. Akademik Hüseyn Əhmədov və yetirmələri.Bakı:ABU, 2004, 202 s.

Rüstəmov F.A. Pedaqoji oçerklər: sələflərim və müasirlərim.Bakı:Elm və təhsil, 2010, 344 s.

Rüstəmov F.A. Pedaqogika kafedrasının tarixi:sələflər və xələflər. Bakı, Nasir, 1999, 135 s.

Rüstəmov F. Pedaqoji Universitetin direktoru Cəlil Məmmədzadə kimdir? I-II-III məqalə.// "Qarabağa aparan yol" qəzeti,18,25 aprel, 8 may 2019

Rüstəmov F. Alim ömrü (prof.Ramiz Əliyev haqqında) //Azərbaycan müəllim, 29 noyabr 2019

Rüstəmov F., Rzayev R. İstedadlı alim, görkəmli elm və təhsil təşkilatçısı. //"Azərbaycan müəllimi" qəzeti, 22 yanvar 2010-cu il

Rüstəmov İ. Fəlsəfi təfəkkürlü görkəmli psixoloq alim Fuad İbrahimbəyov haqqında düşünərkən. //"Respublika"qəzeti, 9 iyul 2020

Rzayev A. Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişaf tarixindən. Bakı, Azərnəşr, 1960

Sadıqov Ş., Əzimov H., Salahov M. V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu 50 ildə. Bakı, 1972, s.14-30

Seyidov Ə. Biblioqrafiya (tərtib edəni H.Musayev). Bakı: 1990

Seyidov F. Aslanbəylidən başlanan xatirələr. Bakı:2000

Səmədov Z. İqtisadi tərəqqiyə həsr edilən ömürlər.Bakı: 2002

Şükürov A.Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı: Səda, 396 s.

Tahirzadə Ə.,Tahirli O. Azərbaycan Cümhuriyyəti tələbələri. Bakı: 2016, 1222 s.

Tanrıverdi Ə.Türkologiyamızın Afad Qurbanovu. Bakı: "İmak", 2018, 244 s.

Teyyub Qurban.Düşmənlərindən güclü şəxsiyyət. Bakı: Şirvannəşr, 2006

Аббасов Э.М. Неизвестные страницы истории Бакинского ГосударственногоУниверситета // Вопрос истории, 2018, № 8, стр. 70-86

Ашнин Ф.Д., Алпатов В.М., Насилов Д.М. Репрессированная тюркология. М., 2002.

Керимова Т.С. Из истории Национальной Академии наук Азербайджана. Баку, «Тахсил», 2005, 568 с.

Марданов М, Асланов Р. Предшественники современной математики Азербайджана. Москва, 2016, с. 304-305

Научные работники Азербайджана. Справочник. Баку, 1927

Mündəricat

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....5
Cəfərov Cəfər. ADPU-nun elmi- pedaqoji elitası (Ön söz)..... 7
Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.....19
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəxri doktor və professorları 67
Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları
Filologiya fakültəsi.....73
Tarix və coğrafiya fakültəsi.....195
Riyaziyyat fakültəsi.....325
Kimya və biologiya fakültəsi.....377
Məktəbəqədər təhsil fakültəsi.....435
Fizika fakültəsi.....452
İncəsənət və fiziki tərbiyə fakültəsi.....489
İbtidai təhsil fakültəsi.....503
ADPU-nun Şəki filialı.....515
Son söz əvəzi.....518
Ad göstəricisi.....521
İstifadə edilmiş ədəbiyyat.....533

FƏRRUX ABBAS OĞLU RÜSTƏMOV

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN PROFESSORLARI
Bakı-2021

Redaktor: dos. Ərəstun Mehdiyev
Dizayner: Əmiraslan Zaliyev
Texniki redaktor: Aynur Abıyeva
Korrektor: Elnarə Mirzəli

Yığılmağa verilmişdir: 05.10.2021
Çapa imzalanmışdır: 19.11.2021
Fiziki çap vərəqi formatı: 64x90 $^{1}/_{16}$
Fiziki çap vərəqi sayı: 34
Tiraj: 500

Azərbaycan Dövlət Pedaqoji Universiteti nəşriyyatında çapa hazırlanıb, "İnci Group Companies" QSC mətbəəsində hazır fayldan ofset üsulu ilə çap olunub.